AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQ MƏDƏNİYYƏTİ

BAKI – 2023

ELMİ REDAKTORU: **Muxtar KAZIMOĞLU-İMANOV**
AMEA-nın həqiqi üzvü

TƏRTİBÇİ: **Fidan Atakişi qızı QASIMOVA**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti. Bakı, Elm və təhsil, 2023, 324 səh.

Kitab 15 may 2023-cü il tarixində AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə keçirilən **"Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti" mövzusunda** Respublika Elmi Konfransının materialları əsasında hazırlanmışdır.

folklor.az

© Folklor İnstitutu, 2023

Kitab
Ümummilli Lider Heydər Əliyevin
anadan olmasının 100 illiyinə həsr olunur.

AZƏRBAYCAN RESPUBLİKASINDA 2023-CÜ İLİN "HEYDƏR ƏLİYEV İLİ" ELAN EDİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət

həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 29 sentyabr 2022-ci il

I BÖLMƏ

HEYDƏR ƏLİYEVİN FOLKLORLA BAĞLI SƏRƏNCAM VƏ ÇIXIŞLARINDAN ÖRNƏKLƏR

“AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASI QANUNUNUN TƏTBİQ EDİLMƏSİ BARƏDƏ

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

“Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, bir ay müddətində:

qüvvədə olan qanunvericilik aktlarının “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

Nazirlər Kabinetinin və müvafiq icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının prezidentinə məlumat versin;

“Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanununun pozulmasına görə məsuliyyət növlərini müəyyən edən qanunvericilik aktının layihəsini hazırlayıb Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

həmin Qanunun 5.2-ci və 9.2-ci maddələrində nəzərdə tutulmuş “müvafiq icra hakimiyyəti orqanı”nın səlahiyyətlərini həyata keçirən icra hakimiyyəti orqanına dair təkliflərini Azərbaycan Respublikasının prezidentinə təqdim etsin;

öz səlahiyyətləri daxilində “Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında” Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

Heydər ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 4 avqust 2003-cü il
№ 1305

AZƏRBAYCAN FOLKLORU NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun Azərbaycanın mədəni irsinin tərkib hissəsi olan milli folklor nümunələrinin əqli mülkiyyətin xüsusi növü kimi hüquqi qorunması, istifadəsi və müdafiəsinin təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir.

I FƏSİL

ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Əsas anlayışlar**

1.0. Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.0.1 Azərbaycan folkloru nümunələri (bundan sonra – folklor nümunələri) – Azərbaycan xalqı, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, Azərbaycan xalqının ənənəvi-bədii dəyərlərini, dünyagörüşünü, ümid və arzularını, bədii irsin xarakterik xüsusiyyətlərini özündə əks etdirən, şifahi şəkildə yaradılan söz sənəti nümunələri, xalq musiqisi, oyunları və rəqsləri, xalq sənətkarlığı və tətbiqi sənət nümunələri (maddi formada olanlar və olmayanlar), eləcə də digər xalq yaradıcılığı nümunələri;

1.0.2. folklor nümunələrinin hüquqi qorunması – folklor nümunələrinin hər hansı qeyri-qanuni istifadədən və onlara zərər vuran digər hərəkətlərdən qorunması;

1.0.3. folklor nümunələrindən qeyri-qanuni istifadə folklor nümunələrindən istifadəyə dair bu Qanunla müəyyən edilən tələblərin pozulması;[1]

1.0.4. folklor nümunələrinə zərər vuran hərəkətlər – folklor nümunələrindən bu Qanunla müəyyən edilən istifadə hallarında onun mənbəyinin, həmçinin yarandığı yerin coğrafi adının və (və ya) mənsub olduğu xalqın (cəmiyyətin) adının dəqiq göstərilməməsi;

1.0.5. folklor nümunələrindən ənənəvi istifadə – təbii mahiyyət, məzmun və forma xüsusiyyətləri saxlanılmaqla folklor nümunələrindən cəmiyyətin uzunmüddətli təcrübəsinə əsaslanan istifadə;

1.0.6. folklor nümunələrindən adi istifadə – folklor nümunələrindən cəmiyyətin gündəlik tələbat və ehtiyaclarına uyğun istifadə;

1.0.7. folklor nümunələrindən ənənəvi və adi olmayan istifadə – folklor nümunələrinin təbii mahiyyət, məzmun və ya məqsəd, təyinat və bədii formasının dəyişdirilməsi ilə istifadə;

1.0.8. folklor nümunələrindən kommersiya məqsədi ilə istifadə – gəlir götürmək məqsədi ilə folklor nümunələrinin dərc olunması, surətinin çıxarılması, nüsxələrinin yayılması,

kütləvi deklamasiyası və ifası, efirlə və ya kabellə verilməsi, habelə kütləyə çatdırılmaq üçün hər hansı kütləvi bildiriş formasında istifadə.

Maddə 2.**Qorunan folklor nümunələri**

2.1. Bu Qanunda qorunan folklor nümunələri bədii xalq yaradıcılığı, xalq sənətkarlığı və tətbiqi sənət nümunələrindən ibarət olan aşağıdakı əsərlərdir:

2.1.1. bədii söz sənətinə aid olan əmək, mərasim və uşaq folkloru nümunələri, miflər, əfsanələr, rəvayətlər, nağıllar, dastanlar, lətifələr, xalq dramları, atalar sözləri, zərbi-məsəllər, tapmacalar, xalq və aşıq poeziyası nümunələri, bayatılar və başqa şifahi söz nümunələri;

2.1.2. xalq mahnıları və rəqs melodiyaları, xalq-professional musiqisinə aid aşıq havaları, muğam-dəstgahlar, zərbi-muğamlar, təsniflər, rənglər və başqa folklor musiqisi nümunələri;

2.1.3. xalq rəqsləri, yallılar, oyunlar, mərasim və bayramlar və başqa hərəkətli nümunələr;

2.1.4. duyulan tətbiqi sənət və xalq sənətkarlığı nümunələri, o cümlədən qrafik sənət-şəkillər, rəsmlər, silsilə təsvirlər, kölgə rəsmləri, döymə və oyma işləri, heykəltəraşlıq, keramika, gil məmulatı, mozaika, metal üzərində işləmə, mis və bürünc tökmə məmulatları, ipəkçilik, xalçaçılıq, misgərlik, zərgərlik, dabbaqçılıq, tikmə, səbəthörmə sənəti işləri, gəbələr, butalar, geyimlər kimi folklor sənəti nümunələri, ornamentlər, naxışlar, musiqi alətləri, xarratlıq, memarlıq işləri və bu qəbildən olan başqa nümunələr.

2.2. Bu qanunun 2.1-ci maddəsində göstərilən qorunan folklor nümunələrinin yaranması zamanla və məkanla məhdudlaşmır, yeni yaranan folklor nümunələri də qorunanların sırasına daxil edilir və onların hüquqi qorunması müddətsizdir.

Maddə 3. **Folklor nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

3.1. Folklor nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, digər normativ hüquqi aktlardan və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

3.2. Bu Qanunla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq olunur.

Maddə 4. **Qanunun tətbiq sahəsi**

Bu Qanun Azərbaycan xalqı, onun ayrı-ayrı fərdləri tərəfindən yaradılan və qorunub saxlanılan, bu Qanunun 2-ci maddəsində göstərilən folklor nümunələrinə şamil edilir.

Maddə 5. **Folklor nümunələrinin hüquqi qorunması sahəsində dövlət siyasətinin əsas istiqamətləri**

5.1. Folklor nümunələrinin hüquqi qorunması sahəsində dövlət siyasətinin əsas istiqamətləri aşağıdakılardır:

5.1.1. folklor nümunələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi və gələcək nəsillərə çatdırılması;

5.1.2. folklor nümunələrinin hüquqi qorunmasını təmin edən qanunvericilik bazasının yaradılması;

5.1.3. Azərbaycan xalqına məxsus folklor nümunələrinin xarici dövlətlərin ərazilərində hüquqi qorunması məqsədi ilə beynəlxalq əməkdaşlığa şərait yaradılması.

~~5.2. Folklor nümunələrinin hüquqi qorunması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı öz səlahiyyətləri çərçivəsində:~~[2]

~~5.2.1. beynəlxalq təcrübəyə uyğun olaraq mövcud qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər hazırlayır;~~

~~5.2.2. folklor nümunələrinin hüquqi qorunması üzrə beynəlxalq təşkilatlarda Azərbaycan Respublikasını təmsil edir və bu sahədə əməkdaşlığı təşkil edir;~~

~~5.2.3. folklor nümunələrindən istifadəyə bu Qanunla qoyulan tələblərin pozulması hallarında dövlətin maraqlarını təmsil və müdafiə edir.~~

II FƏSİL

FOLKLOR NÜMUNƏLƏRİNDƏN İSTİFADƏ QAYDALARI

Maddə 6. **Folklor nümunələrindən istifadəyə tələblər**

6.1. Folklor nümunələrindən Azərbaycan Respublikası ərazisində ənənəvi və adi, o cümlədən kommersiya məqsədi ilə istifadə formaları sərbəstdir.

6.2. Folklor nümunələrindən ~~kommersiya məqsədi ilə~~ ənənəvi və adi olmayan istifadə zamanı hər hansı formada dərc olunması, surətinin çıxarılması və nüsxələrin yayılması, hər hansı kütləvi deklamasiya və ya ifa, *televiziya və radio proqramlar*, habelə kütləyə çatdırılma məqsədi ilə hər hansı digər kütləvi bildiriş formalarında onların təbii mahiyyət və məzmununa xələl gətirməməklə, məqsədi, təyinatı və bədii forması dəyişdirilə bilər.[3]

6.3. Digər dövlətlərin hüquqi və fiziki şəxsləri Azərbaycan Respublikasının hüdudlarından kənarda folklor nümunələrindən kommersiya məqsədi ilə yalnız müvafiq icra hakimiyyəti orqanının *yaratdığı qurumun* icazəsi əsasında və istifadəyə görə haqq ödəməklə istifadə edə bilərlər. Həmin vəsait müvafiq icra hakimiyyəti orqanının *yaratdığı qurumun* hesabına köçürülür və əqli yaradıcılığın həvəsləndirilməsinə, habelə folklor nümunələrinin qorunub saxlanmasına və zənginləşdirilməsinə sərf olunur.[4]

6.4. Digər dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının hüdud-

larından kənarda folklor nümunələrindən kommersiya məqsədi ilə istifadəsinə icazə verilməsi qaydasını və istifadəyə görə haqqın məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.[5]

Maddə 7. **Folklor nümunələrindən istifadəyə istisnalar**

7.1. Aşağıdakı məqsədlər üçün folklor nümunələrinin istifadəsi ənənəvi və adi olmayan forma kimi qəbul edilmir:

7.1.1. folklor nümunələri orijinal müəllif (müəlliflər) əsərləri yaradılması üçün işləndikdə;

7.1.2. folklor nümunələrindən orijinal müəllif (müəlliflər) əsərində istifadənin məqsədəmüvafiq həcmdə illüstrasiya formasında istifadə edildikdə.

7.2. Folklor nümunələrinin aşağıdakı təsadüfi istifadə formaları ənənəvi və adi olmayan hesab edilmir:

7.2.1. fotoqrafiya, yayımlanma, səsli yazılma vasitəsilə məlumat verilməsi üçün bu cür istifadənin informasiya məqsədinə lazım olan həcmdə işlədilməsi şərti ilə hər hansı cari hadisə zamanı görülə və eşidilə bilən xalq yaradıcılığı nümunələrindən istifadə edildikdə;

7.2.2. sərbəst giriş üçün daim açıq olan yerlərdə özündə folklor nümunələrini saxlayan obyektlərin təsvirinin fotoqrafiya, film və ya televiziya *proqramına* daxil edilməklə istifadəsi.[6]

Maddə 8. **Folklor nümunələrindən istifadə zamanı mənbənin göstərilməsi**

8.1. Dərc olunmuş bütün əsərlərdə, folklor nümunələrinin kütləvi ifa və bildiriş hallarında onların mənbəyi, həmçinin istifadə olunan folklor nümunəsinin yarandığı yerin coğrafi adı və (və ya) mənsub olduğu xalqın (cəmiyyətin) adı dəqiq göstərilməlidir.

8.2. Folklor nümunələrindən bu Qanunun 7-ci maddəsində göstərilən hallarda istifadə edildikdə 8.1-ci maddənin tələbləri tətbiq edilmir.

Maddə 9.**Folklor nümunələrindən istifadə zamanı hüquq pozuntuları**

9.1. Fiziki və hüquqi şəxslər tərəfindən folklor nümunələrindən istifadə edildikdə aşağıdakı hərəkətlər hüquq pozuntusu hesab edilir:

9.1.1. folklor nümunələrindən istifadə edildikdə təsadüfi və ya bilərəkdən edilməsindən asılı olmayaraq, bu Qanunun 6.2-ci maddəsinin tələblərinin pozulması;

9.1.2. folklor nümunələrindən istifadə edilərkən bilərəkdən və ya ehtiyatsızlıqdan bu Qanunun 8.1-ci maddəsinin tələblərinin pozulması;

9.1.3. birbaşa və ya dolayısı ilə kütləyə çatdırılmış folklor nümunələrini bilərəkdən özününkü kimi qələmə verməklə və ya folklor nümunələrinin yaranma mənbəyinə münasibətdə kütləni yanlış fikrə istiqamətləndirmək və ya onları faktiki mənbəyi olmayan digər ölkənin nümunələri kimi təqdim etməklə, folklor nümunələrindən istifadə;

9.1.4. birbaşa və ya dolayısı ilə kütləyə çatdırılmış folklor nümunələrinin bilərəkdən təhrif olunmaqla, ölkənin mədəni maraqlarına zərər vurulmaqla istifadəsi.

9.2. Folklor nümunələrindən istifadə qaydalarının pozulmasına görə müvafiq icra hakimiyyəti *orqanının yaratdığı qurum* tərəfindən qaldırılan iddia ərizələri əsasında folklor nümunələrindən bu Qanunla nəzərdə tutulan istifadə qaydalarının pozulmasına görə tutulan məbləğlər müvafiq icra hakimiyyəti orqanının *yaratdığı qurumun* hesabına köçürülür və əqli mülkiyyət sahəsində yaradıcılığın həvəsləndirilməsinə, *əqli mülkiyyət hüquqları sahəsində dövlət siyasətinin həyata keçirilməsinin* təmin edilməsinə və folklor nümunələrinin hüquqi qorunmasına yönəldilir.[7]

III FƏSİL

FOLKLOR NÜMUNƏLƏRİNƏ ƏQLİ MÜLKİYYƏT HÜQUQLARININ MÜDAFİƏSİ

Maddə 10. **Mülki-hüquqi müdafiə vasitələri**

10.1. Müvafiq dövlət orqanları folklor nümunələrindən qanuni istifadə qaydalarını pozan və ya pozmaq təhlükəsi yaradan hərəkətlərin dayandırılmasını tələb etmək hüququna malikdirlər.

10.2. Folklor nümunələrinin qorunması məqsədi ilə məhkəməyə müraciət edilərkən, mülki-hüquqi müdafiənin ümumi vasitələrindən başqa, iddiaçının tələbi ilə aşağıdakılar da tətbiq edilə bilər:

10.2.1. pozuntuya yol verən şəxsdən hüquqların pozulması nəticəsində əldə etdiyi gəlirin tutulması;

10.2.2. gəlirin tutulması əvəzinə *yüz on manatdan əlli beş min manatadək* məbləğdə kompensasiya ödənilməsi.[8]

10.3. Cinayət tərkibli pozuntulara qarşı sanksiyalar mülki-hüquqi müdafiə vasitələrinin tətbiqini istisna etmir.

Maddə 11.**Pirat nüsxələr**

Bu Qanunla folklor nümunələrinin istifadəsinə qoyulan tələblərin pozulması ilə hazırlanan (istehsal edilən) və yayılan hər hansı folklor obyekti nüsxələri pirat nüsxələr sayılır və qanunvericilikdə müəyyən olunmuş qaydada müsadirə edilir.[9]

Maddə 12. **Folklor nümunələrindən istifadəyə tələblərin pozulmasına görə məsuliyyət**

Folklor nümunələrindən istifadə zamanı bu Qanunda nəzərdə tutulan tələblərin pozulmasında təqsirli olan şəxslər mülki, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

IV FƏSİL

YEKUN MÜDDƏALARI

Maddə 13.**Xarici dövlətlərdə folklor nümunələrinin hüquqi qorunması**

Xarici dövlətlərin folklor nümunələrinin Azərbaycan Respublikasında, Azərbaycan folklor nümunələrinin xaricdə hüquqi qorunması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən tənzimlənir.

Maddə 14.**Digər qorunma formalarına münasibət**

Bu Qanun müəllif-hüquq qanunvericiliyi, əqli və sənaye mülkiyyətinin digər növləri üzrə folklor nümunələrinə tətbiq oluna bilən, həmçinin folklor nümunələrinin qorunub saxlanılmasına aid digər normativ hüquqi aktlarda və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulan qorunma formalarını məhdudlaşdırmır.

Maddə 15. **Təfsir**

Bu Qanunla müəyyən edilən hüquqi qorunmanın folklor nümunələrinin yaradılmasına və onlardan normal istifadəyə mane olan forma kimi şərh edilməsi yolverilməzdir.

Maddə 16. **Qanunun qüvvəyə minməsi**

Bu Qanun dərc olunduğu gündən qüvvəyə minir.

Heydər ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 16 may 2003-cü il
№ 460-IIQ

İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 27 oktyabr 2009-cu il tarixli **929-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il**)

2. 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 09 iyun 2011-ci il, № 117, “Azərbaycan” qəzeti, 12 iyun 2011-ci il, № 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 6, maddə 462)**

3. 30 aprel 2013-cü il tarixli **638-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 19 may 2013-cü il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 05, maddə 484)**

4. 4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 23 iyun 2018-ci il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1172)**

5. 22 dekabr 2020-ci il tarixli **230-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 8 yanvar 2021-ci il, № 3, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 8)**

6. 17 fevral 2023-cü il tarixli **812-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 8 aprel 2023-cü il, “Azərbaycan” qəzeti, 9 aprel 2023-cü il, № 73)**

QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 09 iyun 2011-ci il, № 117, “Azərbaycan” qəzeti, 12 iyun 2011-ci il, № 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 6, maddə 462)** ilə 1.0.3-cü maddədə “**kommersiya məqsədi ilə ənənəvi və adi olmayan istifadə hallarında**” sözləri “**istifadəyə dair”** sözləri ilə əvəz edilmişdir.

[2] 4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 23 iyun 2018-ci il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1172)** ilə 5.2-ci maddə ləğv edilmişdir.

[3] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 09 iyun 2011-ci il, № 117, “Azərbaycan” qəzeti, 12 iyun 2011-ci il, № 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 6, maddə 462)** ilə 6.2-ci maddədən “**kommersiya məqsədi ilə**” sözləri çıxarılmışdır.

17 fevral 2023-cü il tarixli **812-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 8 aprel 2023-cü il, “Azərbaycan” qəzeti, 9 aprel 2023-cü il, № 73)** ilə 6.2-ci maddədə “**efirlə və ya kabellə verilişlər**” sözləri “**televiziya və radio proqramlar**” sözləri ilə əvəz edilmişdir.

[4] 4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 23 iyun 2018-ci il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1172)** ilə 6.3-cü maddənin birinci və ikinci cümlələrinə “**orqanının**” sözündən sonra “**yaratdığı qurumun**” sözləri əlavə edilmişdir.

[5] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 09 iyun 2011-ci il, № 117, “Azərbaycan” qəzeti, 12 iyun 2011-ci il, № 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 6, maddə 462)** ilə yeni məzmunda 6.3-cü və 6.4-cü maddələr əlavə edilmişdir.

[6] 17 fevral 2023-cü il tarixli **812-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı, 8 aprel 2023-cü il, “Azərbaycan” qəzeti, 9 aprel 2023-cü il, № 73)** ilə 7.2.2-ci maddədə “**verilişinə**” sözü “**proqramına**” sözü ilə əvəz edilmişdir.

[7] 17 may 2011-ci il tarixli **124-IVQD** nömrəli Azərbaycan Respublikasının **Qanunu (“Respublika” qəzeti, 09 iyun 2011-ci il, № 117, “Azərbaycan” qəzeti, 12 iyun 2011-ci il, № 126, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 6, maddə 462)** ilə 9.2-ci maddədə “**dövlət büdcəsinə köçürülür və intellektual**” sözləri “**müvafiq icra hakimiyyəti orqanının hesabına köçürülür və əqli**” sözləri ilə əvəz edilmişdir.

4 may 2018-ci il tarixli **1133-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 23 iyun 2018-ci il, № 137, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, №6, maddə 1172)** ilə 9.2-ci maddəyə “**orqanının**” sözündən sonra “**yaratdığı qurumun**” sözləri əlavə edilmişdir və 9.2-ci maddədə “**orqanı**” sözü “**orqanının yaratdığı qurum”** sözləri ilə, “**müəllif hüququ sahəsində dövlət siyasətinin**” sözləri “**əqli mülkiyyət hüquqları sahəsində dövlət siyasətinin həyata keçirilməsinin**” sözləri ilə əvəz.

[8] 22 dekabr 2020-ci il tarixli **230-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 8 yanvar 2021-ci il, № 3, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 1, maddə 8)** ilə 10.2.2-ci maddəsində “**şərti maliyyə vahidinin yüz mislindən əlli min mislinədək**” sözləri “**yüz on manatdan əlli beş min manatadək**” sözləri ilə əvəz edilmişdir.

[9] 27 oktyabr 2009-cu il tarixli **929-IIIQD** nömrəli Azərbaycan Respublikasının **Qanunu (“Azərbaycan” qəzeti, 27 dekabr 2009-cu il, №289)** ilə 11-ci maddəsinin adında "**Kontrafakt**" sözü "**Pirat**" sözü ilə, mətnində "**kontrafakt**" sözü "**pirat**" sözü ilə əvəz edilmişdir.

30 aprel 2013-cü il tarixli **638-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 19 may 2013-cü il, № 108, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 05, maddə 484)** ilə 11-ci maddəsində “**istehsal olunan və ya yayılan**” sözləri “**hazırlanan (istehsal edilən) və yayılan**” sözləri ilə əvəz edilmişdir.

“KİTABİ-DƏDƏ QORQUD” DASTANININ 1300 İLLİYİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ HEYDƏR ƏLİYEVİN FƏRMANI

20 aprel 1997-ci il

Azərbaycan xalqının mühüm tarix və mədəniyyət qaynaqlarından biri olan “Kitabi-Dədə Qorqud” dastanının yaranmasından 1300 il keçir. Oğuz türklərinin tarixini əks etdirən “Kitabi-Dədə Qorqud” yüksək bəşəri ideallar tərənnümçüsü kimi dünya xalqlarının mənəvi sərvətlər xəzinəsinə daxil olmuşdur.

“Kitabi-Dədə Qorqud” dastanının dünya mədəniyyəti və ədəbiyyatı tarixində xüsusi yer tutduğunu, onun yubileyinin Azərbaycan xalqının, bütün türk xalqlarının qədim və zəngin mədəniyyətinin təbliğinə xidmət edən beynəlxalq əhəmiyyətli hadisə olduğunu nəzərə alaraq Azərbaycan xalqının bu möhtəşəm epik əsərinin 1300 illik yubileyinin layiqincə hazırlanması və keçirilməsi məqsədi ilə qərara alıram:

1. “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyası yaradılsın.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi yanında YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasına tapşırılsın ki, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin beynəlxalq səviyyədə qeyd olunmasını təmin etmək məqsədi ilə BMT-nin YUNESKO təşkilatına müvafiq qaydada müraciət etsin.

3. “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi üzrə Dövlət Komissiyasına müvafiq ştat vahidləri ayırmaqla üç nəfərdən ibarət işçi qrup yaradılsın.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmanın icrası ilə bağlı məsələləri həll etsin.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "KİTABİ-DƏDƏ QORQUD" DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ PREZİDENT SARAYI

16 fevral 1999-cu il

Hörmətli xanımlar və cənablar!

Ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra biz azərbaycanlılar öz tariximizi, tarixi keçmişimizi və tariximizdə mövcud olan mühüm hadisələri, mərhələləri yenidən təhlil edirik, tədqiq edirik və onları müstəqillik mövqeyindən daha da obyektiv, doğru-düzgün yazmağa və həm ölkəmizin ictimaiyyətinə, həm də dünyaya çatdırmağa çalışırıq. Bu baxımdan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi xüsusi əhəmiyyətə malikdir. "Dədə Qorqud" dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan ötən dövrdə xeyli iş görülmüşdür. Ancaq hələ görüləsi işlər də çoxdur. Ona görə də biz bu gün yubiley komissiyasının iclasına toplaşmışıq. Məqsəd də görülən işlərə nəzər salmaqdan və onların əsasında bundan sonra görüləcək işlər haqqında müəyyən addımlar atmaqdan ibarətdir. Görüləcək işlər haqqında iş planının layihəsi sizə təqdim olunub. Güman edirəm, onunla tanış ola bilmisiniz. Arzu edərdim ki, müzakirə zamanı öz fikirlərinizlə bərabər, eyni zamanda iş planına münasibət də bildirəsiniz – nəyi qəbul etmək olar, nəyi olmaz, iş planımıza əlavə nəyi salmalıyıq. Hər halda, bu il biz yubiley tədbirlərini sona çatdırmalıyıq. Ona görə də qarşıda həm böyük, həm də çox gərgin iş durur. Bəllidir ki, tariximizin ən parlaq səhifələrindən biri olan "Kitabi-Dədə Qorqud" dastanının yubileyini indi, müstəqil Azərbaycanın müasir şəraitində çox yüksək səviyyədə keçirməliyik. Ona görə də mən bugünkü müzakirədən çox şey gözləyirəm.

YEKUN NİTQİ

Mənə elə gəlir ki, biz tədbirlər planını yetərli müzakirə etdik. İndi biz gərək müəyyən edək. Şübhəsiz ki, bundan sonra görüləsi işlər tədbirlər planında öz əksini tapıbdır və bu əlavələr də olacaqdır. Ancaq bu yubileyin zirvə görüşü, tədbiri bu il olmalıdır. Şübhəsiz ki, onun vaxtını uzatmaq məqsədəuyğun olmaz. Mənə deyirlər, YUNESKO belə bir fikir irəli sürübdür ki, əgər biz bu tədbiri iyun ayında Azərbaycanda keçirsək, YUNESKO-nun rəhbərliyi həmin tədbirdə iştirak edəcəkdir. Gərək indi biz bu tədbirin vaxtını müəyyən edək. İyul ayı bir az isti olur. Bilirsiniz, yubiley tədbirini sentyabr ayında keçirmək daha yaxşı olar. Ancaq həmin vaxt bir sıra digər yubileylərlə üst-üstə düşə bilər. Çünki Osmanlı imperatorluğunun 700 illiyi qeyd ediləcəkdir. Deyəsən, onlar bunu noyabr ayında keçirmək istəyirlər. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü hər il bu dövlətlərdən birində

olur. Bu zirvə görüşü keçən il Qazaxıstanın paytaxtı Astanada oldu. Orada qərar qəbul edildi ki, növbəti zirvə görüşü 1999-cu ildə Azərbaycanda keçirilsin. Ona görə mən belə nəzərdə tuturam ki, "Kitabi-Dədə Qorqud" dastanının yubileyini həmin zirvə görüşü ilə bir vaxtda keçirək. Bir gün "Kitabi-Dədə Qorqud" dastanının yubileyi, o birisi gün zirvə görüşü keçirilsin. Yaxud da əvvəl zirvə görüşü, sonra isə "Kitabi-Dədə Qorqud" dastanının yubileyi olsun ki, türkdilli ölkələrin dövlət başçıları da bu tədbirlərdə iştirak edə bilsinlər. Artıq belə bir ənənə yaranıbdır. Məsələn, "Manas"ın min illiyi yubileyində türkdilli ölkələrin dövlət başçılarının Qırğızıstanda zirvə görüşü oldu. Yaxud da Daşkənddə Əmir Teymurun 660 illik yubileyi idi, eyni zamanda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi. Mən həmin ölkələrin dövlət başçıları ilə danışmışam. Onlar da razıdırlar ki, bu iki tədbir eyni vaxtda keçirilsin.

Bu yubileyin vaxtını təyin etmək lazımdır. Ona görə ki, gərək, birincisi, YUNESKO-nun rəhbərliyi ilə bu barədə danışaq, ikincisi, türkdilli ölkələrin dövlət başçıları ilə bu vaxtı bir də müəyyənləşdirək. Çünki həmin dövlət başçılarının hərəsinin öz proqramı, işi vardır. Gərək vaxtı onlarla da razılaşdıraq. Biz bu yubiley tədbirini iyun ayında keçirməyi nəzərdə tutsaq, onda gərək mən türkdilli ölkələrin dövlət başçıları ilə indidən danışıb onların razılığını alım. Ola bilər, bu tədbirin vaxtı ya iyun, ya da sentyabr ayı olsun. Sentyabrdan sonraya saxlamaq bir az çətindir. Sentyabrda keçirsək, onda biz YUNESKO-nun yüksək səviyyəli heyətindən məhrum olacağıq. Biz bu tədbiri hansı ay keçirsək, həmin tarixi razılaşdırsaq, türkdilli ölkələrin başçıları orada iştirak edəcəklər. Əlbəttə, bu tədbiri iyul və avqust aylarında keçirmək bir qədər çətindir. Biz onu gərək ya iyunda, ya da sentyabrda keçirək. Gəlin belə edək, – mən bu məsələni türkdilli ölkələrin dövlət başçıları ilə müzakirə edim, görüm onlar üçün hansı vaxt əlverişlidir, yararlıdır. Əgər onlar üçün iyun ayı əlverişli olsa, onda bu yubileyi iyunun sonunda, yaxud sentyabr ayını qəbul etsələr, bu tədbiri sentyabrın birinci yarısında keçirmək olar ki, başqa ölkələrdəki tədbirlərlə üst-üstə düşməsin. Gəlin belə danışaq ki, mən bir həftə, on gün ərzində bu məsələni müəyyənləşdirib elan edərəm. Beləliklə, düşünürəm ki, müzakirəni qurtara bilərik.

Çox ətraflı fikir mübadiləsi aparıldı, əhəmiyyətli çıxışlar, yaxşı təkliflər oldu. Hesab edirəm ki, bunların əsasında iş planı daha da genişlənər, konkretləşər, həm "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubiley tədbirlərinin keçirilməsi, həm də bu sahədə gələcək illərdə lazımi işlər görülməsi üçün yaxşı imkanlar yaranar. Fərman imzalanandan sonra indiyə qədər görülən işlər və bugünkü müzakirə onu göstərir ki, biz böyük bir iş başlamışıq. Bu gün bütün çıxışlarda bir daha qeyd olundu ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir. "Kitabi-Dədə Qorqud" dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir.

Məlumdur ki, XX əsrdə Azərbaycan xalqı bir çox tarixi hadisələri yubileylərlə, yaxud başqa tədbirlərlə qeyd edibdir. Ancaq bu gün təəssüflə deyə bilərik ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanın həyatında özünəməxsus yeri indiyə qədər tutmayıbdır. Bunun da səbəbləri məlumdur. Çıxışlarda bu barədə deyildi. Biz ötən dövrdə tariximizi özümüz istədiyimiz kimi yaza bilməmişik. Tariximizin, o cümlədən ədəbiyyat, mədəniyyət tariximizin həmişə ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtilə belə böyük itkilərə gətirib çıxarmışdı. Buna təəssüf etmək olar. Bununla yanaşı, bu gün məmnuniyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanın vətənpərvər alimləri, tədqiqatçıları, yazıçıları, şairləri "Kitabi-Dədə Qorqud" dastanı haqqında öz imkanları dairəsində əsərlər yaratmışlar və "Kitabi-Dədə Qorqud"un tədqiqatı aparılmışdır. Ancaq buna dövlət himayəsi istənilən səviyyədə olmamışdır. Məsələn, 1970-ci illərdə, 1980-ci illərin əvvəlində mən Azərbaycana rəhbərlik etdiyim zaman biz respublikamızın tarixi, keçmişi, ədəbiyyatı, mədəniyyəti haqqında çoxlu tədbirlər həyata keçirdik. Amma mən bu gün açıq deməliyəm ki, "Kitabi-Dədə Qorqud" haqqında heç bir təşəbbüs irəli sürülməmişdir. Mən bu gün bunu qətiyyətlə deyirəm. Əgər belə bir təşəbbüs irəli sürülsəydi, biz bunu müəyyən çərçivədə həyata keçirə bilərdik. Mənim işlədiyim həmin illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin keçirilməsinə Moskvanın müqavimətini, hətta qadağanını hiss etmişdik. Lakin bununla yanaşı, bizim cəhdlərimiz, təkidlərimiz nəticəsində biz o vaxt bir çox tədbirlərin keçirilməsinə nail olmuşduq.

Mən bu gün, bu müzakirə zamanı düşünürəm, – bəs nə üçün "Kitabi-Dədə Qorqud" haqqında heç bir təşəbbüs olmamışdı? Eyni zamanda, özüm belə bir cavab verə bilərəm: yəqin ona görə ki, ümumiyyətlə, bizim Azərbaycanın üzərinə pantürkizm damğası vurulduğuna, Azərbaycanda çox dəyərli insanlar pantürkist adı ilə həbs olunduğuna, repressiyaya məruz qaldığına, əsərlər, kitablar dağıdıldığına görə alimlərimiz, ictimai xadimlərimiz "Kitabi-Dədə Qorqud" haqqında təşəbbüs qaldırmağa bəlkə də cəsarət etməyiblər. Mən bunu belə izah edə bilərəm. Ancaq biz eyni zamanda onu da qiymətləndirməliyik ki, bir çox alimlərimiz, yazıçılarımız bu mövzuya xüsusi fikir vermişlər, əsərlər yaratmışlar və "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycanın həyatında, ədəbiyyatında yaşamış və inkişaf etmişdir. Amma şübhəsiz, bunlar bizim bu gün istədiyimiz səviyyədə – tarixi ədalət səviyyəsində olmayıbdır.

Burada artıq qeyd olundu ki, Həmid Araslının, Məmmədhüseyn Təhmasibin, Əbdüləzəl Dəmirçizadənin və başqa alimlərin yazdıqları əsərlər "Kitabi-Dədə Qorqud" dastanının elmi tədqiqi və geniş təbliğ edilməsi üçün böyük xidmətlər göstərmişdir. Başqa bir çox alimlərin də adını çəkə bilərik. Bizim hörmətli alimlərimiz burada çıxış etdilər və öz tədqiqatları, yazdıqları əsərlər barədə məlumat verdilər. Bunlar hamısı çox qiymətlidir. Mən bu görüş ərəfəsində bir neçə belə kitabla tanış oldum. Alim, professor Samət Əlizadənin burada qeyd etdiyi həmin kitab 1988-ci ildə Fərhad Zeynalovun və Samət Əlizadənin müəllifliyi ilə nəşr edilmişdir. Mən bu kitaba baxdım. O, həqiqətən çox sanballı elmi əsərdir. Ancaq bu elmi əsərlər alimlər, tədqiqatçılar üçün böyük əhəmiyyət daşıyır, geniş ictimaiyyət isə bunlardan istənilən səviyyədə istifadə edə bilməyibdir. "Kitabi-Dədə Qorqud"un elmi nöqteyi-nə-

zərdən tədqiq edilməsi bizim üçün çox lazımdır. Eyni zamanda, "Kitabi-Dədə Qorqud" Azərbaycan ictimaiyyəti, kütlə, xalq üçün tanınmalıdır.

Mən bu baxımdan Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Mənə belə gəlir ki, biz bu gün, müəyyən zaman keçəndən sonra Anarın bu sahədəki axtarışlarına, xidmətlərinə daha da yüksək qiymət verməliyik. Bəlkə də Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli olduğunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışarkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik. Mən Anarın bu münasibətlə yaratdığı filmi də qiymətləndirirəm. Təbiidir, siz də, biz də, hamımız bilirik ki, hər bir tarixi hadisəni elmi kitablardan da tapıb oxumaq olar. Amma hər bir insan elmi kitablardan istifadə edə bilmir. Son onilliklərin təcrübəsi onu göstərir ki, geniş kütlə, xalq üçün tarixi hadisələri izah, təbliğ etməkdən ötrü ən gözəl vasitə onlar haqqında fılmlərin, səhnə əsərlərinin yaranmasıdır. Məsələn, Üzeyir Hacıbəyov vaxtilə "Koroğlu" operasını yaradana qədər bəlkə də xalqımız Koroğlunu bu qədər dərindən dərk edə bilmirdi. Ancaq Üzeyir Hacıbəyovun yaratdığı "Koroğlu" operası və onun səhnəmizdə çox gözəl şəkildə təqdim olunması indi Koroğlu obrazının və "Koroğlu" dastanının məzmununu, mənasını hamımız üçün çox gözəl göstərir. İndi hər birimizdən soruşsalar ki, Koroğlu kimdir, mərhum böyük müğənnimiz Bülbülün səhnədə yaratdığı Koroğlu obrazı yada düşür. Yaxud, – mən bunu vaxtilə demişəm, – Səməd Vurğunun Vaqif haqqında yazdığı pyes Vaqifi geniş kütləyə tanıdıbdır. Vaqifin şerləri, əsərləri tanımırdı, amma o qədər də geniş yox. Şerlərini oxuyurduq, lakin Vaqifin kim olduğu, onun həyatı, tərcümeyi-halı, yaradıcılığı haqqında geniş məlumat yox idi. Xatirimdədir, mən orta məktəbdə oxuyarkən "Ədəbiyyat müntəxəbatı" kitabında Vaqif haqqında bir-iki səhifə və şerləri var idi. Biz orta məktəbdə oxuyarkən Vaqifin "Bayram oldu, heç bilmirəm neyləyim" şerini öyrənmişdik. Mənim orta məktəbdən yadımda qalan odur. Amma "Vaqif" pyesini görəndən sonra Ələsgər Ələkbərovun ifasında Vaqifin surəti də, eyni zamanda Vaqif də bizə məlum oldu. Ona görə də tarixi mövzuda yaradılan əsərlər, o cümlədən "Nəsimi", "Babək" fılmləri çox qiymətlidir. Şübhəsiz ki, Anarın yaratdığı "Dədə Qorqud" filmi də çox qiymətlidir. Onun qiyməti bəlkə də ona görə çoxdur ki, – indi hamımız bilirik – "Kitabi-Dədə Qorqud" dastanının dili çox çətindir, mürəkkəbdir. Onun tarixi də başqa dastanlar kimi o qədər tədqiq olunmayıbdır. Ona görə də bu təşəbbüs çox əhəmiyyətlidir. Hesab edirəm ki, bu film qarşıdakı yubiley zamanı Azərbaycan ictimaiyyətinə, kütləyə yenidən təqdim olunmalıdır.

Mən burada irəli sürülən təkliflərlə tamamilə razıyam ki, "Kitabi-Dədə Qorqud" haqqında böyük bir serial yaratmaq olar. Bunun nə həcmdə olacağını mən bu gün müəyyən edə bilmərəm. Amma bu təklifi dəstəkləyirəm, qəbul edirəm və biz belə bir serialın yaranması üçün lazımi vəsait taparıq. Yəqin ki, bu, tədbirlər planında öz əksini tapmalıdır və bu barədə işlər görülməlidir.

Beləliklə, indiyə qədər olan dövrdə müəyyən işlər görülübdür. Əgər biz tariximizi bu gün müəyyən qədər səliqəyə salsaq, indiyədək görülən işləri yəqin ki, "Kitabi-Dədə Qor-

qud”un tarixinin öyrənilməsinin birinci mərhələsi hesab etmək olar. Yəqin ki, ikinci mərhələ “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan başlanır. Siz bu fərmanın əhəmiyyətini burada çox düzgün qeyd etdiniz. Bu fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, birincisi, biz bütün dünyaya nümayiş etdirir və bildiririk ki, bəli, “Kitabi-Dədə Qorqud” dastanının azı 1300 il yaşı vardır. İkincisi, onu bildiririk ki, bəli, “Kitabi-Dədə Qorqud” dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Burada çox deyildi, bəli, onun vətəni, sahibi Azərbaycan xalqıdır, onun sahibi müstəqil Azərbaycan dövlətidir. Mən belə hesab edirəm ki, bax, bu iki cəhət bizim fərmanın böyük əhəmiyyətini nümayiş etdirir. Həmin fərman verilməndən indiyə qədər görülən işlər də çox əhəmiyyətlidir. Burada bu barədə məlumat verildi. Ancaq daha da çox iş bundan sonra görülməlidir. Bundan sonra görüləcək işlər isə iki mərhələyə bölünə bilər: birincisi, vaxtını müəyyən edəcəyimiz builki zirvə tədbirinə qədər; ikincisi, ondan sonrakı dövrdə görüləcək işlər.

Təbiidir, biz “Kitabi-Dədə Qorqud”un 1300 illik tarixini təhlil etmək, əsərlər yaratmaq və onları nəşr etmək, dünyaya yaymaq işini bir il ərzində görə bilmərik. Ona görə də bizim iş planımızın iki hissəsi olmalıdır. Onun birinci hissəsində nəzərdə tutulan işlər son yubiley tədbirinə qədər görüləcəkdir. İkinci hissəsində planlaşdırılan işlər isə son yubiley tədbirindən sonra, gələcək illərdə görüləcəkdir. Hesab edirəm ki, 1997-ci ildə verilmiş fərman gələcək çox illər, on illər üçün böyük perspektiv açıbdır. Biz böyük bir perspektiv plan hazırlamalı və onu ardıcıl surətdə həyata keçirməliyik. Biz nə qədər çox işləsək, “Kitabi-Dədə Qorqud”u, tariximizi bugünkü və gələcək nəsillərə daha da dolğun, düzgün çatdıra biləcəyik. Biz bunu mütləq etməliyik. Nəhayət, həmin fərmanın meydana çıxması və indi bu müzakirənin aparılması, gələcəkdə görüləcək işlər Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsidir. Bəli, biz keçmişdə nə qədər iş görmüşüksə, indi - müstəqil dövlət olduqdan sonra gördüyümüz işlər onların hamısından üstündür. Çünki biz indi sərbəstik, azadıq, müstəqilik, biz tariximizi olduğu kimi əks etdiririk və əks etdirəcəyik. Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Çünki “Kitabi-Dədə Qorqud” dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər. Bunlar da ölkəmizin müstəqilliyi nəticəsində mümkün olmuşdur. Biz bu müstəqillik dövründən səmərəli istifadə etməliyik. Müstəqilliyin qarşımızda qoyduğu vəzifələr çoxdur. Biz hüquqi, demokratik dövlət qururuq, iqtisadi islahatlar aparırıq, siyasi islahatları həyata keçiririk, iqtisadiyyatı inkişaf etdiririk, dövlətimizi möhkəmləndiririk. Bununla yanaşı, mən böyük iftixar hissi ilə deyə bilərəm ki, son illər Azərbaycanda müstəqilliyin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çox işlər görmüşük. Ancaq bundan sonra daha da çox işlər görməliyik və ümid edirəm ki, görəcəyik. Bunların hamısı Azərbaycanın müstəqil dövlət kimi dünyada tanınmasına kömək edəcəkdir.

Mən bir daha deyirəm ki, burada irəli sürülən təkliflər çox dəyərlidir. Məsələn, mən Dədə Qorqud haqqında bu fikirlə razıyam ki, bəlkə də adi bir heykəl qoymaq o qədər də

məqsədəuyğun olmazdı. Mən razıyam ki, böyük bir kompleks yaratmaq, onun üçün münasib yer seçmək olar. Yəni doğrudan da, bir surətin heykəlini qoymaq çox lazımdır, lakin "Kitabi-Dədə Qorqud" elə bir dastandır ki, kompleks götürsək, məsələn, bir şəhərcik ayırsaq, sonra orada cürbəcür başqa abidələr də yaratmaq olar. Memarlarımız, heykəltəraşlarımız, rəssamlarımız bu barədə düşünməlidirlər. Hesab edirəm ki, biz bunu edə bilərik. Təbiidir ki, bunu qısa bir zamanda etmək mümkün deyildir. Ancaq əgər bizim mütəxəssislərimiz bu barədə yaxşı bir təklif irəli sürə bilsələr, komissiyamız bu sahədə yaxşı işləyə bilsə, biz belə bir layihəni qəbul edərək və bu layihə əsasında bir, iki, üç ilə böyük bir kompleks yarada bilərik. Bu lazımdır. Əgər film lazımdırsa ki, insanlar baxsınlar, böyük bir kompleks də lazımdır ki, insanlar daim oraya getsinlər. Dədə Qorqudu ziyarət etsinlər və tariximizlə, Dədə Qorqudla daim təmasda olsunlar.

Burada Dədə Qorqudun qəbri haqqında söhbət getdi. Biz bunu dərinləşdirmədik. Ona görə də mən bu gün bu barədə ətraflı fikir söyləmək istəmirəm. Ancaq hesab edirəm ki, komissiyamız gərək bu barədə də bir təklif versin. Bu təklifi yəqin ki, bir-iki ay müddətində vermək lazımdır. Hörmətli alimimiz burada dedi ki, kimsə Dədə Qorqudun qəbrini tanıyır. Amma mən eşitmişəm ki, Dədə Qorqudun Dərbənddəki qəbri məlumdur və oraya ziyarətə də gedirlər. Biz etiraf etməliyik ki, Dədə Qorqudun Dərbənddə qəbri olduğunu son vaxtlara qədər bəlkə də az adam bilirdi. Məsələn, etiraf edirəm ki, mən bunu bilmirdim. Yaxşı, kim bilirsə əlini qaldırsın. Görürsünüz, çox az, üç-dörd adam əlini qaldırır. Gəlin belə danışaq. Bir halda ki, hamınız deyirsiniz Dədə Qorqudun çox yerlərdə qəbri var, gəlin Dədə Qorqudun harada qəbirləri varsa, onları tapaq. Bir halda ki, bu gün deyirik Dədə Qorqudun sahibiyik, həmin qəbirləri tapaq, araşdıraq, kitablarda yazılsın, bunların ünvanı bilinsin. Hesab edirəm ki, komissiya üzvləri Dədə Qorqudun qəbri barədə işlərlə məşğul olurlar.

Mən komissiyanın sədriyəm. Ancaq mənim müavinlərim var. Onlar Elçin Əfəndiyev, Fəraməz Maqsudov və Anardır. Mən bundan sonrakı təşkilati işləri müavinlərimə tapşırıram. Çünki komissiyanın iclasını keçirməyə mənim hər dəfə imkanım olmayacaqdır. Mən müavinlərimdən xahiş edirəm ki, bu gündən iş planı qurulsun. Ola bilər, ayda iki dəfə yığışasınız, komissiyanın üzvlərindən kimləri istəsəniz dəvət edəsiniz, işləri görəsiniz və mənə məlumat verəsiniz. Mən bunu sizdən xahiş edirəm. Bugünkü müzakirəyə görə sağ olun.

“KİTABİ-DƏDƏ QORQUD” DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ NÖVBƏTİ İCLASINDA GİRİŞ SÖZÜ PREZİDENT SARAYI

8 aprel 1999-cu il

Hörmətli xanımlar və cənablar!

Bu gün biz “Kitabi-Dədə Qorqud” dastanının yubileyi üzrə komissiyanın növbəti iclasına toplaşmışıq. Ötən iclasda yubileyin hazırlanması və keçirilməsi ilə əlaqədar məsələləri ətraflı müzakirə etdik və qərar qəbul etdik. Bundan sonra yubiley tədbirlərini hazırlayıb keçirmək üçün iş planı tərtib olundu və mən onu təsdiq etdim.

Müəyyən vaxt keçibdir. Bu gün komissiyanın iclasını toplamışam ki, işlərin gedişatını təhlil edək. Nəzərə almaq lazımdır ki, yubiley tədbirlərinin zirvə mərasiminə az vaxt qalıbdır. Qərar qəbul etmişəm ki, yubileyin zirvə mərasimi iyun ayının 15-də keçiriləcəkdir. İyun ayının 14-də Azərbaycanda, Bakıda türkdilli dövlətlərin başçılarının ənənəvi zirvə görüşü olacaqdır. Bunu nəzərə alaraq, iyun ayının 15-də “Dədə-Qorqud” dastanının yubileyinin zirvə mərasimini keçirməyi qərara almışam.

Güman edirəm, bu, çox yaxşı olacaqdır. Çünki qonaqların arasında türkdilli ölkələrin dövlət başçıları – prezidentləri də olacaq, onlar da, “Dədə-Qorqud” dastanının yubileyində iştirak edəcəklər. Mən onların hər biri ilə ayrılıqda danışmışam. Onlar “Dədə Qorqud” dastanının yubileyini öz xalqlarının da yubileyləri kimi qəbul edirlər, ona görə də bu mərasimdə böyük məmnuniyyətlə iştirak etmək arzusunu bildirirlər.

Beləliklə, zirvə tədbiri günü müəyyən olunubdur. İki ay vaxt qalır. İki ay müddətində, güman edirəm, hələ çox iş görülməlidir. Biz keçən dəfə də bu məsələləri müzakirə etmişdik və hamımızın ümumi fikri budur ki, “Dədə Qorqud” dastanının yubileyini birinci növbədə Dədə Qorqudun irsinə, özünə layıq keçirməliyik. Ona görə də qalan dövrdən indiyə qədər görülməmiş işləri görməliyik və nəzərdə tutulmuş başqa işlərin hamısını həyata keçirməliyik.

YEKUN NİTQİ

“Kitabi-Dədə Qorqud” dastanının yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir. Biz son onilliklərdə Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək məqsədi ilə bir çox yubiley mərasimləri keçirmişik. Bunların da hər birinin çox böyük faydası olubdur. Bu faydanı nə faizlə, nə miqdarla, nə də çəki ilə ölçmək olar. Ancaq əgər bir ölçü olsaydı, demək olar ki, ən böyük ölçüyə malik faydalardır.

1947-ci ildə Nizami Gəncəvinin 800 illik yubileyi keçirildi. Xatırlayın, o vaxta qədər Azərbaycan xalqı Nizamini nə qədər tanıyırdı, yaxud dünya nə qədər tanıyırdı? Tədqiqatçılardan, alimlərdən, yazıçılardan və mədəniyyətlə, ədəbiyyatla məşğul olan adamlardan

başqa, ölkəmizdə Nizami bu qədər tanınırdımı, xalqımız, insanlar Nizaminin əsərlərini oxuyurdularmı? Dünya tanıyırdımı ki, Azərbaycanın Nizami Gəncəvi kimi böyük bir şairi, yazıçısı, mütəfəkkiri, filosofu, alimi var? Yox. Təsəvvür edin, əgər 1947-ci ildə bu yubiley keçirilməsəydi, Nizaminin əsərləri o vaxt Azərbaycan dilinə tərcümə olunmasaydı, heykəli qoyulmasaydı, Nizaminin adı əbədiləşdirilməsəydi və 1947-ci ildən Nizaminin adı, dünyaya geniş yayılmasaydı, Azərbaycan tarix, mədəniyyət, elm cəhətdən bu qədər zəngin olacaqdımı? Yox.

1947-ci ildə İkinci Dünya müharibəsi yenicə qurtarmışdı, ondan bir-iki il keçmişdi. 1947-ci ildə biz yaşadığımız Sovet İttifaqında kartoçka sistemi ləğv olundu, pul islahatı keçirildi. Bəli, ölkə, Azərbaycan onda ağır iqtisadi vəziyyətdə idi. Ancaq Nizaminin yubileyi keçirildi və biz böyük bir sərvət əldə etdik. İndi biz hər yerdə fəxr edirik ki, Nizamimiz vardır. Doğrudur, o, həmişə olubdur. Lakin o, nə bizim xalqımıza, nə də dünyaya indiki kimi məlum deyildi.

Biz 1973-cü ildə Nəsiminin yubileyini – 600 illiyini keçirəndə Nəsimi bu qədər tanınmış bir şair idimi? Yox. Heç bizim orta məktəb dərsliklərində Nəsiminin əsərləri yox idi. Elədir, yoxsa yox? Nəsimini bütün dünyaya tanıtdıq. O vaxtlar respublikamız müstəqil olmasa da , biz onun əsərlərini nəşr etdirdik, başqa dillərə – ingilis, fransız dillərinə tərcümə etdirdik, yaydıq.

Biz Füzulinin 500 illiyini keçirdik. Bəlkə də Füzuli xalqımıza Nizamidən, Nəsimidən daha da çox tanış idi, ancaq xalqımız Füzulini də o qədər tanımırdı. Doğrudur, hələ yubileyi olmadan, məsələn, 1950-ci illərdən başlayaraq Füzuli ölkəmizdə təbliğ edildi. Xatirimdədir, 1930-cu illərdə mən orta məktəbdə təhsil alarkən biz Füzulinin ancaq bir-iki qəzəlini oxuyurduq. Füzuli şəxsiyyəti, təfəkkürü, elmi, fəlsəfəsi bir o qədər məlum deyildi. Yadınıza salın, biz müstəqillik dövründə Füzulinin 500 illik yubileyini keçirdik. Həmin yubileyi xatirinizə salın – bütün türk dünyasından nümayəndələr Azərbaycana yığıldı.

Xatirimdədir, Gürcüstan parlamentinin sədri Zurab Jvaniya gəlib həmin tədbirdə iştirak edirdi. Biz "Gülüstan" sarayında axşam mərasimindəydik. O mənim yanımda oturmuşdu, heyranlıqla söyləyirdi ki, "Baxın, Azərbaycan nə edir, Azərbaycan bütün türk dünyasını bura yığıbdır. Görün, türk dünyası nədən ibarətdir" Zurab Jvaniya o qədər heyran olmuşdu ki, bunu gizlədə bilmirdi. Amma təkcə bu deyil, mən belə faktları çox saya bilərəm.

Mən bunları ona görə deyirəm ki, bu yubileylərin, o cümlədən "Kitabi-Dədə Qorqud" dastanının yubileyinin keçirilməsi ilə əlaqədar tədbirlərimizi anlamayanlar, yaxud da onu qəsdən anlamaq istəməyənlər – çünki bizdə elə qüvvələr var ki, Azərbaycanda hər şeyin pis olmasını başa düşsünlər ki, biz bütün bunları millətimiz, xalqımız üçün, müstəqilliyimizi və tarixi keçmişi, köklərimizi bir daha sübut etmək üçün edirik. Bunlar lazımdır, şəraitimiz nə cür olur-olsun, bunları etmişik və bundan sonra da edəcəyik.

Biz keçmiş zamanlarda böyük minnətdarlıq hissi ilə qeyd edirdik ki, İkinci Dünya müharibəsi, Vətən müharibəsi gedən zaman, Leninqrad blokadada olduğu dövrdə orada Nizaminin 800 ilik yubileyi keçirilmişdi. Bu, yazılarda, kitablarda dəfələrlə qeyd olunubdur. Le-

ninqrad blokadada ikən orada Nizaminin yubileyi keçirilmişdir. Bu tarixdir, həqiqətdir. Biz indi müstəqil dövlətik. Müstəqil dövlət kimi xalqımızın milli köklərini, tarixini, qədim mədəniyyətini, böyüklüyünü öz vətəndaşlarımıza da, bütün dünyaya da göstərməliyik, təbliğ etməliyik.

Əgər nəzərə alsaq ki, bizə düşmən olan bəzi ölkələr, xalqlar sübut etmək istəyirlər ki, "Azərbaycan xalqının dərin kökü, tarixi yoxdur", erməni millətçiləri daim təbliğ edirlər ki, "bunlar köçəri xalqdır, onların heç keçmişi olmayıbdır", əgər xalqımızın keçmişinə dair mənfi təbliğatı nəzərə alsaq, bu tədbirlərimizin nə qədər əhəmiyyəti olduğunu görərik. Azərbaycanın tarixində indiyədək keçirilmiş bütün yubiley mərasimlərindən "Kitabi-Dədə Qorqud" dastanının yubileyi hamısından əhəmiyyətlidir, vacibdir.

Birincisi, bu, bizim tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyini, eyni zamanda tarixi köklərimizin 1300 il bundan əvvəlki dövründə xalqımızın böyük bir eposu olduğunu göstərir. Biz buna adi bir hal kimi baxa bilmərik.

Bir məsələni də qeyd etmək lazımdır. Mən bunu keçən dəfə də demişəm. Biz keçmiş illərdə, onilliklərdə tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız haqqında çox işlər gördük. Mən Nizaminin, Nəsiminin və başqa klassiklərimizin yubileyləri haqqında burada danışdım. Ancaq təəssüflər olsun ki, biz o illər "Kitabi-Dədə Qorqud" filmini yaratmasaydıq, "Kitabi - Dədə-Qorqud" dastanının yubileyi ilə əlaqədar məsələni qaldıra bilmərik. Biz ötən iclasımızda bunun səbəblərini izah etdik.

Mən bir daha qeyd edirəm ki, məsələn, Anarın bu barədə təşəbbüsü, yazıları olmasaydı və o, "Dədə Qorqud" filmini yaratmasaydı, "Kitabi-Dədə Qorqud" dastanı haqqında xalqımız üçün bu qədər geniş məlumat yox idi. Təbiidir ki, bizim dədəqorqudçularımız, alimlərimiz, tədqiqatçılarımız çoxdur. Bizim ötən iclasımızda onların bir çoxu çıxış etdilər, çox gözəl fikirlər söylədilər. Göstərdilər ki, onlar 30-40 ildir ki, "Dədə Qorqud" dastanının tədqiqi ilə məşğuldurlar. Amma bunlar hamısı elmi tədqiqatlardır. Adətən elmi tədqiqatlar dar çərçivədə olur, müəyyən insanları əhatə edir, yaxud onlara mənsub olur. Amma "Kitabi-Dədə Qorqud" dastanını geniş kütləyə populyar şəkildə göstərmək əvvəllər mümkün olmamışdı. Bunun müəyyən səbəbləri var idi. Bu da ondan ibarətdir ki, bəli, bəziləri bizim türk kökümüzü göstərmək istəmirdilər, yaxud da bunu göstərməyə qorxurdular. Bir çoxları isə buna mane olurdular. Bunlar hamısı keçmişdən məlumdur.

Bunları nəzərə alaraq, bizim "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında qəbul etdiyimiz qərar və indi həyata keçirdiyimiz tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Onun bu gün üçün də, gələcək nəsillər üçün də, dünya üçün də böyük əhəmiyyəti vardır.

Bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, biz artıq böyük türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq. Bunları böyük tarixi şəxsiyyətlərin yaradıcılığı əsasında edirik. Məsələn, biz qırğız eposu "Manas"ın 1000 illik yubileyini birlikdə qeyd etdik, keçirdik. Bu, böyük bir hadisə oldu. Açıq deyək ki, Manasın kimliyi, onun tarixi, yaratdığı irs haqqında o vaxta qədər Azərbaycanda çox az adam bilirdi. Amma qırğızlar bunu etdilər. Biz hamımız – türkdilli ölkələrin dövlət başçıları oraya toplaşdıq. Hamımız birlikdə sübut etdik ki, bəli, bizim xalqlarımızın qədim kökü və bu xalqların müştərək tarixi, mədəniyyəti vardır. "Dədə Qorqud" dastanının yubileyi bu ba-

xımdan böyük siyasi əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, mən türkdilli ölkələrin dövlət başçıları ilə "Dədə Qorqud" dastanının yubileyinin Azərbaycanda keçirilməsi haqqında danışarkən bunu izah etməyə ehtiyac duyulmadı. Onların hər biri dedi ki, bu, bizim hamımızındır, bu yubileyi hamımız bir yerdə böyük məmnuniyyətlə qeyd etməliyik.

Yəni "Dədə Qorqud" dastanı bizi bu gün eyni zamanda birləşdirir, bir-birimizə yaxınlaşdırır. Birləşməyə də ehtiyac vardır. Məsələn, biz TÜRKSOY təşkilatını qiymətləndiririk. Azərbaycan bu təşkilatın inkişaf etməsində həmişə öz səylərini göstərir. Biz – türkdilli ölkələrin dövlət başçıları görüşərkən türkdilli dövlətlərin bu təşkilatını çalışırıq ki, mədəniyyətə və iqtisadiyyata yönəldək, onu siyasiləşdirməyək. Şübhəsiz ki, hər bir türkdilli dövlət gərək öz tarixini təqdim etsin. Belə də oldu. Biz Qırğızıstanda "Manas"ın, Qazaxıstanda Abayın yubileylərini qeyd etdik, Özbəkistanda Əmir Teymurun yubileyində olduq. "Dədə Qorqud" dastanı da həm Azərbaycanın, həm də bütün türkdilli dövlətlərindir.

Məsələn, Türkiyənin prezidenti, başqa rəhbər şəxsləri ilə danışarkən mən "Dədə Qorqud" deyirəm, onlar isə bildirirlər ki, biz buna "Dədəm Qorqud" deyirik. Bax, siz mənə təqdim etdiyiniz medalların bəzilərinin içərisində "Dədə Qorqud", bəzilərində isə "Dədəm Qorqud" yazmısınız. Yəni bu, hamımız – onlar üçün də, bizim üçün də doğmadır. Amma bu, hamının olmaqla bərabər, xüsusən Azərbaycanındır, Azərbaycana məxsusdur. Bu da türk aləmində Azərbaycanın nə qədər görkəmli yer tutduğunu göstərir.

Bəs biz indi onları nümayiş etdirməliyikmi, biz onları öz xalqımıza və başqa xalqlara çatdırmamalıyıqmı?

Beləliklə, mən hesab edirəm ki, indiyə qədər xeyli iş görülübdür. Mən görülən işləri qiymətləndirirəm. Ancaq işlərin çoxu hələ yarımçıq vəziyyətdədir, hazırlanma mərhələsindədir. Bunların əksəriyyəti iyunun 15-nə qədər tamamlanmalıdır, başa çatmalıdır. Ola bilər ki, bu tədbirlərin bəzilərini o vaxta qədər çatdırmayaq. Bundan narahat olmaq da, tələsmək də lazım deyildir. Gərək hər bir şeyi keyfiyyətli edək. Çünki bu dövrdə biz nə etsək, onlar on illərlə yaşayacaqdır.

Mən yenə də Nizaminin yubileyinə qayıdıram. Məsələn, Nizaminin əsərləri hələ 1947-ci ildə tərcümə olunub, nəşr edilibdir. Ondan sonra Azərbaycanda bu sahədə işlər həmin əsas üzərində davam etdirilibdir. Şübhəsiz ki, ondan sonra biz Nizami Gəncəvinin 840 illik yubileyini də keçirdik.

Xatirimdədir, Moskvada buna nə qədər mənfi münasibət göstəriblər. Mən təklif vermişdim ki, Nizami Gəncəvinin 840 illik yubileyini keçirmək lazımdır. O vaxt Mərkəzi Komitənin ikinci katibi Suslov mənə dedi ki, axı bu, yuvarlaq tarix deyil, gərək ya 800, 850, ya da 900 olsun. O vaxt mənim ona dediyim sözlər Moskvada da geniş yayılmışdı. Mən dedim ki, "Hörmətli Suslov, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır". Biz o vaxt Nizaminin 840 illik yubileyini keçirdik. Ola bilər, onların dediklərində də müəyyən məntiq var idi. Amma biz nə üçün bu yubileyləri keçirmək istəyirdik? Çünki hər bir belə yubiley tədbiri bizim mədəniyyətimizi, tariximizi, millətimizin milliliyini təbliğ edir. Biz bunları daim etməliyik. Yenə də deyirəm, bu işlərin ölçüsü, çəkisi yoxdur, amma faydası hədsizdir. Ona görə biz bunları etməliyik.

“Kitabi-Dədə Qorqud” dastanının yubileyi ilə əlaqədar nəzərdə tutulan tədbirlərin hansını iyunun 15-dək keçirmək mümkündürsə, onu etmək lazımdır. Onlardan hansını bu müddətdə keyfiyyətlə keçirmək mümkün olmasa, tələsmək lazım deyildir. O demək deyildir ki, iyunun 15-də keçiriləcək zirvə tədbirinə qədər bütün tədbirlər keçirilsin, sonra hər şey bitsin. Yox, belə deyildir. Yubiley tədbiri sadəcə bir vasitədir ki, “Dədə Qorqud” dastanını təkcə Azərbaycanda yox, eləcə də bütün dünyada daha geniş təbliğ edək və Dədə Qorqud irsini ardıcıl surətdə yazaq, təhlil edək, yayaq, insanlara çatdıraq.

Mən komissiya üzvlərindən, xüsusən Elçindən, Anardan, Fəraməz Maqsudovdan xahiş edirəm ki, bu işlə hər gün məşğul olsunlar. Hansı məsələlərdə qarşıya çətinlik çıxarsa, mənə gecikmədən məlumat versinlər ki, biz onları vaxtında həll edək.

Burada bir neçə təklif irəli sürüldü. Mən onları indi müzakirə etmək istəmirəm. Xahiş edirəm ki, komissiya sədrinin müavinləri başqa müvafiq şəxslərlə birlikdə bu təkliflərə iki-üç gün müddətində baxsınlar, onları təhlil etsinlər. Sonra mənim yanımda toplaşaq və son qərar qəbul edək. Mən indi belə bir şəraitdə bir qərar qəbul etmək istəmirəm. Çünki belə bir şəraitdə qərar qəbul etmək də mümkün deyildir. Gərək ona bir baxaq, təhlil edək.

Burada, məsələn, Qobustan haqqında təklif verildi. Təbiidir ki, bu, cazibədar bir təklifdir. Ancaq baxmaq lazımdır ki, bunu həyata keçirmək nə qədər realdır. Bakıdan Qobustana 60 kilometrdən bir qədər çox məsafə vardır. Bu təklifə ətraflı baxmaq lazımdır ki, o nə qədər realdır. Dediniz ki, zirvə görüşünə gələcək dövlət başçıları da orada iştirak etsinlər. Ona görə də mən dəqiqləşdirmək istəyirəm ki, bu, necə olacaqdır?

Polad Bülbüloğlu: Cənab prezident, dövlət başçılarını oraya vertolyotla aparmaq olar.

Heydər Əliyev: Vertolyota minincə, düşüncə çox vaxt gedəcəkdir. Yaxşı, Qobustanda tədbir keçirilməsi barədə təklifə baxmaq olar ki, o nə dərəcədə realdır.

Yaxud, burada park haqqında bir təklif oldu. Memar İlham Əliyev isə Şıx yamacında yerləşən park haqqında təklif irəli sürdü. Buna da baxmaq lazımdır. Sonra, – Dədə Qorqud abidəsi harada, necə olmalıdır? – biz bunu da müəyyənləşdirməliyik, həll etməliyik. Bu abidə parkla əlaqədar, yaxud necə olmalıdır? Hər halda, bu təklifləri hamısı dərin təhlil tələb edir.

Fəraməz Maqsudov dedi ki, İçərişəhərdə bir yer var, ona da baxmaq lazımdır. Burada “Dədə Qorqud” mükafatı haqqında da danışıldı. Bu o qədər də real deyildir ki, digər dövlət başçıları ilə birlikdə mükafat təyin edək. Mən bunu təsəvvür edə bilmədim, ancaq ona da baxmaq lazımdır. Xahiş edirəm, bütün bu təkliflərin hamısına 2-3 gün ərzində baxın, məsləhətləşin, sonra mənim yanıma gəlin. Bir neçə variant ola bilər. Ancaq dəqiq bir fikrə gəlməliyik ki, görək bunlar hansı yollarla həyata keçirilə bilər, reallıq nədən ibarətdir.

Başqa bir məsələ. Siz dediniz ki, müsabiqə elan olunubdur, Dədə Qorqudun portreti hazırlanır?

Elçin Əfəndiyev: Cənab prezident, Dədə Qorqudun portretini hazırlamaq üçün müsabiqə elan edilibdir. Amma bu müsabiqənin nəticəsi zirvə tədbirinə qədər məlum olmayacaqdır.

Heydər Əliyev: Vaxtilə Nizaminin də portreti yox idi, amma yarandı. Bilirsiniz, yubileydə Dədə Qorqudun portretinin hazır olmaması heç də mümkün deyildir. Sizin verdiyini bu medallarda da Dədə Qorqud şəkli var. İndi Dədə Qorqudu kim necə istəyir, o cür də çəkir. Amma bu yaramaz. Məsələn, Füzulinin bizə məlum olan portreti 1930-cu illərdə çəkil-

mişdi. Mən yenə də orta məktəb dövrünü yada salıram. O vaxt rəsmlə çox məşğul olurdum. Mən 1938-ci ildə Füzulinin həmin portretinə baxıb, onu boya ilə çəkmişəm. Bu, mənim yaxşı yadımdadır. Bu, portret var idi, özü də rəngli idi. Yəni Füzulinin rəngli portreti var idi.

Nizaminin portretini 1947-ci ildə Qəzənfər Xalıqov yaradıbdır, heykəlini də Fuad Əbdürrəhmanov yaradıbdır. Nəsiminin portretini Mikayıl Abdullayev, heykəlini isə Tokay Məmmədovla İbrahim Zeynalov yaradıblar. Yəni bunlar hamısı gözümüzün qabağında olmuş işlərdir.

Təsəvvür edin, biz "Kitabi-Dədə Qorqud" dastanının yubileyinə gəlirik. Dədə Qorqudun portreti yoxdur. Yaxşı, bəs bu müsabiqə nə qədər davam edəcəkdir? Xahiş edirəm, bu barədə düşünün. Gəlin məsləhətləşək. Bu mümkündürmü – biz "Kitabi-Dədə Qorqud" dastanının yubileyini keçiririk, ancaq onun portreti yoxdur. Xahiş edirəm, oturun, bu barədə fikirləşin, görün nə edə bilərsiniz.

Layihələrin maliyyələşdirilməsi ilə əlaqədar sözümü mən artıq maliyyə nazirinə dedim. Ancaq eyni zamanda, mən Baş nazirə tapşırıram – xahiş edirəm, sən özün şəxsən bunların hamısına bax və mənə məruzə et. Prinsip bundan ibarət olmalıdır ki, israfçılığa qətiyyən yol verilməməlidir. Eyni zamanda, yubileyi layiqincə keçirmək üçün tələb edilən vəsait tapılmalıdır və verilməlidir. Maliyyə naziri burada dedi ki, "Mədəniyyət Nazirliyinin, akademiyanın və başqalarının öz pulları vardır. Mən sizə göstərəcəyəm ki, onu haradan götürmək lazımdır" Sən belə fikirləri kənara qoy. Başa düşdün? Əgər xüsusi yubiley keçirilirsə, demək, büdcədən ayrılmış vəsait ora gedə bilməz. Çünki büdcə vəsaiti onların cari işləri üçün ayırır. Amma bu, xüsusi bir tədbirdir. Baş nazir, sən özün bu məsələlərə bax, mənə məruzə et.

Bilirsiniz, Azərbaycan dövlətinin vəsaitini qoruyub saxlayan bizik. Altı ilə yaxındır ki, mən buna rəhbərlik edirəm. İndiyə qədər çox şeyi qorumuşuq, saxlamışıq. Baxmayaraq ki, bizdən qabaq çox şeylər dağıdılmışdı. Təsəvvür edin, indi Azərbaycanda inflyasiya yoxdur. Torpaqlarımızın 20 faizinin işğal altında olmasına, ölkəmizdə bir milyondan çox qaçqın yaşamasına baxmayaraq biz bunları edirdiksə, demək, biz Azərbaycanın iqtisadiyyatını, maliyyə işlərini ağılla aparırıq. Çətinliyimiz, çatışmazlığımız çoxdur, hamısı var. Amma hansı işi necə etməyi biz bilirik. Heç kəs bundan narahat olmasın.

Mən komissiya üzvlərinin və buraya dəvət olunmuş şəxslərin hamısına müraciət edirəm ki, "Dədə Qorqud" dastanının yubileyinin yüksək səviyyədə keçirilməsi üçün bundan sonra hər kəs öz səylərini daha da artırmağa çalışsın, biz bu yubiley tədbirini birlikdə hazırlayıb həyata keçirək.

Mən inanıram ki, bu yubiley mərasimləri Azərbaycanda vətəndaşlarımızın daha böyük ruh yüksəkliyini təmin edəcəkdir, cəmiyyətdə daha da bilirik, həmrəylik yaradacaqdır. Bu, bizim həm mədəniyyətimizin, həm ədəbiyyatımızın, həm də ümumiyyətlə, tariximizin daha da geniş təbliğ olunması üçün yeni bir şərait yaradacaqdır. Hamınıza bu yolda uğurlar arzulayıram.

“KİTABİ-DƏDƏ QORQUD” DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ VƏ YEKUN NİTQİ

11 mart 2000-ci il

Hörmətli komissiya üzvlər!

Xanımlar və cənablar!

Biz 1997-ci ildə Azərbaycan xalqının, Oğuz türklərinin milli-mənəvi dəyərlərinin, tarixi köklərinin böyük abidəsi olan “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul etdik. 1997-ci il aprel ayının 20-də mən xüsusi fərman imzaladım, dövlət komissiyası yaratdıq.

Üç il keçibdir və bu üç il müddətində, demək olar ki, böyük işlər görülübdür. Son günlər mən aparılan işlərin müəyyən qədər nəticələri ilə – yəni biz nə etmişik, nəyə nail olmuşuq – tanış olandan sonra bu sözləri tam qətiyyətlə deyirəm. Çox iş görülübdür.

Bilirsiniz ki, biz yubileyin keçən ilin iyun ayında keçirilməsi haqqında qərar qəbul etmişdik. Ancaq məlum səbəblərdən bunu edə bilmədik. Bəlkə də bu, elə lazım imiş ki, bir il də vaxt uzansın, daha da çox iş görmək mümkün olsun. Hər halda üç il müddətində görülən işlər indi “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin layiqincə keçirilməsinə çox gözəl əsas yaradıbdır.

Mən türkdilli dövlətlərin başçıları ilə danışıqlar aparmışam. Türkdilli dövlətlərin başçılarının növbəti – altıncı zirvə görüşü Azərbaycanda olmalıdır və bizim hamımızın razılığı ilə bu zirvə görüşünün aprel ayının 8-də keçirilməsi haqında qərar qəbul etmişik. Aprel ayının 9-na isə “Kitabi-Dədə Qorqud”un yubileyini təyin etmişəm.

Keçən dəfə də biz belə fikirdə idik. İndi biz bunu həyata keçiririk. Ona görə də bu yubileyi təkcə biz yox, bütün qardaş türkdilli, türk köklü ölkələrin dövlət başçılarının – prezidentlərinin iştirakı ilə keçirəcəyik. Artıq az vaxt qalıbdır. Ona görə də biz yubiley mərasimlərinə hazırlığın son mərhələsində daha da intensiv işləməli və lazım olan işləri görməliyik.

Bu məqsədlə mən bu gün dövlət komissiyasının iclasını toplamışam və komissiyanın üzvlərindən əlavə, bir çox dədəqorqudşünaslar, bu sahənin mütəxəssisləri də dəvət olunublar. Güman edirəm ki, biz komissiya sədrinin müavinlərini dinləsək, onlar indiyədək görülmüş işlər haqqında lazımi məlumatlar verəcəklər. Eyni zamanda, aprel ayının 8-9-na qədər nə iş görmək lazımdırsa, təkliflərini verə biləcəklər.

YEKUN NİTQİ

Dinlədiyimiz məruzələrə əsasən və bu ötən üç il ərzində respublikada aparılan işləri özümüz müşahidə edərək yeganə bir fikir demək olar ki, həqiqətən böyük iş görülübdür. Bəlkə də biz 1997-ci ildə “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyini qeyd etmək üçün qərar qəbul edərkən o qədər böyük işlərin görülə biləcəyini və xüsusən bizim xalqımız, millətimiz üçün “Dədə Qorqud”un tamamilə açılıb cəmiyyətə bu cür təqdim olunacağını təsəvvür edə bilməzdik.

Son illərdə biz bir çox yubileylər keçirmişik. Bunların da hamısının əhəmiyyəti vardır. Çünki hər bir yubiley tədbiri hansısa tarixi şəxsiyyətin yaradıcılığını, onun əsərlərini canlandırır, yenidən ictimaiyyətə göstərir.

Bizim tariximiz – ümumi tariximiz, o cümlədən mədəniyyətimizin və ədəbiyyatımızın zəngin tarixi indiyədək lazımi qədər tədqiq olunmadığına görə bu yubiley tədbirləri bizə məlum olmayan məsələləri açır, aşkar edir. Beləliklə, biz zənginləşirik, yəni tariximizin zənginliyini hiss edirik və onun nə qədər zəngin olduğunu ictimaiyyətə çatdıra bilirik. Məsələn, Füzulinin 500 illik yubileyinin hazırlanması və keçirilməsi xalqımıza Füzulini demək olar ki, yenidən tanıtdı, bəxş etdi.

Tarixi şəxsiyyətlər və xüsusən qədim dövrdə Azərbaycan xalqının tarixi şəxsiyyətləri ümumiyyətlə az öyrənilib, tədqiq olunub və müasir nəsillərə çox az məlumdur. Buna görə də belə tədbirlərin keçirilməsi o demək deyildir ki, yubiley keçirib hansısa konsert dinləyəsən, yaxud hansısa bir şənliyin iştirakçısı olasan. Bunların əsas mənası və məqsədi zəngin tariximizin hər bir səhifəsini açmaq, geniş tədqiq etmək, onu xalqımıza və dünyaya təqdim etmək və beləliklə də əsrlər boyu tarixşünaslıq nöqteyi-nəzərindən itirdiyimiz şeyləri bərpa etməkdir.

Biz komissiyanın ötən iclaslarında da qeyd etmişdik, amma mən bu gün bunu bir daha demək istəyirəm ki, "Kitabi-Dədə Qorqud" dastanı indiyə qədər Azərbaycanda az bir təbəqəyə məlum olan abidədir, əsərdir. Bunu bilənlər bizim tarixçilərimizdir, – onların da hamısı yox, – o adamlardır ki, "Dədə Qorqud"un tədqiqi ilə məşğul olublar. Bunu bilənlər bizim ədəbiyyatçılarımız, yazıçılarımızdır. Cəsarətlə demək olar ki, onların bəlkə də hamısı yox. Geniş kütləyə, xalqımıza, millətimizə gəldikdə isə, onu demək olar ki, ötən üç il müddətində gördüyümüz işlər apardığımız təhlillər və bu müzakirələrdə dinlədiyimiz fikirlər təsdiq edir ki, bizim geniş kütləmiz "Dədə Qorqud" haqqında çox az təsəvvürə malik idi, az şey bilirdi.

Biz indi bu üç il müddətində – buradakı məruzələr, çıxışlar bunu göstərdi – birincisi, "Kitabi-Dədə Qorqud" dastanını xalqımıza yaxşı tanıtdıq, ikincisi, dünyaya tanıtdıq, üçüncüsü, tam təsdiq etdik ki, bu, Azərbaycana məxsusdur. Bəli, bu, türk xalqlarına məxsusdur, ancaq Azərbaycana məxsusdur. Onun vətəni Azərbaycandır və varisi, sahibi Azərbaycandır, yəni Azərbaycan xalqıdır. Biz gələcək işlər üçün böyük yol açdıq. Təsəvvür edin, bax, qısa müddətdə nə qədər kitablar nəşr olunubdur. Amma bizim komissiyanın birinci iclasını yadınıza salın. Nə var idi? Bunlar yox idi.

O vaxt siz də deyirdiniz, indi burada çıxış edənlər də deyirlər ki, Həmid Araslı, Bartold bir şey yazıblar, nəşr etdiriblər, amma o da itib gedibdir. Dəmirçizadə də bir şey yazıbdır, o da yoxdur. Bizim bir neçə alimimiz – bəziləri burada iştirak edirlər – çox şey yazıblar, amma bunları nəşr etdirə bilməyiblər, yazdıqları da özlərində qalıbdır. Ancaq görün indi qısa bir müddətdə nə qədər əsərlər yaranıbdır. Həqiqətən, bu, doğru sözdür ki, bütün bu tədbirlərin hər bir cəhəti əhəmiyyətlidir. Amma ən əhəmiyyətlisi odur ki, əsərlər yaranır və bu əsərlər gələcək üçün, bizim tariximizin daha da geniş, dərin təhlil olunması üçün, gələcək nəsillər üçün böyük töhfədir.

Mən hesab etmirəm ki, bununla iş bitir. Çünki mən özüm də etiraf etməliyəm ki, "Dədə Qorqud"un bu qədər dərin dərya olduğunu təsəvvür edə bilmirdim. İndi kimsə desə ki, yox, o bilirmiş, – güman edirəm, xəta edir, mən bilmirdim. Məsələn, mənim bu barədə biliklərim bu kitablardan – təkcə onların sayına görə yox, hər birinin məzmunu və mənasına görə – nə qədər artıbdır. Hesab edirəm, eləcə də hər bir Azərbaycan vətəndaşının biliyi artıbdır.

Kütləvi surətdə həyata keçirilən tədbirlər "Dədə Qorqud"u geniş kütlələrə tanıdır. Bu kitabların yazılması və keçmişdə yazılmış kitabların belə nəfis şəkildə yenidən nəşr olunması çox qiymətlidir. Mən dünən soruşdum ki, bunların tirajı nə qədərdir – 1000, 2000 nüsxədir? Bir il keçəndən sonra bu kitabları yenə də tapmaq mümkün olmayacaqdır.

Təbiidir ki, indi biz hər bir kitabı bir neçə min nüsxədə nəfis şəkildə nəşr edə bilmərik. Biz bunları yubiley üçün yaratmışıq. Ancaq fikrim bundan ibarətdir ki, bu kitabların çoxunu, bəlkə də hamısını, yaxud bir qismini geniş kütlələr üçün böyük tirajla sadə şəkildə nəşr edək. Onları geniş kütlələrə çatdırmaq üçün satışa buraxaq, kitabxanalara verək. İndi nəşr etdirdiyimiz bu əsərləri kitabxanalara versək, yerdə bir şey qalmayacaqdır. Çünki bunlar 1000-2000 nüsxədir, bundan artıq deyildir, elədirmi?

Elçin Əfəndiyev: Cənab prezident, heç 2000 nüsxə deyildir.

Heydər Əliyev: Deyirsən ki, heç 2000 nüsxə yoxdur. Ona görə gəlin açıq danışaq ki, bizim bu işimiz yubileydə, sadəcə, yaxşı kitablar göstərməklə məhdudlaşmasın. Bu, başlanğıc olsun.

Ancaq geniş kütlənin "Kitabi-Dədə Qorqud" dastanı, abidəsi ilə bu gün və gələcəkdə dərindən tanış olması və onu dərindən bilməsi üçün – bunun əsas mənası ondan ibarətdir ki, öz kökünü, keçmişini, millətinin tarixini dərindən bilsin – biz bugünkü və gələcək nəsillərin bu kitablardan lazımi qədər istifadə etməsi imkanına malik olmalıyıq. Mən bu fikri dünən söyləmişəm, indi bir daha deyirəm. Mən görülən işləri çox yüksək qiymətləndirirəm. Ancaq bu, işin başlanğıcı olmalıdır. Bunun üçün biz vəsait də tapa bilərik. Doğrudur, indi bizim vəsaitimiz o qədər də çox deyildir. Amma biz buna qənaət etməməliyik, bunları etməliyik. Çünki bunlar xalqımız, gələcək üçün lazımdır.

Alimlərimiz, yazıçılarımız bu qısa müddətdə keçmiş kitablardan əlavə yeni əsərlər yazıblar. Bu, çox gözəl hadisədir. Düşünürəm ki, əgər bu yubiley haqqında fərman imzalanmasaydı, bu işlər görülməsəydi, bəlkə də müəlliflərdən 5 faizi öz vaxtını sərf edib belə kitablar yazardılar. Ancaq bu yubileyin keçirilməsi haqqında qəbul etdiyimiz qərar və Azərbaycanda bu məsələnin ötən üç il müddətində geniş təbliğ olunması, bu işə dövlətin böyük əhəmiyyət verməsi bizim bir çox alimlərimizi, yazıçılarımızı həvəsə gətiribdir. Onların hər biri yeni bir kitab yazıbdır. Beləliklə də "Dədə Qorqud" haqqında bizim həm tarixi kitablarımız, həm də ədəbi-publisist kitablarımız artıbdır. Bu da çox gözəl hadisədir.

Mən bütün bunları çox yüksək qiymətləndirirəm. Bu sahədə zəhmət çəkmiş komissiya üzvlərinə və həmin məsələlərlə məşğul olanların hamısına təşəkkür edirəm. Hesab edirəm ki, bu iş davam etdirilməlidir. Mənim bu fikirlərimi həyata keçirmək üçün bəlkə də biz yubileydən sonra yeni bir tədbirlər planı qəbul edə bilərik. Ola bilər, bu tədbirlər planı 1, 2, 5 ili, bəlkə də ondan artıq bir dövrü əhatə etsin ki, biz qarşıdakı illərdə nə etməliyik.

İndi hamı bu fikirdədir, kitablar da onu göstərir, Drezden kitabxanasından gələn nüsxə də bunu deyir ki, "Kitabi-Dədə Qorqud" dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu, bizim ana kitabımızdır. Bu kitabın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. İnsanlar bütün bunları nə qədər çox bilsələr, millətini, xalqını, vətənini və müstəqil Azərbaycanı da bir o qədər çox sevəcəklər. Bu, bizim xalqımızın çoxəsrlik tarixində yeni bir mərhələdir.

Azərbaycan 8 ildir ki, müstəqil dövlətdir. Bu illərin çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə açmışıq, xalqımıza göstərmişik. Beləliklə də xalqımız öz tarixini, keçmişini daha dəqiq bilərək daha da məğrur insan, azərbaycanlı, vətəndaş olur. Bu, çox mühüm məsələdir. Çünki dövlət müstəqilliyini əldə etmək, dövlət quruculuğunda dəyişikliklər yaratmaq və hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə getmək böyük bir prosesdir. Amma onu elan etmək, bu barədə dövlət tədbirləri həyata keçirmək azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil Azərbaycanlılığın, Azərbaycanın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən dərk etsin. Biz buna nə qədər çox nail olsaq, bizim millətimizdə millilik, vətənpərvərlik əhval-ruhiyyəsi, öz torpağına, xalqına məhəbbət hissi bir o qədər çox artacaqdır.

Görülən işlər, bax, bu baxımdan çox böyük əhəmiyyətə malikdir. Bəlkə də XX əsrdə, elə əsrin əvvəlindən indiyə qədər – əlbəttə, ondan əvvəl belə işlə görülməyibdir – görülən bütün işlərin içərisində bunun qədər əhəmiyyətli, dəyərli iş yoxdur.

Biz indi bu yubiley tədbirlərinin son mərhələsinə gəlib çatmışıq. Burada məlumat verildi ki, yubileyin zirvə tədbirinin planları artıq hazırdır. Ancaq mən istəyirəm biləsiniz ki, onları da çox mütəşəkkil qaydada təşkil etmək lazımdır.

Burada deyildi ki, qonaqlar çox olacaqdır. Onların bir qismi dəvət olunan mütəxəssislər, alimlərdir. Amma bir qismi də türkdilli ölkələrin dövlət başçıları və onların nümayəndə heyətlərində gələn şəxslər olacaqdır. Yəqin ki, məhz yubileyə gələn qonaqlar üçün xüsusi bir proqram yaradılmalıdır. Yubileyə gələn alimlər, yazıçılar, mütəxəssislər bu fürsətdən istifadə edib, həmin proqram əsasında Azərbaycanla daha da yaxından tanış olacaqlar.

Biz türkdilli ölkələrin dövlət başçılarının proqramını ayrıca təşkil edirik. Yəni onlar aprelin 8-də Bakıya gələcəklər. Biz günün ikinci yarısında görüşlər keçirəcəyik, məsələlərimizi müzakirə edəcəyik. Bununla da dövlət başçıları səviyyəsində işimiz bitəcəkdir. Amma ayın 9-da həm dövlət başçıları, həm onlarla gələn nümayəndə heyətlərinin üzvləri, həm də bütün başqa qonaqlar – hamısı birlikdə bir tədbirdə iştirak edəcəklər. Ona görə də, bir daha qeyd edirəm, iki proqram olmalıdır. Bizim komissiyanın üzvləri, sədrin müavinləri bunları hazırlasınlar və mənə təqdim etsinlər.

Respublika sarayında keçiriləcək tədbir gərək çox yığcam olsun. Mən bunu əvvəlcədən bildirmək istəyirəm. Çünki çoxlu qonaqlar gələcəkdir. Yəqin onların da çoxu söz demək arzusunda olacaqdır. Ancaq buna, sadəcə, vaxt imkan vermir. Çünki təbiidir ki, türkdilli ölkələrin dövlət başçılarının hər biri çıxış edəcəkdir, söz deyəcəkdir. Biz indi müəyyən edəcə-

yik ki, Azərbaycandan bir, yaxud iki nəfər adam bu barədə söz desin. Əgər biz orada çıxışlara geniş imkan açsaq, buna iki gün vaxt lazım olacaqdır. Ona görə də bu barədə düşünməlisiniz. Mən komissiya sədrinin müavinlərinə tapşırıram ki, bu barədə düşünsünlər, Abdullazadə mənə məruzə etsin. Mən bu məsələyə baxaram, öz fikrimi deyərəm.

Rəsmi hissədən sonra keçiriləcək konsert də çox yığcam olmalıdır. Biz son illər Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda belə tədbirlərdə iştirak etmişik. Burada oturanlardan gərək ki, kimlərsə həmin tədbirlərdə mənimlə birgə olubdur. Mən nəyi müşahidə etmişəm? Tədbir uzananda öz keyfiyyətini itirir, yorucu olur. Bunu niyə deyirəm? Olduğumuz ölkələrdə mən bunu hiss etmişəm. Məqsəd ondan ibarət deyildir ki, iki saatlıq konsert göstərəsən, daha da çox çıxışlar olsun. Məqsəd bundan ibarət deyildir.

Biz öz işimizi, demək olar ki, görmüşük. İşimiz də ondan ibarətdir ki, "Kitabi-Dədə Qorqud" ötən üç il müddətində həm təhlil, həm də tədqiq edilibdir, həm də təbliğ olunubdur. Zirvə tədbiri buna, sadəcə, yekun vurmaq deməkdir, onu uzatmaq olmaz, – bu barədə fikirləşin, mənim bu sözlərimi əsas götürün, – o, çox yığcam olmalıdır.

Fərəməz Maqsudov burada dedi ki, elmi konfrans keçirəcəklər. Yəqin ki, həmin tədbir bu ərəfədə olacaqdır.

Fərəməz Maqsudov: Bəli, cənab prezident.

Heydər Əliyev: Demək, həmin tədbir aprelin 7-də keçiriləcəkdir. Gələn qonaqların ola bilər ki, hamısı kim istəsə, həmin elmi konfransda çıxış etsin. Ola bilər, onlar başqa bir tədbirdə çıxış etsinlər. Yəni mən belə fikirdəyəm ki, yubiley gecəsində – həmin tədbir gecə olmayacaq, biz onu gündüz, təxminən saat 11-də başlayacağıq, bu tədbiri gecə keçirmək olmaz, türkdilli ölkələrin dövlət başçılarından və Azərbaycanın bir-iki nümayəndəsindən başqa adamlara çıxış etməyə imkan verilməyəcəkdir. Mən sizə açıq deyirəm ki, yəni buna imkan olmayacaqdır.

Siz onu da bilməlisiniz ki, aprelin 7-də Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gələcəkdir. Demək, biz bütün günü onunla məşğul olacağıq. Yəqin ki, mədəniyyət xadimlərindən bir neçəsi bu tədbirlərdə iştirak etməlidir. Aprelin 8-də türkdilli ölkələrin dövlət başçıları Bakıya gələcək, zirvə görüşü keçiriləcək və onlarla danışıqlar aparılacaqdır. Aprelin 9-da "Kitabi-Dədə Qorqud" dastanının yubiley tədbiri keçiriləcəkdir. Ona görə də siz bunları nəzərə almalısınız. Bəlkə də hansısa əlavə tədbirlər müəyyən etməlisiniz.

Bir halda ki, çoxsaylı qonaqlar gəlir, təbiidir, onların Azərbaycanda təkcə hansısa bir tədbirdə iştirak etməsi yox, çıxış etməsi, söz deməsi də bizim üçün çox vacibdir. Amma yubiley mərasimində bu, mümkün olmayacaqdır. Yubiley mərasiminə ancaq dövlət başçıları çıxış edəcəklər. Başqalarının çıxış etməsi mümkün olmayacaqdır. Ona görə də bunun üçün xüsusi tədbirlər hazırlamalısınız. Həmin tədbirləri ayın 7-də, 8-də keçirmək olar. 9-da isə biz hamımız ümumi tədbirdə birgə olacağıq.

Təbiidir ki, aprelin 7, 8, 9-da keçirilən tədbirləri sonra yekunlaşdırıb kitab, toplu şəklində nəşr etmək lazım olacaqdır. Bu da çox əhəmiyyətlidir. Çünki bu, üç ildə bizim keçirdiyimiz yubiley tədbirlərinin yekunu kimi, yeni bir kitab, yaxu da bir neçə kitab olacaqdır. Bunu da düşünmək lazımdır.

Nəhayət, mən bildirmək istəyirəm ki, indiyədək görülən işləri yüksək qiymətləndirmək lazımdır. Şübhə yoxdur ki, aprelin 9-na qədər görüləcək tədbirlər, aparılacaq işlər də belə yüksək səviyyədə keçəcəkdir. Beləliklə, biz müstəqil Azərbaycanın tarixinə böyük bir qızıl səhifə yazmış olacağıq.

Sizin hamınıza bir daha təşəkkür edirəm.

Elçin Əfəndiyev: Cənab prezident, xahiş edirik abidə məsələsi barədə fikrinizi bildirəsiniz.

Heydər Əliyev: Abidə məsələsi. Təəssüflər olsun ki, bu məsələ çox gecikibdir. Həmin məsələni biz 1999-cu ilin əvvəlində müzakirə etmişdik.

Mən sizi dinlədim, belə fikirdəyəm ki, haqqında danışdığınız, uşaq dəmir yolu yerləşən bağ həqiqətən çox gözəl bir bağdır. Gərək ki, onun bir tərəfi də keçmiş Dzerjinski parkıdır. Elədir, yoxsa yox? Həmin bağla park birləşir?

Rəfael Allahverdiyev (Bakı Şəhər İcra Hakimiyyətinin başçısı): Bəli, cənab prezident.

Heydər Əliyev: Eşitmişəm ki, o parkda bəzi şəxsi evlər və sairə tikilir. Belədir?

Rəfael Allahverdiyev: Cənab prezident, Sizin tapşırığınızdan sonra gedib yoxladıq, orada heç bir şəxsi ev tikilməyibdir. Parkın ətrafında 10-15 il bundan əvvəl özbaşına tikilmiş evlər var.

Heydər Əliyev: Hesab edirəm ki, orada gələcəkdə böyük bir park, "Dədə Qorqud" meydanı ola bilər. Mən sizə tapşırıram, baş nazir də, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı da, komissiya sədrinin müavinləri də bununla məşğul olsunlar. Tapşırıram ki, uşaq dəmir yolu yerləşən bağı, bir də keçmiş Dzerjinski parkını – hamısını birlikdə götürün, onun böyük baş planını yaradın. Həmin planı təqdim edin, baxaq. Mən bu plana baxmağı o nöqteyinəzərdən deyirəm ki, orada hər şey istənilən kimi olsun. Fikrim budur ki, o, "Dədə Qorqud" meydanı, parkı üçün və gələcəkdə qoyulacaq "Dədə Qorqud" abidəsi üçün çox dəyərli yerdir. Azərbaycanın ən gözəl yerlərindən biridir.

Bilirsiniz ki, son illər böyük narahatlıq keçirirəm. İndi sərbəstlik verilib, şəxsi evlər tikilir. Təəssüflər olsun ki, bizim bəzi yerli icra orqanlarımız şəhərin gözəlliyini, yaxud memarlıq üslubunu pozaraq elə tikintilərə yol verirlər ki, onlar Bakını əvvəlki simadan salır. Elə buna görə də mən çox narahatam. Bir dəfə eşitdim ki, keçmiş Dzerjinski parkında evlər tikirlər və bu barədə Rəfael Allahverdiyevə dedim. Mən çox narahatam ki, belə yerləri götürüb sonra ondan yenə də şəxsi məqsədlər üçün istifadə edəcəklər. Yaxşı olar ki, biz həmin yerdə "Dədə Qorqud" parkı yaradaq. Təbiidir ki, yaxşı planlaşdırsanız, həmin ərazi Bakı vətəndaşlarının gözəl istirahət yeri olacaqdır.

Şıx yamacı tərəfdə hansısa bir abidənin qoyulması bir az mübahisəli məsələdir. Şıx deyilən yerdə vaxtilə salınmış "Xalqlar dostluğu" parkının təməlini 1971-ci ildə mən qoymuşam. Ora tamamilə boş bir yer idi. Məqsəd də oranı yaşıllaşdırmaqdan ibarət idi. O vaxt biz yaşıllaşdırma proqramını həyata keçirirdik. Mən bəlkə də 10-15 dəfə gedib orada ağac əkmişəm. İndi bir dəfə iməcilik keçirirdik, hamımız oraya gedirdik, ağac əkirdik. Həmin parka bir müddət yaxşı baxdılar, oradakı ağaclar böyüdü. Amma sonra ümumiyyətlə, ölkədə olan vəziyyət yəqin ki, həmin parka da çox təsir edibdir. İndi ora pis haldadır. Elədir, yoxsa yox?

Rəfael Allahverdiyev: Cənab prezident, bəli, pis haldadır.

Heydər Əliyev: Güman edirəm, indi oranı elə pis halda qoymaq olmaz. Onu bərpa etmək barədə fikirləşmək lazımdır. Çünki həmin ərazi yaşıllaşdırılmalıdır və Bakının gözəl bir yeri olmalıdır. Şıx yamacının yaxınlığında insanların istirahət etməsi üçün çimərlik də, başqa yerlər də vardır. Amma bu, gələcəyin işidir. Gəlin, bir işi görək, "Dədə Qorqud parkı"nı yaradaq, orada heykəl də qoyaq. Amma gələcəkdə imkan yaransa, ikinci təklifə də baxmaq olar. Bu təkliflərin ikisini də birdən həyata keçirmək mümkün deyildir.

Elçin, sən bir məsələni də mənim yadıma saldın: siz indiyə qədər Dədə Qorqudun surətini yarada bilməmisiniz. Heç kəs də bu barədə danışmır.

Elçin Əfəndiyev: Cənab prezident, biz Sizin tapşırığınızdan sonra Rəssamlar İttifaqında böyük bir müsabiqə elan etdik. Bu barədə mətbuatda da məlumat verdik.

Sizin fərmanınıza əsasən bu yubileyi biz keçən il keçirməliydik, müsabiqəyə də o vaxt yekun vurulmalı idi. Biz, komissiyanın üzvləri gedib bu sahədə görülən işlərə baxdıq. Orada həqiqətən müəyyən iş aparılmışdı. Buna baxmayaraq, komissiya üzvləri istənilən obrazı görmədilər və biz belə qərara gəldik ki, müsabiqənin vaxtını uzadaq. Bu yaxınlarda biz yenə də gedib bu sahədə görülən işlərlə tanış olduq. Sizin bayaq dediyiniz istiqamətdə, "Kitabi-Dədə Qorqud"la əlaqədar müxtəlif mövzularda əsərlər işlənib hazırlanıbdır. Dədə Qorqudun çox müxtəlif obrazları yaradılıbdır. Gənc rəssamlarımız da bu işə qoşulubdur. Lakin komissiya üzvlərinin fikri yenə də belə oldu ki, biz müsabiqənin vaxtını bu ilin axırınadək uzadaq. Çünki Dədə Qorqudun obrazı hələ istənilən səviyyədə yaradılmayıbdır. Doğrudur, bir-iki əsər var. Lakin müsabiqənin birinci, ikinci, üçüncü və həvəsləndirici mükafatlarını təqdim etməyə layiq əsərlərin yaradılması üçün müsabiqənin vaxtını uzatmalıyıq.

Heydər Əliyev: Respublikamızda böyük bir rəssamlar dəstəsi vardır.

Elçin Əfəndiyev: Cənab prezident, onların hamısı bu işdə iştirak edib.

Heydər Əliyev: Alimlərimiz, yazıçılarımız bu qədər kitablar yazıblar. Bəs rəssamlar nə ediblər?

Elçin Əfəndiyev: Rəssamlar da çox iş görüblər. Amma daha da çox iş görə bilərlər.

Heydər Əliyev: Mən burada bu rəsmləri görürəm. Bu da yəqin ki, bizim rəssamların işləridir.

Elçin Əfəndiyev: Cənab prezident, onlar "Kitabi-Dədə Qorqud" dastanının motivləri əsasında çəkilmiş illüstrasiyalardır. Əlamətdar cəhət ondan ibarətdir ki, onu Birləşmiş Millətlər Təşkilatı buraxıbdır.

Heydər Əliyev: Mən onu bilirəm. Bunların müəllifi kimdir?

Elçin Əfəndiyev: Cənab prezident, müəllifi Azərbaycan rəssamlarıdır.

Heydər Əliyev: Hər halda mən bunlara diqqətlə baxmamışam. Amma çox yaxşı təsir bağışlayır.

Elçin Əfəndiyev: Cənab prezident, bəli, çox yaxşı işlərdir. Amma onlar kitab illüstrasiyalarıdır.

Heydər Əliyev: Mən başa düşürəm ki, bu, kitab illüstrasiyasıdır. Bəs onun öz obrazını biz yaratmasaq, kim yaradacaqdır?

Elçin Əfəndiyev: Cənab prezident, biz qərara gəldik ki, vaxtı bir qədər uzadaq.

Heydər Əliyev: Yaxşı, üç ildir vaxt gedir.

Elçin Əfəndiyev: Cənab prezident, bu sahədə iş bir ildir ki, gedir.

Heydər Əliyev: Bəs ondan əvvəl bu barədə fikirləşməmişdiniz?

Elçin Əfəndiyev: Cənab prezident, bu məsələ Sizin yanınızda keçirilmiş iclasda qaldırılmışdı.

Heydər Əliyev: Axı bu obrazı yaratmaq lazımdır.

Elçin Əfəndiyev: Cənab prezident, doğru deyirsiniz, lazımdır. Güman edirik ki, rəssamlara ilin sonunadək vaxt versək, bu işi başa çatdıra bilərlər.

Heydər Əliyev: Yaxşı, siz müəyyən etmisiniz – nə qədər mükafat veriləcəkdir?

Elçin Əfəndiyev: Cənab prezident, müsabiqənin şərtləri var, onlar mətbuatda da dərc olunubdur.

Heydər Əliyev: Məsələn, bu şərtlər nədən ibarətdir? Nə qədər mükafat veriləcəkdir?

Elçin Əfəndiyev: Cənab prezident, qiymət dəqiq yadımda deyildir.

Heydər Əliyev: Demək istəyirəm ki, bəlkə maddi cəhətdən bir az maraqlandırasınız ki, bu insanlar daha da həvəslə işləsinlər. Baxın, görün nə etmək olar.

Elçin Əfəndiyev: Cənab prezident, biz bir daha müzakirə edib, Sizə məlumat verərik.

Fərhad Xəlilov (Respublika Rəssamlar İttifaqının sədri): Cənab prezident, rəssamlarımız bu işdə çox fəal iştirak edirlər. Biz bunun üçün bir simpozium da keçirmişik. Həmin simpoziumda Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan, Qazaxıstan və digər ölkələrin rəssamları iştirak ediblər. Bundan əlavə, biz çox maraqlı bir görüş də keçirmişik.

Heydər Əliyev: Bunlar hamısı yaxşıdır. Amma vaxtımı alma.

Fərhad Xəlilov: Cənab prezident, biz bu müsabiqəni elan etmişik. Onun şərtləri bundan ibarət idi ki, birinci mükafat 1500, ikinci mükafat 1000, üçüncü mükafat 750 ABŞ dolları məbləğində olsun.

Heydər Əliyev: Elə bu qiymətə görə siz onu yarada bilməmisiniz.

Fərhad Xəlilov: Cənab prezident, Siz soruşdunuz ki, qiymət nə qədərdir.

Heydər Əliyev: Yaxşı, biz qiyməti artırsaq, bu obrazı yarada biləcəksinizmi?

Fərhad Xəlilov: Cənab prezident, biz yaradılmış əsərlərin fotosurətini Sizə göstərməliyik.

Heydər Əliyev: Mənə göstərməliydiniz, axı ona mütəxəssislər baxmalıdır.

Fərhad Xəlilov: Cənab prezident, mütəxəssislər baxıb, 40-dan çox əsər yaranıb. Amma belə qərara gəldilər ki, vaxt bir qədər də uzadılsa, yaxşı olar.

Heydər Əliyev: Yaxşı, mən bu gün təyin edirəm: birinci mükafat 10 min dollar, ikinci mükafat 7000 dollar, üçüncü mükafat 5000 dollar.

Anar: Cənab prezident, istəyirəm mən də şəkil çəkməyə başlayım.

Heydər Əliyev: Siz də şəkil çəkməyə başlayacaqsınız? İndi bildin? İş burasındadırsa, get, hamıya məlumat ver: rəssamsan, həm əsər yaradacaqsan, həm də 10 min dollar qazanacaqsan. Mən elan etdim, siz də icra edin.

Sağ olun. Gələn görüşədək.

RESPUBLİKA SARAYINDA “KİTABİ-DƏDƏ QORQUD” DASTANININ 1300 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NİTQİ

9 aprel 2000-ci il

Hörmətli dövlət başçıları!

Hörmətli məclis başçıları!

Hörmətli qonaqlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan xalqı möhtəşəm “Kitabi-Dədə Qorqud” eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi bir hadisədir. Bu, bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır.

Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan “Kitabi-Dədə Qorqud” 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə “Kitabi-Dədə Qorqud” dastanının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır.

1300 il ərzində “Kitabi-Dədə Qorqud” böyük, möhtəşəm, şanlı yol keçmişdir. “Kitabi-Dədə Qorqud” bütün çətinliklərə, məhdudiyyətlərə baxmayaraq, 1300 il ərzində bizim xalqlarımıza mənəvi qida olmuş, onların yaşamasına, mübarizə aparmasına, öz milli mənliyini dərk edib, hifz etməsinə daim yardım göstərmişdir.

Ancaq onu da qeyd etmək lazımdır ki, biz “Kitabi-Dədə Qorqud”un 1300 illik tarixinə yüksək qiymət verərək, etiraf etməliyik ki, son üç il ərzində Azərbaycanda “Kitabi-Dədə Qorqud” irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar “Kitabi-Dədə Qorqud”u bizim xalqımıza, bütün türk dünyasına, türkdilli xalqlara tanıtmış və onun nə qədər zəngin sərvət olduğunu bütün dünyaya nümayiş etdirmişdir.

Dünən Türkdilli Dövlətlər Birliyinin VI Bakı zirvə görüşü öz işini uğurla sona çatdırdı. Biz bu zirvə görüşündə Türkdilli Dövlətlər Birliyi yaranan vaxtdan keçmiş 8 il ərzində gördüyümüz işləri təhlil etdik, ona nəzər saldıq və böyük nailiyyətlər əldə etdiyimizi bildirdik. Təbiidir ki, Türkdilli Dövlətlər Birliyinin yaranması türk dünyasında, bizim xalqlarımızın hər birinin həyatında tarixi hadisə olmuşdur. Amma 8 il ərzində onun yaşaması, inkişaf etməsi, genişlənməsi bu birliyin yaranmasının bir tərəfdən nə qədər zəruri olduğunu nümayiş etdirdi, ikinci tərəfdən də bu birliyin bizim xalqlarımız üçün gələcəkdə nə qədər gərəkli olduğunu göstərdi.

Ötən illərdə əldə etdiyimiz nailiyyətlər bizim ümumi səylərimizin nəticəsidir. Ancaq eyni zamanda, qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyətinin, əziz dostumuz, qardaşı-

mız Süleyman Dəmirəlin təşəbbüsü ilə yaranmış Türkdilli Dövlətlər Birliyi, təbiidir ki, birinci növbədə Türkiyə Cümhuriyyətinin böyük xidmətlərini göstərir.

Bu gün biz hamımız VI zirvə görüşünü uğurla başa çatdıraraq, xalqlarımızın müştərək tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud"un yubileyinə toplaşmışıq. Bu yubileyə daha da çox əhəmiyyət verən, onun səviyyəsini qaldıran odur ki, biz onu türkdilli dövlətlərin başçıları ilə birlikdə keçiririk. Mən bu yubileydə iştirak edənlərin, bizim dəvətimizi qəbul edib Azərbaycana gələnlərin hamısına təşəkkürümü bildirirəm və onların hamısını səmimi qəlbdən salamlayıram.

Türkiyə Cümhuriyyətinin prezidenti, Azərbaycan xalqının böyük dostu, əziz qardaşım Süleyman Dəmirəli salamlayıram!

Qazaxıstan Respublikasının prezidenti, hörmətli qonağımız, əziz dostum, qardaşım Nursultan Nazarbayevi salamlayıram!

Qırğızıstan Respublikasının prezidenti, əziz dostum, qardaşım Əsgər Akayevi salamlayıram!

Özbəkistan Respublikası nümayəndə heyətinin başçısı, Özbəkistan Ali Məclisinin sədri hörmətli Ergin Xəlilovu salamlayıram!

Türkmənistan Respublikası nümayəndə heyətinin başçısı, Türkmənistan Məclisinin sədri hörmətli Səhhət Muradovu salamlayıram!

YUNESKO təşkilatının baş direktoru, hörmətli qonağımız cənab Koisuro Matsuranı salamlayıram!

Azərbaycan xalqının böyük dostu, Fransa parlamentinin qocaman üzvü, veteranı cənab Jak Bomeli salamlayıram!

Məmnuniyyət hissi ilə qeyd edirəm ki, "Kitabi-Dədə Qorqud"un yubileyinə dünyanın bir çox ölkələrindən ictimai-siyasi xadimlər, alimlər, yazıçılar qonaq gəlmişlər, Azərbaycanda keçirilən elmi konfranslarda iştirak etmişlər. Onlar bizimlə bərabər buradadırlar. Mən Azərbaycana gəldikləri üçün qonaqlarımızın hamısına təşəkkürümü bildirirəm, onların hamısını səmimi qəlbdən salamlayıram.

"Kitabi-Dədə Qorqud"un son üç ildə tədqiq, təbliğ olunması Azərbaycan xalqına çox böyük faydalar verdi. Biz öz tarixi köklərimizi, milli-mədəni irsimizi bir daha dərk etməyə başladıq. Artıq biz dərk edirik ki, Azərbaycan xalqı, bütün türkdilli xalqlar dünya sivilizasiyasına nə qədər böyük töhfələr vermişlər. Bunların içərisində "Kitabi-Dədə Qorqud"un xüsusi yeri vardır.

"Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz vardır, fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi ulu əcdadımız vardır.

"Kitabi-Dədə Qorqud" xalqları, millətləri daim birliyə, sülhə dəvət edibdir. 1992-ci ildə Türkdilli Dövlətlər Birliyinin yaranması Dədə Qorqud vəsiyyətlərinin yerinə yetirilməsinin parlaq nümunəsidir.

Biz dövlət müstəqilliyimizi əldə edəndən, milli azadlığımıza çatandan sonra bu birliyin təmin olunması üçün böyük imkanlar əldə etmişik və bu birliyin bizim xalqlarımız üçün nə qədər əhəmiyyətli olduğunu dərk etmişik.

“Kitabi-Dədə Qorqud”un birliyə çağırışı bu gün hər birimiz üçün lazımdır. Dövlət müstəqilliyi yolu ilə gedən, ölkədə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu aparan Azərbaycanda milli birlik, milli həmrəylik hər şeydən vacibdir.

Bu gün biz “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyini təntənəli bayram edərək, onun bu vəsiyyətlərinə sədaqətimizi bildiririk və bəyan edirik ki, Azərbaycan xalqı müstəqillik yollarında qarşıda duran bütün ağır və çətin məsələlərin həll edilməsində daha da bir, daha da əlbir olacaqdır və daim irəliyə doğru gedəcəkdir.

“Kitabi-Dədə Qorqud” qəhrəmanlıq dastanıdır. Biz “Kitabi-Dədə Qorqud”un vəsiyyətlərindən bu gün həyatımızda istifadə edərək, xalqımızda vətənə məhəbbət, sevgi, sədaqət, vətənpərvərlik, hisslərini daha da artırırıq. “Kitabi-Dədə Qorqud” bu gün bizə çox gərəklidir.

“Kitabi-Dədə Qorqud” insanları, xalqları sülhə, barışa dəvət edibdir. Bizim xalqımız bu gün “Kitabi-Dədə Qorqud”un bu vəsiyyətlərinə sadiqdir. Ermənistan tərəfindən Azərbaycana edilən təcavüz nəticəsində torpaqlarımızın 20 faizi işğal olunubdur, işğal edilmiş ərazilərdən bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan didərgin düşüb çadırlarda ağır vəziyyətdə yaşayırlar. Biz böyük zərbələr almışıq. Amma bunlara baxmayaraq, Azərbaycan xalqı yenə də bütün dünyaya öz sülhsevərlik siyasətini nümayiş etdirir. Biz Dədə Qorqud yolu ilə gedirik. Biz sülh yolu ilə gedirik. Biz bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz bütün ölkələrdə, türkdilli ölkələrdə sülhün, əmin-amanlığın bərqərar olunmasını istəyirik. Beləliklə, bu gün biz yubiley günündə Dədə Qorqud vəsiyyətlərinə sədaqətimizi bir daha nümayiş etdiririk.

“Kitabi-Dədə Qorqud” özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər “Kitabi-Dədə Qorqud”un öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür. Xüsusən son üç il ərzində yubiley komissiyasının üzvləri, Azərbaycanın alimləri, tədqiqatçıları, yazıçıları, ictimai xadimləri tərəfindən görülən işlər yüksək qiymətə malikdir. Ona görə də bu gün, bu yubiley günü mən “Kitabi-Dədə Qorqud”un tədqiqi, təbliği ilə məşğul olmuş və bu yubiley mərasimlərinə çox dəyərli elmi əsərlər, kitablar hazırlamış alimlərimizə, yazıçılarımıza təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar bu yubiley tədbirlərindən ruhlanaraq öz elmi işlərini bundan sonra da davam etdirəcəklər. “Kitabi-Dədə Qorqud” dastanının hələ açılmayan səhifələri, hələ bu günə qədər məlum olmayan fikirləri bundan sonra aşkar ediləcək, Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinə və bütün türk dünyasına çatdırılacaqdır.

Biz bu gün böyük iftixar hissi keçiririk. Çünki bizim “Kitabi-Dədə Qorqud” kimi böyük tarixi abidəmiz vardır. Çünki bu gün biz sərbəstik, azadıq, müstəqilik və öz tarixi keçmişimizi, öz mənəvi dəyərlərimizi, öz mədəniyyətimizi olduğu kimi təhlil edib xalqımıza, millətimizə və gələcək nəsillərə çatdırmağa qadirik.

“Kitabi-Dədə Qorqud” yubileyinin ən böyük mənası, əhəmiyyəti ondan ibarətdir ki, bu, bizim milli azadlığımızı, dövlət müstəqilliyimizi, sərbəstliyimizi bir daha nümayiş etdirir. “Kitabi-Dədə Qorqud” vəsiyyətləri bizə deyir ki, daim müstəqillik yolu ilə getmək, Azərbaycanın milli azadlığını və dövlət müstəqilliyini əbədi etmək bizim hər birimizin qarşısında duran ali məqsəddir. Bu məqsədə nail olmaq üçün mən sizin hamınıza, bütün Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına böyük uğurlar arzulayıram. Sağ olun.

“KİTABİ-DƏDƏ QORQUD" DASTANININ 1300 İLLİK YUBİLEYİ ŞƏRƏFİNƏ HƏSR OLUNMUŞ AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN ADINDAN GÜLÜSTAN SARAYINDA KEÇİRİLƏN RƏSMİ QƏBULDA PREZİDENT HEYDƏR ƏLİYEVİN NİTQİ

9 aprel 2000-ci il

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

İki gündür ki, Azərbaycan, Azərbaycanın paytaxtı Bakı böyük bayram əhval-ruhiyyəsi ilə yaşayır. Dünən biz Türkdilli Dövlətlər Birliyinin VI zirvə görüşünü keçirdik və məmnuniyyət hissi ilə deyə bilərəm ki, türkdilli dövlətlərin başçılarının bu zirvə görüşü uğurla başa çatdı. Bu, böyük hadisədir. Çünki türk xalqları, türk dilində danışan xalqlar və türkdilli müstəqil dövlətlər son illərdə birlik yaratmağa və bu birlik çərçivəsində dövlətlərin, xalqların mühüm məsələlərini həll etməyə, qarşılıqlı faydalı əməkdaşlıq qurmağa fürsət tapıblar.

Biz dünən, ayın 8-də Türkdilli Dövlətlər Birliyinin səkkiz illik həyat yoluna yüksək qiymət verdik, hamımız eyni fikirdə olduq. Bir daha qeyd etmək istəyirəm ki, Türkdilli Dövlətlər Birliyinin yaranmasında və bu səkkiz il müddətində yaşamasında, uğurla fəaliyyət göstərməsində Türkiyə Cümhuriyyətinin və xüsusən Türkiyə Cümhuriyyətinin hörmətli prezidenti, mənim əziz dostum, qardaşım Süleyman Dəmirəlin xüsusi xidmətləri olmuşdur. Biz onu dünən xüsusi qeyd etdik.

Türkdilli Dövlətlər Birliyinin nə qədər gərəkli olmasını və onun işinin nə qədər səmərəli olmasını biz hamımız bu gün “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi ilə əlaqədar keçirilən təntənəli mərasimdə hiss etdik Türkdilli xalqların milli oyanış, dirçəlişi dövlət müstəqilliyini əldə etməsi öz tarixi köklərini dərindən öyrənməsi, dərk etməsi məhz belə gözəl nəticələr veribdir. Onun da ən parlaq nümunəsi “Kitabi-Dədə Qorqud” dastanının yubileyini hamımızın bir yerdə, o cümlədən müxtəlif ölkələrdən Azərbaycana gəlmiş qonaqlarla bir yerdə təntənəli qeyd etməyimizdir. Mən əminəm ki, Türkdilli Dövlətlər Birliyi bundan sonra da yaşayacaq, öz fəaliyyətini genişləndirəcək və xalqlarımızın daha da yaxınlaşması üçün, xüsusən bizim xalqlarımızın tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənlərini daha da dərindən öyrənmək üçün çox böyük faydalar verəcəkdir.

Azərbaycan xalqının, bütün türk xalqlarının tarixi abidəsi, elm abidəsi, fəlsəfə abidəsi olan “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyini qeyd etmək, deyə bilərəm ki, Azərbaycanın çoxəsrlik tarixində indiyə qədər bizim qeyd etdiyimiz bayramların, yubileylərin hamısından üstündür. Biz bundan nəyə nail olduq? Son üç il müddətində Azərbaycanda indiyə qədər heç vaxtlar olmadığı kimi, “Kitabi-Dədə Qorqud”un tədqiqinə, təhlilinə, onun mənası-

nın və məzmununun dərindən öyrənilməsinə, böyük əsərlərin yaranmasına və ən əsası isə "Kitabi-Dədə Qorqud"un bizim xalqımıza – Azərbaycan xalqına yenidən qayıtmasına nail olduq. "Kitabi-Dədə Qorqud"un 1300 il yaşı olduğunu bütün dünyaya bəyan etdik. Tarixdə – nəinki Azərbaycan tarixində, dünya tarixində – "Kitabi-Dədə Qorqud"un yaşı dəqiq, düzgün müəyyən olundu.

"Kitabi-Dədə Qorqud"u dünyaya tanıtdıq. YUNESKO çərçivəsində "Kitabi-Dədə Qorqud"un yubiley mərasimlərinin keçirilməsi, Drezdendə, Moskvada, Türkiyənin bir çox şəhərlərində, başqa yerlərdə "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsi və bununla bərabər yaranmış əsərlər, üç il müddətində "Kitabi-Dədə Qorqud"un təbliğ olunması "Kitabi-Dədə Qorqud" dastanını bütün dünyaya tanıtdı.

Xalqımız, Azərbaycanın bütün vətəndaşları bu üç il ərzində "Kitabi-Dədə Qorqud" ruhu ilə yaşamış və bizim apardığımız işləri, son yubiley tədbirlərini böyük məmnuniyyət hissi ilə alqışlamış və dəstəkləmişlər. Ancaq bəziləri də var ki, deyirlər: "Belə yubileylərin keçirilməsi nəyə lazımdır?". Hətta bəyan edirlər ki, "Bu keçmiş sovet sisteminin yaratdığı adət-ənənələrdir və biz bundan imtina etməliyik". Bəziləri deyirlər ki, "Ölkəmizin ərazisinin 20 faizi işğal olunduğu zaman, işğal edilmiş ərazilərdən bir milyon vətəndaşı didərgin düşüb, qaçqın və köçkün vəziyyətində çadırlarda ağır şəraitdə yaşadığı bir zaman, indi bir çox iqtisadi çətinliklərlə rastlaşdığımız zaman belə təntənələrin, belə yubileylərin keçirilməsi nəyə lazımdır?"

Mən belələrinə əvvəl də cavab vermişəm, bu gün də cavab verirəm və onların hamısına deyirəm ki, bəli, belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, haradan gəlmişik, haradayıq, hara gedirik. Biz beləliklə özümüz öz varlığımızı, öz milli köklərimizi dərk edirik. Biz belə yubileylərlə öz keçmişimizə öz zəngin tariximizə hörmət və ehtiramımızı qayğı və diqqətimizi ifadə edirik. Biz belə yubileylərlə dost, qardaş ölkələrlə, xalqlarla bir kökə, bir mədəniyyətə, bir milli-mənəvi ənənələrə mənsub olduğumuzu bir daha təsdiq edirik və bugünkü, gələcək nəsillərə nümunə göstəririk.

Təbiidir ki, hər bir xalqın tarixi çox maraqlı səhifələrlə doludur. Azərbaycan xalqı əsrlər boyu öz varlığını hifz edib, bunun üçün döyüşüb, vuruşub, mübarizə aparıb, şəhidlər verib, torpağını itirib, torpağını yenidən bərpa edib, bir çox çətin günlər, ağır günlər keçiribdir. Amma Azərbaycan xalqı yaşayıb, inkişaf edib, bütün itkilərə baxmayaraq bu gün böyük xoşbəxtliyə çıxıbdır, dövlət müstəqilliyini və milli azadlığını əldə edibdir.

Zəngin tariximizi əks etdirən çox əsərlər var, kitablar var, maddi əşyalar var. Ancaq bunların hamısının içərisində bizim milli mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi əks etdirən əsərlər hamısından qiymətlidir və bu gün üçün, gələcək üçün hamısından da gərəklidir. Bu baxımdan "Kitabi-Dədə Qorqud" dastanının, Azərbaycan tarixində görkəmli yer tut-

muş böyük şəxsiyyətlərin, böyük əsərlərin və xüsusən mədəniyyətimizə, ədəbiyyatımıza aid olan əsərlərin əvəzsiz qiyməti vardır və onların hər birinin yubileyini keçirərək biz bir daha, bir daha öz milliliyimizi zəngin mədəniyyətə malik olduğumuzu, qədim, zəngin tarixə malik olduğumuzu nümayiş etdiririk, təsdiq edirik, xalqımıza bir daha çatdırırıq və bütün dünyaya bəyan edirik.

Bunların içərisində "Kitabi-Dədə Qorqud" dastanı xüsusi yer tutur. Ötən üç il ərzində xalqımız bunu özü üçün aşkar etdi, dünya bununla tanış oldu və nəhayət, son günlər keçirilən elmi konfranslar və bugünkü təntənəli mərasim bunu əyani surətdə sübut etdi. Bunlar hamısı hər bir azərbaycanlının milli qürur hissini yüksəldir, onda iftixar hissi doğurur. Bunlar hamısı bizim xalqımızın nə qədər zəngin mədəniyyətə, böyük tarixə və dərin köklərə malik olduğunu göstərir. Bunlar hamısı və xüsusən "Kitabi-Dədə Qorqud" bizim hamımızda böyük iftixar hissi yaradır.

Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi böyük tarixi abidəmiz var. Biz fəxr edirik ki, Dədə Qorqud övladlarıyıq. Biz fəxr edirik ki, Dədə Qorqud elində yaşayırıq. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" bütün türkdilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, biz "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələrlə verəcəyik.

Bu gün bayram mərasimləri ən zirvə nöqtəsinə çatdı. Amma bizim "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi, təbliğ, tədqiq olunması işimiz bununla bitmir. Bu. bizim işimizin ancaq başlanğıcıdır. Son üç ildə görülən işləri mən çox yüksək qiymətləndirirəm və bu münasibətlə yaranmış dövlət komissiyasının üzvlərinə və "Kitabi-Dədə Qorqud" yubileyinin hazırlanması dövründə fəaliyyət göstərmiş hər bir vətəndaşımıza, alimlərimizə, ziyalılarımıza, yazıçılarımıza, incəsənət, mədəniyyət xadimlərimizə dərin təşəkkürümü bildirirəm.

"Kitabi-Dədə Qorqud" dastanının yubiley mərasimlərində iştirak etmiş qardaş türkdilli dövlətlərin başçılarına, nümayəndə heyətlərinin üzvlərinə bir daha öz təşəkkürümü bildirirəm. Bizim dəvətimizi qəbul etmiş və "Kitabi-Dədə Qorqud" yubileyinə gəlmiş hörmətli qonaqlarımızı – qorqudşünasları, alimləri, yazıçıları, ictimai-siyasi xadimləri səmimi qəlbdən salamlayıram və bizimlə bərabər olduqlarına görə onlara minnətdarlığımı bildirirəm.

Hesab edirəm ki, bu gün "Dədə Qorqud" yubileyinin təntənəli bayram mərasimlərinin keçirilməsi çox yüksək səviyyədə oldu, hamımızda böyük ruh yüksəkliyi yaratdı və bunun üçün zəhmət çəkmiş, iş görmüş insanların hamısına təşəkkür edirəm.

Yubiley mərasiminin bugünkü rəsmi hissəsi çox məzmunlu və çox maraqlı oldu. Qonaqlarımız – dövlət başçıları, məclis başçıları çox dəyərli çıxışlar etdilər. Amma bununla bərabər, "Dədə Qorqud" yubileyini qeyd etmək üçün bizim mədəniyyət, incəsənət xadimləri tərəfindən hazırlanmış, xüsusi mövzu üzərində qurulmuş bədii hissə də çox yüksək qiymətə layiqdir.

Türk tarixini, türk mədəniyyətini, türk dilini çox gözəl bilən Azərbaycan xalqının böyük dostu, prezident Süleyman Dəmirəl mənimlə yan-yana oturmuşdu və bədii hissəni əvvəldən axıra qədər maraqla izlədi, ona çox yüksək qiymət verdi, çox heyran olduğunu bildirdi. Təbiidir ki, – bu, bizim özümüzünküdür, – mənim dediyim sözlər, ola bilər, subyektiv xarakter daşısın, ancaq həqiqətən bu gün "Dədə Qorqud" yubileyinin bədii hissəsi Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, teatr sənətinin, musiqi sənətinin, balet sənətinin, rəqs sənətinin nə qədər yüksək səviyyədə olduğunu əyani surətdə göstərdi.

Bədii hissəni hazırlamış və bu gün bizə təqdim etmiş Azərbaycanın dəyərli mədəniyyət, incəsənət xadimlərinə bu gözəl əsər üçün xüsusi minnətdarlığımı bildirirəm.

Bizim yubiley təntənələrində çoxlu xarici qonaqlar iştirak edirlər. Ən çox qonaq Türkiyə Cümhuriyyətindən gəlibdir və bunlar təkcə qorqudşünaslar, elm, mədəniyyət xadimləri deyildir. Belələri də çoxdur, ancaq qonaqlarımızın içərisində dövlət xadimləri var, valilər var, siyasi xadimlər var. Bunların hamısının Dədə Qorqud irsinə bu qədər maraq göstərməsi Azərbaycana gəlib konfranslarda iştirak etməsi və bugünkü yubiley təntənələrində iştirak etməsi xüsusi qiymətə layiqdir və buna görə də mən onlara təşəkkür edirəm.

Sizi, Azərbaycan xalqını, bütün Azərbaycan vətəndaşlarını təbrik edirəm. Gözünüz aydın olsun. 1300 il yaşı olan Dədə Qorqud yenidən Azərbaycana gəlmiş, bizimlə bərabərdir.

Dədə Qorqud dühasının şərəfinə, Azərbaycan xalqının zəngin mədəniyyətinin, ədəbiyyatının şərəfinə, xalqımızın zəngin tarixinin şərəfinə, bütün Azərbaycan xalqının şərəfinə, müstəqil Azərbaycan dövlətinin şərəfinə, Azərbaycanın bütün vətəndaşlarının şərəfinə badələri qaldırmağı xahiş edirəm. Sizin hamınıza cansağlığı, səadət, xoşbəxtlik arzulayıram.

“KİTABİ-DƏDƏ QORQUD” DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ YEKUN İCLASINDA AZƏRBAYCAN PREZİDENTİ HEYDƏR ƏLİYEVİN GİRİŞ NİTQİ

14 aprel 2000-ci il

Hörmətli komissiya üzvləri!

Xanımlar və cənablar!

Üç il bundan öncə, elə aprel ayında “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyinin keçirilməsi ilə əlaqədar fərman imzalandı. O fərmanın imzalanması ərəfəsində də bizim tarixçilər, ədəbiyyatçılar, alimlər arasında müxtəlif fikirlər var idi. Mübahisələr getmiş, təbiidir ki, müxtəlif fikirlər bildirilmişdi. Ancaq alimlərimiz, yazıçılarımız, tədqiqatçılarımız – hamısı birlikdə təklif verdilər ki, “Kitabi-Dədə Qorqud”un 1300 illiyi bütün sənədlərlə tamamilə təsdiq olunur və bu 1300 illiyi də biz qeyd etməliyik.

Üç il - bu, o qədər də böyük vaxt deyildir. Bəzən biz yubileylərdən 5-6 ay öncə qərar qəbul edirik ki, yubiley keçiririk. Yubiley də müəyyən mərasimlərlə, yaxud da bəzi nəşrlərlə sonlanır.

Ancaq mən hesab edirəm ki, bu yubiley bizim tariximizlə, ədəbiyyatımızla, mədəniyyətimizlə əlaqədar indiyə qədər Azərbaycanda keçirdiyimiz yubileylərdən ən müfəssəli olması, yəni dərin məzmunlu hazırlıq işləri görülməsi və xüsusən “Kitabi-Dədə Qorqud”un irsinin öyrənilməsi, haqqında əsərlər hazırlanması – ən böyük nailiyyət də “Kitabi-Dədə Qorqud” ensiklopediyası”nın yaradılmasıdır – baxımından fərqlənir. Bunlar hamısı dünyada “Kitabi-Dədə Qorqud”un 1300 illik yubileyini indiyə qədər keçirdiyimiz buna bənzər bütün tədbirlərdən fərqləndirir.

Yubiley tədbirləri və bunun beynəlxalq səviyyədə keçirilməsi, yubiley tədbirlərində bir çox ölkələrdən qorqudşünasların, şərqşünasların, alimlərin, ictimai-siyasi xadimlərin gəlib iştirak etməsi, yubiley tədbirlərinin Türkdilli Dövlətlər Birliyi dövlət başçılarının və onlarla bərabər olan nümayəndə heyətlərinin iştirakı ilə keçirilməsi – bunlar hamısı, təbiidir ki, birincisi, “Dədə Qorqud” yubileyinə tam beynəlxalq xarakter verdi. YUNESKO-nun baş direktorunun öz iştirakı ilə “Dədə Qorqud” yubileyi haqqında vaxtilə YUNESKO tərəfindən qəbul olunmuş qərarın və həyata keçirilmiş tədbirlərin nəticəsi kimi bunu təsdiq etdi. İkinci tərəfdən də, tariximizi, keçmişimizi, zəngin mədəniyyətimizi xalqımıza bir daha, bir daha göstərdi.

Bir sözlə, bu üç il müddətində çox iş görülübdür. Bu işi də görən sizlərsiniz və sizlərlə bərabər böyük-böyük kollektivlərdir.

Mən bu gün komissiyanın iclasını iki məqsəd üçün çağırmışam. Birincisi, görülən işlərə yekun vurmaq, ikincisi də gələcək tədbirlər haqqında lazımi fikirləri müzakirə etmək və tədbirlər görməkdir.

Mən elə bilirəm, hamımızın yekdil fikri bundan ibarətdir ki, biz qarşımızda qoyduğumuz çox böyük milli, dövləti əhəmiyyət kəsb edən vəzifəni layiqincə yerinə yetirdik. Bunun yerinə yetirilməsinə, yenə də deyirəm, bütün Azərbaycan xalqının səfərbər olduğunu biz hiss etdik. Burada gördüyünüz və bu üç il müddətində nəşr edilmiş kitablar, yaxud da başqa əsərlər ən yüksək səviyyədə olanlardır.

Amma bu üç il müddətində, demək olar ki, hər bir kollektivdə, hər bir şəhərdə, hər bir rayonda, hər bir qəsəbədə, kənddə Dədə Qorqud yada salındı, təbliğ olundu, Dədə Qorqudun tanınması üçün xeyli işlər görüldü. İndi demək olar ki, bizim xalqımız öz ulu əcdadını – Dədə Qorqudu tanıyır və güman edirəm ki, bundan sonra heç vaxt unutmayacaqdır.

Yaranmış əsərlər isə təbiidir ki, gələcəkdə "Dədə Qorqud"un Azərbaycanda, digər türkdilli dövlətlərdə, başqa ölkələrdə təbliği üçün çox dəyərli işlərdir. Amma bununla bərabər, onlar xalqımızın təhsilində, təlimində, tərbiyəsində "Dədə Qorqud"dan istifadə olunması üçün çox əhəmiyyətlidir.

Bütün bu işləri görən dövlət komissiyasının üzvlərinə, alimlərimizə, tədqiqatçılarımıza, yazıçılarımıza, şairlərimizə, bəstəkarlarımıza, rəssamlarımıza – bütün mədəniyyət işçilərinə və bütün elm xadimlərinə, ziyalılarımızın hamısına təşəkkür edirəm. Kim nə iş görübsə, o, bu işlə xalqına xidmət edibdir. Təbiidir ki, hərə öz səlahiyyəti çərçivəsində, yaxud da imkanı dairəsində iş görübdür. Amma həqiqətən də çoxları buna öz payını veribdir. Payın böyük və ya kiçik olmasından asılı olmayaraq, mən hamıya təşəkkür edirəm.

Sizə dedim, məqsəd bir də ondan ibarətdir ki, bundan sonra nə etməliyik? Bəzən keçmiş zamanlarda belə olubdur ki, bu cür tədbirləri hazırlamışıq, keçirmişik və zirvə tədbirindən sonra bu unudulub, yaxud da nəticələri əməli işimizdə istifadə edilməyibdir. Ancaq – bunu dəfələrlə demişik və bu gün də təkrar etmək olar – biz bu yubileyi ona görə keçirdik ki, xalqımız öz tarixini dərk edə bilsin, öz keçmişini, zəngin mədəniyyətini dərk edə bilsin, ikinci tərəfdən də dünya bizim nə qədər zəngin tarixə, mədəniyyətə malik olduğumuzu bilsin. Bir də ki, bu, gələcək işlərimizdə istifadə edilsin. Əgər keçmiş dövrləri, sovet hakimiyyəti dövrünü götürsək, – biz başqa, bizim üçün yabançı olan oriyentirlərə əsaslanıb onların istiqamətində təhsil, təlim, tərbiyə işlərini aparırdıq. İndi isə təkcə "Dədə Qorqud" deyil, bu cür böyük, dahiyanə tarixi abidələrimiz, tarixi əsərlərimiz, tarixi irsimiz var, onlardan istifadə etməliyik ki, xalqımız bundan sonra bunların ruhu ilə yaşasın, bu dastanlardan, bu əsərlərdən irəliyə gələn milli-mənəvi dəyərlərlə yaşasın.

Ona görə də biz konkret tədbirlər həyata keçirməliyik. Bunu özbaşına buraxmamalıyıq ki, hansı təşkilat nə cür istəyirsə, eləsin. Təbiidir ki, hansı təşkilat, şəxs tərəfindən olur-olsun, şəxsi təşəbbüs yüksək qiymətləndirilməlidir. Amma eyni zamanda bu işi təşkil etmək lazımdır. Bax, bizim komissiyanın bugünkü iclasının ikinci məqsədi də bundan ibarətdir.

Mən istərdim ki, bizim komissiyanın sədr müavinləri söz demək istəyirlərsə, desinlər. Ondan sonra mən başqalarına da imkan verə bilərəm. Ancaq vaxtı da çox almayaq, qısa zamanda bu işi qurtaraq.

Mənə belə gəlir ki, burada çox danışmaq olar. Ancaq əsas fikirlər bildirildi. Ona görə də mən bir neçə kəlmə söz deyərəm, bununla da bitirərik. İndi daha da çox iş görmək lazımdır, nəinki danışmaq.

Ancaq öncə bir şeyi sizinlə məsləhətləşmək istəyirəm, – görürəm, burada çoxlu dilçilər, ədəbiyyatçılar var. Dünən mən burada bizim mühüm bir sahəmiz olan hava limanında qüsurlar, nöqsanlar və bizi çox narahat edən hallar ilə əlaqədar müşavirə keçirirdim. Yəqin ki, siz onu televiziya ilə izləyə bilərsiniz.

Bu, hər bir insana aiddir, bu məni ağrıdır. Ona görə də dünən müşavirəni də sərt keçirdim və bizim nazirləri çox ciddi tənqid etdim. Bəzilərinə də töhmət verdim.

Ancaq orada bir şey mənim ağlıma gəldi. Yəni onu çoxdan deyirdim. Yadınızdadır, biri çıxış edəndə başladı ki, nə bilim, "Əsgərov cənabları, Rasizadə cənabları". Düzdür, ədəbiyyatçı kimi Vilayət Quliyev bu barədə mənim fikrimin düzgün olduğunu təsdiq etdi. Amma yenə də demək istəyirəm: bu "cənabları" sözü haradan çıxıbdır? Niyə biz "cənabları" sözünü işlədirik, cəm şəklində müraciət edirik – cənabları? Vaxtilə biz bir-birimizə "yoldaş" deyirdik. Sonra bəziləri dedi ki, gəlin bir-birimizə "bəy" deyək. Keçmişdə bizdə "cənab" olub, "ağa" olubdur, elədir? "Bəy" sözü də olubdur. Yeni dövrdə "cənab" dünyada hər yerdə işlənilən sözdür. Ruslar da deyirlər "qospodin", məsələn, ingilisdillilər də deyirlər "mister". Yaxud ukraynalılar, polyaklar "pan" deyirlər, gürcülər "batono" deyirlər. Bunlar hamısı bir mənalı sözlərdir. Bizdə də "cənab" sözü var. Məsələn, cənab Vahabzadə, cənab Anar, cənab Fəraməz Maqsudov. Amma deyəndə ki, "Əsgərov cənabları", "filan cənabları" – bu, neçə ildir mənim qulağımı deşir. Baxıram – televiziyada ona deyirlər "cənabları", buna deyirlər "cənabları". Fikirləşirəm ki, a balam, bu, bir adamdır, niyə buna "cənabları" deyirlər? Bu, bir neçə adam deyil ki!

Vilayət Quliyev dünən məlumat verdi ki, keçmişdə şahlara, padşahlara müraciət cəm şəklində olubdur. Bu, həqiqətdir. İndi də var. Amma bu, müraciət forması deyildir. Rəsmi görüşlərdə dövlət başçısı dövlət başçısına müraciət edəndə belə deyir, məsələn, bizim dilimizdə "zati-aliləri" sözü var, rus dilində "vaşe prevosxoditelstvo" var. Amma bu, deyəsən Qərb dillərində heç yoxdur. (Yerdən – "ekselens" sözü var). "Ekselens"i də çox işlədirlər, bizim türk qardaşlarımız da çox işlədirlər.

Bu, rəsmi hallardır. Amma biz bir-birimizə müraciət edirik ki, cənab Anar, cənab Bəxtiyar müəllim, – bəlkə də "cənab" deyəndə "müəllim" demək lazım deyildir, – cənab Elçin, cənab Ramiz. Bu, bəs deyilmi? "Cənabları" sözündən biz xilas ola bilərik, yoxsa yox? Ya dünən mən səhv eləmişəm? Yəni siz ədəbiyyatçı, dilçi kimi, dünən mənim dediyim sözləri təsdiq edirsinizmi? (Yerdən səslər – bəli). Onda xahiş edirəm, gəlin bu "cənabları" sözünü aradan çıxardaq.

Mən dünən dedim, mənə də “cənabları” demək lazım deyildir. Elə “cənab prezident” deyin – qurtardı getdi, “cənab Heydər Əliyev” deyin – qurtardı getdi. İstəmirəm mənə nə “yoldaş” desinlər, nə “Heydər Əliyeviç” desinlər. Keçmişdəki kimi bəziləri indi də deyirlər. Düzdür, mən bunun qabağını kəsirəm.

Bəxtiyar Vahabzadə: Amma mümkün olmur, yenə “Heydər Əliyeviç” deyirlər.

Heydər Əliyev: Sən ki, görürsən, mən dərhal ağzından vururam. Bilirsiniz, bu inersiyadır, öyrəniblər.

Demək, bu məsələni də mən sizinlə yoxladım, fikrimin düz olduğunu aydınlaşdırdım.

YEKUN NİTQİ

Hörmətli dostlar!

Xanımlar və cənablar!

Mən hesab edirəm, biz bu gün “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi ilə əlaqədar üç il bundan əvvəl başladığımız işə yekun vuraraq hamımız eyni fikirdəyik ki, birincisi, həqiqətən biz bu yubileyin keçirilməsi ilə əlaqədar düzgün qərar qəbul etmişik. İkincisi, bu üç ildə çox işlər görülübdür. Üçüncüsü, bu yubiley tədbirlərinin son mərhələsi həqiqətən həm elmi, həm ictimai, həm siyasi, həm də bədii nöqteyi-nəzərdən ən yüksək səviyyədə olmuşdur.

Təbiidir ki, bu, xalqımız üçün iftixar hissidir. Şəxsən mən çox qürur hissi keçirirəm ki, xalqımız, millətimiz öz tarixini, mənşəyini, keçmişini, mədəniyyətinin zənginliyini dünyaya bir daha sübut etdi. Xalqımız özü-özünü tanıdı, dərk etmək yoluna düşdü, haradan gəldiyini, kim olduğunu, hansı kökdən çıxdığını tamamilə dərk etdi. Ancaq əvvəl dediyim kimi, bu, işin başlanğıcıdır. Biz bu işi davam etdirməliyik.

Burada bir çox təkliflər irəli sürüldü. Mən hesab edirəm ki, bu təkliflərin əksəriyyəti qəbul oluna bilər və biz onların əksəriyyətini həyata keçirə bilərik. Buna görə də mən komissiya sədrinin müavinləri Elçin Əfəndiyevə, Anara, Fəraməz Maqsudova, Fatma Abdullazadəyə tapşırıram, – başqalarına o qədər də əziyyət verməyin, – siz bütün bu təkliflərin hamısını təhlil edin, baxın ki, nə vaxt nə etmək olar və mənim yanıma gəlin, məsləhətləşək. Təbiidir ki, komissiyanın hər bir üzvü də burada öz fikrini deyə bilər. Bəziləri öz fikirlərini bildirdilər, bir çoxları isə, gördüm, – istədilər danışsınlar, amma vaxt məhdudiyyətinə görə mümkün olmadı. Ancaq hərə öz fikrini desin. Onda bizim bu tədbirlərimiz daha da geniş və istədiyimiz şəkildə ola bilər.

Təbiidir ki, bu tədbirlər 1, 2, 3 il üçün yox, uzun bir müddətə nəzərdə tutulmalıdır. Bütün bu tədbirlərin hamısı dəyərlidir. Mən hesab edirəm ki, bunun içərisində bizim orta məktəblərdə, uşaqların, gənclərin təhsili ilə əlaqədar dərsliklərimizdə, kitablarımızda, hətta uşaq bağçaları üçün hazırlanan kitablarda “Dədə Qorqud” mövzusundan çox ətraflı istifadə olunmalıdır.

Bizim bütün ali məktəblərdə tariximizin, ədəbiyyatımızın müəyyən hissələrində "Dədə Qorqud"un tarixi, Dədə Qorqud haqqında məlumatlar, fikirlər məcburi qaydada mütləq öz əksini tapmalıdır. Ona görə də gərək bizim Təhsil Nazirliyi fikirləşsin, – bəlkə sentyabr ayına qədər dərsliklərə müəyyən əlavələr etmək olar? Fikirləşin, nə mümkün olar – indi, nə mümkün olmaz – sonra edərsiniz. Amma bunlar mütləq olmalıdır. Yəni biz bundan sonra millətimizi uşaqlıqdan öyrətməliyik ki, sənin kökün nədir, sənin millətinin kökü nədir, sənin ulu baban, əcdadın kimdir, bu millət haradan gəlibdir, nə çətinliklərlə gəlibdir və bu gün kimdən ibarətdir. Bu özünüdərk məsələsinə xüsusi fikir verməliyik.

Biz cürbəcür, müxtəlif mərhələlərdən keçmişik. İndi hər birimiz özümüzü müəyyən səviyyədə dərk edə bilirik. Bəziləri hələ indiyədək bir azərbaycanlı kimi özünü dərk edə bilmir. Yəqin ki, buna da zaman lazımdır, dərk edəcəkdir. Amma bizim gələcək nəsil, yəni uşaqlar gərək uşaq vaxtından bunu dərk etsinlər. Ona görə də bu, mühüm məsələlərdən biridir.

Mən başqa məsələlərə daha toxunmaq istəmirəm. Ancaq Bəxtiyar müəllim əlifba haqqında məsələ qaldırdı. Həqiqətən, gərək bizim burada da bir dəqiq proqramımız olsun. Bizim xalqımız tamamilə latın əlifbasına keçəcəkdir. Bunu özbaşına buraxsaq ki, kim nə cür keçir, nə vaxt keçir, – bu, bir az çətin olacaqdır. Burada müəyyən çətinliklər də var.

Doğrudur, deyirsiniz ki, indi qəzet oxuyanların çoxu kiril əlifbasını oxuyur, latın əlifbasını oxumur. Amma biz kiril əlifbasından nə qədər istifadə etsək, latın əlifbasını də o qədər bilməyəcəyik. Gərək gözləyək, latın əlifbasında təhsil alan adamlar 10 ildən sonra gəlib onu oxusunlar. Onda gərək biz 10 il kiril əlifbası ilə oxuyaq.

Biz bu keçid dövrünü özbaşına buraxa bilmərik, bunu tənzimləməliyik. Bunun tənzimlənməsi ilə əlaqədar mən həm Elçin Əfəndiyevə, həm Fatma Abdullazadəyə göstəriş verirəm, sizinlə birlikdə otursunlar, fikirləşsinlər və təklif irəli sürsünlər ki, nə etmək lazımdır.

Siz indi dedikcə, mən düşünürdüm. Məsələn, müxalifət qəzeti necə yazır – özü bilər. Bizim 2-3 dövlət qəzetimiz var, bəlkə onların tirajının bir hissəsini kiril əlifbası ilə, – yarısını, yaxud 30 faizini latın əlifbası ilə, 70 faizini kirillə verək? Kim latın əlifbası ilə oxuya bilirsə, oxusun. Beləliklə, alışdıraq. Başqa metodlardan da istifadə etmək olar. Hər halda, bunu etmək lazımdır.

İndi Bəxtiyar deyir ki, Türkiyədə bir ilin içərisində keçdilər. Əlbəttə ki, bu, bir az mübaliğəyə bənzəyir. İkincisi də, siz hamınız bilirsiniz ki, Azərbaycan latın əlifbasına Türkiyədən qabaq keçibdir. Mən orada bunu onlara dəfələrlə demişəm. Ərəb əlifbasından istifadə edən xalqlar içərisində latın əlifbasına birinci olaraq Azərbaycan keçibdir. Türkiyə də, Orta Asiya ölkələri də bizdən sonra keçiblər. Latın əlifbasına birinci Azərbaycan keçibdir. Bizim o dövrdəki insanların bu fəaliyyətini qiymətləndirmək lazımdır.

Amma 1939-cu ildə latın əlifbasından kiril əlifbasına keçmək mənim xatirimdədir. Mən sizə doğrusunu deyim, bu da böyük bir çətinlik yaratmışdı. Amma indi, məsələn, bu,

mənim üçün çətin deyil. Bilirsiniz niyə? Çünki mən həm latın əlifbasını bilirdim, həm də rus dilini bilirdim. Rus dilini bildiyimə görə mən dərhal kiril əlifbasında oxuyub başa düşə bilirdim. Ancaq belələri azdır. İndi də azdır.

Ona görə də bu məsələ özbaşına qalmamalıdır. Siz müəyyən təkliflər hazırlayın, biz bunu da tənzimləyək.

Mən görülən işlərə görə sizin hamınıza bir daha təşəkkür edirəm və uğurlar arzulayıram.

Amma bir şeyi unutdum. Nəşr edilən bu kitablara görə sağ olun. Ancaq bunlar da sadəcə, sərgi üçün olmasın. Məsələn, mən soruşdum ki, ensiklopediyanın tirajı nə qədərdir? Dedilər ki, 2 mindir. 2 min kimə çatacaqdır? Ancaq kitabxanalara çatacaqdır. Təbiidir ki, biz bu ensiklopediyanı bu cür nəfis şəkildə böyük tirajla nəşr edə bilmərik. Ancaq biz onu sadə nəşrdə bir çox min tirajla nəşr edə bilərik.

Fatma Abdullazadə: 10 min hazırlanır.

Heydər Əliyev: 10 min hazırlanır, çox gözəl. Hazırlayın, elə olsun ki, bütün xalqımızı əhatə edə bilsin. Yoxsa, bunu sərgidə göstərdik, kitabxanaya qoyduq, – amma biz istəmirik ki, bu, kitab kimi, sadəcə kitabxanada olsun. Biz istəyirik ki, insanlar, xalqımız bundan istifadə etsinlər. Ona görə bunların da tirajı artırılmalıdır və sadə şəkildə nəşr edilməlidir ki, hamı alıb oxusun.

Burada nəfis şəkildə nəşr olunmuş eləcə də başqa, dəyərli kitablar var. Onların da tirajını artırmaq lazımdır ki, həqiqətən, onlar ayrı-ayrı qruplar, alimlər üçün yox, bütün kütlə üçün olsun. Bu da o məqsədlə bağlıdır ki, biz istəyirik, "Kitabi-Dədə Qorqud" ayrı-ayrı adamlar tərəfindən yox, kütlə tərəfindən bilinsin, hamı onu tanısın.

Sizə təşəkkür edirəm, hamınıza yeni-yeni uğurlar arzulayıram. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "MANAS" DASTANININ 1000 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YIĞINCAQDA ÇIXIŞI

Bişkek, 28 avqust 1995-ci il

Hörmətli prezident Əsgər Akayev!

Əziz və möhtərəm qırğız bacı və qardaşlarım!

Xanımlar və cənablar, əziz dostlar!

"Manas" dastanının 1000 illik yubileyi münasibətilə, böyük bayram münasibətilə sizi, bütün qırğız xalqını Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm. Sizə, qırğız xalqına, Qırğızıstan Respublikasına səadət və xoşbəxtlik arzulayıram.

"Manas" dastanının 1000 illik yubileyi qırğız xalqının böyük tarixini dünyaya bir daha nümayiş etdirir. Qardaş qırğız xalqı "Manas" dastanının qoyduğu yolla gedir. Min il, əsrlərdən-əsrlərə böyük yol keçmiş "Manas"ın dahi fikirləri, dahi sözləri bu yolu daim işıqlandırmışdır. "Manas" qırğız xalqının müdrikliyinin rəmzidir, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzidir. "Manas" qırğız xalqının daim vətənpərvər olduğunu, adətsevər, azadlıqsevər olduğunu, cəsarətli olduğunu bütün dünyaya nümayiş etdirir. "Manas" qırğız xalqının böyük mədəni və mənəvi sərvətidir, bütün dünya sivilizasiyasının, bəşəriyyətin dəyərli sərvətidir, türk dünyasının, türkdilli xalqların, İslam dünyasının böyük mənəvi sərvətidir. "Manas" eyni zamanda Azərbaycan xalqına məxsusdur, Azərbaycan xalqının da mənəvi, mədəni sərvətidir. Manas bizim hamımızın, xalqlarımızın hamısının ulu babasıdır.

Azərbaycan Respublikasında "Manas"ın sözləri, fikirləri geniş yayılıbdır. Azərbaycan şairləri, ədibləri, musiqiçiləri "Manas"ı daim oxuyur, təbliğ edir, geniş yayırlar. Bizim şairlərimiz "Manas"ı Azərbaycan dilinə tərcümə ediblər. Sənətçilərimiz "Manas"ın sözlərini çox böyük məharətlə və həvəslə oxuyurlar, sazda çalırlar. Bu gün burada, ölkəmizdən gəlmiş nümayəndə heyətinin üzvləri arasında Azərbaycanın gözəl sənətçisi, "Manas"çı Mehriban xanım "Manas"ın Azərbaycanda nə qədər sevildiyini və yayıldığını nümayiş etdirəcəkdir.

"Manas"ın dili bizim hamımızın dilidir. Biz bir kökdən, bir dildən olan xalqlarıq. Ancaq əsrlərdən-əsrlərə dilimizdə müəyyən fərqlər yaranmışdır. Bir-birimizi qəlbən duyuruq, qəlbən anlayırıq, amma dilimizdə olan fərqlərə görə deyilən sözlərin bəzilərini anlaya bilmirik. Mən bu gün sözlərimi Azərbaycan dilində başladım. Ancaq eyni zamanda istəyirəm ki, sözlərimi siz və məni dinləyən bütün Qırğızıstan vətəndaşları, qırğızların hamısı eşidə bilsin. Ona görə bir neçə kəlmə də ürək sözlərimi rus dilində demək istəyirəm.

Əziz qırğız qardaş və bacılar, əziz dostlar! Biz müqəddəs qırğız torpağına qardaşlıq hissləri ilə, böyük bayramı, "Manas" dastanının 1000 illiyi bayramını sizinlə birlikdə təntənəli şəkildə qeyd etmək üçün gəlmişik. "Manas" qırğız xalqının fəxri, qırğız xalqının milli ləyaqətinin nümayişi, onun müdrikliyinin, qəhrəmanlığının nümayişidir. Qırğız xalqı çoxlu çətinliklərə, həyatın keşməkeşlərinə baxmayaraq, min il Manasın sözlərini qəlbində qoruyub saxlamış, onun göstərdiyi yolla azadlığa və müstəqilliyə doğru getmişdir.

Manas min il bundan əvvəl qüdrətli qırğız dövləti yaratmışdı. Bu gün qırğız xalqı yenidən milli müstəqillik əldə etmişdir, onun öz milli dövləti var. "Manas" dastanının 1000 illi-

yini məhz belə şəraitdə Qırğızıstanda və başqa ölkələrdə geniş və təntənəli surətdə, dünya miqyasında qeyd etmək mümkün olmuşdur.

Biz dünən əzəmətli abidənin – "Manas aılı"nın açılışında böyük məmnuniyyətlə iştirak etdik. Qırğız xalqının əli ilə, zəkası və bacarığı ilə yaradılan və bundan sonra da yaradılacaq nə varsa, həqiqətən böyük Manasın qırğız xalqına və bütün dünyaya qoyub getdiyi nəhəng irsi layiqincə əks etdirir. Xüsusilə fərəhlidir ki, biz bu bayramı qırğız xalqının milli müstəqilliyi və milli dövlətçiliyi şəraitində qeyd edirik. İki gündən sonra qırğız xalqını müstəqilliyə qovuşmasının və müstəqil qırğız dövləti yaranmasının dörd ili tamam olacaq. Əziz dostlar, mən sizi və qırğız xalqını qazandığınız bütün tarixi nailiyyətlər, milli müstəqillik bayramı münasibətilə ürəkdən təbrik edir və əmin olduğumu bildirmək istəyirəm ki, siz Manasın qoyduğu yolla gedərək milli müstəqilliyinizi, milli dövlətçiliyinizi möhkəmləndirəcək, böyük Manasın göstərişlərini həyata keçirəcəksiniz.

Qırğız və Azərbaycan xalqlarını ümumi köklərimizdən, tarixi keçmişimizdən, adət və ənənələrimizdən, dilimizdən və dinimizdən, bir çox başqa xüsusiyyətlərdən doğan çoxəsrlik dostluq telləri bağlayır. Biz qırğız xalqı ilə olan bu dostluğumuzu əziz tuturuq. Qırğız xalqı dövlət müstəqilliyi qazandıqdan sonra Qırğızıstan torpağında gedən prosesləri biz dostcasına müşahidə edirik. Dünən və bu gün biz Qırğızıstanda baş vermiş və indi də davam edən böyük dəyişikliklərin şahidi olduq. Bütün bu dəyişikliklər onu göstərir ki, böyük Manasın vəsiyyətləri həyata keçir. Bu, həm də qırğız xalqının, Qırğızıstan dövlətinin öz müstəqilliyini və suverenliyini möhkəmləndirmək üçün gördüyü böyük işlərlə bağlıdır. Bütün bunlarda bizim böyük dostumuz, Qırğızıstanın layiqli rəhbəri, Qırğızıstan Respublikasının prezidenti, qardaşımız Əsgər Akayevin böyük xidməti var.

Qırğızıstan kimi, Azərbaycan da dörd il bundan əvvəl milli istiqlaliyyət qazanmışdır və özünün müstəqil dövlətini qurur, azadlıq, demokratik hüquqi dövlət qurmaq, tərəqqi yolu ilə gedir. Biz belə hesab edirik ki, milli müstəqilliyin əldə olunması həm qırğız xalqı, həm də Azərbaycan xalqı və bu yola çıxmış digər xalqlar üçün ən böyük tarixi nailiyyətdir. Məhz bunun sayəsində biz burada bərabərhüquqlu dövlətlərin nümayəndələri kimi iştirak edə, xeyirxah hisslərimizi, qırğız qardaşlarımıza, Qırğızıstanın bütün vətəndaşlarına çatdıra, ümumi işimizdə həmrəyliyimizi nümayiş etdirə bilirik.

Sizə bildirmək istəyirəm ki, biz dövlət müstəqilliyimizi çox yüksək qiymətləndiririk, dövlət müstəqilliyimizi möhkəmləndirmək və inkişaf etdirmək yolunda möhkəm dayanırıq, heç vaxt, heç bir halda bu yoldan dönməyəcəyik. Bu yolla gedərək bütün xalqlarla, o cümlədən qırğız xalqı ilə, Qırğızıstan Respublikası ilə dostluğumuzu möhkəmləndirəcəyik. Əziz dostlar, burada olmağımdan istifadə edərək sizi əmin etmək istəyirəm ki, biz Azərbaycan və qırğız xalqları arasında dostluğu möhkəmləndirəcək, iqtisadiyyat, mədəniyyət, elm sahələrində, humanitar sahədə, bütün başqa sahələrdə əlaqələrimizi inkişaf etdirəcəyik. Birbirimizə kömək edəcək, böyük Manasın qoyduğu yolla birlikdə irəliləyəcəyik.

Əziz və hörmətli bacılarım, qardaşlarım, əziz qırğız dostlarım! Bu bayram münasibətilə sizin hamınızı bir daha ürəkdən təbrik edirəm. Hamınıza Azərbaycan xalqının ən gözəl arzularını çatdırıram. Sizin hamınızı qucaqlayır, Azərbaycan xalqı adından öpürəm. Sizə xoşbəxtlik, səadət və bütün işlərinizdə müvəffəqiyyətlər arzulayıram. Sağ olun!

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN "MANAS" MUZEYİNİN TƏNTƏNƏLİ AÇILIŞI MƏRASİMİNDƏ ÇIXIŞ

Talas, 29 avqust 1995-ci il

Qırğızıstan Respublikasının əziz və hörmətli prezidenti, qardaşımız Əsgər Akayev! Türkiyə Cümhuriyyətinin əziz və hörmətli cümhur başqanı, qardaşımız Süleyman Dəmirəl! YUNESKO-nun baş direktoru, əziz və hörmətli Federiko Mayor! Əziz və hörmətli, möhtərəm qırğız bacılarım, qardaşlarım! Əziz dostlarımız, əziz qonaqlar! Biz, Azərbaycandan gəlmiş nümayəndələr artıq üç gündur ki, qədim qırğız torpağında, müstəqil Qırğızıstan Respublikasındayıq. Qırğız xalqının, bütün türk dünyasının, xalqlarımızın hamısı üçün əziz və möhtərəm olan böyük "Manas"ın 1000 illik yubileyini qırğız xalqı ilə bərabər qeyd edirik. Biz bu günlər sizinlə bir yerdə, sizinlə bərabər olmağımızdan, "Manas"ın 1000 illik yubileyi, bayram şənliklərində sizinlə birlikdə iştirak etməyimizdən çox məmnunuq. Bu gün bizim üçün çox əzizdir. Biz Manasın vətəninə, Manasın doğulduğu yerə gəlmişik. Manasın qəbrini, muzeyini ziyarət etmək bizə nəsib olubdur. Biz Manasın xatirəsinə həsr olunmuş böyük bir muzey kompleksinin açılmasında iştirak edirik. Bu, bizim üçün çox əziz gündür. Bu bayramlar, bugünkü şənlik münasibətilə Azərbaycan xalqı adından sizi – qırğız qardaşlarımızı, bacılarımızı, qırğız xalqını, Qırğızıstan dövlətini, onun prezidenti Əsgər Akayevi, bütün dostlarımızı ürəkdən təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik və səadət arzulayıram! Talasın vətəndaşlarına, insanlarına, burada, Allahın bəxş etdiyi təbiətin bu gözəl guşəsində yaşayan, Manasın qəbrini min il qoruyub saxlayan talaslılara, Talasın hörmətli adamlarına, o cümlədən Talasın, Qırğızıstanın hörmətli adamlarından biri olan əziz dostumuz Çingiz Aytmatova xüsusi hörmətimi, məhəbbətimi bildirirəm. "Manas" dastanını min il qoruyub saxlayan qırğız xalqına və xüsusən Manasın qəbrini, məqbərəsini qoruyub saxlayanların hamısına, talaslılara Azərbaycan xalqı adından təşəkkürümüzü bildirirəm. Talaslılar, qırğız xalqı "Manas" dastanını, Manasın qəbrini, Manasın xatirəsini min il müddətində böyük çətinliklərdən, sınaqlardan keçərək qoruyub saxlamışlar. Ancaq indi "Manas"ın min illiyi qeyd edilərkən, Manasın muzeyi açılarkən biz tam əminik ki, Qırğızıstan Respublikasının müstəqil dövləti, azadlığa çıxmış Qırğızıstan xalqı bundan sonra Manası daha da ucaya qaldıracaqlar. Manasın həm dastanı, həm bu muzeyi, həm də qəbri gələcək nəsillər üçün əbədi yaşayacaqdır. Əziz bacılar və qardaşlar! Bu böyük bayram münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm, sizə, qardaş qırğız xalqına səadət, xoşbəxtlik arzu edirəm. Sağ olun.

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN NOVRUZ BAYRAMI MÜNASİBƏTİ İLƏ XALQA MÜRACİƏTİ

Bakı, 20 mart 1994-cü il

Hörmətli həmvətənlər, bacılar və qardaşlar!

Bu əziz bayram axşamı sizi, bütün Azərbaycan xalqını, respublikamızın bütün vətəndaşlarını milli bayramımız – Novruz bayramı münasibətilə təbrik edirəm!

Novruz bayramı həm də təbiətin bayramı, Bahar bayramıdır. Bir neçə saatdan sonra il təhvil olacaq, yeni il başlanacaq, gecə ilə gündüz bərabərləşəcək, təbiətdə, dünya həyatında əlamətdar hadisələrin şahidi olacağıq.

Azərbaycan xalqı milli azadlığa nail olmuşdur. Azərbaycan müstəqil dövlətdir, dünya birliyi tərəfindən tanınmış və bu birlikdə layiqli yerini tutmuşdur. Qədimdən bəri qeyd etdiyimiz Novruz bayramı Azərbaycan Respublikasının dövlət bayramıdır. Lakin biz bu il də Novruz bayramını ağır və çətin şəraitdə keçiririk. Respublikamız erməni silahlı qüvvələrinin təcavüzünə məruz qalmış, təcavüz nəticəsində ərazimizin bir qismi işğal olunmuş və bir milyondan artıq vətəndaş isə elindən, obasından didərgin düşmüşdür, qaçqın vəziyyətindədir.

Xalqımız öz Vətənini, torpağını qorumaq üçün hazırda qanlı döyüşlər aparır. Müharibə davam edir. Neçə-neçə qəhrəman döyüşçülərimiz, qeyrətli oğullarımız bu döyüşlərdə torpağımızı, Vətənimizi müdafiə edərək şəhid olmuşlar. Bu bayram axşamında mən şəhid olmuş övladlarımızı yad edir və onların ruhu qarşısında baş əyirəm. Mən xalqımızı əmin edirəm ki, şəhidlərin xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Vətən bu fədakarlığı heç vaxt unutmayacaqdır!

Dünən Bakıda faciəli hadisə baş vermişdir. Bakı Metropoliteninin "20 yanvar" stansiyasında partlayış nəticəsində bir vaqon sıradan çıxmış, sərnişinlərin bir qismi həlak olmuş və yaralanmışdır. Bu, əlbəttə, böyük faciədir. İndi mən həlak olanların ailələrinə başsağlığı verirəm, onlara xalqımızın ümumi kədərini bildirirəm.

Bəli, biz bu əziz bayramı ağır şəraitdə keçiririk. Vətənimizin müdafiəsi uğrunda döyüşlər davam edir. Qəhrəman Azərbaycan Ordusunun hissələri erməni silahlı qüvvələrinin hücumlarına layiqli cavab verir, elimizin, yurdumuzun müdafiəsində etibarlı dayanır və yüksək rəşadət göstərirlər. Bu müharibə Vətən müharibəsidir! Xalqımız Vətənini, torpağını müdafiə etmək üçün ayağa qalxmışdır! İlk addımlarını atan gənc Azərbaycan Ordusu odlu cəbhələrdə döyüş qabiliyyətini gündən-günə artırır. Mən Novruz bayramı münasibətilə Azərbaycan Ordusunun bütün əsgər və zabitlərini təbrik edirəm. Onlar cəbhədə, səngərlərdə öz sinəsini, qeyrətini, cəsarətini düşmənlərimizə qarşı sipər etmişlər. Mən qəhrəman Azərbaycan övladlarını təbrik edirəm! Ordumuza, cəbhədə vuruşan bütün döyüşçülərimizə Vətənimizin, torpaqlarımızın müdafiəsində yeni-yeni zəfərlər diləyirəm.

Bu müharibə altı ildir ki, davam edir. Azərbaycan xalqı şəhidlər vermişdir, itkilərimiz

olmuşdur. Bütün şəhid ailələri, bütün Azərbaycan xalqı Novruz bayramını eyni zamanda qara bayram kimi qeyd edirlər. Mən şəhidlərimizin ailələrinə öz dərin hörmət və ehtiramımı bildirirəm. Lakin nə qədər kədərli olsaq da, bu əziz bayram bizi nikbinliyə dəvət edir. Mən bütün şəhid ailələrinə bayram təbrikimi çatdırır və onları əmin edirəm ki, Azərbaycan dövlətinin onlara olan qayğısı və diqqəti heç vaxt tükənməyəcəkdir!

Bu müharibə Azərbaycan xalqına böyük bəlalar gətirmişdir. Bir milyondan artıq vətəndaşımız qaçqın düşərək ağır şəraitdə yaşayır. Onların vəziyyəti bizim hamımızı incidir, narahat edir. Ancaq xalqımız dözümlü xalqdır, o, tarixən belə əzab-əziyyətlərə çox dözmüş, tab gətirmiş, amma gələcəyə həmişə böyük ümidlə baxmışdır. Mən el-obasından, ev-eşiyindən didərgin düşərək qaçqın vəziyyətində yaşayan vətəndaşlarımızın hamısına öz bayram təbrikimi yetirirəm!

Əziz bacı və qardaşlar! Sizi ürəkdən təbrik edirəm, hamınıza daha da dözümlü, dəyanətli olmağı arzulayıram! Əmin olun ki, yaman günün ömrü az olur. Biz bu ağır günlərdən çıxacağıq və siz öz evinizə, doğma torpağınıza qayıdacaqsınız!

Müharibədə vuruşan qəhrəman, cəsur Azərbaycan övladlarını boya-başa çatdıran bütün analar, qadınlar cəmiyyətimizdə xüsusi yer tuturlar. Təsadüfi deyil ki, biz Vətənə də Ana Vətən deyirik, torpağa da. Ana hər bir insan üçün müqəldəsdir. Azərbaycan xalqının ən böyük sərvəti ondan ibarətdir ki, o, əsrlər boyu qəhrəman, cəfakeş, dözümlü analar yetirmişdir. Bu qəhrəman analar cəbhələrə cəsur oğullar göndərmiş, şəhidlər vermiş, əzab-əziyyət çəkmiş və cəmiyyətimizin ağırlığının çox hissəsini həmişə öz üzərinə götürmüşlər. Mən qadınları Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Əziz analar! Qadınlar! Sizə bayram əhval-ruhiyyəsi və xoşbəxt günlər arzulayıram. Azərbaycan müstəqil dövlətdir. Dünyanın başqa ölkələrində çoxlu soydaşımız yaşayır. Ölkəmizin hüdudlarından kənarda yaşayan bütün azərbaycanlıları Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, onlara Azərbaycan torpağından hərarətli salamlar göndərir və səadət, xoşbəxtlik arzulayıram.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, bütün dünya azərbaycanlıları mənəvi baxımdan daim Azərbaycan Respublikasının bugünkü həyatı ilə yaşayırlar. Onlar da Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, bu ağır vəziyyətdən çıxmağımız üçün əllərindən gələni əsirgəməyəcəklər.

Müstəqil Azərbaycanımız ilk addımlarını atır. Xalqımız milli azadlığa qovuşmuşdur. Ancaq müstəqillik, milli azadlıq yolu uzun bir yoldur. Qarşıda hələ çox çətinliklər var. Həm daxildən, həm də xaricdən müstəqilliyimizin dönməzliyinə, əbədiliyinə mane olmaq istəyənlər var. Ancaq mən bu gün, bayram axşamında xalqımızı bir daha əmin etmək istəyirəm ki, biz müstəqillik yolu ilə gedəcəyik və bu yoldan dönməyəcəyik! Xalqımız bir daha heç vaxt öz milli azadlığından məhrum olmayacaqdır!

İndi həyatımızda böyük problemlər var. Bu problemlərdən ən böyüyü müharibə vəziyyətindən çıxmaq, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək, xalqımız

üçün sülh, əmin-amanlıq şəraiti yaratmaq, müstəqilliyimizi, milli azadlığımızın bəhrələrindən hər bir vətəndaşın istifadə etməsinə imkan yaratmaqdır. Biz bunları ali məqsədlərimiz sayır və həmin məqsəd naminə çalışırıq. Bundan sonra da öz səyimizi, əzmimizi əsirgəməyəcəyik. Bu məsələlərdə siyasətimiz məlumdur. Biz müharibənin sona çatmasına, sülh yaranmasına çalışırıq. Biz Azərbaycanın başına gəlmiş bu bəlaya sülh yolu ilə son qoymağa çalışırıq. Bu sahədəki təşəbbüslərimiz artıq bütün dünyaya məlumdur. Biz bu xətti davam etdirəcəyik. Lakin şərtimiz də məlumdur: Ermənistanla Azərbaycan arasında müharibəni sona çatdırmaq üçün erməni silahlı qüvvələri işğal etdikləri ərazilərdən çəkilməli, Azərbaycan Respublikasının torpaqları erməni silahlı qüvvələrindən təmizlənməli, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır!

Biz yalnız bu prinsiplər əsasında sülh danışıqları aparırıq və onları davam etdirəcəyik. Həmin danışıqlar Azərbaycan Respublikasının müstəqilliyinin qorunması və ərazi bütövlüyünün toxunulmazlığı prinsipləri əsasında aparılacaqdır. Güman edirəm ki, bu səylərimiz öz nəticəsini verməlidir.

Beynəlxalq təşkilatların, vasitəçilik etmək istəyən böyük dövlətlərin fəaliyyəti bizdən ötrü çox əhəmiyyətlidir. Biz bütün bu vasitələrdən problemi həll etmək, sülh yolu ilə müharibəyə son qoymaq üçün istifadə etməyə çalışırıq və çalışacağıq. Eyni zamanda Azərbaycan Respublikasının silahlı qüvvələri torpaqlarımızın keşiyində daha etibarlı dayanmışlar. Xalqımız əmin ola bilər ki, biz bundan soira da Azərbaycan Ordusunu möhkəmləndirmək üçün səylərimizi artıracağıq. Qəhrəman ordumuz Azərbaycan Respublikasının müstəqilliyinin təminatçısı olmuşdur və gələcəkdə də olacaqdır!

Müharibə böyük faciələrə gətirib çıxarmışdır. Biz müharibə istəmirik, onu biz başlamamışıq. Müharibəni bizim torpaqlarımızı ələ keçirmək istəyən qəsbkarlar başlamışlar. Ancaq biz ədalətli müharibə aparırıq! Torpaqlarımızı müdafiə edirik! Haqq-ədalət bizim tərəfimizdədir! Ona görə də mən bu gün bir daha bəyan edirəm: əgər bizim sülhsevər təşəbbüslərimiz, addımlarımız, təkliflərimiz öz nəticəsini verməsə, Azərbaycan xalqı, Azərbaycan Ordusu öz torpaqlarını qorumağa, respublikamızın ərazi bütövlüyünü təmin etməyə qadirdir! Biz istədiyimizə nail olacağıq!

Xalqımız əmin olmalıdır ki, Azərbaycan Respublikası bu ağır şəraitdən çıxacaq, torpaqlarımız geri qaytarılacaq, müstəqil Azərbaycan Resiublikası dünya birliyində bundan sonra da layiqli yerini tutacaq və öz taleyinin sahibi olacaqdır. Buna heç kəs mane ola bilməz, əgər kimsə mane olmaq istəyərsə, biz onun qarşısını almağa qadirik!

Bütün bu məqsədlərin naminə respublikamızın həm iqtisadi, həm hərbi, həm də mənəvi potensialından daha səmərəli istifadə olunmalıdır. Biz bu sahədə çalışırıq, Azərbaycanın bütün vətəndaşlarını bu yolda birgə olmağa çağırırıq. Biz Vətən müharibəsi aparırıq! Vətən müharibəsinə isə hamı qoşulmalıdır. Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz

şərəf və namusunu qorumaq üçün aparılan müharibədir! Ona görə də bu bayram axşamı vətəndaşlarımızın hamısını birliyə, həmrəyliyə dəvət edirəm. Bu, müstəqil Azərbaycanımız üçün çox lazımlı şərtdir.

Cinayətkarlar daha məkrli əməllərə əl atmaqdadırlar. Dediyim kimi, dünən Bakı metropolitenində partlayış baş vermişdir. Bu məsələ araşdırılır. Şübhəsiz ki, cinayəti törədənlər tapılacaq, cəzalandırılacaqlar. Ancaq cinayət törədilmiş, adamlar həlak olmuş, zərər çəkmişlər. Partlayış nəticəsində həlak olanlardan biri də Azərbaycan xalqının dəyərli oğlu, böyük sənətkar, musiqiçi, bəstəkar, xalq artisti Rafiq Babayevdir. Görəsən, partlayıcı qurğunu vaqona qoyanlar, bu cinayəti təşkil edənlər düşünürlərmi ki, bununla insanlara, cəmiyyətimizə nə qədər ağır zərbə vururlar?! Daxili sabitliyimizi pozmağa çalışanlar, cinayət yoluna düşən ayrı-ayrı adamlar, qanunsuz silah saxlayaraq bunlardan cinayətkarlıq məqsədi ilə istifadə edənlər xalqımızın ağır günündə ona, cəmiyyətə necə ağır zərbə vurduqlarını düşünürlərmi? Bu məsələlər barədə düşünmək lazımdır.

Mən öz şəxsi mənafələri, məqsədləri naminə insanları yoldan çıxaran ayrı-ayrı qruplara, qüvvələrə bir daha bildirmək istəyirəm ki, bu cəhdlərin heç biri Azərbaycanda uğur qazana bilməz! Doğrudur, onlar müəyyən zərbə vura, çətinliklər törədə bilərlər. Ancaq Azərbaycan Respublikasının bugünkü dövlət quruculuğuna toxuna bilməzlər. Bunu başa düşməlidirlər. Ona görə də bir daha qeyd edirəm, əziz bayram axşamında bu sözlər, ola bilər, daha təsirli olsun. Mən xalqımıza, cəmiyyətimizin bütün təbəqələrinə müraciət edirəm: Bu ağır dövrdə respublikamızı, Azərbaycan xalqını əzab-əziyyətdən, bəlalardan xilas etmək üçün birləşmək, bir yolla – haqq, ədalət yolu ilə getmək lazımdır! Əsas məqsədlərə, xalqımız üçün ali məqsədlərə nail olmaqdan ötrü hamı əl-ələ verməlidir! Mən güman edirəm ki, əziz Novruz bayramı, onun gözəl əhval-ruhiyyəsi adamlarımızla dostluq, mehribanlıq, vətənpərvərlik hisslərini daha da artıracaq, gücləndirəcəkdir! Doğma respublikamızın ağır vəziyyətdən çıxması üçün hər bir vətəndaş öz səyini əsirgəməməlidir.

Azərbaycan Respublikasının bütün vətəndaşlarını Novruz bayramı münasibətilə bir daha təbrik edirəm. Əziz bacı və qardaşlar! Sizin hər birinizə xoşbəxtlik, səadət arzulayır, həyatınızda, işinizdə uğurlar diləyirəm!

Bayramınız mübarək! Xoşbəxt olun, gələcəyiniz daha da işıqlı olsun!

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Bakı, 20 mart 1995-ci il

Hörmətli həmvətənlər!

Əziz bacılar və qardaşlar!

Sizi, bütün Azərbaycan xalqını, respublikamızın bütün vətəndaşlarını qədim milli bayramımız – Novruz bayramı münasibətilə təbrik edirəm!

Novruz bayramı həmişə özü ilə yeni il, yeni arzular, yeni ümidlər gətirir. Mən inanıram ki, bu yeni ildə Azərbaycan torpağında sülh və əmin-amanlıq nəhayət, bərqərar olacaqdır.

Novruz bahar bayramı olmaqla yanaşı, həm də Azərbaycanın müstəqillik və dövlətçilik rəmzidir. Yalnız öz müstəqilliyini qazandıqdan, öz dövlətçiliyini bərpa etdikdən sonra bu bayram rəsmi status almış və dövlət bayramı kimi qeyd olunmağa başlamışdır. Əsrlər boyu Novruz Azərbaycan xalqı üçün barış və saf niyyətlər bayramı olmuşdur. Bu gün də Azərbaycan xalqının milli barışa və saf niyyətli insanların həmrəyliyinə böyük ehtiyacı var. Bu Novruz günlərində mən yenə də bütün Azərbaycan vətəndaşlarını milli barışa, vətəndaş həmrəyliyinə dəvət edirəm.

Əziz həmvətənlər! Ulu Tanrıdan sizin hər birinizə xoşbəxtlik, səadət diləyir, həyatınızda, işinizdə uğurlar arzulayıram! Bayramınız mübarək olsun!

AŞIQ ƏLƏSGƏRIN 175 İLLİK YUBİLEYİNİN KEÇİRİLMƏSİ HAQQINDA AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan sənətinin böyük ustadı Aşıq Ələsgərin 175 illik yubileyinin respublikada keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Yubiley tədbirlərinin hazırlanması və keçirilməsi üçün aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

Elçin **Əfəndiyev** — Azərbaycan Respublikası Baş nazirinin müavini, sədr

Təşkilat Komitəsinin üzvləri

Rəfael **Allahverdiyev** — Bakı şəhəri İcra Hakimiyyətinin başçısı

Fatma **Abdullazadə** — Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının humanitar siyasət şöbəsinin müdiri

Polad **Bülbüloğlu** — Azərbaycan Respublikasının mədəniyyət naziri

Sirus **Təbrizli** — Azərbaycan Respublikasının mətbuat və informasiya naziri

Nizami **Xudiyev** — Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri

Fərəməz **Maqsudov** — Azərbaycan Elmlər Akademiyasının prezidenti

Tofiq **Quliyev** — Azərbaycan Bəstəkarlar İttifaqının sədri

Anar **Rzayev** — Azərbaycan Yazıçılar Birliyinin sədri

Misir **Mərdanov** — M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin rektoru

Mübariz **Yusifov** — H.Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru

Bəkir **Nəbiyev** — Azərbaycan Elmlər Akademiyasının Ədəbiyyat, Dil və İncəsənət bölməsinin akademik-katibi

Kamal **Abdullayev** — Mədəniyyət Fondunun sədri

Bəxtiyar **Vahabzadə** — xalq şairi

Zəlimxan **Yaqub** — şair

İslam **Ələsgərov** — Aşıq Ələsgərin nəvəsi, tədqiqatçı

Ədalət **Nəsibov** — Əməkdar incəsənət xadimi

Narınc **Səfərova** — Aşıq Pəri məclisinin rəhbəri

2. Azərbaycan Elmlər Akademiyası və Mətbuat və İnformasiya Nazirliyi Aşıq Ələsgərin ədəbi irsinin, habelə onun həyat və yaradıcılığını əks etdirən tədqiqat işinin hazırlanıb çap olunmasını təmin etsinlər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV
Bakı şəhəri, 24 noyabr 1997-ci il
№ 694

II BÖLMƏ

HEYDƏR ƏLİYEVİN DİL, ƏDƏBİYYAT VƏ MƏDƏNİYYƏT SİYASƏTİ

XALQ MƏDƏNİYYƏTİNDƏN AZƏRBAYCANÇILIĞA

İsa HƏBİBBƏYLİ
AMEA-nın həqiqi üzvü,
Azərbaycan Milli Elmlər Akademiyasının Prezidenti,
Milli Məclisin deputatı

Görkəmli dövlət xadimi Heydər Əliyev geniş dünyagörüşə, dərin biliklərə və yüksək zövqə məxsus olmuşdur. Dünyada gedən prosesləri bütün dərinliklərinə qədər qavrayıb təhlil etməyi bacaran və ölkəmiz üçün gərəkli olan zəruri məqamları seçib müəyyən edən Heydər Əliyev həm də necə deyərlər "öz köynəyindən" keçirdikdən sonra Azərbaycan dövlətçiliyinin inkişafı təcrübəsinə tətbiq etmişdir. Beləliklə o, dünya siyasətinə qiymət verərək onun mahiyyətini açıb göstərmiş, eyni zamanda, həm də rəhbərlik etdiyi Azərbaycan Respublikasını dünyada gedən proseslərə və inkişaf səviyyəsinə doğru istiqamətləndirmişdir. Ölkəmizin daxili imkanlarından istifadənin də geniş potensialını açıb üzə çıxaran və onlardan yaradıcı şəkildə istifadə etməyin, maksimum şəkildə faydalanmağın da nümunəsini göstərən dahi şəxsiyyət bu yollarla Qafqazda yeni bir Azərbaycan qurmuşdur. Heydər Əliyevin yaratdığı Azərbaycan sivil, demokratik milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişaf etdirilməsinə əsaslanan, böyük sürətlə və yüksək zövqlə tikilib-qurulan bütün istiqamətlər üzrə inkişaf etmiş qüdrətli bir ölkədir. Sovet hakimiyyəti illərində Azərbaycanın inkişafı yollarında əldə etdiyi böyük nailiyyətlər Heydər Əliyevi keçmiş SSRİ-nin ən ali idarəetmə orqanı olan Siyasi Büronun üzvü, Nazirlər Soveti Sədrinin birinci müavini səviyyəsinə çatdırmışdır. Müstəqillik dövründə isə o, Azərbaycanı parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etməklə ölkəmizdə bazar iqtisadiyyatına əsaslanan hüquqi-demokratik bir dövlət qurmuş, azərbaycançılığın dövlət ideologiyası kimi elan edildiyi bu müstəqil respublika hərbi-siyasi və iqtisadi əsaslarını yaratmışdır. "Heydər Əliyev kontaktı" kimi qəbul edilən "Əsrin müqaviləsi" və müstəqillik tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuş Azərbaycan Respublikasının Konstitusiyası Ulu Öndərin müstəqil dövlət quruculuğu yollarında meydana qoyduğu möhtəşəm addımlardır. Uzaqgörən dahi rəhbər kimi o, yeni tarixi epoxanın liderlərindən olan Prezident İlham Əliyevin timsalında ölkəmizin siyasi varisliyini təmin etməklə xalqımızı Qərbin süni demokratiya oyunlarından da xilas edərək, ölkəmizin böyük gələcəyinin möhkəm və əsaslı təməllərini müəyyən etmişdir. Bütün bunlar görkəmli dövlət xadimi Heydər Əliyevi Azərbaycan xalqının Ümummilli Lideri səviyyəsinə qaldırmışdır.

Məlum olduğu kimi, Ümummilli Liderin ən adi xüsusiyyətlərindən tutmuş ən ali keyfiyyətlərinə qədər onun taleyində və baxışlarında nə varsa, hər şey həm dünya üçün və həm də öz xalqından ötrü maraqlı və əhəmiyyətlidir. Məsələn, dünya siyasətçiləri, xüsusən, keçmiş SSRİ-nin başbilənləri çox yaxşı bilirdilər ki, Heydər Əliyev ən çətin və mürəkkəb situasiyalarda ən dəqiq və qəti qərar verməyi bacaran çox bacarıqlı, mahir dövlət rəhbəridir. Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrlərdə dəfələrlə sınaqlardan çıxmış bu xüsusiyyətləri onun məlum Çexoslovakiya və Qazaxıstan hadisələrindəki məharəti ilə bir daha isbat olunmuşdur. Millətlərarası münasibətlərin tənzimlənməsi sahəsində də Heydər Əliyev özünəməxsus tolerant dövlət siyasəti həyata keçirməyin nümunəsini göstərmişdir. Azərbay-

can Respublikasının Prezidenti İlham Əliyevin böyük bacarıqla dövlət siyasəti səviyyəsində respublikamızda böyük uğurla bərqərar etdiyi multukultural həyat tərzi millətlərarası münasibətlərin tənzimlənməsi siyasətinin yeni tarixi şəraitdəki yaradıcı davamından ibarətdir.

Bundan başqa, dövlət idarəçiliyində ictimai rəyin formalaşdırılması və xalq faktorundan bacarıqla istifadə də Heydər Əliyevi lider kimi səciyyələndirən əsas xüsusiyyətlər sırasındadır. Həyata keçirməsinə dövlət səviyyəsində qərar verdiyi proqramların, layihələrin, tədbirlərin icrasından əvvəl həmin istiqamətdə maarifləndirici təbliğat işinin aparılması, ictimai rəyin öyrənilməsi yolu ilə müxtəlif baxışları müəyyən edib, onlardan yaradıcı şəkildə faydalanması da Heydər Əliyevin sınaqlardan çıxmış idarəçilik prinsiplərindəndir. Xalq faktoruna istinad etmək isə onun çoxillik fəaliyyətinin ana xəttini müəyyən edir. Azərbaycan Respublikasının Konstitusiyasında məhz onun təşəbbüsü ilə yazılmış "hakimiyyətin əsas mənbəyi xalqdır" müddəası Heydər Əliyevin dövlət idarəçiliyinin əsasını təşkil edir. O, eyni zamanda, xalq üçün işləməyi və mübarizə aparmağı özünün əsas amalı olduğunu sovet hakimiyyəti illərində də, müstəqillik dövründə də dönmədən isbat etmişdir. Onun bir neçə dəfə üz-üzə gəldiyi dövlət çevrilişi cəhdlərini geniş xalq kütlələrinin həmrəyliyi və birliyi əsasında həll etməsi tarixi təcrübədə uğurla sınaqlardan çıxmışdır. Bununla Heydər Əliyev həm də dövlət və xalq münasibətlərinin daha da möhkəmləndirilməsinə nail olmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyev xalq ədəbiyyatına, folklora və etnoqrafiyaya dərindən bələd olmuş və bu zəngin ədəbi-mədəni irsin qiymətləndirilməsi və sistemli şəkildə təbliğ olunmasını cəmiyyətin diqqət mərkəzinə çəkmişdir. Bu baxımdan Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyinin qeyd edilməsi haqqında imzaladığı Sərəncam və həyata keçirdiyi tədbirlər həm bu möhtəşəm eposun xalqımıza və dünyaya yenidən tanıdılmasına və həm də müstəqillik dövründə yeni nəsillərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına böyük töhfələr vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müstəqillik illərində "Kitabi-Dədə Qorqud" eposunun tədqiqi və təbliği sahəsində yeni mərhələ yaratmışdır. Bu böyük Oğuznamə Kitabının tanınmış alman şərqşünası Henrix Fridrix fon Dits tərəfindən tapılıb üzə çıxarılmasının 200 illiyinin qeyd edilməsi haqqında Prezident İlham Əliyevin qəbul etdiyi qərarların işığında həyata keçirilən tədbirlər "Kitabi-Dədə Qorqud"un dünyada Azərbaycan eposu kimi tanıdılmasında mühüm rol oynamışdır. Bundan başqa, dövlət başçımızın rəhbərliyi və iştirakı ilə Bakı şəhərində Dədə Qorqud parkının salınması və Qalın Oğuz Elinin başbilənlərinin heykəlinin ucaldılması yeni tarixi epoxanın əlamətdar ədəbi-tarixi hadisələridir. Bakıda Koroğluya və Aşıq Ələsgərə heykəl qoyulması da yeni tarixi epoxanın nailiyyətidir.

Novruz bayramının, aşıq sənətinin, yallı rəqsinin, Qobustan qayaüstü rəsmlərinin YUNESKO-nun Dünya İrsi siyahılarına daxil edilməsi Heydər Əliyev – İlham Əliyev epoxasında xalq mədəniyyətinə nə qədər böyük əhəmiyyət verildiyini əyani şəkildə nümayiş etdirir. Heydər Əliyevin "ən çox sevdiyiniz bayram" sualına dərhal "Novruz bayramı" cavabını verməsi də dahi şəxsiyyətin milli-mənəvi dəyərlərimizə nə qədər ürəkdən bağlı olduğunu göstərir.

Ümumiyyətlə, Heydər Əliyevin xalq mədəniyyətinə, milli adət-ənənələrimizə verdiyi yüksək qiymət və bu istiqamətdə həyata keçirdiyi genişmiqyaslı ədəbi-mədəni tədbirlər ölkəmizdə milli ədəbiyyatın və mədəniyyətin formalaşdırılması və inkişaf etdirilməsi ilə yanaşı, azərbaycançılıq ideyasının və vətənpərvərlik tərbiyəsinin həyata keçirilməsinə də etibarlı təminat vermişdir.

HEYDƏR ƏLİYEV SİYASİ KURSUNDA XALQ MƏDƏNİYYƏTİNİN YERİ

Muxtar KAZIMOĞLU-İMANOV
AMEA-nın həqiqi üzvü,
AMEA Folklor İnstitutunun baş direktoru

Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi Heydər Əliyevin dilə, ədəbiyyata, mədəniyyətə, o cümlədən xalq mədəniyyətinə xüsusi diqqət göstərməsi, hər şeydən əvvəl, xalqın özünü tanıması və dünyaya tanıtması ideyası ilə bağlı olmuşdur. Azərbaycana rəhbərliyinin birinci mərhələsində – ana kitabımız "Kitabi-Dədə Qorqud"un və qorqudşünasların repressiyaya məruz qalmasından on beş-iyirmi il sonrakı bir dövrdə folklora geniş meydan vermək, milli ruhlu folklorşünasların fəaliyyətinə əlverişli şərait yaratmaq Ulu Öndərin gələcəyə hesablanmış məqsədyönlü siyasi kursunun səciyyəvi faktları kimi diqqəti cəlb etmişdir. 1970-80-ci illərdə "Kitabi-Dədə Qorqud", "Koroğlu" kimi eposlarımız, ayrı-ayrı məhəbbət dastanlarımız, eləcə də nağıllarımız, əfsanə, rəvayət və lətifələrimiz, atalar sözü və məsəllərimiz elmi prinsiplərlə dönə-dönə nəşr edilmişdir. Məmmədhüseyn Təhmasibin "Azərbaycan xalq dastanları (Orta əsrlər)" adlı fundamental tədqiqatı, Mirəli Seyidovun ümumtürk mifologiyasına həsr edilmiş elmi əsərləri, İsrafil Abbaslının Azərbaycan-erməni folklor əlaqələrindən, Azərbaycan folklorunun erməni folkloruna təsir göstərməsindən və bu təsir nəticəsində ermənilərin əsrlər boyu Azərbaycan türkcəsində şeirlər yazmasından bəhs edən araşdırmaları məhz həmin dövrdə ortaya çıxmış, elmi ictimaiyyət arasında populyarlıq qazanmışdır. 1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illik yubileyinin yalnız Bakı yox, həm də Moskva və İrəvan səviyyəsində keçirilməsi, ustad sənətkarın qəbirüstü abidəsinin qoyulması və əsərlərinin nəfis şəkildə nəşr olunması Qərbi Azərbaycan mədəniyyətinə dövlət səviyyəsində sahib çıxmağımızın işarəsi mahiyyəti daşımışdır. Bu siyasi kurs ardıcıl olaraq davam etdirilmiş, 1981-ci ildə Ulu Öndərin sərəncamı ilə Aşıq Alının 180 illiyinin qeyd edilməsi Qərbi Azərbaycanda ortaya çıxan mədəniyyət örnəklərimizi tədqiq və təbliğ etməyin növbəti mühüm faktına çevrilmişdir.

Heydər Əliyev Novruz ənənələrinin, Qurban və Ramazan kimi dini bayramların dirçəldilməsində, rəsmi dövlət bayramları elan olunmasında tarixi rol oynamışdır. 1970-ci illər bir çox tədbirlərlə yanaşı, həm də Novruzun dövlət səviyyəli bayram kimi qeyd olunması ilə yadda qalmışdır. 1979-cu ildə Heydər Əliyevin göstərişi ilə İçərişəhərdə təşkil olunan Novruz şənliyi Azərbaycan televiziyası ilə canlı yayımlanmışdır. Bu siyasi kursun məntiqi davamıdır ki, Azərbaycana rəhbərliyinin ikinci dövründə – 1993-cü ilin mart ayında Ulu Öndər Novruza Azərbaycan xalqının milli dövlət bayramı statusu verilməsi haqqında sərəncam imzalamışdır.

Azərbaycan müstəqillik qazandıqdan sonra Heydər Əliyev azərbaycançılığı milli dövlətimizin əsas ideologiyası elan etmişdir. Dünya azərbaycanlılarının I qurultayının təşəbbüskarı olan Heydər Əliyev həmin qurultaydakı məşhur nitqində (10 noyabr 2001-ci il) azər-

baycançılığın əsas prinsiplərini bəyan etmiş və bu ideyanı dünya azərbaycanlılarını birləşdirən başlıca ideya kimi səciyyələndirmişdir. Heydər Əliyev milli ideologiyanın milli dövlətçilik ənənələri və tarixi keçmişimizlə sıx bağlı olmasını mühüm bir şərt kimi irəli sürmüşdür. Heydər Əliyev milli ideologiyanın formalaşmasında mədəni irsin, xüsusən şifahi və yazılı ədəbiyyatın əhəmiyyətini həmişə önə çəkmişdir.

Heydər Əliyevin elm və mədəniyyətin inkişafı istiqamətində gördüyü işlər ona xas sistemlilik, ardıcıllıq və gələcəyə hesablanması ilə seçilmişdir. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti seçildikdən bir il sonra – 1994-cü ildə Azərbaycan folklorşünaslığı üçün yadda qalan hadisə baş vermiş, Azərbaycan Milli Elmlər Akademiyasında xüsusi statuslu qurum – Folklor Sarayı Elmi-Mədəni Mərkəzi yaradılmışdır. Bu həmin qurumdur ki, 2003-cü ildə Heydər Əliyevin tövsiyəsi ilə Folklor İnstitutuna çevrilmişdir.

Heydər Əliyevin "ana kitabımız" adlandırdığı "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik yubileyinin keçirilməsi haqqında 1997-ci il 20 aprel tarixində fərman imzalaması, Ulu Öndərin təşəbbüsü ilə YUNESCO səviyyəsində həmin eposa aid tədbirlərin təşkil edilməsi müstəqil Azərbaycanın ilk nəhəng elmi-mədəni tədbirlərindən biri kimi Azərbaycan folklorşünaslığının və ümumən humanitariyasının inkişafında mühüm əhəmiyyət daşımışdır.

1999-2000-ci illərdə qorqudşünaslıq sahəsində yeni-yeni tədqiqatlar aparılmış, AMEA Folklor Sarayı Elmi-Mədəni Mərkəzində (indiki Folklor İnstitutunda), Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Pedaqoji Universitetində görkəmli alimlərin rəhbərlik etdiyi Qorqudşünaslıq şöbələri və ya elmi-tədqiqat laboratoriyaları fəaliyyətə başlamış, yubiley tədbirləri çərçivəsində "bütün türk xalqlarının tarixi və mədəniyyəti üçün mötəbər bir qaynaq rolu oynayacaq" (Heydər Əliyev) ikicildlik möhtəşəm "Kitabi-Dədə Qorqud" ensiklopediyası" çap olunmuş, eposla bağlı neçə-neçə monoqrafiya (T.Hacıyev. Dədə Qorqud: dilimiz və düşüncəmiz; Ş.Cəmşidov. Kitabi-Dədə Qorqud; K.Abdulla. Sirr içində dastan və yaxud gizli Dədə Qorqud – 2; N.Cəfərov. Eposdan kitaba; B.Abdullayev. "Kitabi-Dədə Qorqud"un poetikası; O.Əliyev. "Kitabi-Dədə Qorqud'' və Azərbaycan folkloru; R.Kamal. "Kitabi-Dədə Qorqud": arxaik ritual semantikası və s.) işıq üzü görmüşdür.

AMEA Folklor İnstitutunda rüblük "Dədə Qorqud" jurnalının nəşrə başlaması isə folklorşünaslar üçün mühüm töhfə olmuşdur. Həmin jurnal Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" eposunun öyrənilməsinə və təbliğinə marağın artırılması barədə tövsiyə və tapşırıqlarının bəhrəsi kimi ortaya çıxmışdır.

Heydər Əliyevin "Kitabi Dədə Qorqud" eposunun 1300 illik yubileyi ilə bağlı tarixi fərmanı bu epos haqda, bu eposun meydana gəlmə dövrü, ideya-bədii xüsusiyyətləri və dili haqda yenidən düşünüb-daşınmaq zərurəti yaratdı. "Kitabi-Dədə Qorqud" eposunun 1300 illik tarixini qeyd etmək Azərbaycan ədəbi dilinin 1300 illik tarixini qeyd etmək demək idi. Bu o demək idi ki, Azərbaycan ədəbiyyatında türkdilli ədəbi əsərlərin tarixinin ən azı VII əsrdən başladığını söyləməyə əsas var. Heydər Əliyev heç də təsadüfən qeyd etmirdi ki, "bu yubiley bizim üçün, bütün türk dünyası üçün, bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan tarixi hadisədir. Bu bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlə-

rimizə, mədəniyyətimizə, elmimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır. Bu, bizim milli azadlığımızın, dövlət müstəqilliyimizin bayramıdır.

Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük tarixi abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki, yaşayır. Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqlarımızın nə qədər səylər qoyduğunu və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır".

"Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə bağlı tarixi fərman bir tərəfdən bu eposun ilk rüşeymlərinin VII əsrdə yaranmasını diqqət mərkəzinə çəkirdisə, digər tərəfdən hansı coğrafiyanın eposda daha qabarıq görünməsinə diqqəti yönəldirdi. "Kitabi-Dədə Qorqud"un nə dərəcədə Azərbaycan, nə dərəcədə ümumtürk, nə dərəcədə dünya mədəni hadisəsi olması Heydər Əliyevin eposa dair mülahizələrində xüsusi yer tuturdu.

1300 il əvvəl yaranması xüsusi olaraq diqqətə çatdırılan, Azərbaycan xalqı ilə yanaşı, digər türk xalqlarının da ədəbi abidəsi kimi təqdim edilən "Kitabi-Dədə Qorqud"a beynəlxalq səviyyədə yubiley keçirmək, Heydər Əliyevin qənaətinə görə, bu eposu layiqincə öyrənməyin və tanıtmağın mühüm bir vasitəsi idi. Yubileyə hazırlıq işlərinin başladığı 1997-ci il, yubileyin keçirildiyi 2000-ci il Azərbaycan üçün ictimai-siyasi və iqtisadi baxımdan heç də asan illər deyildi. Çətinliyi dərindən dərk edən Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin keçirilməsini çox vacib sayırdı: "Bəziləri… var ki, deyirlər: "Belə yubileylərin keçirilməsi nəyə lazımdır?" Hətta bəyan edirlər ki, "bu, keçmiş sovet sisteminin yaratdığı adət-ənənədir və biz bundan imtina etməliyik". Bəziləri deyirlər ki, "ölkəmizin ərazisinin 20 faizi işğal olunduğu zaman, işğal edilmiş ərazilərdən bir milyon vətəndaşın didərgin düşüb, qaçqın və köçkün vəziyyətində çadırlarda ağır şəraitdə yaşadığı bir zaman, bir çox iqtisadi çətinliklərlə rastlaşdığımız zaman belə təntənələrin, belə yubileylərin keçirilməsi nəyə lazımdır?.." Belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar bizim vətəndaşlarımıza, azərbaycanlılara, bu gün yaşayanlara və gələcək nəsillərə göstərir ki, biz kimik, hardan gəlmişik, hardayıq, hara gedirik. Biz, beləliklə, özümüz öz varlığımızı, öz milli köklərimizi dərk edirik". Bu sözlərdən bir daha aydın olur ki, Heydər Əliyev ağır bir durumda olan – ərazisinin 20 faizi işğal edilən, bir milyon vətəndaşı qaçqın və köçkün vəziyyətinə düşən Azərbaycanı böhrandan çıxarmağın mühüm yollarından birini milli şüurun gücləndirilməsində, xalqda özünə inam hissinin dərinləşdirilməsində görürdü. Bu yolda "Kitabi-Dədə Qorqud" eposunun təlqinedici gücü, təbii ki, əvəzsizdir. Heydər Əliyevin müdrikcəsinə "milli varlığımızın mötəbər qaynağı" adlandırdığı "Kitabi-Dədə Qorqud"da milli özünüdərk ideyası hər hansı başqa dastanımızla müqayisə edilməyəcək dərəcədə qabarıqdır. "Kitabi-Dədə Qorqud"da dövlətçilik düşüncəsinin qabarıq əks olunmasına əsaslanan Heydər Əliyev Azərbaycanın siyasi müstəqilliyinin qorunub saxlanması və daha da möhkəmləndirilməsi işində bu eposun mühüm əhəmiyyət daşımasını xüsusi olaraq vurğulayır: "Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi

elan etmək, onun möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir. Bu, çox mühüm məsələdir". 1300 illik yubiley tədbirinə qədərki mühüm addımlar sırasında "Kitabi-Dədə Qorqud" ensiklopediyasını xüsusi qiymətləndirərkən Heydər Əliyev həmin ensiklopediyanın da başlıca dəyərini "Kitabi-Dədə Qorqud" eposunun özü ilə birlikdə dövlət müstəqilliyimizə yardımçı olmaqda görür. Xalqa, torpağa, dövlətə bağlılığın ön plana çıxarılması, qəhrəmanlığın xalq qəhrəmanlığı səviyyəsinə qaldırılması "Kitabi-Dədə Qorqud" eposunda Heydər Əliyevin diqqətini cəlb edən başlıca ideya istiqamətlərindən biridir.

Sovet dövründə belə "Kitabi-Dədə Qorqud"un tədqiq və təbliğinə xüsusi diqqət və qayğı göstərən Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin başçısı olarkən bu eposun nəinki hərtərəfli öyrənilməsi və dünyada tanıdılması istiqamətində tarixi xidmətlər göstərdi, eyni zamanda bu eposla bağlı görüləcək işlərə yeni-yeni yollar açdı: "Kitabi-Dədə Qorqud" özündə böyük elmi, mədəni, mənəvi fikirlər cəmləşdirən abidədir. İndiyə qədər "Kitabi-Dədə Qorqud"un öyrənilməsi və bugünkü nəsillərə çatdırılması yolunda xeyli iş görülübdür… Ona görə də... mən "Kitabi-Dədə Qorqud"un tədqiqi, təbliği ilə məşğul olmuş … alimlərimizə, yazıçılarımıza, bütün vətəndaşlarımıza təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onlar … öz elmi işlərini bundan sonra da davam etdirəcəklər. "Kitabi-Dədə Qorqud" dastanının hələ açılmayan səhifələri, hələ bu günə qədər məlum olmayan fikirləri bundan sonra aşkar ediləcək, Azərbaycan xalqının bugünkü və gələcək nəsillərinə və bütün türk dünyasına çatdırılacaqdır". Heydər Əliyevin arzu və istəklərinə uyğun olaraq "Kitabi-Dədə Qorqud"un yeni-yeni sirlərinin açılması istiqamətində araşdırmalar davam etdi, dövlət səviyyəsində atılan addımlar, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci ildə "Kitabi-Dədə Qorqud"un elm aləminə məlum olmasının, ilk dəfə tərcümə və nəşr edilməsinin 200 illiyi ilə bağlı olaraq imzaladığı sərəncam bu eposa yenidən qayıtmaq və onu dünyaya tanıtmaqda müstəsna rol oynadı.

2003-cü il avqustun 4-də Prezident Heydər Əliyev "Azərbaycan folklor nümunələrinin hüquqi qorunması haqqında Azərbaycan Respublikası qanunu"nun tətbiq edilməsi barədə sərəncam imzalamışdır. Bu qanunun icrasının təmin edilməsi barədə fərmanı isə 2004-cü ilin 29 yanvarında Prezident İlham Əliyev imzalamışdır. Beləliklə, qeyri-maddi mədəni irsin toplanması, qorunması və müdafiəsinin təminatı, eləcə də ondan istifadənin hüquqi prinsipləri və bu sahədə dövlət siyasətinin əsas istiqamətləri müəyyənləşdirilmişdir. Folklor örnəklərinin təhrifi, saxtalaşdırılması və mənimsənilməsi kimi neqativ halların qarşısının alınmasında, qeyri-maddi mədəni irsə dəyər verilməsində qanunun qüvvəyə minməsi müstəsna əhəmiyyət kəsb etmişdir. Qanunda Azərbaycan xalqına məxsus folklor nümunələrinin xarici dövlətlərin ərazilərində hüquqi qorunması və bu məqsədlə beynəlxalq əməkdaşlıq üçün şərait yaradılması ilə əlaqədar maddə təkcə yazılı şəkildə qorunan örnəklərin deyil, həm də xa-

ricdəki azərbaycanlıların folklorunun, məsələn, Borçalının, Dərbəndin, Kərkükün, Cənubi Azərbaycan mahallarının şifahi irsinin qeydə alınmasına və mühafizəsinə rəvac vermişdir.

"Azərbaycan Respublikasında 2009-2015-ci illərdə Elmin İnkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı"nın təsdiqi haqqında 4 may 2009-cu il tarixli Prezident sərəncamı, "Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında" 21 oktyabr 2009-cu il tarixli Prezident sərəncamı, AMEA-nın humanitar-ictimai yönümlü elmi-tədqiqat müəssisələrinə Respublika Prezidentinin Ehtiyat Fondundan davamlı maliyyə vəsaitlərinin ayrılması, Bakıda Beynəlxalq Muğam Mərkəzinin yaradılması və s. Heydər Əliyevin elm və mədəniyyətlə bağlı siyasətinin bu gün davam etdirilməsinin əyani göstəricisidir.

Azərbaycan Respublikasının birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü ilə mədəni irsimizin bir çox örnəklərinin – tar və kamança ifaçılığı sənətinin, ənənəvi xalçaçılığın və ənənəvi kəlağayı sənətinin, "Kitabi-Dədə Qorqud" və "Koroğlu" eposlarının, aşıq və muğam sənətlərinin, Novruz bayram kompleksinin, Çovqan və Qarabağ atüstü oyunlarının dünyaya tanıdılması istiqamətində dövlət əhəmiyyətli işlər görülmüşdür. 2000-ci illərin əvvəllərindən bu günədək İçərişəhər, Qız qalası və Şirvanşahlar saray kompleksi, Qobustan qaya sənəti və mədəni landşaftı YUNESKO-nun Ümumdünya İrs Siyahısına, Lahıc misgərlik sənəti, Azərbaycan aşıq sənəti, Azərbaycan muğamı, tar və tar ifaçılığı, kamança hazırlanması və ifaçılığı, ənənəvi Azərbaycan xalçaçılığı, ənənəvi kəlağayı sənəti və s. YUNESKO-nun Qeyri-maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

Bütün bunlar onu göstərir ki, Heydər Əliyevin siyasi kursu uğurla davam və inkişaf etdirilir, Ulu Öndərin irəli sürdüyü ideyalar elmin və mədəniyyətin inkişafına əsaslı təsirini göstərir.

HEYDƏR ƏLİYEVİN XALQ MƏDƏNİYYƏTİNƏ MÜNASİBƏTİNİN FƏLSƏFƏSİ

Eynulla MƏDƏTLİ
Tarix elmləri doktoru,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
icraçı direktoru
madatli@gmail.com

Ulu Öndər Heydər Əliyev əlbəttə, fəlsəfə ilə məşğul olan peşəkar filosof deyildi, lakin cəmiyyətin, xalqın tərəqqi və inkişaf yolunu fəlsəfənin qanunlarına uyğun olaraq yönləndirə, müəyyənləşdirə, yeni dövrün çağırışlarına uyğunlaşdıra bilən mahir strateq idi. Təhsilinə və həyat fəaliyyətinə baxıldıqda, O, dahi siyasət ustası, dövlət başçısı və xalq rəhbəri idi. O, hər bir cəmiyyətin tərəqqisinin mədəniyyətdən başladığını hər kəsdən yaxşı bilirdi. Deyirdi: "Böyük mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə mövcud olacaq, həmişə inkişaf edəcəkdir".

Heydər Əliyev dərin və özünəməxsus vətənçilik, dövlətçilik və millətçilik nəzəriyyəsi və fəlsəfəsinə sahib idi. Onun bu fəlsəfəsinin əsasında Azərbaycançılıq məfkurəsi dayanırdı. O sovetlər dönəmində də, müstəqillik illərində də bütün Azərbaycan xalqını vahid bir millət kimi görürdü. Milli şüurun və özünüdərkin formalaşmasında mədəniyyətin (maddi-mənəvi) müstəsna roluna daim diqqət verirdi. Bu isə millətin yetkinləşməsinin birbaşa yoludur.

Heydər Əliyev hələ kommunist rejimi zamanı hər zaman xalqa istinad edirdi, ondan qüvvət alırdı, xalqı ən böyük yaradıcı qüvvə hesab edirdi.

Heydər Əliyev müstəqil Azərbaycan dövlətçiliyinin bərpa edilməsindən sonrakı mərhələdə əvvəl Naxçıvanda, 1993-2003-cü illərdə isə bütün Azərbaycan Respublikası miqyasında dövlət quruculuğu prosesinə rəhbərlik edirdi, eyni zamanda Azərbaycan xalqını bir millət kimi müstəqil dövləti qurmaq, müstəqilliyi qoruyub əbədiləşdirmək, onun dönməzliyini təmin etmək və gələcək nəsillərə ötürə bilmək üçün hazırlayırdı. Onun müxtəlif mədəniyyət tədbirlərindəki istənilən çıxışlarında, müsahibələrində, söhbətlərində, hətta kiçik bir neçə cümləlik təbrik sözlərində də dərin fəlsəfi tutuma malik müddəalar və çağırışlar var idi. Bu fəlsəfənin məramı xalqın bütün təbəqələrini vahid, çağdaş, eyni zamanda qədim və zəngin ənənələrə söykənən milli-mənəvi dəyərlərə malik monolit cəmiyyət kimi yetişdirmək idi. Heydər Əliyev bu milli vəzifəni yerinə yetirərkən ölkəmizdə ənənəvi və müasir xalq mədəniyyətinə də istinad edir, bu vacib sahənin inkişafına siyasi-mənəvi dəstəyini hər zaman göstərirdi. Akademik, xalq yazıçısı Kamal Abdulla haqlı olaraq yazır: "Enişli-yoxuşlu min illik tariximizdə milləti qoruyub saxlayan, onu zamanın aşırımlarından mühafizə edib bu günümüzə çatdıran mədəni dəyərləri, folkloru, ədəbiyyatı, dili, yaradıcı insanları olmuşdur*"(Kamal Abdulla. Mədəniyyətimizin böyük hamisi, "Azərbaycan" qəzeti, 4 may 2023).*

Ulu Öndər müstəqil Azərbaycan dövlətçiliyinin mənəvi qaynağına çevrilən xalq mədəniyyətini daha da inkişaf etdirməkdə bütün ölkə vətəndaşlarının və xaricdəki soydaşlarımızın Vətən təəssübkeşliyini möhkəmləndirir, onların azərbaycançılıq məfkurəsi ətrafında sıx birləşməsini təşviq edir və dünya azərbaycanlılarının vahid mənəvi dünyasını qurmağa çağırırdı. 21 mart 2000-ci il tarixində Bakıda Qoşaqala qapısında keçirilən Novruz şənliyindəki çıxışında Heydər Əliyev deyirdi ki, bizim hamımızın ümummilli, ümumxalq arzumuz vardır. Bu arzu ondan ibarətdir ki, Azərbaycanın dövlət müstəqilliyi daha da möhkəmlənsin, inkişaf etsin.

Heydər Əliyevin təşəbbüsü yaxud sərəncamı ilə keçirilən hər bir xalq mədəniyyəti tədbiri: milli və dini bayram və mərasimlər, müxtəlif sənət festivalları, yubileylər, xalq yaradıcılığına mənsub təqdimatlar, maddi mədəniyyət abidələrinin açılışı, bərpası, müqəddəs yerlərə ziyarətlər və bu kimi müxtəlif formalı tədbirlərin bir məzmunu var – xalqımızın qədimliyinin, zəngin maddi-mənəvi mədəniyyətə sahibliyinin, bir millət kimi vahidliyinin və nail olduğu müstəqil dövlətçiliyin inkişafına xidmət. Tarixi-siyasi-mənəvi yaddaşı diri tutmaq, onu gələcək nəsillərə ötürmək, özünün ifadə etdiyi kimi "Azərbaycanın müstəqilliyinin əbədiliyi, sarsılmazlığı və dönməzliyini təmin etmək!

* * *

Heydər Əliyev Azərbaycan xalqının ruhuna və mənəvi aləminə dərindən bələd idi. Xalqımızın folklorunu, dini inanc və etiqadını yaxşı bilir, onlara hörmətlə yanaşırdı. Xalq musiqisi də, simfonik əsərlər də, bəstəkar mahnıları da, el oyunları da, xoreoqrafik rəqslər də, bir sözlə xalqın mədəniyyətini və mənəvi aləmini zənginləşdirən, milliliyi də, ümumbəşərililiyi də özündə ehtiva edən hər bir mədəniyyət hadisəsinə dəyər verirdi.

Heydər Əliyev Azərbaycan xalqının ədəbiyyatına bir bütov kimi baxırdı. Onun üçün Şəhriyar Bəxtiyar kimi, Məmməd Araz kimi, Xəlil Rza kimi dəyərli idi. Adını çəkdiyim bu üç böyük istiqlal şairimizi yüksək qiymətləndirdiyini, sevdiyini və qoruyub dəyərləndirdiyini xalqımız bilir. Amma, 2001-ci ildə "XXI əsr" jurnalının Heydər Əliyevə ünvanladığı 21 qeyrisiyasi sualı cavablandırarkən "Ən çox sevdiyiniz şair? – sualına cavabında – Şəhriyar demişdi. Nədən Şəhriyar? Bu Ulu Öndərin ədəbiyyat sevgisində də dərin siyasi-fəlsəfi yanaşma sərgiləməsinin göstəricisidir. Əslində, bu "qeyri-siyasi" cavabda bu taylı, o taylı xalqımızın vahidliyi, bütövlüyü, mənəvi dünyasının birliyi ideyası ehtiva olunur. Həm də, yeni nəslin Şəhriyarı oxumasına, sevməsinə bir çağırış edilir. O, özü hələ keçən əsrin 70-ci illərindən bu baxışa sahib idi ki, tarixi Azərbaycan sevgisinə aparan ən inanclı yol daha çox ədəbiyyat körpüsündən keçir. Xalqımızın malik olduğu zəngin mədəni irsi, xüsusilə də xalq yaradıcılığını öyrənib sevməkdən keçir.

Yaxşı şeir, mənalı və təsirli mahnı Heydər Əliyevin qəlbinin tellərini titrədir, mütəəssir edir, hissiyyatına nüfuz edirdi. Biz müasirləri belə halların dəfələrlə şahidi olmuşuq. Məmməd Arazın məşhur "Dünya sənin..." şeirinə Niyaməddin musiqisi və ifasına, Əlibaba Məmmədovun "Səfərdəyəm, səfərimi vurmamışam başa hələ" mahnısına münasibəti və bu kimi

çoxlu nümunələr Heydər Əliyevin iç dünyasının zənginliyindən və qəlbinin kövrəkliyindən xəbər verirdi. O, dəmir məntiqi və polad iradəsi ilə yanaşı, incə duyğu və hissiyyatlara malik idi. Şeiri, ədəbiyyatı sevən və dəyərləndirən Heydər Əliyev 1995-ci il aprelin 16-da xalq şairi M.Arazın "Azərbaycan dünyam mənim" yaradıcılıq gecəsindən sonra ziyalılarla görüşündə vurğulamışdı ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur" *(Müstəqilliyimiz əbədidir, 3 kitab, s. 185).*

Heydər Əliyev özü məktəb illərində, sonra isə Naxçıvan Müəllimlər İnstitutu adlanan Pedaqoji texnikumda təhsil alarkən ədəbiyyat sevgisi ilə dolu olan bir gənc kimi yetişirdi. Sovet sistemi, kommunist ideologiyası milli-mənəvi dəyərləri, əsrlərlə nəsillərdən-nəsillərə ötürülən adət-ənənələri, milli düşüncə və özünüdərk kimi təbii insani keyfiyyətləri nə qədər sıxışdırıb yox etməyə çalışsa da, mərkəzdən fərqli olaraq ucqarlarda, xüsusilə də Naxçıvanda milli-mənəvi özünəməxsusluq daha çox qorunub saxlanmaqda idi. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dönəmində əvvəl Osmanlı dövləti, sonra isə Atatürk Türkiyəsi tərəfindən Naxçıvanın erməni işğalından qorunmasında göstərilən köməkliklər hələ də yaddaşlardan silinməmişdi. Sovet hakimiyyəti tərəfindən Naxçıvana gediş-gəlişin məhdudlaşdırılması, mühitin müəyyən dərəcədə qapalı tutulması bu bölgədə tarixən bərqərar olmuş milli-mənəvi dəyərlərin, o cümlədən xalq yaradıcılığına maraq və sevginin qorunub saxlanmasına səbəb olmuşdu. Heydər Əliyevin sevimli müəllimlərindən biri Lətif müəllim keçən əsrin 90-cı illərindəki söhbətlərimizdə o ağır 30-cu illərin ab-havasında "formaca milli, məzmunca sosialist mədəniyyəti" siyasəti çərçivəsində ədəbiyyatı, mədəniyyəti sevən, duyan tələbələri arasında Heydər Əliyevin xüsusi istedada malik olduğunu vurğulayırdı.

Heydər Əliyev də müəllimlərinə qarşı çox diqqətli idi və biz onun Lətif müəllimə, eləcə də müəllimlik edən tələbə yoldaşlarına Naxçıvanda göstərdiyi ehtiramının şahidi idik. Yadımdadır ki, 1992-ci ilin noyabrında Naxçıvan Dövlət Universitetinin 25 illik yubileyindəki çıxışında da onun müəllimə münasibəti ayrıca vurğulanırdı: "Müəllim dövri qədimdən həmişə yüksək "hörmətə, mənəviyyata malik olmuşdur" *("Şərq qapısı" qəzeti, 18 noyabr 1992-ci il).*

Heydər Əliyevin xalq yaradıcılığına qayğısı hər bir tədbirdə hiss olunurdu. Bu onun təbiətinə xas idi. Çünki özü yaradıcı şəxsiyyət idi və sahəsindən asılı olmayaraq yaradıcı şəxslərə, gənc istedadlara hər zaman dəstək verir, onların formalaşmasına milli məsələ kimi, dövlət işi kimi yanaşırdı. Eləcə də, musiqi, ədəbiyyat, incəsənət, teatr, kino, kitabxana, muzey, rəssamlıq, heykəltaraşlıq, xaricdə mədəniyyət günləri, festivallar və bu qəbildən olan mədəniyyət sahələrinə millətin və dövlətin varlığının vacib tərkib hissəsi kimi baxırdı. O, eyni zamanda, mədəniyyətin həmişə, təkcə indi yox, qədim dövrlərdən indiyədək xalqlar arasında, dövlətlər arasında, ölkələr arasında qarşılıqlı münasibətlərin inkişafında necə mühüm rol oynadığını vurğulayırdı *(Heydər Əliyev. Müstəqilliyimiz əbədidir, 43 kitab, 2013, s. 360).*

Heydər Əliyevin dinə və dindarlara qarşı çox həssas münasibəti var idi. 1999-cu ilin oktyabrında Naxçıvanda "Həzrəti Zəhra" məscidinin açılışında demişdi: "Mənim atam da, anam da namaz qılırdılar. Onlar daim məscidə gedirdilər, uşaq ikən məni də məscidə aparırdılar. Mənim o uşaqlıq dövrümdə məktəbdə aldığım təhsil, tərbiyə ilə bərabər, məscidə getməyim paklıq, sədaqət formalaşmasında da öz əksini tapıbdır... Mən 1990-1993-cü illərdə burada işləyəndə məscidə gedirdim, dindarlarla görüşürdüm, öz duyğularımı və hissiyatlarımı orada həyata keçirirdim..." *(Müstəqilliyimiz əbədidir. 22-ci kitab, 1999, s. 78-79).* Dindarlar və el ağsaqqalları arasında onun dostları vardı. Nehrəmdən Kərbəlayi Muradəli ilə münasibəti buna parlaq nümunədir.

Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərinin formalaşmasında, onların qorunub saxlanmasında və nəsildən-nəsilə ötürülməsində Azərbaycan qadınlarının roluna hər zaman önəm verirdi. Onun Beynəlxalq Qadınlar günü münasibətilə Respublika qadınlarına təbrikində deyilirdi: "Dünya mədəniyyəti xəzinəsinə incilər bəxş etmiş Azərbaycan xalqının mənəvi dəyərlərinin formalaşması, inkişafı və qorunmasında qadınlarımızın müstəsna rolu olmuşdur... Xalqın ən əziz, qiymətli və müqəddəs hesab etdiyi Vətən, torpaq, dil anlayışları ana adı ilə bərabər tutulmuşdur. Qadın adına göstərilən dərin ehtiram, sonsuz ana məhəbbəti söz və sənət abidələrimizdə öz parlaq təcəssümünü tapmışdır. Ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli nümayəndələri öz əsərlərində Azərbaycan qadınının mərdliyini, gözəlliyini, mənəvi saflığını vəsf etmişlər". *(Müstəqilliyimiz əbədidir, 44 kitab, 2013, s. 137).* O, əminliklə bəyan edirdi ki, xalqımız bundan sonra da öz adət və ənənələrini daim uca tutacaq, onları qoruyacaq, saxlayacaq və inkişaf etdirəcəkdir. Çünki bunlar bizim xalqımızın milli-mənəvi dəyərləri olaraq xalqımızın xüsusiyyətlərindən xəbər verir" *(Müstəqilliyimiz əbədidir, 44 kitab, 2013, s. 165).*

Heydər Əliyev həm əvvəlki rəhbərliyi dövründə, həm də müstəqillik illərində ölkəmizin bölgələrini qarış-qarış gəzmişdi, minlərlə vətəndaşımızla şəxsən tanış idi, bir çoxları ilə səmimi münasibəti var idi, o zəhmətkeş insanları sevdiyi kimi, onu da bir rəhbər kimi, bir el oğlu, el rəhbəri kimi sevirdilər. Məmurlardan fərqli olaraq sadə xalq adamları ilə onun arasında hansısa bir sərhəd yox idi. Ölkə prezidenti kimi ali məqamına baxmayaraq çadır düşərgəsindəki qaçqın toyunda gənc ailə quranlarla el qaydası oynamağı, onlara xeyir-dua verməyi, torpqalarımızın işğaldan azad ediləcəyinə inam yaratmağı xalqı ayaqda tuturdu. Heydər Əliyev incə, məna yüklü yumora malik idi, bəzən bu kinayə ya məzəmmət qarışıq ifadə kimi səslənirdi, yeri gələndə bundan məharətlə istifadə edirdi, hətta rəsmi görüşlərdə də bəzən belə kinayəli yumordan istifadə edirdi. Ata sözlərindən, zərbi-məsəllərdən yerində istifadə edirdi, özünün işlətdiyi ifadələrin bir çoxu da ata sözünə, zərbi-məsələ çevrilirdi. Məsələn, deyirdi: "Öz ana dilində danışa bilməyən adam şikəstdir".

Heydər Əliyev xalqın milli-mənəvi birliyinin formalaşdırılmasında yaradıcı ziyalıların roluna xüsusi əhəmiyyət verirdi. Vurğulayırdı ki, əgər biz xalqımızda mənəvi dəyərləri inki-

şaf etdirmək istəyiriksə, birinci növbədə ziyalılarımızın mənəviyyatı yüksək olmalıdır və onlar xalqın başqa təbəqələrinə nümunə göstərməlidirlər" *(Müstəqilliyimiz əbədidir, 1 kitab, Bakı, 1997, s. 106).*

Heydər Əliyev 21 sentyabr 1993-cü il tarixində Azərbaycan Respublikasının Elmlər Akademiyasında ölkə ziyalıları ilə görüşündə də bu mühüm sahəyə münasibətini bildirirdi: "Müstəqil dövlət olmaq üçün xalqın gərək ***mentalitet*** səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq isə bir-iki günün işi deyil. Bir çox nəsillərin işidir, bununla məşğul olmaq lazımdır... *(Müstəqilliyimiz əbədidir, 1 kitab, Bakı, 1997, s. 104).*

Heydər Əliyev özü millətinə, dövlətinə, məsləkinə, həmçinin dəyər verdiyi insanlara sədaqət nümunəsi idi. Qədirbilənlik onun yüksək insani keyfiyyətlərindən idi və o, bu sahədə yəqin ki, ən yaxşı nümunə ola bilərdi. Deyirdi: "Yalnız bir şeyi vəd edə bilərəm: Azərbaycan xalqına, millətimə, torpağıma sadiq olmuşam və ömrüm boyu da sadiq olacağam. Həyatımın son dəqiqəsinədək xalqıma xidmət edəcəyəm və ömrümün bundan sonrakı illərini də xalqıma bəxş edirəm" *(Müstəqilliyimiz əbədidir, 1 kitab, Bakı, 1997, s. 107).*

Heydər Əliyev ömrü boyu xalqımızın milli-mənəvi dəyərlərinə bağlı olmuşdu. 1993-cü il oktyabrın 10-da Azərbaycan Respublikasının Prezidentinin andiçmə mərasimində demişdi: "Əlimi Qurani-Kərimə basaraq and içirəm ki, Azərbaycan xalqının milli-mənəvi ənənələrinə daim sadiq olacaq və bu ənənələrin müstəqil dövlətimizdə bərqərar olmasını və inkişaf etməsini təmin edəcəyəm" *(Müstəqilliyimiz əbədidir, 1 kitab, Bakı, 1997, s. 130).*

1993-cü ilin 7 yanvar tarixində Naxçıvan Cümə məscidində Heydər Əliyev təbii el dilində xalqımızın dərdini bölüşürdü: "Azərbaycan müsəlmanları son illər ağır bir dövr keçirirlər. Biz gavur düşmənlə müharibə şəraitindəyik, şəhidlər veririk, torpaqlarımızın bir hissəsi əlimizdən gedib. Biz öz varlığımızı, öz müstəqil dövlətimizi müdafiə etmək üçün müharibə aparırıq. Öz namusumuzu, şərəfimizi qoruyuruq, öz dinimizi qoruyuruq... Bu ağır dövr keçib gedəcək, biz Allahın köməkliyi ilə torpaqlarımızı geri qaytaracağıq" *("Şərq qapısı" qəzeti, 9 yanvar 1993-cü il).*

Heydər Əliyev milli və dini bayramlara hər vaxt müstəqil dövlətçilik nöqteyi-nəzərindən yanaşır, onların xalqımızın bütövlüyünə, milli həmrəylik və birliyinə zəmin yaradan vasitə olduğunu nəzərə çapdırırdı. Ramazan bayramında, 14 mart 1994-cü il tarixində Heydər Əliyev Şüvəlanda Mir Mövsüm Ağanın qəbrini, mayın 21-də Qurban bayramında Bibiheybət ziyarətgahını ziyarət edərkən xalqımızı inandırırdı ki, Azərbaycan xalqının tarixini, milli, dini ənənələrini əks etdirən bütün abidələr, ocaqlar, müqəddəs yerlər bərpa olunacaqdır... Əmin olun ki, biz birləşib müstəqilliyimizi, torpaqlarımızı qoruyacaq, həm də xalqımızın yaratdığı tarixi abidələri, ənənələri yaşadacağıq" *(Müstəqilliyimiz əbədidir, 1 kitab, Bakı, 1997, s. 354).*

1997-ci il 19 mart tarixli təbrikində deyirdi: "Novruzun hər dəfə keçirilməsi müstəqillik və dövlətçilik prinsiplərimizin təntənəsinə olan inamı daha da artırır... Qoy builki Novruz da müstəqil Azərbaycanımızın tərəqqi naminə cəmiyyətdə milli həmrəyliyin tam bərqə-

rar olması işində yeni bir mərhələ olsun, təbiətin oyanması və yeniləşməsinin rəmzi olan bu bayram ürəklərdə ancaq saf niyyətlər, xoş duyğular oyatsın" *(Müstəqilliyimiz əbədidir, 9 kitab, 2000, s. 17).* Göründüyü kimi, Ulu Öndər bu bayramların keçirilməsinə də öz dövlətçilik fəlsəfəsi bucağından yanaşır, onları müstəqillik idealları ilə əlaqələndirirdi.

Xalq mədəniyyətinə Ulu Öndərin, necə böyük önəm verdiyi onun "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi ilə əlaqədar keçirilən tədbirlərdə şəxsən iştirakı və çıxışlarında təsdiq olunur. Ulu Öndər deyirdi ki, "Kitabi-Dədə Qorqud" dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o bizim tariximizin 1300 illik dövrünü tam əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz-türk mənşəyimizi və sübut edir.

Onun aşıq yaradıcılığına, dastanlara, o cümlədən digər türk xalqlarının dastanlarına xüsusi marağı var idi. Hələ Naxçıvanda olduğu vaxtlarda "Kitabi Dədə Qorqud" dastanındakı Azərbaycan toponimlərini tədqiq edən tanınmış coğrafiyaçı alim Səfəralı Babayeva hüsn rəğbət göstərirdi.

Heydər Əliyev deyirdi: "Şübhəsiz ki, xalqın tarixində sərkərdələrin də, siyasətçilərin də böyük rolu var. Ancaq xalq həmişə mədəniyyəti ilə, elmi ilə tanınıb və keçmiş tariximiz də bunu sübut edir" *(Müstəqilliyimi əbədidir,19-cu kitab, s. 83).* Bu prinsiplə də xalqımızın çoxminillik və zəngin mədəniyyətinə yanaşan, onu yüksək dəyərləndirən Ulu Öndər Azərbaycan xalqında milli dövlətçilik ruhunun möhkəmləndirilməsi ilə yanaşı, milli mədəniyyət təəssübkeşliyinin də üstün tutulmasına xüsusi əhəmiyyət verirdi. Onun xalq mədəniyyətinə münasibətinin fəlsəfəsi də milli ideyaya, milli dövlətçiliyin inkişaf və tərəqqisinə, milli mədəniyyətin bütün yaxşı ənənələrinin qorunub saxlanmasına və gələcək nəsillərə ötürülməsinə, milli mədəniyyətlərdən təşəkkül edən ümumbəşəri mədəni dəyərlərin hər zaman diqqətdə saxlanması ilə əlaqəli idi.

* * *

HEYDƏR ƏLİYEV VƏ QƏRBİ AZƏRBAYCAN FOLKLORU

Əziz ƏLƏKBƏRLİ
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
AMEA Folklor İnstitutu,
Qərbi Azərbaycan folkloru şöbəsinin müdiri, millət vəkili,
eziz_elekberli@rambler.ru

Ulu Öndər Heydər Əliyevin 100 illlik yubileyi nəinki təkcə Azərbaycanda, dünyanın bir çox ölkələrində də böyük fəxr və qürurla qeyd edilir. Bu da təsadüfi deyil. Çünki Ulu Öndər Heydər Əliyev XX yüzil dünya tarixinin önəmli şəxsiyyətlərindən, tarixdə əbədi iz qoyan dövlət və siyasət adamlarındandır.

Ulu Öndər Heydər Əliyev ilk növbədə öz xalqının böyük oğludur. Azərbaycan xalqı və Azərbaycan dövləti qarşısında çox böyük tarixi xidmətləri var.

Onun taleyinə Azərbaycanda iki dəfə hakimiyyətə gəlmək düşüb. İkisində də sələflərindən dağılmış, iqtisadi cəhətdən uçuruma yuvarlanmış, sosial-mənəvi böhrana sürüklənmiş bir ölkəni miras alıb və onu qısa müddətdə inkişaf etmiş ölkəyə çevirib. 1-ci dəfə 1969-cu il iyulun 14-də, ikinci dəfə 1993-cü il iyunun 15-də.

1969-cu ilə qədərki 49 illik sovet dövründə Azərbaycan torpaqları addım-addım Azərbaycandan qoparılaraq Moskvanın ermənipərəst rəhbərləri tərəfindən qondarma Ermənistan SSR-ə verilmişdi. 1969-cu ildə isə bu çirkin siyasətin növbəti mərhələsi həyata keçirilmiş, 40 il əvvəl – 1929-cu ildə qeyri-qanuni olaraq Azərbaycandan alınıb Ermənistana verilmiş Nüvədi, Ernəzir, Tuğut və Naxçıvanın daha səkkiz kəndi Azərbaycan KP MK-sı və Azərbaycan SSR Ali Soveti tərəfindən Ermənistan ərazisi kimi təsdiqlənmişdi. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən iki ay 9 gün əvvəl baş vermiş bu akt, əslində, Azərbaycan xalqına və dövlətinə qarşı tarixi xəyanət idi. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Moskvanın Azərbaycana qarşı bu riyakar siyasəti durdurulmuş, üstəlik, qısa vaxtda Azərbaycan SSRİ-nin ən nüfuzlu respublikalarından birinə çevrilmişdi.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci dəfə gəldiyi 1993-cü il də Azərbaycanın son dərəcə ağır günləri idi. 1988-1993-cü illərdə – 5 ildə 5 dövlət başçısı dəyişmişdi, ölkədə xaos, özbaşınalıq, separatçılıq hökm sürürdü, idarəetmə iflic vəziyyətdə idi, torpaqlarımız işğal olunmuşdu. Və həmin çətin dövrdə Azərbaycanın yeganə xilaskarı Heydər Əliyev ola bilərdi və oldu.

İstər hakimiyyətinin birinci dövründə, istərsə də hakimiyyətinin ikinci dövründə Azərbaycanın elə taleyüklü məsələsi olmayıb ki, Ulu Öndər həmin məsələ ilə bağlı öz iradəsini ortaya qoymamış olsun. Hər iki dövrdə o, Azərbaycan xalqının və Azərbaycan dövlətinin mənafeyi üçün mümkün olan hər şeyi edib.

Ulu Öndər Heydər Əliyev, hər şeydən əvvəl, XX yüzil Azərbaycan tarixinin ən milli lideridir. Onun Azərbaycanda milli düşüncənin formalaşmasında misilsiz xidmətləri var.

Hələ sovet dövründə elm, təhsil, mədəniyyət, incəsənət, ədəbiyyat xadimlərinə yüksək qayğı və diqqəti, milli ideyaları təbliğ edən əsərlərə yaşıl işıq yandırması, belə əsərlərin müəlliflərini qoruması buna əyani sübutdur. Təkcə elə 1970-1981-ci illərdə Azərbaycanda ekranlara çıxan milli filmlərimizin sırasına baxmaq kifayətdir: Yeddi oğul istərəm (1970), Axırıncı aşırım (1971), Nəsimi (1973), Dədə Qorqud (1975), Arxadan vurulan zərbə (1977), Babək (1979), Üzeyir ömrü (1981) və s. Azərbaycan dilinin dövlət dili səviyyəsinə qaldırılmasını, milli kadr hazırlığını və dövlət qurumlarında, xüsusilə hüquq-mühafizə və təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların irəli çəkilməsini də buraya əlavə etsək, mənzərə tam aydın olar.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının ən böyük mənəvi sərvətlərindən olan folklor irsimizə də həmişə xüsusi əhəmiyyət verib. Hələ 1970-ci illərdə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrinin yubileylərinin keçirilməsi, əsərlərinin toplanıb nəşr edilməsi, həyatda olan aşıqların bir çoxuna "Əməkdar incəsənət xadimi" kimi fəxri adların verilməsi onun bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi idi.

1994-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasında "Folklor Sarayı" Elmi-Mədəni Mərkəzinin yaradılması, daha sonra onun Folklor İnstitutuna çevrilməsi, tariximizin və folklorumuzun şah əsəri olan, alimlərimiz tərəfindən "tariximizin ilk yazılı dərsliyi" adlandırılan "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyinin 1998-ci ildə dünya səviyyəsində keçirilməsi – bütün bunlar Ulu Öndərin milli mənəvi dəyərlərimizə verdiyi yüksək qiymətin nəticəsi idi.

Ulu Öndər Heydər Əliyevin Ümummilli Lider olmasını şərtləndirən cəhətlərdən biri də odur ki, o, heç vaxt fəaliyyətini rəhbərlik etdiyi respublikanın sərhədləri ilə məhdudlaşdırmayıb. O, dünyanın harasında yaşamasından asılı olmayaraq həmişə hər bir azərbaycanlını, onların problemlərini daim diqqət mərkəzində saxlayıb. Bu, vaxtilə Qərbi Azərbaycanda – indiki Ermənistan Respublikası ərazisində yaşamış soydaşlarımıza da eyni dərəcədə aiddir.

Ulu Öndər Heydər Əliyev Qərbi Azərbaycan torpaqlarını, Qərbi Azərbaycanda soydaşlarımızın minillər boyu yaratmış olduğu mədəni irs nümunələrini, o torpaqlardan çıxmış böyük şəxsiyyətləri hər fürsətdə xatırlatmaqla millətin yaddaşını təzələyir, soydaşlarımıza ermənilərin içində öz milli kimliyini qorumaq, milli dəyərlərini inkişaf etdirmək üçün güc, qüvvət verirdi.

Məsələn, İrəvan Azərbaycan Dram Teatrının fəaliyyətinə verdiyi dəstək bu qəbildən idi. 1949-cu ildə dövlət statusu ləğv edilib, əyalət teatrı səviyyəsinə endirilən İrəvan Teatrının böyük çətinliklə dövlət statusunu bərpa etdikdən sonra Bakıya dəvət olunması burada tam iki həftə qastrol səfərində olması təkcə teatr hadisəsi yox, həm də milli hadisə idi. Həmin qastrol səfərinin nəticəsi olaraq İrəvan teatrı Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, baş rejissoru Əməkdar incəsənət xadimi, aktyorları isə Əməkdar artist fəxri adları ilə təltif olunmuşdu.

1972-ci ildə Azərbaycan aşıq sənətinin zirvəsi olan Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi isə o dövr üçün çox böyük bir hadisə idi. Məhz Ulu Öndərin təşəbbüsü ilə 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyi dövlət səviyyəsində nəinki Ermənistanda və

Azərbaycanda, həm də SSRİ-nin paytaxtı Moskvada keçirildi. Bu, Qərbi Azərbaycanda xalqımıza qarşı yüzillər boyu etnik təmizləmə siyasəti yeridən ermənilərə ciddi bir mesaj idi. Bu, təkcə ədəbi-mədəni hadisə yox, həm də siyasi məsələ idi. Aşıq Ələsgərin Göyçə mahalının Basarkeçər rayonunun Ağkilsə kəndində məzarı üstündə abidəsinin ucaldılması bu torpaqların tarixi Azərbaycan torpaqları olmasının mesajı idi. Bugün Prezident İlham Əliyev tərəfindən xeyir-dua verilən və Qərbi Azərbaycan İcması tərəfindən uğurla həyata keçirilən Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının təməli idi.

Lakin təəssüf ki, erməni vandalizmi sərhəd tanımır və 1987-1991-ci illərdəki sonuncu deportasiya zamanı, Qərbi Azərbaycandakı mədəni irsimizin digər nümunələri kimi, Aşıq Ələsgərin həmin qəbirüstü abidəsi də erməni vandalları tərəfindən tamamilə dağıdılmışdır.

Ulu Öndər Aşıq Ələsgərin 150 illik yubileyindən az sonra – 1981-ci ildə Göyçə aşıq məktəbinin digər görkəmli nümayəndəsi, Aşıq Ələsgərin ustadı, Göyçə mahalının Qızılvəng kəndindən olan Aşıq Alının 180 illik yubileyinin qeyd olunması ilə bağlı da sərəncam imzalamışdı.

1996-cı ildə isə Heydər Əliyev Aşıq Ələsgərin 175 illik, 2001-ci ildə 180 illik yubileylərinin keçirilməsi barədə sərəncamlar imzalamışdır.

Bu gün biz fəxr edirik ki, Ulu Öndər Heydər Əliyevin siyasi xətti möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir, arzuları həyata keçirilir. Bunu Prezident İlham Əliyevin Aşıq Ələsgərlə bağlı bir ildə iki fərman – 2021-ci il fevralın 18-də Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi, 2021-ci il noyabrın 30-da isə Bakı şəhərində heykəlinin ucaldılması barədə sərəncam imzalaması da təsdiq edir. Bunun ardınca İrəvan Müəllimlər Seminariyasının və İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illik yubileylərinin keçirilməsi ilə bağlı sərəncamları tarixi torpaqlarımıza Böyük Qayıdışın ilk addımlarıdır.

Dünənə qədər bir çox məmurlarımızın, ziyalılarımızın, hətta alimlərimizin ehtiyatla işlətdiyi, bir çoxlarının isə işlətməyə belə qorxduğu, hətta inkar etdiyi "Qərbi Azərbaycan" anlayışını da məhz Ulu Öndər Heydər Əliyev cəsarətlə siyasi leksikonumuza gətirmişdir. 10 dekabr 1998-ci ildə Bakıda "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilən beynəlxalq simpoziumun iştirakçılarının böyük bir qrupu ilə görüşdə çıxışı zamanı Ulu Öndərimiz demişdi: "İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, …indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir".

Təsadüfi deyil ki, hakimiyyətə ikinci dəfə gələndən sonra onun imzaladığı ən fundamental sənədlərdən biri də "Azərbaycanlıların deportasiyası haqqında" Fərman idi. 1997-ci il dekabrın 18-də imzaladığı bu sənədlə o, azərbaycanlıların deportasiyasına ilk dəfə olaraq tarixi-siyasi qiymət verdi.

Əslində, bu, təsadüfi bir qərar deyildi, Ulu Öndər Heydər Əliyev hələ 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin Birinci sessiyasındakı çıxışında tarixi ədalə-

tin bərpası uğrunda mübarizəmizin xəritəsini cızmış, bu məsələ ilə bağlı Azərbaycan dövlətinin milli strategiyasını irəli sürərək demişdi: “1918-ci ildə Azərbaycan Respublikasının ərazisi 114 min kv. kilometr olub. İndi isə 86 min kv. km-dir. Gör əlimizdən nə qədər torpaqlar gedib. Əsrlər boyu Vətən, torpaq anlayışı xalqımızın ləyaqətini, mənliyini, şərəfini əks etdirib. Xalq öz torpağının müqəddəsliyini qorumaq üçün onun uğrunda ölüm-dirim mübarizəsi aparıb. Ulu babalarımız Vətən torpağının hər bir qarışını namus simvolu kimi qoruyub, onun yolunda canlarını və övladlarını qurban verməkdən belə çəkinməyiblər. Təəssüf ki, biz bu ənənələri unuduruq. Buna artıq dözmək olmaz. Ona görə də təklif edirəm ki, bir Dağlıq Qarabağ məsələsi yox, bütün 1920-ci ildən indiyədək Azərbaycan ərazisindən Ermənistana verilmiş torpaqların hamısının haqq-hesabı aparılsın”.

O, bütün varlığı ilə inanırdı ki, bir gün tarixi ədalət zəfər çalacaq və insanlar öz yurd-yuvasına mütləq geri dönəcək. 13 sentyabr 2002-ci ildə Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində Göyçədən olan qaçqınlarla görüşündə O, bütün varlığı ilə insanları inandırırdı ki, “Siz gələcəkdə mütləq və mütləq gedib hələ öz gözəl Göyçə torpağınızı da görəcəksiniz, öz doğma dağlarınızı, bulaqlarınızı, çaylarınızı da görəcəksiniz. Ata-babalarınızın qəbirlərini də görəcəksiniz. Mən buna heç şübhə etmirəm. Mən buna inanıram.”

Və 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyev Qərbi Azərbaycan İcmasının yeni inzibati binasında İcmanın rəhbərliyi və bir qrup nümayəndəsi ilə görüşü zamanı etdiyi proqram çıxışında Ulu Öndərin bu inamının gerçəkliyə çevrilməsi yolunda irəliyə doğru möhtəşəm tarixi addım ataraq elan etdi: “Biz o torpaqlara mütləq qayıdacağıq”.

Bu, bizim üçün Ulu Öndər Heydər Əliyevin vəsiyyəti, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin əmridir. Bəli, biz mütləq o torpaqlara qayıdacağıq! Ermənilər və onların havadarları bunu istəsə də, istəməsə də!

BƏDİİ SÖZ SƏNƏTİNİN, AZƏRBAYCAN-TÜRK MİF VƏ FOLKLOR İRSİNİN ARAŞDIRILMASINDA VƏ TƏBLİĞİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

HEYDAR ALIYEV'S ROLE IN THE STUDY AND PROMOTION OF THE ART OF ARTISTIC SPEECH, AZERBAIJANI-TURKISH MYTH AND FOLKLORE HERITAGE

Ramazan QAFARLI
Filologiya elmləri doktoru, professor,
AMEA Folklor İnstitutu,
Dədə Qorqud şöbəsinin müdiri,
ramazanqafar@gmail.com

Özət

Türk mifoloji-folklor irsinin və xalq ənənələrinin təbliği Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin mənəvi konsepsiyasının əsasını təşkil edir. O, xalq yaradıcılığının inkişafına xüsusi diqqət yetirirdi. Məqalədə böyük öndərin hərtərəfli fəaliyyəti, siyasi fikirləri, çıxışları, mədəniyyətin təbliği ilə bağlı gəldiyi qənaətlər təhlil edilir. Ümummilli Liderin "Kitabi-Dədə Qorqud" eposunun tarixi əhəmiyyəti və dünya ədəbiyyatında tutduğu yerin düzgün müəyyənləşdirilməsində göstərdiyi xidmətlərdən danışılır. Sovet-rus şovinizmi Azərbaycan xalqının bu böyük mənəvi sərvətinə keçən əsrin 30-cu illərində "pantürkist" damğası vuraraq arxivlərə atmışdı.

Açar sözlər: Ümummilli Lider, mifoloji-folklor irsi, mənəvi bütövlük, epos, xalq təntənəsi, mərasim, Novruz bayramı

Summary

Promotion of Turkic mythology-folklore heritage and folk traditions is the basis of moral concept of national leader of Azerbaijani people Heydar Aliyev. He gave special attention to the development of folk art. In the article was given great leader's activities, political opinions, statements and his conclusions promotion of culture. And also was being speaking about national leader's services in identification of the place "Book of Dede Korkut" epos and historical importance. In the 30s of the last century Soviet-Russian chauvinism had stamped this great spiritual wealth of Azerbaijan nation to archives by name "panturkist".

Keywords: national leader, mythology-folklore heritage, moral integrity, epos, the triumph of the people, ceremony, Novruz holiday.

Bizim nəsil ömrünün ən ehtiraslı və coşğun çağlarını acınacaqlı günlərdə yaşamışdır. İkinci Dünya müharibəsindən sonra dünyaya göz açan insanların uşaqlıq və gənclik çağları «itirilmiş» hesab edilirdi. Faşizmin törətdiyi cinayətlər bütün dünyanı bürüsə də, yaralar tez sağalmışdı. Bizim nəslin 1989-91-ci illərdə başlanan Qərbi Azərbaycan və Qarabağ acısı isə vəzifə düşgünlərinin səriştəsizliyi ucbatından hələ də ulu xalqı sarsıdır. XX əsrin sakinlərini neofaşlistlərin caynağından ancaq Heydər Əliyev xilas edə bildi.

Ulu əcdadlarımız belə hesab edirdilər ki, ildə bir dəfə ölmüş babalarının ruhları öz nəvənəticələrinə baş çəkməyə gəlirlər. Ata-baba ruhlarının gəlişinin vaxtı İlaxır çərşənbələrə düşür. Əgər onlar görsələr ki, törəmələri yaşayan evlərdə tonqallar qalanmır, ocaqlar sönüb, elə bilirlər ki, qoyduqları adət-ənənələr tapdanıb, övladlarına qalan var-dövlət göyə sovurulub, hər şey məhv olub, qayıdıb gedir və bir də o tərəflərə hərlənmirdilər. Bir də son çərşənbə axşamı görsələr ki, ocaqlardan tüstü gəlmir, xörəklər bişirilmir, nəvə-nəticələri deyib-gülmürlər, ac-yalavacdırlar, küsülüdürlər, onda da inciyər və bir də oralara gəlməzlər. Məhz bu inama görə, İlaxır çərşənbələrdə tonqallar qalanır, şənliklər keçirilir, umu-küsü aradan götürülür... Xalqımızın bu adətini eşidən rus alimləri belə bir qənaət irəli sürmüşdülər ki, qədimlərdə (lap başlanğıcda) bu cür adət-ənəsi, görüşü olan xalq ancaq humanist və qurub-yaratmağa meylli olmalıdır. Və azərbaycanlılar ağsaqqalla nəfəs alan, böyüklü yerdə özünü daha rahat hiss edən xalqdır. Ulu əcdadlarımızın bu inancının işığında hamı bir yumruq kimi Prezidentin ətrafında birləşib müstəqil dövlətçiliyimizi qorumalıdırlar. Elə etməliyik ki, bizi yoxlamağa gələn Dədə Qorqudun, Babəkin, Nizaminin, Koroğlunun, Heydər Əliyevin ruhu bölünməzliyimizi, birliyimizi görüb ilahi aləmin yüksəkliyinə rahat qalxsınlar.

Ötən əsrin ikinci yarısında olub-keçənləri bir də yaşadım. Dünyada 1969-cu ildən üzü bəri elə bir hadisə tapmadım ki, onun düzgün istiqamət almasına Heydər Əliyev dühasının az da olsa, işığı düşməsin. Tanıdığımız dövlət xadimləri müasir dünya siyasəti qarşısında on-on beş ildən artıq duruş gətirə bilməyiblər, meydanı çox hallarda biabırçı şəkildə tərk edib, qazandıqları nüfuzu da əldən veriblər və bu gün ömür sürmələrinə baxmayaraq yaddaşlardan siliniblər. Belələrinin uzun siyahısı durur gözlərimiz önündə. Çünki son 30 il həm də mənim yaşıdlarımın ömür payına düşən dövrdür. Mürəkkəb, qarmaqarışıq hadisələr axınında yalnız Türk dünyasının böyük siyasətçisinin xalq tərəfindən həmişə dəstəkləndiyinin və siyasət meydanını tırk etmıdiyinin şahidi olmuşuq. Bu əvəzsiz səxsiyyət hədsiz maneələrə baxmayaraq on beş müxtəlif millətin müstəqil dövlətini zorla birləşdirib dünya hegemonluğu iddiasında olan keçmiş Sovetlər İttifaqında parlayaraq ölkənin sərhədlərindən çox uzaqlarda da tanınmışdır. Şovinist siyasi rəhbərlik istəsə də, istəməsə də başqa xalqların övladlarının dövlət kürsülərində mühüm vəzifələr tutmasını istəməmişdir. O ki qaldı müsəlman və türk Azərbaycanından çıxan bir şəxs olsun. Heydər Əliyevin bacarığı, hərtərəfli biliyi, natiqliyi, təşkilatçılığı, cəsarəti o qədər böyük olub ki, bütün səddləri yarıb keçib. Təsadüfi deyil ki, türk oğlunun keçmiş Sovet imperiyasında yüksək dövlət vəzifəsini tutması xəbəri dünyaya yayılanda Türkiyədə və bir çox müsəlman ölkələrində bayram keçirilib. Onun şərəfinə ziyafətlər düzəldilib. Biz onda bu şəxsiyyətin nəhəngliyini dərk etmirdik, adi bir

şey kimi baxırdıq. İndinin özündə də onun gördüyü işlərin tarixi qiymətini düzgün dərk etməyənlər var. Müasir dünya siyasətindən boğazdan yuxarı dəm vuranlar az qala özlərini göyün yeddinci qatında hiss edirlər və Azərbaycan adlı ölkəni dünyada tanıdan şəxsin kölgəsinə daş atmaqdan çəkinmirdilər.

Dövrün ziddiyyətlərindən baş çıxarıb zamanla ayaqlaşan tədbirlərə əl atmaq hər adama nəsib olmur. Doğrudur, bəzən bütün xalqın ayağa qalxmasından yaranan kütləvi hərəkatın önünə düşüb ad-san qazananlar tapılır. Sovet imperiyasının və ermənilərin Azərbaycana yönələn düşünülmüş xəyanətindən lərzəyə gələn yurddaşlarımızı coşğun dağ çayına bənzətmək mümkündür. Üzüaşağı böyük sürətlə gəldiyi üçün köpüklü sular qabağına çıxan quru ağac kötüklərini, daş-çınqıllı, çör-çöpü ağuşuna alıb irəli aparır. Düz yerə çatanda isə qəzəbi soyuyur, durulur, gətirdiyi zir-zibil suyun üzünə çıxır. Sanki sular neçə kilometr yol qət edərək çiyinlərində daşıdıqlarının boşluğunu, əhəmiyyətsizliyini görüb xəcalət çəkir. Xalq hərəkatının kortəbii dalğasında meydana tullanan Liderləri məhz təbiətin bu hadisəsi ilə müqayisə etmək olar. Çığır-bağır salıb özlərini böyük "Lider" sayanlar sabitlik yaranan kimi qına girdilər. İrəli sürdükləri məsələlərin bircəciyini də həyata keçirə bilmədilər. Ölkəni bərbad kökə salıb öz başlarını bəladan qurtarmaq üçün məhz Heydər Əliyevin böyüklüyünə, siyasi ağlına və qeyrətinə sığındılar. Həyat sübut etdi ki, əsl siyasətçi xalqın qəzəbindən faydalanıb vəzifə arzusuna düşməz. Sağlam düşüncəsi, əməlləri, qurub-yaratmağı ilə insanları özünə inandırandan sonra hansısa iddia ilə meydana girər. Yalnız dövlətçilik ənənəmizi Allah vergisi kimi qəbul edib əməllərində yaşadan Heydər Əliyevin təcrübəsini öyrənməklə müstəqil Azərbaycanı inkişaf etdirmək, irəli aparmaq mümkündür.

Bütün canlılardan fərqli olaraq, Allah-təala insanlara dərin zəka, fəhm verib. Geriyə baxmaq, keçdiyi yola, gördüyü işlərə qiymət vermək, səhvlərindən nəticə çıxartmaq, nöqsanlarını aradan götürmək bacarığını bəxş edib. Biz bu bacarıqdan istifadə edərək yaşadığımız həyata, keçdiyimiz yola dönə-dönə nəzər salırıq: bu günümüzü qiymətləndirir, sabahımız, gələcəyimiz üçün yol seçirik. Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan Dövlətinin çiçəkləndiyi günlərdə bir növ geriyə boylanır, keçilmiş yola qiymət verməyə çalışırıq. Və bu zaman, təbii ki, böyük bir həyatın, tamamilə xalqa həsr edilmiş işıqlı bir ömrün mənalı illərini görür və düşünürük. Bu böyük ömrün zəhmət dolu illəri bir kino lenti kimi gözlərimiz qarşısından gəlib keçir. Bu ömrün hər hər ayı, hətta hər günü və saatı da xalqımızın, ölkəmizin ömrü ilə elə qaynayıb-qarışıb, biri digərini elə tamamlayıb ki, onları bir-birindən ayırmaq mümkün deyil. Bu ömür xalq üçün yaşanıb, elin-obanın taleyi ilə qovuşub.

Tarix Türk dünyasına daim böyük şəxsiyyətlər bəxş etmişdir. XX əsr də istisna deyil. Bu əsr dünyaya iki böyük dövlət başçısı, ictimai və siyasi xadim bağışlayıb. Onlardan biri əsrimizin birinci yarısında Türkiyəni parçalanmaqdan, bir dövlət kimi məhv olmaqdan xilas edən Mustafa Kamal Paşa Atatürk, digəri isə əsrimizin ikinci yarısında meydana çıxan və Azərbaycan Respublikasını parçalanmaqdan, məhv olmaqdan xilas edən, onun müstəqilliyini qoruyub saxlayan böyük siyasətçi, diplomat, xalq tərəfindən dərin məhəbbət və səmimiyyətlə sevilən dünya şöhrəltli Heydər Əliyevdir.

Cəvahirlal Nehru həbsxanadan qızı İndiraya yazırdı ki, "Mustafa Kamal 600 illik Osmanlı imperiyasını Yer üzündən silməyə çalışanlara qarşı çıxıb külə dönmüş Türkiyəni ayağa qaldırdı" (15, 144). O, Hind xalqını Dünya tarixində baş vermiş qlobal hadisələrə nəzər salmağı tövsiyə edərkən məhz Atatürkü nümunə götürüb ölkəni müstəmləkəçilikdən xilas etməyin yollarını göstərdi. Dünya çempionu olmuş bir şahmatçı isə müsahibələrinin birində deyirdi ki, əgər bütün ölkələrin siyasi Liderlərini şahmat taxtası önünə çıxartsan, hamısı Heydər Əliyevin siyasi gedişləri qarşısında mat vəziyyətinə düşər. Və əsrimizin son ilində Atatürkün adını daşıyan Beynəlxalq mükafata Heydər Əliyevin layiq görülməsi təsadüfi deyildi.

Tariximiz, taleyimiz üçün belə sınaqlı günlərdə bir xalqa Heydər Əliyev kimi fövqəladə istedada malik şəxsiyyət bəxş etməsini mən Tanrının həmin xalqa böyük məhəbbətinin ifadəsi kimi qəbul etmək olar. Yaşlı nəslin yaxşı yadındadır: 1969-cu ildə Heydər Əliyev rəhbərliyə gələn kimi respublikada böyük bir canlanma baş verdi: elə bil yatmış bir nəhəng yuxudan oyanmışdı. Zavodlar, fabriklər tikilir, yeni iş yerləri açılırdı. Hərtərəfli qayğı ilə əhatə olunmuş mədəniyyət çiçəklənir, ədəbiyyatımız, musiqimiz dünya miqyasına çıxırdı. Kənd təsərrüfatı sahəsindəki inkişaf ailələrə rifah, firavanlıq gətirirdi.

Ömrüm boyu elm və təhsil sahəsində çalışdığım üçün bu sahədəki dəyişikliklər məni xüsusi sevindirdi. İnsanlarda savadlanmağa, biliyini – ixtisasını artırmağa bir stimul yaranmışdı. Tarlada, çöldə çalışan zəhmət adamları, xərüqələr göstərən əməkçilərin əksəriyyəti Kənd Təsərrüfatı İnstitutunda təhsil alırdılar. Müntəzəm olaraq hər il 100 nəfər gəncin İttifaqın böyük şəhərlərinin qabaqcıl ali məktəblərinə göndərilməsi ixtisaslı kadrlar hazırlanmasında çox müsbət rol oynamışdı. Heydər Əliyev özünəməxsus böyük uzaqgörənliklə Azərbaycanın müstəqil olacağı günü düşünür və bunun üçün müəyyən tədbirlər həyata keçirirdi. Bu böyük şəxsiyyət riskə gedərək bir növ dövlət içərisində dövlət qururdu. Keçmiş SSRİ kimi hərbi qüdrətə malik bir dövlətdə C.Naxçıvanski adına Hərbi Məktəb təşkil etmək əsl vətəndaşlıq qeyrətinin bəhrəsi idi. Respublikamızda hərbi mütəxəssislərin yetişdirilməsinə xidmət edəcək bu addımın atılmasında böyük maneələrlə üzləşsə də, bir qədər sonra Zaqafqaziya respublikaları arasında ilkin olaraq N.Tusi adına ADPU-nun "İbtidai hərbi və fiziki təlim" fakültəsinin açılmasına nail oldu. Paralel surətdə o vaxtlar Azərbaycandan SSRİ-nin müxtəlif hərbi məktəblərinə ildə 700-800, hətta bəzən 1000 nəfər göndərilir, hərbi sənətin müxtəlif sahələrinə istiqamətləndirilirdi. Bütün bu tədbirlərin nəticəsidir ki, hazırda Milli Ordumuzda yüksək hazırlıqlı zabitlər var. İndi döyüş bölgələrində düşmənlə üz-üzə dayanan yüksək rütbəli, hazırlıqlı hərbi zabitlərin əksəriyyəti bu təhsil ocaqlarının məzunlarıdır.

Bax, elə bircə xidməti, Milli Ordumuzun yaradılmasında həlledici rol oynayan bu addımı Heydər Əliyev adının Azərbaycan tarixinə qızıl hərflərlə yazılması üçün kifayət idi. Halbuki, o, bütün sahələrdə fenomenal dəyişikliklər etmiş, ölkənin istənilən sahəsini yüksək inkişaf yoluna istiqamətləndirmişdi.

Fransız yazıçısı Viktor Hüqo yazır ki, "Xalqın böyüklüyü onun sayı ilə ölçülmür. Buna uyğun olaraq insanın böyüklüyü də onun boyunun ucalığı ilə müəyyənləşmir. Bunun üçün ağıl, şan-şöhrət və cəsarət yeganə ölçüdür. O adam böyükdür ki, hər işində böyük nümunə göstərir" (14). Bu mənada Ümummilli Liderimizin hər əməli bizim üçün örnək deyilmi?

Heydər Əliyevin mədəniyyətə, ədəbiyyata qayğısı, bu sahəni daim öz himayəsi altına alması, sənət adamlarına böyük diqqəti hamının gözü qarşısında baş vermişdi. Təsədüfi deyil ki, yeddi milyonluq əhalisi olan Azərbaycanda sənət adamlarından səkkiz nəfəri Sosialist Əməyi Qəhrəmanı adını almışdı. Nə qədər SSRİ xalq artisti, SSRİ dövlət mükafatı laureatı var idi. Bunların hamısı Heydər Əliyevin milli marağa söykənən şəxsi təkidi və yaxından iştirakı sayəsində olmuşdu. Danışırlar ki, ən yüksək səviyyəli görüşlərin birində SSRİ mədəniyyət naziri Demiçev yarıciddi, yarızarafat Heydər Əliyevə demişdi ki, Ukrayna boyda respublikada yalnız iki nəfər sənətçi Sosialist Əməyi Qəhrəmanı adı alıb. Azərbaycanda isə 8 nəfər bu ada layiq görülüb. Bu necə olur? Heydər Əliyev də təmkinlə cavab verib ki, bizim xalqımız istedadlı xalqdır. Siz bu adları elə-belə paylamırsınız ki? Biz təqdim edirik, siz də görürsünüz ki, doğrudan da, layiqli adamlardır, mədəniyyətin inkişafında xidmətləri var, ona görə də verirsiniz.

Hər ölkənin sabahı, gələcəyi onun gəncləri ilə bağlıdır. Bu gənclərə göstərilən qayğıdan asılıdır. Heydər Əliyevin çoxcəhətli fəaliyyətində gəncliyə böyük qayğı və diqqət də mühüm yer tuturdu. Onun gənclərə ünvanlanmış "Sizin ən ümdə vəzifəniz vətənə, ölkəmizə, doğma torpaqlarımıza daim sədaqətli olmaqdır. Heç bir gənc bunu heç vaxt unutmamalıdır. Nə olursa-olsun, Vətənə, xalqına, ölkəsinə, dövlətinə sədaqət hər bir gənci daim yaşadacaq və ona cəmiyyətdə özünə layiq, özü istədiyi yeri tapmağa imkan verəcəkdir" (1, 414) sözləri bu gün də hamının üzərində böyük məsuliyyət qoyur.

Heydər Əliyev fenomenliyini, onun Tanrıdan gələn siyasi istedadını təkcə kor olanlar görmürdülər. Hətta bizə dost olmayan xarici müxbirlər də bu istedadın işığını duyur, onu dana bilmirdilər. Rus mətbuatında çap olunmuş bir yazıdan misal gətirmək istyirəm. Yazının sonunda müəllif yazırdı: "Hakimiyyətə gəlmək istəyən insanlar onun təcrübəsini araşdıra və öyrənə bilərlər. Amma bunun çətin ki, təkrarı olsun. Çünki bütün başqa istedadlar kimi, siyasətçi istedadı da anadangəlmədir, fitridir" (7, 8). Heydər Əliyev dühası, bacarığı, istedadı və qabiliyyəti də fitri idi, Allah vergisi idi.

1970-ci ildə Azərbaycan KP Mk-nın katibi kimi Heydər Əliyev bir təhsil ocağına gəlmişdi. Professor – müəllim heyəti ilə görüşdə o, başqa sovet rəhbərlərinə xas olmayan tərzdə – təmiz Azərbaycan dilində çıxış etdi. Bugünkü nəsil üçün bu adi faktdır. Ancaq bilsəniz ki, o vaxt bu, necə böyük hadisə idi. Çünki o günə kimi bütün rəsmi görüşlər rus dilində aparılırdı. Ana dilində danışmaq az qala qəbahət, səviyyəsizlik, böyük vəzifəli şəxslər üçün isə millətçilik təzahürü kimi qiymətləndirilirdi. Rus dilini mükəmməl bilməyənlər öz vətənlərində əməlli-başlı əziyyət çəkirdilər. Vəzifəyə aparan qapılar onların üzünə bağlı olurdu. Bax, belə bir vaxtda Heydər Əliyev səviyyəsində bir adamın azərbaycanca nitq söyləməsi çoxciddi addım idi. Müqayisə üçün başqa bir dövlət başçısını da yada salaq –xalqı boyunduruq altında saxlamaq üçün Azərbaycana göndərilən Ə.Vəzirovu. Doğma ana dilində üç sözü bir-birinə calayıb fikrini ifadə etməyi bacarmayan bu imperiya nökərinin nitqi haqqında az qala Molla Nəsrəddini üstələyən sayda lətifə danışırdılar. O, bu millətin oğlu olduğunu, ancaq yüksək vəzifə kürsüsündə xatırlamışdı, lakin xalqın gözü tərəzidir, nə onun "təzə hamam"larını qəbul elədi, nə də "əkdiyi qoz ağaclarını".

Heydər Əliyevin nitqinin səlistliyi onun xalqının şifahi və yazılı ədəbiyyata vurğunluğundan irəli gəlirdi. Klassik və müasir Azərbaycan yazıçılarının əsərlərini onun sevdiyi qədər heç kəs mütaliə etmirdi. Dünyada bütün zamanlar üçün natiqliyin yeganə ustası Demosfen sayılır. O öz çıxışları ilə Makedoniyalı İsgəndər kimi dünya fatehini qorxuya salırdı. Heydər Əliyev ondan fərqli olaraq, iki dildə böyük söz ehtiyatına malik idi, elə bir jurnalist sorğusu və problem yox idi ki, onun qarşısında aciz qalsın. Elmin, incəsənətin, ədəbiyyatın, texnikanın və istehsalın elə bir sahəsini tapmaq mümkün deyildi ki, onun barəsində ən bacarıqlı tədqiqatçı, sənətşünas və mütəxəssis kimi söz açmasın. Natiqliyinə görə Heydər Əlirza oğlunu ancaq Siseron və Demosfenlə müqayisə etmək olar. Onun dövlət rəhbərliyindən öncə işlədiyi yüksək vəzifələrdə ancaq rus dili işlənirdi. Lakin həmişə xalqla – zəhmət və sənət adamları ilə təmasda olan ölkə başçısı daim ana dilinin inkişafına çalışırdı. O, gülərüzlüyü, səmimiliyi, bir də saf söhbətləri ilə əbədilik yaddaşlara həkk edilib.

Vətənindən çox uzaqda jurnalistlərlə görüşdə tanınmış bir aparıcı Heydər Əliyev fenomeni qarşısında məğlub olduğunu görüb verilişin çox uzandığını bəhanə edir, qurtarmaq istədiyini bildirir. Bu zaman Heydər Əliyev özünə xas təbəssümünü gizlətməyərək deyir:

- Biz Azərbaycandan, böyük okeanların üstündən keçib buraya gəlmişik ki, ölkənizdəki demokratik ab-havadan udaq və sizdən öyrənək. Özünüz onu pozmağa çalışırsınız.

Aparıcı pərtliyini gizlətməyə çalışaraq söyləyir:

- Anam mənə dönə-dönə tapşırıb ki, məhşur siyasətçilərin qarşısında çox oturmayım. Onun xahişini yerinə yetirirdim (9, 52-53).

Bu müdrik İnsan dünyanın ən inkişaf etmiş ölkələrində məşhur insanları heyran qoymaqla öz xalqına heykəl ücaltmırdımı? İnsanlar dünya yarananda hər işi tanrının adı ilə bağlayırlar. Deyəsən, daşdan, torpaqdan, müharibədən, məhəbbətdən, güldən tutmuş ən xırda həşəratın da Allahı olub, təkcə siyasət aləmi insanla bağlanıb. Əgər siyasətin Allahı yoxdursa, deməli, Tanrı XX yüzilliyin son illərində və yeni əsrin əvvəlində Yer kürəsində bu işi icra etməyi Heydər Əliyevə tapşırmışdı. Mişel Nostradamus yazırdı ki, iki mininci illərə yaxın türklər arasında bir şəxsiyyət peyda olacaq və onun ağlının qüdrəti ilə Türk dünyası yeni dövrə qədəm basacaq. Bu, Heydər Əliyev şəxsiyyətinə işarə deyilmi?

Vətənə həsr olunan böyük ömürdə dərin uçurumlarla da rastlaşıb. Bir vaxtlar kölgəsində daldalanıb yuxarılara quyruq bulamaqla Kremlin nökərinə çevrilənlər elə bilirdilər ki, Azərbaycan xalqını Heydər Əliyevdən, Heydər Əliyevi isə Azərbaycandan ayırmaq mümkündür. Çünki onu siyasət meydanından uzaqlaşdırmağa cəhd göstərməklə Qorbaçov kimilər Azərbaycan xalqının başına müsibətlər açmağı planlaşdırmışdır. Çirkin məqsədlərini həyata keçirmək üçün bu torpağın himayədarının – Heydər Əliyevin əl-qolunu bağlamaq lazım gəlirdi. Və istəyirdi ki, Azərbaycan vətəndaşlarını öz müdrik rəhbərinə qarşı qoymaqla onu gücsüzləşdirsinlər. Bəli, ağrılı günlər idi. Dünya siyasətinə bələdçilik edən bir şəxs hər şeyə dözdü, çox kiçik bir vəzifə tutmaqla da olsa, parçalanmaq təhlükəsi qarşısında qalan yurdunda olmaq istədi. Bəlkə də Tanrı Azərbaycanı düşmən tapdağından xilas etmək üçün öz istəkli bəndəsini sınaqdan keçirirdi, onu bir də qaldırmaqdan ötü endirirdi.

Ana dilində danışmağı yadırğayan "rəhbərlər" tərəfindən Heydər Əliyevin böyük bir ədalətsizliklə gözdən salınmağa cəhd olunduğu günlərdə hər dəfə Prezident Sarayı qarşısından keçəndə izdihamlı binaya baxıb qəribə kövrək hisslər keçirirdim:

Əzizim bizim qala,
Həmişə bizim qala
Tikmədim ki, özüm qalam
Tikdim ki, izim qala.

Onu da bilirəm ki, izi qalan qalalarda əvvəlcə yaşayarlar, onun gözəlliyini duyarlar, səfasını görərlər və sonra onu gələcək nəsillərə hədiyyə kimi bəxş edərlər. Düşünürdüm, möhtərəm Heydər Əliyev bu binanı da başqa işləri kimi, xalqı üçün tikib. Adamlar onun burada işləyəcəyinə, gördüyü bütün işlərdə olduğu kimi qürur hissi keçirəcəyinə inanırdıq. Çünki Allah-Təalanın nəzərinin həmişə qeyrətli, zəhmətkeş adamların üstündə olduğunu bilirdik. Lakin bir vaxtlar bu müdrik rəhbərin səxavətindən bəhrələnib, dövlət kürsülərinə dırmaşanların sonra xalqın düşmənlərinin xidmətində duraraq bu möhtəşəm sarayda oturub onu ucaldanın ünvanına hədyan söyləmələri taleyin ədalətsiz bir səhnəsi kimi qəbul edilməlidir.

Azərbaycanın dirçəlişi və tərəqqisi naminə bütün bilik və bacarığına istedad və enrjisini əsirgəməyən böyük insanın hakimiyyəti dövrünü mərhələlərə, illərə, aylara bölsək, görərik ki, onlardan hər biri – hər zaman kəsiyi böyük qələbələrə, ölkəmizin çiçəklənməsinə, iqtisadiyyatın yüksəlməsinə səbəb olub. Onun ardıcıl, düşünülmüş səliqə-sahmanla həyata keçirilən xarici siyasəti nəticəsində Azərbaycan Dünya Birliyində demokratik, hüquqi dövlət kimi tanınıb. Az bir müddət içərisində xüsusi nüfuza malik beynəlxalq təşkilatlara üzv qəbul olunub.

* * *

Hər bir xalqın hansı ərazidə məskunlaşdığının ilkin və ən mühüm göstəricisi arxaik mifoloji-folklor materialları və etnoqrafik daşıcıyılardır. İnsanlar coğrafi məkana, ocağa sahib olan andan orada öz izlərini adlarla (toponimlər, hidronimlər, tanrı isimləri və s.) qoyurlar. Yazı meydana gəlməmişdən qabaq Azərbaycan türkünün dünya haqqındakı təsəvvürləri Qobustandakı rəsmlərdə, Azıx mağarasındakı məişət əşyalarında, şifahi şəkildə formalaşan bədii yaradıcılıq nümunələrində, primitiv əmək alətlərində və məişət əşyalarında əks olunmuşdur. Qadın və kişi başlanğıcın animastik qayaüstü təsviri göstərir ki, ulu əcdad özünün meydana gəlməsini 5 min il əvvəl də ata-anaya bağlamışdır. Bu onu təsdiqləyir ki, türkün atalar kultuna inamının tarixi kökləri çox dərin qatlardan gəlir. Deməli, hər hansı bir etnosun mifologiyası və folkloru yaşadığı ərazinin təbiəti ilə yoğrulmayıbsa, onun haqqı yoxdur ki, özünü həmin yerin köklü sakini saysın. Bu mənada türkdilli xalqların Ural ətrafından, Qafqaz və Altaydan başlanan köç etməsi çox əski çağlardan bütün Asiyanı bürümüş və Avropanın ətəklərinədək yayılmışdır.

Heydər Əliyev çıxışlarının birində bildirirdi: "Biz fəxr edirik ki, ata-babalarımız digər xalqlarla dostluq və qardaşlığa can atmışlar". Türk tarix boyu bir əlində qılınc, digər əlində

müqəddəs “Kitab” tutub dünyanı bir bayraq altında birləşdirməyə çalışmış və qonşularını həmişə barışa, sülhə, onun gücü, qüdrəti, haqqı, ədaləti qarşısında “təslim olmağa” çağırmışdı. Müdrik və sənətkarlıqla deyilmiş hər sözü öz andı bilib qorumuş, şər fikrə düşənləri isə Dədə Qorqud kimi mənəvi ucalığın kölgəsində utandırmağı bacarmışdır. Ona görə ki, “bədii söz insanların ağlına və ürəyinə daha tez yol tapır, daha dərindən nüfuz edir, onlara son dərəcə böyük təsir göstərir (4, 23)”.

Belə bir həqiqət var ki, hər hansı bir xalqı kölə vəziyyətinə salmaq üçün onun tarixini əlindən almaq, ya da kökünü dərinliklərdən uzaqlaşdırıb yaxın çağlara gətirmək lazımdır. Heydər Əliyevin böyüklüyü ondadır ki, bu həqiqəti rəhbər vəzifəyə gəldiyi gündən başa düşüb daim diqqət mərkəzində saxlamış, doğma xalqına tətbiqinin qarşısını almağa nail olmuşdur. O, Milli Elmlər Akademiyasının əməkdaşları qarşısındakı çıxışında görkəmli elm xadimlərinə 20-30 il əvvəlki tövsiyələrini təsadüfi xatırlatmırdı: “Tarixçilərimizin xatirində olmalıdır ki, mən Azərbaycanda işləyən dövrdə – 70-ci illərdə və 80-ci illərin əvvəllərində dəfələrlə onlara müraciət etmişəm ki, bizim tariximiz – həm qədim tariximiz, həm orta əsrlər tariximiz, həm də son dövrlərin, yəni XVIII, XIX, XX əsrlərin tarixi istənilən səviyyədə yazılmayıb. Tarixçilərin yadındadır ki, mən alimlərlə dəfələrlə görüşmüşdüm, hər dəfə də öz narahatlığımı bildirmişdim” (3, 337). Bu narahatlığın əsas səbəbi ondan irəli gəlirdi ki, keçmiş sovet məkanında mənfur qonşularımız və onların mərkəzdəki havadarları Rus çarizm idarəçiliyində bünövrəsi qoyulan mənfur siyasəti (Qafqazı müsəlman türklərdən tam təmizləyib xristianlaşdırmaq, saxta “Böyük Ermənistan” xəritəsini simvolik şəkildə bərpa etmək) incəliklə davam etdirir, Azərbaycan xalqının qədimliyini təsdiqləyən faktlara göz yumur, ya da başqa səmtə yönəldir, qəribə konsepsiyalar irəli sürərək kökümüzü Qafqazdan uzaq salmağa səy göstərir, bununla da ulu babalarımızın yaşadığı əzəli ərazilərə XII yüzillikdən sonra gəldiklərini yaddaşlara yerləşdirmək niyyəti güdürdülər. Heydər Əliyevin təkcə türkün Qafqazla əlaqələnən ilk yazılı eposunun yaranma tarixini 1300 əvvələ aparması, bunu Beynəlxalq miqyasda keçirilən tədbirlərdə təsdiqləməsi, bir qədər kobud desək, gözə soxması göstərir ki, yüzlərlə alimin yerinə yetirə bilmədiyi mühüm problemin təməlini əsaslı formada qoymuş və Türk Dünyası yazıçılarının III qurultayında belə bir həqiqəti də açıqlamışdır ki, “türkdilli xalqlar qədim, çoxəsrlik tarixi boyu Avrasiya qitəsinin böyük hissəsində yaşayaraq dünya, bəşər mədəniyyətinə böyük töhfələr vermiş, onu zənginləşdirmişdir. Qədim tarix boyu türkdilli xalqların həyatı cürbəcür, bəzən xalqların varlığını təhlükə altına alan müharibələrlə, döyüşlərlə, təcavüzlərlə rastlaşmışdır. Ancaq xalqlarımızın dərin kökləri, bir-birinə mənəvi bağlılığı onları bütün bu mərhələlərdən, imtahanlardan, sınaqlardan çıxarmışdır” (2). Ən maraqlısı odur ki, Ulu Öndərin tövsiyələrində örnək kimi istinad etdiyi əsas mövzu türk xalqlarının mifoloji görüşlərlə zəngin olan tarixi qəhrəmanlıq eposlarıdır. O, tarixi köklərimizin yazıçılar tərəfindən işıqlandırılmasını yüksək dəyərləndirmiş, Şərqin ən möhtəşəm yazılı abidələrinin içərisindən türk xalqlarının yaratdığı əsərləri seçib diqqət mərkəzində saxlamağın, araşdırmağın və bütün dünyaya yaymağın vacibliyini nəzərə çatdıraraq bildirirmişdir ki, “Dədə Qorqud”, “Manas”, “Alpamış”, “Koroğlu” dastanları qədim dövrlər-

də yaranmış, xalqlarımızın hamısına mənsub olan dahi şairlərimiz, yazıçılarımız – Nizami, Yunus İmrə, Nəsimi, Əlişir Nəvai, Füzuli, Məhdimqulu, Mirzə Fətəli, Sabir, Cəlil Məmmədquluzadə, Abay, Hüseyn Cavid və digərləri isə türkün tarixini, mənəvi dəyərlərini əks etdirən, onu dünyada tanıtdıran ölməz əsərlər meydana gətirmişlər. Bütün bunlar nəsillərdən-nəsillərə ötürülərək "xalqımızı özünəməxsus milli-mənəvi dəyərlər, o cümlədən ümumbəşəri dəyərlər əsasında tərbiyə etmiş, onlarda vətənpərvərlik, vətənə sədaqət hisslərini daim gücləndirmişdir (1, 280).

Faktlar göstərir ki, yüksək dövlət kürsülərində çalışarkən Heydər Əliyevi azərbaycanlıların tarixi taleyi və mənşəyinin labirintə salınması, ilkin dünyagörüşünün, mifoloji təsəvvürlərinin yoxluğu kimi elmi əsası olmayan qənaətlərin irəli sürülməsi sarsıtmış, yüksək dövlət postları ilə daim irəliyə doğru cəsarətli addımlarını ona görə atmışdı ki, həqiqəti üzə çıxarmaq üçün alimlərin meydanını genişləndirməyə səlahiyyəti çatsın. O, Məhəmməd Füzulinin 500 illik yubileyi üzrə Dövlət Komissiyasının iclasındakı yekun sözündə uzun illər ürəyini didib-parçalayan haqsızlıqlar və elmi yanlışlıqların baş alıb genişlənməsi barədə açıqlamalar vermişdir: "Hamımıza məlum olan düşmən qüvvələr həmişə sübut etməyə çalışmışdır ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu cəfəngiyyatdır". Kommunist idelogiyasının "iri addımlarla irəlilədiyi" çağlarda belə (1981-ci ildə) onu narahat edən məsələlərdən biri Azərbaycan xalqının tarixinin bədii ədəbiyyatda dolğun əks etdirilməsi olmuşdur. O, yaxşı dərk edirdi ki, millətlərin özünüdərkini unutdurmaqdan ötrü onun tarixini saxtalaşdırmaq, kökünü dərinlikdən yaxınlara gətirmək xətti yeridilir. Bu acı həqiqətin onun doğma xalqına tətbiqi ilə barışmadığını Azərbaycan yazıçılarının qurultayındakı nitqində açıq-aydın nümayiş etdirərək qələm sahiblərinin fəaliyyətindən narazı qaldığını bildirmişdir: "Açıq demək lazımdır: Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir" (3, 46).

Mənəvi dəyərlərin qorunması üçün bütün imkanları səfərbər edən dövlət başçısı Azərbaycan və ümumiyyətlə, türklər haqqında formalaşan qeyri-etik və elmilikdən kənar qənaətləri alt-üst edən çoxsaylı tədbirlər həyata keçirmişdir. Onun səyi və prinsipial mövqeyi nəticəsində dünya anlamağa başlamışdır ki, "Dədə Qorqud", "Manas", "Koroğlu" kimi eposlar düzüb-qoşan xalq ancaq haqqa tapınar, şərə meyl göstərməz. H.Əliyev düşmənlərimizin hiyləgərliyinə yaxşı bələd idi. Ona görə də prezidentlik fəaliyyəti dövründə çalışırdı ki, türk xalqlarınının birliyinə nail olsun. Bu birliyi o, vahid türk dövlətinin qurulması şəklində deyil, məhz mənəvi dəyərlərin eyniliyini, oxşarlığını üzə çıxarıb mədəni amillər əsasında bir-birinə yaxınlaşma, milli ruhu oyadıb kökə qayıtma kimi gerçəkləşdirməyə can atırdı.

Bu gün ayrı-seçkiliyin yalnız bir məsələdə qabarıq şəkildə görünməsinə isə sevinir – çünki türk xalqlarının hər birinin öz müstəqil dövləti yaranmışdı. Cüzi dil fərqləri istisna olunmaqla dünyada yeddi müstəqil türk dövlətinin bayrağının dalğalanmasını (Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazağıstan, Türkmənistan və Türk Kipri) böyük qələbə sayırdı. O, türk xalqlarının mənəvi birliyindən qürurlanmaqla yanaşı onların yüksək inkişaf

yolunu tutmasını arzulayaq deyirdi: “Bizim tarixi köklərimiz xalqlarımızın öz iradəsi ilə bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və qeyd edim ki, mənəvi dəyərlərimizin inkişafı tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə, keçilməz yollarla rastlaşıbsa da, dayanmayıb, inkişaf edib, qalxıbdır. Amma indi isə, türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik” (1).

Türk mifik təfəkküründə ulu əcdad Oğuz dünyaya elə missiya ilə qədəm basır ki, haqqı tapdayanların dərsini versin, ədaləti, düzlüyü sevənləri isə öz qanadı altına alıb şərdən, yad təcavüzlərdən qorusun. Bu gün həmin misiyanı öz çiyinlərində ancaq bir şəxs daşıyır – türkün mənəvi yüksəkliyinə, müdrikliyinə və tarixi qəhrəmanlığına sığınan Heydər Əliyev!..

Siyasət aləmində Heydər Əliyevin ən böyük xidməti müstəqil Azərbaycan dövlətininin özülünü və əsas sütunlarını qurması, inkişafa, yüksəlişə istiqamətləndirməsidir. Lakin özünün də təsdiqlədiyi kimi “müstəqil dövlət olmaq üçün xalqın gərək mentalitet səviyyəsi olsun” (8, 48). Respublikada yaşayan insanları mentalitet səviyyəyə gətirən amillərin birincisi isə xalqın kökünün düzgün müəyyənləşdirilməsi, ilkin dünyagörüşüşün – mifologiyasının bərpası, mənəvi-əxlaqi dəyərlərinin qorunması və adət-ənənlərinin haqqa, ədalətə, humanist ideyalara söykəndiyinin başqa ölkələrdə düzgün nümayiş etdirilməsidir. Bu işin özəyində isə folklor irsinin yazıya alınıb nəşr edilməsi və araşdırılması durur.

Ümumiyyətlə, ölkə prezidentinin son illərdə folklora göstərdiyi qayğını – verdiyi mühüm qərar, göstəriş və fərmanları nəzərdən keçirəndə adamı heyrət bürüyür. Özü də həmişə bu sahə ilə bağlı aparılan tədbirləri xüsusi nəzarətdə saxladığından şifahi xalq ədəbiyyatı nümunələrinin toplanması, nəşri və təbliği sahəsində böyük işlər görülmüşdür. İlk növbədə, onu vurğulamaq lazımdır ki, Milli Elmlər Akademiyasının “Folklor” elmi-mərkəzinin imkanları genişləndirilmiş və müstəqil elmi-tədqiqat instituna çevrilmişdir. Burada bir cəhətə xüsusi diqqət yetirilir. Zorla, silah gücünə dədə-baba yurdlarından didərgin salınan Qərbi Azərbaycan və Qarabağ torpağının köklü sakinlərinin folkloru damla-damla yazıya alınıb əbədiyyət qazanır. Bu elə bir hünərdir ki, hər buraxılan 600-800 səhifəlik folklor toplusu düşmənin başına Ağrı dağı ağırlığı qədər zərbə endirib xülyalarını boşa çıxardır. Bu işlərin əhəmiyyətinin böyüklüyünü bir faktla nəzərə çatdırım. Bu yaxınlarda respublikamızdan uzaqlarda (Sankt-Peterburqda) yaşayan bir neçə soydaşımızın evində qonaq olanda gördüm ki, onlar sadaladığım folklor antalogiyaları ilə bir sırada Aşıq Ələsgərin iki cildliyini, “Koroğlu” və “Dədə Qorqud” eposlarını, Molla Cumanın əsərlər toplusunu stolüstü əsərlərə çevirmişlər. Həmvətənlərimiz xalqın yaratdıqları bədii yaradıcılıq nümunələri ilə nəfəs alır, folkloru övladlarına əzbərlətməklə vətəndən uzaqda köklərini unutmamağa çalışırdılar. Bu mənada Heydər Əliyev uzaqgörənliklə dövlət xadimlərinə tövsiyə edirdi ki, “hansı hakimiyyət olursa-olsun, xalqa sədaqətlə xidmət edən, xalqın irəli getməsinə çalışan adam heç bir şeylə hesablaşmamalıdır” (4, 28).

Əslində, tariximizin son olayları – musiqimizin beşiyi Şuşanın işğalı hamıdan çox ölkə başçısını sarsıtmışdı. Eləcə də bu qədər zəngin mənəvi sərvət yaradan insanları xəyanətlə heç vaxt barışmamağa çağıran da cənab Heydər Əliyev olmuşdur. O, çıxışlarında təkrar-təkrar deyir: "Elə düşünməsinlər ki, Azərbaycan xalqının mənəviyyatını sarsıda bilərlər, yox! Elə güman etməsinlər ki, Şuşanın işğalı daimi ola bilər. Yox, ola bilməz!.. Biz öz torpaqlarımızın sahibi olmalıyıq... Nəyin bahasına olursa-olsun, hansı yolla olursa-olsun, Şuşa da, Qarabağ da, işğal olunmuş bütün torpaqlarımız da azad olunacaq – Azərbaycan xalqının iradəsi ilə azad olunacaq". Bir ictimai xadim və siyasətçi, mübariz insan kimi gücünü, tükənməz enerjisini türkün qəhrəmanlıq eposlarından aldığını isə çıxışlarında bir neçə dəfə etiraf etmişdir. Uşaqlıq və gəncliyində "Koroğlu" kitabını əlindən yerə qoymadığı açıq-aydın hiss olunur. Eposun xüsusiyyətləri və ideyasını şərh edərkən bir folklorşünas alim tək ümumiləşmələr aparır, türkün milli ruhda yetişməsində eposun müstəsna əhəmiyyətə malikliyini vurğulayır. Heydər Əliyev Üzeyir Hacıbəyovun 110 illiyinə həsr olunan yığıncaqda çıxış edərkən vurğulayırdı ki, "Koroğlu" dastanı insanları həmişə qəhrəmanlığa, cəsurluğa dəvət etmişdir. Bu dastan insanlarda qəhrəmanlıq, cəsurluq və vətənpərvərlik əhval-ruhiyyəsi yaratmışdır. "Koroğlu" dastanı insanları həmişə azadlığa, azadlıq uğrunda zülmə qarşı mübarizəyə çağırmışdır. "Koroğlu" dastanı ona görə sevilir ki, xalqın həyatı, gələcəyi üçün ən əhəmiyyətli fikirlər bu dastanda cəm olunmuşdur" (1, 456).

Gözlərimiz önündə baş verən son tarixi hadisələr göstərir ki, heç bir ölkədə xalqın mənəvi sərvətinə bizdə olduğu qədər dövlətin diqqət və qayğısı nəzərə çarpmır. Ölkə Prezidentinin fərmanı ilə "Dədə Qorqud" abidəsinin 1300 illik yubleyinin YUNESKO xətti ilə dünya miqyasında keçirilməsindən sonra ölkəmizdə bir-birinin ardınca mühüm tədbirlər həyata keçirilir. Respublikamız güclü folklorşünas kadr potensialına malikdir. Bakının üç böyük təhsil və elmi müəssisəsində, eləcə də Naxçıvan, Gəncə və Şəkidə məktəb səviyyəsində – özü də hər biri öz dəsti-xətti ilə seçilən folklor ocaqları fəaliyyət göstərir. Bakı Dövlət Universitetinin "Folklor" kafedrası neçə illərdir ki, AMEA-nın müxbir üzvü A.Nəbiyevin rəhbərliyi ilə həm elmi kadrların yetişməsində, həm də ekspedisiyalar vasitəsi ilə xalqdan toplanan folklor nümunələrinin nəşrində böyük işlər görür.

Heydər Əliyev özü aforizmə çevrilən kəlamları ilə üzünü sapı özümüzdən olan baltalara tutub demişdir: "Dağıtmaq asan işdir, amma yaratmaq çox çətindir. Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Dağıdanlar həmişə tarixdən silinmişlər, yaxud da tarixə mənfi rol oynamış adamlar kimi daxil olmuşlar" (1, 134).

Dili "ürəyin açarı" hesab edən Azərbaycan xalqı onunla qürur hissi duymalıdır ki, yeni minilliyə xalqının dilini, tarixini, mədəniyyətini, incəsənət və ədəbiyyatını fanatikcəsinə sevən, dünya siyasətinin öndəri olan böyük şəxsiyyətlə qədəm basdı. Heydər Əliyev yenicə müstəqillik qazanan dövləti bataqlıqdan çıxarmaqla, ayağa qaldırıb müasir sivilizasiyalı ölkələr səviyyəsinə çatdırmaqla yanaşı xalqımızın mənəvi sərvətinin qorunmasına, tarixi-mə-

dəni abidələrinin üzə çıxarılıb bütün dünyada tanıdılmasına çalışır, həmçinin nitq ustalığını nümayiş etdirməklə, idarə və təşkilatlarda rəsmən Azərbaycan dilinə qayğı ilə yanaşılmasına nail olub milyonların rəğbətini qazanır. Onun bu sahədə gördüyü işlər həm gələcək siyasətçilərimiz, həm alim və ziyalılarımız, həm də gənclərimiz üçün örnəkdir. Öz ana dilini sevən hər bir kəs bu barədə həqiqəti açıqlamağa borcludur və buna hədsiz ehtiyac vardır.

Xalqının dilinə, tarixinə və ədəbiyyatına onun bu vurğunluğunu ancaq iki şəxslə müqayisə etmək olar: Nizami Gəncəvi və Qayğısız Abdalla. Türkün mifoloji dünyagörüşündə belə bir təsəvvür var ki, yer üzünün ilk insanı Adəm ayağını torpağa basanda türk dilində danışmışdır. Ululərımız gələcək nəsillərə mifoloji görüşlərdən götürdükləri bir qənaəti həmişə örnək tək vurğulamışlar. Türkün dünyanın qədim və köklü sakini olduğunu hamıdan öncə böyük Nizami qeyd etmişdir. O, bəşəriyyətin atasının milliyyətindən danışanda bu qənaətə gəlir ki, Adəm də mənşəcə türkdür. Şairin "Sirlər xəzinəsi" poemasında oxuyuruq:

"[Allah] Adəmi öyrətdi" [ayəsi] onun pak sifətinədir...
O, həm ev-eşiyini, həm də [behişt] bəzəyini tərk edərək
Elə bir danənin tələsinə düşdü ki,
O [danə] "Allah sənə şükür!" duasına da layiq deyil...
O, ay kimi Xətay türkü oldu,
Və xəta zülfünü papağının altında gizlətdi (11, 32)**.**

Şair ayəni Qurandan götürmüşdür, lakin müsəlmanların müqəddəs kitabında yazılmamışdır ki, Adəm xəta işlətdiyinə görə yer üzünə Xətay türkü sifətində göndərilmişdir. Eləcə də bəşərin atasının Aya bənzədilməsinə də Quranda işarə edilmir. Adama elə gəlir ki, Nizami Adəm peyğəmbərdən deyil, Ay kağanın bətnində ikən Allaha tapınan Oğuzdan danışır. Ola bilsin ki, Böyük türk sərkərdəsi Şah İsmayıl da özünə bu səbəbdən "Xətai" ləqəbini götürmüşdü.

Bir fakt da heyrət doğurur: "Qayğısız Abdal" təxəllüsü ilə şeirlər düzüb-qoşan türk xalq təsəvvüf ədəbiyyatının görkəmli nümayəndəsi Alaiyeli Əlaəddin Gaybi XIV yüzildə Ulu soydaşı Nizaminin səsinə səs vermişdir. O, Adəm peyğəmbərin "türklüyünü əsaslandıran" bir mifi xalq dilindən götürüb nəzmə çəkmişdir. Nizaminin və Qayğısız Abdalın yaşadığı bölgələrin ağsaqqalları danışırdılar ki:

"Məlum səbəbdən həzrət Adəmin cənnətdən çıxması əmri verilir. Fəqət həzrət Adəm "bəlkə, əf edildim" – ümidi ilə bir müddət orada qalır. Bu durumu görən Cənab-i Haqq Cəbrayıla buyurur: "-Ya Cəbrayıl, get Adəmə söylə, Cənnətdən çıxsın!" Cəbrayıl vəzifəsini o dəqiqə yerinə yetirir. Lakin Həzrət Adəm cənnətdə qalmaq arzusunda və günahının bağışlanmasında yenə israrlı görünür. O zaman Cənab-i Haqq Cəbrayıla təkrar buyurur: "-Ya Cəbrayıl, get Adəmə TÜRK DİLİNDƏ söylə, durmasın, cənnəti ən qısa zamanda tərk etsin!.."

Göründüyü kimi, Allah Adəmin günaha batıb adiləşəndən sonra ilahi aləmdəki deyimi anlamadığını görür və öz mələyinə göstəriş verir ki, onunla yer əhli üçün ayırdığı dildə da-

nışsın. Bu gün Azərbaycan türklərinin gündəlik söhbətləri zamanı fikrini düzgün anlada bilməyənə, kəlmələri baş-ayaq söyləyənə, tələffüz qaydalarına riayət etməyənə qarşı acıqlanıb belə bir cümlə işlədirlər: "Sözünü Adam dilində söyləsənə!" Yaxud "Adam kimi danışsana!.." Bu o anlamı verir ki, ulu əcdad Adamın cənnətdən özü ilə gətirdiyi dili – türkcəni qoyub yad sözlər işlətmə. Bizcə, bu, Nizaminin və Qayğısız Abdalın faydalandığı əsatirin əsrlərin sınağından keçərək xalq məsəlinə çevrilməklə şifahi yolla zəmanəmizə çatdırılmasıdır.

Qayğısız Abdalın "Gülüstan" əsərindəki mənzum parça daha dolğun və poetikdir:

"GÜLÜSTAN"NIN ORİJİNAL MƏTNİ:

Nak buyurdu Cebraile var didi,
Ademi cennet içinden sür didi.

Geldi Cebrail Ademe söyledi,
Haq (buyruqanı) ayan eyledi.

Cebrail didi:
"Çıgil Uçmag"dan Adem,
Tanrıun buyraqı budur iş bu dem.

Nice ki söyledi her-giz gitmedi,
Cebrailun sözünü işitmedi.

Türk Dilin Tanrı buyurdu,
Cebrail,
Türk Dilince söylegil,
dur git digil.

Türk Dilince Cebrail
"Hey dur" didi,
"Dur-gel
uçmaqun terkin ur" didi. (13, 316)

AZƏRBAYCAN TÜRKCƏSİNƏ ÇEVRİLMƏSİ:

Haqq çağırıb, Cəbrayıla "get" dedi,
"Adəmi cənnətdən sürgün et" - dedi.

Cəbrayıl Adəmə çatıb söylədi,
Haqqın buyruğunu əyan eylədi.

Cəbrayıl:
"Cənnətdən get, - dedi, - Adəm!
Tanrının əmrini icra et bu dəm".

Nə qədər söylədi, Adəm getmədi,
Cəbrayılın sözün heç eşitmədi.

Tanrı Türk dilində dedi:
"-Cəbrayıl,
Dur, get,
Türk dilində söylə və sayıl".

Cəbrayıl tez türkcə:
"Adəm, get!" – dedi,
"Hey, dur-get,
cənnəti tez tərk et" - dedi.

(Nəzm parçası Azərbaycan türkcəsinə müəllif tərəfindən çevrilmişdir).

Əbbürrəhman Gözəl Qayğısız Abdalın məsnəvi formasında qələmə aldığı mifin şərhini belə açıqlayır: "İşte bu buyrukdan sonra Hz. Adem cennetten çıkar. Kayqusuz bu eseriyle Hz. Ademin de Türkçe ile anlaştıklarını özellikle ifade etmektedir. Yani Kayqusuz Abdal, Türkçeyi "İlk insan Hz. Adem"in de bildiğini, kendisine cennette bu dille hitabedildiğini, bu dili anladığını ve bu sebeple de cennetten çıktığını vurğulamaktadır". Öz kökünə Nizami və dilinə Qayğısız Abdal qədər vurğun olan ikinci bir sənətkarı göstərmək çətindir. Bu faklara mifoloji sistem, struktur baxımından nəzər salanda ilahi əlifbanın da türkə Yer üzündə Adəm övladları arasında ünsiyyət, birlik yaratmaq, mədəniyyətə yiyələnmək vasitəsi kimi türklər tərəfindən icad edildiyi anlaşılır.

Rusiyanın Sank-Peterburq şəhərində yerləşən ali təhsil ocaqlarının birində bu faktları söyləyəndə yerdən bir nəfər replika atmışdı: "Siz Adəmin türklüyünə inanırsınız?" Ona belə cavab vermişdik ki, yox, nəinki Adəmin türklüyünə, heç tarixən mövcudluğuna inanmıram. Ancaq böyük Nizaminin türklüyünə Sizin ölkədə də şübhə ilə yanaşırlar, bu faktlar qeyri-şərhsiz həmin şübhələri alt-üst edir. Adəmin türklüyünə gəlincə, bu, mifdir. Hər bir xalqın mənəvi haqqı çatır ki, ilkin arxetiplərdən öz payına düşəni götürsün.

Bu, mifin ədəbi faktora çevrilməsi və türkün böyük söz ustalarının gələcək nəsillərə verdiyi tövsiyələridir. Həmin əsərlərdə qoyulan ruh bu gün hamıdan qabaq Azərbaycan Respublikasının Prezidentinin timsalında daha əsaslı və böyük sevgi ilə davam etdirilir. Bu yaxınlarda Bakı şəhərində TÜRKSOY təşkilatının üzvü olan ölkələrin mədəniyyət nazirləri Daimi Şurasının 19-cu toplantısında maraqlı bir hadisə baş vermişdi. Orada cənab Heydər Əliyev çıxışında bildirir ki, Leninqradda tələbəlik illəri zamanı Xakasiyadan gələn bir nəfərdən hansı millətdən olduğunu öyrənmək istəyir. Daha doğrusu, öyrənmək istəyir ki, xakaslar türk olduqlarını anlayırlar, yoxsa yox. Bu zaman bir nəfər yerdən replika atır ki, xakaslar şamanlardır. Dövlət başçısı təmkini pozmadan deyir ki, "Şaman olsalar da, türklərdir. Türklər də şamanlardır" (9,67). Bu, məhz türkün böyüklüyünü Nizami və Qayğısız Abdal kimi dünyaya çatdırmaq idi. Bu o demək idi ki, sovet dövründə türklüyü dandırmaq siyasəti yeridil-

diyi hər kəsdən öncə cənab Heydər Əliyevi narahat edirdi. O, tutduğu mühüm vəzifəni itirmək təhlükəsinə baxmayaraq keçmiş SSRİ-də yaşayan türk xalqlarını öz kökünə qaytarmağa çalışmışdı.

Heydər Əliyev "Manas" eposunun 1000 illiyi münasibəti ilə söylədiyi çıxışında türk dillərinin tarixinə ekskursiya etdikdən sonra demişdi ki, "biz bir kökdən, bir dildən olan xalqlarıq. Ancaq əsrlərdən-əsrlərə dilimizdə müəyyən fərqlər yaranmışdır. Bir-birimizi qəlbən duyuruq, qəlbən anlayırıq, amma dilimizdə olan fərqlərə görə deyilən sözlərin bəzilərini anlaya bilmirik. Mən bu gün sözlərimi Azərbaycan dilində başladım". Bəli, ölkə Prezidenti həmişə əsas sözlərini, xalqına tövsiyələrini öz ana dilində başlamışdır. Lazım gələndə, xüsusilə xalqımızın düşmənlərinin məkrli əməllərini dünyaya çatdırmaq istəyəndə isə rus dilindən faydalanmışdır.

Adamı heyrətə gətirən faktları ona görə tez-tez xatırlatmaq lazımdır ki, gənclərimiz eşidib öyrənsinlər. Çünki Azərbaycan Prezidenti hər an Türkün tarixinin saxtalaşdırılması işinə son qoyulması barədə düşünmüşdür. O, xalq şairi B.Vahabzadənin "Özümüzü kəsən qılınc" ("Göytürklər") pyesinin tamaşasına baxandan sonra teatr kollektivi ilə görüşündə maraqlı bir təşəbbüsünü yada salmışdır. Özbəkistanda Əmir Teymurun 660 illik yubileyində türkdilli dövlətlərin başçıları ilə türk xaqanlığının 1450 illiyinin keçirilməsini müzakirə etdiyini bildirmişdir. Orxon-Yenisey abidələrinin motivləri əsasında yaranan tarixi əsərin təhlilini verən Heydər Əliyev məhz 1450 il əvvəl baş verən dəhşətli hadisələrin bu gün də davam etdiyini qeyd edərək demişdir: "Təəssüflər olsun ki, bizim ulu əcdadlarımız da hakimiyyətdən ötrü bir-birini qırıblar, torpağı da satıblar. Görürsünüz ki, hakimiyyətə gəlmək üçün düşmənə satılanlar olur. Qardaş-qardaşı öldürür ki, xaqan olsun. Bir qardaş digərinin əleyhinə çıxır" (1, 337).

Gültigin, Bilgə kağan kimi sərkərdələr də Göy türkləri oğuz və uyğurlarla birləşməyə çağıranda ötənləri xatırlatmış, "yuxarıda göy, aşağıda yer" deyib eyni kökdən pöhrələnən soyların bir çadırda el məclisi qurmasını arzulamışdır. O vaxtdan 15 əsr keçməsinə baxmayaraq indi də Xəzərin sularına görə hər türk eli bir iddia ilə meydana atılır. Heydər Əliyev siyasət meydanında elə davranmağa can atır ki, nə türkmənin, nə də qazağın mənafeyinə ziyan gətirilsin. Ancaq təkcə siyasi anbisiyalarda deyil, ədəbi-mədəni məsələlərdə də əski abidələri, hətta söz sənətkarlarını öz tərəfinə çəkmək niyyətində olanlar var. "Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof, böyük alim tək dünyaya tanıtmağı" qarşısına məqsəd qoyan ölkə başçısı Azərbaycana aid mənəvi dəyərləri qeyri-şərhsiz özününküləşdirənlərə çox incə və alicənablıqla cavab verirdi: "Burada çıxış edən natiqlər dedilər ki, ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda, bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmənləri də deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri şəxsiyyət kimi düşsün" (1, 201). Bu mənada "Məhəmməd Füzulini türkləri birləşdirən böyük söz ustadı" hesab etsə də, onun azərbaycanlılığını əsaslandıran tutarlı dəlillərə üz tutur və vətənpərvər ziyalı tək istəyir ki, biz – alimlər

elmi əsaslarla Nizaminin, Füzulinin azərbaycanlılığını, "Dədə Qorqud"un isə ulularımıza məxsusluğunu, ilk növbədə, qan qardaşlarımaza sübut edək. Lakin başqa türk xalqlarının folklor örnəklərindən, sənət adamlarından söz düşəndə Heydər Əliyev böyük qürur hissi keçirdiyini nümayiş etdirir. Başqa ölkə başçıları tək dilinə gətirmir ki, azərbaycanlılara məxsusdur, fəxr edir ki, qardaş xalq qüdrətli əsərlə dünyanı valeh etmişdir. Belə ki, "Manas" eposunu qırğız xalqının "müdrikliyinin, zəkasının, qəhrəmanlığının, cəsarətinin rəmzi" (5, 283) hesab edir və onda qırğız türklərinin vətənpərvərliyinin, ədalətsevərliyinin, azadlıqsevərliyinin əks olunduğunu bildirir.

QAYNAQLAR:

1. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. – Bakı, Ozan, 1999.
2. Əliyev H. Xalqların dostluğu – ədəbiyyatların dostluğudur (Yazıçıların Ümumittifaq yaradıcılıq konfransında məruzə) "Kommunist" qəz., 29 oktyabr, 1980.
3. Əliyev H. Tarixi köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir // H.Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, Ozan, 1999.
4. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı. "Azərbaycan qorqudşünaslığı" kitabında. Bakı, "Elm və Təhsil", 2020
5. Əliyev H "Manas" bütün dünya sivilizasiyasının sərvətidir // Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, Ozan, 1999.
6. Cəfərov Nizami. Heydər Əliyev – Siyasətin ziyalısı. 2012.
7. Kərimov M. Heydər Əliyev fenomeni // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı, 2003, s. 8-46
8. Əliyev Q. Heydər Əliyev və milli mentalitet fəlsəfəsi. Bakı, Qismət, 2003, s. 248.
9. Əliyev V. Heydər Əliyevin dil siyasəti. Bakı, 2003.
10. Hacıyev T. "DQK-1300" – tarixi dövlət tədbiri // Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı, Səda, 2003, s. 8-11.
11. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Filoloji tərcümə prof. R.Əliyevindir. – Bakı, 1981.
12. Ramazan Qafarlı. Heydər Əliyev və qədim türk mifoloji-folklor irsi. "Heydər Əliyev və mənəvi dəyərlər" adlı elmi-praktik konfransın materialları. – Bakı, Milli Elmlər Akademiyasınınnın Folklor İnstitutu, Səda, 2003, s. 52-71.
13. Türk şiiri özel sayısı III (Halk şiiri). Türk dili. Aylık Dil Dergisi. C LVII, Sayı: 445-450, Ocaq-Haziran, 1989.
14. Виктор Г. Речь при открытии конгресса мира 21 августа 1849 года. https://poisk-ru.ru/
15. Неру Дж. Взгляд на всемирную историю: письма к дочери из тюрьмы содержащие свободное изложение истории для юношества. Пер. с анг. /под ред. Г.В.Бондаревского/ - М., Прогрес, 1989.

HEYDƏR ƏLİYEVİN MİLLİ DÖVLƏT QURUCULUĞU SİYASƏTİ QLOBAL SOSİAL TƏRƏQQİ MODELİ KONTEKSTİNDƏ

Sərxan XAVƏRİ
Filologiya elmləri doktoru,
AMEA Rəyasət Heyəti,
sarxan.xaveri@mail.ru

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq çoxsaylı tədqiqatların aparıldığı, məqalələrin yazıldığı, televiziya verilişlərinin hazırlandığı hazırkı vaxtda hesab edirik ki, bütün bu araşdırmaları, çıxış və məqalələri, xüsusən ixtisaslı alimlər tərəfindən irəli sürülən konseptual dəyərləndirmələri bir suala cavab axtarışı hesab etmək olar: Azərbaycanının son yüz illik tarixində və taleyində, daha dəqiq ifadə etsək, tarixi taleyində "Heydər Əliyev missiyası"nın məzmunu və mahiyyəti nədən ibarət olmuşdur? Əliyevşünaslıqda bu suala ən müxtəlif baxış bucaqlarından yanaşılaraq çoxsaylı cavablar verilmiş və verilməkdədir. Lakin şəxsiyyətin tarixi missiyası və miqyası elə bir səviyyədədir ki, bu sual hələ də ixtisaslı fəlsəfi, sosioloji, politoloji, kulturoloji təhlil üçün aktual olaraq qalır.

Öncə onu qeyd edək ki, tarixi qanunauyğunluğun müəyyənləşməsinə təsir edən görkəmli xadimlər tarixi şəxsiyyət tipologiyası baxımından bir-birindən əsaslı olaraq fərqlənirlər və belə tipologiya həmin şəxsiyyətin gördüyü işin, həyata keçirdiyi missiyanın məzmununun və mahiyyətinin müəyyənləşməsində həlledici rol oynayır. Belə tipologiya baxımından Heydər Əliyev lider-ideoloq idi. İdeya onun fəaliyyətinin bütün mərhələlərində fövqəlməqsəd səviyyəsindən tutmuş adi iş alətinə qədər iştirak etmişdir.

Məlumdur ki, sovet rejiminin müəyyənləşdirdiyi konyukturaya görə müttəfiq respublikalardakı birinci katiblər lider yox, inzibatçı-nəzarətçi funksiyasını yerinə-yetirən rəhbər ola bilərdilər. İdeoloq olaraq isə leninçi ideologiyadan bir addım belə kənara ata bilməzdilər. Bu konyukturanın ziddinə olaraq isə sovet hakimiyyəti illərində Heydər Əliyev rəhbər yox lider, məzmun etibarilə leninçi ideoloq yox, milli ideya daşıyıcısı idi. Görkəmli filosof Füzuli Qurbanov Heydər Əliyevə həsr etdiyi "Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi təhlil" adlı son dərəcə unikal və konseptual kitabında qeyd edir ki, rəhbərlə lider arasındakı fərq ondan ibarətdir ki, rəhbər qruplararası münasibətləri tənzimləyir, lider isə onu təmsil edir. Heydər Əliyev də lider-ideoloq olaraq həm də təmsilçi idi. O, fəaliyyətinin bütün mərhələlərində mənsub olduğu xalqı və etnosu təmsil etmişdir. Onun SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən birinə çevrilməsi türk dövlətçilik potensialının göstəricisi idi. Onun türk ağılı siyasi büronun rus-slavyan ağılından həmişə əsaslı olaraq fərqlənmişdir.

Heydər Əliyev lider-ideoloq olaraq hələ sovet dövründə yaxşı başa düşürdü ki, millətin ən qiymətli sərvəti milli monolit dövlətdir və milli dövlətin əsasında dayanan əsas amil isə milli mentalitetdir. O, yaxşı dərk edirdi ki, ideologiyanın uğuru ondadır ki, o, toplumun mentalitetini özünütəşkilə motivə edərək dövlətçilik şüurunun yaranmasına gətirib çıxarsın. Bu mənada onun fəaliyyətinin bütün mərhələlərində başlıca fövqəlməqsədi ***milli Azərbaycan ideyası*** olmuş, bu ideyanın gerçəkləşməsi naminə gördüyü işin adı isə milli dövlət quruculuğu olmuşdur.

"Heydər Əliyevin tarixi şəxsiyyət tipologiyası baxımından lider-ideoloq, bir ideoloq olaraq fövqəlməqsədinin milli Azərbaycan ideyası, bu ideyanın gerçəkləşməsi naminə həyata keçirdiyi missiyanın isə milli dövlət quruculuğundan ibarət olması və s." bu qəbildən olan tezislər nə qədər fundamental dəyərləndirmələr olmasına, Heydər Əliyev şəxsiyyətini kifayət qədər xarakterizə etməsinə baxmayaraq, bizcə, bütün bunlar "Azərbaycanın tarixi taleyində Heydər Əliyev işinin məzmunu və mahiyyəti nədən ibarətdir?" sualına verilən tam cavab deyil. Hesab edirik ki, bu sualın cavabını XX əsrdə qlobal miqyasda gedən sosial-mədəni proseslər kontekstində axtarmaq lazımdır. Çünki milli dövlətin formalaşmasında, saxlanılmasında və inkişafında qlobal sosial-mədəni, iqtisadi, siyasi kontekst mühüm rola malikdir.

Bunun üçün ilk növbədə XX əsr bəşəriyyətin qlobal sosial tərəqqi modelininin üzərində dayanmaq lazımdır.

Məlumdur ki, bəşəriyyətin sosial tərəqqi modelləri, xüsusən də bu sosial tərəqqinin son dərəcə mürəkkəb mərhələsi olan XX əsrdəki proseslər haqqında çoxsaylı yanaşmalar, fərqli dəyərləndirmələr vardır. Xüsusən, hazırkı informasiya cəmiyyətinə gətirib çıxaran proseslərin haradan başlaması, bu mərhələnin özünün xarakteristikası haqqında çoxsaylı yanaşmalar vardır. Bu tədqiqatçılardan Tokio Texnologiya İnstitutunun professoru Y.Xayaşının, K.Katoyamın, T.Umessonun, F.Maxlupunun, Amerika sosioloqu Daniel Bellin (1919-2011) "Postsənaye cəmiyyəti"), görkəmli Amerika alimi, kibernetikanın banisi Norbert Vinerin (1894-1964), Amerikalı alim Elvin Tofflerin (1928) adlarını çəkmək olar. Xüsusən Elvin Tofler "Gələcəyin şoku", "Üçüncü dalğa" və "Hakimiyyətin metamorfozları" adlı əsərləri – triologiyası ilə yeni konsepsiyanın əsasını qoymuşdur. Onun "Gələcəyin şoku" əsərində qlobal sosial-mədəni dəyişikliklərin insanlara və təşkilatlara təsiri məsələlərindən bəhs edilir. "Hakimiyyətin metamorfozları" əsərində isə dəyişikliklər dövrünün idarəetmə problemlərindən danışılır. "Üçüncü dalğa" əsərində isə bəşəriyyətin sosial tərəqqisi modelleşdirilir. Marksist-leninçi yanaşmanın ictimai-iqtisadi formasiya nəzəriyyəsinin ziddinə olaraq Toffler bəşəriyyətin sosial inkişafını üç mərhələyə bölür:

- aqrar cəmiyyət,
- sənaye cəmiyyəti,
- informasiya cəmiyyəti.

Onun əsərlərində bu mərhələlərin xarakteristikası, transformasiyaları geniş şərh olunmuşdur. Bu gün XXI əsrin dörddə birini artıq yaşadığımız, informasıya cəmiyyətinin təbəddülatlarını, necə deyərlər, dərimizdə hiss etdiyimiz bir şəraitdə Tofflerin modelləşdirməsinin daha doğru olduğuna heç bir şəkk və şübhə yoxdur.

Qeyd etdiyimiz inkişaf modeli (aqrar, sənaye və informasiya cəmiyyəti modeli) dünyanın ən ümumi təkamül ssenarisidir. O qədər ümumi ki, bu bütövlükdə dünyaya vahid sosial-mədəni, siyasi-ideoloji mənəvi-əxlaqi və texnoloji sistem kimi baxmağı tələb edirdi. Ötən əsrin ortalarında görmək çox çətin idi ki, bu ssenari dünyanı tamamilə yeni sosial-siyasi, mədəni, iqtisadi və mənəvi-əxlaqi təşkilatlanmaya, postindistrual cəmiyyətə keçirir. Bu çətinlik SSRİ-də isə ikiqat və üçqat çətin idi. Çünki Sovet hakimiyyəti illərində ideoloji nəzarət elmin obyektiv inkişafına mane olacaq səviyyədə absurda gəlib çatmışdır. SSRİ-də siyasi-ideoloji xarakterli məsələlərin obyektiv fəlsəfi-elmi öyrənilməsi imkanları demək olar ki, yox idi. Hərbi sənayenin inkişaf etdirilməsi naminə fizikaya aludəçilik eyforiyası və bundan doğan absurd elə bir səviyyəyə gəlib çıxmışdır ki, kibernetik tədqiqatlar, Qərb elmində təbiətşünaslıqla bağlı araşdırmalar, sosial elmlər sahəsində multidissiplinar araşdırmalar bir çox hallarda yalançı elm hesab edilirdi.

Lakin bütün bu çətinliklərə baxmayaraq Heydər Əliyev dünyada gedən qlobal prosesləri görür və fəaliyyətində ciddi olaraq nəzərə alırdı. Onun sovet dövründən XX əsrin sonlarına qədərki siyasi-ictimai və ideoloji fəaliyyəti üzərində ciddi elmi müşahidələr onu göstərir ki, o, yuxarıda qeyd etdiyimiz qlobal trendləri öz fəaliyyətinə nəzərə almış, milli dövlət quruculuğunda bu kontesksti ciddi olaraq əsas götürmüşdür. O, yaxşı başa düşürdü ki, dövlət quruculuğunda toplumun daxili tarixi özəllikləri və yaxud milli sosial-psixoloji özəllikləri ilə beynəlxalq səviyyədə ümumi trendləri uyğunlaşdırmadan uğura nail olmaq mümkün deyildir.

Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəldiyi 60-cı illərin sonu dünya sənaye cəmiyyətinin çiçəklənmə mərhələsini yaşayırdı. Bütöv dünya ilə siyasi-ideoloji, mədəni-mənəvi və eyni zamanda texnoloji səviyyələrdə qarşıdurma vəziyyətində olan SSRİ-nin mərkəzi kəsimləri də bu sənayeləşmə ilə ayaqlaşmaqda idi. Azərbaycanda isə vəziyyət tamamilə başqa idi. Həmin dövrdə Azərbaycan sosial-iqtisadi inkişaf özəllikləri baxımından daha çox aqrar bir respublika idi. Həmin mərhələdə Heydər Əliyev işinin məzmun və mahiyyətini ən dəqiq ifadə edən model "respublikanı aqrar cəmiyyətdən sənaye cəmiyyətinə keçirmək, gələcəkdə isə informasiya cəmiyyətinə keçid üçün zəmin yaratmaq" tezisində ifadə olunurdu.

Həmin illərdə respublikamızda elmtutumlu iqtisadi sahələr yox dərəcəsində idi. Elmin strateji əhəmiyyətini düzgün qiymətləndirən Ümummilli Liderimiz bu sahənin inkişafına xüsusi diqqət yetirməyə başladı. O dövrdə SSRİ Elmlər Akademiyasının prezidenti akademik M.Keldış Azərbaycana gəlir və respublikanın rəhbərliyi ilə görüşür. Həmin görüşdən

sonra o vaxtlar böyük əhəmiyyət kəsb edən, o dövr üçün superkompüter səviyyəsində olan БЭСМ-6 hesablama maşını Elmlər Akademiyasına verilir. Bunun da nəticəsində respublikamızda proqramlaşdırma, avtomatika, tətbiqi riyaziyyat, kibernetika və digər sahələrdə böyük alimlər, mütəxəssislər ordusunun formalaşmasına gətirib çıxardı. Akademik M.Keldışın Azərbaycana gəlişindən sonra SSRİ EA-nın müvafiq İnstitutlarında respublikamızın istedadlı gəncləri üçün məqsədli aspiranturalara yerlər ayrılmağa başlandı, elm və təhsil mərkəzlərində təcrübə keçmək üçün mütəxəssislər göndərildi, həmin elm sahəsinin mənimsənilməsi, sonradan ölkəmizə transformasiya olunması istiqamətində müəyyən işlər görüldü.

1970-80-ci illərdə Elmlər Akademiyasında, universitetlərdə və sahə institutlarında elektronika, avtomatika və hesablama texnikası üzrə istedadlı alimlər və təcrübəli mütəxəssislər yetişdirildi, elektron avadanlıq istehsal edən zavodlar tikildi. Kibernetika İnstitutu, Kosmik Tədqiqatlar Mərkəzi, İnformasiya-Kommunikasiya Elmi Mərkəzi, "Neftqazavtomatika" və digər elmi-tədqiqat müəssisələri yaradıldı. Respublika avtomatlaşdırılmış idarəetmə sistemləri – RASU – "Azərbaycan", respublika kompüter şəbəkəsi, bütün SSRİ-də tanınan və istifadə olunan avtomatlaşdırılmış neftçıxarma idarəetmə sistemləri və kompleksləri işlənib hazırlandı. "AZON", "NORD" elm-istehsalat birlikləri, Radiozavod, elektron hesablama maşınları zavodu, "Peyk", "Ulduz" kimi nəhəng istehsalat kompleksləri tikilib istifadəyə verildi. Sonralar Naxçıvanda, Tərtərdə, Mingəçevirdə, Şirvanda, Gəncədə, Sumqayıtda və Bakıda 30-dan artıq elektron və cihazqayırma zavodları işə salındı.

Beləliklə, respublikada yeni və son dərəcə əlverişli bir sənaye sahəsi təşkil olundu. Onun elmi təminatı yaradıldı. Elmi-tədqiqat institutlarının nəzdində "Kristal", "Registr", "Tellur", "Kibernetika", "Biotex", "Mikroelektronika", "Kaskad" xüsusi konstruktor büroları fəaliyyət göstərməyə başladı. Bakı Dövlət Universiteti, Dövlət Neft Akademiyası, Azərbaycan Texniki Universiteti, Dövlət İqtisad Universiteti, Sumqayıt Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti kimi ali təhsil müəssisələrində İKT ixtisasları üzrə mütəxəssislər hazırlanması üçün maddi-texniki baza yaradıldı.

1972-ci ildə Heydər Əliyevin təşəbbüsü əsasında Beynəlxalq Astronavtika Konqresi məhz Bakıda keçirilirdi və dünyanın bütün inkişaf etmiş ölkələrindən çoxlu sayda astronavtlar, kosmonavtlar buraya toplaşmışdı.

Əgər diqqət etsək görərik ki, 70-80-ci illərdə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə həyata keçirilən bütün bu tədbirlər aqrar respublikadan sənaye cəmiyyətinə, sənaye cəmiyyətindən isə informasiya cəmiyyətinə keçid üçün zəmin xarakteri daşıyır. Əlbəttə, bütün bunları təsadüfün ayağına yazmaq doğru olmazdı.

Sonrakı proseslər sübut etdi ki, Heydər Əliyev həyata keçirdiyi bu siyasətdə nə qədər haqlı imiş...

Müstəqilliyin ilk illərində ölkəmizin düçar olduğu gərgin vəziyyətdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Lider Heydər Əliyev, hətta ağır şəraitdə belə, elmin inkişafına xüsusi diqqət yetirməyə imkan tapır və bu sahədə inkişafa nail olmaq üçün daim səylər göstərirdi.

Xüsusən, Azərbaycanla Amerika qitəsi arasında birbaşa rabitənin yaradılmasına imkan verən peyk-rabitə sisteminin, "Bakcell" və "Azercell" birgə müəssisələrinin yaradılması ilə ölkəmizdə mobil rabitənin inkişafının əsası qoyulmuşdu.

2003-cü il fevral ayının 17-də Ümummilli Lider Heydər Əliyev tərəfindən imzalanmış "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)" ölkəmizdə bu sahənin sürətli inkişafına güclü təkan verdi. Cənubi Qafqazda ilk dəfə olaraq qəbul edilmiş bu qlobal strategiya Azərbaycanın informasiya cəmiyyəti məsələlərinə xüsusi diqqətini cəmiyyətimizə və bütün dünyaya bəyan etdi. Bütün bunların məntiqi nəticəsidir ki, regionun ən dinamik inkişaf edən ölkəsi kimi Azərbaycan bu gün informasiya cəmiyyətinə, VI sənaye inqilabına keçid üçün böyük imkanlara malikdir.

Müasir dövrdə dünyada baş verən qlobal siyasi, iqtisadi, sosial proseslər sübut edir ki, Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqillik mərhələsində həyata keçirdiyi "aqrar cəmiyyətdən sənaye cəmiyyətinə, sənaye cəmiyyətindən isə informasiya cəmiyyətinə keçid konsepsiyası" müasir şəraitdə Azərbaycanın mövcudluq qarantıdır. Bunu Amerikada yaşayan rus alimi Andrey Siqankovun aşağıdakı fikirləri bir daha sübut edir: "yalnız milli təcrübəyə və dünya sistemindəki dövlətin yerinə uyğu olaraq öz imkanlarını düzgün qiymətləndirənlər müasir dövrdə yaşayacaq, digərləri isə rəngli inqilabların dalğasında ya dağılacaq, ya da dağılma ilə zəifliyin sərhəddində balanslaşmağa çalışacaqlar.

Bu gün Azərbaycan cənab prezidentimiz İlham Əliyevin səyləri nəticəsində dünya kosmos ailəsinin bərabərhüquqlu üzvüdür. Bizim bu imkanlarımız bir sıra sahələrdəki uğurlarımızın, o cümlədən 44 günlük Qarabağ müharibəsindəki uğurlarımızın elmi-texnoloji əsasında dayanır. İndi Azərbaycan dost, qardaş Türkiyənin də dəstəyi ilə texnoloji müstəqilliyinə nail olmaqdadır. İnformasiya cəmiyyətində müstəqilliyin ən mühüm şərtlərindən biri texnoloji müstəqillikdir.

Azərbaycanın İKT və kosmik sahədə əldə etdiyi bu uğurların əsasında Heydər Əliyevin vaxtilə həyata keçirdiyi siyasət dayanırdı.

Beləliklə, dediklərimizi ümumiləşdirərək qeyd etmək istərdik ki, XX əsdə dünyada gedən qlobal trendləri nəzərə alan Heydər Əliyev milli dövlət quruculuğu siyasətində "aqrar cəmiyyətdən sənaye cəmiyyətinə, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə" inkişaf modelini əsas götürmüş, Azərbaycanın milli dövlət kimi mövcudluq zəmanəti olaraq milli sosial-iqtisadi inkişafı bu istiqamətə yönəltmişdir.

Heydər Əliyev üçün Azərbaycanı coğrafi məkan olmaqla yanaşı, həm də inzibati-siyasi məkan, mənəvi məkan, xüsusi dövlətçilik ənənəsinə malik məkan idi. Bu mənada sovet hakimiyyəti illərində Azərbaycanı qorumaq onun mədəniyyətini, adət-ənənələrini, ailə sistemini, iqtisadi infrastrukturunu, sosial-psixoloji özəlliklərini daim aktual halda saxlamaq anlamına gəlirdi. Sovet dövründə elə bir siyasi-mədəni, iqtisadi, sosial və ideoloji özünütəşkil üsulu seçilməli idi ki, forması sovet sisteminin tələblərinə uyğun olsun. Məzmununda isə aparıcı yeri milli özünütəşkil və müstəqil dövlətçilik təşkil etsin. Heydər Əliyev buna humanitar sahədə həyata keçirdiyi siyasətlə nail olurdu.

Ulu öndər Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli Liderimizin fikrincə, ana dili azərbaycançılığın təməl prinsipi idi. Buna görə də xalqa milli-mənəvi dəyərlərini aşılamaq üçün ona ilk növbədə öz dilini qorumağın, inkişaf etdirməyin vacibliyini yaxşı bilirdi. Eyni zamanda, xatırlamaq yerinə düşər ki, Ulu Öndər o dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərə də tövsiyə edirdi. Başqa bir fakt: 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, Azərbaycan dilinin ana dili kimi təsbitlənməsi də Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının, sevgisinin əyani təzahürü idi... Bundan başqa dahi Öndərimizin ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinə dövlət mükafatı verməsi də dediklərimizə bariz nümunədir. "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı biri-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də azərbaycançılıq məsələsidir" – deyən Heydər Əliyevin azərbaycançılığa, Azərbaycan dilinə sevgisi bitib-tükənməz idi, kökdən gəlirdi. Ona görə də dilin saflığı, təmizliyi uğrunda daim mübarizə aparırdı.

Ulu Öndər Azərbaycanın elminin, mədəniyyətinin, ədəbiyyatının inkişafını düşünərkən bu sahədə əməyi olan insanların əməyinə də böyük qiymət verir, onlara böyük hörmətlə yanaşırdı, onların yubileylərini keçirirdi.

Bütün bunlar isə Heydər Əliyev tərəfindən milli humanitar dəyərlərin milli dövlətçilik şüurunun gücləndirməsi naminə ictimai şüur dövriyyəsinə daxil edilməsi təcrübəsi idi.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN MƏRASİM MƏDƏNİYYƏTİ

HEYDAR ALIYEV AND AZERBAIJAN CEREMONIAL CULTURE

Ağaverdi XƏLİL
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
AMEA Folklor İnstitutu Mərasim folkloru şöbəsinin müdiri,
aqaverdi@yandex.ru

Özət

Məqalədə Ümummilli Lider Heydər Əliyevin mərasim mədəniyyətimizin inkişafındakı xidmətləri araşdırılmışdır. Tədqiqata Ümummilli liderin mərasimlərimizlə bağlı çıxışları, nitqləri, təbrikləri, verdiyi fərmanlar və mərasimlərdə iştirakını əks etdirən materiallar cəlb edilmişdir. Araşdırmada Ümummilli Liderin mərasimlərimizin qorunmasında, bərpasında və inkişafındakı rolu aydınlaşdırılmışdır. Tədqiqat nəticəsində məlum olmuşdur ki, Ümummilli Lider milli siyasi mərasimlərimizin (o cümlədən, İstiqlal günü, Ordu günü, Konstitusiya günü və s.), ümumdünya təqvim mərasimlərinin (o cümlədən, Yeni il və b.), ümummüsəlman dini mərasimlərimizin (o cümlədən, Qurban, Ramazan və b.), ümumşərq mövsüm mərasimlərimizin (o cümlədən, Novruz və b.) və s. bərpa olunmasında, milli məişət mərasimlərimizin inkişafında misilsiz xidmətlər göstərmiş, bir sıra mərasimlərimizin (o cümlədən, peşə bayramlarının) isə yaradıcısı olmuşdur.

Açar sözlər: Azərbaycan, Ümummilli Lider, Heydər Əliyev, mədəniyyət, mərasim.

Summary

In the article the services in the development of ceremony culture by our national leader Heydar Aliyev are investigated. In the investigation the materials about speech, performances, celebrations, decrees and his participations in the ceremonies are studied. The role of our national leader in the development, saving and restoration of our ceremonies are analyzied. During the investigation it was clear that our national leader was the creater of our political ceremonies (for example, Sovereignty day, Army Day, Constitution Day and so on), world-wide calender ceremonies (New Year and so on), world-muslim religion ceremonies (for example, Ramadan, Moslem Festival of Sacrifice), national season ceremonies (for example, Novruz holiday) and some our national ceremonies (for example, trade holidays) and had unparalleled services in the development of national life ceremonies.

Keywords: Azerbaijan, National Leader, Heydar Aliyev, culture, ceremony.

Azərbaycan xalqının Milli Öndəri Heydər Əliyevin mədəniyyət quruculuğu sahəsində-ki xidmətləri geniş əhatəli və böyük əhəmiyyətlidir. Heydər Əliyev Azərbaycan xalq mərasimlərinin qorunmasında, bərpasında, təşkilində və təbliğində göstərdiyi böyük xidmətləri ilə mədəniyyət tariximizə daxil olub.

Qədim və zəngin mədəniyyəti olan Azərbaycan xalqı malik olduğu mədəni irsi tarixin çətin dövrlərindən keçirərək müasir dövrə qədər gətirib çıxarıb. Bu zəngin irsin öyrənilməsi, qorunması və yaşadılması istiqamətində ən önəmli addımları Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə atılıb. Azərbaycan xalqının ənənəvi mədəniyyətinin qorunmasında Heydər Əliyevin xidmətləri böyükdür. Buraya ənənəvi mədəniyyətin önəmli bir hissəsini təşkil edən mərasim mədəniyyəti də daxildir.

Mərasim mədəniiyəti ənənəvi xalq mədəniyyətinin önəmli bir hissəsidir. Xalqın mərasim yaradıcılığı çox qədim dövrlərdən başlanır. Bir çox mərasimlər də öz qaynağını ən qədim dövrün rituallarından götürür, onların əsasında formalaşır, dövrə və şəraitə uyğunlaşır. Xalqın mərasim mədəniyyətinin ən önəmli cəhəti ondan ibarətdir ki, o özündə bir çox dəyərləri daşıyır. Buraya xalqın yaratdığı bir sıra maddi və mənəvi mədəniyyət nümunələri daxildir.

Azərbaycan xalqının Milli Öndəri Heydər Əliyev xalqın ənənəvi mədəniyyətinin qorunması və yaşadılması işinin əhəmiyyətini dərindən bildiyinə görə bu sahəyə həmişə xüsusi diqqətlə yanaşmış və vacib addımlar atmışdır.

Dövlətçilik ənənələrinin güclənməsində mərasim mədəniyyətinin xüsusi yeri vardır. Bu baxımdan müstəqil dövlətimizin memarı xalqın dəyərlərini içində yaşadan və onları aktiv saxlayan mərasimlərə həm də dövlətçilik mədəniyyətinin nümunəsi kimi baxmışdır.

Heydər Əliyevin mədəniyyət quruculuğu sahəsindəki fəaliyyətini dövrlərə, mərhələlərə və səhələrə görə öyrənmək olar (3). Təhlükəsizlik orqanlarında işlədiyi dövrdə dövlət mədəniyyətini qoruyub, Respublikaya rəhbərlik etdiyi dövrdə xalq mədəniyyətnin inkişafına böyük töhfələr verib, SSRİ rəhbərliyində işləyəndə milli mədəniyyətlərin yüksəlişinə şərait yaradıb, dövlət müstəqilliyinin bərpasından sonra mədəniyyətin çiçəklənməsi sahəsində bütün vacib addımları atıb.

Mədəniyyətin inkişaf etdirilməsi sahəsində Heydər Əliyevin təşəbbüsləri və səyləri ardıcıl və sistemli xarakter daşımışdır. Buradan rəhbərin dövlət təfəkküründün fenomenal olduğu və qurduğu sistemin bütün strukturlarını aydın şəkildə təsəvvür etdiyini görürük. Dövlətin siyasi, iqtisadi səviyyələri ilə yanaşı mədəniyyət səviyyəsi də eyni əhəmiyyətlilikdə götürülür. Çünki mədəniyyətin dövlət quruculuğundakı yeri və rolu böyük şəxsiyyət tərəfindən böyük uzaqgörənliklə təsəvvür edilirdi.

Mədəniyyət quruculuğu Öndər tərəfindən bir neçə istiqamətdə aparılıb:

1. Mədəniyyətin inkişafını təmin edən hüquqi bazanın yaradılması istiqamətində.
2. Mədəniyyətin inkişafını təmin edən qərarların, sərəncamların verilməsi sayəsində mədəni fəaliyyətlərin icrasını reallaşdırmaq istiqamətində.

3. Xalq mədəniyyəti ilə bağlı çıxışlarında ifadə olunan fikirlərdəki konseptual görüşlər istiqamətində.

4. Xalq mədəniyyətini təşfiq edən təşəbbüslər istiqamətində.

Beləliklə, mədəniyyətin inkişafı üçün zəruri hüquqi baza yaradılır, mədəni strukturların fəaliyyətini təmin edən icra mexanizmləri yaradılır, xalq mədəniyyətinin qorunmasının əhəmiyyəti təbliğ edilir, xalq mədəniyyətinin inkişafı stimullaşdırılır. Burada həm əlverişli inkişaf mühitininin formalaşdırıldığını, həm də onun relallaşması üçün icra mexanizmlərinin işlək vəziyyətə gətirildiyini görürük.

Müasir dövrün kommunikativ reallığı sosial kommunikasiyaya təsir edən geniş spektrli fenomen və faktorların nəzərdən keçirilməsini zəruri edir (1).

Heydər Əliyevin mədəniyyət quruculuğu konsepsiyasında da mövcud olan mirası qorumaq və onu inkişaf etdirmək üçün şərait yaratmaq önəmli bir yer tuturdu. Mərasim mədəniyyətinə münasibətdə məsələnin səciyyəvi cəhəti ondan ibarətdir ki, bu sahə birbaşa ənənə ilə, xalqla, kütlə ilə bağlıdır. Cəmiyyət üçün ən vacib humanist dəyərlər də bu mədəniyyət hadisəsinin içərisində və onun vasitəsi ilə daşınır və aktivləşir. Cəmiyyəti fasiləsiz olaraq mənəvi qida ilə təmin etmək üçün mərasim mədəniyyəti qorunmalı və ənənəyə uyğun şəkildə yaşadılmalıdır.

Heydər Əliyev bu reallıqlardan məsələyə baxırdı. Sadə bir formulla böyük bir konseptual yanaşmanı ifadə edirdi. Bu formul mənəviyyat formulu idi. "Əsas mənəviyyatdır" – deyən Heydər Əliyev mənəvi dəyərləri qorumaq və təbliğ etmək üçün bütün mümkün addımları atmışdır.

Heydər Əliyevin azərbaycançılıq konsepsiyasında da milli fenomen mərkəzi mövqe tuturdu. Burada xalqın öz ənənələrinə, adətlərinə, mərasimlərinə, milli geyimlərinə, mətbəxinə, şifahi xalq yaradıcılığına, musiqi və rəqs mədəniyyətinə, milli oyunlarına və məişətinə malik olması əsas götürürdü. Çünki "mərasim mədəniyyəti mədəniyyəti müəyyənləşdirməyə, bir mədəniyyəti digərindən fərqləndirməyə, milli kimliyi qoruyub saxlamağa imkan verir" (1).

Keçmişin, indinin və gələcəyin qiymətləndirilməsi mərasim mədəniyyətinin inkişaf səviyyəsinə görə müəyyən edilir. Çünki mərasim mədəniyyətində həyata və ölümə, əməyə və məkana, dini görüşlərə münasibət öz əksini tapır (1).

Tarixin və mədəniyyətin rolu nəticədə əvvəlki təcrübənin varisliyi, tarixi təcrübə və müasir həyatın reallıqları əsasında dəyər meyarlarını müəyyənləşdirir. Cəmiyyət üçün yaxın keçmişdə itirilmiş ideyaların dirçəldilməsi, mədəniyyətin nailiyyətləri aktual vəzifədir.

Mərasim mədəniyyəti öz tərkibində adəti, ənənəni, mənəvi dəyərləri, mərasimi, ritualı, şölən və bayramları birləşdirir. Cəmiyyətdə həyata keçirilən mərasimlər və bayramlar bir çox tədqiqatlarda araşdırılmışdır (5; 6; 7). Bununla belə yenə də mərasim mədəniyyətinin öyrənilməmiş məsələləri çoxdur. Məsələn, kiçik sosial qruplarda, əmək kollektivində, dini

icmada və s. ənənənin hərəkət mexanizmi, mərasimlərin transformasiyası və təkamül qanunauyğunluğu diqqəti çəkir.

Mərasim mədəniyyəti haqqında C.Freyzerin, E.Dyürkqeymin, Z.Freydin, rutualların təbiəti və mənşəyi ilə bağlı B.Malinovskinin, tarixi-dini aspekti ilə bağlı M.Eliadenin, E.O.Ceymsin, Rusiya folklorşünaslığında S.A.Tokarevin, B.N.Putilovun, A.K.Bayburinin və b. tədqiqatları mövcuddur (5; 6; 7; 8; 9).

Mərasim mədəniyyəti mərasimləri bilmək, onların əhəmiyyətini anlamaq və təcrübədə icra etmək və eləcə də onları gündəlik həyata daxil etməkdir. Onun tərkibində verbal və qeyri-verbal komponentlər mövcuddur. Bunlar mərasim davranışında özünü əks etdirir. Buraya verbal mətnlər, nəğmələr, musiqilər, rəqslər də daxildir. Ayrılıqda fərdin və cəmiyyətin mərasim mədəniyyəti fərqləndirilə bilər. Şəxsin mərasim mədəniyyəti mərasimləri, ənənəni, öz xalqının tarixini bilməklə və bunları təcrübəyə tətbiq etməklə xarakterizə olunur.

Mərasim mədəniyyəti ilə bağlı nəzəri araşdırmalar kontekstində Heydər Əliyevin mərasim mədəniyyəti siyasətinə baxdığımız zaman aydın şəkildə görürük ki, bu siyasət ənənəvi mədəniyyətin qorunması ilə bağlı mükəmməl bir konsepsiyaya əsaslanır (4). Nəzəriyyə ilə təcrübənin ən nikbin vəhdətini Heydər Əliyevin mərasim mədəniyyəti ilə bağlı fəaliyyətində görürük.

Hazırda bütün dünyada ənənəvi mədəniyyətin, xalq yaradıcılığının qorunması vacib məsələ kimi diqqətdə saxlanılır. Şəxsiyyətin və cəmiyyətin harmoniya içində yaşaması, humanizmin əsas prioritet kimi götürülməsinin dərkindən keçir. Avropanın humanizm dediyi insanlıq yalnız mənəvi dəyərlərə qayıdışla gücləndirilə bilər.

"Məsələyə fəlsəfi yanaşmada da təsdiq olunur ki, dünyanın mənəviyyatsızlıqdan xilas edilməsinin mərkəzində insan dayanır. İnsan təkcə özü qarşısında məsuliyyət daşımır, o eyni zamanda özünün də bir hissəsi olduğu gələcəyin qarşısında da məsuliyyət daşıyır" (2). Dünya bütün mürəkkəb mədəniyyət nəzəriyyələrindən keçib yenə də Heydər Əliyevin nitqində ifadə olunan "əsas mənəviyyatdır" formuluna qayıtmalıdır. Çünki bəşəriyyətin gələcəyi mənəvi dəyərlərin qorunması ilə, bu dəyərləri funksional saxlayan və onu cəmiyyətə fasiləsiz şəkildə ötürərək aktivləşdirən mərasim mədəniyyətindən keçir.

Azərbaycan mərasim mədəniyyətinin, onun tərkib hissəsi olan mövsüm, məişət və dini mərasimlərin ənənəyə uyğun bir şəkildə keçirilməsi və onların məzmununda daşınan dəyərlərin qorunması Heydər Əliyevin mədəniyyət quruculuğunda vacib məsələ kimi diqqətdə saxlanmışdır. Novruz, Ramazan, Qurban bayramlarının yüksək səviyyədə təşkili və mütəşəkkil icrası bu mədəni komplekslərin tərkibində daşınan dəyərlərin qorunmasına göstərilən münasibətin ifadəsidir.

Hazırda bizim üzərimizə düşən əsas vəzifə Heydər Əliyevin mərasim mədəniyyətinə olan münasibətini nümunə götürərək bu sahədəki mədəni irsimizi qoruyub yaşatmaq,

onların populyarlaşdırılmasını təmin etmək, arxaikləşmə prosesinin qarşısını almaq, mədəni institut və mənəvi dəyər konseptlərimizi gələcək nəsillərə itkisiz və zədəsiz bir şəkildə çatdırmaqdır.

QAYNAQLAR:

1. Головлева Е.Л. Обрядовая культура как источник формирования странового имиджа. http://www.zpu-journal.ru/e-zpu/2009/4/Golovleva/
2. Обрядовая культура как одно из средств воспитания личности. https://scienceforum.ru/2013/article/2013006832
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, Bakı, Azərnəşr, 1997, s. 482.
4. Xəlil A. Heydər Əliyev və mərasim mədəniyyətimiz. Heydər Əliyev və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, s. 88-98.
5. Геннеп ван А. Обряды перехода: систематическое изучение обрядов. М., 1999.
6. Байбурин А. К. Ритуал в традиционной культуре: Структурно-семантический анализ восточнославянских обрядов. СПб, 1993.
7. Киселева М. С. Культурные коды и типы культур // Культурология. М. : Знание, 1993.
8. Муратова А. С. Обряд и праздник // Мир психологии. 2001. № 4. С. 67–76.
9. Лич Э. Культура и коммуникация. Логика взаимосвязи символов. М., 2001.

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALÇAÇILIQ SƏNƏTİ

HEYDAR ALIYEV AND THE ART OF AZERBAIJAN CARPET MAKING

Afaq MUSTAFAYEVA
AMEA Folklor İnstitutu,
afanimrahman@gmail.com

Özət

Ulu Öndər təkcə Azərbaycanda deyil, bütün dünyada müdrik siyasi xadim, tanınmış dövlət başçısı, görkəmli şəxsiyyət kimi tanınırdı. Heydər Əliyev Vətənə, xalqa, ana dilimizə, adət-ənənələrimizə bağlı insan idi. Hələ gəncliyindən poeziyaya, ədəbiyyata, rəssamlığa, memarlığa meyilli idi. Dahi rəhbərin mədəniyyət, incəsənət və elm xadimlərinə rəğbəti vardı. Onu cəlb edən sahələrdən biri də Azərbaycan xalçaçılıq sənəti idi. Bu sahədə Lətif Kərimovla Kamil Əliyev kimi böyük rəssamlar Ulu Öndərin nəzər-diqqətində idi. Təsadüfi deyildir ki, Heydər Əliyevlə Kamil Əliyev arasında səmimi bir münasibət də yaranmışdır. Bu görkəmli rəssam dahi rəhbərin göstərişi ilə Türkiyənin Prezidenti Süleyman Dəmirəlin portret xalçasını yüksək səviyyədə hazırlamışdı. Bunu Ulu Öndər Süleyman Dəmirəllə görüşündə də qeyd edib, rəssamın təqdirəlayiq iş gördüyünü vurğulamışdır. O qeyd etmişdir ki, bu portret xalça olduqca zərif işlənmişdir deyə, adamı cəlb edir, Azərbaycan incəsənəti, rəssamlıq məktəbi bu nadir əsərlə fəxr edə bilər. Qeyd edək ki, Kamil Əliyev dahi rəhbərin də portret xalçasını ustalıqla işləmişdir. Bu həm də Heydər Əliyevə sənətkarın, eləcə də xalqın rəğbət və sevgisini əks etdirməkdədir.

Açar sözlər: Ulu Öndər, xalça, rəssam, dahi rəhbər, xalçaçılıq, elm, mədəniyyət

Summary

The Great Leader was famous not only in Azerbaijan, but all over the world as a wise political figure, a well-known head of state and an outstanding personality. Heydar Aliyev was a person devoted to his homeland, people, native language and traditions and from his youth he was inclined to poetry, literature, painting, and architecture. The genius leader had sympathy for people of culture, art and science. One of the areas that attracted him was the art of Azerbaijani carpet weaving. In this field, great artists such as Latif Karimov and Kamil Aliyev were under the theoretical attention of Great Leader. It was no coincidence that a sincere relationship developed between Heydar Aliyev and Kamil Aliyev. This outstanding artist prepared the portrait carpet of the President of Turkey Suleyman Demirel at a high level under the instructions of the genius leader. He mentioned it in the meeting of the Great Leader with Suleyman Demirel and reminded that the artist had done admirable

work. He showed that this portrait carpet attracted people because it was made very delicately and the Azerbaijani school of art and painting can be proud of this rare work. It should be noted that Kamil Aliyev masterfully worked the portrait carpet of the genius leader. This also reflects the sympathy and love of Heydar Aliyev and the artist, as well as the people.

Keywords: Great Leader, carpet, artist, genius leader, carpet making, science, culture

Ulu Öndər dünyada tanınmış dövlət xadimi, görkəmli ölkə başçısı, müdrik siyasətçi kimi şöhrət tapmışdır. Onun istər Sovetlər Birliyi dönəmində, istərsə də müstəqillik illərində ölkəmizin inkişafında, dünya ölkələri arasında tanınmasında xidmətləri danılmazdır. Dahi rəhbər Azərbaycanda bütün sahələrə, xüsusilə elmə, mədəniyyətə dəyər verən böyük şəxsiyyətdir. Vidadi Muradov bu barədə yazır: "Azərbaycanın ən böyük nailiyyətlərindən biri onun inkişafına göstərilən dövlət qayğısıdır. Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi dövrlərdə (1969-1982, 1993-2003) bütövlüklə mədəniyyətin, o cümlədən xalçaçılığın inkişafına daim diqqət yetirmişdir" (10, 6). Heydər Əliyev mənəviyyata, bununla bağlı digər sahələrə, milliliyə, azərbaycançılığa xüsusi önəm verirdi, dahi rəhbərin fəaliyyəti çoxşaxəli idi. Bunu ayrı-ayrı görkəmli tədqiqatçıların əsərlərində də görmək olar. Akademik Muxtar İmanov yazır: "Heydər Əliyevin çoxşaxəli fəaliyyətində elm, təhsil və mədəniyyətin inkişafına diqqət həmişə ön planda olmuşdur" (6, 12).

Ulu Öndər Azərbaycan xalçaçılığının dünyada şöhrət tapmasına qayğı ilə yanaşmış, bunu mədəniyyətimizin, eləcə də incəsənətimizin olduqca vacib bir hissəsi olduğunu bəlli etmişdir. Xalçaçılıq nədir, Azərbaycan xalçaçılığı haqqında nə bilirik? Öncə qeyd edək ki, həyatımızda, məişətimizdə xalçalardan, xalılardan istifadə edirik. Onlar təkcə yaraşıq üçün yox, həm də soyuğun qarşısını almaq üçün istifadə edilir. Məsələn, xovsuz xalçaları divardan asır, xovlu olanları döşəməyə salırlar. Bunlar müxtəlif ölçülü, kompozisiyalı, motivli olmaqla, hər biri bir sənət əsəridir. Xalça, xalı, gəvə nümunələrində əks olunan simvollar, işarələr, motivlər, kompozisiyalar xalqımızın min illərdən bəri gələn dədə-baba inam və inanclarını, adət-ənənələrini yaşatmaqla, bu sənət əsərlərinin ölməzliyini, dəyərini göstərməkdədir. Azərbaycan əlverişli coğrafi mövqedə yerləşdiyindən, onun Təbriz, Gəncə, Bərdə, Bakı və digər şəhərləri karvan yollarının kəsişdiyi yerlərdə olduğundan bu şəhərlər mədəniyyət və ticarət mərkəzləri rolunu oynamışdır. Azərbaycana Yaxın və Orta Şərqdən tacirlər, müxtəlif sənət adamları, sənətkarlar axışmış, onlar bir-birindən qarşılıqlı şəkildə faydalanmışlar. Təbii ki, bu sənət adamları arasında xalçaçılar da olmuşdur.

Əsrlər boyu Azərbaycanda xovlu və xovsuz xalçaların naxış kompozisiyası, toxunuş texnologiyası bu və digər formada Yaxın və Orta Şərq ölkələri xalçaçılığında təkrar olunmuşdur (2, 76). Tədqiqatlar göstərir ki, bununla bərabər xalqımızın özünəməxsusluğunu, milliliyini yaşadan naxışlar ancaq Azərbaycan xalçaçılığında işlənir, yaşadılır. Tədqiqatçı Kübra Əliyeva yazır: "Azərbaycan xalqının yaratdığı elə xalça nümunələri var ki, onların texnologiyası digər xalqların xalçaçılığında təkrar edilsə də, onun üzərindəki naxışlar təkrar

edilmir" (2, 76). Bu təbiidir, çünki bu naxışlar xalqımızın bağrından qopmuş, onun özünəməxsusluğunu, milli düşüncə, hiss və duyğularını özündə əks etdirib saxlayır. Bu naxışlar neçə minilliklərdən gələn ənənələri, sənət sirlərini yaşatmaqdadır.

Ölkəmizdə Azərbaycan xalçasının tanınmasında, şöhrət tapmasında görkəmli rəssamlardan Lətif Kərimov və Kamil Əliyevin xidmətləri çoxdur. Bu görkəmli sənətkarlardan Lətif Kərimovun Azərbaycan xalçası barədə kifayət qədər təsəvvürə və bilgiyə malik olması belə dəyərləndirilir: "Ənənəvi sənətlərin elə bir növü yoxdur ki, Lətif Kərimov öz yaradıcılığında ona yer verməsin. Onun bədii təbiəti son dərəcə geniş idi, onun istedadının xarakteri qapalı deyildi. Lətif Kərimov yalnız xəbərdar olanların üzünə açıq olan bir çox sənətin qapılarına sərbəst və asanlıqla daxil olurdu. Elə bil Lətif Kərimov şərqə məxsus ənənəvi sənətlərin bütün sirlərinə vaqif idi, çünki Şərqdə rəssam mahir sənətkar sayılırdı. Bu imkanı isə ona xalça vermişdi" (1, 12-13).

Lətif Kərimov xalçaçılıqda yeniliklər yaratdı, daha doğrusu, emalatxanada texnologiyanı dəyişdi – xalça çeşnilərini yaratdı. O, bir adamın zəhmətinin ağır və çətin olduğunu nəzərə alıb bu işi bir neçə nəfərin görməsini münasib bildi. Lətif Kərimov damalı kağızda xalçaların eskizini tərtib etdi (8, 35). Onun üç cildlik "Azərbaycan xalçası" əsəri təkcə xalçaçılıq sənəti deyil, həm də bununla bağlı digər sənətlərimiz barədə ətraflı məlumat verməkdədir.

Lətif Kərimov Şərqə məxsus ənənəvi sənətlərin bütün sirlərinə vaqif idi, çünki Şərqdə rəssam mahir sənətkar sayılırdı. Bu imkanı isə ona xalça vermişdi (1, 12). Onun yaradıcılığında portret xalçalara da rast gəlinir. "Hüseyn Cavid", "Əcəmi Naxçıvani" kimi xalçalar bu qəbildəndir. Ustad sənətkar rənglərdən onların çalarlarından sehrli ilmələrin köməyi ilə böyük şair və ədibimiz Hüseyn Cavidin, görkəmli memarımız Əcəmi Naxçıvaninin özlərinə məxsus xarakterlərini ustalıqla yaratmışdır. Xalçaçı rəssamın sənət əsərləri arasında Nizami Gəncəvinin əsərləri ilə səsləşənlər də var. "Məcnun səhrada", "İsgəndərnamə", "Yeddi gözəl", "Xosrov və Şirin" kimi xalçalar belə sənət nümunələrindəndir. Bu nadir sənət nümunələri adamı orta əsrlərin sirli-sehirli aləminə aparır, buradakı naxışlar, ornamentlər, detallar, rənglərin əlvanlığı hər kəsi məftun edir. Bu nümunələr istər-istəməz Kubra Əliyevanın bir mülahizəsini xatırladır, Lətif Kərimov böyük Şərq ornamenti sənətinin əsaslarına yiyələnmiş sənətkardı (1, 32).

Azərbaycan xalçalarını xovsuz və xovlu olmaqla, texniki və bədii xüsusiyyətlərinə görə dörd böyük növə bölmək olar: 1. Quba-Şirvan növü. 2. Gəncə-Qazax növü. 3. Qarabağ növü. 4. Təbriz növü (7, 21).

Təbii ki, bu bölgələrdə toxunan xalçaların oxşar və fərqli cəhətləri də məlumdur. Bu barədə Lətif Kərimovun mülahizəsi maraqlıdır: "Qarabağ xalçaları kompozisiyalarının müxtəlifliyi, həndəsi və nəbati elementləri ilə fərqlənir. Qarabağda "Xəli-gəbə dəsti" xalça komponenti geniş yayılmışdır (8, 14-15).

Təbriz növlü xalçalar texnoloji və bədii xüsusiyyətlərinə görə həm Quba-Şirvan, həm də Qarabağ növlü xalçalara oxşayır, sadəcə bu xalçaların istər toxunmasında, istərsə də ornamentlərinin işlənməsində fərqlər özünü göstərməkdədir. Təbriz növlü xalçaların kompozi-

siyası çox mürəkkəb, elementləri isə həndəsiləşmiş bitki ornamentlərindən ibarətdir. Təbriz xalçalarının əksəriyyəti "qullabi ilmə" üslubunda, bəzi hallarda isə "dolama ilmə" üslubunda toxunur (7, 27). Azərbaycanda toxunan xalçalar ölkəmizini füsunkar təbiətini, gözəl mənzərələrini, bu yerlərdə bitən bitkilərin, güllərin, çiçəklərin rəng əlvanlığını, insanların yaşantılarını, məişətini, duyğu və düşüncələrini müxtəlif işarə, simvollar, eləcə də elementlərlə əks etdirməkdədir. Lətif Kərimov Azərbaycan xalçasının özünəməxsusluğunu belə təqdim edir: "Azərbaycan xalçası boyaların tükənməz zənginliyi, yaradıcılıq təxəyyülünün gücü və yüksək sənətkarlığı ilə fərqlənir" (8, 7).

Ulu Öndərin bütün sahələrə – azərbaycançılığa, eləcə də elmə, mədəniyyətə, xalçaçılığa qayğı və diqqəti onun geniş dünyagörüşündən, Vətənə, xalqa olan tükənməz məhəbbətindən, sevgisindən qaynaqlanırdı. Heydər Əliyev deyirdi: "Gərək hər bir insan və xüsusilə gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin. Bunun üçün isə o, azərbaycançılığın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən bilməlidir" (3, 6).

Tədqiqatlar göstərir ki, Heydər Əliyev hələ gənc vaxtlarından poeziyaya, ədəbiyyata, mədəniyyətə, incəsənətə maraq göstərmişdir. Uşaqlıqdan rəsm əsərləri çəkmək də onun diqqətindən kənarda qalmamışdır. Təsadüfi deyildir ki, böyük Füzulinin portretini yaradan Heydər Əliyevin əsəri məktəbdə keçirilən müsabiqənin qalibi olmuşdur. Bütün bunlara baxmayaraq, o daha çox memarlıq sənətinə meyl göstərmiş və gələcəkdə memar olmaq arzusunu da yaşamışdır (8, 670). Böyük dövlət xadimi, müdrik insan həmişə milliliyə, onun dillə, mənəviyyatla bağlılığına böyük önəm vermişdir. O deyirdi: "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". Bu, Heydər Əliyevin Dünya Azərbaycanlılarının I Qurultayında azərbaycançılığın Dünya Azərbaycanlılarının milli dövlət ideologiyası kimi qəbul etdiyini göstərməkdədir (9, 670).

Maraqlıdır ki, Kamil Əliyev də portret xalçalar işləyəndə ilk dəfə böyük Füzulinin portretini yaratmışdır. Sənətkar burada ustalıqla böyük şairin özünəməxsusluğunu, dahi şəxsiyyət olduğunu gərgin zəhmət və əmək bahasına yarada bilmiş, xüsusi sevgi və zövqlə bu işi başa çatdırmışdır. Bir növ, böyük rəssam milli vətəndaşlıq borcunu ödəmişdir. Qeyd edək ki, Ulu Öndər milli vətəndaşlıq borcunun milli-mədəni dəyərlərimizə, doğma ana dilimizə, doğma torpağımıza, böyük və zəngin tariximizə, millətimizə sadiq olmaqdan ibarət olduğunu hər kəsə xatırlatmışdır (9, 631). Kamil Əliyevin təqdirəlayiq işləri Ulu Öndərlə onun arasında səmimi bir münasibət yaratmışdı. Heydər Əliyev bu böyük rəssamın toxuduğu xalçaların nadir sənət əsərləri olduğunu yaxşı bilirdi. Bunu mütəxəssislər də yüksək qiymətləndirirdilər: "Kamil Əliyev yaradıcılığının əsasını Təbriz elit rəssamlıq məktəbi, Bakı məktəbinin xovla toxunmuş üslubu təşkil edir. Onlar kompozisiya quruluşu, əyrixətli ornamental üslub, keyfiyyətli sıx toxunma texnikası baxımından və süjetli xalçaların daha çox üstünlük təşkil etdiyi klassik Təbriz xalçalarına və kolorit həllində incə, yumşaq tonlara görə Bakı xalça məktəbinə daha yaxındırlar" (7, 19). Təbii ki, bu təcrübəli rəssamın özünəməx-

susluğu, maraqlı rəng çalarları, ustalığı da dahi rəhbəri cəlb edirdi. Çünki Kamil Əliyevin toxuduğu xalçalar üzərində həm mənəvi aləm, qədim tariximiz, inci kimi zərif düzülmüş bəzək elementləri, kalliqrafik yazılar, sonsuz rəng çalarları böyük ustalıqla təcəssüm edilib" (7, 15). Təsadüfi deyildir ki, Süleyman Dəmirələ ad günü münasibəti ilə xalça hədiyyə etmişdir. Ümummilli Liderimiz Heydər Əliyev Türkiyənin Prezidenti Süleyman Dəmirələ məhz Kamil Əliyevin toxuduğu xalçanı bağışlayarkən demişdir: "Azərbaycan xalqının ürəyində olan hissiyyatlar çoxdur. Bunu sözlə də, şeirlə də, musiqi ilə də, rəsm əsərləri ilə də ifadə etmək olar. Ancaq biz fikirləşdik ki, ürək sözümüzü sizə çatdırmaq üçün böyük rəssamımız Kamil Əliyev sizin portretinizi xalıda yaratsın. Azərbaycan incəsənəti, rəssamlıq məktəbi bununla fəxr edə bilər. Belə bir nümunə, yəni sizin portetiniz Azərbaycan ornamentləri ilə bəzədilmiş xalı üzərində toxunulub, hazırlanıb" (4, 33).

Kamil Əliyevin yaradıcılığında portret xalçalar xüsusi yer tutur. Bunlardan "Nəsimi", "Füzuli", "Nizami", "Puşkin", "Şota Rustaveli", "Heydər Əliyev", "İlham Əliyev", "Akademik Zərifə Əliyeva", "Məmmədəmin Rəsulzadə", "Qazi Mustafa Kamal Atatürk", "Mənim anam" kimi portret xalçalarını göstərmək olar. Yəni Kamil Əliyev məhsuldar sənətkardır, buna görə də Ulu Öndər onun zəhmətini qiymətləndirmiş, xalçaçılığın yüksək mədəniyyət nümunəsi olduğunu göstərmişdir. "Heydər Əliyev" portret xalçaları müxtəlif illərdə (1980, 1998, 2004) işlənən üç sənət əsərindən ibarətdir. Dahi rəhbərə tükənməz məhəbbət və ehtiram elə bu portret xalçalardan da bəlli olur. Bu sənət əsərlərində Ulu Öndərin özünəməxsus xarakteri, şəxsiyyəti əks olunmuşdur.

Kamil Əliyev də Lətif Kərimov kimi zəngin yaradıcılığa malik sənətkardır. Onun "Ləçək turunc" (1976), "Qızıl xalça" (1980), "Göllü (1985), "Azərbaycan" (1987) kimi xalçaları öz naxışları, rəngləri, motiv və detalları ilə adamı sehirləyir. Bu sənət əsərlərinin gözəlliyi, cazibəsi adamı heyrətləndirir, elə bil nağıl dünyasına daxil olursan. Sanki bu xalçalarda həzin muğam, bəmdən deyilən hikmətli qəzəl səsası duyulur. Ana və nənələrimizdən örnəklənmiş müdrikliyimiz gizlənib (4, 38).

Elə bu qeydlərdə də dahi rəhbərin Azərbaycan xalçaçılığına, böyük rəssamımız Kamil Əliyevə rəğbəti, səmimiyyəti əks olunmuşdur. Böyük rəssamın yaratdığı portret xalçaların biri də Heydər Əliyevlə bağlıdır. Bu əsər öz bədii xüsusiyyətləri ilə diqqət çəkən xalçalardandır. K.Əliyev burada Ulu Öndərin kamil, müdrik, xalqını, Vətənini sevən bir dövlət xadimi olduğunu öz rəssamlıq təxəyyülü, rənglərin, ornamentlərin, elementlərin vasitəsi ilə əks etdirməyi bacarmışdır. Heydər Əliyev Kamil Əliyevi 1999-cu ildə Azərbaycan xalçaçılığında böyük xidmətlərinə görə "İstiqlal" ordeni ilə təltif etmişdir. Tanınmış rəssam Kamil Əliyevin tablo təsəvvürü yaradan xalçalarının içində müdrik dövlət başçısının, böyük siyasi xadimin (söhbət Heydər Əliyevdən gedir – A.M.) portretini yüksək zövqlə, sənətkarlıqla yaratmışdır (7, 28).

Kamil Əliyev Heydər Əliyevin daxili aləmini, onun özünəməxsus, təkrarsız xarakterini xalça üzərində həkk etmək üçün gərək olan bədii vasitələr axtarır. Rəssam özü bu dövrdə onu narahat edən daxili tələtümü belə izah etmişdir: "Bu obrazı yaratmaq mənim üçün çətin

idi. Hələ gəncliyindən Heydər Əliyev özünün dərin erudisiyası, intellekti, natiqlik qabiliyyəti ilə məni heyran eləmişdi. Bütün bu keyfiyyətlər fiziki cəhətdən gözəl, sağlam bir insanda toplanmışdır" (4, 28).

Azərbaycanda xalçaçılığın təbliği, ona qayğı indi də davam etdirilir. Prezident İlham Əliyev Əliyevin iştirakı ilə 2010-cu ildə Dənizkənarı Milli Parkın ərazisində Azərbaycan xalçası Muzeyinin açılışı da bunu təsdiq edir. Azərbaycan xalçasına dövlət tərəfindən göstərilən diqqət onun müasir dövrümüzdə də öz kökü üzərində inkişafda olduğunu göstərir.

Xalçaçılığın inkişafı və onun nailiyyətlərinin dünya miqyasında təbliği sahəsində Azərbaycanın I Vitse-prezidenti Mehriban xanım Əliyevanın da böyük rolu vardır. O, müstəqilliyimizin iyirmiilliyi ilə bağlı London, Paris və Moskvada keçirilən Azərbaycan mədəniyyət və incəsənəti çərçivəsində təşkil olunan xalça sərgiləri böyük əhəmiyyət kəsb etmişdir. Bununla da bu nailiyyətlər Azərbaycan xalçasının 16 noyabr 2010-cu ildə YUNESCO-nun "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na daxil edilməsi qanunauyğunluğunu təmin etmişdir (10, 6).

Xalçaların istehsalı, tədqiqi zahirən bir qədər asan görünsə də, onu yaradanların gərgin əməyinin çətinliyi dərk olunmalıdır. Azərbaycan xalçasının ənənələrini qorumaq ümumxalq işidir (5, 5).

QAYNAQLAR:

1. Əliyev Heydər. Milli varlığımızın mötəbər qaynağı. "Kitabi-Dədə Qorqud" Ensiklopediyası. I cild. Bakı: Yeni Nəşrlər Evi, 2000.
2. Əliyeva Kübra. Lətif Kərimov. Xalça sənəti. Sərvət. "Şərq-Qərb" Nəşriyyat Evi. Bakı: 2013.
3. Əliyeva Kubra. Yalnız Azərbaycanda toxunan üç nadir xovsuz xalça. "Azərbaycan xalçaları" jurnalı. Cild 3, №9. Bakı, 2013.
4. Əsədova Xədicə. Kamil Əliyev. Xalça sənəti. Sərvət. "Şərq-Qərb" Nəşriyyat Evi. Bakı: 2013.
5. Ələddinqızı Nəzakət. Heydər Əliyev Fondu tərəfindən Azərbaycan xalçasının möhtəşəmliyi dünyaya təqdim edilir. Səs, 2011, 16 fevral, №29, Bakı.
6. İmanov Muxtar. Portret cizgiləri. Heydər Əliyevin irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri (tərtibçi: K.Əliyev). Bakı: Nurlan, 2013. 192 s.
7. Kərimov Lətif. Azərbaycan xalçası. Xalqbank, Bakı, 2022
8. Kərimov Lətif. Azərbaycan xalçası. Bakı: Yazıçı, 1985
9. Qasımov Cəlal, Bağırov Xaqani. Azərbaycan Təhlükəsizlik Orqanları 100 ildə: tarix və müasirlik. DTX-nin nəşriyyatı. Bakı, 2019.
10. Muradov Vidadi. Azərbaycanın İrəvan bölgəsi: tarixi və xalçaları (XVIII əsrin II yarısı – XX əsrin əvvəlləri). "MHS-Poliqraf". Bakı, 2015.

HEYDƏR ƏLİYEVİN BAYRAM TƏBRİKLƏRİ

HOLIDAY GREETINGS BY HEYDAR ALIYEV

Akifə XƏLİLOVA
AMEA Folklor İnstitutu,
akife-xelilova@mail.ru

Özət

Məqalədə Azərbaycan xalqının milli lideri Heydər Əliyevin bayramlarla bağlı təbrikləri öyrənilir. Bunun üçün milli liderin müxtəlif bayramlarla bağlı təbriklərini əks etdirən materiallar seçilib və onların üzərində təhlillər aparılıb. Təbrik mətnlərinin məzmun xüsusiyyətləri mərasim mədəniyyətimizin ənənələri kontekstində araşdırılıb. Milli liderin bayram təbrikləri mərasim mədəniyyətimizin nümunəsi kimi götürülməklə yanaşı, eyni zamanda lider və xalq arasındakı birlik və həmrəyliyi artıran mənəvi ünsiyyət kimi dəyərləndirilib. Təbrik mətnləri üzərində təhlildən aydın olur ki, milli liderin təbrikləri içərisində zəngin milli-mənəvi dəyər məzmunu daşıyan müraciətlər, arzular və diləklərdir. Bu təbriklər xalqı birliyə, həmrəyliyə çağırır, humanist dəyərləri cəmiyyətin hər bir üzvü ilə bölüşür.

Açar sözlər: Heydər Əliyev, Azərbaycan, bayram, təbrik, mənəvi, dəyər.

Summary

In the article the holiday greetings by the national leader of the Azerbaijani people Heydar Aliyev are studied. According to it the materials are selected and analyzes are carried out on them, which reflected the holiday greetings of the national leader. Content fetures of congratulatory texts are studied in the context of the tradition of ritual culture. Holiday greetings by the national leader are taken as a sample of ritual culture and are evaluated as a spiritual communication that enhances the unity and solidarity among the leader and the people. According to the analysis of the congratulatory texts, it is found that in the content of the congratulations of the national leader there are appeals and wishes that are rich in national and spiritual values. These congratulations call the people to unity, solidarity and to share humane values with every individual of the society.

Keywords: Heydar Aliyev, Azerbaijan, holiday, unity, spirituality, value.

Azərbaycan xalqının milli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur. Eyni zamanda Azərbaycan cəmiyyətinin tarixi-mədəni dəyərlərinin də qoruyucusu kimi yaddaşlarda qalıb. Milli Liderin müstəqil dövlət quruculuğunda mədəni dəyərlərə geniş yer verməsi və cəmiyyəti mənəvi dəyərlərlə idarə etməsi onun idarəçiliyinin səciyyəvi cəhətlərindən biridir. Heydər Əliyev fərd üçün də, cəmiyyət üçün də mənəviyyatın ən vacib məsələ olduğunu hər zaman ifadə etmiş və bu prinsipə həmişə diqqətlə yanaşmışdır.

Dövlət başçısının bayram təbrikləri geniş əhatəli bir mövzudur. Çünki bayram təbrikləri həm ölkənin milli bayramları ilə, həm də beynəlxalq baymlarla bağlı ola bilir. Bundan başqa bayram təbrikləri xarici ölkələrlə də əlaqəli olur. Dövlət başçıları digər ölkələrin əla-

mətdar günlərini, onların milli bayramlarını və dini bayramlarını təbrik edirlər. Belə təbriklər diplomatik münasiətləri ənənəvi atmosferə yönəltmək, ölkələr arasında mədəni əlaqələri genişləndirmək, ortaq mədəniyyəti və mənəvi dəyərləri canlandırmaqla onları diqqət mərkəzinə gətirmək, xalqların adət və ənənələrində bənzərlikləri tapmaq və onları bayram təbriklərində əks etdirmək üçün istifadə olunur. Yaxın və uzaq ölkələrin, ortaq dinə məsub olan və ya fərqli dini olan ölkələrin dövlət başçılarına göndərilən təbriklərdə də ortaq dəyərlərin tapılmasına və diqqətə çəkilməsinə önəm verilir. Bu mənada bayram təbrikləri ortaq adətlər, bənzər mədəni dəyərlərin diqqətə alınması ilə təqdim edilir. Bir ölkə rəhəbərinin digər bir ölkə rəhbərinə onun milli bayramını təbrik etməsi xoş bir mesaj kimi qəbul edilir və mədəni münasibətlər üçün açılan yolu daha da genişləndirər. Ümummilli Liderin xarici ölkələrin rəhbərlərinə həmin ölkələrin xalqlarının bayramları ilə bağlı ünvanladığı təbriklərdə bu xüsusiyyətlər özünü göstərir. Bütün bayram təbriklərini araşdırsaq, bu, çox geniş bir mövzu olacaqdır. Tədqiqatın davamında mövzunun xarici ölkələrə göndərilən bayram təbriklıri ilə davam etdirmək olar.

Ümummilli Liderin bayram təbrikləri xalqın adət və ənənələrinə böyük dəyərin ifadəsi kimi səciyyələndirilə bilər. Burada biz xalq bayramlarına münasibətin azərbaycançılıq məfkurəsinə münasibətin tərkib hissəsi kimi görürük. Azərbaycançılığın mənəvi məzmununda azərbaycanlı olmağın qürur hissi durur.

Azərbaycan respublikası prezidenti İlham Əliyevin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında 21 yanvar 2013-cü il tarixli sərəncamında deyilir: "Xalqımızın Ümummilli Liderinin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri dünya azərbaycanlılarının şüarı olmaqla, soydaşlarımızın həmrəyliyinin təməl daşına çevrilmişdir" (1, 8).

Millətin öz dəyərlərinə sahib çıxması, tarixini, keçmişini bilməsi, adət-ənənələrini icra etməsi milli ruhu gücləndirən qaynaqlardır. Bu baxımdan Heydər Əliyevin fəaliyyətində milli mədəniyyətin bir qürur qaynağı kimi təqdim edilməsi ardıcıl xarakter daşımış və xalqın bu dəyərlərlə yaşaması üçün əlverişli şərait yaradılmışdır.

"Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev tərəfindən aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycan diasporu təşkilatlanmış, inkişaf etmiş və öz tarixi vətəni ilə sıx bağlılığını nümayiş etdirmişdir. Bu gün dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlıların müstəqil Azərbaycan Respublikasını öz vətəni sayması, onu milli ruhun, milli-mənəvi dəyərlərin, milli mədəniyyətin məbədi kimi qəbul etməsi və azərbaycançılıq ideyası ətrafında birləşməsi məhz Heydər Əliyevin fəaliyyətinin nəticəsidir" (1,8).

Bu məqalədə biz, əsasən, öz ölkəmizin, Azərbaycanın xalq bayramları ilə bağlı Ümummilli Liderin təbrikləri üzərində dayanırıq. Məqsədimiz ondan ibarətdir ki, bu təbriklərin əsas məzmununda ifadə olunan ideyaları, düşüncələri, xalqa ünvanlanan müraciətləri müəyyənləşdirək, onları öyrənək və gələcək tədqiqtlarda da təbliğ edək.

Ümummilli Liderin bayram təbriklərinin mövzusu müxtəlif aspektlərdən öyrəniməsi vacibdir. Burada müxtəlif elm sahələri üçün öyrənilməli məsələlər vardır. Filoloji elmlər üçün, tarix üçün, mədəniyyətşünaslıq üçün bu təbriklərin öyrənilməsinin xüsusi əhəmiyyəti vardır. Nəzərə alsaq ki, bayram təbrikləri xalq bayramları ilə, yəni ənənəvi mədəniyyətlə və

xalq yaradıcılığı ilə birbaşa bağlıdır, o zaman folklorşünaslıq baxımından da bayram təbriklərinin öyrənilməsinə ehtiyac olduğu aydınlaşar. Digər tərəfdən də bayram təbrikləri bir mətn olaraq özündə milli xalq deyimlərini, müraciətləri, təbrik formullarını birləşdirdiyi üçün folklorla bağlı olur. Bu təbrik mətnlərini öyrənmək eyni zamanda milli liderin nitqinin, düşüncəsinin, danışığının folklorla bağlılığını öyrənmək deməkdir.

Azərbaycan folklorşünaslığında bu mövzu ilə əlaqəli ilk araşdırmanı görkəmli alim Kamran Əliyev "Heydər Əliyev və xalqa müraciət etiketləri" adlı məqaləsində aparıb. Müraciət mətnlərini iki dövrə bölən Kamran Əliyev birinci hissəyə sovet dövrünə aid müraciətləri, ikinci hissəyə isə dövlət müstəqilliyimizi bərpa etdikdən sonrakı dövrün müraciətlərini aid edib. "Sovet dövründə öz çıxış və məruzələri zamanı rəhbər işçilərə xas olan bir çox sözlər, kəlmələr, şübhəsiz ki, Heydər Əliyevin də nitqində işlənirdi. Bunlar ən məşhur və dəbdə olan müraciət formaları idi: "yoldaşlar", "əziz yoldaşlar", "dostlar", "əziz dostlar" və s". (2,43).

Kamran Əliyev müraciət etiketləri içərisində bir neçə xüsusi fərqlənən məqam müəyyənləşdirib. Bunlardan biri 1982-ci ildə Şuşada Molla Pənah Vaqifin məzarı üzərində ucaldılmış məqbərənin açılışından sonra Xankəndidə partiya fəalları ilə keçirilən iclasda müraciət zamanı "dostlar" sözünü işlətməyib (2,45).

Dövlət müstəqilliyimizin bərpasından sonra respublikaya rəhbərlik edən Heydər Əliyev xalqa müraciətlərində daha çox "hörmətli həmvətənlər" ifadəsindən istifadə edib (2, 47).

Türk dövlət başçılarına ünvanlanan müraciətlərdə "dostumuz və qardaşımız" ifadəsi daha çox işlədilib.

Bayram təbriklərinin müraciət etiketləri də bu baxımdan maraq doğurur. Respublika rəhbərliyinə qayıdan və ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq uğrunda gərgin mübarizə aparan Heydər Əliyev 1994-cü ilin mart ayının 20-də Novruz bayramı münasibəti ilə xalqa təbrik müraciəti edib.

Bu müraciətdə biz "Hörmətli həmvətənlər" ifadəsi ilə yanaşı "bacılar və qardaşlar" sözlərinin də işləndiyini görürük. Bayram təbrikində biz bu cümləni xüsusi olaraq qeyd etməliyik. Müraciət etiketinin ardından milli lider deyir: "Bu əziz bayram axşamı sizi, bütün Azərbaycan xalqını, respublikamızın bütün vətəndaşlarını milli bayramımız – Novruz bayramı münasibətilə təbrik edirəm!" (3). Buradan aydın olur ki, milli öndər Novruz bayramını bizim milli bayramımız kimi çox yüksək qiymətəndirib.

Təbiətin bayramı

"Novruz bayramı həm də təbiətin bayramı, Bahar bayramıdır". Təbrikdə bayramın bütün tarixi-mədəni səciyyəsi diqqətdə saxlanılıb. Bu bayramın yaz mövsümü ilə bağlı olması, təbiətin oyanması, bolluq və bərəkətin artdığı bir bayram olması da təbrikdə ifadə olunub. Çünki bayramın təməli, əsası təbiətlə birbaşa bağlı olub. Yazı qarşılamaq üçün icra edilən mövsüm mərasimləri də Novruz bayramının mədəni kompleksinə daxil olub.

Yeni il bayramı

Təbrikdə biz bayramın təqvim xüsusiyyətinin də diqqətə alındığını görürük. Burada ilin təhvil olması və yeni ilin başlanması ilə bağlı fikirlər də yer alıb. Bu o deməkdir ki, milli öndər bayramı xalqın tarixinin bir parçası kimi təqdim edir. Keçmişimizdə Novruz bayramının həm də yeni il olduğu təqvimi istifadə etmişik. Bu mənada öndər keçmiş təqvim tariximizə də

hörmətlə yanaşmağın, onu simvolik olaraq qeyd etməyin də gərəkli olduğunu vurğulayıb. Təbrikdə oxuduğumuz bu sözlər bizi keçmiş təqvim mədəniyyətimizlə tanış edir.

"Bir neçə saatdan sonra il təhvil olacaq, yeni il başlanacaq, gecə ilə gündüz bərabərləşəcək, təbiətdə, dünya həyatında əlamətdar hadisələrin şahidi olacağıq".

Əlbəttə, tarix, xüsusilə də mədəniyyət tarixi unudulmamalı, gənc nəslin yaddaşında möhkəm şəkildə qorunub qalmalıdır. Təbrikdə ifadə olunan məlumat bizi bu dəyərləri qorumağa və yaşatmağa səsləyir.

Xalqın bayramı

Heydər Əliyev Novruz bayramını xalqın əsrlərlə qeyd etdiyi bir bayram olduğunu və onun hər bir azərbaycanlı üçün dəyərli olduğunu bilir və bu həqiqətlər əsasında xalqa bayramın məzmununda daşınan dəyərləri çatdırır. Heydər Əliyevin 2003-cü il 20 mart tarixli bayram təbrikində deyilir:

"Böyük mənəvi gücə malik olan Novruz bayramı ulu əcdadlarımızın bizə verdiyi ən gözəl yadigar olub Azərbaycan xalqının milli ruhunu və yaddaşını, onun daxili aləmini bütün zənginliyi ilə yaşadır. Təbiətin oyanışının, varlığın yenidən canlanmasının müjdəsini verən Novruz bayramı ən qədim zamanlardan bəri həyat və məişətimizə daxil olmuş, insanlara aydın və işıqlı sabaha, xoşbəxt gələcəyə inam duyğusu bəxş etmişdir. Mehribanlıq və qardaşlıq tellərini gücləndirən bu bayram cəmiyyətdə xoş münasibətlər bərqərar edərək, onun üzvlərinin bir-birinə diqqət və qayğısını artırır".

Heydər Əliyev bayram təbrikində milli-mənəvi dəyərlərin qorunmasının vacibliyini də diqqətə çatdırır: "Azərbaycan xalqı ötən əsrlərin bütün ağır sınaqları içində dilini, dinini, mənəviyyatını saf bir şəkildə qoruduğu kimi, milli bayramlarını, o cümlədən Novruz bayramını da qoruyub saxlamış, hər gəlişini çox böyük arzularla gözlədiyi bu bayramı tarix boyu həmişə əziz tutaraq, onu dərin ehtiram və məhəbbətlə qeyd etmişdir. Onun milli bayram kimi bu gün dövlət səviyyəsində keçirilməsi isə Azərbaycanımızın müstəqilliyinin bəhrələrindən biridir". Mənəvi dəyərlərin qorunması bayramlar vasitəsilə daha nikbin bir şəkildə təmin edilir. Çünki bayram özü dəyərlər toplusunu özündə daşıyır və humanizm ideyalarını, xeyirxahlığı yaşadır.

Həmrəylik bayramı

Milli öndərin bayram tərkibinin məzmununda ifadə olunan əsas fikirlərdən biri də xalqın həmrəyliyi fikridir. Bayram insanları həmrəyliyə səsləyir. Bayram təbriki həmrəyliyi daha da gücləndirməyə çağırır.

"Azərbaycan xalqının sonsuz sevinclə qarşıladığı Bahar bayramını dünyanın hər bir guşəsində yaşayan bütün soydaşlarımız böyük təntənə ilə qeyd edirlər. Qoy milli həmrəyliyin rəmzinə çevrilən bu bayram həmvətənlərimizi azərbaycançılıq məfkurəsi ətrafında daha sıx birləşdirsin. Bu gün ölkəmizin hüdudlarından uzaqlarda olan soydaşlarımızın hər birini hərarətlə salamlayır, onlara ən səmimi bayram təbriklərimi yetirir, neçə belə bayramlara çatasınız deyirəm". Təbrikdə ifadə olunmuş bu fikirlərdən aydın olur ki, Heydər Əliyev bayramı ortaq mədəni dəyər kimi yüksək qiymətləndirmiş və bayramın milli həmrəyliyi gücləndirən roluna böyük önəm vermişdir. Bizim ortaq adət və ənənələrimiz içərisində bayramların əhəmiyyətini xüsusi vurğulamışdır.

Dövlət bayramı

Təbrik mətnində bayram həm də dövlət bayramı adlandırılmışdır. Bu fikir belə ifadə olunub: "Azərbaycan xalqı milli azadlığına nail olmuşdur. Azərbaycan müstəqil dövlətdir". "Qədimlərdən bəri qeyd etdiyimiz Novruz bayramı Azərbaycan respublikasının dövlət bayramıdır" (3).

Dövlət müstəqilliyimizin bərpası bizə belə bir imkan yaradıb. Xalqımızın əsrlərlə qeyd etdikləri bayramlar dövlət tərəfindən dəstəklənməyə və himayə olunmağa başlayır. Belə olduğu halda bayram mərasimləri daha mütəşəkkil şəkildə keçirilir və onun təntənəsi də daha böyük və möhtəşəm olur(4).

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 10 fevral 2003-cü il tarixində Qurban bayramı münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikində müraciət etiketi "əziz bacı və qardaşlar" şəklindədir. Bu müraciət təbrikin elə ilk başlanğıcından mənəvi bir atmosfer yaratmağa xidmət edir. Xalqına bağlı olan lider müraciətində də bu yaxınlığı, doğmalığı bir daha vurğulayır: "Sizi bütün dünya müsəlmanlarının müqəddəs Qurban bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm". Təbrikdə Qurban bayramı bəşəri-mənəvi dəyərləri özündə ehtiva edən bayram kimi səciyyələndirilir. İnsanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinin xalqımız üçün xarakterik olduğu və bayramın əziz bir bayram olduğu fikri ifadə olunub. Milli öndər şəhidlərimizin də bayram günlərində yad edilməsinin vacibliyini diqqətə çatdırıb. Bu bayramı da həmrəyliyi gücləndirən dəyər kimi qiymətləndirib: "Qurban bayramı da xalqımızın yüksək ideallar ətrafında daha sıx birləşməsini təmin etsin, azad, müstəqil və demokratik Azərbaycan dövlətinin gələcək inkişafı naminə bütün azərbaycanlılar arasında ümummilli həmrəyliyi möhkəmləndirsin" - deyib (5).

Ümummilli Liderin 15 dekabr 2001-ci il tarixli Ramazan bayramı təbrikində də xalqa "əziz bacı və qardaşlar" deyə müraciət olunub. Bir çox bayram təbriklərində olduğu kimi bu təbrik də "bayramınız mübarək olsun" alqışı ilə tamamlanıb. Təbrik mətnində bayram özünün mənəvi ruhuna uyğun bir şəkildə dəyərləndirilərək təqdim edilib: "İslamın Allah-təala tərəfindən bəşəriyyət üçün din olaraq seçildiyi və onun müqəddəs kitabı Qurani-Kərimin nazil edildiyi Ramazan ayı dünya xalqlarının mənəviyyatı tarixinə böyük təsir göstərmiş mübarək aylardan biridir. Qəlblərindəki imanın gücü ilə ağır sınaqlardan ləyaqətlə çıxmış bacı və qardaşlarımızın fərəh və qürur hissini bir-biri ilə bölüşdürmək üçün böyük bayram büsatı qurmağa tam haqları vardır". Bu bayram təbrikində də dövlət müstəqilliyimizin bərpası ilə bayramın təşkilində baş verən müsbət dəyişmələr qeyd olunur. Bu bayram günlərində şəhidlərimizin yad edilməsinin vacibliyi vurğulanır. Dünya azərbaycanlılarının bu bayramda həmrəyliyə dəvət olunması da təbrikin məzmununda yer alır (6).

Ölkə rəhbərliyi səviyyəsində bir sıra rəsmi mətnlərin müvafiq strukturlar tərəfindən hazırlandığını düşünmək olar. Heydər Əliyevin təbriklərinin bir çoxu onun öz dilindən səslənib və bilinir ki, bu Ümummilli Liderin öz təbrik üslubudur. Digər tərəfdən təbrikləri özünün hazırlaması barədə Heydər Əliyevin çıxışı vardır. 1997-ci ilin noyabrında bəstəkar Tofiq Quliyevin 80 illik yubileyi zamanı ona "bu təbrikin bəzi sətirlərini şəxsən siz özünüz yazmısınız" deyə minnətdarlıq edən Tofiq Quliyevə "mənə aid məktubların hamısını əvvəldən axıradək özüm yazıram" deyib. Bayram təbriklərində də təkcə Ümummilli Liderin

xalq dilindən qaynaqlanan zəngin nitqinin ifadəsini deyil, eyni zamanda azərbaycançılıq məfkurəsindən gələn milli ruhun ən parlaq təzahürünü görürük.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin dərin məzmunlu və çoxsaylı bayram təbriklərinin bəzi nümunələri üzərində müşahidədən belə qənaətə gəlirik ki. bu təbrik mətnləri mərasim mədəniyyətimizin öyrənilməsi üçün dəyərli material verir. Burada lider və xalq münasibətləri, xalqın adət və ənənələrinə münasibət, bayramlar və onlarda daşınan mənəvi dəyərlər haqqında çox qiymətli fikirlər əks olunmuşdur. Mərasim folklorumuzu öyrənmək, qorumaq və gələcək nəsillərə çatdırmaq üçün Heydər Əliyevin bayram təbriklərində ifadə olunmuş müdrik fikirlərdən faydalanmaq lazımdır.

QAYNAQLAR:

1. Heydər Əliyev və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, 192 s.
2. Əliyev K. Heydər Əliev və xalqa müraciət etiketi. Heydər Əliyev və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, s. 42-56.
3. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab, Bakı, Azərnəşr, 1997, s. 482.
4. Xəlil A. Heydər Əliyev və mərasim mədəniyyətimiz. Heydər Əliyev və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı:Nurlan, 2013, s. 88-98.
5. "Azərbaycan" qəzeti, 11 fevral 2003-cü il
6. "Azərbaycan" qəzeti, 16 dekabr 2001-ci il
7. https://azertag.az/xeber/AZARBAYCAN_RESPUBLIKASININ_PREZIDENTI_HEYDAR_ALIYEVIN_NOVRUZ_BAYRAMI_MUNASIBATILA_AZARBAYCAN_XALQINA_TABRIKI-978328

QARABAĞIN SOSİAL-İQTİSADİ İNKİŞAF KONSEPSİYASI (1969-1982-Cİ İLLƏR)

THE CONCEPT OF SOCIO-ECONOMIC DEVELOPMENT OF KARABAKH DURING 1969-1982

Aydın MUSTAFAYEV
AMEA Folklor İnstitutu,
aydin.mustafayev73@gmail.com

Özət

Kiçik Qafqaz dağlarının cənub-şərqində, Kür və Araz çayları arasındakı əraziləri əhatə edən və zəngin bir tarixi keçmişi olan Qarabağ əsrlər boyu Qafqazın ictimai-siyasi, iqtisadi və mədəni həyatında mühüm rol oynamışdır. Quruçay və Xocalı-Gədəbəy mədəniyyətinə aid abidələr ilk dəfə bu torpaqlarda aşkar edilmişdir. Bu tarixi abidələr xalqın keçmişini özündə yaşadan milli sərvətlərimizdir. Əcdadlarımızın tarixən keçdikləri qəhrəmanlıq yolu həmin çoxsaylı maddi-mədəniyyət nümunələrində öz izlərini qoruyub saxlamışdır. XVIII əsrdə Azərbaycan ərazilərində onlarla feodal dövlətlər (xanlıqlar) yarandı. Qarabağ xanlığı sosial-iqtisadi, siyasi, hərbi cəhətdən digərlərindən fərqlənirdi. Məqalədə bölgənin maddi-mədəniyyət abidələrindən, folklor mühitindən, muğam sənətindən və görkəmli şəxsiyyətlərindən, o cümlədən Heydər Əliyevin 1969-1982-ci illərdə Qarabağın sosial-iqtisadi inkişaf konsepsiyası ilə bağlı həyata keçirdiyi bəzi məqamlardan bəhs edilir.

Açar sözlər: Feodal dövlətlər, Qarabağ folklor mühiti, “Bayatı-Şiraz”, Xankəndi kurqanları, sosial-iqtisadi inkişaf konsepsiyası.

Summary

Covering the territories in the south-east of the Lesser Caucasus Mountains, between the Kur and Araz rivers and having a rich historical past, Karabakh has played an important role in the socio-political, economic and cultural life of the Caucasus for centuries. The monuments belonging to Guruchay and Khojaly-Gadabay culture were first discovered in these lands. These historical monuments are our national treasure that keeps the people’s past alive. The heroic path of our ancestors has preserved its traces in those numerous material and cultural samples historically. In the 18th century dozens of feudal states (khanates) were established in the territories of Azerbaijan. Among them Karabakh Khanate was distinguished from others in economic, political and military terms. In the article it is said about the material and cultural monuments of the region, folklore environment, mugham art and prominent personalities, as well as some aspects implemented by Heydar Aliyev in connection with the concept of socio-economic development of Karabakh in 1969-1982.

Keywords: feudal states, Karabakh folklore environment, “Bayati-Shiraz”, Khankendi mounds, socio-economic development concept

Qarabağ ən qədim insan məskənlərindən (Azıxantrof) olub, Paleolit dövrünün Quruçay, sonrakı dövrlərdə Kür-Araz və Gədəbəy mədəniyyətinin ən qədim memarlıq və mədəniyyət abidələrini qoruyub saxlamışdır. E.ə. IV minilliyin sonu – III minillikləri əhatə edən (Erkən Tunc dövrünü) arxeoloji mədəniyyətlər içərisində Kür-Araz arxeoloji mədəniyyəti xüsusi olaraq dəyərləndirilir. Bu abidələrə misal olaraq Qaraköpəktəpə, Günəştəpə (Füzuli), Gültəpə (Ağcabədi), Şortəpə (Bərdə), Qarahacı (Ağdam) yaşayış yerlərini və Xankəndi kurqanlarını göstərmək olar. Həmin abidələr Qarabağın bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biri olduğunu sübut edir. Çağdaş dövrümüzə gəlib çatan həmin abidələr sivilizasiyanın çox qiymətli nümunələri kimi olduqca əhəmiyyətlidir. Qarabağda aşkar edilmiş qədim yaşayış məskənləri bu ərazilərin iqlim, relyef, fauna və florasının, bir sözlə, qədim insanların yaşaması üçün təbii şəraitinin nə qədər zəngin və əlverişli olmasını sübut edir. Qarabağın təkrarolunmaz təbiəti haqqında "Qətran Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi, Mücirəddin Beyləqani və başqalarının əsərlərində dönə-dönə rast gəlirik" (1, 418).

Feodal dövrünün memarlıq prinsiplərini qoruyub saxlayan abidələrdən biri dəniz səviyyəsindən 1300-1600 hündürlükdə inşa edilən Şuşa qalası və ona aid maddi-mədəniyyət nümunələridir. Azərbaycan tarixi əsərində yazılır: "Qarabağ tarixçilərinin verdikləri məlumata görə 1750-ci ildə Şuşakənddən bir qədər aralı, hündür, sıldırım dağ üstündə qalanın inşasına başlandı və 1756-1757-ci illərdə tikilib başa çatdırıldı. Əvvəllər qala onun banisinin adı ilə Pənahabad, sonralar isə Şuşa qalası adlandırıldı. Pənahəli xanın dövründə Şuşa ("Şuşa qalası") Azərbaycanın inzibati, ticarət və sənətkarlıq mərkəzlərindən biri oldu. Şuşadan Aran vasitəsilə Ön Qafqazı İran və digər ölkələrlə birləşdirən karvan yolu keçirdi (2, 535).

Ümummilli Lider Heydər Əliyev Şuşanın tarixi keçmişi ilə bağlı çıxışlarının birində demişdir: "... Birincisi, Şuşa Azərbaycanın böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpaqlarının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar. Bu, Azərbaycan xalqının, əcdadlarımızın yaratdığı böyük abidədir, təkcə şəhər deyil, böyük bir tarixi abidədir. Bu şəhərdə, onun ətrafında Azərbaycan xalqının bir neçə əsrlik tarixə malik olan mədəniyyəti, mədəni irsi, qəhrəmanlıq nümunələri yaranıbdır" (3, 127).

Qarabağ torpağı maddi-mədəniyyət abidələri ilə yanaşı, ədəbi yaradıcılıq mühiti ilə də zəngindir. 18-ci əsrdə Qarabağ ədəbi mühiti öz inkişaf mərhələsinə görə əhəmiyyətli dərəcədə fərqlənirdi. Qarabağ xanlığının digər xanlıqlarla, xüsusilə, Naxçıvan, İrəvan, Gəncə, Şəki və s. feodal dövlətlərlə ictimai-siyasi, iqtisadi, mədəni əlaqələrinin genişlənməsi, bəzən bu əlaqələrdə aparıcı rol oynaması Qarabağ ədəbi mühitinə də təsir edir, ədəbi mühitin təsir imkanlarını artırırdı. Tarixən bu bölgənin folklor mühiti də xüsusi dəyər daşımışdır. Qarabağ folklor mühiti janr, dil-üslub imkanlarına görə də zəngindir. Folklor mühitinin ən səciyyəvi xüsusiyyətlərindən biri xalq yaradıcılığının əsas lirik janrlarından olan bayatının bölgədə daha yayğın olmasıdır. "Bayatının vətəni Qarabağdır" fikri bu gün də aktuallığını saxlayır. Azərbaycanın digər bölgələrinə nisbətən bayatı janrı Qarabağda daha işlək olmuşdur. Təsadüfi deyil ki, Qarabağın Güləbird kəndində yaşayıb yaradan, 17-ci əsrin ustad aşıqlarından sayılan Sarı Aşıq həm də bayatı ustadı kimi məşhur olmuşdur. Milli mədəniyyətimizin müx-

təlif qatlarını özündə yaşadan Qarabağ bölgəsinin folklor mühitində bayatının yerini 18-ci əsrdə Molla Vəli Vidadi dolğun olaraq belə ifadə edir:

Külli-Qarabağın abi-həyatı,
Nərmü-nazik bayatıdır bayatı.
Oxunur məclisdə xoş kəlimatı,
Ox kimi bağrını dələr, ağlarsan!

Qarabağlı Ağabəyim ağanın da xalq tərəfindən sevilə-sevilə oxunan və günümüzədək yaddaşlardan silinməyən zəngin bayatı yaradıcılığı olmuşdur:

Mən aşiqəm, Qarabağ,
Qara salxım, qara bağ.
Tehran cənnətə dönsə,
Yaddan çıxmaz Qarabağ (1, 341).

Qarabağ mühitində musiqi sənəti zəngin bir yol keçmişdir. Muğam sənətində ənənəviliyin qorunması ilə bərabər, həm də novatorluq böyük yeniliklərə səbəb olmuşdur. Muğam sənətinin bir çox qolları yüzilliklər boyu bu bölgədə yaranıb formalaşmış və qorunmuşdur. Aşıq sənəti, muğam, xalq mahnıları, spesifik xüsusiyyətləri ilə diqqəti cəlb edir. Qarabağ torpağında bir çox şair və yazıçılar, xanəndələr, bəstəkarlar, rəssamlar, tarzanlar, musiqi ifaçıları mədəniyyətimizə öz töhfələrini vermişlər. Qurbani, Aşıq Valeh, Aşıq Pəri, Sarı Aşıq, Aşıq Səməd kimi qüdrətli sənətkarlar aşıq sənətinin ən gözəl örnəklərini Qarabağ mühitində yaratmışlar. Azərbaycan xalqının mədəniyyət tarixində xüsusi yeri olan, musiqimizin simvolu səviyyəsində dəyərləndirilən "Qarabağ şikəstəsi" də bu bölgəyə məxsusdur:

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşam üstü qoy uzaqdan
Havalansın Xanın səsi,
Qarabağın şikəstəsi.

Onu da qeyd edək ki, Azərbaycan xanəndəlik sənətində Qarabağ şikəstəsi zərbi muğam kimi geniş təşəkkül tapmışdır. Şikəstə janrı əvvəllər aşıq yaradıcılığına xas olmuşdur. Qarabağda muğam aşıq sənətini üstələdikdən sonra, xanəndələr ondan geniş şəkildə bəhrələnmişlər. Qarabağ şikəstəsinin ruhunu sevgi və məhəbbətin doğurduğu hisslər, həzin bir iztirab, sözlərini isə xalqdan alınmış bayatılar təşkil edir.

Şuşa yaddaşlarda Qafqazın musiqi konservatoriyası kimi qalmışdır. Bu şəhər Azərbaycan xalqının ictimai-mədəni həyatında böyük rol oynamış, eyni zamanda, görkəmli, istedadlı şəxsiyyətlərin, sənətkarların, şair və yazıçıların, bəstəkarların, xanəndələrin vətənidir. Azərbaycan musiqisinin ölməz korifeylərindən sayılan Cabbar Qaryağdı oğlu, Keçəçioğlu Məhəmməd, Xarrat Qulu, Hacı Hüsü, Üzeyir Hacıbəyov, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Rəşid Behbudov, Fikrət Əmirov, Niyazi, Süleyman Ələsgərov kimi sənətkarlar bu torpağın yetirmələridir. Xurşudbanu Natəvan, Baba bəy Şakir, Qasım bəy Zakir, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Əhməd bəy Ağayev, Firudin bəy Köçərli kimi şair, yazıçı və pedaqoqların Azərbaycan xalqının ədəbi və ictimai həyatında

xidmətləri böyükdür. Qarabağda doğulub, boya-başa çatmış, zəngin və əvəzolunmaz musiqi ruhunu öz qanında, nəfəsində yaşadan musiqiçilərdən bir çoxu, SSR-də və digər ölkələrdə konsertlər vermiş, milli musiqimizi doğma vətənimizdən çox-çox uzaqlarda yaymışlar. Tarixi mənbələrdə qeyd olunur ki, 19-cu əsrdə təkcə Şuşada 22 görkəmli musiqişünas və 38 xanəndə yaşamışdır. Ümumiyyətlə, Azərbaycan musiqisinin Şərq ölkələrində tanınmasında "Qacar Sürəyya Sədrəddin qızının, Əbülbaqi Zülalovun, Məşədi Cəmil Əmirovun, Keçəçioğlu Məhəmmədin, Həmid Malıbəylinin, Zülfüqar Hacıbəyovun, Hacı Hüsünün, Soltan Hacıbəyovun, Rəşid Behbudovun, Xan Şuşinskinin, Seyid Şuşinskinin, Segah İslamın, Bülbülün, Həmid Qurbanovun, Zabul Qasımın və başqalarının xidmətləri böyük olmuşdur" (4, 124).

Göründüyü kimi, Qarabağ musiqi mühitində yetişib formalaşan bu sənətkarlar musiqi havalarının yaşaması və günümüzə qədər gəlib çatmasında böyük rol oynamışlar. Belə sənətkarlardan Sadıq Mirzə Əsəd oğlu (Sadıqcan) xüsusi ilə qeyd edilməlidir. Sadıqcanın novatorluğu ilə Azərbaycan musiqisinin təsir gücü, imkanları artdı, muğam mahiyyəti etibarı ilə dəyişərək ifa üsuluna görə yeni bir pilləyə qalxdı. Sadıqcanın Azərbaycan musiqisi tarixində açdığı yeni səhifə, əslində, bir məktəb idi. Mənbələrdə Sadıqcanın bəstəkar kimi də fəaliyyət göstərməsi haqqında məlumatlar var. "Orta Segah" və "Bayatı-Şiraz" kimi muğamlara bir neçə rəng bəstələməsi onun bəstəkarlıq istedadından xəbər verir. Sadıqcanın təkmilləşdirdiyi tar təkcə Azərbaycanda – Qafqazda deyil, bir çox Şərq ölkələrində məşhur olmuşdur. Əvvəllər diz üstündə çalınan tarın sinəyə qaldırılaraq ifa edilməsi Sadıqcanın novatorluğu ilə baş verdi. O, milli musiqi alətlərimizin tacı olan tara cingənə və kök simlər əlavə edərək simlərin sayını 5-dən 11-ə çatdırdı. Tarda virtuoz oyunların imkanlarını genişləndirdi. Sadıqcan Azərbaycan muğamında "Segah" və "Mirzə Hüseyn Segahı"nı təkmilləşdirdi. Azərbaycan muğamında "Mahur-Hindi", "Orta Mahur", "Zabul Segah", "Xaric Segah", "Mirzə Hüseyn Segahı", "Yetim Segah" və "Çoban Bayatı"nın yaranması Sadıqcanın təkmilləşdirdiyi Azərbaycan tarının imkanları ilə bağlıdır.

Qarabağ dünyada bəşər sivilizasiyasının ilkin meydana gəldiyi ərazilərdən biri kimi (Azıx mağarası) tanınır. Əcdadlarımızın tarixən keçdikləri qəhrəmanlıq dolu şərəfli yollar qədim yaşayış məskənlərində və çoxsaylı maddi-mədəniyyət nümunələrində öz izlərini qoruyub saxlamışdır. Heydər Əliyev Şuşanı abidələr şəhəri hesab edirdi. "1970-ci illərdə Şuşa şəhərinin inkişafı üçün bir neçə xüsusi qərar qəbul edildi. Bunlardan biri Azərbaycan KP MK-nin və Azərbaycan Nazirlər Sovetinin 4 noyabr 1976 cı ildə "Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında" qərarı idi (4, 118).

Onu da qeyd etmək yerinə düşər ki, 1923-cü ildə Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması ilə əlaqədar bu bölgədə Azərbaycan hökumətinin nəzarəti xeyli zəifləmişdir. Keçmiş vilayətin tərkibində ermənilər say etibarı ilə üstünlük təşkil edirdilər. Bu say üstünlüyü bir neçə səbəbdən irəli gəlirdi. Birincisi, Çar Rusiyası bölgəni işğal etdikdən sonra 100 minlərlə erməni qonşu ölkələrdən gətirilərək bu torpaqlarda məskunlaşdırıldı. Sonrakı dövrlərdə – 1905, 1915, 1918-1920-ci illərdə Yuxarı Qarabağ bölgəsindən minlərlə Azərbaycan türkü sıxışdırılıb çıxarıldı və onların obalarında, kəndlərində yenə də ermənilər məskunlaşdırıldı. Əhalinin say nisbətindəki ən əsas səbəblərdən biri də odur ki, muxtar vilayət yaradı-

lan zaman keçmiş Şaumayan rayonunu (Ağcakənd) çıxmaq şərtilə, Qarabağda olan bütün ermənilər, yəni erməni yaşayan kəndlər, qəsəbələr vilayətin tərkibinə verildi, Azərbaycanlılar isə əsasən, vilayətdən kənar qəzalara aid edildilər. Məhz bu səbəbdən Yuxarı Qarabağ bölgəsində (keçmiş DQMV) əhalinin say nisbətində süni şəkildə böyük fərq yaradıldı.

Heydər Əliyev Azərbaycan Mərkəzi Komitəsinin Birinci Katibi seçilən andan Yuxarı Qarabağla bağlı bir sıra əməli tədbirlər görməyə başladı. Ağdam-Xankəndi dəmir yolunun çəkilməsi, Xankəndində Azərbaycan Pedaqoji İnstitutunun filialının açılması, Xankəndi şəhərində hiss olunacaq dərəcədə yeni yaranan iş yerləri azərbaycanlıların Xankəndi şəhərinə axınını gücləndirdi. Qısa bir dövrdə Yuxarı Qarabağda iqtisadi dirçəliş baş verdi ki, bu da ermənilərin tez-tez Moskva qarşısında qaldırdıqları "Dağlıq Qarabağ iqtisadi cəhətdən geri qalır, bu böhranı ancaq Ermənistan SSRİ-yə birləşdirməklə aradan qaldırmaq olar" bəhanəsinin qarşısını aldı. Bütün bunlara baxmayaraq, siyasi fəaliyyəti dövründə əsassız olaraq ermənіləri müdafiə edən M.Qorbaçov müsahibələrinin birində deyir ki, 80-ci illərdə Azərbaycan hökuməti Qarabağa fikir vermirdi. Hətta Qarabağ ermənilərinin Ermənistanla əlaqə saxlamağına belə şərait yox idi. Qarabağ maliyyə ilə də təmin edilmirdi" (3, 66).

Heydər Əliyev Qarabağın o zamankı vəziyyəti ilə bağlı düşüncələrini belə ifadə edir: "...Dağlıq Qarabağda tez-tez olurdum. Sosial-iqtisadi inkişaf səviyyəsinə görə Dağlıq Qarabağ Muxtar Vilayətinin göstəriciləri Azərbaycan və Ermənistan üzrə olan orta respublika göstəricilərini üstələyirdi" (3, 64). Xüsusilə Şuşa şəhərinin sosial-iqtisadi və mədəni həyatının dirçəldilməsi üçün əməli addımlar atıldı. Bütün bu tədbirlər nəticəsində bölgədə Azərbaycanlıların sayı xeyli artdı.

"Azərbaycan SSR Nazirlər Sovetinin 10 avqust 1977-ci il 280 saylı qərarı ilə Şuşa şəhəri Tarixi Arxitektura Qoruğu elan edildi. Həmin qərara görə Şuşada dövlət tərəfindən qeydə alınan 187 tarixi abidə, 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, 2 kilsə, qala divarları, 21 Sovet dövründə yaradılmış abidə, 190 mühafizə zonası, 9 qala bürcləri qorunmağa və bərpa edilməyə başlandı (4, 119).

Şuşada Molla Pənah Vaqifin qəbri üzərində məqbərə inşa etmək, Natəvan, Üzeyir Hacıbəyov, Bülbül kimi böyük sənətkarlara büst ucaltmaq qərarını Heydər Əliyev vermişdir. Bu və ya digər tədbirlər ciddi bir hadisə olaraq Şuşanı erməni şəhəri kimi təqdim etmək istəyən əbədi və əzəli düşmənlərimizə və onların havadarlarına mane oldu. Heydər Əliyevin qətiyyətli iradəsi nəticəsində ermənilər və havadarları öz istəklərini həyata keçirə bilmədilər. Bütün bu aparılan siyasətin nəticəsi olaraq 70-ci illərdə Şuşa müqəddəs şəhər olaraq Vətən obrazı kimi yaddaşlarda canlanırdı.

Ulu Öndər Heydər Əliyev 1969-1982-ci illərdə Qarabağa dəfələrlə səfərlər etmiş, bölgənin sənaye və iqtisadi potensialını formalaşdırmışdır. 1976-cı ildə Tərtərçayın üzərində, keçmiş Ağdərə, indiki Tərtər rayonu ərazisində inşa edilmiş Sərsəng su anbarının yaradılması Qarabağda kənd təsərrüfatının, iqtisadiyyatın köklü inkişafına səbəb oldu. Ümumi su tutumu 560 mln m^3, bəndinin hündürlüyü isə 125 m. olmaqla ən hündürbəndli su anbarlarından biridir. Sərsəng su anbarı respublikanın 7 rayonunun (Ağdərə, Tərtər, Ağdam, Bərdə,

Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın əkin sahəsini suvarmaq məqsədilə yaradılmışdır. "1970-ci illərdə Heydər Əliyevin göstərişi ilə ayrılan xüsusi vəsait hesabına Xankəndi tikiş fabrikində əlavə korpuslar inşa edildi. Köhnə dəzgahlar yeniləri ilə əvəzləndi. Belə bir fabrikin DQMV–də fəaliyyəti və onun lazım olan şəraitdə təmin edilməsi dövlətimizin bölgəyə göstərdiyi çox böyük qayğının nəticəsi idi. Fabrikin istehsal etdiyi məhsullar nəinki respublikamızda, keçmiş SSRİ məkanında, hətta ittifaqın hüdudlarından kənarda da məşhur idi (4, 28).

Bildiyiniz kimi, 2023-cü il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Heydər Əliyev ili" elan olunmuşdur. İl ərzində həm respublikamızda, həm də müxtəlif ölkələrdə bir çox tədbirlər keçirilir və keçiriləcəkdir. Heydər Əliyev hər zaman doğma vətəninə, öz xalqına sədaqətlə xidmət etmişdir. Ordu quruculuğu, iqtisadi islahatlar, milli-mənəvi dəyərlərin qorunması, gənc nəslin vətənpərvərlik ruhunda böyüməsi kimi problemlərin həllində Heydər Əliyevin xidmətləri əvəzsizdir. Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında quruculuq işləri sürətlə gedir, bu torpaqlarda həyat yenidən canlanır. Təqribən 2070 il əvvəl Pənahəli xan tərəfindən salınan Şuşa qalası – Şuşa şəhəri bu gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən yenidən qurulur.

QAYNAQLAR:

1. Qarabağnamələr (2-ci kitab). Bakı,Yazıçı, 1991, 450 səh.
2. Azərbaycan tarixi, Bakı Dövlət Nəşriyyatı, Bakı-1994, 688 səh.
3. Hacıyev Q. Heydər Əliyevin Dağlıq Qarabağa erməni iddialarına qarşı mübarizəsi, Bakı, Təknur, 2014, 400 səh.
4. Məmmədov N. Qarabağın inkişaf konsepsiyası, Bakı, Optimist MMC 2023, 304 səh.

HEYDƏR ƏLİYEV: MİLLİ KİMLİYİMİZİN QÜRUR ÜNVANI

HEYDAR ALIYEV: AN EXAMPLE OF PRIDE IN OUR NATIONAL IDENTITY

Ayətxan ZİYAD (İSGƏNDƏROV)
ADPU-nun elmi işçisi,
Azərbaycan yazıçılar və jurnalistlər birliklərinin üzvü,
httrs://orcid.orq/0000-0002-0034-6736,
ayetxanziyad@mail.ru

Özət

Əsl rəhbər, hökmdar, hakim kim ola bilər və necə olmalıdır?

Yunan filosofları Sokratla Platonun bu məzmunda mühakimələrinə diqqət yetirək: "...bəzi adamlar heç bir istedada malik olmadığları halda dövləti idarə etmək sahəsində məharət sahibi olduqlarından danışırlar. Heç kəs dənizdə belə olmadığı və gəmi sürməyi bacarmadığı üzündən gəmiçiliyə cəsarət eləmədiyi halda, qəribədir ki, hər yerindən qalxan bir an belə tərəddüd etmədən çox asan iş kimi dövlətə başçılıq etməyə can atır. Fleytaçılıq sənətinə böyük zəhmət hesabına yiyələnmənin zəruri olduğunu bir adam belə danmadığı halda, bir nəfər belə tapılmır ki, şəhəri idarə etmək üçün əvvəlcədən böyük hazırlıq keçməyin lazım gəldiyini etiraf etsin", – yazır Sokrat.

Platon Sokratdan bir qədər irəli gedərək problemi daha sərt və aydın formatda qoyaraq rəhbərin ümumi kütlədən fərqli cəhətlərə – xüsusi istedada və bacarığa, təcrübəyə, idarəetmə qabilliyətinə malik olması qənaətini irəli sürür. Bu mənada onun Homerə etdiyi müracıət diqqət çəkir: "Homer, əgər sən belə müdriksən, de görək, nə vaxtsa bir gözəl qanun kodeksi yazmısanmı? Hər hansı bir dövlət quruculuğu işlərinin əsasını qoymusanmı? Elə bir müharibə olubmu ki, sənin köməyinlə qələbə ilə bitsin?".

Bu mühakiməyə Heydər Əliyevin baxışları ilə diqqət yetirək: "Mən öz üzərimə, dediyim kimi, böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, Azərbaycan dövlətini möhkəmləndirim, onun müstəqil dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim".

Məqalədə şəxsiyyətin ucalığının zamana görk olması və bu ucalığın əldə edilməsi üçün insanın öz tərcümeyi-halına hansı "naxışları" vurduğu problemi açıqlanır.

Açar sözlər: Milli kimliyimizin qürur ünvanı, tərcümeyi-hal, dövlətçilik konsepsiyası, müdrik, lider, dünyanı dərk etmək.

Summary

Who can be a real leader, manager, judge and how?

In this context, let us draw attention to the following judgments of the Greek philosphers Socrates and Plato: "...some speak of their ability to rule the state even though they have no power". But not a single person accepts that great preparations must be made in order to rule the city" writes Socrates.

Going a little further than Socrates, Plato put the problem more strictly and more clearly, suggesting that the leader has different aspects from the general population - special abilities and skills, experience, managerial ability. In this sense, it is remarkable that he challenged Homer: "Homer, if you are so clever, let's see if you have ever written a good code." Have you started any nation building work? Has there ever been a war that ended in victory with your help?"

Let's draw attention to this judgment with the views of Heydar Aliyev: "As I said, I place great responsibility on myself. The responsibility is to strengthen the Azerbaijani state, to ensure its existence as an independent state and to unite the Azerbaijani people".

The article explains the problem of personality size becoming visible over time and what "patterns" a person puts in their biography to achieve that size.

Keywords: A shining example of our national identity, biography, concept of state, wise, leader, understanding the world.

GİRİŞ

Əsl rəhbər, hökmdar, hakim kim ola bilər və necə olmalıdır?

Yunan filosofları Sokratla Platonun bu məzmunda mühakimələrinə diqqət yetirək: "...bəzi adamlar heç bir istedada malik olmadıqları halda dövləti idarə etmək sahəsində məharət sahibi olduqlarından danışırlar. Heç kəs dənizdə belə olmadığı və gəmi sürməyi bacarmadığı üzündən gəmiçiliyə cəsarət eləmədiyi halda, qəribədir ki, hər yerindən qalxan bir an belə tərəddüd etmədən çox asan iş kimi dövlətə başçılıq etməyə can atır. Fleytaçılıq sənətinə böyük zəhmət hesabına yiyələnmənin zəruri olduğunu bir adam belə danmadığı halda, bir nəfər belə tapılmır ki, şəhəri idarə etmək üçün əvvəlcədən böyük hazırlıq keçməyin lazım gəldiyini etiraf etsin", – yazır Sokrat.

Platon Sokratdan bir qədər irəli gedərək problemi daha sərt və aydın formatda qoyaraq rəhbərin ümumi kütlədən fərqli cəhətlərə – xüsusi istedada və bacarığa, təcrübəyə, idarəetmə qabilliyətinə malik olması qənaətini irəli sürür. Bu mənada onun Homerə etdiyi müracıət diqqət çəkir: "Homer, əgər sən belə müdriksən, de görək, nə vaxtsa bir gözəl qanun kodeksi yazmısanmı? Hər hansı dövlət quruculuğu işinin əsasını qoymusanmı? Elə bir müharibə olubmu ki, sənin köməyinlə qələbə ilə bitsin?".

"Ulu Öndər Heydər Əliyev siyasətinin müdriklik gücü" adlı məqaləsində bu fikirləri gündəmə gətirən fəlsəfə üzrə elmlər doktoru Xatirə Quliyeva yazır: "Problemə bu tarixi tipoloji qiymətləndirmələr kontekstindən və eləcə də müasir politoloji aspektlərdən yanaşdıqda xalqımızın görkəmli şəxsiyyəti Ulu Öndər Heydər Əliyevin yeritdiyi idarəçilik siyasəti müdriklik keyfiyyətləri ilə diqqəti cəlb edir. Həm də xüsusilə vurğulamalıyıq ki, Heydər Əliyev müdrik siyasətçi Lider zirvəsinə heç də təsadüfi, "anidən" deyil, pillə-pillə, ömür sınaqları və iş təcrübələrindən inamla çıxmaqla, yüksək peşəkarlığa yiyələnməklə ucalmışdır. Ulu Öndər Heydər Əliyev siyasətinin müdriklik gücü Milli Dövlət ideyasını şərtləndirən ən əsas qayə, əlbəttə ki, onun milli Lider missiyası idi və o, bu missiyasını nəinki ölkəmizin müstəqillik əldə etdiyi mərhələdəki siyasi fəaliyyətində, hətta sərt totalitar sovet imperiyasında ən yüksək siyasi kürsülərdə təmsil olunduğu dövrdə nəhəng bir dövləti idarəetmə siyasətində xüsusi diqqətdə saxlamış, öz məqsəd və amalı olaraq dərk edib bütün qüvvəsilə hə-

yata keçirmişdir. Bu ağır və ikiqat məsuliyyətli işin öhdəsindən o, məhz milli lider şəxsiyyətindən irəli gələn güclü iradə, mətinlik, qəhrəmanlıq keyfiyyətlərinin cəmləndiyi müdrik siyasət vasitəsilə gəlmişdir" (4).

Ona görə ki, Heydər Əliyev ruhən, mənən XX əsrin vətəndaşları içərisində sıradan biri deyildi. Sıradan bir ömür sahibi olsaydı, Onun da tərcümeyi-halı eynilə statistik göstəricilər tərzində (*filan vaxt doğuldu, filan vaxt orta, yaxud ali təhsil aldı, filan vəzifələrdə işlədi və s. bu kimi anket cavablandırmaları ilə*) qələmə alınıb sıradan bir tərcümeyi-hal kimi öz inşasını taparaq arxivlərdə saxlanc ediləcəkdi. Ancaq O, qucağında göz açdığı, havasından udub, çörəyindən yediyi Azərbaycanını öz əməlləri ilə başının tacı ucalığında gördü, adiliklərin sırasından çıxarıb dünyaya tanıtdı, dünyanı Azərbaycanı tanımağa, onunla hesablaşmağa məcbur etdi, "Zaqafqaziya regionunda, Avropa qitəsində və dünyada layiqli yer tutan Azərbaycanın şöhrətini öz fəaliyyəti ilə artırmış" oldu (*Leonid Kuçma*).

"Belə bir kəlam var: İnsan ağac əkməli, ev tikməli və oğul böyütməlidir. Heydər Əliyev bu işlərin hamısını görmüşdür: Heydər Əliyev öz ömrü boyu çiçəklənən "Azərbaycan" adlı bir bağ salmışdır. Heydər Əliyev öz ömrü boyu adı "Müstəqil Azərbaycan" olan bir ev qurmuşdur. Heydər Əliyev onun şərəfli və məsuliyyətli işini bu gün davam etdirən, Azərbaycan xalqının gələcəyini etibar etdiyi ləyaqətli bir oğul böyütmüşdür" (*Villem van Vout, Rotterdam*).

Məqalədə şəxsiyyətin ucalığının zamana görk olması və bu ucalığın əldə edilməsi üçün insanın öz tərcümeyi-halına hansı "naxışları" vurduğu problemi açıqlanır.

ARAŞDIRMA

Dağdan uzaqlaşdıqca, dağ daha aydın görünür. Heydər Əliyevdən 20 il uzaqlıqda bir məsafədə ünvan tutduğumuz indiki dönəmdə Onun Azərbaycanımız üçün hansı sınaqlardan keçdiyi daha şəffaf görünməkdədir. Gün-gün daha aydın görünməyə başlayır ki, bugünkü Azərbaycanımızın dövlətçilik tarixini yazan, yaradan və onu sabahkı nəsil üçün yazılı abidəyə çevirən məhz Heydər Əliyev olmuşdur. Onun işi, peşəsi, əməlləri - bütövlükdə ömrü – Azərbaycan idi. 80 illik yaşamının 33 ilini bütün çalarları ilə Heydər Əliyev Azərbaycan xalqının olub. Sözün tam mənasında Heydər Əliyev – BÜTÖV AZƏRBAYCAN idi. O, bəşəriyyətə YENİ AZƏRBAYCAN bəxş edib.

"Əgər bütövlükdə bəşəriyyəti idarə etmək üçün bir prezident tələb olunardısa, o şəxsiyyət məhz Heydər Əliyev ola bilərdi. Ancaq neyləyəsən ki, taleyinə kiçicik Azərbaycanı idarə etmək qisməti düşüb". İlk dəfə 1995-ci ildə dilə gətirdiyim bu kəlmələr zaman gəldi, özünün təsdiqini tapdı. Süleyman Dəmirəlin (*Türkiyə*) söylədiyi kimi, Heydər Əliyev "təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirdiyi ən məşhur dövlət xadimlərindən", Marqaret Tetçerin (*İngiltərə*) fikirlərinə istinad etsək, "müasir zəmanəmizin görkəmli siyasi xadimlərindən" biri oldu. Eduard Şevardnadze (*Gürcüstan*) Heydər Əliyevi "XX əsrin lideri" qismində dəyərləndirir, İslam Karimov (*Özbəkistan*) belə bir dövlət başçısı olduğu üçün Azərbaycan xalqını "xoşbəxt xalq" hesab edirdi.

Adını əməlləri ilə dünyanın görkəmli şəxsiyyətləri sırasına yazan Heydər Əliyev öz ölümü ilə hətta ölümü də şöhrətləndirdi. O, bəşəriyyətin diqqətini öz ölümü ilə təzədən Azərbaycana yönəltdi. Bəlkə də dünyanın bütün prezidentləri, yaxud bu gün hakimiyyətə

gəlmək iddiasında olanlar da Heydər Əliyevə qibtə etdilər ki, dünyadan köçəndə də gərək dünya səni belə təmtəraqla haqq dünyana yola salsın.

İnanırıq ki, bu gün "mən azərbaycanlıyam" deyən hər kəsin ruhunda ağrı yaşadacaq bir Heydər Əliyev itkisi, Heydər Əliyev boşluğu yaşanmaqdadı. Respublikamızda AXC-Musavat cütlüyünün hakimiyyətdə olduğu və çox kişinin "Heydər Əliyev" adını çəkməyə iqtidarı çatmadığı bir zamanda, şaxtalı qış günlərində paltosunun yaxalığında müasir Azərbaycanın Dövlət bayrağını və Heydər Əliyevin fotosunu qürurla gəzdirən, Heydər Əliyevin ölümünü bütövlükdə Azərbaycan üçün faciə qədərində qəbul edən, zamanında Dövlət Teleradio Verilişləri Şirkətinin efir koordinatoru işləmiş Zərnişan (Akifə) İsgəndərova deyir: "*Bir atam Abduləzim, dayım İmran dünyadan köçəndə belə ağlamışam, bir də indi, Ümummilli Lider Heydər Əliyev dünyasını dəyişəndə...*

Heydər Əliyev mənim yaddaşımda ömrüm boyu bu sayaq yazılı qalacaq: Azərbaycan Dövlət radiosunun koordinator otağına daxil olandakı kimi gülərüz! Şirin təbəssümü, xoş kəlmələri ilə insanın ruhuna rahatlıq gətirən, hər kəsə qayğı ilə yanaşan, hər kəsin həyatı, güzaranı ilə maraqlanan! Məndən hansı işin sahibi olduğumu soruşanda və mən qürurla, "Azərbay can Dövlət Radiosunun efir koordinatoruyam" kəlmələri ilə onun sualını cavablandıranda, zarafatyana söylədiyi "daha deginən Azərbaycan radiosunun padşahıyam da" kəlmələri yaddaşımda əbədi yazılı qalıb.

Onun "Mən həyatımın qalan hissəsini də xalqıma bağışlayıram" deməsi təsadüf deyil. O, doğrudan da, bütün ömrünü xalqına həsr edib getdi. Elə bu səbəbdən də bu itki onunla ünsiyyətdə olanı da, olmayanı da, daşı da, qayanı da göynədir. Azərbaycan dünyasında bu itkinin yeri hələ çox görünəcək. Onun ruhu hələ çox illər başımızın üzərində dolaşacaq, memarı və qurucusu olduğu Azərbaycanımızın bundan sonrakı tərəqqi yolunu bir növ nəzarətdə saxlayacaq.

Belə şəxsiyyətlər yüz, iki yüz ildə bir doğulur. Heydər Əliyev elə parlaq şəxsiyyətdir ki, onun yoxluğunu təsəvvür etmək mümkün deyil. O, xalqımız, dövlətimiz üçün özündən sonra elə əməllər, izlər qoyub ki, sadalamaqla tükənməz. Heydər Əliyev həm də xoşbəxt atadır. Ona görə ki, O, Azərbaycan xalqına İlham Əliyev kimi dünyagörüşlü, Heydər Əliyev siyasətinə tam yiyələnmiş, o "məktəb"dən dərs almış, müdrikləşmiş intellektli bir oğul bəxş edib" (3).

Kimliyindən asılı olmayaraq - istəyir iqtidar olsun, istəyir müxalifət – insan arxalı olanda (*qarşısında atasını gördükdə*) daha güclü-qüdrətli, daha dəyanətli-əzəmətli olur, atası ilə mübahisədən, mübarizə və münaqişələrdən həzz alır! Sizcə gücü, qüvvəti ona verən elə atanın özü deyilmi?

Mən Ayətxan Ziyad bir söz, qələm sahibi olaraq Azərbaycanda "müxalifət" deyilən qüvvələrin qorxduğunu (*sarsıldığını*) iki dəfə müşahidə etmişəm.

İlk dəfə Ulu Öndər Heydər Əliyev Klivlend klinikasında ürəyindən cərrahiyyə əməliyyatı keçirəndə... O vədələr müxalifətin üstünə elə bil su ələnmişdi. Üzünə sarılıq çökmüş, ürəyinə xof dolmuşdu. Bu, müxalifətin Heydər Əliyev kimi bir dühanı, mübarizələrdən yorulub-usanmaq bilməyən bir şəxsiyyəti siyasət meydanında itirmək qorxusu idi. İndi onlar özlərinin bacarmadıqlarını, araya-ərsəyə gətirə bilmədiklərini kimdən tələb edəcəkdilər? Çünki yer üzündə tələb etməkdən, müxalif mövqedə dayanmaqdan rahat olanı yoxdur. Tələb etməyə nə var?! Cəsarətin çatır tələb iddiasında olduğunun bircəciyini özün hasilə yetir.

Bax, çətini budur. Çətini xəyalında hər hansı mülkün, imarətin, sarayın layihəsini görmək yox, onun tikintisinə başlamaq, icrasına nail olmaqdır...

Müxalifətin ürəyinə xof düşdüyünü mən ikinci dəfə bir də 2003-cü il dekabrın 12-də gördüm – Ümummilli Lider dünyasını dəyişəndə. Özünə "müxalifət" adını qoymuş düşərgənin nə qədər müddət hənirtisini içində boğub cınqırını çıxartmadığının hamımız müşahidəçisi olmadıqmı?

Heydər Əliyev kimi dühanın, mütəfəkkirin, siyasi xadim və dövlət qurucusunun Azərbaycan dünyası üçün itkisinin nə demək olduğunu hamı yaxşi dərk edir. Yaxşı başa düşür ki, Heydər Əliyev itkisi yalnız Azərbaycanın deyil, bəşəriyyətin dövlət quruculuğu məktəbinin itkisidir.

İllər ötəcək. Bugünkü ağsaqqal və orta nəsil, hətta Heydər Əliyevlə əl tutub salamlaşmaq imkanı əldə etmiş o vaxtkı azyaşlılar belə Ulu Öndərlə bağlı yaddaşlarında əbədi xatirə kimi yaşatdıqları həqiqətləri zaman-zaman nağıllara, əfsanələrə döndərəcək, tarixiləşdirəcəklər. Hər kəs ömrünün hansı anında isə hansı məsələninsə həllini araşdırdığı zaman "papağını qənşərinə qoyub" özü özünə sual edəcək: görəsən belə məqamda bu müdrik insan necə hərəkət edər, hansı mövqedə dayanardı?

Göründüyü kimi, tərcümeyi-hal insanı bəzəmir. Axı, Heydər Əliyev də dünyaya gələndə dünyamızın adi sakinlərindən, Azərbaycanın adi vətəndaşlarından biri olub: orta və ali təhsil alıb, yaşıdları kimi sıradan biri olaraq əmək fəaliyyətinə başlayıb. Ancaq zaman-zaman bu adiliyin çərçivəsini necə qırıb ondan ayrılıbsa, hansı sıçrayışla fenomen səviyyəsinə ucalıbsa, Azərbaycan xalqı düz 33 il öz taleyini Heydər Əliyevdən, Heydər Əliyev də öz taleyini onun üçün hər kəsdən əziz olan doğma Azərbaycanından, Azərbaycan xalqından ayrı bilməyib.

Taleyimizdə Heydər Əliyev yoxluğu hələ uzun illər zaman-zaman özünü daha dərindən göstərəcək. Axı Azərbaycan xalqının üç nəslinin tale yolu Heydər Əliyevin 33 illik tale yolundan keçib. Məqalə müəlliflərindən biri olan şəxsən mən Ayətxan Ziyadın 70 illik ömrünün bütün anlaqlı yaşam mərhələləri bu müdrik insanın hakimiyyətdə olduğu illərə düşüb, onun idrakından dərs alıb, onun ideologiyası ilə silahlanıb.

55 il geriyə qayıdaq, mən orta məktəbi bitirdiyim 1969-cü ilə, daha dəqiq desək, həmin il iyul ayının 14-nə. Heydər Əliyev Azərbaycana rəhbərliyə göndəriləndə 46 yaşı vardı. İnsan ömrünün həm kamilləşən, həm də tükənmək bilməyən enerjili yaş dövrü. Biz Heydər Əliyev enerjisinin tükənməz olduğunu həyatının sonrakı 33 ilində açıq-aşkar gördük. Bu 33 ilin 23 ilini bilavasitə doğma Azərbaycanının çiçəklənməsinə, dünyaya inteqrasiyasına və tərəqqisinə həsr edibsə, təqribən 10 ilində keçmiş SSRİ paytaxtında 15 respublikaya rəhbərlik edənlərdən biri olub. Zamanında dünyaya meydan oxuyan SSRİ hara, 8 milyonluq kiçik bir dövlətin *(Azərbaycanın)* övladı hara. Bu, rus xalqının Heydər Əliyev adı qarşısında etirafı, Azərbaycan xalqı önündə sitayişi idi – Moskva, Qızıl Kreml Azərbaycan oğlunun qarşısında əlinin arxasını yerə qoymuşdu…

Bu mənada deyə bilərik ki, Heydər Əliyev Azərbaycan dünyasında üç nəslin taleyindən keçib: 1 – 1969-cu ildə hakimiyyətə gələndə müdriklik yaşında olanlar onun ideologiyasından bəhrələniblər. 2 - həmin dövrdə, məsələn, mən Ayətxan Ziyad kimi 1969-cu ildə (yaxud bunabənzər zaman civarında) orta təhsilini başa vuranlar və deməli, bütünlüklə Heydər

Əliyev ideologiyası ilə silahlananlar indi müdriklik yaşındadırlar. 3 – Heydər Əliyev ideologiyasından dərs alan o zamanın məktəbyaşlıları. Zaman gələcək, Onun zamanındakı məktəbyaşındalar da bizim hər birimiz kimi Heydər Əliyevin müasiri olmaları ilə fəxr edəcəklər (3).

NƏTİCƏ

Məqalənin əvvəlində "əsl rəhbər necə olmalıdır? sualını Sokratla Platonun qənaətləri ilə cavablandırmışdıq. Platonun Homerə müraciətlə ünvanladığı mülahizələri təkrar xatırlayaq: "Homer, əgər sən belə müdriksən, de görək, nə vaxtsa bir gözəl qanun kodeksi yazmısanmı? Hər hansı dövlət quruculuğu işinin əsasını qoymusanmı? Elə bir müharibə olubmu ki, sənin köməyinlə qələbə ilə bitsin?"

Bu mühakiməyə Heydər Əliyevin baxışları ilə diqqət yetirək: "Mən öz üzərimə, dediyim kimi, böyük məsuliyyət götürmüşəm. Məsuliyyət də ondan ibarətdir ki, Azərbaycan dövlətini möhkəmləndirim, onun müstəqil dövlət kimi yaşamasını təmin edim və Azərbaycan xalqını birləşdirim"(1).

Heydər Əliyev qarşıya qoyduğu vəzifələri həyata keçirmək üçün neylədi?

İlk növbədə vətəndaş müharibəsi və yadelli işğalının, Atəşkəsə nail olmaqla 6 il uzanan (*1988-12 may 1994*) Ermənistan, Azərbaycan – Dağlıq Qarabağ münaqişəsində qan tökülməsinin qarşısı alındı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. Ardınca Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Ərzurum qaz kəməri işə düşdü. Heydər Əliyev dövlət başçısı olaraq Azərbaycanın inkişaf yolunu bunda tapdı.

"Dünya iqtisadiyyatına uğurla inteqrasiya, ölkə daxilində iqtisadi liberallaşma, kredit reytinqimizin artması, iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin yüksək mövqedə olması, büdcəmizin və valyuta ehtiyatlarımızın ildən-ilə çoxalması 1993-cü ildən etibarən Heydər Əliyev tərəfindən yeni prinsiplər əsasında qurulan iqtisadiyyatın sabitliyinin bariz nümunəsidir. Azərbaycanda qeyri-neft sektorunun uğurla inkişaf etdirilməsi də Heydər Əliyevin uzaqgörənliyinin məntiqi nəticəsidir" (2).

Bu kəlmələr isə İlham Əliyevin prezident olaraq öhdəliklərini necə yerinə yetirdiyinin göstəricisidir: "Mən 2003-cü ildə xalqa söz vermişdim ki, bu yoldan mən dönməyəcəyəm. Və son 19 ilin hadisələri onu göstərir ki, belə də oldu. Ulu Öndərin bütün tapşırıqları, bütün tövsiyələri yerinə yetirildi. O, öz siyasi vəsiyyətində demişdir ki, bir çox işlər görüldü, ancaq görə bilmədiyimiz işləri mənim davamçılarım görəcək və onu inkişaf etdirəcək. Belə də oldu. Biz onun siyasi xəttini davam etdirərək və inkişaf etdirərək güclü Azərbaycan dövləti qurduq ki, sözün əsl mənasında hər bir azərbaycanlı bu dövlətlə, doğma dövlətimizlə fəxr edir" (1).

"Heydər Əliyev – hakimiyyət ustasıdır, Heydər Əliyev – idarə etmək ustasıdır" (5).

Heydər Əliyev xalqının ürəyində, yaddaşında bu göstəriciləri ilə qalıb.

O göstəricilər ki, onların nəticəsi olaraq Heydər Əliyev öz ölkəsini dünyada tanıtmış, Azərbaycanımızı zamana görk (nümunə) etmişdir. Zaman da buna qarşılıqsız qalmamışdır. Son dərəcə həssas və ciddi, hər işə məsuliyyətli, hər sahədə nümunə, dövləti idarəetmə işində xüsusi fitri istedad və səriştəyə malik bir "məktəb", Azərbaycanın dövlət təhlükəsizliyi orqanlarında general-mayor rütbəsi almış ilk azərbaycanlı hərbçi, keçmiş SSRİ-nin siyasi

“mətbəxinə” yaxın iki azərbaycanlıdan biri olan Heydər Əliyevi xalqı üçün “Ulu Öndər”, “Ümummilli Lider”, “Heydər – xalq, xalq – Heydər”, “böyük dövlət xadimi”, “böyük siyasi lider”, “Azərbaycan üçün taleyin Tanrı payı” (*Mehriban Əliyeva, Azərbaycan Respublikasının birinci vitse prezidenti*) siqlətində qəbul etmiş, dünya liderlərinin baxışlarında “müasir zəmanəmizin görkəmli siyasi xadimlərindən biri” (*Marqaret Tetçer*), “Mərkəzi Asiyanın Corc Vaşinqtonu” (*Qrerq Lafti*), “Atatürk qədər qüdrətli bir türk” (*Büləәnd Ecevit*), “dünya miqyaslı dövlət xadimi” (*Leonid Kuçma*), “bütün türk dünyasının lideri” (*Namiq Kamal Zeybək*), “öz ölkəsinin müstəqilliyini qoruyub saxlamağı bacaran nadir şəxsiyyətlərdəndir” (*Riçard Şelbi*) ucalığını qazandırmışdır.

Heydər Əliyev TƏRCÜMEYİ-HALINA bu “naxışları” vurub. Yenidən ucaltmağa müvəffəq olduğu Azərbaycan bayrağı ilə həm doğma Azərbaycanının və Azərbaycan xalqının, həm də özünün əbədiyaşarlığını təmin edib.

Göründüyü kimi, tərcümeyi-hal insanı bəzəmir, insan tərcümeyi-halını bəzəyir.

Bu gün Azərbaycanda nə varsa, onun adı ilə bağlıdır: ölkədə sabitliyin qorunmasından tutmuş iqtisadiyyatın yüksəldilməsinə, Azərbaycanın dünyada tanınmasına qədərki bütün məqamlarda Heydər Əliyev adı məhək daşı, milli kimliyimizin qürur ünvanıdır.

QAYNAQLAR:

1. 1@leylaaliyeva.
2. Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 2013-cü il yanvar ayının 21-də imzaladığı sərəncamdan.
3. Ürək sözləri. “Hakimiyyət və Xalq” qəzeti, 10 may 2003.
4. www.science.gov.az.
5. @heyder_aliyevfan.

HEYDƏR ƏLİYEV
VƏ XALQ MƏDƏNİYYƏTİNƏ YAŞIL İŞIQ

HEYDAR ALIYEV
AND GREEN FLASH IN FOLK CULTURE

Aytən CƏFƏROVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
AMEA Naxçıvan Bölməsi,
ceferli_ayten@mail.ru

Özət

Şifahi xalq yaradıcılığı xalqın milli düşüncəsini özündə açıq-aydın ehtiva edən söz sənətidir. Bu sənətin bəşər aləminin mövcud olduğu hər dönəmdə var olması onu yaşadan xalqın dərin kökə, milli dəyərlərə, qədim təsəvvürlərə malik olması deməkdir. Və çox zaman ağız ədəbiyyatı, sözlü sənət, xalq yaradıcılığı, şifahi ədəbiyyat və s. kimi titullar qazanmış folklor xalqın qədim etik-estetik dünyagörüşünü, psixoloji aləmini ifadə etmiş, insani dəyərlər aşılayan görüşlərin təməl olduğu bir ortamda yaranıb möhkəmlənmiş, mükəmməlləşmişdir. Belə olan halda həmin folklor dünyasına məxsus örnəkləri daimiləşdirmək, uzunömürlü etmək, gələcək nəsillərə ötürmək üçün onları yaddaşlardan sətirlərə köçürmək çox vacib məsələlər olaraq özünü büruzə verir. Bu işlərin gerçəkləşməsində təkbaşına – yalnız mütəxəssis və alimlərin fəaliyyəti kifayət etmir. Bu işdə dövlətin, rəhbərliyin qayğısı mütləqdir.

Azərbaycan folklorşünaslığının inkişafı, folklor örnəklərimizin yaşlı informatorların yaddaşından toplanılıb əsil variantda nəşrə alınması, ən əsası da, onlardakı qədim estetik düşüncəyə, milli psixologiyaya xələl gətirmədən toplanıb, nəşrə alınması, gələcək nəslə ötürülməsi sovet rejiminin ölkəmizdə hakim olduğu vaxtlarda da icra olunub. Lakin bu məsələlər, Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə ölkəmizə rəhbərlik etdiyi dövrdən və bir də 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıtdığı zamandan etibarən həyata keçirilib. Çünki Ümummilli Lider xalqının kökünü, soyunu, qədimliyini ifadə edən şifahi yaradıcılıq sənətinə dərindən bələd olan, milli psixologiyanı özündə ehtiva edən folklorumuza dərin sevgi və rəğbət bəsləyən dahi şəxsiyyət idi. Odur ki, Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi tarixi dönəmlərdə bütünlükdə elm və mədəniyyət sahəsində inkişaf müşahidə olunduğu kimi, milli folklorumuzun yazıya alınması, tədqiq edilməsi kimi vacib işlərin həyata keçirilməsinə də böyük qayğı göstərilib.

Açar sözlər: *folklor, milli-mənəvi dəyərlər, şifahi söz sənəti, milli psixologiya, örnək, xalq*

Summary

Folk oral activity is an art of words that clearly contains the national thought of the people. The fact that this art exists at every time of the existence of the human world means that the people who live it have deep roots, national values and ancient ideas. And folklore, which has often acquired the titles of oral literature, oral art, folk art, oral literature and the like, expressed the ancient ethical-aesthetic worldview, psychological world of the people, emerged and strengthened and perfected in an environment where views on human values were fundamental. In such a case, it is very important to perpetuate examples belonging to the world of folklore, to make them long-lived, to transfer them from memory to lines in order to pass them on to future generations. The activities of experts and scientists alone are not enough for the realization of these works. In this case, the care of the state and management is absolutely necessary.

The development of Azerbaijani folklore studies, the collection and publication of our folklore examples from the memories of older informants in the original version, and most importantly, the collection, publication and transmission of our folkloric examples to the next generation without harming the ancient aesthetic thought and national psychology in them, were carried out even when the Soviets ruled our country. However, these issues have been implemented since the time when great leader Heydar Aliyev led our country in 1969 and returned to power for the second time in 1993. Because the leader was a genius who was deeply familiar with the art of oral creativity, which expressed the roots, descent and antiquity of his people, and had deep love and sympathy for our folklore, which included national psychology. Therefore, great care was taken to carry out such important works as recording and researching of our national folklore, as the development in the field of science and culture was observed in the historical periods under the leadership of the Great Leader in Azerbaijan.

Keywords: folklore, national-moral values, oral figure of speech, national

Hər bir xalqın tarixi keçmişi onun milli-mənəvi dəyərlərində əks olunur. Bu isə xalqın dili, ənənəsi, tarixi və s. kimi faktorlardır. Xalqın milliliyinin qorunması onun gələcəyə doğru inkişafını da təmin edir. Millətin qədim təsəvvürlərinin əks olunduğu adət-ənənələrin müasir dövrdə icrası heç də həmişə mümkün olmur. Bu mümkünsüzlük ya xalqın özünün biganəliyi, ya da o xalqın həmin dövrdə rəhbərliyində olan insanların sözügedən məsələlərə kortəbii yanaşmasından irəli gəlir. Belə olan zamanda da xalq öz milliyini, dəyərlərini mühafizə edə bilmir. Əgər rəhbər mövqedə duran insan milliyətçiliyin qorunmasını, siyasətin millilik konsepsiyasını özünə şüar etsə, onda xalq da öz uğurlu gələcəyinin təminatını mövcud dövrdə tənzimləyə bilər.

Azərbaycan xalqı əsrlər boyu öz torpağı, vətəni, milli kimliyi uğrunda mübarizə aparıb. Tarixdə elə şəxsiyyətlər olub ki, vətəninin və xalqının mənafeyi naminə bütün ömrünü

həsr edib. Türk millətinin dahisi Atatürkün fəaliyyəti və türkçülük dövlətinin istiqbalı uğrunda tarixi əhəmiyyətli mücadiləsi kökü qədim dövrlərə gedən türk xalqının gələcəyini də qarant altına aldı. Bu fəaliyyət türk millətinə böyük bir özünəinam bəxş etdi. Və türk milləti də bu dahi şəxsiyyətin dövlətin tərəqqi və yüksəlişindəki müstəsna rolu və fəaliyyətinin sayəsində xoşbəxt gələcəyə doğru addımladı.

Azərbaycan xalqı zaman-zaman dərin mücadilələrlə üzləşib. İstər sərhədlərinin müdafiəsində, istər daxili sabitliyinin qorunmasında, istər yadellilərin hücumundan və yad münasibətlərdən qorunmaq üçün Azərbaycan dövləti və Azərbaycan xalqı, demək mümkündür ki, hər tarixi dövrdə böyük mübarizələrdən üzüağ çıxıb. Təbiidir ki, uğursuzluqlar da istisna deyildir və uğursuzluğun olduğu kimi uğurlu nəticələrin də səbəbkarları olmuşdur. Uzun zamanlar ərzində başı müsibətlər çəkmiş xalqımız ağlasığmaz mübarizələrdən çox vaxt üzüağ çıxmışdır. Bu mübarizələrdə xalqın önündə gedənlərin – rəhbər mövqedə dayananların böyük rolu olub. Belə insanlar mənsub olduğu xalqın kökünə, soyuna dərindən bələd olanlardır. Onlar tarixi köklərə bələd olduqlarından məhz tarixin təhrif olunması, millətinin bəsit tarixlə üz-üzə qalmasını qəbul edə bilməyib, canlarını fəda edəcək qədər mübarizəyə atılıblar. Məhz belə şəxsiyyətlərdən biri də dahi siyasətçi, Ümummilli Lider, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyevdir.

Azərbaycan tarixində öz vətənpərvər mübarizəsi ilə xalqın taleyinin xoşbəxt gələcəyini təmin edən Ulu Öndər titulunu xalqdan qazanmış Heydər Əliyev milliliyə elə yüksək mövqedə dəyər verirdi ki, bunun ölçüyəgəlməzliyini ifadə etmək üçün bəzən sözlər yetmir.

Milli-mənəvi dəyərlərimizə çox böyük hörmətlə yanaşan, milli düşüncələrin, azca da olsa, qabardığı maddi-mənəvi dəyərləri qoruyan və mühafizə edən Liderin düşüncəsi yalnız və yalnız azərbaycançılıq ideyalarını ön planda saxlamaq idi. 1969-cu ildə dövlət başçısı kimi fəaliyyəti zamanından, sovetlərin qılıncının sağının və solunun kəsdiyi bir dövrdə o, milli düşüncəsindən qaynaqlanan fəaliyyətini də gerçəkləşdirirdi. Olduqca yüksək səviyəli idarəetmə və siyasət düşüncəsindən irəli gələrək fəaliyyətində nöqsan aramağa cəhd edən irticaçıları da O, mədəni şəkildə susdururdu. Ümummilli Liderin hakimiyyətdə olduğu kəskin sovet rejimi illəri ərzində onun fəaliyyətində prioritet məsələ azərbaycançılıqla bağlı olan məqamlar idi, hansı ki o bu məqamları çox böyük səriştə və siyasi ustalıqla işin məğzinin alt qatında yerləşdirərək həyata keçirirdi.

Ulu Öndərin hakimiyyətdə olduğu həmin dönəmlərdə Azərbaycanın bir çox regionlarında icra olunan milli bayramların keçirilməsində canlanma başlandı. Sovet rejiminin millilik ideyalarını parladan atributlarımızın məhv olunması yönündəki siyasəti həmin dönəmlərdə ən yüksək aktivlikdə idi. Rejim milli və dini dəyərlərimizin tamamilə sıradan çıxarılmasına yön almış iyrənc siyasətini həyata keçirməkdə ikən Ümummilli Liderin bu siyasəti imkan daxilində tamamilə zərərsizləşdirməyə çalışması və həm də belə bir antimilli siyasət yeridilən respublikada əsas fəaliyyətini – türkçülük ideyalarının qorunmasını həyata keçirməsi ölçüyəgəlməz vətənpərvərlik duyğularına malik olmağının təcəssümüdür. Heydər Əli-

yev məhz belə bir dövrdə dilimizin qorunması uğrunda da öz fəaliyyəti çərçivəsində mübarizə aparmışdır. Onun mübarizəsinin əyani sübutu dövlət tədbirləri və yığıncaqlarında ana dilində danışmağa üstünlük verməsi idi. Azərbaycan dilinin möhtəşəmliyini sovet carçılarının nəzərinə ürəklə çatdırmağa nail olan liderin nitqində bu dil xüsusi gözəllik qazanırdı. O, dilimizin dərinliklərinə o qədər mükəmməl şəkildə bələd idi ki, hər sözün, hər kəlmənin tarixini, az qala, əhatəli və təfərrüatlı söyləmək iqtidarında idi. Lakin sovetlərin kəskin siyasi rejimi dönəmində lider bu fəaliyyətini də olduqca ehtiyatla həyata keçirirdi. O çox yaxşı bilirdi ki, nə qədər bu yolda fədakarlıq edən ziyalıları, şair və yazıçıları irtica məhv etmişdir. Onların məhvi təkcə özlərinin, ailələrinin, yaxın qohum-əqrəbalarının deyil, həm də azərbaycançılıq ideyasının hakim olduğu Azərbaycanın gələcəyinə böyük zərbə idi. Odur ki, dahi siyasətçi bu yolda həddən artıq ehtiyatla davranırdı. Bilirdi ki, hər hansı kiçik ehtiyatsızlıq onun millilik ideyalarının gerçəkləşməsi uğrundakı üstüörtülü fəaliyyətini lazımsız vaxtda önə çıxara bilər. Bilirdi ki, kəskin sovet rejiminin apardığı antimilli siyasətin qarşısını almaq birdən-birə mümkün deyildi. O icra etdiyi işlərin daxilində millilik ideyalarının qorunmasına çalışırdı. Mədəniyyət işçilərinin, elm mütəxəssislərinin, təsərrüfat sahəsindəki fəalların əməyinin qiymətləndirilməsini ozamankı qanun içərisində o qədər mükəmməl şəkildə əridirdi ki, bəzən irticaçıların özləri belə bu məqamlar qarşısında çaşqınlıq içərisində qalırdılar. Bəli, Heydər Əliyev elə siyasətçi idi ki, ağır şəraitdə belə yenilməyərək öz amalı və məqsədi uğrunda var qüvvəsi ilə çalışaraq "Azad Azərbaycan" arzusunu gerçəkləşdirmək ideyaları ilə yaşayırdı və ömrünü də, özünün dediyi kimi, buna həsr etdi.

Heydər Əliyev milli ideyaların və qədim milli düşüncəmizin var olduğu adət-ənənələrimizin yaşaması və qorunması, gələcək nəsillərə ötürülməsi məsələlərinin vacibliyini prioritet məqsəd olaraq qarşısına qoymuşdu. Amma bunu təkcə Azərbaycan daxilində deyil, ümumtürk kontekstində həyata keçirməyin daha faydalı olduğunu gözəl bilirdi. Çünki türkün mədəniyyəti onun müasir dönəmdəki törənlərində də öz əksini tapmaqdadır. Əgər türk xalqlarına məxsus olanları qabardıb ortalığa çıxarmaq mümkün olarsa, irtica ümumtürk istəyinə nümayişkaranə şəkildə etiraz edə bilməzdi. Təbii ki, tədricən həyata keçiriləcək fəlakətlər gözlənilirdi. Lakin ümumtürk xalqlarının təqdir etdiyi və türklərə məxsus dünyagörüşü yaşadan adətlərin, bayramların keçirilməsinin türk xalqlarının hamısı tərəfindən qəbul olunmasını ən ümdə şərt kimi önə çəkirdi. Bu da irticanın müəyyən qədər susqunluğunun təmin edilməsi demək idi.

Heydər Əliyevin elmə, mədəniyyətə, incəsənətə, ədəbiyyata verdiyi dəyər azərbaycançılıq ideyaları uğrunda aparılan siyasət idi. O, "Kitabi-Dədə Qorqud" kimi xalqın qəhrəmanlıq dastanının dəyərləndirilməsi və gələcək nəsillərə ötürülməsində olduqca böyük xidmət göstərdi. Belə ki, dastanın 1300 illiyinin yaşının keçirilməsi Ulu Öndərin milli ruha, qədim etnik düşüncəyə, ulu söykökə bağlılığını və bu kökə sədaqətini açıq etiraf etdi. Və bu barədə, yəni dastanın 1300 illlik yubileyinin keçirilməsi haqqında saysız-hesabsız məqalələr yazıldı, fikirlər söylənildi. Bu, insanlarımızın xalqımızın ulu soykökünə olan dəyərdən aldığı

sevinc və minnətdarlıq dolu fikirləri idi. Ulu Öndərin "Kitabi-Dədə Qorqud" dastanına göstərdiyi qayğı mərhum professor Cəlal Qasımovu da həddən artıq sevindirmişdi. Cəlal müəllim yazırdı ki: "Ulu Öndər Heydər Əliyev, hər şeydən əvvəl, müasir Azərbaycan cəmiyyətinə onun tarixinin ən keşməkeşli dövrlərində rəhbərlik etmiş, bu cəmiyyəti beynəlxalq oyun və tələlərdən, daxili və xarici təcavüzlərdən qorumuş rəhbər, dövlət başçısıdır. Bu baxımdan, o, "Dədə Qorqud" eposuna hamıdan fərqli gözlə – yalnız alim-tarixçi, filosof kimi deyil, həm də dövlət rəhbəri, siyasi xadim gözü ilə baxa bilmişdir. Heydər Əliyevin yanaşmasında dastanın hər sözü, hər cümləsi milli dövlətçilik tarixinin əməli təcrübəsi və fəlsəfəsi ilə yoğrulmuş eposdur..." (3, s.69).

Milli dəyərləri dövlət siyasətinin əsaslarında qoruyub saxlayan Ulu Öndər çox gözəl bilirdi və bütün dünyaya da çatdırırdı ki, Azərbaycan mədəniyyətinin kökü qədimdir. Mədəniyyətimiz milli köklər üzərində yaranıb və formalaşıb. Bunları mövcud zamanda da yaşatmaq mütləqdir ki, gələcək nəsil öz kökünə şüurlu şəkildə sahib çıxa bilsin. Odur ki, milli dövlətçiliyimizin formalaşması və yaşamasında şifahi ənənəmizin çox böyük rolu və əhəmiyyəti olduğundan Ulu Öndər bu sahədə görülən işləri təqdir edir, qarşıda duran problemlərin həll olunmasında mütəxəssislərə əsl rəhbər qayğısı göstərirdi.

Qeyd edək ki, AMEA M.Füzuli adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən "Folklor" sarayı Bakı şəhərində – İçəri şəhərdə yerləşirdi. Sarayın kiçik kollektivi hələ sovet rejimindən folklorun toplanması işlərində yorulmaz fəaliyyət göstərirdilər. Xalqın milli-mənəvi sərvəti olan folklorun toplanması milli mədəniyyət və tariximizə olduqca gərəkli idi. Bunu özünə prioritet məsələ kimi qəbul etmiş ziyalılar –damarında əsl türk qanı axan alimlərimiz folklorun toplanmasına xüsusi diqqət göstərdilər. Yaşlı nəslin yaddaşında yaşayan elə dəyərli örnəklər mövcud olur ki, onların zamanında toplanması bəzən bir çox tarixi həqiqətlərin açılmasına böyük töhfə verə bilir. Mədəniyyətimizi və milliliyimizi formalaşdıran folklor örnəklərini elmi müstəviyə çıxararaq araşdırıb tədqiq etmək folklorşünasların ən ümdə borcudur. Lakin burada bütün yük təkcə alimlərin – folklorşünasların üzərinə düşə bilməzdi. Onların fəaliyyətinin uğurlu şəkildə gerçəkləşməsi, fəaliyyətlərini ümumdünya elmi auditoriyaya tanıtdırmaq üçün dövlətin qayğısına çox böyük ehtiyac var idi. Məhz Ümummilli Liderin təşəbbüsü ilə bu qayğının folklor elminə göstərilməsi bugünkü Folklor İnstitutunun yaranmasını şərtləndirdi. 2003-cü ilədək yalnız digər institutun tərkibində – Ədəbiyyat İnstitutunun kiçik bir şöbəsi olaraq fəaliyyət göstərən "Folklor" sarayı "İnstitut" statusu aldı. Ulu Öndər Heydər Əliyev 2003-cü il sarayın müstəqil "İnstitut" kimi fəaliyyət göstərməsi üçün sərəncam imzaladı. Və elə o gündən etibarən institutda Azərbaycan folklorşünaslıq elminin yaşaması və inkişafı naminə saysız-hesabsız təqdirəlayiq işlər görülməkdədir: cild-cild kitablar çap olunur, folklorşünaslığa xidmət edən elmi məqalələr yazılır, seminarlar, elmi konfrans və simpoziumlar təşkil olunur, folklor ekspedisiyaları həyata keçirilir, peşəkar kadrlar yetişdirilir və s. bu kimi böyük əhəmiyyət kəsb edən işlər həyata keçirilir.

İnstitutun əməkdaşları folklorumuzun öyrənilməsində təkcə yerli təcrübələrlə kifayətlənməyərək dünyada qəbul olunmuş prinsiplər üzrə də fəaliyyət göstərirlər.

Məlumdur ki, Heydər Əliyevin milli kimliyimizə verdiyi çox böyük töhfələrdən biri də milli mərasim düşüncəmizin bərpası məsələsidir. Bunu təkcə Novruz bayramı üzərində təqdim etsək, Ulu Öndərin milli düşüncəmizin bərpası yönündəki fəaliyyətinin mahiyyətini açıqca görmüş olarıq. Bilirik ki, sovet dövründə milli və dini bayramlarımızın, mərasimlərimizin keçirilməsində kəskin qadağalar mövcud idi. Biz bu bayram və mərasimlərimizi gizlin şəkildə qeyd edirdik. Toy mərasimlərimizdə milli düşüncəmizi təbliğ edən aşıqlarımızın ifasına uzun müddət qadağalar qoyulub. Aşıq el atasıdır, deyərlər. Xalqın dərd-sərini, ağrı-acısını, daxili iztirablarını ifadə etməkdə aşıqlarımız çox vaxt cəsarət nümayiş etdiriblər. Sovet dövründə aşıqların toylarda iştirakına qoyulan qadağalar da xalqın daxili dünyasını cəsarətlə ifadə edən aşıqların tədricən məhv olmasına yönəlmiş məqsəddən doğurdu. Bütün bunları rəhbər mövqedən çox həssaslıqla müşahidə edən Ulu Öndər aşıq yaradıcılığının inkişafına qayğı göstərirdi. Bu qayğını dahi şəxsiyyət aşıqların dövrün tələblərini ifadə edən bayram və tədbirlərdə iştirakını təmin etməklə, onları mənəvi dəyərlərin inkişafına xidmət edən, millətlərin mədəniyyətləri arasında əlaqə yaradan el sənətkarı kimi fəxri adlarla təltif etməklə, Azərbaycan aşıq sənətinin sütunlarından olan görkəmli aşıqların yubiley tədbirləri və yaradıcılıq gecələrinin keçirilməsinə şərait yaratmaqla, aşıqların sözügedən dövrdə Azərbaycana qapısı açılan xarici dövlətlərdə qastrol səfərlərində iştirak etməsini təmin etməklə həyata keçirirdi. Bütün bunlar isə milli kökümüzü ifadə edən aşıq sənətininin sovetin məhvedici siyasətinin qurbanı olmasının qarşısını kəskin şəkildə alırdı. Və Ulu Öndərin yığıncaqlardakı, tədbirlərdəki çıxışlarından aydın olur ki, bu dahi şəxsiyyətin yürütdüyü siyasətin təməlində sırf azərbaycançılıq qayəsi dayanır. Milli düşüncəmizin carçıları olan dastanlarımızın, xalq yaradıcılığı örnəklərimizin yaddaşlardan toplanaraq yazıya alınmasına xüsusi həssaslıqla yanaşırdı. Bu barədə verdiyi sərəncam və tapşırıqlardan irəli gələrək görülən işlər milli düşüncəmizə böyük töhfə idi. Ümummili Lider Azərbaycan mədəniyyətini dünya xalqlarının mədəniyyətinə qapılarını açmış mədəniyyət hesab edirdi. O heç də öz içərisində stabil şəkildə qalmır. Bu mədəniyyət köklü dəyərlər kəsb etdiyindən onun inkişafı da ümumbəşəri amillərlə çulğaşır.

Folklorşünas A.Xəlil də Heydər Əliyevin milli düşüncəmizin dayağı olan mərasimlərimizin keçirilməsinə göstərdiyi qayğıdan bəhs edərkən Ulu Öndərin mərasim mədəniyyətimizlə bağlı geniş və strateji fəaliyyətinin dörd istiqamətini qeyd edir. O yazır ki: "...müstəqliyimizi itirdiyimiz dövrdə mərasim mədəniyyətimiz ağır itkilərə məruz qalmışdır. Müstəqil dövlət olmayanda rəsmi təsisatlar və rəsmi mədəni institutlar da olmur. Çünki bu, idarə olunan bir mexanizmdir. Adətlər şəklində icra olunan mərasimlər isə öz miqyasına və təntənəsinə görə məhdud çevrəni əhatə edir. Başqa deyilişlə, el bayramları ev bayramları şəklində qeyd olunur. Bunları biz yaxın keçmişimizdə görmüşük. Heydər Əliyevin mərasim mədəniyyətimizə verdiyi töhfələrdən biri də milli mərasimlərin bərpasıdır. Əlbəttə, bu bərpa mə-

sələsi kifayət qədər mürəkkəbdir və uzun bir prosesi əhatə edir. Amma dövlət rəhbərinin təqvimi və rəqəmləri rəsmiləşdirməsi bu prosesin başlanması üçün vacib olan yaşıl işığı yandırmış olur. Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrlərdə milli mərasim və bayramlar maneəsiz olaraq keçirildi. 1970-1980-ci illərdə toylar aşıqsız, yaslar mollasız olmayıb. Milli və dini bayramlar dünyəvi bayramlarla eyni mütəşəkkillikdə qeyd olunub" (2, s.94). Həqiqətən də, Heydər Əliyev Respublika rəhbəri kimi milli və dini mərasimlərin təşkilinə xüsusi diqqət göstərirdi. Novruz bayramının Azərbaycan xalqının milli mərasim faktoru olaraq ölkə miqyasında geniş şəkildə qeyd olunması məhz Ulu Öndərin qayğısı və diqqətindən qaynaqlanırdı. Baxmayaraq ki, bayramı kəskin sovet rejimi millətlərarası ayrıseçkiliyi təbliğ edən bayram qismində təqdim edərək qeyd olunmasını qadağan etməyə çox dəfələr səy göstərib, amma Ümummilli Liderin bu bayram haqqındakı auditoriyalardakı mülahizələri qarşısında aciz qalan rejim icraçıları söz tapa bilmirdilər.

Milli-mənəvi kimliyimizi ifadə edən sözlü yaradıcılığımızın zaman keçdikcə yaddaşlardan silinməsi real faktdır. Düzdür, bu, olduqca böyük təəssüf hissi doğurur, amma gerçəklik də budur ki, milli düşüncəmizi özündə qoruyub saxlayan sözlü yaradıcılıq örnəklərimizi zamanında toplamadıqda, təbiidir ki, itib-batacaq. Və kəskin sovet rejiminin də ən ümdə vəzifələrindən biri də bu idi ki, hökmranlıq etdiyi dövlətlərdə xalqların kökünə, milliliyinə işıq salan faktları tamamilə itirib yoxa çıxarsın. Və xalqın folklor yaddaşı da müəyyən zaman daxilində qoruna bilər. Bu nümunələri yazıya alıb gələcəyə ötürmədən rejim onlardan "can qurtarırdı". Xalqın qəhrəmanlıq düşüncəsini özündə təcəssüm etdirən dastanlarımızın yazıya alınıb, tədqiqata cəlb olunmasına isə, çox hallarda icazə verilmirdi. Bu da açıq-aydın millilik və vətənsevərlik düşüncəsinin silinməsinə xidmət edən iyrənc siyasət idi. Belə bir siyasətin obyektlərindən biri də qəhrəmanlıq dastanımız olan "Kitabi-Dədə Qorqud"a qarşı aparılan antitəbliğat idi. İrtica yaxşı bilirdi ki, "Kitabi-Dədə Qorqud" dünya epos mədəniyyətinin əvəzsiz nümunələrindən olub, həm də Azərbaycanda bu mədəniyyətin parlaq örnəyidir. Akademik İsa Həbibbəyli dastanın Azərbaycan elmi və mədəniyyətinə yenidən qayıtmasında Ulu Öndərin ölçüyəgəlməz fəaliyyəti haqqında yazır: "Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra "Kitabi-Dədə Qorqud" dastanlarının ölkəmizdə milli təfəkkürün və azərbaycançılıq məfkurəsinin daha da inkişaf etdirilməsində mühüm rolu olmuşdur. Bu mənada Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin 20 aprel 1997-ci il tarixli fərmanı ilə "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyinin ölkəmizdə 9 aprel 2000-ci ildə dövlət səviyyəsində təntənə ilə qeyd edilməsi böyük sənət abidəsinin layiqli şəkildə qiymətləndirilməsi ilə bərabər, həm də milli düşüncənin, müstəqil dövlətçilik təfəkkürünün, azərbaycançılıq ideyasının daha da qüvvətləndirilib möhkəmləndirilməsinə xidmətin ifadəsidir. Eyni zamanda, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilinə ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamı ilə "Kitabi-Dədə Qorqud"un alman şərqşünası Henrix Fridrix

fon Dits tərəfindən tapılıb üzə çıxarılmasının və elmi dövriyyəyə daxil edilməsi hadisəsinin yubiley səviyyəsində geniş miqyasda keçirilməsi, 2013-cü ildə Bakı şəhərində Dədə Qorqud parkının yaradılması, Dədə Qorquda və dastan boylarının qəhrəmanlarına abidə ucaldılması həm Azərbaycan xalqının bu möhtəşəm ədəbiyyat abidəsinin dünya miqyasında təbliğinə, həm də daha dərindən tədqiq edilib öyrənilməsinə böyük imkanlar açmışdır" (1, s.17). Akademik İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin "Kitabi-Dədə Qorqud" dastanına göstərdiyi bu möhtəşəm qayğını türkçülük düşüncəmizin bərpası ilə bağlı olan ən qiymətli fəaliyyətlərdən hesab edir. Təbiidir ki, Ulu Öndərin bu fəaliyyəti heç də təəccüb doğurmur. Ona görədir ki, bu dahi siyasətçinin devizi, şüarı türkçülükdür. Lakin rejimin gözü önündə bunu açıq-aydın gerçəkləşməsinin mümkünsüz olduğunu çox yaxşı bildiyindən, bu siyasəti mövcud siyasətin daxilinə qataraq gerçəkləşdirirdi. Bu da Ulu Öndərin uzaqgörən və tədbirli siyasətçi olduğunu bir daha təsdiq edir.

Beləliklə, dahi şəxsiyyət, Ümummilli Lider, Azərbaycan xalqının Ona əbədi sevgisini ifadə edən "Ulu Öndər" titulunu qazanmış Heydər Əliyev Müstəqil Azərbaycanımızın bərpası, yaşaması, daim var olması üçün, özünün də dediyi kimi, ömrünü bu yola həsr etdi. O, bütün fəaliyyəti əsasında türkçülük düşüncəsinin yaşaması və qorunması ideyasını kəskin irtica rejimində üstüörtülü, müstəqillik dövründə isə vüqarla, əzmlə açıq-aşkar nümayiş etdirərək gerşəkləşdirdi. Bu gün Azərbaycan xalqı milli-mənəvi dəyərlərinin qorunduğu və yaşadığı Müstəqil Azərbaycanın vətəndaşıdır. Bunun üçün biz Ulu Öndərə borcluyuq. Odur ki, nə qədər Azərbaycan var, Heydər Əliyev yaşayacaqdır.

QAYNAQLAR:

1. Həbibbəyli İ. "Kitabi-Dədə Qorqud": yazılı epos və ya epopeya. Bakı: Elm, 2020, 280 s.
2. Xəlil A. Heydər Əliyev və mərasim mədəniyyətimiz// Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, 192 s.
3. Qasımov C. Heydər Əliyev və "Kitabi-Dədə Qorqud"// Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: Nurlan, 2013, 192 s.

HEYDƏR ƏLİYEV VƏ NOVRUZ BAYRAMI

HEYDAR ALIYEV AND NOVRUZ HOLIDAY

Əpoş İslam oğlu VƏLİYEV
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Folklor İnstitutu,
elyarvelisoy@mail.ru

Özət

Novruz Azərbaycan xalqının ən qədim və sevimli bayramıdır. Heydər Əliyev çıxışlarında Novruzun müqəddəs və milli bayram olduğunu qeyd etmişdir. Bu bayram həm də bütün türk dünyasında təntənə ilə qeyd olunur.

Adətən Novruza hazırlıq bayramdan bir ay əvvəl başlayır. Hər çərşənbə axşamı insanlar dörd ünsürdən birini – su, od, külək və torpaq çərşənbəsini qeyd edir. İnsanlar ev təmizliyi ilə məşğul olur, ağac əkir, yeni paltarlar tikir, yumurta boyayır, şəkərbura, paxlava, qoğal kimi şirniyyatlar, milli xörəklər hazırlayırlar. Bayram süfrəsinin bəzəyi bayram xonçasıdır. Mərkəzdə səməni olan böyük gümüş və ya mis nimçə qoyulur, ətrafına şamlar və boyanmış yumurtalar düzülür. Süfrədə, ən azı, yeddi yemək növü olur.

Novruz bayramı qədim ənənələrlə, oyunlarla zəngindir. Qədim ənənələrdən "Xıdır İlyas" (məhsuldarlıq, çiçəklənmə rəmzi), "Kos-kosa" – məzəli meydan oyunu (baharın gəlməsinin rəmzi) və falabaxma da bunlardandır. Bir qayda olaraq, bayram günlərində qapılar kilidlənmir. Bu o deməkdir ki, ailə evdədir və qonaqları qarşılamağa şaddır. Ənənəyə görə bayramın ilk günü hamı evdə olmalıdır. Xalq arasında deyirlər: "Əgər bayram günü evdə olmasan, yeddi il evdə olmayacaqsan".

Novruz bayramında Novruzla bağlı müxtəlif mahnılar oxunur, meydanlarda kəndirbazlar və pəhləvanlarla müxtəlif tədbirlər keçirilir.

Açar sözlər: Novruz, bayram, Heydər Əliyev, səməni, qırmızı yumurta

Summary

Novruz is the most ancient and favorite holiday of the Azerbaijani people. In his speeches Heydar Aliyev noted that Novruz was a sacred and national holiday. This holiday is also solemnly celebrated throughout the Turkic world.

Usually, preparation for Novruz begins a month prior to the festival. Each Tuesday people celebrate the day of one of the four elements – water, fire, wind and soil. People do house cleaning, plant trees, make new dresses, paint eggs, and make national pastries such as shekerbura, pakhlava, shorgoghal, in additional to a great variety of national cuisine. The decoration of the festive table is known as khoncha. A large silver or copper tray with

samani – green shoots from wheat seeds – is placed in the centre and candles and dyed eggs. Custom dictates that the table should be set with at least seven dishes.

Novruz holiday is rich with ancient traditions and games. “Khidir Ilyas” the symbol of productivity and blossom), “Kos-Kosa”- funny square game (the symbol of spring's coming) and fortune-telling are among them. As a rule during holidays the doors are not locked. It means that the family is home and glad to welcome guests. According to tradition, everyone should be at home on the first day of the holiday. People say: "If you are not at home on a holiday, you will not be at home for seven years."

During Novruz holiday, various songs related to Novruz are sung and different activities such as tightrope walking and wrestling take place in the public squares.

Keywords: Novruz, holiday, Heydar Aliyev, semeni, red egg

Novruz bayramı Azərbaycan xalqının qədim tarixini, milli ruhunu, adət-ənənələrini dolğun şəkildə ifadə edən böyük el bayramı, el şənliyi olmaqla yanaşı, həm də xalqımızın ən qədim, ən əziz bayramlarından biridir. Çoxəsrlik tarixə malik, xalqımızın günümüzə qədər sevə-sevə yaşatdığı, qoruyub gələcək nəsillərə ötürdüyü, müqəddəsləşdirdiyi Novruz bayramı özündə həyatı, yaranış və dirçəlişi, milli birliyi, təbiətin füsunkar gözəlliklərini, xoşbəxtliyə, bolluğa, ruzi-bərəkətə ümidini əks etdirir. Baharın gəlişi, təbiətin yenidən oyanması Yeni ilin qarşılanması mərasimi mifopoetik düşüncə hadisəsi kimi xaosdan kosmosa keçidi simvolizə edir.

Mahmud Kaşğarinin “Divani-lüğətit-türk” adlı ilk ensiklopedik lüğətində baharın gəlişi “sellərin-suların çağlaması, qarın əriyib dağ zirvələrinin görünməyə başlanması, dünyanın nəfəsinin isinməsi, rəngarəng çiçəklərin açılması, yer üzünə yamyaşıl ipək qumaşın sərilməsi, heyvanların balalaması” şəklində təsvir olunur.

Novruz bayramı yazın gəlişini simvolizə edən qədim xalq bayramıdır. Milli birlik rəmzi olan, saf niyyətləri özündə birləşdirən və yaşadan bu bayram Azərbaycan xalqının öz tarixi keçmişinə və milli mənəvi dəyərlərinə bağlılığının təcəssümüdür. Novruz sözü “yeni gün” mənasını verir. Gecə və gündüz məhz bu ayda – Novruz bayramı günü, yəni martın 20-dən 21-nə keçən gecə bərabərləşir. Bu bayram birlik, qardaşlıq bayramı, xalq şənliyi kimi hər il çox təmtəraqla keçirilir. Bütün türk dünyası üçün çox əziz olan bu bayram zaman ötdükcə müəyyən dəyişikliklərə uğrayıb, bəzi adətlər unudulub. Amma bütün bunlara baxmarayaq, sovet imperiyası zamanı qadağan olunmuş bu bayram xalqın yaddaşında qorunub saxlanılmış, müstəqillik qazanıldıqdan sonra Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır. Heç təsadüfi deyil ki, Ümummilli Liderdən müsahibə alan bir jurnalistin “Sevdiyiniz bayram hansıdır?” – sualına Heydər Əliyev “Novruz” cavabını vermişdir. Novruz şənliklərində Heydər Əliyev şəxsən özü xalq ilə bayramlaşmağa çıxar, ölkə əhalisini bayram münasibətilə təbrik edər, vətəndaşlarla, Kosa və Keçəllə yumurta döyüşdürər, bayram münasibətilə öz fikirlərini şənlik iştirakçılarına çatdırardı. Novruz bayramının Azərbaycan xalqının mənəviyyatındakı rolunu səciyyələndirən

Heydər Əliyev demişdir: “Bu bayramın bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Demək, bu dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır” (8).

Novruz bayramı Azərbaycanın təşəbbüsü ilə 2009-cu il sentyabrın 30-da YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilmiş, 23 fevral 2010-cu ildə isə BMT Baş Assambleyasının 64-cü sessiyasının iclasında mart ayının 21-i “Beynəlxalq Novruz Günü” elan edilmişdir. Xalqımızın ən qədim və milli bayramı olan Novruzun BMT Baş Məclisi tərəfindən beynəlxalq gün kimi tanınması məqsədilə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən müvafiq qətnamə layihəsi hazırlanmış, digər dövlətlərlə razılaşdırılması və BMT-də qəbulunun təmin edilməsi üçün ölkəmizin BMT yanında daimi nümayəndəliyinə təqdim olunmuşdur. Fevralın 23-də BMT Baş Məclisinin 64-cü sessiyası gündəliyinin “Sülh mədəniyyəti” adlı 49-cu bəndinə müvafiq olaraq, Azərbaycanın təsəbbüsü ilə irəli sürülmüş və Əfqanıstan, İran, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Türkiyə, Albaniya, Hindistan və Makedoniyanın həmmüəllifi olduğu “Beynəlxalq Novruz Günü” adlı qətnamə layihəsinin təqdimatı keçirilmişdir. Tədbirdə Novruz bayramının qeyd edilməsinin tarixi, onun təkcə Azərbaycanda deyil, həm də Qara dəniz hövzəsi ölkələrində, Qafqazda, Orta Asiyada və Yaxın Şərqdə, Balkanlarda, üç min ildən artıq bir müddət ərzində ümumilikdə üç yüz milyon insan tərəfindən təntənəli şəkildə qeyd edilməsi barədə məlumat verilmişdir. İclasın sonunda yekdilliklə qəbul olunan qətnaməyə əsasən, BMT Baş Məclisi Novruz bayramının Şərq və Qərb mədəniyyətlərinin xüsusiyyətlərini, əməkdaşlıq və həmrəylik ideallarını özündə ehtiva etdiyini nəzərə alaraq, dövlətlər arasında bundan sonra da geniş həmrəylik, yüksək hörmət və ehtiramı təşviq etmək məqsədi ilə martın 21-ni Beynəlxalq Novruz Günü kimi tanıyır, BMT-nin üzvü olan dövlətlərin Novruz ilə bağlı məlumatlılığının artırılması üçün səy göstərməyə çağırır. Eyni zamanda, BMT-nin üzvü olan dövlətləri və onun ixtisaslaşdırılmış orqanlarını, fondlarını, proqramlarını, həmçinin bu məsələ ilə maraqlanan digər beynəlxalq və regional təşkilatları, eləcə də qeyri-hökumət təşkilatlarını Novruz bayramını keçirən dövlətlərin təşkil etdikləri təntənəli mərasimlərdə iştiraka dəvət edir (5).

Azərbaycan Respublikasının Milli Məclisində qəbul olunmuş “Azərbaycan Respublikasının bayramları haqqında” qanuna və Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 105-ci maddəsinə əsasən Novruz bayramı iş günü hesab edilmir.

Ulu Öndər Heydər Əliyev 1998-ci il martın 20-də Mərdəkandakı “Abşeron” sanatoriyasında qaçqınlar və məcburi köçkünlər üçün keçirilən bayram şənliyində Novruz bayramı ilə bağlı belə demişdir: “Novruz Azərbaycan xalqının müqəddəs bayramıdır. Qədim zamanlarda bizim əcdadlarımız bu bayramı yaradıb və bu bayram min illərlə yaşayıb, xalqımıza, millətimizə həmişə səadət, xoşbəxtlik, sevinc gətiribdir, xalqımıza güç veribdir. Bu bayram bütün dövrlərdə yaşayıbdır. Bu gün isə müstəqil Azərbaycanın ərazisində o, əziz bayram kimi qeyd olunur. Novruz bayramının çox böyük mənası vardır. Bu, həm bahar bayramıdır, həm təbiətin oyanışının bayramıdır, həm də insanların həyatında böyük dəyişikliklər bayra-

mıdır. Çox gözəl bayramdır! Təsadüfi deyil ki, bu bayram butün sınaqlardan keçərək yaşayıbdır və bu gün də yaşayır. Mən arzu edirəm bu bayram günü hər bir Azərbaycan vətəndaşının, əziz dostlar, sizin arzularınız, niyyətləriniz yerinə yetsin, kimin ürəyində nə arzu varsa, ona çata bilsin, kim nə istəyirsə, ona nail ola bilsin. Mən Allahdan hamınıza qarşınızda duran bütün məsələlərin uğurla həll olunmasını arzulayıram (6).

Öz xalqının milli adət-ənənələrinə, əxlaqi dəyərlərinə bağlı olan Heydər Əliyev ana təbiətin oyanışının, həyatın yenilənməsinin, ümidlərin, arzuların çiçəklənməsinin, insanlar arasında bərabərliyin, həmrəyliyin rəmzi sayılan Novruz bayramı ilə bağlı 21 mart 2000-ci il tarixində xalqı qarşısında etdiyi çıxışında bu bayramın xalqımızın həyatında, məişət və mentalitetində dərin iz buraxdığını məxsusi qeyd edərək deyirdi: "Novruz bayramı Azərbaycan xalqının, azərbaycanlıların ən əziz bayramıdır. Hər xalqın tarix boyu yaranmış və ənənəyə çevrilmiş bayramları vardır. Azərbaycan xalqının da bayramları vardır. Bunların bir qismi dövlət bayramlarıdır, bir qismi xalq, din bayramlarıdır. Bütün bu bayramların içərisində millətimiz üçün, xalqımız üçün, hər bir azərbaycanlı üçün ən əziz, ən doğma, ən sevimli bayram Novruz bayramıdır. Novruz bayramının qədim tarixi vardır. Bizim tarixçilərimiz bunu indiyə qədər araşdırırlar. Amma nə qədər araşdırsalar da, onun o qədər dərin kökləri olduğunu aşkar edirlər. Məlumdur ki, Novruz bayramı bütün bayramlardan ona görə seçilir ki, bu, təbiətdən, elmi əsaslardan meydana gəlmiş bayramdır. Dünən biz gecənin-gündüzün bərabərləşdiyini müşahidə etdik. Məhz bu dəqiqələrdə, bu gündə Novruz bayramı başlayıb və bir bayram kimi qeyd edilir. Yəni bu bayramın, yenə də deyirəm, bəlkə də dünyada olan bütün xalqların bayramlarından fərqi odur ki, bu, təbiətlə, kainatla əlaqədardır, bunun elmi əsasları var. Bu bayram min illər boyu bizim xalqımızın qəlbinə daxil olub və çox dərin köklər salıbdır. Ona görə də bu bayramı hər bir azərbaycanlı öz doğma bayramı kimi keçirir. Vaxt var idi ki, bu bayram bəzi səbəblərdən qadağan olunmuşdu. Ancaq həmin onillikləri biz hamımız bir yerdə yaşamışıq və hamımız da bilirik ki, heç kim bu qadağaya fikir verməyibdir və öz bayramını edibdir. Bu bayram elə bayramdır ki, özünün maddi vəziyyətindən asılı olmayaraq hər bir insan – zəngin adam da, orta yaşayan da, lap kasıb şəraitdə yaşayan insan da onu bayram edir. O illər ki, bizim bu ümumxalq bayramının keçirilməsinə imkan yox idi, hər kəsin evində mütləq səməni də, rənglənmiş yumurtalar da, plov da var idi. Ən azı bu idi, hər kəs bunu edə bilirdi. Amma kimlər isə bundan çox edə bilirdi – şəkərbura, əlbəttə ki, paxlava, başqa şirniyyatlar... kimsə bundan çox edə bilsəydi də, elə ailə tapmaq olmazdı ki, bu bayramın əlamətlərindən o günlər istifadə etməsinlər və bayramı qeyd etməsinlər" (7).

Ölkəmizdə Novruz bayramından qabaq hər evdə, hər ailədə bayramqabağı hazırlıq işləri aparılır. Evlər, həyətlər təmizlənib səliqəyə salınır, bağlarda qurumuş ağaclar kəsilir, torpaq şumlanır, yeni tinglər əkilir. İnanclara görə, Novruz bayramında bağdakı ağacların quru budaqlarını kəsməsən, ağaclar küsər, bar verməz. Evlərdə səməni cücərdilir. Səməni

buğda, arpa, noxud, mərcimək və qarğıdalıdan yetişdirilir. Səməni cücərtmək Novruz bayramının ən müqəddəs ayinlərindən biridir:

Səməni saxla məni,
İldə cücərdərəm səni (2, s. 47).

İnanclara görə, Novruz bayramında cücərdilən səməni təbiətin oyanaraq canlanmasının, yaşıllığın, yazın gəlməsinin və əkinçiliyin rəmzidir.

Fololoqiya elmləri doktoru Kamran Əliyev "Novruz mərasimləri" adlı məqaləsində qeyd edir ki, "Çillə qarpızı", "Xıdır Nəbi" mərasimləri, eyni zamanda bayram günlərində səməni göyərdilməsi hadisəsi bir-biri ilə qırılmaz tellərlə bağlıdır və hər üç çilləni əhatə edərək insanların gələcək həyat uğrunda arzularını ifadə edir. Çillə qarpızının buğdanın samanı – küləşi içərisində gizlədilməsi, Xıdır Nəbi bayramında buğdanın qovrulması və Novruz bayramında buğdanın cücərdilməsi insanın həyata və zamana bağlılığının konkret faktları və sübutlarıdır (3, s. 317).

Novruz bayramında xüsusi hazırlanan süfrədə şəkərbura, paxlava, qoğal, növbənöv şirniyyatlar, kişmiş, qoz, badam, fındıq, müxtəlif çərəzlər, meyvə şirələri, rəngbərəng boyanmış yumurtalar olur. Süfrənin ortasına səməni qoyulur. Əsas yemək bayram plovu (aşı) olur. İlaxır çərşənbədə olduğu kimi, Novruz bayramında da böyük bayram tonqalı yandırılır. Tonqalın üstündən tullanaraq, "Ağırlığım odda yansın" deyilir (4).

Novruz bayramında uşaqlar "bayram payı" üçün evlərə gedirlər. Buna çox yerdə "qapı-qapı", "baca-baca" deyilir. Uşaqlar evlərin qapısını döyərək, "Bayramınız mübarək, bayram payımızı verin" deyərək mahnı oxuyurlar:

Ay Kosa-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana (1, s.19).

Verilən pay içərisində soğan qabığı ilə boyanmış qırmızı və digər rənglərdə olan yumurtanın olması mütləqdir. Yığılan yumurtalar sonradan "döyüşdürülür". Yumurta döyüşdürmək uşaqlar arasında ən maraqlı və əyləncəli Novruz oyunlarından biridir.

Novruz bayramında qohum-əqraba, qonşular bir-birinə qonaq gedir, bayram payı aparırlar. Kasıblara, kimsəsizlərə əl tutmaq, onlara bayram yeməklərindən pay vermək xalqımızın ən gözəl adətlərindəndir. Bayram günü ağsaqqal və ağbirçəklər də ziyarət edilir. Novruz günü bəzi kəndlərin mərkəzində ağsaqqalların əlini öpərək, "Bayramınız mübarək, neçə belə bayramlara çıxasınız" deyə gənclər bayramlaşırlar. Bu adətə kəndlərdə "Ələpmə" və ya "Görüş" də deyilir. İnanclara görə, Novruzda heç kim küsülü qalmamalıdır. Kənd yerlərində tez-tez "qız qaçırtma" hadisələrinə rast gəlindiyi üçün, bu barışmalardan ən çoxu da qudaların barışdırılmasıdır. Təzə qohumlara "xeyir-dua" verilər, qohumluqlarının möhkəm, uzunömürlü olması arzulanar (4).

Novruz bayramında tonqal ətrafında yallı getmək xüsusi bir mərasimdir. Min illərin, əsrlərin daş süzgəcindən keçərək bu günümüzədək gəlib çatan yallılar xalqımızın nə qədər mənəvi zənginliyə malik olduğunu bir daha ortaya çıxarır. Novruzun simvolları olan kosa və

keçəllə bərabər “Tənzərə”, “El yallısı”, “Gopu”, “Qazı-qazı”, “Köçəri”, “Urfanı”, “Qaladan-qalaya”, “Tello”, “Tirmə şal”, “Gülümhey”, “Xələfi” və başqa yallılar ilə tonqal ətrafında dövrə vurur. Bu mərasimin mənası insanların birliyidir (4).

Novruz bayramındakı mərasimlərdən biri də yaslıların yasdan çıxarılmasıdır. Bunun uçün ağsaqqallar bir qırmızı alma və boyanmış yumurta götürərək yas düşən evə gedirlər. Qonşular yaslı adamların həyətində tonqal yandırıb, onları “qara bayram”dan çıxarırlar. Sonra vəfat edənin ruhuna dualar oxunur. Qohum-əqraba da öz növbəsində yas düşən evlərdə bayramın şən, yaxşı əhval ruhiyyədə keçirilməsi üçün onlara mənəvi dəstək olarlar. Burada məqsəd sınıq qəlbləri ovundurmaq, yaslı olan insanların könlünü almaqdır. Novruz bayramında gəlinlərə valideynləri və yaxın qohumları, nişanlı qızlara isə oğlan tərəfindən bayram payı göndərilməsi də ən gözəl adətlərdəndir. Aparılan xonçalarda mütləq səməni, boyanmış yumurta və bayramlıq hədiyyə olur (4).

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin dərindən tədqiq edilərək öyrənilməsini, qorunub saxlanmasını, gələcək nəslə çatdırılmasını ölkəmizə rəhbərlik etdiyi dövrdə əsas vəzifələrdən biri kimi irəli sürmüşdür. “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq” – deyən Heydər Əliyev azərbaycançılığı milli bir ideologiya kimi irəli sürərək mədəniyyətimizin, mənəvi dəyərlərimizin mühafizə edilməsinin vacibliyini diqqətə çatdırırdı. Heç şübhəsiz, bunlardan biri də Azərbaycan xalqının tarixini, milliliyini özündə əks etdirən Novruz bayramı idi. Bizi digər millətlərdən fərqləndirən məhz elə qədim bayramlarımız, adətlərimiz, rituallarımız, milli irsimizdir. Bizə ulu babalarımızdan miras qalan milli-mənəvi dəyərlərimizi, adətlərimizi yaşatmalı, qorumalı və gələcək nəslə çatdırmalıyıq.

QAYNAQLAR:

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı, “Sabah”, 2009. 388 s.
2. Azərbaycan folkloru antologiyası, IV kitab (Şəki folkloru), I cild. Bakı, “Səda”, 2000, 248 s.
3. Əliyev K.İ. Folklor kitabı. (Əsərləri 10 cilddə, VI cild). Bakı, “Elm və təhsil”, 2019, 432 səh.
4. Vəliyev Əpoş İslam oğlunun şəxsi arxivindəki Naxçıvan MR-dən topladığı folklor nümunələrindən.
5. http://www.anl.az/down/meqale/azerbaycan/2012/mart/240667.htm
6. https://lib.aliyev-heritage.org/az/3216881.html
7. https://qlobal.az/ulu-nder-heyder-eliyevin-novruz-bayrami-haqda-unudulmayan-tarixi-cixisi-tam-metn
8. https://modern.az/hemreylik-ve-meneviyyat-bayrami/36050

ULU ÖNDƏR VƏ TƏSVİRİ SƏNƏT

GREAT LEADER AND FINE ART

Əsəd QULİYEV
Azərbaycan Milli İncəsənət Muzeyinin
Sərgi və tərtibat şöbəsinin müdiri,
AMEA Memarlıq və İncəsənət İnstitutunun dissertantı,
Azərbaycan Rəssamlar İttifaqının üzvü,
asadquliyev@gmail.com

Özət

Ulu Öndər Heydər Əliyev həyatı və fəaliyyəti dövründə hər zaman Azərbaycan mədəniyyətinin inkişafında, xalqımızın milli mədəni dəyərlərinin, mədəniyyətinin və mədəniyyt xadimlərinin yaradıcılıqlarının dəstəklənməsi və inkişafı istiqamətində fədakar əmək sərf etmiş, ölçüyə gəlməz nəhəng işlər görmüşdür. Mədəniyyət ocaqlarınının inşası, təmiri və yenidən qurulmasında, sənət adamlarına yüksək dövlət qayğısının göstərilməsində müstəsna xidmətləri olmuşdur. Ulu Öndər Heydər Əliyev həmçinin incəsənətə yaxın adam olmuşdur. Burada Ulu Öndər Heydər Əliyevin təsviri sənət sahəsində gördüyü dövlət əhəmiyyətli nəhəng işlərdən, onun sənət adamları ilə yaxın dostluq əlaqələrindən, Ulu Öndərin ölkəmizdə incəsənətin inkişafına vermiş olduğu əvəzsiz töhfələrdən, həmçinin sənət adamlarının Ulu Öndərin şəxsiyyətinə və obrazına həsr olunmuş sənət əsərlərindən bəhs olunur.

Açar sözlər: Heydər, Əliyev, öndər, siyasət, xalq, rəssam.

Summary

The great leader Heydar Aliyev worked selflessly in the direction of the development of Azerbaijani culture, the protection of the national cultural values of our people and the support of the activity of cultural figures during his entire life and activity and did immeaurable great works. He had exceptional services in the construction, repair and reconstrution of cultural centers, and in providing high state care to artists. The great leader Heydar Aliyev was also a person connected to art. The article deals with about colossal state-important works of great leader Heydar Aliyev in the field of visual arts, close friendships with artists, his invaluable contributions to the development of art, as well as works of art dedicated to the personality and image of the great leader.

Keyword: Heydar Aliyev, lider, policy, folk, painter.

Dahi şəxsiyyət Heydər Əliyevin çoxşaxəli həyat fəaliyyətində elə bir sahə tapmaq olmaz ki, əhatə etməmiş olsun. Bu xüsusiyyət ilk növbədə dahi şəxiyyətin təbiətindən – ona

ilahidən verilən fitri istedaddan irəli gəlirdi. Belə ki, çoxuşaqlı ailədə doğulub boya-başa yetişən balaca Heydər hələ lap kiçik yaşlarından özünün hazırcavablığı və iti zehni ilə yaşıdlarından seçilmişdir. Heydər Əliyevin uşaqlıq və gənclik illəri onun həmişə fərəhlə xatırladığı, Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Naxçıvanda keçmişdir. Naxçıvan şəhərində texnikumda təhsil aldığı illərdə müəllimlərinin sevimli tələbəsi olan Heydər Əliyevi riyaziyyat müəllimi böyük riyaziyatçı, Azərbaycan dili müəlimi dilçi alim, təsviri sənət müəllimi böyük rəssam, tarix müəllimi böyük siyasətçi və başqa müəllimləri digər sahələrdə gələcəkdə onun böyük mütəxəssis olacağını söyləyirdilər. Uşaqlıq və tələbəlik illərini Ulu Öndərin ən yaxın dostu və tələbə yoldaşı olmuş Dövlət Məmmədov belə xatırlayırdı: "Heydər Əliyevlə mən yaxından dostluq edirdik. Hələ o zamanlar bizim aramızda xüsusi hörməti olan Heydər Əliyevi müəllimlərimiz çox istəyirdilər və ona böyük ümidlər bəsləyirdilər. Onun dərin zəkası qarşısında biz heyran qalırdıq... Bəli, özünün iti zehni, xüsusi natiqlik qabiliyyəti və bacarığı ilə yaşıdlarını ötən Heydər Əliyevin peşə seçimində doğulub boya-başa çatdığı əsrarəngiz Naxçıvan təbiətinin və onun böyük qardaşı Xalq rəssamı Hüseyn Əliyevin təsirinin olduğunu vurğulamamaq düzgün olmazdı" (3).

Ulu Heydər Əliyevin xüsusi rəssamlıq təhsili alması və gələcəkdə rəssam olmaq istəyi sonralar onun fəaliyyətində yüksək yaradıcılıq əzmini, qurub-yaratmaq şövqünü həmişə qüvvətləndirmişdir. Ulu Öndər xatirələrində qeyd edirdi ki, "Gənclikdə rəssamlığa böyük həvəsim var idi. Mənim çəkdiyim ilk rəsmlərdən biri Füzulinin portreti olmuşdur. Təxminən 1936-37-ci illərdə məktəbimizdə şagirdlərin rəsmlərindən ibarət sərgi təşkil etmişdilər. O vaxtlar belə şeylərə çox fikir verirdilər. Mənim çəkdiyim portret müsabiqədə birinci yer tutmuşdu. Əlbəttə, mən onu rəssamlıq əsəri adlandırmaq fikrində deyiləm, o, sadəcə olaraq, rəssamlığa həvəs göstərən gəncin çəkdiyi şəkil idi". Qeyd etmək lazımdır ki, Heydər Əliyevin həm də tarixçi və iqtisadçı ixtisaslarına yiyələnməsi eyni zamanda dahi şəxsin ictimai fəaliyyətinin daha səmərəli və peşəkarcasına yönləndirməsini şərtləndirmişdir. Heydər Əliyevin nitqini dinləyən həmin sahənin mütəxəssislərinin belə mat qaldığını söyləməklə onun yüksək natiqlik və liderlik qabiliyyətinə malik şəxsiyyət olduğunu təsdiq etmək olar.

Ulu Öndər Heydər Əliyevin tale yolu olduqca şərəfli və çətinliklərlə dolu olmuşdur. Onun sadə bir işçidən generala qədər, generaldan sovet dönəmində ən nüfuzlu dövlət adamına və sonralar isə özünün ifadəsi ilə söyləmiş olsaq "canı qədər sevdiyi Azərbaycan"ın Prezidenti olması ağır məşəqqətlər hesabına başa gəlmişdir. Məşhur dövlət xadiminin həyatına dəfələrlə hazırlanmış sui-qəsdlərin uca tanrının iradəsi ilə son andaca qarşısının alınması faktlarla sübut olunmuşdur.

Ümummilli Lider Heydər Əliyevin incəsənətimizin inkişafında və tərəqqisində atdığı səmərəli addımlar və apardığı uğurlu siyasətin xüsusi sahəsi olan mədəniyyət siyasəti bu gün özünün intibah mərhələsini yaşamaqdadır. Biz burada sadəcə – teatr, konsert, qalereya, sərgi salonu, mədəniyyət evi, kinoklub və s. tikintisinə, yenidən qurulmasına və əsaslı təmirinə, yaradıcılıq ittifaqlarının maddi və texniki bazalarının yaxşılaşdırılmasına, sənət adam-

larının – şair, yazıçı, bəstəkar, rəssam, memar, rejissor, aktyor və başqalarına prezident təqaüdlərinin verilməsinə, onların ölkəmizin fəxri ad, yüksək orden və medalları ilə təltif edilməsinə, habelə yubileylərinin keçiriməsinə, incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsinə dair imzaladığı sərəncamları ayrı-ayrılıqda qeyd etmiş olsaq, yüzlərlə şərəfli və yaddaqalan səhifələr yaranar. Təkcə təsviri sənətimizin inkişafı ilə bağlı Ulu Öndər Heydər Əliyev siyasətinin bəzi ştrixlərini vurğulamaq kifayətdir ki, fikrimizi təsdiq edək.

Hələ sovet dönəmində Azərbaycanın tanınmış sənət adamlarına göstərdiyi diqqət və qayğı, yaradıcı şəxslərlə yaxın dostluq əlaqələri Heydər Əliyevə yüksək sənət adamları arasında dərin hörmət və nüfuz qazandırmışdır. 1981-ci ilin aprel ayında Ulu Öndərin təşəbbüsü və yaxından iştirakı ilə Bakıda SSRİ Rəssamlıq Akademiyası Rəyasət heyətinin geniş iclası təşkil olunmuş, həmçinin müxtəlif şəhərlərin 17 ali rəssamlıq institutlarını bitirmiş tələbələrin diplom işlərindən ibarət Ümumittifaq sərgisi keçirilmiş və SSRİ Rəssamlıq Akademiyası Rəyasət heyətinin və təhsil üzrə Elmi-metodiki şuranın iclasında həmin sərgi müzakirə olunmuşdur. Müzakirələrdə SSRİ Rəssamlıq Akademiyasının, V.İ.İsurikov adına Moskva Dövlət Rəssalıq İnstitutunun, İ.Y.Repin adına Leninqrad Rəngkarlıq, Heykəltəraşlıq və Memarlıq İnstitutunun, Kiyev, Minsk, Riqa, Tbilisi ali rəssamlıq institutlarının nümayəndələri, tanınmış rəssamlardan T.Salahov, F.Reşetnikov, A.Mılnikov, V.Vanslov, B.Uqarov, M.Boqdanov, B.Dexterov, O.Savostyuk, K.Rojdestvenski, A.Lopuxov, İ.Zarin, Q.Totibadze və başqaları iştirak etmişdirlər. Həmin tədbirdə Heydər Əliyevin söyləmiş olduğu əhatəli və dərin məzmunlu nitqi ümumittifaq əhəmiyyətli, proqram mahiyyətli sənəd kimi qarşılanmış, "Təsviri sənət ustalarının yüksək vəzifəsi" adı ilə o zamankı nüfuzlu "İsskustvo" ("Исскуство") jurnalı, "Sovetskaya kultura" ("Советская культура" (7), "Ədəbiyyat və incəsənət" (5) qəzetləri və eləcə də digər mətbu orqanlarda nəşr olunmuşdur (1).

1982-ci ildə Azərbaycan Rəssamlar İttifaqının IX qurultayı keçirilmişdir. Görüşdən sonra Ulu Öndər Heydər Əliyev respublikanın təsviri sənət ustaları və mədəniyyət xadimlərinin iştirakı ilə görüş keçirərək bir daha incəsənət xadimlərinin qarşıda duran vəzifələri və onları narahat edən problemlərlə yaxından tanış olmuş və özünün müvafiq köməkliyini göstərmişdir.

Ümummilli Lider Heydər Əliyevin iştirakı və xeyir-duası ilə Bakının Mərdəkan qəsəbəsində rus şairi Sergey Yeseninin xatirə lövhəsinin (heykəltəraş Fuad Salayev, 1972), Ulyanovsk şəhərində yazıçı Nəriman Nərimanovun heykəlinin (heykəltəraş İbrahim Zeynalov, 1977), Bakıda şair və mütəfəkkir Nəsiminin heykəlinin (heykəltəraşlar Tokay Məmmədov və İbrahim Zeynalov, 1980), əfsanəvi kəşviyyatçı, müharibə qəhrəmanı Rixard Zorgenin xatirə memarlıq komleksinin (heykəltəraş V.Y.Siqal, memar Mikayıl Hüseynov, 1981) akademik Yusif Məmmədəliyevin heykəlinin (heykəltəraş Akif Əsgərov, 1998) və başqa heykəllərin sənət adamlarının yaxından iştirakı ilə uğurlu açılış mərasimləri təşkil olunmuş, Ulu Öndərin müəlliflərlə görüşü və onları yaxından təbrik etməsi ilə yadda qalmışdır. Qeyd etmək lazımdır ki, bu gün də həmin heykəllər Bakımızın memarlıq quruluşunda müstəsna

əhəmiyyət kəsb edir və xalqımızın mədəniyyət xadimlərinin adlarının əbədiləşdirilməsi və təbliği istiqamətində mühüm önəm kəsb edir (6).

Azərbaycanın tanınmış rəssamları Səttar Bəhlulzadə, Mikayıl Abdullayev, Tahir Salahov, Toğrul Nərimanbəyov, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya, Böyükağa Mirzəzadə, Oqtay Sadıqzadə, Ömər Eldarov, Nadir Əbdürəhmanov, Elbəy Rzaquliyev, Mirəli Mirqasımov və başqa rəssamlarla şəxsən görüşərək onların yaradıcılıqları ilə yaxından tanış olması, ünsiyyət yaratması və onları Azərbaycanın yüksək fəxri adları və medalları ilə təltif etməsi dünya siyasətində nadir dövlət başçılarına şamil olunası xüsusiyyət idi. Digər tərəfdən bəlkə də yaradıcı adamlara bu qədər xüsusi münasibətin göstərilməsi Heydər Əliyevin rəssamlıq təhsili alması, onun incəsənətin – bədii yaradıcılığın çətinlik və özünəməxsus incəliklərindən praktiki xəbərdar olmasından irəli gəlirdi.

17 dekabr 1994-cü ildə Heydər Əliyevin "Səttar Bəhlulzadənin anadan olmasının 85 illik yubileyi haqqına" sərəncam imzalaması, rəssamın Azərbaycan Milli İncəsənət Muzeyində təşkil olunmuş yubiley sərgisində və o zamankı Respublika Sarayında təntənəli yubiley gecəsində Ulu Öndərin iştirak etməsi və nitq söyləməsi incəsənət xadimlərini, o cümlədən rəssamları dərindən ruhlandırmışdır. Həmin gecədəki nitqində Heydər Əliyev rəssam haqqında demişdir: "Mən onu yaxşı tanıyırdım. 60-cı illərin əvvəllərində Səttar Bəhlulzadə ilə şəxsi münasibətlərim var idi və mən Azərbaycana rəhbərlik edərkən onun sənətini sevdiyimə və bir insan kimi ona hörmət etdiyimə görə bu böyük rəssamla təmaslarım olmuşdur. O, qeyri-adi insan idi...".

Ümummilli Lider Heydər Əliyevin 18 yanvar 1995-vi ildə Azərbaycan Milli İncəsənət Muzeyində təşkil olunmuş "Qanlı Yanvar" rəssamlıq sərgisinin açılışına gəlməsi və orada tarixi çıxışı ayrıca bir mövzudur. Ulu Öndərin həmin çıxışı sənət adamlarının yaddaşında dərin iz buraxmışdır. Həmin çıxışında Heydər Əliyev deyirdi: "20 Yanvar hadisələrini bir faciə kimi təsvir etmək azdır. 20 Yanvar Azərbaycan xalqının milli azadlıq uğrunda, öz mənliyini müdafiə etmək yolunda göstərdiyi qəhrəmanlıq nümunəsidir. Ona görə də qəhrəman Azərbaycan balalarının tankın altına düşüb əzilməsi faktını göstərməklə kifayətlənməyib, onların qəhrəmanlığını, cəsurluğunu, ölümün gözünə dik baxaraq təcavüzkarın qarşısına çıxmalarını da təsvir etmək lazımdır. Bəlkə də bu, daha çox lazımdır".

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı Maral Rəhmanzadənin 80 illik yubiley sərgsinə təşrif buyurması, rəsssamla xoş dialoqları sənət adamlarında xoş duyğular yaratmışdır. Heydər Əliyevin Sərəncamı ilə Maral Rəhmanzadə rəssamlarımız arasında ilk dəfə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ulu Öndər Heydər Əliyev rəsssamların yaxın dostu, incəsənətimizin hamisi idi. Ümummilli Lider Heydər Əliyevlə Tahir Salahov, Ömər Eldarov və Kamil Əliyevi möhkəm dostluq telləri bağlayırdı. Bəlkə də onlar yeganə sənətkar idilər ki, Ulu Öndərin naturadan obrazını yaratmaq xoşbəxtliyinə nail olmuşdular. Ö.Eldarov Heydər Əliyevin bir neçə monumental abidəsini yaradıb. Lakin bir obrazın üzərində xüsusilə dayanmaq yerinə düşərdi.

Bu abidə Heydər Əiyevin Fəxri xiyabanda yerləşən məzarı üzərindəki abidə-kompleksidir. İstedadlı tişə ustası yüksək məharətlə Ulu Öndərin dəqiq fərdi-psixoloji xarakteristikasını əks etdirən obrazını Azərbaycan Respublikasının xəritəsinin fonunda təsvir etməklə, əsrarəngiz bir abidə-komleksin yaradılmasına nail olmuşdur. Abidə-kompleks özünün ətraf şəraitlə orqanik bağlılığı ilə ziyarətə gələnləri təsirləndirir. Həmçinin məşhur rəssam Tahir Salahov yüksək ustalıqla Ulu Öndər Heydər Əliyevin portret cizgilərini tabloda yaratmışdır. Xalçaçı rəssam Kamil Əliyev tərəfindən xalça üzərində Heydər Əliyevin əks olunmuş portreti də olduqca mükəmməl işlənilib və diqqəti cəlb edir.

1998-ci ildə Toğrul Nərimanbəyovun Bakıda Kamera və orqan musiqisi zalında təşkil olunan möhtəşəm konsertində Heydər Əliyevin iştirak etməsi, orada rəssamla görüşməsi, rəssamın yaradıcılığının ən yaddaqalan məqamlarından idi.

21 avqust 1998-ci ildə Azərbaycanın ədəbiyyat, mədəniyyət, incəsənət, elm, din və idman xadimlərinin böyük bir qrupuna dövlət mükafatı, fəxri ad və medalların təqdim edilməsi mərasimində Ulu Öndər Heydər Əliyevin iştirakı, sənət adamları ilə səmimi söhbətləri bütövlükdə ölkəmizdə incəsənətin inkişafına göstərilən dövlət qayğısının ən parlaq nümunəsi idi. Həmin görüşdə Heydər Əliyevin sənət adamları ilə isti söhbətləri, onlarla aparmış olduğu dialoq tarixi əhəmiyyət daşıyır və yaddaqalandır:

–"Xalq rəssamı, heykəltəraş Mirələsgər Mirqasımovu orden alması münasibətilə təbrik edirəm. Siz respublikamızın görkəmli heykəltəraşısınız. Sizin yaratdığınız Cəfər Cabbarlı, Cəlil Məmmədquluzadə abidələri yüksək qiymətə layiqdir.

–Mirələsgər Mirqasımov: Cənab prezident, Siz olmasaydınız, bu abidələr ucaldılmazdı. Ona görə də Sizə minnətdaram.

–Heydər Əliyev: Yeri gəlmişkən, mən həmişə narahat olmuşam ki, sizin atanız Mirəsədulla Mirqasımovun məzarı üzərində nə üçün qəbirüstü abidə yoxdur. Görkəmli alim Mirəsədulla Mirqasımov Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti olmuşdur. Deyirsiniz ki, onun məzarı üzərində indi abidə ucaldılır, mən onun açılışına mütləq gələcəyəm. Sizi təbrik edirəm".

Xalq rəssamları Maral Rəhmanzadənin Ulu Öndərə təşəkkürü, Elbəy Rzaquliyevin ona xatirə qələmi bağışlaması və eləcədə Ulu Öndərlə Böyükağa Mirzəzadənin hərartli dialoqu adamda heyrət doğurur:

–Heydər Əliyev: Xalq rəssamı Böyükağa Mirzəzadəyə "Şöhrət" ordenini təqdim edirəm. Sənə daha böyük yaradıcılıq uğurları arzulayıram.

–Böyükağa Mirzəzadə: Əziz və hörmətli prezident! Hər bir insanın həyatında baş verən xoşbəxtlik mənə də qismət olubdur. Birincisi, mən rəssam olmuşam. Həyatda yaşamaq çox qəribədir, ancaq rəssama qiymət vermək hər kəsin işi deyildir. Mən vaxtınızı çox almaq istəmirəm, ona görə də fikrimi qısaca olaraq bir neçə kəlmə ilə deyəcəyəm. Möhtərəm prezident, Sizin mənə verdiyiniz qiyməti son nəfəsimə qədər yaddan çıxarmaram. 1981-ci ildə mənim 60 yaşım tamam oldu. Sizin kimi dahi bir insan həyatımda birinci dəfə mənə zəng

etdi. Cənab prezident, mən Sizi bəlkə də lap cavanlığınızdan tanıyıram. Mənim həmişə Sizə böyük hörmətim olubdur. Mən Sizə həmişə böyük məhəbbət hissləri bəsləmişəm. Möhtərəm prezident, 1981-ci ildə Siz evimə zəng edib məni təbrik etdiniz, mən indiyədək onun təsiri altında yaşayıram. Bir də bu gün mənim həyatımda böyük, xoşbəxt bir gün oldu. Möhtərəm prezident, mən özümü xoşbəxt hesab edirəm ki, Sizinlə bir vaxtda yaşamışam, Sizin müasirinizəm. Dahi insanla, rəhbərlə bir dövrdə yaşamaq hər adama qismət olmur. Bu, mənə qismət olubdur. İndi 80 yaşa çatmaq üzrəyəm. Azərbaycanlılarda yaxşı bir söz vardır: Cənab prezident, Allah mənim ömrümdən kəssin, Sizin ömrünüzə calasın.

– Heydər Əliyev: Yox, sənin ömrün sənin, mənim ömrün mənim olsun.

– Böyükağa Mirzəzadə: Cənab prezident, Siz Azərbaycan xalqına lazımsınız. Azərbaycan xalqı Sizsiz nə edə bilər? Bunu Allah bilir. Sizi istəməyən beş-altı nəfər var, bilmirəm, onlara ya "beşlik", ya da "üçlük" deyirlər. Mən xalqın arasındayam, dəqiq bilirəm ki, Sizi istəməyən adam yoxdur. Cənab prezident, mən Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

–Heydər Əliyev: Böyükağa, mən gənc vaxtlarımdan səni Azərbaycanın böyük rəssamı kimi tanımışam. Bilirsən ki, mən rəssamlıqla o vaxtdan çox maraqlanan bir adamam. Gənc yaşlarımda mən də rəssam olmaq istəyirdim, rəsmlər çəkirdim. Böyükağa Mirzəzadə bizim qarşımızda böyük bir rəssam idi. Ona görə də mən səni heç vaxt unuda bilmərəm və heç vaxt unutmamışam.

–Böyükağa Mirzəzadə: Cənab prezident, çox sağ olun. Mən Sizə minnətdaram".

Ulu Öndər Heydər Əliyevin 13 iyun 2000-ci il tarixli mühüm sərəncamı ilə yaradılmış və 2002-ci ildə açılışı baş tutmuş Azərbaycan Dövlət Rəssamlıq Akademiyası bu gün özünün möhtəşəm memarlıq qurluşu və yüksək ixtisaslı təsviri sənət mütəxəssisləri yetişdirən qabaqcıl təhsil ocağı kimi öz nüfuzunu qoruyub saxlamaqdadır. Bu sətirlərin müəllifi fəxr edir ki, Ulu Öndər Heydər Əliyevin yaratmış olduğu Akademiyanın ilk məzunlarından olubdur (4).

Təkcə müstəqillik illərində Ulu Öndər Heydər Əliyevin imzaladığı fərman və sərəncamları vurğulamaq kifayətdir ki, o, incəsənətimizin inkişafı və tərəqqisi tarixinə hansı töhfələri bəxş edib, bununla da Heydər Əliyev öz şərəfli imzasını əbədiyyətə qovuşdurub. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın mədəniyyət siyasətinin əsas prioritetlərini özündə əks etdirən "Muzeylər haqqında qanun" (2) və eləcə də mədəniyyət aləminin müxtəlif sahələrini tənzimləyən digər ali qanunların təsdiq edilməsi və hüquqi dövlət quruculuğu istiqamətində mədəniyyət siyasətinin daha təkmil üsullarla inkişafını sürətləndirməsi məqsədi ilə xüsusi dövlət proqramlarının hazırlanaraq həyata keçirilməsi, həmçinin bu istiqamətdə imzaladığı fərman və sərəncamları artıq özünün uğurlu bəhrələrini verməkdədir. Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanıdılması və təbliği sahəsində xüsusi addımlar atılmışdır. Belə ki, BMT-nin mədəniyyət sahəsində ixtisaslaşmış qurumu olan YUNESKO ilə əməkdaşlıq və bu qurumda Azərbaycanın daimi nümayəndəliyinin fəaliyyəti sadalananları bir daha təsdiq edir.

Bu gün özünün intibah dönəmini yaşayan Azərbaycan mədəniyyəti Ulu Öndər Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Artıq mədəniyyət aləminin hər bir sahəsində inanılmaz dərəcədə uğurlu nailiyyətlər əldə olunmuşdur. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Birinci xanım Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizdə və digər xarici ölkələrdə bir neçə möhtəşəm mədəniyyət layihələri həyata keçirilmişdir.

Bu gün ölkəmizdə aparılan mədəniyyət siyasəti sübut edir ki, qədim Şərq mədəniyyətinin varisi, əbədi Azərbaycan Respublikamız həmişə özünün qədim və zəngin mədəniyyəti ilə hər zaman dünya ölkələri arasında özünün layiqli yerini ucalarda saxlayacaqdır. Bu işdə xüsusi xidmətləri olan, bu il anadan olmasının 100 illiyi tamam olan Ulu Öndər Heydər Əliyevin işıqlı xatirəsi və uca əməlləri Müstəqil Azərbaycan Respublikası tarixində və onun xalqının yaddaşında daima yaşayacaqdır.

QAYNAQLAR:

1. “Heydər Əliyev və Azərbaycan incəsənəti”. Bakı. “Elm”-2000.
2. “Muzeylər haqqında qanun” 24 mart 2000-ci il.
3. Ə.Quliyev. “Heydər Əliyev Azərbaycan incəsənətinin misilsiz himayədarı idi”. Xalq qəzeti, 9 dekabr 2012.
4. Ə.Quliyev. “Sənət adamlarının yaxın dostu”. Azərbaycan qəzeti, 8 may 2016.
5. Heydər Əliyev “Təsviri sənət ustalarının yüksək vəzifəsi”. Ədəbiyyat və incəsənət qəzeti, 10 aprel 1981.
6. Həbibov N. Sənətə qayğı və məhəbbət. Azərbaycan qəzeti, 6 sentyabr 1997.
7. Алиев Г. Высокая миссия мастеров изобразительного искусства. «Советская культура», 14 апреля 1981.

HEYDƏR ƏLİYEV VƏ HÜSEYN CAVİD

HEYDAR ALIYEV AND HUSEYN JAVID

Xəyalə AĞAYEVA
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Folklor İnstitutu,
xeyale.eliyeva.80@list.ru

Özət

İstər Şərqdə, istərsə Qərbdə dahilər, bir qayda olaraq, qeyri-adi qabiliyyətə malik, intellektual fəaliyyətin bir çox sahələrində uğur qazanmağa qadir ensiklopedik şəxsiyyətlər hesab olunurlar. Bununla yanaşı, xalqların liderlərə olan tələbləri, gözləntiləri fərqlidir. Şərqdə əsasən şəxsi keyfiyyətlərə önəm verilir, xalqın qəhrəmanı səviyyəsinə yüksələn insanlar dahi lider hesab olunur. Qərbdə isə milli maraqların üstün tutulması, həyatının cəmiyyətə xidmətə həsr olunması liderliyin əsas şərtlərindəndir. Həmçinin şəxsiyyətin xarizmi və ictimai dəyəri ön planda olur.

Ümummilli Lider Heydər Əliyev həm Şərq, həm Qərb meyarlarına cavab verən bir fenomen, dahi liderdir.

O öz işi-dövlət rəhbərliyi ilə birbaşa bağlı olan siyasəti, iqtisadiyyatı, dövlət idarəçiliyini, kadrların seçilməsi və yerləşdirilməsi prosesini yaxşı bildiyi kimi fəlsəfəni, tarixi, ədəbiyyatı və mədəniyyəti də gözəl bilirdi.

Ədəbiyyatımıza olan diqqət və qayğının nəticəsidir ki, H.Əliyev hakimiyyətdə olduğu istər sovet dövründə, istərsə müstəqillik illərində yaradıcılıqla məşğul olan insana həmişə hörmət və məhəbbətlə yanaşmışdır.

XX əsr ədəbiyyatımızın görkəmli nümayəndələrindən olan H.Cavidə münasibəti Turan Cavid çox gözəl xarakterizə edir: "1956-cı ildə onlar cismani bəraət aldılar. Amma yenə də onlar haqqında yazmırdılar. Əsl bəraət 1982-ci ildə oldu."

H.Cavidin cənazəsinin 1982-ci ildə Sibirdən Vətənə gətirilməsi böyük bir hadisə idi. Bu Heydər Əliyevin öz doğma torpağına, doğma ocağına bağlarını heç vaxt zəiflətməyən bir naxçıvanlı olmasını göstərirdi. Bütöv Azərbaycan sevgisini ürəyində daşıyan azərbaycanlı olmasının göstəricisidir. Çünki insan öz çıxdığı ocağı sevmədən bütöv vətəni də sevə bilməz.

Heydər Əliyev çox gözəl bilirdi ki, Cavid hətta qadağan olduğu illərdə belə həmişə xalqın qəlbində olub. Şairin əsərlərini gizlincə oxuyub feyziyab olublar.

Heydər Əliyevin Azərbaycana qayıdışı müstəqillik illərində yenidən hakimiyyətə gəlməsi, bütün ictimai-iqtisadi həyatımızın, həmçinin mənəvi-əxlaqi sərvətimiz olan ədəbiyyatamızın və mədəniyyətimizin bir renessans dövrünə daxil olması idi. Durğunluqda silkinib ayılmaq dövrü idi.

Açar sözlər: Heydər Əliyev, Hüseyn Cavid, ədəbiyyat, dövlət, lider

Summary

Geniuses, both in the East and in the West, are usually considered encyclopedic personalities with extraordinary abilities, capable of achieving success in many areas of intelletual activity. At the same time, peoples' demands and expectations for leaders are different. In the East emphasis is mainly on personal qualities, people who have risen to the level of heroes of the people are considered genius leaders. In the West, the priority of national interests and the dedication of life to serving society are the main conditions of leadership. The charisma and social value of the personality are also at the forefront. National leader Heydar Aliyev is a genius leader, a phenomenon that meets both Eastern and Western criteria.

He knew philosophy, history, literature and culture, as well as he knew politics, economics, public administration, the process of selection and placement of personnel, whose work was directly related to the state administration.

As a result of attention and care for our literature, H.Aliyev has always treated with respect and love a person who was engaged in activity both during the Soviet period and during the years of independence. The attention to Huseyn Javid, who was one of the prominent representatives of our literature of the 20th century, is characterized by Turan Javid very well: "In 1956 they were acquitted in the flesh. But it was not written about them yet. The real acquittal was in 1982".

Bringing Javid's body from Siberia to his homeland in 1982 was a great event. It showed that Heydar Aliyev was a person who never weakened his ties to his native land. It is indicative that he is an Azerbaijani who carries the love of whole Azerbaijan in his heart. Because a person cannot love the whole country without loving the hearth from which he comes out.

Heydar Aliyev knew very well that Javid was always in the hearts of the people even during the years of prohibition. They secretly read the poet's works.

Heydar Aliyev's return to Azerbaijan was that he came to power again during the years of independence, that our entire socio-economic life, as well as our literature and culture, which are our spiritual and moral wealth, entered into a renaissance period. It was a period of shaking off in stagnation.

Keywords: Heydar Aliyev, Huseyn Javid, literature, state, leader

Ulu Öndər Heydər Əliyev həm millətin, həm də bəşəriyyətin dahilik meyarlarına cavab verən tarixi şəxsiyyətlərdəndir. Fenomenal şəxsi keyfiyyətləri, ensiklopedik savadı, təfəkkürünün elmin və təcrübənin bütün sahələrində fəaliyyətə qadir olması ilə bərabər ictimai maraqları şəxsi maraqlardan üstün tutması, yalnız öz xalqı üçün deyil, dünya, bəşər üçün gördüyü işlərin miqyası ona bəşəriyyətin dahisi deməyə əsas verir.

Heydər Əliyevin Azərbaycan tarixi, elmi, mədəniyyəti, ictimai-siyasi və fəlsəfi fikri ilə bağlı hərtərəfli bilgilərə malik olması, dərin fəlsəfi təfəkkür və xarizm sahibi olması, milli maraqlara sahib olması Azərbaycan xalqının rəhbər, lider təsəvvürləri ilə üst-üstə düşürdü. Təhlükəsizlik orqanları, partiya sıralarında sıravidən rəhbərə kimi yüksələn Heydər Əliyev bütün mənalı həyatını xalqına həsr etmişdir, faktiki olaraq Azərbaycan üçün yaşamışdı. İd-

diaları imkanları daxilində olan Heydər Əliyev deyirdi ki, kim öz imkanlarından artıq iddialıdırsa, o, mütləq məğlub olur. O, özünün və dövlətin real imkanlarını qiymətləndirə bilir, yalnız mümkün olan, real yolla gedirdi. O sözün çəkisini, qiymətini bilən insan idi. Xalq da onun sözünə qiymət verirdi. Heydər Əliyevin dinləmək məharəti də yüksək mədəniyyəti ilə bərabər, sözə hörmətinin, sözün qiymətini bilməsinin nəticəsi idi.

Heydər Əliyev mahir natiq idi, ana dilini gözəl bilirdi, bəlağətli və aydın danışırdı. Onun dərin savadı mürəkkəb mətləbləri auditoriyaya sadə dildə çatdırmağa imkan verirdi. Gözəl psixoloq olan Heydər Əliyev insanların beyninə və qəlbinə asanlıqla yol tapa bilirdi. Öz gücünə əmin idi, fikirlərini, ideyalarını xalqa daha çox çıxışlarında, məruzələrində birbaşa ünsiyyət vasitəsilə çatdırmağa üstünlük verirdi. O, xalqın siyasi cəhətdən maariflənməsinə çalışırdı.

Danılmaz həqiqətdir ki, 1930-cu illərdə SSRİ-nin dövlət mükafatı "Rusca-azərbaycanca lüğət"ə verilirdisə, məhz Heydər Əliyevin qətiyyəti sayəsində 1970-ci illərdə "Azərbaycan dili" dərsliyi eyni etimada layiq görüldü. Bu mükafatların arxasında böyük siyasi mətləblər gizlənirdi. Başqa sözlə, birinci halda rus dilinin (ruslaşdırma) təbliğinə, ikinci halda isə doğma dilimizin (milliləşmənin) inkişafına görə ali mükafat verilmişdi. Bu, Ulu Öndərin millətin genetik kodunun mühüm komponenti hesab etdiyi milli dilə verdiyi əvəzsiz dəyər idi. Elə bu məntiqlə də Heydər Əliyev böyük səylər hesabına 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunmasına nail olmuşdu.

Bütün bu və digər xidmətləri ilə Heydər Əliyev ədəbi-mədəni irsimizin, dilimizin, ziyalılarımızın, ən başlıcası isə milli özünüdərk və kimliyimizin əvəzsiz himayədarı və hamisi zirvəsinə yüksəlmiş oldu.

Minillik zəngin humanist ənənələrə malik olan, dünya ədəbiyyatının ayrılmaz tərkib hissəsi kimi şöhrət tapmış Azərbaycan ədəbiyyatının XX əsrdə yetişdirdiyi ən görkəmli nümayəndələrindən biri – romantik şair və dramaturq, filosof Hüseyn Cavid onilliklər boyu Heydər Əliyevin yüksək qiymətləndirdiyi, yaradıcılığına böyük ehtiram və diqqətlə yanaşdığı, daim təbliğ və təşviq etdiyi sənətkarlardan biridir. Cavid yaradıcılığı ilə hələ Naxçıvanda orta məktəbdə oxuyarkən tanış olmuş Heydər Əliyev 1981-ci ildə keçmiş Azərbaycan KP MK-nın Birinci katibi olarkən Hüseyn Cavidin anadan olmasının 100 illiyinin geniş miqyasda keçirilməsi barəsində qərar qəbul edilməsinə nail olmuşdu. Heç şübhə yoxdur ki, klassik Azərbaycan ədəbiyyatının bir sıra başqa nümayəndələri barəsində çıxarılan qərarlar kimi bu yüksək dövlət sənədinin də əsas müəllifi və ilhamvericisi o zaman respublikaya rəhbərlik edən, ədəbiyyatımızın, tariximizin gözəl bilicisi və qayğıkeşi Heydər Əliyev idi.

"Azərbaycan ədəbiyyatında romantizmin estetikası və poetikası romantik müasirləri arasında ən geniş və sistemli şəkildə Hüseyn Cavidin yaradıcılığında öz əksini tapmışdır. Azərbaycan romantizminin ideya əsaslarının yaradılmasında, ədəbi istiqamətlərinin müəyyən edilməsində, romantik şeirin poetik formalarının yeniləşdirilməsi və zənginləşdirilməsində Hüseyn Cavidin xüsusi xidmətləri vardır. Fikrimizcə, Hüseyn Cavidin çoxcəhətli yaradıcılığı olmadan Azərbaycan ədəbiyyatında romantizmin ədəbi cərəyan səviyyəsinə çatdırılması çətin ki, mümkün ola bilərdi" (2).

Ədəbiyyatdan tamamilə uzaq bir sahədə çalışan Heydər Əliyev respublika rəhbərliyinə

gəldiyi ilk günlərdən özünü mədəniyyət və mənəviyyat sahəsinin mahir bilicisi kimi göstərdi. Onun keçmiş Azərbaycan SSR-ə rəhbərlik etdiyi on dörd il ərzində ölkəmiz yalnız iqtisadi cəhətdən çiçəklənmədi, həm də əvvəlki onilliklərdə qət edə bilmədiyi sürətli və çoxcəhətli mədəni inkişaf yolu keçdi. Əslində həmin dövrdə Azərbaycanın iqtisadi qüdrətinin artırılması da nəticə etibarı ilə onun təhsilinin, səhiyyəsinin, mədəniyyətinin inkişafına geniş stimul yaradırdı. Keçmiş SSRİ-nin banisi və baş ideoloqu Leninin saymazyana bir tərzdə "partiya işinin təkərciyi və vintciyi" elan etdiyi ədəbiyyat Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Bu illərdə ədəbiyyata dövlət qayğısı yeni vüsət aldı, nəşriyyatlar şəbəkəsinin genişləndirilməsi, qəzet və jurnalların tirajının artması, teatr və kinonun inkişafı, Azərbaycan ədəbiyyatının təbliği sahəsində görülən işlər nəticə etibarı ilə milli mədəniyyətimizin nəinki keçmiş Ümumittifaq səviyyəsində, həm də beynəlxalq miqyasda tərcümə edilməsinə, tanınmasına və sevilməsinə yol açdı.

Bu dövrdə klassik Azərbaycan ədəbiyyatının nəşri sahəsində xüsusilə böyük işlər görüldü. Nizami Gəncəvi, İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Mirzə Fətəli Axundov, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Nəriman Nərimanov və b. klassik müəlliflərin əsərləri yeni çoxcildliklər şəklində çap olundu. Bu şair və yazıçıların əsərlərinin ruscaya və xarici dillərə tərcüməsinə diqqət artırıldı. Heydər Əliyevin şəxsi təşəbbüsü və fəal müdaxiləsi ilə Moskvada, "Xudojestvennaya literature" nəşriyyatında Nizami Gəncəvinin əsərlərinin nəfis beşcildliyi buraxıldı. Klassiklərimizin ədəbi irsinin rus dilinə və keçmiş SSRİ xalqlarının, habelə xarici ölkə xalqlarının dillərinə tərcüməsi, Azərbaycanda keçirilən dil və ədəbiyyat günləri və keçmiş sovet respublikalarında keçirilən Azərbaycan ədəbiyyatı və mədəniyyəti dekadaları yüz minlərlə adamın xalqımızın qədim mədəniyyəti, təkrarsız söz sənəti inciləri ilə tanış olmasına imkan yaratdı. Keçən əsrin 70-ci illərinin ortalarında Moskvada "Proq- res" nəşriyyatında ingilis və fransız dillərində çap olunan Azərbaycan ədəbiyyatı antologiyalarının böyük bir qismi söz sənətimizin klassik mərhələsini özündə ehtiva edirdi. Nəhayət, bu dövrdə Azərbaycan ədəbiyyatının xaricdəki dostları ölkəmizə daha tez-tez gəlir və xalqımız, mədəniyyətimiz haqqında həqiqətlərin yayılmasına yardım göstərirdilər. Şübhəsiz ki, bütün bunlar ilk növbədə respublikanın birinci şəxsinin humanitar sahəyə, ədəbiyyat və mədəniyyətə diqqətinin nəticəsi idi.

1982-ci ilin oktyabr ayında görkəmli Azərbaycan şairi və dramaturqu Hüseyn Cavid Azərbaycana qovuşdu. Görkəmli siyasi xadim Heydər Əliyevin təşəbbüsü, xeyir-duası, qayğısı ilə uzaq Sibirin əlçatmaz yerlərindən poeziyamızda fəlsəfi lirikanın bənzərsiz nümunələrini yaradan Cavidin cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ədəbi mühitimizdə əlçatmaz bir tarix, uğurlu və cəsarətli bir addımın nəticəsi kimi böyük ictimai-siyasi hadisə idi.

Həmin dövrdə Azərbaycan K.P.Naxçıvan Vilayət Partiya Komitəsində təbliğat və təşviqat partiya işi şöbələrinin müdiri, ideoloji iş üzrə vilayət partiya komitəsinin katibi vəzifələrində çalışmış Həmid Cəfərov xatirələrində Cavidsevərlərin də müqəddəs arzusunu Ulu Öndər Heydər Əliyevin reallaşdırdığını qeyd edir.

Heydər Əliyevin göstərişi ilə Sibirə gedən Həmid müəllim qərarın icrasının məsuliyyətli və çətin olmasına baxmayaraq onun arxasında Heydər Əliyevin adının olduğu üçün müşküllükdən söhbət belə olmazdı deyə söyləyir. Heydər Əliyevin adı, şərəfli bir işə dəstək

olması bu işi icra edənlərə qol-qanad verirdi. Həmid müəllim Sibirdə Cavidin uyuduğu yeri tapana qədər qarşılaşdıqları çətinliklərdən danışır. Hələ ora getməmişdən əvvəl arxiv materialları ilə tanış olurlar. Zirehli maşınlarla 30 dərəcə şaxtada yerli əhalinin gedər-gəlməz saydıqları Tayşet şəhərindən 75 kilometr məsafədə yerləşən Şefçenko kəndinə yollanıb iki saat axtarışdan sonra 59 saylı qəbir tapıldı. Şefçenko rayon prokuroru Yelena Xaritinova qəbrin açılması üçün sanksiya imzaladı. Cavidin qəbri qazıldı. "59"-da uyuyan Cavid tapılmış, Heydər Əliyevin tapşırığı yerinə yetirilmişdir.

"Hüseyn Cavidin ruhu, çox güman ki, qarlı Sibirdə ona əmanət verilmiş bədəni buzlu torpağa tapşırandan sonra dənizə – Azərbaycana dönmüşdü; ancaq 59 illik dostunu – bədənini də unuda bilməzdi. Bu mənada Heydər Əliyevin Hüseyn Cavid ruhunun sakitləşməsinə, Sibirlə Azərbaycan arasında sərgərdan qalmamasına göstərdiyi xidmət misilsizdir" (1).

Heydər Əliyev o vaxt qəzetlərdən birinə verdiyi müsahibədə Cavidin nəşinin Vətənə gətirilməsi üçün SSRİ-nin birinci şəxsinə müraciət etdiyini bildirir. Məqsədinə nail olmaq üçün əlindən gələni edir. Təbii ki, bu Heydər Əliyev kimi şəxsin böyük nüfuz sahibi olması idi.

Hüseyn Cavidin qızı Turan xanım Heydər Əliyevi "Cavidin ən ləyaqətli mənəvi övladı" adlandırmışdı. Bu həm də Ulu Öndərə "Cavid" soyadının fəxri daşıyıcısı statusunun verilməsi idi.

Turan xanım ömrü boyu atasının əsərlərinin əlyazmada olduğu kimi nəşr edilməsinə çalışsa da, bu yolda bir çox əzab-əziyyətlər çəksə də, yalnız Ümumilli Lider Heydər Əliyevin işə qarışmasından sonra Cavidin əsərləri olduğu kimi imzasına toxunulmadan çap olunmuşdur.

QAYNAQLAR:

1. Gülbəniz Babaxanlı. Heydər Əliyev və Hüseyn Cavid. Bakı, Proqres, 2013
2. İsa Həbibbəyli. Ədəbiyyatin əbədiyyət rəmzi. Ədəbiyyat qəzeti, 2022, 22 oktyabr, s.6-7.

HEYDƏR ƏLİYEV SİYASİ KURSUNDA XALQ MUSİQİSİ MƏSƏLƏLƏRİ

FOLK MUSIC ISSUES IN HEYDAR ALIYEV POLITICAL COURSE

Kəmalə ATAKİŞİYEVA
Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent,
AMEA Memarlıq və İncəsənət İnstitutu,
kamala.bashirova@mail.ru

Özət

Azərbaycan xalqının taleyində tarix boyu hər zaman görkəmli şəxsiyyətlər, ədib və şairlər, bəstəkarlar, rəssamlar, dramaturqlar, ifaçılar, qəhrəmanlar olmuşdur. Onlardan bir çoxu öz zamanında böyük işlər görmüş, adları tariximizə düşmüşdür. Lakin elə qəhrəmanlar, dahilər var ki, onların bəşəriyyət qarşısında xidmətləri zaman anlayışını aşıb keçərək tarixin bütün mərhələləri üçün əhəmiyyət daşıyır. XX əsrin dünya şöhrətli görkəmli siyasətçisi, dövlət xadimi, Azərbaycan xalqının Ulu Öndəri, Ümummilli Lideri Heydər Əliyev də məhz belə dahilərdəndir. Onun Azərbaycan dövlətinə rəhbərlik etdiyi illər müxtəlif tarixi-siyasi mərhələlərə təsadüf etsə də, fədakar, uzaqgörən, vətənpərvər, dərin biliyə və geniş zəkaya sahib olan Heydər Əliyevin fəaliyyətinin mərkəzində hər zaman xalq, vətən sevgisi dayanmışdır. Azərbaycanın rifahı naminə görülən işlərin bir qismi də musiqi mədəniyyətinin payına düşmüşdür. Bu sahədə aparılan uğurlu mədəniyyət siyasəti öz dərinliyi, məqsədyönlülüyü, çoxcəhətliliyi ilə xüsusi araşdırma zərurəti yaradır. Mədəniyyət siyasətinin mahiyyətində həm bilavasitə ehtiva etdiyi sahələr, həm də onun təmsilçilərinə istiqamətlənən addımlar, dövlət səviyyəsində verilən qərar və sərəncamlar, onların icra mexanizmi, nəzarət sistemi dayanır. Heydər Əliyevin Azərbaycan xalq musiqisinin inkişafına yönələn fəaliyyəti mədəniyyət siyasətinin bir istiqaməti olaraq təqdim edilən məruzədə dəyərli və mühüm faktlarla zəngin tədqiqat obyekti kimi araşdırılır. Heydər Əliyevin xalq musiqisinin təbliğ və təmsil olunması, inkişafı, dünya səviyyəsində təqdim olunması, onun təmsilçilərinin yüksək səviyyəli yaradıcılıq nailiyyətləri əldə etməsi istiqamətində atılan addımlar bu gün də öz töhfəsini verməkdə davam edir.

Açar sözlər: Heydər Əliyev, mədəniyyət siyasəti, xalq musiqisi, aşıq sənəti, muğam

Summary

Throughout history, the destiny of the Azerbaijani people has always had outstanding personalities, writers and poets, composers, artists, dramatists, performers, and heroes. Many of them did great things in their time and their names have gone down in our history.

However, there are heroes and geniuses whose services to humanity transcend the concept of time and are important for all stages of history. Heydar Aliyev, the world-famous outstanding politician of the 20th century, statesman, great leader of the Azerbaijani people, national leader, is one such hero. Although the years he led the Azerbaijan state coincided with different historical and political stages, the selfless, visionary, patriotic, deeply knowledgeable and intelligent Heydar Aliyev always had love for the people and country at the center of his activities. A part of the work done for the welfare of Azerbaijan has also fallen to the share of musical culture. The successful cultural policy conducted in this field creates the need for special research with its depth, purposefulness, and multifacetedness. In the essence of the cultural policy are the areas directly included in it, as well as the steps directed to its representatives, decisions and orders issued at the state level, their implementation mechanism, control system. The activity of Heydar Aliyev aimed at the development of Azerbaijani folk music is examined as a research object rich in valuable and important facts in the report presented as a direction of cultural policy. The steps taken in the promotion and representation of Heydar Aliyev's folk music, its development, its presentation at the world level, and the achievement of high-level creative achievements of its representatives continue to contribute even today.

Keywords: Heydar Aliyev, cultural policy, folk music, ashiq art, mugham.

Azərbaycanın müasir tarixində şərəfli səhifələrin müəllifi, xalqımızın Ulu Öndəri, Ümummilli Lider, dahi siyasətçi, uzaqgörən dövlət rəhbəri Heydər Əliyevin çoxcəhətli fəaliyyəti bu gün fundamental tədqiqatların mövzusuna çevrilmişdir. Çünki görkəmli dövlət rəhbərinin verdiyi hər bir qərarın gələcəyə hesablanmış hədəfləri özündən illər sonra uğurlu nəticələri ilə xalqa xidmət göstərməyə davam edir. Bugünkü tədbirimizdə təqdim etdiyim məruzə Heydər Əliyevin həm incəsənət ruhlu bir insan, həm də bir dövlət rəhbəri kimi həyatı boyunca hər zaman həssaslıqla yanaşdığı musiqi sənətinə münasibəti, onun inkişafı istiqamətində verdiyi taleyüklü qərarları və ümumiyyətlə, siyasi kursunda Azərbaycan xalq musiqisi ilə bağlı aparılan uğurlu mədəniyyət siyasəti haqqındadır.

“Mədəniyyət, musiqi xalqımızın ən dəyərli sərvətlərindən biridir. Mədəniyyət hər bir xalqı dünyada daha da çox tanıdan, onu təbliğ edən vasitələrdən biridir. Biz isə xoşbəxtik ki, xalqımızın belə zəngin mədəniyyəti, musiqisi, incəsənəti var və bunlar həm xalqımızın özünə mənəvi qida verir, həm də onu dünya xalqları içərisində fərqləndirir, tanıdır, başını ucaldır” (10). Ulu Öndərin mədəniyyətimiz, musiqimiz haqqında söylədiyi dəyərli fikirlər onun bir dövlət rəhbəri kimi fəaliyyətində əhəmiyyətini bu gün də itirməyən qərarları, sərəncamları ilə möhkəmlənmiş və əməli mərhələyə keçmişdir. Məsələnin əsas mahiyyəti ondan ibarətdir ki, Heydər Əliyev həm keçmiş sovet hakimiyyətində məsul vəzifədə çalışdığı illərdə, həm də müstəqil Azərbaycanın prezidenti vəzifəsində eyni milli mənəvi dəyərlərə xidmət edən əsl vətənpərvər, eləcə də zamanın tələbindən asılı olmayaraq, Vətənin, xalqın

mövqeyini hər şeydən uca tutan, lazım gələndə müdrik siyasətçi, lazım gələndə isə böyük cəsarət nümayiş etdirən dahi insan örnəyi yaratmışdır. Onun qarşısını nə sovet hakimiyyətinin Azərbaycana qarşı qeyri-obyektiv və qərəzli mövqeyi, nə də müasir dövrdə dünyanı idarə etməyə çalışan böyük imperiyaların ikili standartları ala bilmişdir. Dövlət rəhbəri olaraq fəaliyyətinin hər bir sahəsi kimi, Azərbaycan musiqi mədəniyyətinin qorunması, təbliğ və təmsil olunması, inkişafı üçün atdığı addımlar, imzaladığı qərar və sərəncamlar bu gün də öz nəticəsini verməkdədir.

Heydər Əliyevin musiqi mədəniyyətinin inkişafına yönələn dövlət siyasəti haqqında danışarkən bir neçə əsas məqamları qeyd etmək lazımdır. Bu mövzu öz-özlüyündə "Heydər Əliyev və Azərbaycan musiqisi" kimi böyük tədqiqat sahəsidir. Ulu Öndərin Azərbaycan musiqisinin müxtəlif istiqamətlərinin inkişafına yönələn xidmətlərinin ayrı-ayrılıqda tədqiqat sahəsi kimi münbit materiallarla zəngin olduğunu vurğulamaq lazımdır. Heç kimə sirr deyil ki, Heydər Əliyev musiqini sevir, sevməklə yanaşı, həm də dünya klassik musiqisi haqqında ensiklopedik biliyə malik idi. Onun bəstəkar yaradıcılığına olan xüsusi diqqəti, klassik musiqinin təbliği istiqamətində atdığı addımlar, eləcə də Azərbaycan bəstəkarlarının yaradıcılığının təbliğ olunması, əməyinin qiymətləndirilməsi, yeni nailiyyətlərə ruhlandıran mükafatların verilməsi, böyük və təntənəli yubiley tədbirlərinin keçirilməsi – bütün bunlar Heydər Əliyev dühasının sənətə və sənətkara verdiyi qiymətin bariz göstəricisi idi. Eyni zamanda bu xidmətin həm də dövlət rəhbərinin birbaşa nəzarəti altında məqsədyönlü və davamlı şəkildə həyata keçirilməsi aparılan mədəniyyət siyasətinin ciddiyyətindən xəbər verir. Heydər Əliyev və Azərbaycan musiqisi mövzusu həm də uzaqgörən dövlət rəhbərinin apardığı mədəniyyət siyasətinin xalq yaradıcılığı, aşıq və muğam sənəti, folklor irsinin qorunması kimi istiqamətlərinin də təhlilini zəruri edir.

Azərbaycan xalq musiqisi özündə aşıq və muğam sənəti, eləcə də folklor musiqisi irsini ehtiva edir. Bu irsin qorunması məsələsini hələ XX əsrin əvvəllərində dahi bəstəkar, musiqişünas alim Üzeyir Hacıbəyli musiqiçilər qarşısında mühüm vəzifə kimi qoymuş, özü də həyatı boyu xalq musiqisinin toplanmasına, arxivləşdirilməsinə və gələcək nəsillərə ötürülməsinə çalışmış, bu sahədə böyük xidmətlər göstərmişdir. Onunla çiyin-çiyinə çalışan Bülbül, Əfrasiyab Bədəlbəyli, o cümlədən Qara Qarayev, Zakir Bağırov, Tofiq Quliyev, Cövdət Hacıyev, Fikrət Əmirov, Məmmədsaleh İsmayılov, Səid Rüstəmov və digər musiqiçilərin də zəhməti sayəsində mühüm işlər görülmüş, xeyli sayda aşıq havaları, dastanlar, muğamlar, xalq mahnı və rəqsləri toplanıb nota salınaraq dərc edilmişdir.

Bu məsul işin davam etdirilməsində xüsusi rolu olan Heydər Əliyevin Azərbaycan musiqi sənətinə olan diqqəti, qayğısı və bu sahədə gördüyü işlərin mahiyyətini vurğulamaq üçün onları bir neçə istiqamətdə qruplaşdırmaq olar. Bu istiqamətlərdən biri xalq musiqi təmsilçilərinin, xanəndə və sazəndələrin, aşıqların, instrumental ifaçıların yaradıcılığına yüksək qiymət verilməsi, dövlət mükafatları və yubiley tədbirlərinin təşkili, ev və xatirə muzeylərinin açılması ilə səciyyəvi olmuşdur. Xalq musiqisinə və ümumiyyətlə, xalqa məxsus

olan yaradıcı mirasa böyük həssaslıqla yanaşan, onun dəyərini bütün mahiyyəti ilə anlayan Heydər Əliyev hələ XX əsrin 70-ci illərində Azərbaycana rəhbərlik etdiyi zaman bu məsələ ilə bağlı bir sıra dəyərli qərarlar vermiş, eləcə də xalq musiqisinin təmsilçiləri olan xanəndələr, sazəndələr, o cümlədən aşıqların və musiqi sənətinin bir sıra nümayəndələrinin yüksək mükafatlarla təltif edilməsi, onların maddi rifahının yaxşılaşdırılması məqsədilə təqaüdlərin verilməsini təmin etmişdi. Heydər Əliyev xalq musiqiçilərinin ifasından yüksək zövq almaqla bərabər, onların hər zaman yüksək sənət nümayiş etdirməsi, yaşayıb-yaratması üçün ilhamlandıran, ruh yüksəkliyi yaradan fikirləri, yeni yaradıcılıq nailiyyətlərinə həvəsləndirən dəyərli tövsiyələri ilə daim bu insanların yanında olduğunu göstərirdi. 1982-ci ildə xalq musiqisinin qorunmasında, toplanıb arxivləşdirilməsində böyük işlər görmüş, eləcə də bu musiqinin kamil ifaçısı, vokal sənətinin banisi Bülbül Məmmədovun xatirə muzeyinin yaradılması (8, s. 232), 70-80-ci onillikdə Əhməd Bakıxanovun, Bəhram Mansurovun, Habil Əliyevin, Zeynəb Xanlarovanın, Rübabə Muradovanın "Xalq artisti", Həbib Bayramovun, Tələt Bakıxanovun "Əməkdar artist", Kamil Əhmədovun "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına, Xan Şuşinskinin Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmələri (3, s. 7243) çoxsaylı faktların bir qismidir. Azərbaycan muğam sənətinin istedadlı nümayəndəsi və parlaq təbliğatçısı Xan Şuşinskinin yaradıcılığına verdiyi böyük dəyər və qiymət Heydər Əliyevin xalq musiqisinə göstərdiyi xüsusi diqqətin bariz nümunəsidir. Görkəmli xanəndənin 70 illik yubileyi münasibətilə Heydər Əliyev "Qırmızı Əmək Bayrağı Ordeni"nin verilməsi ilə bağlı məktubla Sovet İttifaqı Mərkəzi Komitəsinə müraciət etmiş və 1971-ci ildə bu ali mükafat xanəndəyə təqdim olunmuşdur. Muğam sənətinin keçmiş sovet rəhbərləri qarşısında ucaldılmasına yönələn addımların məqsədi həm də Heydər Əliyevin uzaqgörən mədəniyyət siyasətindən qaynaqlanaraq, əsas hədəf kimi bu sənətin Qarabağ ünvanını göstərmək idi. Bu məqsədi ifadə edən tədbirlərdən biri də 1981-ci ildə görkəmli tarzən, Azərbaycan muğamının parlaq ifaçısı və təmsilçisi Qurban Pirimovun 100 illik yubileyi olmuşdur. Bu münasibətlə, tarzənin öz vətənində – Ağdamın Gülablı kəndində büstü qoyulmuş, burada tədbirlər keçirilmişdir.

Heydər Əliyevin yürütdüyü mədəniyyət siyasətində xalq musiqisinin inkişafı ilə bağlı görülən işlərin daha bir istiqaməti bu sənətin tədqiqi ilə bağlı olmuşdur. Uzaqgörən dövlət rəhbəri yaxşı bilirdi ki, incəsənətin inkişafı həm də onun tarixinin, ənənələrinin, nəzəriyyəsinin öyrənilməsi, tədqiqi və təhlili ilə mümkündür. Bunun üçün isə ilk növbədə musiqi təhsilinin yüksək səviyyədə təşkili, yüksək ixtisaslı peşəkar kadrların hazırlanması, gənc alimlərə qayğı və diqqət göstərilməsi vacibdir. Nəticədə, keçən əsrin 70-80-ci illərində Azərbaycan musiqişünaslığında xalq musiqisinin tədqiqi ilə bağlı ərsəyə gələn dəyərli elmi tədqiqatlar, fundamental əsərlər həmin qayğının uğurlu nəticəsi idi. Bu mənada Əminə Eldarovanın aşıq sənətinə həsr edilmiş monoqrafiyasını, muğam sənətinin tədqiqini həyata keçirən Ramiz Zöhrabovun ərsəyə gətirdiyi kitablar, eləcə də Xalq Musiqi Kabinetinin fəaliyyətinin bərpa olunması, ekspedisiyaların təşkili, aşıq və muğam musiqisinin, folklor irsinin toplanmasında

əldə edilən yeni nailiyyətlər, Bayram Hüseynlinin, Əhməd İsazadənin və digərlərinin xalq mahnı və rəqslərinin toplanması və tədqiqi istiqamətində gördüyü işlər, Səadət Abdullayevanın xalq çalğı alətləri ilə bağlı araşdırmaları və bir çox digər elmi nailiyyətlər qeyd oluna bilər. "70-80-ci illər Azərbaycan folklor musiqisnin inkişafında keyfiyyətcə yeni dövrdür. Bu da bilavasitə Heydər Əliyevin fəaliyyəti nəticəsində baş vermişdir. Həmin illərdə Azərbaycanda müxtəlif sahələr üzrə yüksək ixtisaslı kadrlar hazırlanır, xalq musiqisinin tarixi-nəzəri məsələləri müzakirə edilərək həll olunur, xalq mahnıları, muğam, oyun havaları ilə bərabər, ənənəvi muğam sənətinin və aşıq musiqisinin özünəməxsusluqları araşdırılırdı" (8, s. 241). Bununla yanaşı, Azərbaycan Dövlət Konservatoriyasının yaranmasının 50 illik yubileyi münasibətilə 1972-ci ildə keçirilən "Folklor və müasirlik" ümumittifaq konfransını qeyd etmək lazımdır. Bu tədbir xalq musiqisinin tədqiqinə beynəlxalq miqyasda marağın cəlb olunması, elmi yanaşmanın inkişafı ilə bağlı mühüm addım idi. Bu tədbirdə iştirak edən rus musiqişünas alimi İ.Zemtsovski Sankt-Peterburqun İncəsənət Akademiyasında Azərbaycan muğam ifaçılarının iştirakı ilə "muğam gecələri" təşkil etmişdir (3, s. 7252). Bu da Azərbaycan xalq musiqisinə olan marağın ölkə hüdudlarından kənarda da artması və təsir qüvvəsinin güclənməsi yolunda Heydər Əliyev dühasının göstərdiyi saysız xidmətlərdən biri idi. Elmin inkişafına təkan verən hadisələr həm də Azərbaycan Dövlət Konservatoriyasında "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi", "Azərbaycan xalq çalğı alətləri" kafedralarının yaranması ilə səciyyəvi idi. Bu kafedraların məhsuldar fəaliyyəti bu gün də öz uğurlarını nümayiş etdirməkdədir. Burada fəaliyyət göstərən dəyərli professor-pedaqoq heyəti gənc musiqişünasların yetişdirilməsi ilə yanaşı, xalq musiqisinin tədqiqi sahəsində də xeyli işlər görmüşdür. Bu gün ölkənin müxtəlif elm və təhsil müəssisələrində çalışan bir çox musiqişünas alimlər – həmin kafedrada yerinə yetirilən məqsədyönlü tədris prosesi sayəsində yetişmiş etnomusiqişünaslar, aşıqşünaslar, muğamşünaslar olaraq xalq musiqimizin inkişafına xidmət edir. Heydər Əliyevin mədəniyyəti xadimləri üçün yaratdığı münbit şərait, fikir azadlığı öz bəhrəsini musiqişünaslıq elmində müşahidə edilən yüksək inkişafla da vermiş olur. 70-ci illərdə Azərbaycan musiqişünasları Əminə Eldarova, Ramiz Zöhrabov, Əhməd İsazadə, Sürəyya Ağayeva, Sənubər Bağırova, Elmira Abasova, Zemfira Səfərova, Zemfira Qafarova, Tariel Məmmədov, Fəttah Xalıqzadə, Əvəz Rəhmətov, Oqtay Quliyev, Səadət Abdullayeva və bir çoxları xalq musiqi ifaçıları, aşıq və muğam sənəti ilə bağlı maraqlı dissertasiya işləri üzərində çalışmış, kitablar yazmışlar. Qeyd edək ki, həmin illərdə əldə edilən nailiyyətlər bugünkü musiqişünaslıq elminin meyarlarının formalaşmasında fundamental rol oynamışdır.

Heydər Əliyevin xalq musiqisinin inkişafı naminə gördüyü işlərin bir istiqaməti də ifaçılıq sənətinin təmsil olunması ilə bağlıdır. Gənc nəslin inkişafına xüsusi həssaslıqla yanaşan dövlət rəhbəri daim bu sahədə görülən işlərlə maraqlanmış, müsabiqə və festivalların təşkil edilməsi ilə bağlı göstərişlər vermişdir. 1977-ci ildə Heydər Əliyev bu məqsədlə "Respublikada musiq ifaçılığı sənətinin vəziyyəti və onu daha da yaxşılaşdırmaq tədbirləri

haqqında" qərar vermişdi. Bu qərar ölkədə ifaçılıq sənətinin inkişafında yeni mərhələnin başlanması kimi qeyd edilir. Ulu Öndərə həsr olunan bütün tədqiqatlarda müdrik rəhbərin verdiyi qərarlarla kifayətlənməyərək, onun icrasına nəzarət etdiyini, hətta bu məqsədlə təşkil olunmuş konsertlərdə iştirak etdiyi vurğulanır. Şəxsən dövlət rəhbərinin iştirak etməsi həm tədbir iştirakçılarının məsuliyyətini artırır, həm də gənclərdə xalq musiqisinə marağın artmasına təkan verirdi. Respublikanın paytaxtdan kənar rayon və qəsəbələrində mədəniyyət klublarının, dərnəklərin, musiqi məktəblərinin fəaliyyətinin genişləndirilməsi, aktivləşməsi də bu illərin təqdirəlayiq qərarları sırasında yer almışdı. Bu işin uğurlu nəticələri kimi onlarla gənc istedadlar sənət meydanına gələn ilk addımlarını ata bilmişdi.

Qeyd etmək lazımdır ki, dövlətin olduqca mühüm və mürəkkəb idarəçilik sistemində mədəniyyət və incəsənətə bu qədər diqqət ayırmaq, buna vaxt tapmaq və sadəcə qərarlar və sərəncamlar imzalamaqla kifayətlənməmək, bu qərarların həyata keçirilməsini şəxsən nəzarətində saxlamaq yalnız Heydər Əliyev dühasına xas olan cəhətlərdir. Azərbaycan bəstəkarlarının konsertlərində şəxsən iştirak edən, premyeralara gələrək incəsənət xadimlərinə öz diqqətini nümayiş etdirən, eyni zamanda musiqi sənətinə göstərdiyi rəğbət və diqqət ilə hər kəsə örnək olan Heydər Əliyevin bu münasibəti musiqi camiyəsi üçün çox dəyərli idi. Azərbaycan Dövlət Filarmoniyasında mütəmadi təşkil edilən konsertlərdə dövlət nümayəndələrinin iştirakını tövsiyə edən, özü də bu tədbirlərdə məmnuniyyətlə iştirak edən Heydər Əliyev konsert sonrası musiqiçilərlə görüşər, onları uğurları münasibətilə təbrik edər və yeni yaradıcılıq uğurlarına ruhlandıran dəyərli tövsiyələrini verərdi.

Deyilən faktlar və XX əsrin 70-80-cı illərinin mənzərəsi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdə musiqi sənəti və xüsusilə xalq musiqisinin inkişafında nə qədər dəyərli və məhsuldar nəticələrin əldə edildiyi göz qabağındadır. Bu da göstərir ki, Heydər Əliyev bir dövlət rəhbəri kimi qəlbində hər zaman alovlanan vətən sevgisi, öz xalqının mədəniyyətinə, ədəbiyyatına, musiqisinə duyduğu böyük məhəbbət hissi yalnız sənət incilərindən zövq almaqda kifayətlənmir, həm də onun qorunması, inkişafı, təbliğ və təmsil edilməsi, sənət daşıyıcılarına yüksək diqqət və dövlət qayğısı ilə nümayiş etdirirdi. Azərbaycanda Ukrayna SSR ədəbiyyatı və incəsənəti günlərinin iştirakçıları şərəfinə qəbulda Heydər Əliyev belə bir fikir səsləndirmişdir: "İncəsənətin gücü tək onda deyildir ki, insanı sevindirir, ilhamlandırır, ucaldır, əməyə həvəsləndirir, onun həyatını zənginləşdirir, həm də ondadır ki, incəsənətin, ədəbiyyatın köməyi ilə xalqın daxili aləmini öyrənmək, onun əzəmətini görmək mümkün olur, xalqın əmək rəşadəti öz bədii əksini tapır" (5, s. 75). Bu ideyadan yol alaraq dahi lider öz xalqının mədəniyyətini, musiqisini böyük fəxr və qürur hissi ilə nümayiş etdirməyi, dünya ölkələrində təmsil etməyi Azərbaycan dövlətinin ümdə vəzifəsi hesab edirdi. Çünki o, yaxşı başa düşürdü ki, xalqı tanıdan və olduğu kimi göstərməyə qadir olan onun incəsənəti, ədəbiyyatı, musiqi sənətidir. Milli mənəvi-dəyərlərə sahib olmayan, onlara dəyər verməyən insanı isə Heydər Əliyev vətənpərvər hesab etmirdi: "Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiləyələnməlidir. Gənclərі-

miz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" (1, s. 178).

Heydər Əliyevin apardığı uğurlu mədəniyyət siyasəti Ulu Öndər tərəfindən müstəqillik illərində daha da güclənmiş və məqsədyönlü şəkildə davam etdirilmişdir. Azərbaycanın müstəqillik əldə etməsini və onun qorunub saxlanmasını mühüm vəzifə hesab edərək, ölkənin ziyalı təbəqəsini, şair və ədibləri, bəstəkarları hər zaman ətrafında sıx birləşməyə çağıran dövlət rəhbəri milli ideologiyanın formalaşdırılmasında və təbliğində incəsənət ustalarının rolunu hər zaman vurğulayırdı. "Azərbaycana rəhbərlik etdiyi otuz ildən artıq tarixi dövrdə musiqi incəsənətinə məhz bu cür sistemli və kompleks yanaşması, Azərbaycan milli musiqi mədəniyyətinin dünənini, bugününü, gələcəyini, inkişaf imkanlarını məhz ümummədəni kontekstdə qiymətləndirməsi və müəyyən etməsi Heydər Əliyevin həyata keçirdiyi dövlət mədəniyyət siyasətinin əsas prioriteti və məqsədlərindən idi" (2, s. 7).

Xalqın istəyi və iradəsi ilə Azərbaycana rəhbər təyin edilikdən sonra, çətin və ağır siyasi, iqtisadi durumda olan ölkənin çoxsaylı problemlərini həll etməklə məşğul olan, daxili və xarici siyasəti məqsədyönlü məcraya salan dövlət rəhbəri hətta bu dövrdə də mədəniyyət problemlərini diqqətdən kənarda buraxmamışdır. "Bizim bənzərsiz xalq musiqimiz və ondan bəhrələnən müasir peşəkar musiqimiz var" (6, s. 155) deyən Ulu Öndər Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin 110 illik yubileyində böyük bir nitq söyləmişdir. Əvəzedilməz musiqi xadiminin yaradıcılığına böyük qiymət verən Heydər Əliyev xalq musiqisinin qorunmasında və peşəkar səviyyədə təbliğində Üzeyir Hacıbəylinin rolunu xüsusi olaraq vurğulamışdır. Üzeyir məktəbinin davamçıları olan bəstəkarlara, ifaçılara Prezident təqaüdünün verilməsi Heydər Əliyevin çətin iqtisadi dövrdə Azərbaycan musiqisinə göstərdiyi mühüm qayğılardan biri idi. Bu musiqiçilər sırasında "Tofiq Quliyevin, Cövdət Hacıyevin, Süleyman Ələsgərovun, Hacı Xanməmmədovun, Şəfiqə Axundovanın, Hökumə Nəcəfovanın, Məmməd Cavadovun, Arif Məlikovun, Vasif Adıgözəlovun, Xəyyam Mirzəzadənin, Azər Rzayevin, Ramiz Mustafayevin, Tofiq Bakıxanovun, Aqşin Əlizadənin, Ramiz Mirişlinin, Musa Mirzəyevin, Nəriman Məmmədovun, Elza İbrahimovanın, Oqtay Kazımovun, musiqişünas Elmira Abasovanın" (11, s. 7) adları çəkilir. Bununla yanaşı, Ulu Öndərin "Sovet musiqisi" jurnalının 1979-cu il, 11-ci nömrəsində dərc edilmiş Azərbaycan Bəstəkarlarının V qurultayındakı çıxışından bir fikri səsləndirmək istərdim: "Azərbaycan xalqının, bildiyiniz kimi, zəngin musiqi irsi vardır. Biz burada əsrlər boyu nəsildən nəslə keçən xalq yaradıcılığını, folklor musiqisini nəzərdə tuturuq. Həm də yaxın dövrdə yaranıb və yüksək inkişaf yolu keçmiş professional musiqini nəzərdə tuturuq, hansı ki bu gün özünün ən yüksək peşəkar sənət səviyyəsinə yüksəlmişdir. Bax budur sizin yaradıcılığınızın qayəsini təşkil edəcək, əsaslanmalı olduğunuz zəngin mənbə, münbit material!" (12, s. 19). Xalq musiqisinə verilən yüksək qiymətin daha bir parlaq nümunəsi! Heydər Əliyev Azərbaycan bəstəkarlarına bu zəngin musiqi irsinə müraciət etməyi və hətta bütün yaradıcılıq meyarlarını məhz onun üzərində qurmağı tövsiyə edirdi. O bu irs haqqında olduqca yüksək fikirlər söyləyirdi.

Məsələn, Azərbaycan vokal sənətinin banisi Bülbülün 100 illik yubileyi gecəsində Ulu Öndərin nitqində belə fikirlər yer almışdı: "Bizim xalqımızın böyük musiqi mədəniyyəti tarixi var. Azərbaycan xalqının qədim dövrlərdən indiyə qədər yaşayan xalq musiqisi, xalq mahnıları, Azərbaycan muğamları bizim sərvətimizidir" (6, s. 177). Xalq musiqi irsinin, muğamların, xalq mahnı və rəqslərinin, aşıq sənətinin Azərbaycan peşəkar musiqi sənətinin inkişafında roluna diqqət yönəldən Heydər Əliyev bununla da incəsənət nümayəndələrinin hər birini məhz bu zəngin mənbədən bəhrələnməyə çağırır və əsl sənət nümunəsinin məhz bu meyarlar sayəsində yarana biləcəyini vurğulayırdı. Bülbülün sənətinə yüksək qiymət verən Heydər Əliyev onun sənətində məhz bu məqamı diqqətə çatdırır: "Ondan əvvəlki böyük sənətkarlardan fərqli olaraq, Bülbül həm xalq musiqisini, muğamı ən yüksək bəşəri səviyyələrə qaldıra bilmişdir, həm də bizim zəngin muğam, xalq musiqimizin əsasında professional vokal sənətinin yaranmasının banisi olmuşdur" (6, s. 177).

Heydər Əliyevin təkcə Azərbaycan musiqi sənəti üçün gördüyü işlər, onun inkişafı naminə göstərdiyi xidmətlər haqqında uzun müddət danışmaq olar. Onun təkrarolunmaz zəkası və dərin erudisiyası qarşısında bir musiqişünas kimi heyrət etməmək qeyri-mümkündür. Həm milli, həm də dünya musiqisi haqqında bu qədər geniş biliyə sahib olmaq, musiqi əsərlərinin dramaturgiyasını, fəlsəfəsini ən azı bu sahənin mütəxəssisi kimi dolğun təhlil etmək bacarığı Heydər Əliyevin şəxsiyyətinin yüksək səviyyəli ziyalı və mütəfəkkir obrazını ortaya qoymuş olur. Onun həcmindən və janrından asılı olmayaraq hər bir musiqi əsəri, kiçik bir xalq mahnısından muğam dəstgahlarına qədər, romansdan operaya, simfoniyaya qədər hər birinə diqqətlə və məsuliyyətlə yanaşması, həssas tənqidçi mövqeyi Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti mövzusunun geniş tədqiqat obyekti kimi dəyərləndirməyə imkan verir.

Məruzəmin sonunda mən Heydər Əliyev ənənələrinin bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini də vurğulamaq istərdim. Azərbaycan musiqisinin, incəsənətinin təbliğ və təmsil edilməsi, tədqiqi istiqamətində Heydər Əliyev Fondunun fəaliyyəti təqdirəlayiqdir. Heydər Əliyevin dəyər verdiyi Azərbaycan musiqisi, muğamlar, aşıq sənəti, eləcə də bəstəkarlıq yaradıcılığının və ifaçılığın inkişafı istiqamətində yüksək səviyyədə işlər görülmüşdür və bu, silsilə şəkilində davam etdirilir. Xalq musiqisinin inkişafına yönələn çoxsaylı layihələr, o cümlədən aşıq və muğam sənətinin YUNESKO-nun dünyanın qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi, "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" albomu, "Muğam-İrs", "Muğam-dəstgah", "Muğam-ensiklopediya", "Muğam-internet", "Muğam-antologiya", "Muğam aləmi", "Muğam mərkəzi" layihələri, Televiziya Muğam müsabiqəsi, Beynəlxalq Muğam Mərkəzinin tikilməsi və 2009-cu ildən başlayaraq keçirilən Beynəlxalq Muğam festivalları, 2010-cu ildə keçirilmiş Beynəlxalq Aşıq festivalı, o cümlədən klassik bəstəkar yaradıcılığının, instrumental ifaçılıq sənətinin inkişafına yönələn çoxsaylı layihələri, tədbirləri, dünyanın müxtəlif ölkələrində təşkil edilən mədəniyyət günlərini, sərgi və konsertləri və s. sadalamaq olar. Göründüyü kimi, Heydər Əliyev Fondu digər mədəniyyət ocaqlarının, dövlət idarələrinin də iştirakı ilə böyük layihələri həyata keçirməklə Heydər Əliyevin mədəniy-

yət siyasətinin uğurlu davamçısına çevrilmişdir. Hələ keçən əsrin ikinci yarısında təməli qoyulan bu meyarlar, gələcəyə hesablanmış çoxsaylı qərarlar bu gün də öz bəhrəsini verməkdədir. Mən məruzəmi Azərbaycanın dahi bəstəkarı Üzeyir Hacıbəylinin bir fikri ilə tamamlamaq istərdim. "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə, bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə, öləndən sonra da camaata mənfəət verirlər" (9). Üzeyir bəyin söylədiyi bu fikir Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev şəxsiyyətinə bütünlüklə şamil oluna bilər. Zamanında görülən böyük işlərin səmərəsini bu gün görən biz gənclər isə böyük şəxsiyyətin qarşısında dərin ehtiramla baş əyir və deyirik: Nə yaxşı ki, Azərbaycan xalqının Heydər Əliyevi olub, var və hər zaman olacaq.

QAYNAQLAR:

1. Abbasov N. Mədəniyyət siyasəti və mədəni irs / Bakı: ADMİU, 2011. 220 s.
2. Abduləliyev A. Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti // Bakı: Musiqi dünyası, 2008. №1-2(35), s.4-17.
3. Abduləliyev A. Heydər Əliyevin mədəniyyət siyasətində Azərbaycan muğam sənətinin qorunması, təbliği və inkişaf məsələləri. I məqalə // Bakı: Musiqi dünyası, 2014. №: 4(61), s.7242-7259.
4. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı// https://president.az/az/articles/view/57413
5. Heydər Əliyev və mədəniyyət // Tərt: S.Məmmədliyeva, T.Əhmədov. Bakı: AZMTN, 2008, I cild. 472 s.
6. Heydər Əliyev mədəni irsimizin keşiyində // Bakı: Nurol printing and packaging industry inc., 2001. 546 s.
7. Heydər Əliyev Fondu//https://heydar-aliyev-foundation.org/az/content/blog/73/M%C9%99d%C9%99niyy%C 9% 99t
8. Qasımlı M.C. Heydər Əliyev – istiqlala gedən yol (1969-1987) // Bakı: Bakı Universiteti nəşriyyatı, 2006. 608 s.
9. Qarabağlı S. Heydər Əliyev və Üzeyir bəy fenomeni // https://kaspi.az/az/heyder-eliyev-ve-zeyir-bey-fenomeni
10. Təhmirazqızı S.T. Heydər Əliyev və Azərbaycan musiqi mədəniyyəti // https://respublika-news.az/news/heyder-eliyev-ve-musiqi-medeniyyeti.
11. Zöhrabov R.F. Heydər Əliyev və Azərbaycan Bəstəkarlar İttifaqı // Musiqi dünyası, 2004. №3-4(21), s.3-11

Rus dilində

12. Алиев Г.А. Высокий долг и призвание композитора // Россия: Советская музыка, 1979. № 11, с.18-27.

HƏR ZAMAN HEYRƏTLƏNDİRMƏYİ BACARAN LİDER

THE LEADER WHO ALWAYS MANAGES TO SURPRISE

Mahir CAVADOV
AMEA Folklor İnstitutu Nəşriyyat şöbəsinin müdiri,
mahcavadli@gmail.com

Özət

Məqalədə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyatı və fəaliyyəti, onun bir dövlət başçısı, ictimai və siyasi xadim kimi dinamik inkişafla bərabər, milli-mənəvi dəyərlərin qorunması, çoxəsrlik tariximiz boyu formalaşmış adət-ənənələrin yaşadılması naminə səylərindən bəhs edilir. Vurğulanır ki, istər sovetlər dönəmində, istərsə də müstəqillik illərində Ulu Öndər bütün imkan və səlahiyyətlərindən, vəzifəsindən Azərbaycanın iqtisadi inkişafının sürətləndirilməsi, ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələrinin firavan həyat sürməsi, maddi rifah halının yaxşılaşması üçün maksimum bəhrələnməyə çalışmış və buna nail olmuşdur.

Heydər Əliyev bilik və bacarığı, idarəçilik məharəti, fenomen yaddaşı, qətiyyəti və prinsipiallığı ilə dünyanın nadir şəxsiyyətlərindən biri kimi dünya tarixində dərin iz salmışdır. Onun ölkəmizə rəhbərlik etdiyi illər Azərbaycan dövlətçilik ənənələrinin formalaşdığı dövrü əhatə edir. Heydər Əliyev xalqımızın yaddaşında daim yaşayacaq və məmnunluqla xatırladacaq. Çünki onun möhtəşəm siyasi kursunu varisi – Azərbaycan Respublikasının prezidenti İlham Əliyev atasının yolunu uğurla davam etdirir. Azərbaycançılıq ideyası, vətənsevərlik, dünəninə söykənərək, milli-mənəvi irsin daşıyıcısı olaraq daim tərəqqi edən, sivil, demokratik, hüquqi dövlətimizin müstəqilliyi əbədi və dönməzdir.

Açar sözləri: lider, müstəqil, dövlət, xalq, əbədi.

Summary

In the article it is said about the life and activities of the national leader of the Azerbaijani people Heydar Aliyev, his efforts to preserve national and moral values and traditions formed throughout our centuries-long history along with dynamic development as a head of state, social and political figure. It is emphasized that both in the Soviet era and in the years of independence, the Great Leader tried to make maximum use of all his opportunities, powers and duties to speed up the economic development of Azerbaijan, to lead a prosperous life of the representatives of all nationalities living in our country, and to improve the material well-being, and he succeeded in this.

Heydar Aliyev has left a deep mark in world history as one of the rare historical figures of the world with his knowledge and skills, management skills, phenomenal

memory, determination and principles.HIs tenure as a president of our nation spans the formation Azerbaijani statehood traditions. Heydar Aliyev will always live in the memory of our people and will be remembered with pleasure. Because his successor, President of the Republic of Azerbaijan Ilham Aliyev, who continues his great political course, is successfully following his father's path. The concept of Azerbaijanism, patriotism, the independence of our civilized, democratic, legal state, which is constantly progressing as the bearer of the national-spiritual heritage, is eternal and irreversible.

Key word: leader, independent, state, nation, forever.

“2023-cü ilin Heydər Əliyev ili elan olunması haqqında” Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli sərəncamının əhəmiyyəti həm də bu mühüm sənədin qəbul edilməsi səbəbinin labüdlüyünü əks etdirməsindədir. Sərəncamda Heydər Əlirza oğlu Əliyevin həyat və fəaliyyəti həm “Azərbaycana rəhbərliyinin birinci dövründə”, həm də “tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı” müasir dövrdə geniş və əhatəli şəkildə işıqlandırılır. Bu mühüm tarixi sənəd ötən əsrin sonlarında mənfur qonşularımızın silahlı təcavüzü nəticəsində işğala məruz qalan gənc Azərbaycan Respublikasının çətin sınaqlardan keçərək, yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoyması faktı bu şəxsiyyətin fenomenal rəhbərlik xüsusiyyətlərinin təzahürü kimi qabarıq əks etdirir. Heydər Əliyev xalqımızı zamanın mürəkkəb tarixi-siyasi prosseslərinə adekvat addımlar ataraq və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyət kimi səciyyələndirilir.

Fəlsəfədə dahiləri niyyətlərinin, hisslərinin və işlərinin böyüklüyü çoxlarından fərqlənənlər, üstün olanlar, tarixdə hamıdan və hər şeydən artıq heyrətə gətirən konkret varlıqlar kimi dəyərləndirirlər. Başqa mənada, uğur qazanmağın bir yolu da məhz heyrətləndirmək bacarığındadır. Bu bacarıq olmadan inandırmaq, tələqin etmək və ən sonda uğur qazanmaq mümkünsüzdür. Heydər Əliyevin Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış həyat və fəaliyyətı heyrətamiz və bənzərsizdir, fövqəl və təkrarsızdır. Bu böyük insanın şan-şərəf dolu ömrünə, yaşamaq və yaratmaq uğrunda mübarizə metodlarına yaxından bələd olmayanlar onu dərk edə bilməzlər. Ümumiyyətlə, dünyanın nadir şəxsiyyətlərinin fenomenal xarakterlər kriteriyalarına daxil edilən Heydər Əliyev dühası daim öyrənilməyə, dərk edilməyə və öyrədilməyə layiqdir və gələcəkdə də belə olacaqdır. Çünki zaman ötdükcə onun azərbaycançılıq, müstəqil dövlətçilik ideyaları daha dərindən özünü büruzə verir, müasir Azərbaycanımız daha böyük uğurlara imza atdıqca, hərtərəfli inkişafı ilə beynəlxalq aləmdə nüfuz sahibinə cevrildikcə Heydər Əliyevin amalları daha aydın görünür; uzaqlaşdıqca əzəməti göz qamaşdıran zirvə kimi!

İkinci minilliyin sonlarında yadelli havadarlarının himayəsi ilə torpaqlarımızı işğal edən Ermənistan kimi mənfur düşmənin, eyni zamanda daxili siyasətbazların çəkişmələrinə

məruz qalan gənc Azərbaycan dövləti məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Cəbhədə bir-birini əvəz edən uğursuzluqlar, işğalın xüsusi erməni amansızlıqları ilə həyata keçirilməsi, qaçqın və köçkünlərin siyasi mənzərəyə təsiri ehtimalı, ölkəmizin imicinə qarşı mütəşəkkil surətdə aparılan beynəlxalq kampaniyalar təcili və ciddi dəyişikliyin baş verməsini labüd edirdi. Bu zaman bəlalardan qurtulmaq istəyən əsl vətənpərvər insanların, zəka sahiblərinin dilinə və ürəyinə Heydər Əliyev adı yatsa da, ağılsız xudpəsəndlər qeyri fikirlər səsləndirirdilər. Lakin xalqın həmrəyliyi və qətiyyəti öz işini gördü. 20 Yanvar qırğınında qaniçən ordunu və sovet rəhbərliyini cəsarətlə ittiham edən, irticaçı Kremlin bir addımlığında səfirliyimizə gedərək cəsarətlə bəyanat verən və tezliklə Moskvadan doğma Naxçıvanın xilasına gedən Heydər Əliyev bu dəfə çətin və məsuliyyətli missiyasını bütün Azərbaycanımızın xilası uğrunda mübarizəsi ilə həyata keçirməli oldu.

Böyük şəxsiyyətin paytaxta gəlişi zamanı xalq coşqusu və böyük ümidlərlə qarşılanması bəzilərinin Heydər Əliyev haqqında süni şəkildə qızışdırmaq istədikləri yersiz söhbətləri alt-üst etdi. Qayıdış günü hava limanından parlamentə qədər liderini qarşılamağa çıxmış insanların izdihamı müşahidə olunurdu. Kəsilən qurbanlar, əllərində al-əlvan çiçək dəstələrini yelləyərək liderini salamlayan insanların alqış səsləri xalqın dərin sevgisinin təzahürü idi. Həmin günü belə coşqunu, getdikcə artan canlı izdihamı təyyarə limanından tutmuş prezident iqamətgahınadək bütün yol boyu seyr etmək mümkün idi. Dahi şəxsiyyət özünün də dərindən bildiyi, vaxtı ilə kimlərinsə müşayiət marşrutunda ciddi tələb kimi təhlükəsizlik komandasının qarşısına qoyduğu protokol qaydalarından kənara çıxaraq insanların sıx olduğu yerlərdə maşından düşür, insanlarla salamlaşır, yenidən yolunu davam etdirirdi. Bu izdihama qoşulanların bəzilərinə liderlə salamlaşmaq qismət olsa da, çoxlarına yalnız uzaqdan əl yelləmək qalırdı. Ancaq bu bircə anı saatlarla, günlərlə gözləməyə dəyərdi. Bu sırada olanlar sanki Vətənin, şəhidlərimizin, azadlıqsevər həmvətənlərimizin qanı bahasına qazanılmış müstəqilliyin, dövlətçiliyin xilası yolunda özünü müqəddəs bir vəzifə başında hiss edirdi. Bütün mənalı həyatı və fəaliyyəti boyu coşqun qarşılanmalara alışmış Heydər Əliyev bu izdihamların məzmun və mahiyyətini dərindən dərk edirdi. Heydər Əliyev onun pişvazına çıxmış insanları sevindirən hərəkət qrafikinə salınmamış jestləri ilə öz cangüdənlərini təəccübləndirdiyi kimi, sonradan ona dəfələrlə ciddi-cəhdlə ölüm tələsi hazırlamış düşmən qüvvələrin və xarici dövlətlərin xüsusi xidmət orqanlarının və mütəşəkkil cinayətkar dəstələrin terrorçularını da təəssüfləndirə bilmiş, mütəxəssislərin verdiyi rəylərə görə dəqiqliklə hesablanmış sui-qəsdlərdən sağ-salamat qurtula bilmişdir. Bu haqda söhbət düşəndə o, xəfifcə gülümsəyərək deyəcəkdi: "Mən həyatda heç kimdən, heç nədən qorxmuram, çünki məni Allahım qoruyur!" Xalqımıza Heydər Əliyev kimi dühanı bəxş edən Tanrı onu mənfur qüvvələrin hazırladığı qəzalardan da qoruyurdu.

Heydər Əliyev bir çox məqamlarda öz təşəbbüsü ilə, bəzən ölkənin ən vacib, xüsusən bir dövlət başçısı kimi özünə görə sıx tədbirlər reqlamentini pozaraq sadə camaatın yanında olmağı, onlarla səmimi söhbət etməyi sevərdi. Buna dair yüzlərlə misal çəkmək, yüzlərlə

nümunə gətirmək olar. Bəzən tədbir təşkilatçılarının günlərlə əziyyət çəkdikləri, dəfələrlə yoxladıqları, saatlarla məşq elətdirdikləri (təhlükəsizlik qaydaları bunu tələb edir), anbaan nizamladıqları ssenarini Ümummilli Liderin bir hərəkəti, yerində söylənən hər hansı xatırlaması, replikası poza bilərdi. O, dərin zəkası, hazırcavablığı, həm də səmimiliyi ilə belə məqamların ən məharətli bilicisi, ən usta ifaçısı idi, təcrübəli dövlət başçısı, dünyagörmüş siyasətçi kimi hər şeyi yaxşı bilir və görürdü. Protokoldan yayınmaları isə elə incəliklə nizamlayırdı ki, kənar müşahidəçi tərəfindən qəti hiss olunmurdu. Köçkün rayonun ictimaiyyəti ilə görüşlərin birində tədbir təşkilatçılarının siyahısına düşməyən rayon ağbirçəyi sonra bu görüşdə Heydər Əliyevə o birilərdən də yaxın əyləşdiyini, söz alıb çıxış etdiyini, ölkə başçısı ilə səmimi söhbətini qürur hissi ilə xatırlayacaqdı:

"Geyinib-kecinib, orden-medallarımı taxıb yollandım prezidentin qəbuluna. Qapıda dedim ki, mən Heydər Əliyevlə görüşə gəlmişəm. Cavab verdilər ki, adın siyahıda yoxdur. Dedim, nətəri olur, rayonda əksər tədbirlərdə məni irəli verirlər, bu kişinin qəbuluna gələndə siyahıda olmuram?!"

Əlbəttə, bu cür ciddi görüşlər zamanı təsadüflərin mümkünsüzlüyü təhlükəsizlik tədbirlərindən az-çox xəbəri olan hər bir kəsə bəllidir. Ancaq hər kəsə bəlli olanlar da Heydər Əliyev kimi bir dahinin şəxsində təkzib oluna bilərdi. Ucqar bir rayon ağbirçəyinin rəhbərlə görüşə can atması xalqın, uşağından tutmuş böyüyünə qədər hamının Ulu Öndərə sevgisindən doğurdu. Onun siyahıdan kənar görüşdə iştirak edə bilməsi və səmimi söhbəti lider-xalq birliyinin Heydər Əliyev hakimiyyət strukturunda ən mühüm amil olduğunun təzahürüdür ki, bu amil bu gün də özünü qabarıq şəkildə göstərir. Cəbhə bölgələrində əsgər və zabitlərlə, müəssisə və təşkilatlarda, pambıq tarlalarında sadə camaatla, əmək kollektivləri, incəsənət və elm adamları ilə gözlənilməz səmimi görüşləri, açıq fikir mübadiləsi, diskussiya və mülahizələr, bəzən atmaca və zarafatlar Ulu Öndərin protokoldan kənar gözlənilməz jestlərində özünü göstərirdi, bu gün müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik rəhbər, yenilməz lider kimi həm də işğaldan azad olunmuş rayonlarda hakimiyyət-xalq birliyinə nail olmasının ifadəsi kimi davam etdirilir. Dövlət başçısının hər hansı bir tədbirdə yaşlı nənəyə yaxınlaşıb onu qucaqlaması, bir uşağı qucağına alıb əzizləməsi, vətəndaşla səmimi söhbət aparmaq praktikası günümüzün real və qürurverici səhnələrindəndir.

Heydər Əliyev öz cismani yoxluğu ilə də dünyanı heyrətləndirə bilmişdi. Azərbaycan xalqının böyük oğlu, dünyanın nadir şəxsiyyətlərindən olan Heydər Əlirza oğlu Əliyevin vəfatı bütün azərbaycansevərləri, türk, islam dünyasını, yer üzünün dərin zəkalı insanlarını kədərləndirdi. Həmin matəm günlərində bütöv Azərbaycan, azərbaycansevərlər, Ulu Öndərin şəxsiyyətinə dərin rəğbət və məhəbbət bəsləyən hər kəs paytaxt Bakımızda olmaq, şəhərin ən hündür guşəsində xalqın görkəmli simalarının dəfn olunduğu Fəxri Xiyabana gəlmək, izdihama qoşularaq böyük şəxsiyyətim ruhu qarşısında baş əymək istəyirdi. Respublikamızın ən ucqar rayonlarından, dağ kəndlərindən, başqa-başqa ölkələrdən insanlar bu dahi şəxsiyyəti son mənzilə yola salmağa axışırdılar. Dəstə-dəstə insanlar Ümummilli Liderlə vidalaş-

maq üçün şəhərin bu başından o başına saatlarla piyada yol gəlir, növbə ilə məzarına təzə-tər güllər düzür, hörmət və ehtiramlarını bildirirdilər. Öz liderinə inanan, həmişə onu böyük izdihamlarda gül-çiçəklərlə qarşılamış xalq, eyni coşqu ilə də dahi oğlunu son mənzilə yola salırdı. Qürurverici haldır ki, bu gün də hamılıqla və ayrı-ayrılıqda, müxtəlif günlərdə və anım mərasimlərində ölməz liderini ziyarət etməyi insanlar özlərinə müqəddəs borc sayırlar.

Ümummilli Lider Heydər Əliyev dünyanın nadir şəxsiyyətlərindən idi. Onun istər respublikamıza birinci hakimiyyəti dövrü, istərsə də xilaskarlıq missiyasını yerinə yetirdiyi illər Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Bu gün müstəqil dövlət kimi varlığımız, bütöv Vətən kimi mövcudluğumuz Heydər Əliyev siyasətinin nəticəsi və təntənəsidir. Hakimiyyətin bütün pillələrində canı-qanı, fitri istedadı, quruculuq bacarığı ilə Azərbaycan naminə çalışan Ulu Öndər xilaskarlıq missiyasının son şərəfli vəzifəsi isə İlham Əliyevi xalqımıza ərməğan etməsi oldu. "Mən ona inanıram" deyərək xalqımızı varisi və davamçısı ətrafında sıx birləşməyə çağırdı. "Torpaqlarımızın azad olunacağına qəti əminəm" deyərək bütün dünyaya Azərbaycan həqiqətlərini çatdırmağa çalışdı. "Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir" deyərək hərtərəfli quruculuq islahatlarına start verdi. Və "Fəxr edirəm ki, mən azərbaycanlıyam" dedi! Həm də hər kəsin ürəyində bir inam şöləsi yandırdı ki, Azərbaycan adlı məmləkətin hakimiyyət sükanı etibarlı əllərdədir. Ulu Öndərin layiqli varisi, birgə çətin sınaqlarda bərkimiş, müstəqil dövlətçilik məktəbi keçmiş İlham Əliyev öz atasının yolunu qətiyyətlə davam etdirərək xalqımızı, millətimizi işıqlı sabahlara aparır.

44 günlük müharibə bir yumruq kimi birləşmiş xalqımızın möhtəşəm qələbəsi ilə başa çatdı. Ulu Öndərin təməlini qoyduğu strategiya müqəddəs niyyətlərin həyata keçməsinə, ilk növbədə torpaqlarımızın işğaldan azad olunmasına zəmin yaratdı. Azərbaycan Böyük Qayıdışın ilk və ən həssas illərini yaşayır, yüksəliş, tərəqqi yolunda inamla addımlayır! Bu gün biz qürur hissi ilə azərbaycanlı olduğumuzu dünyaya bəyan edirik! Qürurla bəyan edirik ki, müzəffər Ali Baş Komandanı, müdrik Prezidenti İlham Əliyev olan Azərbaycan adlı qüdrətli ölkənin bəxtəvər vətəndaşlarıyıq! Bu azad ölkənin beynəlxalq hüquqa söykənən qanunvericilik bazası, məqsədyönlü daxili və xarici siyasəti, tükənməz maddi sərvəti, zəngin mənəvi irsi və bütün bunlara kəc baxanlara qarşı qətiyyətli mübarizə aparmağa qadir gücü var! Bu varlığımızla dünyaya sülh ölkəsi olduğumuzu, lakin dəmir yumruğumuzun hər an qalxa biləcəyini bildiririk. Bu dəmir yumruq birliyimizin, həmrəyliyimizin rəmzidir! Qüdrətli Azərbaycan dövləti Ulu Öndər Heydər Əliyevin şah əsəridir, əbədi var olacaq və daim çiçəklənəcək! Bu fikir "2023-cü ilin Heydər Əliyev ili elan olunması haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamında daha aydın və təfsilatı ilə ifadə olunur:

"Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".

HEYDƏR ƏLİYEV VƏ DİL SİYASƏTİ

HEYDAR ALIYEV AND LANGUAGE POLICY

Nigar Eldar qızı HƏSƏNOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
AMEA Folklor İnstitutu,
nigar.qasanova.80@mail.ru

Özət

Xalqını, millətini sevən insan ana dilini mükəmməl bilən, bu dili sevərək bu dildə danışan insandır. Dili, bu dildə danışan insanlar yaşadır, xalq yaşadır. Dilin inkişafında dövlət xadimlərinin də rolu böyükdür. Azərbaycan dilinin dövlət dilinə çevrilməsi, dünyanın ən mötəbər toplantılarında dinlənməsi Heydər Əliyevin dil siyasəti ilə bağlıdır.

Məqalədə Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqına, ana dilinə, xalq dilinə hədsiz sevgisindən, dərin hörmətindən bəhs edilir. Ulu Öndərin dil haqqında verdiyi sərəncamlar diqqətə çatdırılır, görkəmli alimlərin, ziyalıların Heydər Əliyevin dil siyasəti ilə bağlı fikirləri yer alır, münasibət bildirilir. Göstərilir ki, cənab İlham Əliyevin imzaladığı sərəncamlar, ana dilinin zənginləşdirilməsi və inkişafı istiqamətində atılan addımlar Ulu Öndərin milli dil siyasətinin məntiqi davamıdır.

Açar sözlər: Ümummilli Lider, dil siyasəti, ana dili, dilin inkişafı, sərəncam.

Summary

A person who thoroughly knows his native language and who speaks this language is a person who loves his people and his nation. People live as the language lives. The statesmen have played a major role in promoting language development. In this regard, the turning of Azerbaijani into the state language, listening to the world's most prestigious meetings is related to Haydar Aliyev's language policy.

The article includes the views of prominent scholars on Haydar Aliyev's language policy, the author's opinions are expressed. It's shown that the orders signed by Mr Ilham Aliyev are the steps taken to enrich and to develop the native language and it's a logical continuation of the national language policy.

Keywords: National leader, language policy, native language, language development, order.

Ana dilimizin yüksəlişi xalqımızın yüksəlişidir. Odur ki, dilimizin inkişafına, saflığına, dilimizə keçən alınma sözlərin yerli-yerində işlənməsinə məsuliyyətlə yanaşmaq hər birimizin vətəndaşlıq borcu olmalıdır. Buludxan Xəlilov qeyd edir ki, dilin inkişafına istiqamət verilməsində, onun bazasının zənginləşməsində dövlət başçılarının, milli Liderlərin də böyük rolu olub. Bu baxımdan, Azərbaycan dilinin inkişafında Ulu Öndərin xidmətləri misilsizdir (11, 82). Akademik Nizami Cəfərov qeyd edir ki, "Heydər Əliyevin fəaliyyətinin öyrənilməsinə keçən əsrin 90-cı illərindən diqqət yetirilir. Bu sahədə akademik Bəkir Nəbiyev, akademik Ağamusa Axundov, professor Nizami Xudiyev, professor Məsud Mahmudov, professor Müseyib Məmmədov, professor Nizaməddin Şəmsizadə, professor Məhərrəm Qasımlı və digər dəyərli elm adamlarımız, öz töhfəlrini verərək, Heydər Əliyev nitqlərinin gələcəkdə kompleks şəkildə öyrənilməsinin əsasını qoymuşlar" (13, II, 3). Akademik Ağamusa Axundovun fikrincə, mübaliğəsiz deyə bilərik ki, yaşadığımız yüzilliyin son otuz ili ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı, onun təkcə sözdə deyil, gündəlik təcrübədə də ümumişlək dilə, dövlət dilinə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə - diplomatiya aləminə yol alması, zənginləşə-zənginləşə nüfuz qazanması və dünyanın mötəbər kürsülərindən eşidilməsi görkəmli dövlət başçısı Heydər Əliyevin adı ilə bağlıdır (7, 4). Əlbəttə, Heydər Əliyevin çıxışlarını, onun fikirlərini, məsələyə münasibətini təhlil etmək, Heydər Əliyev nitqini tədqiqata cəlb etmək böyük məsuliyyət tələb edir. "Cənab Heydər Əliyevin yaradıcılığını tədqiq edənin ilk növbədə öz təfəkkür qüdrəti, tədqiqatçılıq səriştəsi olmalıdır. Bu böyük şəxsiyyətin fəaliyyətindən bəhs edən şəxs tədqiqat zamanı onun elmi, ictimai-siyasi səviyyəsinə yüksəlməli və ya ona yaxınlaşmalıdır. Əks təqdirdə, əsasən səthi fikir söyləməkdən, sözçülükdən kənara çıxa bilməz. Cənab Heydər Əliyev yaradıcılığını tədqiq edən şəxs onun yaşadığı dövrdə baş verən hadisələr axınında tutduğu mövqeyi, keçdiyi həyat yolunu, bu yolboyu baş verən çoxşaxəli prosesləri və o proseslərin ümumi mənzərəsini tam dərk edərəkdən elmi təhlilə başlamalıdır" (5, 86).

18 oktyabr 1991-ci ildə müstəqillik haqqında Konstitusiya aktı qəbul edildi. Bununla da Azərbaycan dilinin dövlət dili kimi işlənməsinə şərait yarandı. 1992-ci il 15 may tarixindən – Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra dövlət Azərbaycan dilində idarə olunmağa başlandı. Həmin ilin 22 dekabr tarixində "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun qəbul edildi. Bu zaman Milli Məclisin üzvlərinin səs verməsi ilə "Azərbaycanın dövlət dili türk dilidir" qanunu qəbul olunmuşdur. Ulu Öndər Heydər Əliyev göstərirdi ki, 1992-ci ilin dekabrında Milli Məclis tərəfindən qəbul olunmuş qanun, qanunvericilik nöqteyi-nəzərindən qeyri-qanuni bir sənəddir. Çünki Azərbaycanın dövlət dili haqqında dəyişiklik etmək üçün gərək əvvəlki qanun ləğv ediləydi. Qəbul olunmuş bu adi qanun, şübhəsiz ki, Konstitusiyada dəyişiklik edə bilməzdi. Azərbaycan Respublikasının

1978-ci ildə qəbul olunmuş Konstitusiyasında "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" yazılıbdır. 1992-ci ilin dekabr ayında isə Milli Məclisin 26 üzvünün səs verməsi ilə "Azərbaycanın dövlət dili türk dilidir" qanunu qəbul olunmuşdur (4). Heydər Əliyev həmin dövrdə dilimizin adının müxtəlif cür adlandırılması məsələsində olduqca dəqiq idi. Məsələyə arxiv materiallarından gətirdiyi sübutlarla aydınlıq gətirir, hüquqi yanaşır, təhlillər aparırdı. Nəhayət, ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması qərarlaşdı. 18 iyun 2001-ci il tarixində "Dövlət dilinin təkmilləşdirilməsi haqqında" fərman, eləcə də 9 avqust 2001-ci il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərman böyük tarixi əhəmiyyətə malik işlərdir. 1 avqust tarixi Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd olunur.

2002-ci ilin 30 sentyabr tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanun təsdiq edildi. Bu qanunun qəbulu ana dilinə dövlət dili statusu qazandırdı. Bu qanun Ümummilli Liderin 1969-cu ildən başladığı milli dil siyasətinin məntiqi davamı idi. "Heydər Əliyev yaxşı bilirdi ki, bir qanunla, sərəncamla işləri yoluna qoymaq olmaz. Özü şəxsi nümunə göstərirdi. Öz nitqlərində dilin incəliklərini bildiyini, hətta hərbi qulluqçuluq və texniki sahələrlə bağlı çıxışlarında düzgün, orijinal, milli terminlər işlədirdi. Bütün bunlar dil siyasətini həyata keçirməli olan məmurlar, tədqiqatçılar, mütəxəssislər üçün örnək idi (10, 24).

Ümummilli Lider Azərbaycan dilini dərindən bilmiş və ana dilini yüksək səviyyədə tədris etməyi təhsil işçilərinə müxtəlif zamanlardakı çıxışlarında tövsiyə etmişdir. "Bu gün müstəqil bir dövlət kimi ən çox fəxr etdiyimiz bir də odur ki, bizim gözəl Azərbaycan dilimiz var. Azərbaycan dilinin formalaşmasında, inkişaf etməsində, bugünkü səviyyəyə çatmasında yazıçılarımızın, şairlərimizin, ədəbiyyatşünasların, dilçi alimlərin böyük xidməti var. Bu gün danışdığımız dil 20-ci illərdə danışılan dil deyil. Elədir, yoxsa yox? Bəli, əsrin əvvəlindəki dil deyil. Amma ondan qat-qat yaxşı dildir, ondan qat-qat təmiz dildir, ondan qat-qat mükəmməl dildir. Bu, bizim ən böyük sərvətlərimizdir. Xalqı xalq edən, milləti millət edən onun ana dilidir. Layiqli ana dili olmayan, ana dilindən istifadə edə bilməyən, ana dilindən bəhrələnə bilməyən xalq, millət, xalq, millət ola bilməz" (2, 134).

Ana dilinin hakim dil olması üçün, maneəsiz işləkliyi üçün Ulu Öndər özü hər kəsə nümunə oldu. Gənc nəslə tövsiyələr verdi. "Ancaq biz dünyada öz dilimizlə tək yaşayırıq. Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır və bu dili sevməlidir. Bununla yanaşı, biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclər bir neçə dil öyrənsinlər. Mütləq öyrənməlidirlər. Biz artıq dünyaya qarışmışıqsa, Dünya Birliyinə da-

xil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər - ingilis dilini də bilsinlər, rus dilini də bilsinlər, fransız dilini də bilsinlər. Bunu yasaq etmək olmaz, bunun qarşısını almaq lazım deyil. Ancaq birinci növbədə ana dilini bilməlidirlər. Bəli, Azərbaycanda indi də elə insanlar var ki, əsasən rus dilində danışırlar, Azərbaycan dilində danışmırlar. Bizim dövlət orqanlarında da belələri var. Mən dəfələrlə xəbərdarlıq etmişəm ki, Azərbaycan dilini öyrənin, öyrənməsəniz işdən çıxaracağam" (2, 136).

Ulu Öndər müəllim sənətini qiymətləndirmiş, müəllimlərə xüsusi hörmətlə yanaşmışdır. Çünki O, Azərbaycan övladlarının elmli, bilikli olmasının yolunu, vətənini, xalqını, dilini sevməsinin əsasını müəllimlərdə görür, müəllimlərdən gözləyirdi. "Müəllim adı yüksək addır. Azərbaycanda daim müəllimə böyük hörmət olmuşdur. Müəllim cəmiyyətdə tanınan, seçilən, hörmət edilən şəxs olmuşdur. Heç də təsadüfi deyildir ki, dilimizdə insanların bir-birinə müraciət formasında "müəllim" sözü şəxslərin müəllim olub-olmamasından asılı olmayaraq istifadə edilib. Bizdə bu ənənə çoxdan yaranıb və hamı bir-birinə müraciət edərkən qarşısındakı şəxsə hörmət və ehtiram əlaməti olaraq ona "müəllim" deyir. Çoxları heç müəllim deyil, amma biz bir-birimizə müraciət edərkən "ağa", "cənab", "bəy" deyil, "müəllim" deyirik. Bu, təsadüfi deyil. Bəlkə də başqa xalqlarda belə müraciət forması yoxdur. Bu ondan irəli gəlir ki, xalqımız savadsızlıqdan, gerilikdən, ətalətdən bugünkü günə qısa tarixi bir müddətdə gəlib çatmaqda müəllimlərin rolunu qiymətləndirir və qarşısındakı adama hörmət əlaməti olaraq "müəllim" deyir. Ona görə də müəllimin cəmiyyətdə xüsusi yeri olduğu artıq heç kəsdə şübhə oyatmır (1, 170-171).

Xalqın, millətin yüksəlişini ilk olaraq bu xalqın dilini, folklorunu, ədəbiyyatını, tarixini, mədəniyyətini dərindən bilməkdə görən Ulu Öndər nailiyyətlərin əldə olunmasını müəllimlərdən gözlədiyini bildirir və müəllim auditoriyasına öz arzularını çatdırır. "Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır. Ali məktəb müəllimi, professor cəmiyyətdə ən hörmətli insan olmalıdır və insandır. Ona görə də mən çox arzu edərdim ki, sizin hamınız bu şərəfli adı həmişə, ömrünüzün axırına qədər daşıyasınız" (3, 259). Ömrünü dilimizin tədqiqinə, təbliğinə həsr etmiş akademik Tofiq Hacıyev "Özü, varisi, ana dili" məqaləsində yazır: "Onun dilə münasibətində qədim Çin filosofu Konfutsinin münasibəti özünü göstərir – Konfutsi demişdir: "Dil nöqsanlı olarsa, sözlər düşüncəni yaxşı anlada bilməz. Düşüncə yaxşı anladılmazsa, eşidilməsi lazım olan şeylər yaxşı eşidilməz, vəzifələr yaxşı yerinə yetirilməz. Vəzifələr lazımı şəkildə yerinə yetirilməzsə, adətlər və mədəniyyətlər pozular. Adətlər və mədəniyyətlər pozularsa, ədalət yanlış yola düşər. Ədalət yolundan çıxarsa, çaşqınlıq içinə düşən xalq nə edəcəyini, işin haraya varacağını bilməz. Deməli: cəmiyyətdə heç bir şey dil qədər əhəmiyyətli deyil". Heydər Əliyev dilin cəmiyyətdə əhəmiyyətini dürüst müəyyənləşdirirdi. Təkcə canlı ünsiyyətdə deyil,

bütövlükdə dövlət idarəçiliyində dilə dövlətin daxili və xarici siyasətinin tərkib hissəsi kimi baxır" (8, 32). Daha sonra görkəmli alim Prezident İlham Əliyevin dilimizə, ədəbiyyatımıza verdiyi dəyərə münasibət bildirir: "Cənab İlham Əliyev ədəbiyyat adamlarının qarşısına ədəbiyyatla çıxır. ...Cavan Prezidentimiz bugünkü qloballaşma dövründə millətimizin sovetlər zamanı ruslaşmayıb, milli xislətini qoruyub saxladığını, Azərbaycan oğlu azərbaycanlı kimi qaldığını yada salaraq, xalqımızı qloballaşma qazanında əriməməyə, itirməməyə çağırır, Avropanın mədəsində həzm olunmayaq, Avropanın və dünyanın intellektini mənimsəyərək, düşüncəsini həzm edək" – deyir (8, 36). Prezidentin çıxışlarından məqamlar təhlil edilir və rəsmi dilin şirin danışıq dili ilə dada gətirildiyi vurğulanır.

Akademik Muxtar İmanov Heydər Əliyevin xalqımızın bütün milli-mənəvi dəyərlərinə hər zaman hörmətlə, qayğı ilə yanaşdığını bildirir və qeyd edir ki, Ulu Öndər milli-mənəvi dəyərlərin, xalqımızın sahib olduğu zəngin mədəni irsin gənclərə və ümumiyyətlə gənc nəsillərə itkisiz ötürülməsini dövlət müstəqilliyinin təminatı üçün zəruri amil saymışdır (9, 15).

Ulu Öndər Heydər Əliyevin dil siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2004-cü ilin yanvarın 14-də "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında", eləcə də 2007-ci il 30 dekabrda "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" sərancamları ana dilinin yüksəlişi istiqamətində görülmüş vacib işlərdəndir. Xüsusilə 2012-ci il 23 may tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi tarixi bir sənəddir.

Ana dili ilə bağlı tövsiyələrin Prezident İlham Əliyevin fəaliyyətində əyani olaraq həyata keçirilməsi davam etdirilir. "Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi, qoruya, saxlaya bilmişik. Ona görə, bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu, məni doğrudan da çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq, ilk növbədə öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur. Ancaq biz

bunu görürük. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur. Əlbəttə, mən bu sahədə mütəxəssis deyiləm, ancaq bir vətəndaş kimi hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək bu, bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır" (6).

Nəticə olaraq deyə bilərik ki, dilimizin inkişafı istiqamətində görülmüş məqsədyönlü işlər bu gün də davam edir və dilimiz günü gündən zənginləşir. Azərbaycan dili türk dilləri arasında, eləcə də dünya dilləri arasında nüfuzlu dilə çevrilməkdədir.

QAYNAQLAR:

1. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir". II cild, Bakı, "Azərnəşr" , 1997, 604 s.
2. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir". XIII cild, Bakı, "Azərnəşr" , 2004, 520 s.
3. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir". XXI cild, Bakı, "Azərnəşr" , 2007, 480 s.
4. "Azərbaycan" qəzeti, 26 iyul, 1995.
5. Budaqov B.Ə. Heydər Əliyev fenomeni. II nəşr. Bakı, "İsmayıl" Nəşriyyat-Poliqrafiya Müəssisəsi, 2002, -136 s.
6. Əliyev İlham. AMEA-nın 70 illik yubileyinə həsr olunmuş ümumi yığıncaqda nitq. Xalq qəzeti, 11 noyabr, 2015-ci il.
7. Əhmədova S. Heydər Əliyevin dil siyasəti. Bakı, 2008
8. Hacıyev T. Özü, varisi və ana dili. Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı, Nurlan, 2013, 192 s.
9. İmanov M. Elmimizin ideya mənbəyinə çevrilən irs. Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı, Nurlan, 2013, 192 s.
10. Xələfli Əli Rza. Dilimiz - varlığımız. Bakı, MBM nəşriyyatı, 2009, 160 s.
11. Xəlilov B. Dil mədəniyyəti. Bakı, "Papirus NP", 2016, 192 s.
12. Sadıqova S., Həsənli-Qəribova Ş. Azərbaycan Xalq Cümhujriyyəti və Milli ədəbi dilin inkişaf tarixi (1918-2018). Bakı, "Avropa" nəşriyyatı, 2018, 488 s.
13. Zamanov N. Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti, I kitab. Bakı, Elm və təhsil, 2013, 480 s.

HEYDƏR ƏLİYEV: ÖNDƏR ÖMRÜNÜN ŞANLI SALNAMƏSİ

HEYDAR ALIYEV: GLORIOUS CHRONICLE OF THE LEADER'S LIFE

Nubar HƏKİMOVA
Filologiya elmləri doktoru,
AMEA Folklor İnstitutu,
nubarhakimova@mail.ru

Özət

Məqalədə Azərbaycan xalqının milli öndəri Heydər Əliyevin həyatı və fəaliyyətinin bir sıra məqamları hər bir azərbaycanlı üçün bir nümunə kimi öyrənilir. Heydər Əliyevin keçdiyi ömür yolu, aldığı təhsil, işlədiyi sahələr, qazandığı uğurlar və nailiyyətlər milli qürur mənbəyi olmaqla yanaşı, həm də cəmiyyətimiz üçün məqsədyönlülük, mübarizə, əzmkarlıq və fədakarlıq kimi dəyərləndirilir. Heydər Əliyevin keçdiyi həyat yolu keşməkeşli olmuş və böyük məsuliyyət yükü daşımışdır. Həyatını ölkəsinə, dövlətinə və xalqına həsr etmiş böyük insanın dərin mənalı ömür yolu cəmiyyətimizin gələcəyinə, ölkəmizin abadlığına, xalqımızın rifahına, dövlətimizin əbədiliyinə xidmət etmişdir. Milli öndərin şanlı ömür yolunu gənc nəslə təbliğ etmək və cəmiyyətimizi öndərimizin həyatı nümunəsində olduğu kimi milli fədakarlıq ruhunda tərbiyə etməyin vacibliyi vurğulanıb.

Açar sözlər: Heydər Əliyev, Azərbaycan, öndər, xalq, dövlət, xidmət, fədakarlıq

Summary

A number of moments of the life and activity of the national leader of the Azerbaijani people Heydar Aliyev are studied in the article as an example for every Azerbaijani. A number of moments of the life and activity of the national leader of the Azerbaijani people Heydar Aliyev are studied in the article as an example for every Azerbaijani. Heydar Aliyev's life path, education, fields of work, achievements and successes are considered as a source of national pride, as well as purposefulness, struggle, perseverance and self-sacrifice for our society. The life path of Heydar Aliyev was difficult and carried a huge burden of responsibility. The deeply meaningful life path of a great man who devoted his life to his country, state and people served the future of our society, the improvement of our country, the well-being of our people and the eternity of our state. In the article the importance of promoting the glorious life path of the national leader to the younger generation and educating our society in the spirit of national self-sacrifice, as in the example of the life of our leader, is mentioned.

Keywords: Heydar Aliyev, Azerbaijan, leader, people, state, service, sacrifice

Heydər Əliyevin şanlı həyat salnaməsinin hər bir səhifəsi şərəfli və qürurvericidir. Ulu babaları Qərbi Azərbaycanın Zəngəzur bölgəsində yaşayıb. XIX əsrin əvvəllərində Rusiya imperiyasının Cənubi Qafqazı işğal etməsi ilə bölgəyə müxtəlif ölkələrədən köçürülən erməni əhalisinin yerli azərbaycanlılara qarşı törətdikləri terror və qarətlər başlamış, bu təcavüzkar hərəkətlər bölgəni işğal etmiş imperiya qüvvələri tərəfindən də gizlin və ya açıq şəkildə dəstəklənmişdir. Azərbaycana başqa ölkələrdən köçürülmüş ermənilər havadarlarına arxalanaraq yerli azərbaycanlıları öz doğma ata-baba yurdlarından sıxışıdırıb çıxarmışdır. Ermənilər tərəfindən törədilmiş qırğınlar və qarətlər nəticəsində Qərbi Azərbaycandan Azərbaycanın digər bölgələrinə köçmək məcburiyyəti yaranmışdır. Ermənilərin törətdiyi kütləvi qırğınlar Qərbi Zəngəzurun azərbaycanlı əhalisinin də köç məcburiyyəti ilə qarşılaşmasına səbəb olmuşdur.

Heydər Əliyevin atası Əlirza Əliyevin ailəsi də Qərbi Zəngəzurun Comərdli kəndindən Naxçıvana köçmüşdür. XX əsrin əvvəllərində baş verən mürəkkəb və olduqca çətin şəraitdə Qərbi Azərbaycandan azərbaycanlılar ermənilər və onların havadarları vasitəsilə sıxışdırılıb çıxarılmışdır. Azərbaycan xalqının milli öndəri Azərbaycan torpaqlarının sovet dövründə də davam edən işğalı şəraitində, ağır bir zamanda dünyaya gəlmişdir. Xalqın dar günündə, ağır sıxıntılar keçirdiyi zamanda o xalqın içindən öndərlər yetişib çıxır. Bu baş verməsə, həmin xalq tarix qarşısındakı sınaqdan çıxa bilmir.

Tarixi torpaqların işğal olunduğu, ölkənin türk-azərbaycanlı əhalisinin kütləvi qətllərə, soyqırımlara məruz qaldığı bir zamanda millətin gələcək öndəri dünyaya gəlib. Bu bir öndər zühurudur. Milli xilaskarlar belə ağır zamanlarda zühur edərlər.

Qərbi Azərbaycanın qədim türk yurdu olan Zəngəzur mahalı Rusiyanın yaratdığı Ermənistan respublikasına verilib. Naxçıvanla Şərqi Zəngəzuru birləşdirən Mehri rayonu da Ermənistana verilib. Naxçıvan Muxtar Respublikası da ölkənin digər hissəsi ilə birbaşa quru əlaqəsinin kəsilməsi səbəbi ilə 1923-cü ildə yaradılıb. Bütün bu proseslər Azərbaycanın parçalanması, ərazilərinin kiçilməsi ilə nəticələnib.

Düz yüz il əvvəl 1923-cü ilin may ayının 10-da Heydər Əliyev dünyaya gəlib. Dünyaya gəldiyi dövrün nə qədər ağır və çətin bir dövr olduğunu yuxarıda qeyd etdiyimiz məlumatlardan təsəvvür etmək mümkündür. Yaralanmış vətən yaralarını sarıyan, ona məlhəm olan övladını dünyaya gətirib bu dövrdə. Heydər Əliyev bir atanın və bir ailənin övladı olmaqla yanaşı, bir Vətənin və bir Xalqın oğlu olaraq dünyaya gəlib.

Heydər Əliyevin həyatının bütün dövrləri mənalıdır və öyrənilməlidir. Çünki hər bir müsəlman üçün onun peyğəmbərinin həyatı örnək olduğu kimi, hər bir azərbaycanlı üçün də onun milli öndərinin həyatı bir nümunədir.

Heydər Əliyevin həyatının uşaqlıq və gənclik illəri Naxçıvanla bağlıdır. Bundan sonra Bakı, Moskva, Peterburq dövrləri bu görkəmli şəxsiyyətin həyatında müəyyən bir mərhələ təşkil edib.

Represiya dövrünün sıxıntıları

Heydər Əliyev 1937-1938-ci illər repressiya dövrünü gənclik illərində görüb. Azərbaycan xalqına, onun ziyalılarına, fikir və milli məfkurə daşıyıcılarına qarşı məkrli və qəddar siyasətin aparıldığı dövrdən keçib. Bu illərdə Naxçıvan Pedaqoji Texnikumunu bitirb. Öyrəndiyi pedaqoji biliklər sonrakı fəaliyyətində daha geniş auditoriyada – ölkə idarəsində istifadə olunub. Bir millət müəllimi kimi daim xalqı tarixdən dərs almağa, milli mədəniyyəti, xalq yaradıcılığını qorumağa və yaşatmağa çağırıb.

Azərbaycan Sənaye İnstitutunda memarlıq ixtisası üzə təhsilini tamamlamağa İkinci Dünya müharibəsi mane olub. Memarlıq sahəsində qazandığı biliklər milli mədəniyyətin inkişafında və onun müasir dövrdə mühafizəsində faydalı olub.

Böyük vətən müharibəsi dövrü

Ağır müharibə illərində Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında məxfi arxiv şöbəsinə rəhbərlik edib, Naxçıvanda Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifəsini yerinə yetirib. 1944-cü ilin may ayından etibarən Heydər Əliyev dövlət təhlükəsizliyi sahəsində işə göndərilmiş və bu sahədə uzun illər fəaliyyət göstərmişdir. Dövlət təhlükəsizliyi sahəsindəki bilik və bacarıqlarını Rusiya Federasiyasının Leninqrad şəhərindəki Rəhbər Kadrların Hazırlığı Məktəbində oxuduğu 1949-1950-ci illərdə daha da zənginləşdirmiş və Azərbaycana bir dövlət təhlükəsizliyi mütəxəssisi kimi qayıtmış, Respublikanın Dövlət Təhlükəsizlik Komitəsinə bölmə rəisi vəzifəsinə təyin edilmişdir.

Post müharibə dövrü

Heydər Əliyevin Azərbaycan xalqının tarixini və mədəniyyətini daha dərindən öyrənmək marağı onu Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə gətirib. Dövlət təhlükəsizliyi sahəsindəki vəzifəsini yerinə yetirməklə yanaşı, 1957-ci ildə təhsil aldığı universitetin tarix fakültəsinin qiyabi şöbəsini bitirib.

Dövlət təhlükəsizliyi sahəsindəki uğurlu fəaliyyəti onun bu sahədə yüksək vəzifələrə irəli çəkilməsinə səbəb olmuşdur. İşində dəqiq və prinsipal olması bu fəaliyyət sahəsində ciddi uğur qazanmasına səbəb olub. 1958-ci ildə vəzifəsində yüksələrək Azərbaycan SSR-in DTK-sının əks-kəşfiyyat şöbəsinin rəisi təyin edilmiş, 1964-cü ildə isə çalışdığı dövlət təşkilatının sədr müavini olmuşdur.

Heydər Əliyev bir tərəfdən bir-birindən məsul vəzifələrdə çalışmış, digər tərəfdən də mütəmadi olaraq təhsilini daha da təkmilləşdirmişdir. Dövlət təhlükəsizliyi sahəsində DTK-nın F.E. Dzerjinski adına Ali Məktəbinin rəhbər heyətin təkmilləşdirilməsi kurslarını da 1966-cı ildə müvəffəqiyyətlə başa vurmuşdur. Növbəti ildə isə Azərbaycan SSR Nazirlər Soveti yanında DTK-nın sədri kimi məsul bir vəzifəyə təyin edilmişdir. Fəaliyyəti və aldığı mükəmməl təhsili ilə həmin ildə general-mayor rütbəsinə layiq görülmüşdür.

Respublika rəhbərliyinə gəlişi və milli dirçəliş dövrü

XX əsr Azərbaycan tarixinin ən önəmli hadisələrindən biri 1969-cu ilin iyun ayının 14-də baş verib. Həmin gün Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının Mərkəzi komitəsinin birinci katibi vəzifəsinə seçilərək Respublikaya rəhbərlik etməyə başlayıb.

Respublikaya rəhbərlik etdiyi dövrdə iqtisadiyyatın inkişafında çöx böyük işlər görməklə yanaşı, mədəniyyət sahəsinin də yüksəlişi üçün dəyərli xidmətlər göstərib. 1969-1982-ci illər ərzində Azərbaycanda milli-mədəni inkişafla bağlı önəmli tədbirlər həyata keçirilib. Konstitusiyada Azərbaycan dili rəsmi dövlət dili kimi ayrıca qanun maddəsi ilə öz əksini tapıb. Milli adət və ənənələr bu dövrdə daha yaxşı qorunub və aktivləşdirilib. Xalq yaradıcılığı, folklor sahəsində ən ciddi uğurlar da bu dövdə əldə edilib.

Heydər Əliyevin siyasi karyerası Respublika rəhbərliyindən İttifaq rəhbərliyinə qədər yüksəlib. Öndərin öz sözü ilə desək, bu nəhəng ölkəni idarə edən beş-altı adamdan biri olub.

1982-1987-ci illərdə Sovetlər Birliyi hökümətinə rəhbərlik edən Heydər Əliyev nəhəng ölkənin də iqtisadi və mədəni inkişafında dönüş yaratmış və böyük layihələrin icrasını həyata keçirmişdir. Bütün fəaliyyəti dövründə qurucu bir lider kimi tanınmışdır.

Müstəqillik dövrünün milli dövlətçilik mücadiləsi

Heydər Əliyevin fəaliyyətinin çox önəmli bir hissəsi də Azərbaycanın dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi ilə bağlıdır. Antiazərbaycan qüvvələri tərəfindən 1987-ci ildə SSRİ rəhbərliyindən istefa verməyə məcbur edilmiş və bununla da Azərbaycanın ən böyük dayağı sarsıdılmışdır. Heydər Əliyevin vəzifədə olduğu dövrdə Azərbaycan əleyhinə fəaliyyət göstərən qüvvələr öz məkrli niyyətlərini həyata keçirə bilməyiblər. Qarşılarında böyük maneə kimi gördükləri Heydər Əiyevi rəhbərlikdən kənarlaşdırdıqdan sonra Azərbaycanda seperatçı hərəkətləri həyata keçirməyə başlamış və respublikanın ərazisində fəlakətli hadisələr baş vermişdir.

Azərbaycanlılar Ermənistandan qovulmuş, Azərbaycanın Qarabağ iqtisadi rayonunun önəmli bir hissəsi işğala məruz qalmışdır. XIX əsrdə Rusiyanın Cənubi Qafqazı işğal etməsindən sonra Azərbaycan ərazilərinə yerləşdirilmiş ermənilər havadarlarının dəstəyi ilə Azərbaycan xalqına qarşı kütləvi qırğınlar törətmiş, böyük dağıntılara və fəlakətlərə səbəb olmuşdur. Xalq öz yurdundan-yuvasından qovulmuş, qaçqın, köçgün və didərgin vəziyyətinə düşmüşdür. Bütün bu haqsızlıqlar xalqın kütləvi etirazına səbəb olmuşdur. Bu etirazları zorakı yolla yatırtmaq üçün SSRİ rəhbərliyi Bakıya 1990-cı ilin 19 yanvarında ordu yeritmiş və dinc etirazçılara divan tutulmuşdur. Yeni tariximizə 20 Yanvar faciəsi kimi daxil olan bu hadisəyə ilk etirazı xalqın böyük oğlu Heydər Əliyev özünün tarixi bəyanatı ilə edib.

Yanvar ayının 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib və baş vermiş faciənin səbəbkarlarının cəzalandırılması tələbi ilə bəyanat verib. Bəyanatında SSRİ rəhəbrliyini kəskin tənqid edib və kommunist partiyası sıralarından çıxdığını bəyan edib.

Bu faciəli hadisədən iki gün sonra Naxçıvana gəlib və millət vəkili seçilərək yenidən siyasi həyata qayıdıb. 1992-ci ilin noyabr ayının 21-də Naxçıvanda Yeni Azərbaycan partiyasını təsis edib və partiyanın sədri seçilib. Yeni Azərbaycan partiyasının fəaliyyətə başlaması ilə ölkədə yeni siyasi mühit, respublikanın düşdüyü ağır vəziyyətdən çıxmasına ümid

yaranıb. Xalqın ümid yeri kimi, xalqın tələbi ilə Heydər Əliyev belə ağır bir şəraitdə respublikaya rəhbərliyin məsuliyyətini öz üzərinə götürüb. Xalqın böyük əksəriyyətinin dəstəyi ilə 1993-cü ilin oktyabr ayının 3-dən Azərbaycan Respublikası Prezidenti vəzifəsinə seçilərək ölkəni düşdüyü ağır vəziyyətdən çıxarmaq mücadiləsinə başlayıb.

Ömrünün qalan hissəsini də Azərbaycana həsr etmək üçün zəngin dövlətçilik təcrübəsini, şəxsi nüfuzunu, beynəlxalq əlaqələrini səfərbər edib, canından artıq sevdiyi vətənin yolunda bir fədakar fəaliyyət nümunəsi göstərib. 1993-cü ildən başlayaraq ömrünün son on ilini ölkədə ictimai-siyasi sabitliyinin təmin olunması, ölkəyə qarşı təcavüzün qarşısının alınması, ölkənin ərazi bütövlüyü, suverenliyi uğrunda ardıcıl mübarizənin təşkil edilməsi, iqtisadiyyatın dirçəldilməsi, ordu quruculuğu, abadlıq işləri, mədəniyyətin, təhsilin və elmin inkişafı, xalqın rifah halının yaxşılaşdırılması istiqamətlərində böyük işlər görmüş, müstəqil dövlətçilik təsisatlarının sabitləşməsini təmin etmişdir.

Azərbaycanın işğala məruz qalmış ərazilərinin sülh yolu ilə azad edilməsi üçün beynəlxalq səviyyədə uğurlu və davamlı mübarizə aparmış və bütün səviyyələrdə Azərbaycanın milli maraqlarını müdafiə etmişdir.

Əsrin müqaviləsi ilə Xəzəri sülh və əməkdaşlıq dənizinə çevirmişdir. Azərbaycan bu müqavilənin müsbət nəticələrini bu gün də öz iqtisadiyyatında görməkdədir. "Bakı-Ceyhan" Heydər Əliyevin möhtəşəm əsərlərindən biridir. Bu, bizim xalq yaradıcılığı yönündən baxışımızda Azərbaycan və Türkiyənin qovuşduğu sevgi dastanıdır.

Heydər Əliyev öz əməyi, zəhməti, fəaliyyəti ilə həmişə fərqlənmiş, həm sovet dövründə, həm də dövlət müstəqillimizin bərpasından sonra çoxlu sayda orden və medallara layiq görülmüşdür. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adını almış, həmin dövrün ən yüksək medalları ilə dəfələrlə təltif olunmuşur. Dünyanın bir çox ölkələrinin nüfuzlu təşkilatları bu böyük şəxsiyyəti təltif etməkdən qürur duymuşlar.

Təhsili millətin gələcəyi, elmi milli sərvət adlandıran öndərimiz azərbaycanlılığı bir qürur və iftixar qaynağı kimi hiss etmək üçün mənəvi mühit formalaşdırmışdır. Azərbaycanlı olmaqla fəxr etmək milli öndərin təqdim etdiyi milli-mədəni kimliyin, kökə bağlılığın, dəyərlərə sadiqliyin ifadə formuludur.

Demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu, müstəqil dövlətçilik siyasəti, adət-ənələrimizlə fasiləsiz əlaqə, mənəvi dəyərlərimizlə bağlılıq Heydər Əliyevin qurduğu Azərbaycan dövlətinin əsas xarakterik xüsusiyyətləridir. Bu dövlətin vətəndaşının əsas vəzifələrindən biri də gənc nəsli öndərin təqdim etdiyi mənəvi dəyərlərlə tərbiyə etməkdir. Öndərin qurduğu dövlət əbədidir və milli dəyərlərimizi də, mədəniyyətimizi də, folklrumuzu da əbədi olaraq yaşadacaq, gələcək nəsillərə çatdıracaqdır.

QAYNAQLAR:

1. Kərimov M. Heydər Əliyev fenomeni // Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı, 2003, s.8-46.
2. Cəfərov N. Azərbaycanşünaslığa giriş.B., AzAtaM, 2002, 600 s.
3. Heydər Əliyev və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı:Nurlan, 2013, 192 s.

İBRAHİM YUSİFOĞLUNUN “O, GÜNƏŞ ÖMRÜDÜ, SÖNMƏYƏCƏKDİR” POEMASINDA HEYDƏR ƏLİYEVİN BƏDİİ OBRAZI

THE ARTISTIC IMAGE OF HEYDAR ALIYEV IN IBRAHIM YUSIFOGLU'S POEM “HE IS THE LIFE OF THE SUN, IT WILL NOT GO OUT”

Salidə ŞƏRİFOVA
Filologiya elmləri doktoru, professor,
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü,
ssharifova@rambler.ru

Özət

İbrahim Yusifoğlunun “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxartmağı bacarmış Heydər Əliyevin tarixi şəxsiyyət olması bədii dillə təbliğ edilir.

Poemada hadisələr təhkiyə üsulu ilə təsvir olunur və təsvir olunan hadisələrin gedişində lirik lövhələrə geniş yer verilir. Poemadakı hadisələrin epik təsviri ilə lirik tərənnüm üzvi surətdə birləşir. Poemada qəhrəmanın – Heydər Əliyevin həyəcanları, onunla bağlı təqdim edilən hadisələrin təsviri və onların doğurduğu hiss və duyğular yer alır. Heydər Əliyevin dövlət xadimi olması, çoxəsrlik dövlətçilik ənənələri poemanın problematikasında əksini tapır.

İbrahim Yusifoğlu “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin siyasi fəaliyyətini, xidmətlərini, bir tarixi şəxsiyyət kimi rəhbərlik etdiyi dövlətin azadlığı və dirçəlişi yolunda apardığı mübarizəni bədii dillə tərənnüm edir.

İbrahim Yusifoğlu “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin keçdiyi şərəfli, həmçinin keşməkeşli həyat yolunun heç də asan və hamar olmadığını açıqlayır. Müəllif zaman kəsiyində mürəkkəb, ziddiyyətli dövrün içindən müdrikliklə, qalibiyyətlə keçib gələn Heydər Əliyevin obrazını canlandırır.

Açar sözlər: Heydər Əliyev, İbrahim Yusifoğlu, poema, tarixi şəxsiyyət, bədii obraz

Summary

In Ibrahim Yusifoglu's poem “He was the life of the sun, It will not die out”, Heydar Aliyev, who managed to successfully lead his people out of the difficult historical and political trials of the time, is promoted in artistic language as a historical figure.

In the poem the events are described in a descriptive manner, and in the course of the events described, enough space is given to lyrical signs. The epic description of events in the poem is closely combined with lyrical chant. The poem contains the worries of the hero

– Heydar Aliyev, a description of the events presented in connection with him and the feelings and emotions caused by them. The problems of the poem reflect the fact that Heydar Aliyev was a statesman.

In Ibrahim Yusifoglu's poem "He was the life of the sun, it will not die out" Heydar Aliyev's political activities, his merits, the struggle for freedom and the revival of the state headed by him as a historical figure are glorified in artistic language.

Ibrahim Yusifoglu explains in the poem "He was the life of the sun, It will not die out" that Heydar Aliyev's glorious and turbulent life path was not easy and smooth at all. The author revives the image of Heydar Aliyev, who wisely and triumphantly passed through a complex and contradictory period.

Keywords: Heydar Aliyev, Ibrahim Yusifoglu, poem, historical figure, artistic image

Giriş

Heydər Əliyev haqqında nəzm, nəzr və dram əsərləri janr müxtəlifliyi və mövzu rəngarəngliyi ilə fərqlənir. Xalq yazıçısı Elmira Axundovanın "Heydər Əliyev: şəxsiyyət və Zaman" altı cilddən ibarət olan roman-tədqiqatında, Xalq yazıçısı Anarın "Unudulmaz görüşlər" publisist-romanında, Xalq yazıçısı Elçinin "Dünya axirət əkini" essesində, Hüseynbala Mirələmovun "Heydər Əliyev" kitabında, Hidayətin "Burdan min atlı keçdi", Adil Babayevin "Koroğlunun Çənlibelə qayıdışı", Aqşin Babayevin "Xilaskar", İftixar Piriyevin "Qurtuluş dastanı" kimi pyes və tamaşalarda, Cabir Novruzun "İxtiyarım olsa idi", Nəbi Xəzrinin "İnam", Rəfiq Zəka Xəndanın "Heydər baba", Zəlimxan Yaqubun "Xalqın ehtiyacı var" poemalarında və bu kimi digər əsərlərdə Heydər Əliyevin tam, dolgun bədii obrazı yaradılmışdır. Bu bədii nümunələrdə Heydər Əliyevin siyasi xadim, lider, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi obrazı canlı şəkildə tərənnüm və təsvir edilmişdir.

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poeması 2023-cü ildə keçiriləcək Azərbaycan xalqının görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilib. Müəllifin öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxartmağı bacarmış Heydər Əliyevin tarixi şəxsiyyət olmasını bədii dillə təbliğ edir.

Poemanın janr xüsusiyyətləri

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında hadisələr təhkiyə üsulu ilə təsvir olunur və təsvir olunan hadisələrin gedişində lirik lövhələrə geniş yer verilməkdədir. Poemadakı hadisələrin epik təsviri ilə lirik tərənnüm üzvi surətdə birləşir. Poemada qəhrəmanın – Heydər Əliyevin həyəcanları, onunla bağlı təqdim edilən hadisələrin təsviri və onların doğurduğu hiss və duyğular yer alır. Poema heca vəznində qələmə alınması ilə diqqəti cəlb edir. Heca vəznində təqdim edilən misralardakı bölgülər əsasən 7, 8, 11 hecadan ibarətdir. Məsələn, aşağıda təqdim edilən bənd 11 hecadan ibarətdir:

Onun böyük olub şöhrəti, şanı,
Qəlbində od vardı hələ yanmağa.
Elə ona görə Azərbaycanı,
Qoymadı içindən parçalanmağa.

Aşağıdakı beytə diqqət yetirdikdə, burada misra bölgüsü 8 hecadan ibarətdir:

Tanrıya çatdı səsimiz
- Heydər olsun rəhbərimiz!

İbrahim Yusifoğlu bəzən bənd daxilində həm 7 hecaya, həm də 8 hecaya müraciət edir. Misralardakı hecalarda fərqlilik bölgü pozulmasını hiss etdirmir və şeirin ahənginə mənfi təsir göstərmir. Tələffüz zamanı həmin əskiklik duyulmur:

Moskvaya qanlı xəbər
Gəlib çatdı sübh çağına.
Ulu Öndər gəldi səhər,
Azərbaycan ocağına.

Hecaların sayı fərqli olan misralarda Azərbaycan xalqının 20 Yanvar faciəsinin təsviri fonunda Heydər Əliyevin siyasi fəaliyyətinə aydınlıq gətirilir. Ağır günlərdə H.Əliyevin xalqın yanında durması fəxr hiss ilə tərənnüm edilir. Heydər Əliyevin "Qanlı Yanvar" faciəsini yaşayan xalqını tək qoymamasını, onun yanında olmasını tarixi faktlara əsaslanaraq müəllif bayatı ilə təqdim edir. Müəllifin poemada təqdim etdiyi bayatıya nəzər salaq:

Bakı hər vaxt Bakıdı,
Şəhərlərin pakıdı
Qolun qurusun, fələk,
Bura paytaxt Bakıdı.

Müəllifin təqdim etdiyi bayatı 4 misradan ibarətdir. Hər misrası isə 7 hecadır. Qafiyə şəkli isə aaba şəklindədir. Müəllif poemada bu bayatını yaratması ilə kifayətlənmir, müxtəlif bayatılar yaradır. Məsələn, müəllifin yaratdığı digər bayatıya diqqət yetirək. Müəllif 20 yanvar gecəsi şəhid olmuş İlham və Fərizə Allahverdiyevlərin, yəni bu ailə cütlüyünün faciəsini poemada bayatı ilə təqdim edir:

Qurban olum gəlinə,
Bir görmədim ərinə,
O, məzarda qovuşdu,
Şəhid olmuş ərinə.

Nümunələrə diqqət yetirdikdə, müşahidə edirsən ki, ilk iki misra üçüncü və dördüncü misralarda ifadə olunan əsas fikirlərin yaranması üçün zəmin rolunda çıxış edir. Təqdim edilən bayatılar ictimai-fəlsəfi məna daşıması, vətənə məhəbbət aşılaması ilə məhəbbət mövzusunu təbliğ edən bayatılardan fərqlənir.

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasının epiqrafla başlaması diqqətdən yayınmır. Heydər Əliyevə aid olan epiqraf poemanın süjet xəttinə daxil ol-

masa da, poemanın mövzusu ilə səsləşən hikmətli sözlər kimi diqqəti cəlb edir. H.Əliyevə aid olan "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm…

Azərbaycan Respublikası bundan sonra müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir" kimi hikmətamiz fikirlər əsərin birinci səhifəsinin başında, yəni əsərin əvvəlində açıqlığı ilə səciyyələnən mətn parçası-kəsiyidir. Poemada intrasemiotik uyğunluq yaratmağa qadir olan bu epiqraf bədii mətnin komponenti kimi oxucunu ilkin mətnə istiqamətləndirə bilir. İbrahim Yusifoğlu istifadə etdiyi epiqrafın ifadə etdiyi məna ilə oxucunun diqqətini əsərin məzmununa yönəldərək, əsərin ideyası ilə tanış edir. Oxucu epiqrafla tanış olduqdan sonra poemanın kimdən bəhs edəcəyi haqqında bilgi əldə edir. Poemada bu və digər epiqrafların işlənilməsi poemanın məzmun və ideyasını qavramağa yardımçı olur.

Müəllif poemada bədii fikrin məntiqi ilə uzlaşan çoxsaylı epiqraflardan istifadə etmişdir ki, həmin epiqrafların da əksər qismi Heydər Əliyevə məxsusdur.

Mətnin semantik yükü ilə bağlı olan bu epiqraflara diqqət yetirdikcə onların poemanın əsas ideyası və məzmununu açmağa yardım etməsinin şahidi oluruq. İbrahim Yusifoğlu təqdim etdiyi epiqraflarla həm də poemanın məzmununa əlvanlıq qatır, açıqlamasına yardımçı olur. Bu epiqraflar həm poemada təsvir edilən hadisələrin mahiyyətinə aydınlıq gətirir, həm də Heydər Əliyevin Azərbaycanın azad və bütöv bir dövlət olacağına inamını əks etdirir. Məsələn, H.Əliyevin Şuşanın azad olunacağı ilə bağlı inamı poemada təqdim edilən epiqrafda əksini tapır: "Arzu edirəm ki, Sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür. Hər bir azərbaycanlı üçün bu iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhəri, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o isti suyu... Biz onlarsız yaşaya bilməmişik".

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fikirlərinin epiqraf kimi təqdimi maraq doğurur. Şairin təqdim etdiyi bu epiqrafda Azərbaycan Ordusunun qələbə qazanması, Azərbaycan torpaqlarının azad olunması poetik dillə təqdim edilir. İlham Əliyevin fikirlərini əks etdirən bu epiqrafda həm də ata vəsiyyətini yerinə yetirmiş insanın qüruru əksini tapır: "Mən xoşbəxt insanam ki, ata vəsiyyətini yerinə yetirdim! Bu böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!

Gözün aydın olsun, Azərbaycan!
Gözün aydın olsun, dünya azərbaycanlıları!

Füzuli bizimdir!
Cəbrayıl bizimdir!
Zəngilan bizimdir!
Qubadlı bizimdir!
Ağdam bizimdir!
Laçın bizimdir!
Kəlbəcər bizimdir!
Şuşa bizimdir!
Qarabağ bizimdir!
Qarabağ Azərbaycandır,
Eşq olsun Azərbaycana!"

İbrahim Yusifoğlu poemada zaman anlayışına riayət edərək xronoloji ardıcıllığı izləyir. Poemada Heydər Əliyevin xalqın keçirdiyi tələtümlü tarixi olaylardan sonra hakimiyyətə gəlməsini konkret tarixlə əks etdirir:

1969-cu il…
Bir gün idi, günəşli gün,
Üzlər gülər, gözlər süzgün,
Qəlblər gəzdi xoş səda-ün,
Bərq də vurdu ləl-zərimiz,
Heydər gəldi rəhbərimiz.

İbrahim Yusifoğlu poemada 1990-ci ildə baş vermiş tarixi olayları konkret zaman axarında əks etdirir:

20 yanvar… qış çağı…
İçdik namərd zəhərini…
«Şanlı sovet qoşunları»
Qırıb Bakı şəhərini!

İbrahim Yusifoğlu poemada məkan kimi həm Bakının, həm Naxçıvanın gözəlliklərini, özünəməxsusluqlarını təqdim edə bilir. Məsələn, Naxçıvanın özünəxas xüsusiyyətlərini əsərdə əks etdirir:

Naxçıvan… Ulu şəhər,
Günəşlə bir oyanır.
Bütün küçə, xiyaban
Al şəfəqə boyanır.

Poemanın problematikası

Heydər Əliyevin dövlət xadimi olması, çoxəsrlik dövlətçilik ənənələri İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasının problematikasında əksini tapır. "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında dövlət xadimi Heydər Əliyevin həyat və siyasi fəaliyyətinin əks etdirilməsini İbrahim Yusifoğlu bir müəllif kimi özü də vurğulayır:

Bir insan ömründən söz açıram mən,
O, günəş ömrüdü, sönməyəcəkdir.
Səadət verdiyi milyonlar qəlbən,
Onun haqq yolundan dönməyəcəkdir.

Poemanın problematikasında diqqəti cəlb edən məqamlardan biri də Heydər Əliyevin siyasi kursunun dəyərləndirilməsi məqamıdır. Müəllif H.Əliyevin siyasi fəaliyyətini yüksək dəyərləndirməklə yanaşı, onun bir siyasi xadim kimi əməllərinə də işıq salır. Məsələn, Heydər Əliyevin atəşkəş dövründə də siyasi ampulada qala bilməsini tərənnüm edir:

Atəşkəs dövründə Ulu Öndərin,
Ordu qurmaq oldu müqəddəs anı.
Müstəqil, müdrik siyasətiylə,
Yenidən qururdu Azərbaycanı.

Heydər Əliyevin siyasətinin nəticəsi olan atəşkəs dövründə Azərbaycanın dirçəlməsi uğrunda siyasi fəaliyyətlə məşğul olması poemanın problematikasının tərkib hissəsinə çevrilib. Azərbaycançılıq məfkurəsinin, milli-mənəvi özünüdərketmənin Heydər Əliyev siyasətinin, milli dövlətçilik təliminin ana xəttini təşkil etməsini və əsas prinsiplərindən olması poemada əksini tapır.

Poemanın problematikasında sələflik, xələflik, varislik məsələlərinə toxunulur. Şair tərəfindən Heydər Əliyevin siyasi yolunun oğlu İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi vurğulanır:

Ata vəsiyyətin oğul prezident
Doğrultdu müqəddəs əməllərində.
Yenilməz bir ordu qurub-yaratdı
Dünyanın qarışıq, sərt illərində.

Ədəbiyyata qayğı və böyük xidmətlər göstərmiş Heydər Əliyevin bu sahədəki xidmətləri saymaqla bitmir: Rəsul Rza, Mirzə İbrahimov, Süleyman Rəhimov kimi söz xiridarlarının Sosialist Əməyi Qəhrəmanı adı ilə təltif edilməsi, "Kitabi-Dədə Qorqud" dastanının yaranmasının 1300, Xaqani Şirvaninin 850, Nizami Gəncəvinin 840, İmaməddin Nəsiminin 600, Məhəmməd Füzulinin 500, Cəlil Məmmədquluzadənin 125, Mirzə Ələkbər Sabirin 120, Nəriman Nərimanovun 100, Məhəmməd Hadinin 100, Əliqulu Qəmküsarın 100, Hüseyn Cavidin 90, Cəfər Cabbarlının 80, Aşıq Şəmşirin 80 və 110, Rəsul Rzanın 60 və 70, İlyas Əfəndiyevin 80, Məmməd Arazın 60, Məhəmməd Hüseyn Şəhriyarın 90, Maqsud İbrahimbəyovun 60, İsmayıl Şıxlının 75, Nigar Rəfibəylinin 60, Nəbi Xəzrinin 50, Mirvarid Dilbazinin 70 illik yubileylərinin qeyd edilməsi, Cəfər Cabbarlının, Molla Pənah Vaqifin, Hüseyn Cavidin, Səməd Vurğunun ev muzeylərinin açılması, Hüseyn Cavid, Vaqif məqbərələrinin açılışı, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, Şüvəlanda Yaradıcılıq evinin istifadəyə verilməsi, Hüseyn Cavidin nəşinin Vətənə qaytarılması, ilk dəfə təsis olunmuş "İstiqlal" ordeni ilə Məmməd Arazın, Xəlil Rza

Ulutürkün (ölümündən sonra), Bəxtiyar Vahabzadənin təltif edilməsi və s. İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin ziyalılara qayğısı müəllifin nəzərindən yayınmamış, ziyalılara verdiyi dəyər qiymətləndirilmişdir:

Çox yazarlar ad aldılar,
Çox dahilər ucaldılar,
Zəhmətindən güc aldılar,
Vardı ümman hörmətimiz,
Heydər baba rəhbərimiz.

Poemanın bədii obrazları

Heydər Əliyevin Azərbaycan ədəbiyyatında bədii obraz kimi şair və yazıçılar tərəfindən əks etdirilməsi onun hakimiyyətə gəldiyi dövrdən başlayır. Akademik İsa Həbibbəyli həm sovet, həm də Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Heydər Əliyev obrazının işlənilməsi məqamlarına toxunmuş, "Sovet hakimiyyəti illərində Azərbaycan yazıçıları Heydər Əliyevin simasında mənsub olduğu xalqın milli iftixar mənbəyi olan, ölkəni tanıdan və inkişaf etdirən görkəmli dövlət xadiminin obrazını" canlandırmalarını, "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında isə Heydər Əliyevin xilaskar obrazı yaradılmış, böyük ədəbiyyat onun milli dövlətçiliyin qorunub saxlanılmasında və möhkəmləndirilməsindəki rolunu bədii sözün bütün vüsəti ilə təsvir və tərənnüm etməyə səfərbər" olmalarını qeyd etmişdir. İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında bu ənənənin davam etdirilməsinin şahidi oluruq. Poemada Heydər Əliyevin obrazı dolğun şəkildə təqdim edilir:

Köksündə döyünən odlu ürəklə,
Elinə məhəbbət bəsləyirdi O.
Hər zaman müdrik siyasətiylə,
Dünyanı birliyə səsləyirdi O.

İbrahim Yusifoğlu qələmə almış olduğu "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında obrazın zahiri görünüşünü təsvir etməklə bərabər, təsvir etdiyi obrazın keçirdiyi nigarançılıq, təəssüf, sevinc, kədər və s. hissləri də tərənnüm edir ki, bu da obrazın daxili portretini oxucunun gözündə canlandırır:

Qəlbində nisgilli dərd çağlayırdı,
Vətənin talanan sərvət-varına.
Ömrünün müqəddəs işi sayırdı,
Qaytarsın xalqını torpaqlarına.

İbrahim Yusifoğlunun poemasında Heydər Əliyevin "çekist" obrazında təqdim edilməsi maraq kəsb edir. Belə ki, dövlət təhlükəsizliyi sahəsindəki böyük və əvəzsiz xidmətlər göstərmiş, siyasətçi nəsli, gələcəyin dövlət adamları üçün örnək sayılmalı obraz kimi Heydər Əliyevin milləti qarşısındakı fəaliyyəti millətinə olduğu kimi çatdırılmalıdır. İbrahim Yusifoğlu poemada H.Əliyevin dövlət təhlükəsizliyi sahəsindəki xidmətlərini əks etdirməsi faktını qısa şəkildə açıqlamağa cəhd etmişdir:

Belə bir qarışıq, təzadlı anda
Səfalət almışdı bütöv hər yanı.
Qeyrətli bir oğul zərli paqonda,
Qəlbən qoruyurdu Azərbaycanı.

Poemada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin epizodik şəkildə olsa da, dolğun obrazının təqdimi ilə üzləşirik. İbrahim Yusifoğlu bu məqamı triadada təqdim edir. İlham Əliyevin monoloqu kimi təqdim edilən nitqindəki təntənədə biz İlham Əliyevin obrazını Heydər Əliyev siyasi kursunun davamçısı olmasında, Vətən Müharibəsindəki Zəfər təntənəsində görə bilirik:

Baş əydi, dik baxdı, salamlaşdı da,
O, Ulu Öndərin abidəsinə.
Zəfər sevincini çatdırdı ona,
Qələbə ovqatlı məğrur səsiylə:

- Salam, gözün aydın, ruhun şad ata,
Sənin vəsiyyətin yerinə yetdi.
Döndü oğulların dəmir yumruğa,
Qarabağ torpağı azad edildi.

Poemanın bədii dili

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasının bədii dili ilk növbədə dolğunluğu ilə diqqəti cəlb edir. Poemada dialektizmə, arxaizmə və s. müraciət edilmə poemanın dilinin zənginləşməsinə səbəb olmuşdur. Poemada dialektizmlərə müraciət edilmə məqamı maraq kəsb edir. Məsələn, şair mənfur qonşuların siyasətini işıqlandırarkən, fikirlərini dialekt sözlərlə ifadə edir:

Ancaq düşmən marıxdaydı,
Yol gedirdi, çarıxdaydı.

Mənası pusqu, səngər olan "marıx" və ya "marığ" sözünün Bakı, Naxçıvan, Culfa, Ordubad, Cəbrayıl, Cəlilabad, Salyan, Şərur, Daşkəsən, Kəlbəcər, Xanlar, Masallı, Oğuz və digər bölgələrimizdə xalq tərəfindən işlənilməsinin şahidi oluruq. Məsələn, "Bı dəyqə hammısı marığa yatıp görsün mən nə deyirəm" (Naxçıvan), "Bıra marığ kimi yerdi (Salyan), "Elə bil pişigdi, marığda durıb" (Cəlilabad), "Tülkü marıxdan keşdi" (Kəlbəcər), "Neçə gündü kü, marıxda durmuşam (Xanlar), "Tula qırqo:lun marığında duruf" (Oğuz) və s. İbrahim Yusifoğlu da "ancaq düşmən marıxdaydı" misrasında düşmənin, yəni ermənilərin pusquda durmalarına işarə edir.

Müəllifin işlətdiyi "çarıx" (çarıq) sözü köhnəlmiş söz kimi, yəni arxaizm kimi diqqəti cəlb edir. Bəllidir ki, keçmişdə kəndlilərin geydiyi aşılanmış dəridən tikilən ayaqqabılar, həmçinin yüngül ev ayaqqabıları çarıx (çarıq) adlanırdı. Məsələn, "Keçəl Həmzə çarığını

geydi, patavasını bərkitdi" ("Koroğlu"), "Vəliqulu kənarda çömbəlib başladı çarıqları çıxartmağa" (C.Məmmədquluzadə) və s. İbrahim Yusifoğlu da "Yol gedirdi, çarıxdaydı" misrasında dilimizdə işlənməyən köhnəlmiş sözə müraciət edir.

Poemanın bədii dilində müəllifin xitablara müraciət etməsi də diqqəti cəlb edir. Məsələn, şairin Ümummilli Liderə "Baba" deyə müraciət edilməsi məqamına nəzər salaq:

O qədər qəm-qüssə var canımızda,
Neçə çiçək vaxtsız solmuşdu, Baba.
Ağır anımızda, dar çağımızda,
Hamı siyasətçi olmuşdu, Baba.

İbrahim Yusifoğlu Heydər Əliyevə xitab edərkən, "Baba", "Heydər baba" və s. kimi xitablarla müraciət etməsinin şahidi oluruq:

Heydər baba, həyatda,
Bu gün, sabah da varıq.
Firavan günlər üçün,
Biz sənə minnətdarıq.

Nəticə

İbrahim Yusifoğlunun "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin siyasi fəaliyyətinin, xidmətlərinin bədii şəkildə təqdim edilməsi təqdirəlayiqdir. "O, günəş ömrüdü, sönməyəcəkdir" poeması Heydər Əliyevin bir tarixi şəxsiyyət kimi rəhbərlik etdiyi dövlətin azadlığı və dirçəlişi yolunda apardığı mübarizəni bədii dillə tərənnüm edir. İbrahim Yusifoğlu "O, günəş ömrüdü, sönməyəcəkdir" poemasında Heydər Əliyevin keçdiyi şərəfli, həmçinin keşməkeşli həyat yolunun heç də asan və hamar olmadığını açıqlayır. Müəllif zaman kəsiyində mürəkkəb, ziddiyyətli dövrün içindən müdrikliklə, qalibiyyətlə keçib gələn Heydər Əliyevin obrazını canlandırır.

QAYNAQLAR:

1. İbrahim Yusifoğlu. O günəş ömrüdü, sönməyəcəkdir. Bakı, "Şirvannəşr", 2023, 68 səh.
2. İbrahim Yusifoğlu. O, günəş ömrüdü, sönməyəcəkdir (Poemadan parçalar) https://nuhcixan.az/news/cemiyyet/16532-o-gunes-omrudu-sonmeyecekdir
3. İbrahim Yusifoğlu. O, günəş ömrüdü, sönməyəcəkdir (Poemadan parçalar). "Ədalət" qəzeti, 4 may 2019-cu il, səh.13
4. İbrahim Yusifoğlu. O, günəş ömrüdü, sönməyəcəkdir (Poemadan parçalar) http://www.anl.az/down/meqale/adalet/2019/may/650268(meqale).pdf

HEYDƏR ƏLİYEV
VƏ AZƏRBAYCANÇILIQ İDEYALARI

HEYDAR ALIYEV
AND IDEAS OF AZERBAIJANISM

Sevda Mirkazım qızı QASIMOVA
AMEA Folklor İnstitutu,
sevda.qasimova.61@mail.ru

Özət

Heydər Əliyev müasir dövlətçilik tarixində müstəqilliyi, suverenliyi təmin edən dəyərlərə sadiq qalaraq Azərbaycanın bugünkü uğurlarının təməlini qoymuşdur. Harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının prezidenti olacağını vəd edən və bu vədinə sonacan sadiq qalan Heydər Əliyev Azərbaycanı bütün soydaşlarımızın doğma vətəninə çevirməyi bacardı. Ən qürurverici məqam da odur ki o, özündən sonra bu müqəddəs missiyanı davam və inkişaf etdirən layiqli varis – İlham Əliyev kimi lideri xalqımıza bəxş etdi. Bu gün əminlik hissi ilə demək olar ki, vətənin ən dar günündə belə "fəxr edirəm ki, mən azərbaycanlıyam" – deyib bütün həmvətənlərimizi Azərbaycan xalqının ətrafında yumruq kimi birləşdirməyi bacaran Heydər Əliyevin arzuları çin olub. Onun ruhu şaddır ki, torpaqlarımız azaddır, ölkəmiz gündən-günə çiçəklənir, dövlətimiz qüdrətlənir. Hərtərəfli inkişafı ilə dünyanın aparıcı ölkələrindən biri kimi nüfuz qazanan Azərbaycan Ümummilli Liderin şah əsəridir.

Ulu Öndərimiz Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütün dünyanın tarixində öz adını böyük hərflərlə yazdırmış azərbaycanlıdır. O, ən böhranlı günlərində xalqın xilaskarı kimi ikinci dəfə hakimiyyətə gələrək dövlətçiliyin qorunması və möhkəmləndirilməsi, daha da inkişaf etdirilməsi, Azərbaycanın bugünkü və gələcək uğurları üçün əsaslı zəmin yaratmışdır.

Açar sözlər: siyasət, inkişaf, müasirlik, milli, müstəqillik

Summary

Heydar Aliyev untiringly worked to lay the foundation for the current successes of Azerbaijan, upholding the values that have ensured independence and sovereignty throughout Azerbaijan's history. Today's independent and rapidly improvement Azerbaijan is his masterpiece.

In his political career, our national leader Heydar Aliyev consistently emphasized the importance of preserving national memory. He rightfully pointed out that the history of our

nation has been distorted by others, and thus it is necessary to study Azerbaijan's history impartially. For years, Armenians have tried to distance Azerbaijanis from their national roots and their Turkish heritage. Heydar Aliyev, a great leader of Azerbaijan, has left an indelible mark not only on the history of the Azerbaijani people, but also on the history of the entire world. His tireless efforts to protect and strengthen Azerbaijan's independence have laid the foundation for the country's success. He helped to introduce Azerbaijan to the world.

Key words: Politics, improvement, contemporary, national, independence

Azərbaycançılıq nədir? Ümummilli Lider Heydər Əliyev bu suala çox mükəmməl bir cavab vermişdir: "Azərbaycan dövləti müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olmuşdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik. Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir" (1, 17).

Ulu Öndər Heydər Əliyev müstəqil dövlətçilik siyasətində ilk növbədə azərbaycançılıq ideyalarını, milli irsi və tarixi yaddaşı daim önə çəkmişdir. O, istər ötən əsrin yetmişinci illərində Azərbaycan SSR-nin birinci katibi vəzifəsində işləyərkən, istərsə də sonradan sovet hakimiyyətinin yüksək pillələrində olarkən xalqımızın dərin qatlara xas milli mənliyini dərindən öyrənmiş, səlahiyyət və imkanlarından keçmişimizə, dünənimizə dair tarixi gerçəkliklərin maksimum dərəcədə mənimsənilməsi, yaddaşlara həkk olunması qayğısına qalmışdır. Ümummilli Lider əksər çıxışlarında bildirirdi ki, hələ DTK-da işləyərkən arxiv sənədləri ilə yaxından tanış olmuş, görkəmli şəxsiyyətlərimizin taleyi ilə bağlı sənədləri diqqətlə araşdırmış, onlara qarşı davamlı haqsızlıqların, məruz qaldıqları şiddətlərin, dəhşətli işgəncələrin xalqdan gizlədilməsi ilə barışa bilməmişdir. Ulu Öndər millətimizin tarixinin daim təhrif olunduğuna eyhamlar vurur, reallıqların bərpasını vacib amil kimi dəyərləndirirdi. Bildirirdi ki, yadellilərin başında durduğu işğal, ilhaq amilləri, şovinist siyasət nəticəsində azərbaycanlıları uzun bir dövr ərzində öz milli kökündən, türklüyündən uzaq salmağa çalışmışlar.

Bu tarixi çıxışa diqqət yetirsək, ümumiyyətlə Heydər Əliyevin çoxsaylı çıxışlarının məzmununa qədirşünaslıq prizmasından yanaşsaq, onun ömrü boyu yaxın və uzaq keçmişə, baş vermiş olaylara, daha çox milli tariximizin məhv olunması və unudulması istiqamətində atılmış addımlara nə cür həssaslıqla yanaşdığının şahidi olarıq (2, 73).

Ümummilli Liderimiz Heydər Əliyev siyasətdə daim lider-xalq birliyini, milli vəhdəti dövlət quruculuğunda mühüm amil kimi önə çəkərək bildirirdi ki, müstəqilliyi qazanmaq azdır, onu qoruyub saxlamaq lazımdır. Bunun üçün isə ən başlıcası vətəndaş cəmiyyətinin formalaşması, yurd, torpaq, vətən, dövlət atributlarının milli yaddaşa həkk olunması labüd-

dür. Vətən sevgisini yalnız üzərində yaşadığın torpağın, ərazinin, insanlarının tarixini, yaşam tərzini, adət-ənənələrini dərindən bilərək qazanmaq və digərlərinə aşılamaq, yaşatmaq və davam etdirmək olar. Haqlı olaraq tövsiyə edirdi ki, bu millətin tarixini obyektiv şəkildə öyrənməliyik. Yüz illərlə ermənilər azərbaycanlıları irticalara, dəhşətlərə məruz qoymuş, dədə-baba yurdlarından didərgin salmış, eyni zamanda tarixi saxtalaşdıraraq "Böyük Ermənistan" yaratmaq xülyaları ilə bəzi öz çirkin niyyətlərini həyata keçirmək istəmişlər. Ümummilli Lider Heydər Əliyev demişdir: "Bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, böyük və zəngin tariximizə, millətimizə, sadiq olmaqdan ibarətdir" (7, 569).

Ulu Öndər Heydər Əliyev yalnız dahi siyasətçi deyildi, o, həm də xalqımızın milli maraqlarını qoruyan böyük şəxsiyyət idi. O, bilirdi ki, dövlət olmadan da milli ideologiya ola bilər, lakin milli ideologiyasız dövlət ola bilməz. Deməli, dövlətçiliyin təməlində milli ideologiya durur.

Milliləşmə Ulu Öndər Heydər Əliyevin azərbaycançılıq modelindən qaynaqlanır. Azərbaycançılıq məfkurəsinin kökü qədim dövrlərə gedib çıxsa da, XIX əsrin ortalarında ədəbi fikir cərəyanına çevrilsə də, XX əsrin əvvəllərində sosial-fəlsəfi varlıq və sistem kimi özünün yeni mərhələsinə qədəm qoysa da, mükəmməl milli ideologiya kimi özünün zirvə məqamına Heydər Əliyevdə çatır.

Heydər Əliyevin bu kamil konsepsiyasının fəlsəfi mahiyyəti, başlıca qayəsi dinindən, milliyyətindən və irqindən asılı olmayaraq bütün azərbaycanlılarda, hər bir azərbaycansevərdə vətən sevgisi, vətənpərvərlik ruhu tərbiyə etmək, insanların siyasi baxışlarından, fikir ayrılığından asılı olmayaraq hamını bu sağlam ideya ətrafında birləşdirməkdir.

Heydər Əliyev bu sahədə xüsusən gənclərin düzgün tərbiyə olunmasına diqqət yetirirdi. Çünki onilliklər, yüzilliklər boyu insanları öz milli adət-ənənələrindən ayrı salmaq, şüurlara yad təbliğatı yeritmək siyasəti yadellilərin işğal və ilhaqının tərkib hissəsi olmuşdur. İnsanların irqi ayrıseçkiliyə məruz qalması, məhz islam dinindən, türk mənşəyindən olduğu üçün olmazın əzab-əziyyətlərə, işgəncələrə düçar olması rus imperializminin, sonradan isə sovet hakimiyyətinin başlıca hakimiyyət və idarəetmə mexanizminə çevrilmişdir.

Dini ayrıseçkiliyin fəsadlarını aradan qaldırmaqda ən yaxşı vasitənin məhz milli-irsi və islami dəyərlərin düzgün təbliği olduğunu vurğulayan Ümummilli Lider deyirdi: "Gənclərimizin islam dinini mənimsəməsi üçün tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhvali-ruhiyyəsi aşılamaq istəyirlər" (4, 29). Gənclərimiz azərbaycançılıq ideologiyasını dərindən dərk etsələr, yad təsirlər altına düşməzlər. Onlar milli-mənəvi dəyərləri və babalardan miras qalan adət-ənənələri qoruyarlar. Bu da bütövlükdə doğma torpağa, vətənə, xalqa və dövlətə sadiqlik deməkdir.

Ədəbi irsimizə çox incəliklə yanaşan Ulu Öndər yüksək humanizm ideyalarını, türk mənliyini, islami və bəşəri dəyərləri, qəhrəmanlığı, ilahi sevgini və s… öz əsərlərində dünyaya yayan böyük sənətkarlarımızın dərindən öyrənilməsini, layiqincə təbliğ olunmasını və gələcək nəslə çatdırılması qayğısına qalınmasını ədəbiyyatşünaslar qarşısında mühüm vəzifə kimi qoyurdu. Bəli, Azərbaycan xalqı şair təblidir, yurdumuzda şeirə-sənətə böyük hörmət vardır. Lakin bu torpaq, bu xalq dünyaya elə şairlər bəxş etmişdir ki, onlar öz əsərlərində ən yüksək insani ideyaları, fikir və düşüncəni formalaşdıra bilmişlər. Şeyx Nizamini, böyük Füzulini, iki cahana sığmayan Nəsimini, romantik ədəbiyyatın realist ədibi Cavidi, Müşfiqi… yetərincə tanıtmaq, onların həyat və yaradıcılığı barədə gizli arxivlərdə onilliklərlə yatıb qalan saralmış həqiqətləri oxucuya, dünyanın ədəbiyyat həvəskarlarına çatdırmaq, elmi mənbələrdə öz yerini tapmasına yardımçı olmaq hamımızın borcudur. Ədəbiyyatımızı ədəbiyyatşünaslar, tariximizi tarixçilər, musiqimizi musiqişünaslar, teatrımızı teatrşünaslar, memarlığımızı memarlar… qədər bilən Heydər Əliyev rəhbər tövsiyələrində həmişə olduqca real, həssas və məntiqli idi: "Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları tək şair kimi deyil, böyük filosof kimi, dünyaya, dünya mədəniyyətinə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq" (1, 87).

Böyük şəxsiyyətləri səciyyələndirən əsas cəhətlərdən biri də hadisələri əlaqəli şəkildə görmək bacarığıdır. Heydər Əliyev dahi siyasətçi kimi həmişə tarixin və müasirliyin vəhdətinə üstünlük verirdi. O, müdrik olduğu qədər də yenilikçi idi. Dünyada yeni nə varsa, Azərbaycana gətirmək, tətbiq etmək, yeni müstəqil respublika qurmaq onun ən böyük arzusu və amalı idi. Lakin tarixdən dərs almaq üçün onu dəyərləndirmək, yenilikləri tətbiq etmək üçün onları qiymətləndirmək lazımdır. Buna görə Heydər Əliyev azərbaycançılıq ideyasını irəli sürmüşdü. Onun təbirincə desək, azərbaycançılıq öz milli mənsubiyyətini, irsi dəyərlərini qoruyub saxlamağa nail olmaq deməkdir.

Heydər Əliyev uzaqgörən siyasətçi, Ümummilli Lider kimi Azərbaycanın gələcəyini fikirləşərək özündən sonra siyasi kursu davam etdirəcək İlham Əliyev kimi müdrik siyasi liderin yetişməsi qayğısına qalmışdır. Müstəqil Azərbaycanın sükanı arxasında olduğu illər ərzində Heydər Əliyevin dövlətimizin müstəqilliyini möhkəmləndirmək istiqamətində yorulmaz fəaliyyəti və məqsədyönlü siyasəti öz bəhrələrini vermişdir. Ulu Öndər yaxın və uzaq məqsədlərini dəqiqliklə ifadə etməyi bacaran və yüksək amalları yolunda mübariz bir siyasətçi, lider və şəxsiyyət idi.

"Mənim tərcümeyi-halım Azərbaycana həsr etdiyim həyatım, fəaliyyətim, əməllərimdir", – demişdi o və öz tərcümeyi-halını əbədi olaraq şanlı tarixə yaza bilmişdi. Həqiqətən də, müasir Azərbaycanın taleyini Heydər Əliyevin taleyindən, Heydər Əliyev şəxsiyyətini isə Azərbaycandan ayrılıqda təsəvvür etmək mümkün deyil. Heydər Əliyevin dünya siyasəti tarixində elə möhtəşəm xidmətləri var ki, onları hətta sərt və xüsusilə vurğulamaq lazımdır

ki, səhv mövqedə dayanan ölkələrin tanınmış liderləri də etiraf etməli olurlar. Bu mənada Azərbaycanın dünya miqyasında özünə layiqli yer tutmasında Heydər Əliyevin misilsiz xidmətləri haqqında Fransanın sabiq Prezidenti Jak Şirakın dedikləri böyük maraq doğurur: "Azərbaycanın Avropa ölkələri arasında özünə layiq yer tutmasını böyük təcrübəyə malik, şöhrətli dövlət xadimi Heydər Əliyevin uzaqgörən, müdrik siyasətinin gözəl bəhrəsi kimi dəyərləndirirəm. Azərbaycanın Avropa Şurasına qəbul edilməsi, bu ölkədə insan haqlarının qorunması, demokratiyanın möhkəmlənməsi, daim inkişafda olması məhz Heydər Əliyevin siyasətinin nəticəsidir" (6, 102).

Heydər Əliyev Azərbaycan xalqının yetişdirdiyi ən qüdrətli tarixi şəxsiyyətlərdən biridir. Zaman ötdükcə və hər günün sonundan qanrılıb keçmişə boylandıqca Heydər Əliyevin xidmətlərini daha aydın görürük. Ulu Öndər təkcə müstəqilliyi gerçəkləşdirmədi, yaratdığı dövləti qorumaq, möhkəmləndirmək və hərtərəfli inkişaf etdirmək üçün əlindən gələni əsirgəmədi. Heydər Əliyev öz xalqına arxalandı, siyasətdə, idarəçilikdə dəstəyi sevimli xalqdan aldı. Azərbaycanı təmsil edən hamını və hər kəsi milli ideya ətrafında birləşdirən lider ən çətin dönəmlərdə xalqı ilə bir yerdə oldu, gözlənilən və gözlənilməz bəlalara sinəsini sipər etdi. Onun adı Azərbaycan dövlətinin rəmzi kimi səsləndi.

"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir" deyən Ulu Öndər istər sovetlər dönəmində, istərsə müstəqillik illərində ölkənin hərtərəfli inkişafı üçün çox mühüm addımlar atıb (3, 2).

Hər bir xalqın müstəqilliyinin, suverenliyinin ən dolğun ifadəsindən, ən böyük göstəricilərindən biri onun dilidir. Heydər Əliyevin müstəqil dövlətçilik ənənələrinin bərqərar olmasının, azərbaycançılıq ideyalarının inkişafının təməl prinsiplərində başlıca yerdə ana dili durur. O qeyd edirdi ki, bizi keçmişlə, bu günlə, gələcəklə birləşdirən Ana dilimizdir. Təsadüfi deyil ki, Azərbaycan yer üzündə ana dilinə heykəl ucaldılmış nadir ölkələrdən biridir. Ulu Öndərin fikrincə gənclər çox dil bilməlidirlər, poliqlot olmalıdırlar. Amma öz dillərini daha mükəmməl bilməlidirlər.

Bu gün Azərbaycan dövlətinin dünyada nüfuzunun getdikcə artması və güclənməsi ölkəmizdə dönməz, daimi və əbədi olan müstəqil dövlətçilik amalları ilə bağlıdır. Balanslaşdırılmış siyasət, yeri gəldikdə qəti, prinsipial və davamlı liderlik mövqeyi ölkəmizin nüfuzunu artırdı. Ulu Öndərin uğurlu daxili və xarici siyasəti sayəsində azərbaycançılıq təkcə milli ideologiyaya çevrilmədi, həm də qüdrətli və qüvvətli dövlətçiliyin baza prinsiplərindən birinə çevrildi.

Dünya azərbaycanlılarının həmrəyliyi günündə Ümummilli Lider Heydər Əliyevin vurğuladığı "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı –

Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaratmalıyıq" sözləri Azərbaycan xalqının yaddaşında silinməz izlər buraxmışdır (2, 56).

Azərbaycançılıq ideologiyası müasir dünyanın reallıqlarına əsaslanan ideologiyadır. İctimai əxlaq və ideologiya yalnız milli-mənəvi dəyərlərə əsaslandıqda möhkəm olur.

Ümummilli Lider Heydər Əliyevin təhsil, mədəniyyət, səhiyyə, iqtisadi inkişaf sahəsində idarəetmə siyasəti Azərbaycanın müstəqilliyinin sarsılmaz dayaqlarının möhkəmlənməsinə səbəb oldu.

Ulu Öndərimiz yalnız Azərbaycan xalqının deyil, bütün dünyanın tarixində öz adını böyük hərflərlə yazdırmağa nail olmuş nadir siyasətçilərdəndir. Onun rəhbərliyi dövründə dövlət müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi istiqamətində həyata keçirilən hərtərəfli islahatlar Azərbaycanın uğurları üçün zəmin yaratmışdır. O, Azərbaycanı dünyaya tanıtdı.

Dünya azərbaycanlılarının birliyi, milli dəyərlərin qorunması, mədəniyyətin inkişafı azərbaycançılığın əsasını təşkil edir. Müstəqilliyə yeni qədəm qoymuş dövlətdə bu sahədə çox işlər görülmüşdür. Azərbaycan xalqının tarixi onun milli şüurunun formalaşmasında həlledici rol oynayır. Milli bütövlüyün təcəssümü olan azərbaycançılıq Ulu Öndər Heydər Əliyevin ikinci qayıdışından sonra daha güclü və surətli şəkildə formalaşmağa başlamış, müstəqilliyin möhkəmlənməsində başlıca rol oynamışdır. İdeologiya hər bir xalqın həyatında oynadığı əhəmiyyətli rolla onun milli-mənəvi dirçəlişinə, millətçiliyin möhkəmlənməsinə xidmət edir.

Heydər Əliyevin siyasi iradəsi ilə başlanan və durmadan inkişaf etdirilən müstəqil dövlətçilik ideyası ölkəmizdə yaşayan bütün etnik və milli mənsubiyyətlərin amalına çevrildi. İctimai-siyasi cəmiyyətinin formalaşması, insanların təhlükəsiz yaşayışının təmin olunması sivil və hüquqi dövlət quruculuğunda vətəndaş marağının günü-gündən artmasına möhkəm zəmin yaratdı. Bu amillər, eyni zamanda, Azərbaycan cəmiyyətində siyasi davranışın da xüsusiyyətlərinin dəyişməsində əhəmiyyətli dərəcədə rol oynadı.

Və nəhayət...bütün dünyanın guya sülhsevər birliklərinin və hegemon dövlətlərinin həll etməkdə aciz qaldıqları Qarabağ probleminin və ümumən dədə-baba yurdlarımıza qayıdışla bağlı məsələlərin çözülməsində hələlik ilk addım olan 44 günlük müharibədə qazanılmış möhtəşəm qələbə Heydər Əliyev amallarının təntənəsidir desək, yanılmarıq. Layiqli varis, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev bu gün dünyada baş verən ictimai-siyasi hadisələrin mərkəzindədir, əksər mötəbər beynəlxalq tədbirlərin söz və nüfuz sahibidir. İnanırıq ki, Heydər Əliyevin şah əsəri olan və bu gün İlham Əliyevin səriştəli rəhbərliyi altında böyük uğurlara imza atan Azərbaycan bundan sonra da daim çiçəklənəcək və bütün yurddaşlarımızın, azərbaycansevərlərin doğma ocağı, sevimli vətəni kimi seviləcəkdir.

Professor Cəlal Qasımov monoqrafiyasında belə yazmışdır: “Azərbaycançılıq ideologiyası millətin milli kimliyidir. Azərbaycançılıq ideologiyasının Heydər Əliyev modeli millətə aşılanması vacib olan VƏTƏN ƏXLAQIDIR. Azərbaycançılığın Heydər Əliyev modeli öyrədir ki, Vətən, içində gəzdiyin deyil, içində gəzdirdiyindir. Məhz bu zaman Vətənin coğrafiyası olduqca genişlənir. Heydər Əliyevin xalqımızın milli mənlik şüurunun formalaşmasına istiqamətlənən azərbaycançılıq ideologiyasının ictimai-siyasi, fəlsəfi qayəsi və yeni modeli budur. Belə bir ideologiyası və Ümummilli Lideri olan xalqın həmişə və hər yerdə haqqı var ki, uca səslə desin: “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam” (3, 685).

Heydər Əliyevə xalq sevgisi qazandıran cəhətlərdən biri də onun yaradıcı insan olması, ölçüyə gəlməz xarizması idi. Elə buna görə də kütləni öz arxasınca aparmağı bacardı. Xalq – Heydər Əliyev birliyi yarandı. O, Azərbaycanı faciələrdən və parçalanma təhlükəsindən qurtardı. Ümummilli Lider səviyyəsinə ucaldı.

QAYNAQLAR:

1. “Heydər Əliyev: müstəqilliyin yolu”. Bakı, 1997.
2. Azərbaycan diasporu: tam mətnli elektron materiallar məcmuəsi. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, http: //WWW. preslip. Bakı: 2005
3. Azərbaycanın təhlükəsizlik orqanları 100 ildə: tarix və müasirlik. DTX-nin nəş. Bakı: 2019, 728 s.
4. Heydər Əliyev “Dünya azərbaycanlılarının I qurultayında Azərbaycan prezidenti Heydər Əliyevin nitqi”. Dirçəliş, XX əsr. 2003, № 70.
5. Heydər Əliyev. “Şərq qapısı” qəzeti, 15 avqust, 2002
6. Mahmud İsmayıl. “Azərbaycan xalqının yaranması”. Bakı: Azərbaycan nəşriyyatı, 1995
7. Yusifzadə Z. Böyük insan. Bakı: Azərnəşr, 2014

HEYDƏR ƏLİYEV: MİLLİ-TARİXİ YADDAŞ VƏ ƏDƏBİ PROSES

HEYDAR ALİYEV: NATIONAL-HISTORICAL MEMORY AND LITERARY PROCESS

Sevinc Kərim qızı ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
AMEA Folklor İnstitutu,
sevinc.k.aliyeva@gmail.com

"Hər bir xalqın milli tarixi yaddaşını, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir".

Heydər Əliyev

Özət

Heydər Əliyev sözün həqiqi mənasında böyük lider olub. Heydər Əliyev haqqında az yazılmayıb, lakin bu yazılar da onun həyat və fəaliyyətinin əsl mənada tədqiqi üçün başlanğıc sayıla bilər. Azərbaycan dövlətinin inkişafına gərgin əmək sərf etmək onun həyatda əsas amalı olub və həmişə qurmaq, yaratmaq eşqiylə yaşayıb. Bütün bunlarla bərabər, Heydər Əliyevin fəaliyyətində ən uğurlu işlər siyahısında bilavasitə dilimiz, tariximiz və etnoqrafiyamız ilə bağlı imzaladığı fərman və sərəncamlar da yer alır. Bunların nəticəsidir ki, Heydər Əliyev bir insan, bir lider kimi o qədər geniş və zəngin fəaliyyətə malikdir ki, onları hər hansı bir məqaləyə sığışdırmaq çətindir. Görkəmli liderin fəaliyyəti və fikir dünyası çox müxtəlif istiqamətlərdə öyrənilməyə layiqdir. Heydər Əliyevin ölkənin çiçəklənməsi və inkişafında xidmətlərini, Azərbaycanın yüksəlişi naminə həyatını yanar bir çırağa çevirməsini, bu yolda əziyyət və çətinliklərə sinə gərməsini, zamanında elm, mədəniyyət, incəsənət adamlarına, xüsusən gənclərə bəslədiyi atalıq qayğısını qeyd etməmək mümkün deyil. Konfransda təbii ki, Ümummilli Lider haqqında elm adamlarını düşündürən müxtəlif mövzulu əsərlər də yer alır.

Açar sözlər: Heydər Əliyev, Azərbaycan dili**,** elm, təhsil, qanun, müstəqillik, gənclik, ədəbiyyat, folklor, Kitabi-Dədə Qorqud

Summary

Heydar Aliyev was a great leader in the true sense of the word. Much has been written about the life and activities of Heydar Aliyev, but these writings can also be considered as the beginning for the study of his life and activities in the true sense. His main task in the

life was spending hard work on the development of the Azerbaijan state and he always lived with the love of building and creating. Along with all this, the list of the most successful works of Heydar Aliyev includes the decrees and orders he signed directly related to our language, history and ethnography. As a result of these, Heydar Aliyev as a person and a leader has such a wide and rich activity that it is difficult to fit them into any article. The activity and world of ideas of the outstanding leader deserve to be studied in many different directions. It is impossible not to mention Heydar Aliyev's services to the prosperity and development of the country, turning his life into a burning lamp for the sake of the rise of Azerbaijan, enduring hardships and difficulties on this path, and the fatherly care he gave to the people of science, culture, and art, especially the youth. Of course, the conference includes works on various topics that make scientists think about the national leader.

Keywords: Heydar Aliyev, Azerbaijani language, science, education, law, independence, youth, literature, folklore, "Kitabi-Dede Gorgud"

Heydər Əliyev – bu mövzuda yazmaq bizim üçün çox şərəfli, həm də məsuliyyətlidir. Çünki daim bu mövzuya müraciət etdikdə müasir dünya diplomatiyasının böyük şəxsiyyətlərindən biri olmuş bu insanın müdrikliyinə heyran qalırıq. Bu yazımızda da biz iyirminci əsr Azərbaycanın ən çətin və mürəkkəb dövründə ona rəhbərlik edən, yüzillik ərzində ikinci dəfə qazanılan dövlət müstəqilliyini əbədiliyə və dönməzliyə çevirən, üstəlik ölkəmizin iyirmi birinci əsrdəki düzgün inkişaf istiqamətini müəyyənləşdirən, onun möhkəm təməlini qoyan və idarəsini etibarlı əllərə ötürən bu dahi şəxsiyyətin böyük ömrünün bəzi məqamlarından bəhs etmək istərdik. Heydər Əliyevin həyat və fəaliyyəti, əməl və mübarizəsi Azərbaycan xalqının tarixi və taleyi ilə o qədər qaynayıb-qarışıb ki, ondan söhbət açarkən əslində xalqın tarixindən danışmış oluruq. Yaxud da əksinə, ölkəmizin keşməkeşli günlərindən bəhs edərkən Heydər Əliyevin xidmət və fəaliyyətini xatırlamamaq imkansızdır.

Dünyaya müdrik, əvəzolunmaz, görkəmli şəxsiyyətlər nadir hallarda gəlir. Bunlardan biri də XX yüzillikdə Azərbaycana qismət olub. Bu, Ulu Öndərimiz, Ümummilli Liderimiz Heydər Əliyevdir. Onun sinəsində döyünən ürək xalqına səadət rəmzi idi. Ancaq belə bir ürəyin sahibi bütün çətinliklərə qalib gələ bilərdi. O, xalqımızın sınanmış oğlu idi. Tarixi mənbələrdən və arxiv materiallarından da əldə etdiyimiz mənbələrə əsasən, Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi yetmişinci illərdə Azərbaycan ədəbiyyatının inkişafı üçün hər tərəfli siyasi-ideoloji, mənəvi şərait yaradıldı. Məhz dövlət qayğısı sayəsində yazıçılarımız, şairlərimiz, ədəbiyyatşünaslarımız sırf öz işləri ilə məşğul olurdular və onların məhsuldar yaradıcılığı da bu işin nəticəsi olaraq tarixə həkk olundu. Bu illərdə Azərbaycan mətbuatı xeyli inkişaf etmişdi. Çünki tarixin müxtəlif dönəmlərində Azərbaycanda da ədəbiyyatımız müxtəlif dillərdə, ərəb, fars, müəyyən dövrlərdə rus dilində yazılmışdır. Fərqli

ictimai-siyasi quruluşlarda Azərbaycan dilinə və ədəbiyyatına rəsmi münasibət fərqli olmuşdur. Bəzən ədəbiyyatımızın və dilimizin rəsmi statusu yüksəlsə də, bu keçici, müvəqqəti olmuşdur. Lakin bunlara baxmayaraq, Azərbaycan xalqı öz dilini, ədəbiyyatını, tarix və etnoqrafiyasını, ümumən arxivini qorumuş, mühafizə etmiş, inkişaf etdirmişdir. Xalqın həqiqi məhvi, tarix səhnəsindən çıxması onun arxivinin, keçmişinin ölməsidir. Bunu da xüsusi vurğulamalıyıq ki, yalnız Azərbaycan xalqı Azərbaycan ədəbiyyatını, tarix və etnoqrafiyasını, ən əsası dilini yaşatmayıbdır, həm də Azərbaycan dili Azəraycan xalqını yaşadıbdır. Azərbaycan ədəbiyyat və tarixinin, doğma dilimizin hər zaman xalqın qayğısına ehtiyacı olduğu qədər, dövlətin də diqqətinə ehtiyacı olmuşdur. Təəssüflər olsun ki, çox hallarda rəsmi idarələrin, xüsusən uzun müddət dövlət başçılarının soyuq münasibəti səbəbindən ədəbiyyat və tariximizlə bərabər, dilimizə münasibət birmənalı olmamış, Azərbaycan dili rəsmi idarə qapılarının astanasından içəri keçə bilməmişdir. Yalnız dilimizə əsil qiymətini bacarıqlı dövlər başçısı, Ümummilli Liderimiz Heydər Əliyev vermişdir. O, hakimiyyətinin həm sovet, həm də müstəqillik dövründə dilimizi daimi dəyərləndirmişdir. Müşahidələrimiz də göstərir ki, Azərbaycan dilinin dövlət dili kimi formalaşması prosesi sovet dövründə də kifayət qədər ardıcıl şəkildə getmişdir. Eləcə də "Qobustan" incəsənət almanaxı, "Ulduz" və 1970-ci ildən çap olunan "Sovet Türkologiyası" jurnalları xalqın özünüdərk, milli dirçəliş prosesində mühüm rol oynayırdı. Bütün bunların nəticəsi idi ki, yetmiş-səksəninci illər ən yeni dövr Azərbaycan ədəbiyyatı tarixinə yüksəliş, inkişaf illəri kimi daxil olub. Məhz bu illərdə Azərbaycan yazıçılarının qurultayları ardıcıl olaraq keçirildi, milli ədəbi prosesə ictimai-siyasi dəyər verildi.

Bakıda və Naxçıvanda Cəlil Məmmədquluzadə, romantizm ədəbi cərəyanının nümayəndəsi Hüseyn Cavid kimi sənətkarların ev muzeyləri yaradılır, maarifçi-realist Nəriman Nərimanovun ev muzeyi isə yenidən qurulurdu. Xalqın mənəvi aləmini zənginləşdirmək, onu özünə və başqalarına daha yaxşı tanıtmaq üçün elm, təhsil, ədəbiyyat və incəsənətin bütün mümkün vasitələrindən istifadə edilirdi. Tarixi və ədəbi mənbələr bunu da göstərir ki, Azərbaycanda Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğu illərində də ədəbiyyatın, mədəniyyətin inkişafına daha böyük diqqət yetirilməyə başlandı. Qeyd etdiyimiz kimi, görkəmli söz sənətkarlarının yubileyləri təntənəli şəkildə qeyd olunur, əsərləri yenidən nəşr edilərək cəmiyyətin kütləvi istifadəsinə verilirdi. Ədiblərin xatirəsinin əbədiləşdirilməsi üçün onların adına məktəblər açılır, küçələr salınır, heykəlləri qoyulur, türbələri ucaldılırdı. Məhz görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü və köməyi ilə Hüseyn Cavidin cənazəsi 1982-ci ildə uzaq Sibirdən vətənə gətirildi, doğma Naxçıvanda torpağa tapşırıldı (1). Bu hadisə Ümummilli Liderin müdrikliyinin ən bariz nümunəsi idi. Akademik İsa Həbibbəylinin də bu tarixi hadisə haqqında fikirləri diqqətimizi cəlb edir: "Fikrimcə, repressiya mövzusuna münasibətdə elmdə və ədəbiyyatda ciddi, əsaslı dönüş

görkəmli dövlət xadimi Heydər Əliyevin böyük Azərbaycan şairi Hüseyn Cavidin nəşinin uzaq Sibirdən ölkəmizə gətirilməsi hadisəsi ilə başlanmışdır. Bu hadisədən sonra ədəbiyyatda və mətbuatda özünə yer alan "Hüseyn Cavid" mövzusunun ədəbi-ictimai mühitdə "tam bəraət" almasını təmin etmişdir. Doğru olaraq, 1981-ci ildə Ulu Öndər Heydər Əliyevin "Görkəmli Azərbaycan şairi Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında" imzaladığı Sərəncam həm repressiya qurbanı olmuş qüdrətli romantik şairin, həm də ümumiyyətlə, 1937-ci il qurbanlarının həqiqi bəraətinin qəti təsdiqi sənədinə çevrilmişdir" (5, 4).

16 mart 1994-cü ildə Heydər Əliyevin fərmanı ilə dahi sənətkar Məhəmməd Füzulinin isə beş yüz illik yubileyi təntənəli surətdə qeyd olundu (2). Məhəmməd Füzulinin beş yüz illik yubileyinin əsaslı hazırlanması və dövlət səviyyəsində keçirilməsi şairin xatirəsinə dərin ehtiram və məhəbbətin ifadəsi idi. Bu fərman Azərbaycan xalqının qədim və yüksək mədəniyyətinin, ədəbiyyatının, tarixinin dünyada təbliği və tərənnümünə xidmət edirdi. Belə ki, yubiley tədbiri çərçivəsində ölkəmizə dünyanın hər yerindən qonaqlar, ədəbiyyatşünas alimlər, yazıçılar dəvət edilmişdir. Bütün bunlar göstərir ki, Heydər Əliyevin vətəndaşlıq hissi, doğma Vətəninə, xalqına qayğısı, millətinə bağlılığı onun ən ali keyfiyyətlərindən olub. İnsan iradəsinin məğlubedilməz obrazını yaradan yalnız məslək eşqidir. Bilirik ki, Heydər Əliyev də öz məsləki uğrunda odlardan, alovlardan keçən, sağlamlığını belə qurban verən şəxsiyyətlərdən biri olub. Onun Azərbaycan elmini dünya elm arenasına çıxaran konsepsiya və sərəncamları da dəfələrlə sübut edib ki, Heydər Əliyev orijinal düşüncəyə malik nadir zəka sahiblərindən olub. O, xalqımızın ruhu, mənəvi güzgüsü, qolu-qanadı olan zəngin Azərbaycan dili və ədəbiyyatını da elmi durğunluqdan və tənəzzüldən xilas etdi. "İndi Azərbaycan dilinin özünəməxsus inkişaf qanunları ilə cilalanmış kamil qrammatik quruluşu, zəngin söz fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası, yüksək səviyyəli yazı normaları vardır"-, söyləyən Ümummilli Lider nitqi, davranışı, mədəniyyəti, fikir və əqidəsi ilə dünyada da böyük nüfuz qazanmışdır. Bütün bunlar göstərir ki, tarixinə, folkloruna, etnoqrafiyasına sonsuz məhəbbət Heydər Əliyevin yol yoldaşı olub. Məhz bu sevginin nəticəsidir ki, milli istiqlal və azadlıq ideyalarının carçısı Bəxtiyar Vahabzadənin, Qabilin, farsdilli ədəbiyyatda Hafiz və Sədi Şirazi ilə adı bir anılan Məmmədhüseyn Şəhriyarın, saf, səmimi duyğularını qələm almaqdan çəkinməyən Mikayıl Müşfiqin, aşıq sənətinin görkəmli nümayəndəsi Aşıq Ələsgərin, ədəbiyyatşünas və yazıçı Mir Cəlalın yubileyləri də geniş qeyd olundu. Bunu elmi mənbələr də sübut edir ki, hər bir millətin, xalqın varlığının əsas göstərici onun folklorudur. Xalqın təfəkkürü və intellektual bacarığı ən mükəmməl halda folklorun daxili qatında, məntiqində qorunub saxlanılır. Folklor insanlar arasında ən mühüm ünsiyyət, fikir mübadiləsi və qarşılıqlı anlaşma vasitəsi olmaqla bərabər, digər müəyyənlikləri də qazanmış olur. Folklorun xalqın tarixi, etnoqrafiyası, dili ilə daha çox bağlı olduğunu da bilirik. Bütün hallarda folklor mənsub olduğu xalqın əsil milli sərvəti statusunu özündə cəmləşdirir, milli

keyfiyyətlərin daşıyıcısına çevrilir. Elə bu səbəbdəndir ki, "ədəbiyyatın gücü tarixən bir nəfər tərəfindən yaşanmış duyğu və hadisələrin zaman-zaman minlərlə insan tərəfindən təkarən yaşanmasındadır" fikri hər bir alimin ədəbiyyat haqqında bütün elmi araşdırmalarında əsas götürdüyü ideyalardan biri kimi təzahür edir. Hər bir millətin, xalqın varlığının əsas göstərici onun folklorudur. Folklor haqqında ifadə olunmuş bu dəyərli fikir və faktlar yerinə düşür ona görə ki, 2000-ci ilin aprelində xalqımızın böyük folklor abidəsi, şah əsəri "Kitabi-Dədə Qorqud" dastanının yazıya alınmasının 1300 illik yubileyi Bakıda böyük təntənə ilə keçirildi. 1999-cu il 21 fevral tarixində prezidentin imzaladığı sərəncama əsəsən, davam edən ciddi hazılıqlar prosesində eposla bağlı yüzlərlə kitab nəşr olundu, geniş araşdırmalar aparıldı, ölkənin bütün rayonlarında sərgi və kütləvi tədbirlər həyata keçirildi. "Dədə Qorqud"un yubileyi ümumən Azərbaycanın yubileyi idi. Yubiley tədbiri zamanı Heydər Əliyev nitqində demişdi: ""Kitabi-Dədə Qorqud" ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi tarixi abidəmiz var, fəxr edirik ki, Dədə Qorqud kimi ulu əcdadımız vardır".

"Kitabi-Dədə Qorqud" dastanının yazıya alınmasının 1300 illik yubileyinin geniş miqyasda qeyd edilməsi aydın edir ki, o, Azərbaycan folklorunun gələcək inkişafını düşünən mütəfəkkir şəxsiyyət olub və milli mənliyimizin qorunmasında daim fədakarlıq göstərib. Akademik Muxtar İmanov tədqiqatlarında yazır: "1970-ci illərə qədər sovet rejiminin Azərbaycan folkloruna və folklorşünaslığına münasibəti xüsusi sərtliyi ilə seçilmişdir. 1930-cu illərdə folklorşünaslarımızdan bir çoxunun repressiya olunması dediyimiz sərt münasibəti sübut edən faktlardandır. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk vaxtlardan folklora və folklorşünaslığa münasibət müsbət mənada dəyişmişdir. Azərbaycan Elmlər Akademiyasının əməkdaşları 1970-1980-ci illərdə "Kitabi-Dədə Qorqud", "Koroğlu" eposlarını, eləcə də Azərbaycan məhəbbət dastanları, nağıllar, qaravəllilər, lətifələr, atalar sözləri, bayatılar, əfsanə və rəvayətlərdən ibarət topluları təkrar-təkrar nəşr etdirmişlər. O illərdə M.H.Təhmasib, M.Seyidov, İ.Abbaslı və b. alimlərimizin folklorşünaslıq sahəsində sanballı elmi əsərləri ortaya çıxmışdır" (3, s. 46-54).

Nizami adına Ədəbiyyat İnstitutunun tərkibində kiçik bir şöbə kimi fəaliyyət göstərən Folklorşünaslıq şöbəsi məhz Heydər Əliyevin xeyir-duası altında ayrıca bir instituta çevrilərək Azərbaycan folklorşünaslıq elminin inkişafı üçün son dərəcədə zəruri bir təsisat əldə edilmişdir. Azərbaycan xalqının böyük oğlu, Ümummilli Lider Heydər Əliyevin daim yaşayacaq əziz xatirəsinə həsr edilmiş bu konfrans AMEA Folklor İnstitutunun kiçik bir hədiyyəsidir. Çünki milli-mənəviyyatımızın təmsilçisi və ifadəçisi olan, millətə milli kimliyinin tanıdılmasında, saf şəkildə qorumaqda ona yardım edə biləcək folklor qədər ikinci bir müqayisə olunacaq anlayış yoxdur və Folklor İnstitutu bu missiyanın həyata keçirilməsində müstəsna xidmətlər göstərir. Yuxarıda da vurğuladıq ki, Heydər Əliyevin Azərbaycan dilindən

mükəmməl şəkildə istifadə etməsi dilimizin inkişafı və istifadə imkanlarının genişlənməsi üçün yeni bir təkan oldu. Çünki dilin inkişafı elə bir prosesdir ki, ona lazım olan bütün enerji və təfəkkür onu işlədənin özündən gəlməlidir. Əgər yazıçı istedadsızdırsa bədii dil yaranmaz. Publisist adlanan şəxsin dedikləri də dedi-qodudan başqa bir şey olmayacaqdır. Ona görə də biz çalışmalıyıq ki, hər misrası, hər sözü, kəlməsi doğma dilimizdə olan folklorumuzu qoruyaq. Ana və nənələrimizdən eşitdiyimiz layla, bayatı, ata və babalarımızdan yaddaşımıza yazılan atalar sözləri və məsəlləri unutmayaq, gələcək nəsillərə ötürək ki, dilimiz, tariximiz, ədəbiyatımız əbədi yaşasın. Heydər Əliyevin də xalqın ən sadə nümayəndəsindən tutmuş ziyalısına qədər məhz öz dilində ünsiyyət qurmağı paralel olaraq dilimizə orijinal bir cəsarət gətirdi. Bu haqda proffessor Cəlal Qasımovun tədqiqatlarında da əks olunur: "Əllinci illərin siyasi ab-havasında meydana çıxan yumşalma ana dili ilə bağlı proseslərin müsbət istiqamətdə sürətlənməsinə müəyyən təsir göstərmişdir. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra isə dilimizin inkişafı yeni mahiyyət kəsb etmişdir. Bu proses Azərbaycan dilinin tərəqqisində növbəti mərhələnin başlanğıcı olmuşdur. Həmin illərdən etibarən Azərbaycan dilinin istifadə dairəsi genişlənmiş, onun tədrisi və tədqiqi ilə məşğul olan müəssisələrə xüsusi qayğı göstərilməyə başlanmışdır" (4, 6).

Ümumilikdə, Heydər Əliyevin dil siyasəti də çox geniş və əhatəlidir. Məhz Heydər Əliyevin səyi və fədakarlığı nəticəsində sovet dövründə belə Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-nin konstitutsiyasında öz əksini tapdı. Ardınca çoxcildlik "Müasir Azərbaycan dili" dərslikləri yazılıb dövlət mükafatına layiq görüldü. Azərbaycan dilinin tədqiq olunmasına yüksək diqqət nəticəsində dilimiz, onun tarixi haqqında yüzlərlə maraqlı və zəruri tədqiqatlar aparıldı. Məktəblərdə Azərbaycan dilinin geniş və əhatəli tədrisi gerçəkləşdi. Qeyd etdiyimiz kimi, həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda Ulu Öndərin özünün də Azərbaycan dilində danışması dilimizin ictimai-siyasi mövqeyini yüksəltdi. Azərbaycan dilinə və ədəbiyyatına diqqətlə yanaşması, bu dildə yüksək səviyyədə ədəbi-estetik əsərlərin yaranmasına təkan verdi. Milli müstəqillik dövründə Azərbaycan dilində fərman və əmrlər imzalamaqla dilimizin rəsmi statusunu da müəyyənləşirdi. Təsadüfi deyil ki, hər il avqust ayının biri Azərbaycan Respublikasında Azərbaycan əlifbası və dili günü kimi qeyd olunur və bu təqvim dilimizin inkişafında yeni bir mərhələ açdı. Belə ki, 9 avqust 2001-il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı Ümummilli Liderimizin doğma dilimizə böyük sayğısından soraq verir.

Qədim və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqı dünya sivilizyasına bir çox dəyərli töhfələr vermişdir. Onların ilk nümunələri bəşər tarixinin böyük kəşfi olan yazı vasitəsilə Qobustan və Gəmiqayırma təsvirləri, həmçinin epiqrafik abidələr şəklində daşların yaddaşına həkk olunaraq günümüzədək yaşayır. Tarixi-etnoqrafik faktlar sübut edir ki,

bu qiymətli əsərləri yaradarkən Azərbaycan xalqı müxtəlif əlifbalardan istifadə etmişdir. Tarixi-etnoqrafik abidələrdən dilimizin və əlifbamızın tarixinin nə qədər dəqiq şəkildə izah olunmasının şahidi oluruq. Beləliklə, Ulu Öndər tərəfindən 2 yanvar 2003-ci ildə ölkəmizdə dövlət dili haqqında Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə Prezidentin fərmanının imzalanması dilimizin tarixində yeni imkanlar açdı. Ən üstün cəhətləri olan vətənpərvərliyi, öz işinə sədaqəti, xalqına, dilinə, ədəbiyyatına məhəbbəti ilə Heydər Əliyev Azərbaycan xalqının taleyində özünəməxsus liderlik məktəbi yaradan rəhbər olub. Heydər Əliyevin yaratdığı liderlik, quruculuq məktəbinin əsas istiqaməti də dövlətinin müstəqilliyinin qorunması, xalqının güzəranının inkişafına xidmət etmişdir. Onun rəhbərliyi ilə yüzlərlə savadlı kadrlar yetişmiş və onlar dövlətimizin inkişafında əvəzsiz töhfələr vermişdir. Onlar dövlətimizi beynəlxalq konfrans və simpoziumlarda həmişə layiqincə təmsil etmiş, azərbaycançılıq ideyalarının carçısı olmuşlar.

"Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır", – söyləyən Heydər Əliyev Azərbaycan gəncliyini də həmişə özünün məqsədyönlü siyasəti ilə dəstəkləyib. Prezident, ölkə başçısı kimi məsul bir vəzifəni şərəflə yerinə yetirməsi, işinə məsuliyyətlə yanaşması, rəhbərlik etdiyi ölkədə gənclərlə ünsiyyətdən böyük zövq alması Ümummilli Liderin əsas iş prinsipi olub. Çünki burulğanlar içərisində boğulan Azərbaycan elmi məhz Heydər Əliyevin siyasəti sayəsində iflasdan xilas edilib. Azərbaycanda təhsil sisteminin müasir standartlara uyğun inkişafı üçün bütün qüvvəsini sərf edən Ümummilli Liderin ölkə miqyasında möhtəşəm fəaliyyətində təhsil siyasəti, milli təhsil quruculuğu məsələsi mühüm yer tutuşdur. "Cəmiyyətimizin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılıdır" fikrinin müəllifi Heydər Əliyevin fəaliyyəti sayəsində dövlət müstəqilliyi dönməz mahiyyət aldı, ölkənin siyasi, iqtisadi, sosial və elmi sahələrində inkişafın bazası qoyuldu ki, bu da təhsil quruculuğunda mühüm rol oynadı. Ən vacibi isə təhsil sahəsində əsaslı quruculuq işləri üçün dövlət təminatı gücləndirildi. Heydər Əliyevin "insan təhsilinin əsası orta məktəbdə qoyulur. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır" – konseptual göstərişi əsas tutularaq ümumi orta təhsilin ahəngdar inkişafı dövlət təhsil siyasətində əsas xətt kimi qiymətləndirilir. Azərbaycan Respublikasının konstitutsiyasında da deyilir ki, dövlət bütün vətəndaşların pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Milli təhsilimizin inkişafı sahəsində əldə olunmuş böyük uğurlardan biri də texniki-peşə məktəblərinin qorunub saxlanılmasıdır. Heydər Əliyevin tapşırığı ilə 1996-cı ildə hökumət "Azərbaycan Respublikasında peşə təhsilinin təkmilləşdirilməsi" haqqında qərar qəbul etdi, peşə məktəbləri və peşə liseyləri yaradıldı. Müstəqillik illərində Heydər Əliyevin sayəsində ali təhsil pilləsi həm keyfiyyət, həm kəmiyyət, həm də struktur baxımından inkişaf yolu keçdi. Azərbaycan ali təhsili

tarixində ilk dəfə olaraq 1993-1994-cü tədris ilindən etibarən ali təhsildə dörd illik bakalavriat və iki illik magistraturaya keçirildi. Ali təhsil sahəsində yeniliklərdən biri də "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi" haqqında Heydər Əliyevin 2000-ci il tarixli fərmanı ilə ölkənin aparıcı ali məktəblərinə – Bakı Dövlət Universiteti, Azərbaycan Neft Akademiyası, Azərbaycan Tibb Universiteti və Azərbaycan Kənd Təsərrüfatı Akademiyasına maliyyə müstəqilliyi, bir neçə ali məktəbə isə universitet statusu verildi. Eləcə də təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir. Qeyd etdiyimiz kimi, gənclərimizin Avropanın inkişaf etmiş ölkələrinin qabaqcıl təhsil ocaqlarında elmi biliklərə yiyələnməsinə diqqət yetirilmişdir. Bu gün də o siyasətin davamı olaraq dünyanın inkişaf etmiş bir çox ölkələrində minlərlə azərbaycanlı gənc təhsil alır və onların sayı ildən-ilə artır. İndiki dövrdə xarici ölkələrin qabaqcıl elm adamlarının bizim təhsil müəssisələrində fəaliyyət göstərməsi də geniş vüsət almışdır. Bu gün də ölkənin bütün təhsil ocaqları müstəqil dövlətimizin yaşamasına, inkişaf etməsinə təkan verən, bilikli, bacarıqlı kadrlar hazırlamaq işinə xidmət edir. Göründüyü kimi, Heydər Əliyev dövrünün gənclərini gələcəyin kamil mütəxəssisi, eyni zamanda əsl vətəndaş kimi görmək istəyirdi. Bu məqsədlə Ümummilli Lider daima gənclərə müstəqil işləmək vərdişlərini, həqiqəti axtarmaq bacarığını, axtardıqlarına nail olmaq qüdrətini, bir sözlə, dərin biliyə, yüksək mədəniyyətə və ictimaiyyətlə dil tapa bilmək qabiliyyətinə, təşəbbüskarlıq və idarəçilik, qabaqcıl olmaq keyfiyyətlərinə yiyələnməyin vacibliyi fikrini irəli sürüb. Çünki o, dərindən başa düşürdü ki, əks təqdirdə, milli və dövlət mənafelərimizin gələcək etibarlı təminatçılarının yetişdirilməsinə nail olmaq mümkün deyil.

İstedadlı Azərbaycan xalqı əsrlərboyu bir sıra görkəmli, tarixi müdrik şəxsiyyətlər, ədəbiyyat, incəsənət və elm xadimləri yetişdirmişdir. Onlar hər zaman öz elmləri, şəxsiyyətləri ilə Azərbaycanın adını hər yerdə uca etmiş, şərəflə yüksəltmişlər. Yuxarıda qeyd etdiyimiz tarixi faktlar bir daha sübut edir ki, Heydər Əliyev də məhz o şəxslərdən biri olub. Azərbaycan öz ululları və müdrikləri, onların xatirələri və gördüyü işlərlə inkişaf etmiş, böyümüş və böyüyəcəkdir. Qeyd etdiyimiz bütün tarixi mənbələr bir daha göstərir ki, Heydər Əliyev bu dünyaya bir müqəddəs vəzifəni həyata keçirmək üçün gəlmişdi. Çox böyük inamla, iradəylə, məhəbbətlə başladı bu işə. Qarşıda uzun, keşməkeşli, təhlükəli bir yol var idi, ancaq o heç qorxmadı, heç çəkinmədi, içindəki istək, o ümid heç sönmədi. Bəzən yoruldu, bəzən bu ağırlıqdan çiyinləri əzab çəkdi, ancaq dözdü. Bir xoşbəxt sabah üçün, Azərbaycanı böyük səadətə, azadlığa qovuşdurmaq üçün dözdü və qazandı. O gündən sonra Heydər Əliyev və Azərbaycan xalqı əl-lə verərək sınaqlarla dolu, təlatümlü həyat yollarında çiyin-çiyinə addımladılar. Bu ittifaq Tanrının biz azərbaycanlılara bəxş etdiyi ən gözəl hədiyyəsi oldu. Həmişə qayğılı və nigaran idi. Bu nigaranlıq, müdriklik və uzaqgörənlik onun gözlərində də öz əksini tapmışdı. Dünyadakı ən məşhur rəssamlar, görkəmli söz ustaları belə onun gözlərindəki ifadəni tam dolğunluğu ilə əks etdirə bilməzlər. Çünki xalqına ən kiçik xoş-

bəxtliyi belə verəcək hər şeyi hamıdan qabaq görürdü. Azərbaycan tarixində, ədəbiyyatında, eləcə də bütün sahələrdə Heydər Əliyevin xidmətlərindən danışmaqla bitmir. Çünki o, ömrü boyu xalqına xidmət etdi və həmişə müqəddəs amalına sadiq qaldı. Bütün deyilənləri bir sözlə ifadə edərdik ki, Heydər Əliyev Azərbaycanın dünəni, bu günü və sabahı oldu. Onun ideyaları, fikirləri ən müqəddəs kəlamlar kimi həmişə xalqımızın tarixində özünəməxsus yer tutacaq. Heydər Əliyev son nəfəsinə kimi Azərbaycanı düşündü və yarımçıq qalmış arzularını həyata keçirmək üçün İlham Əliyev kimi davamçısını xalqına bəxş etdi. Və Heydər Əliyevin xeyirxah əməlləri, gərgin və məhsuldar zəhməti ilə başladığı yolu bu gün də cənab prezident İlham Əliyev uğurla davam etdirir.

Heydər Əliyev demişdir: "Azərbaycan gəncləri sağlam düşüncəli gənclərdir, vətənpərvər gənclərdir, xalqını, millətini sevən gənclərdir". Bu uzaqgörən və müdrik fikrin bariz nümunəsini qırx dörd günlük vətən müharibəsində torpaqlarımızın işğalçılardan azad olunması uğrunda başlanan haqq savaşında Azərbaycan gəncliyinin qorxmadan, çəkinmədən sinəsini düşmən gülləsinə sipər etməsi bir daha sübut etdi.

QAYNAQLAR:

1. http://www.anl.az/down/meqale/adalet/2012/oktyabr/266988.htm
2. https://e-qanun.az/framework/9790
3. İmanov M. Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" eposu / Türkoogiya jurnalı, 2017, № 2, s. 46-54.
4. Qasımov C. Birinci Türkoloji Qurultay: şahidlər vı şəhidlər. Bakı: Gənclik, 2019, 736 s.
5. Qasımov C. Xalid Səid Xocayev. Bakı: Şirvannəşr, 2021, 320 s.

AŞIQ ŞƏMŞİRİN ŞEİRLƏRİNDƏ HEYDƏR ƏLİYEV OBRAZI

THE HEYDAR ALIYEV CHARACTER IN ASHUG SHAMSHIR'S POEMS

Səbinə İSAYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
AMEA Folklor İnstitutu,
sabinaisayeva125@gmail.com

Özət

Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev elm və mədəniyyətin bütün sahələrində olduğu kimi, ədəbiyyatımızın, folklorumuzun, bir sözlə, milli-mənəvi dəyərlərimizin qorunmasında, yaşadılmasında, təbliğində müstəsna rol oynamışdır. O, folklorumuzun geniş qolu olan aşıq sənətinə və bu sənətin daşıyıcıları olan aşıqlara həmişə rəğbət bəsləmiş, bu sənətin qorunub yaşadılmasında böyük xidmətlər göstərmişdir. Belə ki, Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin ilk vaxtlarında Sovet dövrünün siyasi ideoloji təbliğatının tüğyan etdiyi vaxtlarda belə aşıq sənətinə xüsusi diqqət və qayğı göstərmiş, Aşıq Alı, Aşıq Ələsgər kimi görkəmli sənətkarların yubiley tədbirlərinin böyük təntənə ilə, ümümxalq bayramı səviyyəsində keçirilməsinə nail olmuşdur.

Ümummilli Liderin böyük qayğıkeşlyi, vətəninə qanı və ruhu ilə bağlı olması onu hər zaman xalqına sevdirmişdi. Belə ki, Heydər Əliyev obrazı aşıq şeirində də geniş şəkildə obrazlaşdırılaraq tərənnüm olunmuşdur. Bir çox aşıqlar Ulu Öndərin adına şeirlər yazmış, əsərlərində onun şəxsiyyətini, dövlət başçısı kimi çoxcəhətli fəaliyyətini dönə-dönə tərənnüm və təsvir etmişlər. Belə ki, Aşıq Şəmşir, Aşıq Əhməd, Aşıq Mahmud və b. sənətkarlar Heydər Əliyevin obrazını öz şeirlərində yaratmış və böyük məhəbbətlə vəsf etmişlər. Məqalədə XX əsrin ustad aşıqlarından olan Aşıq Şəmşirin Heydər Əliyevə həsr etdiyi şeirləri nümunələr əsasında təhlil olunmuşdur.

Açar sözlər: Heydər Əliyev, Ümummilli Lider, Ulu Öndər, aşıq sənəti, folklor, Aşıq Şəmşir

Summary

The National Leader of the Azerbaijan nation, Great Leader Heydar Aliyev played an exceptional role in the protection, preservation and promotion of our literature, folklore, in short, our national-spiritual values, as in all fields of science and culture. He always

sympathized with the creativityof ashug, which is a broad branch of our folklore, and the ashugs who are the bearers of this art, and rendered great services and preserving this creativity. Thus, Heydar Aliyev paid special attention and care to ashug creativity even in the early days of his leadership in Azerbaijan, when the political ideological propaganda of the Soviet era was rampant.

He also managed to hold the jubilee events of prominent ashugs such as Ashug Ali and Ashug Alasgar with great solemnity and at the level of a national holiday.

The national leader's great care and devotion to his homeland always endeared him to his nation. Thus, the character of Heydar Aliyev was widely depicted and glorified in the ashug poems. Many ashugs have dedicated poems to the Great Leader and in their works have repeatedly praised and described his personality, multifaceted activities as the head of state. So Ashug Shamshir, Ashug Ahmed, Ashug Mahmud and other ashugs created the image of Heydar Aliyev in their poems and praised it with great love. In the article, poems dedicated to Heydar Aliyev by Ashug Shamshir, one of the master lovers of the 20th century, were analyzed on the basis of examples.

Keywords: Heydar Aliyev, National Leader, Great Leader, creativity of ashug, folklore, Ashug Shamshir

Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyev ictimai-mədəni həyatın bütün sahələrində olduğu kimi, ədəbiyyatımızın, folklorumuzun, bir sözlə, milli-mənəvi dəyərlərimizin qorunmasında, yaşadılmasında müstəsna rol oynamışdır. Ümummilli Lider folklorumuzun geniş bir qolu olan aşıq sənətinə və bu sənətin daşıyıcıları olan aşıqlara, el şairlərinə həmişə rəğbət hissi ilə yanaşmış, bu sənətin qorunub yaşadılmasında böyük xidmətlər göstərmişdir. Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin ilk vaxtlarında, 1969-1982-ci illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinın birinci katibi olduğu zamanlarda, Sovet dövrünün siyasi ideoloji təbliğatının tüğyan etdiyi vaxtlarda belə aşıq sənətinə xüsusi diqqət və qayğı göstərmişdir. Belə ki, onun Azərbaycana ilk rəhbərlik etdiyi vaxtlarda – 1972-ci ildə Aşıq Ələsgərin 150 illik və 1981-ci ildə Aşıq Alının 180 illik yubiley tədbirlərinin böyük təntənə ilə, ümumxalq bayramı səviyyəsində keçirilməsini xüsusilə qeyd etmək lazımdır. Akademik M.İmanov da Heydər Əliyevin bu sərəncamının o zaman çox böyük mahiyyət daşıdığını və aşıq sənətinin inkişafına necə böyük təkan verdiyini xüsusi vurğulamışdır: “H.Əliyevin 1972-ci ildə Aşıq Ələsgərin 150 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam Qərbi Azərbaycanın (İrəvan Çuxurunun, Vedibasarın, Göyçənin, Zəngəzurun və s.) tarixi-mədəni irsinin məhz Azərbaycan xalqına mənsubluğunun rəsmən bəyan edilməsi olmuş və bu irsə sahib çıxmağımız üçün bir işarə mahiyyəti daşımışdır. Bu sərəncamla bağlı Azərbaycanda, Ermənistanda və SSRİ-nin paytaxtı Moskvada keçi-

rilən rəsmi tədbirlər indi Ermənistan adlandırılan torpaqlardakı tarixi və mədəni irsə xalqımızın və dövlətimizin haqlı iddiasının əsasını qoymuşdur. Bu sərəncam təkcə Aşıq Ələsgər irsinin deyil, Qərbi Azərbaycandakı aşıq mühiti və onun görkəmli nümayəndələrinin (Miskin Abdal, Ağ Aşıq, Aşıq Alı, Növrəs İman, Aşıq Məmmədhüseyn və b.) poetik irsinin toplanması və tədqiqi işində müstəsna rol oynamışdır" (3, 12). "1972-ci ildə Heydər Əliyevin qeyri-adi təşkilatçılıq bacarığı və həm də böyük siyasi nüfuzu sayəsində Aşıq Ələsgərin 150 illik yubiley tədbiri Bakı ilə yanaşı, Moskvada da ən yüksək səviyyədə keçirildi. İstər Bakıda, istərsə də Moskvada keçirilmiş Aşıq Ələsgər yubileyinə keçmiş Sovetlər Birliyinin bütün respublikalarında ən tanınmış elm, mədəniyyət və incəsənət xadimləri toplanmışdılar. Müxtəlif millətlərdən olan natiqlər Kremlin Qurultaylar Sarayında Aşıq Ələsgərin timsalında Azərbaycan saz-söz sənətinin ecazkar qüdrətindən söz açdılar. Yubiley tədbirlərinin İttifaq miqyasındakı böyük əks-sədası o vaxt hətta ermənilərı də Aşıq Ələsgərin 150 illiyini qeyd etmək məcburiyyəti qarşısında qoydu: Ermənistan SSR ərazisində olan Göyçə mahalında – Aşıq Ələsgərin vətəni Ağkilsə kəndində böyük sənətkarın əzəmətli qəbirüstü abidəsi ucaldıldı. Bu, həmin dövrdə Heydər Əliyev nüfuzunun sayəsində əldə edilmiş parlaq bir nailiyyət idi" (4, 585). Ulu Öndər Azərbaycana ikinci dəfə rəhbərlik etdiyi dönəmdə yenə də folklorumuzu, xüsusən də aşıq sənətinə diqqətindən yayındırmadı. Belə ki, Aşıq Ələsgər sənətinə və ruhuna hörmət və ehtiramın təzahürü kimi 1996-cı ildə Ümummilli Liderin sərəncamı ilə Aşıq Ələsgərin 175 illik yubileyi əsl saz-söz bayramı kimi qeyd olundu.

Ümummilli Liderin böyük qayğıkeşlyi, vətəninə qanı və ruhu ilə bağlı olması onu hər zaman xalqına sevdirmişdi. Belə ki, Heydər Əliyev obrazı aşıq şeirində də geniş şəkildə obrazlaşdırılaraq tərənnüm olunmuşdur. Bir çox aşıqlar Ulu Öndərin adına şeirlər yazmış, əsərlərində onun şəxsiyyətini, dövlət başçısı kimi çoxcəhətli fəaliyyətini dönə-dönə tərənnüm və təsvir etmişlər. Belə ki, Aşıq Şəmşir, Aşıq Əhməd, Aşıq Mahmud və b. sənətkarlar Heydər Əliyevin obrazını öz şeirlərində yaratmış və böyük məhəbbətlə vəsf etmişlər.

XX əsrin qüdrətli saz-söz ustadlarından biri Aşıq Şəmşirdir. Böyük sənətkarın yaradıcılığında ictimai-siyasi lirika daim üstünlük təşkil etmişdir. Təsadüfi deyildir ki, Aşıq Şəmşir digər müasirlərindən fərqli olaraq yaradıcılığa məhz ictimai-siyasi mövzulu şeirlərlə başlamışdır. Aşıq Şəmşirin ictimai məzmunlu şeirlərinin bir neçəsi də Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyevə və onun zəngin fəaliyyətinə həsr olunmuşdur. Bu şeirlər sənətkarın «Zərli tac kamallı başa yaraşır» adlı kitabında toplanaraq nəşr olunmuşdur. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ilk dövrdəki geniş fəaliyyətini müşahidə edən böyük sənətkar Aşıq Şəmşir şeirlərində bu məsələləri ətraflı işıqlandırmışdır. "Yaxın tariximizin quruculuq dövrü olan yetmişinci illər tərəqqisini öz gözlərilə görüb ilhama gələn ustad sənətkarın xalqımızın böyük oğlu, müdrik rəhbər, qüdrətli şəxsiyyət Heydər Əliyevə həsr etdiyi şeirlər bu gün – üstündən illər keçdikdən sonra maraqlı və təzə-tər göründüyü kimi, həm də zamanla həmahəng səslənir" (2, 5).

Aşıq Şəmşir öz dövründə baş verən hadisələrə biganə qalmamış, yeri gəldikcə, onlara da şeirlərində münasibət bildirmişdir. Məlumdur ki, Sovet dönəmində respublika rəhbərləri tez-tez rayonlara, bölgələrə səfər edir, əmək adamları ilə yaxından görüşür, onlarla maraqlanır və ümumiyyətlə, kənd təsərrüfatının inkişafına böyük önəm verilirdi. Bu baxımdan Ulu Öndər Heydər Əliyev də tez-tez rayonlara gedir, sadə zəhmət adamları ilə görüşür, onlarla yaxından maraqlanır, əməkdə fərqlənənləri mükafatlandırırdı. Xüsusilə qeyd olunmalıdır ki, məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi zamanında Azərbaycan dəfələrlə keçici "Qırmızı Bayrağ"a layiq görülmüşdür ki, buna görə də respublikamız keçmiş SSRİ respublikaları arasında ən qabaqcıl yerlərdən birini tuturdu. Aşıq Şəmşir bu mötəbər hadisəni öz şeirində belə poetikləşdirmişdir:

Cümləmizi mən heyrətə salmışam,
Əmək çəkib qaydınıza qalmışam.
Yeddi bayraq, neçə orden almışam,
Uzundu dilləri Azərbaycanın (1, 9).

Heydər Əliyevin keçmiş SSRİ dövründə apardığı uğurlu siyasət, digər respublika rəhbərləri, eləcə də keçmiş ittifaq rəhbərləri arasında sanbalına, xüsusi çəkisinə görə seçilməsini Aşıq Şəmşir olduqca tutarlı ifadələrlə diqqətə çatdırır:

Şəmşir arif olsun, əhli-dil olsun,
Oxusun gül olsun, qoy bülbül olsun.
Hər an qabaqcıldı, qabaqcıl olsun,
Yaşasın rəhbəri Azərbaycanın (1, 9).

Aşıq Şəmşir hələ 70-80-ci illərdə Ümummilli Liderin sayəsində Vətənimizin getdikcə abadlaşdığını, şoranlı çöllərin cənnətə dönməsini və bununla xalqın da firavan, şən həyata çıxmasını bu cür tərənnüm etmişdir:

Ömrün uzun olsun, igid Heydərim,
Şöhrətin tarixin varağındadı.
Cənnətə dönübdü şoranlı çöllər,
Qüdrətin Vətənin çırağındadı (1, 13).

Yaxud:

Alqış qəhrəmana, igid Heydərə,
Şan-şöhrət layiqdi o hünərvərə.
Obalar böyüyüb dönür şəhərə –
Gözəl ola bilməz hər diyar belə (1, 12).

Heydər Əliyevin ikinci dəfə Azərbaycana rəhbərlik etməsini, təəssüf ki, Aşıq Şəmşir görmədi, amma şeirlərinə baxanda ustadın uzaqgörənliyinə heyrətlənməyə bilmirsən, ulu ustad məhz dahi rəhbərin adının Azərbaycanın tarixinə əbədi olaraq yazıldığını bilmişdir:

Möhürlə yazılıb xalqın qəlbinə,
Silinməz tarixdən adı Heydərin.
Qəhrəman ellərdən alıb dərsini,
Belə böyük var ustadı Heydərin (1, 10).

Aşıq Şəmşirin bu silsilədən olan şeirləri arasında ölümündən bir ay əvvəl yazdığı «Yaraşır» adlı şeirinin üstündən sükutla keçmək olmaz. Dörd bəndlik şeirdə sənətkar böyük Öndər Heydər Əliyevin məhz ağlını və kamalını alqışlayır, onu böyük məhəbbətlə vəsf edirdi:

Azərbaycanımın igid oğluna,
Qızıl ulduz qoşa-qoşa yaraşır.
Alqış kamalına, alqış ağlına,
Zərli tac kamallı başa yaraşır (1, 28).

Burada dahi şəxsiyyət Heydər Əliyev Vətənin gözəllikləri ilə birlikdə vəsf olunur və bu gözəlliklərin meydana çıxmasında Ümummilli Liderin danılmaz rolu xüsusi vurğulanır:

Qəhrəmanlar beşiyidi bu diyar,
Hələ belə olmayıbdı bəxtiyar.
Su içib səhralar, hər yan verir bar,
Bürünübdü al qumaşa, yaraşır (1, 28).

Heydər Əliyevin o illərdə respublikaya rəhbərlik etməsi ilə Azərbaycanda quruculuq işləri başlanmışdır. Onun yürütdüyü iqtisadi siyasət nəticəsində Azərbaycanda təsərrüfatın bütün sahələri, xüsusilə kənd təsərrüfatı böyük nailiyyətlər əldə etmişdir. Əvvəllər ilan mələyən düzlər indi əkin-biçin yerlərinə çevrilmişdir. Bu önəmli hadisələr Aşıq Şəmşirin də şeirlərində öz əksini tapmışdır:

İlanlı səhralar verir ağ üzüm,
Mədənlər axıdır ləl düzüm-düzüm.
Qarabağ xörəyim, Naxçıvan duzum,
Nemət olub başdan-başa yaraşır (1, 28).

Aşıq Şəmşir Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə Azərbaycanın günü-gündən çiçəkləndiyini, daha da inkişaf etdiyini böyük şövqlə vəsf edirdi:

Çiçəklənib Azərbaycan
Bu illərdə, bu illərdə.
Al bəzənib cümlə-cahan
Bu illərdə, bu illərdə.

Başa çəkdi hünər bizi,
Alqışladı zəfər bizi,
Xoşbəxt etdi zəfər bizi
Bu illərdə, bu illərdə (1, 19).

Bütün bunlar Aşıq Şəmşirin dövrünün hadisələrinə münasibət bildirməyi bacaran bir el ağsaqqalı, ustad sənətkar olduğunu aydın göstərir. Tədqiqatçı alim A.Cəmil sənətkarın bu qəbil şeirləri üzərində dayanaraq doğru olaraq qeyd edir ki, Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü, bütövlüyünü şair fəhmi ilə dərk edən Dədə Şəmşirin bu şeirlərini oxuduqca ustad sənətkarın səmimi və təbii deyimlərinə valeh olursan (2, 6).

Qeyd edək ki, 2003-cü ildə qədirbilən rəhbər Heydər Əliyevin sərəncamı ilə Aşıq Şəmşir irsinə dərin hörmət və ehtiramın təzahürü kimi, onun anadan olmasının 110 illik yubileyi dövlət səviyyəsində qeyd olunmuşdur. Bununla əlaqədar müxtəlif konfranslar, tədbirlər keçirilmiş, aşığın 110 illiyinə ərməğan olaraq «O Kürün, Arazın Tərtəriyəm mən» adlı şeirlər kitabı nəfis şəkildə buraxılmışdır. Tərtibçisi Q.Şəmşiroğlu, redaktoru M.Aslan olan bu kitab əvvəlki nəşrlərdən keyfiyyətcə xeyli fərqlənməklə, tərtibat və təsnifat, xüsusilə aşığın ədəbi irsinin janrlar üzrə tərtibi və s. baxımından diqqəti cəlb edir. Bütün bunlar Heydər Əliyevin aşıq sənətinə daim böyuk qayğı ilə yanaşmasının bariz göstəricisidir.

QAYNAQLAR:

1. Aşıq Şəmşir. Zərli tac kamallı başa yaraşır. Bakı, Azərnəşr, 1997
2. Cəmil A. Ön söz. Aşıq Şəmşir. Zərli tac kamallı başa yaraşır. Bakı, Azərnəşr, 1997, s. 4-7
3. İmanov M. Elmimizin ideya mənbəyinə çevrilən irs. Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı, Nurlan, 2013
4. Qasımlı M. Heydər Əliyev və Azərbaycan folkloru. Məqalələr (2009-2013). Bakı, 2012

DÖVLƏTİMİZİN XİLASKARI VƏ QURUCUSU

SAVIOR AND FOUNDER OF OUR STATE

Şakir ALBALIYEV
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
AMEA Folklor İnstitutu,
albaliyevshakir@rambler.ru

Özət

Məqalədə Azərbaycan xalqının Ümummilli Lideri, dahi siyasətçi Heydər Əliyevin zəngin həyat və fəaliyyətindən danışlır. Onun dövlət (çiliy)imiz, xalqımız qarşısında müstəsna xidmətləri xüsusi vurğulanır. XX əsrin sonlarında məhv olmaq təhlükəsi ilə üzləşən Azərbaycan dövlətinin xilaskarı kimi tarix səhnəsinə çıxmasından, yeni və müstəqil Azərbaycanımızın qurucusu kimi möhtəşəm fəaliyyətindən bəhs olunur. Belə zəngin və mənalı həyat yolunu bugünkü və gələcək nəslə çatdırılmasının əhəmiyyəti əsaslandırılır. Məqalədə həmçinin dahi şəxsiyyətin həyat yolunun öyrənilməsinin iki mühüm aspektdən zəruri olduğu diqqətə çatdırılır. Bir tərəfdən xalqın özünün böyük oğlu olan Heydər Əliyev şəxsiyyətinə sonsuz ehtiramın əlaməti kimi vacibliyi göstərilir. Digər tərəfdən bu dahi şəxsiyyətin həyat yolunu öyrənməklə bugünkü və gələcək nəsillərin Heydər Əliyev ruhunda böyüyüb yetişməsinin gərəkliliyi əsaslandırılır. Heydər Əliyev kimi xalqımız və dövlətimiz, dövlətçiliyimiz yolunda yorulmaz mübariz kimi formalaşmağımızın vacibliyi izah olunur. Xalqımızın mifik səciyyə daşıyan qəhrəmanı Koruğlu ilə tarixi qəhrəmanı – yenilməz siyasətçisi və böyük dövlət xadimi Heydər Əliyev obrazları arasında durmaqla paralellər aparılır. 44 günlük Qarabağ müharibəsindəki möhtəşəm qələbəmizin Koroğlu ruhu və Heydər Əliyev qətiyyətinin təntənəsi kimi reallaşdığı diqqətə çatdırılır

Açar sözlər: Heydər Əliyev, Azərbaycan, dövlət, xalq, xilaskar, tarixi şəxsiyyət, siyasət

Summary

In the article it is also drawn attention to the fact that the study of the life path of a genius person is necessary from two important aspects. On the one hand, the importance of the people as a sign of endless respect for the personality of Heydar Aliyev, is shown. On the other hand, by studying the life path of this genius person, the need for today's and future generations to grow up in the spirit of Heydar Aliyev is justified. The importance of our formation as a tireless fighter for the path of our people, state and statehood, like Heydar Aliyev, is explained. Parallels are drawn between the mythical hero of our people Koruglu and the historical hero – invincible politician and great statesman Heydar Aliyev. It is noted that our magnificent victory in the 44-day Karabakh War was realized as a triumph of the spirit of Koroglu and the determination of Heydar Aliyev.

Keywords: Heydar Aliyev, Azerbaijan, state, people, savior, historical figure, politics

Dünya şöhrətli siyasətçi, məşhur ictimai-siyasi xadim Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyi şərəfinə ölkə prezidentinin Sərəncamına əsasən 2023-cü il Azərbaycanda "Heydər Əliyev ili" elan olunmuşdur. Məhərrəm Məmmədovun 2003-cü ildə Heydər Əliyevin 80 illik yubileyi işığında yazdığı "III Respublika: Milli inkişaf modeli və strategiyası" ("Elm", 2003) kitabına Milli Məclisin üzvü Aydın Mirzəzadənin və Dövlət İdarəçilik Akademiyasının dosenti Lətifə Məmmədovanın yazdıqları ön sözdən oxuyuruq (10):

"Tarixi şəxsiyyətlər daha artıq hörmətə layiqdirlər – onların realist portretləri yaradılmalı və bu portretlər, hətta ən tələbkar, ən tənqidi zəka sahiblərinin tələblərini də qane etməlidir. Bir sözlə, bizlərdən hər birimizin və hamımızın həqiqəti bütün çalarları ilə dərk etməyimiz nə qədər çətin proses olsa da, bu, həyati zərurətdir. Müəllif haqlı olaraq göstərir ki, Prezident Heydər Əliyevin mənəvi irsi müasir Azərbaycan cəmiyyəti üçün çox böyük əhəmiyyət kəsb edir. Prezident çıxışlarının və nitqlərinin mətni, bu mətnlərə xas olan novatorluq münasibəti diqqətlə tədqiq və şərh edilməlidir.

Ölkə Prezidentinin fenomenal şəxsiyyəti, onun Azərbaycanı beynəlxalq birliyə qovuşdurmaq naminə, Azərbaycan dövlətçiliyini möhkəmləndirmək naminə, dövlətlərarası münasibətlərin bütün spektrində keyfiyyətcə yeni ab-hava yaradılması naminə yeritdiyi çevik və praqmatik siyasət artıq xeyli vaxtdır ki, bütün dünyada siyasətçilərin, ictimaiyyətşünasların, filosofların, tarixçi və sosioloqların diqqətini cəlb edir".

Haqlı olaraq hələ 20 il bundan əvvəl söylənmiş "tarixi şəxsiyyətlərin realist portretlərinin yaradılması" zərurəti haqdakı fikir bu gün də, sabah da öz hökmündə – qüvvəsində qalır. Çünki tarixin yetirdiyi zəngin düha sahibləri olan şəxsiyyətlərin işıqlı həyatları öyrənilməli, bugünkü və gələcək nəslə örnək həyat yolu olaraq qədərincə çatdırılmalıdır.

Bu, hər şeydən öncə, tarixi şəxsiyyət olaraq Heydər Əliyevin dövlətimizin və xalqımızın yolundakı misilsiz xidmətlərinin qədirbilənliyinin ifadəsi hesab olunmalıdır. Çünki "Heç kim unudulmur, heç nə yaddan çıxmır" prinsipi ilə götürdükdə, xalqımızın öz dahi övladına qarşı sonsuz sevgi və ehtiramı həm də onun vaxtaşırı olaraq xatırlanması və rəhmətlə anılmasında təzahürünü tapır. Tarixini, keçmişini unudanı gələcək topa tutar kəlamının mahiyyətinə varsaq, bir daha onu deyərik ki, əgər keçmişimizi (çox uzaqda olmayan XX əsri və XXI əsrin əvvəllərini) yadımıza salsaq, öyrənsək, onda biz Ümummilli Liderimiz Heydər Əliyevin dövlət(çilik)imiz və xalqımız qarşısındakı fədakar xidmətlərinin əvəzolunmazlığını görərik.

Daxili (vətəndaş) və xarici (yadelli düşmənlərimizin) müharibələr ölkəmizi məhv olmaq təhlükəsi ilə üzləşdirmişdi.

Məhz bu ağır illərdə tarix (ulu Tanrı) tərəfindən xalqımıza bəxş olunmuş xilaskar qəhrəman kimi Heydər Əlirza oğlu Əliyev özünün qətiyyətli siyasi iradəsini nümayiş etdirdi. Vətənimizi, xalqımızı tarixin xaotik burulğanından xilas etdi. Qeyd edim ki, ayrı-ayrı qələm adamları vaxtaşırı olaraq bu haqda bədii və publisistik kitablar çap etdirmişlər (Bax.2, 3, 4, 5...).

İkincisi, Heydər Əliyevin tarixi-siyasi irsinin xatırlanmasının, araşdırılmasının və öyrənilməsinin zəruriyyəti ondadır ki, hazırkı və gələcək nəsillər bu titanik şəxsiyyətin hamı

üçün örnək olan mübarizələrdə keçən ömründən xəbərdar olsunlar. Heydər Əliyevin zəngin dühası, dönməz xarakteri, siyasi iradəsi, mənəvi-iradi keyfiyyətlərini əxz edib mənimsəsinlər. ona görə ki, dörd bir yanımız düşmənlərlə əhatə olunan ölkəmizi, eləcə də uzaqdan-yaxından – yəni uzaq və yaxın ölkələrdən olan düşmənlərimizin dişlərini qıcayıb, təhdid elədiyi ölkəmizi hər an daxili düşmənlərdən (satqınlardan, xainlərdən) və xarici düşmənlərdən qoruya bilməyimiz üçün öyrənməliyik Heydər Əliyev yolunu, həyatını, şəxsiyyətini. Bəli, hər birimizin ürəyimizdə bir Heydər Əliyev işığı yanmalıdır, hər birimizin düşüncəmizdə, əqidəmizdə, xarakterimizdə, ruhumuzda bir yenilməz qətiyyətli xarakterə, sabit siyasi iradəyə məxsus Heydər Əliyev gücü, inamı, əqidəsi yetişib formalaşmalıdır.

Bəli, Heydər Əliyevin tarixi-siyasi irsinin öyrənilməsi birincisi, Ulu Öndərə ümumxalq sevgisinin ifadəsi olaraq – xalqın öz övladına qədirbilənlik hissinin nümayişi olaraq vacibdirsə, ikincisi, hər birimizə dahi şəxsiyyətin həyatını öyrənib-bilməklə özümüzün daxili dünyamızda bir Heydər Əliyev xarakteri formaşlaşdıra bilməyimiz üçün zəruridir. Heydər Əliyevi öyrənməyimiz hər bir zaman özümüzü daxili və xarici təhlükələrdən qorumaq kimi vətəndaşlıq instinktinə sahib olmağımız deməkdir. Necə ki, döyüşlərə yollanarkən hər birimizin içindəki bir yenilməz Qoç Koroğlu ruhu bizi qələbəyə ruhlandırır, həvəsləndirir, eləcə də ölkəmizin, xalqımızın başının üstünü bədxah qara qüvvələr alan vaxtlarda, özümüzü toparlayıb, Heydər Əliyevə xas olan siyasi taktiki gedişlər yolu ilə hərəkət edib, özümüzü – dövlət(çilik)imizi və xalqımızı bu bəlalardan qorumaq ruhunda, gücündə olmalıyıq. Başqa sözlə, içimizdə mif dünyasından gələn döyüşkən və yenilməz Qoç Koroğlu ruhu yaşatdığımız kimi, eləcə də daxili-mənəvi dünyamızda tarixi reallıqdan gələn Ulu Öndər, Ümummilli Lider Heydər Əliyev xarakteri yaşatmalıyıq. Qoç Koroğlu mifi də, Heydər Əliyev şəxsiyyəti də – hər ikisi xalqımızın qəhrəmanlıq simvoludur, yenilməzlik rəmzidir. Mif(ik obraz) də bizimdir, tarix(i şəxsiyyət) də bizimdir – hər ikisi qanımızda, ruhumuzda olmalıdır. Silah icad olunanda, tüfəngə baxıb, kişilik zəmanəsi getdi deyib, qol zoruna üstünlük verən Qoç Koroğlunun nəvələri olan qəhrəman igidlərimiz məhz 44 günlük ikinci Qarabağ müharibəsində füsunkar Şuşamızı elə Qoç Koroğlusayağı qol gücünə – düşmənlə əlbəyaxa döyüşərək döyüşdə son nöqtəni qoydular. Düşmənlərimizə Qoç Koroğlu zamanındakı kimi qolumuzun da gücünü nümayiş etdirdik, müasir dövrün silahlarını idarə edən çevik, yetkin ağlımızın – siyasi taktikamızın, hərbi qüdrətimizin də gücünü göstərdik. Bu ikinci amil məhz tarixin bizim üçün yetişdirdiyi tarixi şəxsiyyət olan Heydər Əliyevin uzaqgörən dühasının nəticəsidir. Bizi daxildən və xaricdən parçalamaq istəyən düşmənlərimizi mat qoyan Heydər Əliyev müəyyən siyasi taktiki gedişlər yolu ilə ordu quruculuğu, xalq – hakimiyyət birliyi və s. məsələləri yoluna qoydu, düşmənlərimizi məğlub etmək üçün strateji hədəflər müəyyənləşdirdi, özünün cismani ömrü yetmədisə də, onun cismani və mənəvi ömrünün layiqli davamçısı qəhrəman sərkərdə İlham Əliyevin komandanlığı və siyasi iradəsi hesabına düşmənlərimizə həddini göstərdik. Bəli, məhz nəyin hesabına qələbəyə nail olduq? Ulu Öndər Heydər Əliyevin qoyduğu yolu uğurla davam etdirməyin bəhrəsi olaraq!

Bax bu məntiqlə də bir daha yuxarıdakı fikrimə dönürəm: Heydər Əliyevin zəngin və keşməkeşli həyat fəaliyyətinin öyrənilməsi formalizmə xidmət etməməlidir, reallığa əsaslanaraq keçmişimizin öyrənilməsi zəminində yaxın və uzaq gələcəyimizin hədəflərini, siyasi gedişlərimizi müəyyənləşdirməyimizə hesablanmalıdır. Çünki bizi düşmənlərimizin saldığı tarixin girdabından Ulu Öndər Heydər Əliyevin fenomenal zəkası xilas etdi və Yeni Azərbaycan Partiyası ətrafında xalqı səfərbər etməklə yeni Azərbaycan dövlətini qurdu. Biz bu tarixi xidmətləri unutmamalı, onun ruhu qarşısında ehtiramla hərəkət etməli və gələcək inkişaf yolumuzu müəyyənləşdirməliyik!

QAYNAQLAR:

1. Akif Əliyev. Heydər Əliyev və ədəbiyyatımız (Monoqrafiya). "Nurlan", 2007
2. Asif Axundov. Şahin (Roman), (İlham Əliyevə həsr olunub), "Nurlan", 2006.
3. Cəfər Vəliyev. Xalqın iradəsi ilə (referendum və prezident seçkiləri haqqında düşüncələr), "Azərbaycan", 1994
4. Dilqəm Quliyev. Azərbaycanın idman tarixində Heydər Əliyev mərhələləri(1969-1982; 1993-2003). "Təknur", 2013
5. Elxan Yaqubov. Hər bir azərbaycanlının prezidenti. Bakı. "Əbilov, Zeynalov və oğulları" nəşriyyatı. 2007
6. Hüseynbala Mirələmov. Zəfər yolu (Heydər Əliyev haqda esse), "Gənclik" 2003
7. Xalqın inam simvolu. Məsləhətçi: Fuad Ələsgərov. Tərtib edən və ön söz: Elbrus Şahmar. "Dünya". 1996
8. İlham Əliyev Şəmkirdə. 1 noyabr 2006-cı il. "Çaşıoğlu", 2006
9. Mətanət İslam (Qurbanova Mətanət İbrahim qızı), Türkün böyük oğlu. "Ağrıdağ", 2000.
10. M.Məmmədov. III Respublika: Milli inkişaf modeli və strategiyası. Bakı, "Elm", 2003. 155 s.
11. Müdrik rəhbərin layiqli davamçısı (tərtibçi Fərhad Əhmədov). "Şəms", 2005
12. Nazim Rəhbər oğlu Məmmədov. Heydər Əliyev və Dağlıq qarabağın tarixi. ADPU nəşriyyatı, 2012.
13. Rahim Kərimli, Qəşəm Kamiloğlu. Çinar insan//I kitab (H.Ə.Əliyevin 80 illiyinə), "Nurlan", 2003
14. Ramiz Yaquboğlu Məmmədzadə. Zirvə-poema (Unudulmaz Heydər Əliyevin işıqlı xatirəsinə), "Ziya Nurlan" NPM, 2009
15. Sən həmişə bizimləsən (Redaktor və tərtibçilər: Rafiq Musa. Sultan Orucoğlu), (Xətai rayon təhsil şöbəsinin Ulu Öndərə həsr etdikləri deyim və şeirlər), "Nərgiz", 2004
16. Vaqif Kərim. Qoşa zirvə. "Azərbaycan", 2004
17. Yeni nəslin və əsrin prezidenti. "Təfəkkür" NPM. 2003

XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATI HEYDƏR ƏLİYEVİN DƏYƏRLƏNDİRMƏSİNDƏ

THE 20TH CENTURY AZERBAIJAN LITERATURE IN THE ASSESSMENT OF HEYDAR ALIYEV

Şəbnəm MƏMMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Folklor İnstitutu,
shebnem.memmedova1981@mail.ru

Özət

Heydər Əliyev Azərbaycana hansı tarixi-siyasi dövrdə rəhbərlik etməsindən asılı olmayaraq, o, daim xalqın tarixi, mədəniyyəti, etnik keçmişi, folkloru və ədəbiyyatının inkişafı ilə yaxından maraqlanmış, ədəbiyyat sahəsinə yönəltdiyi nəzər isə nəinki klassiklərimizin, həm də XX əsrdə yazıb-yaratmış nümayəndələrinin yaradıcılığına mahiyyətcə bələd olduğunu çıxış və məruzələrində, müxtəlif tədbirlərdə ortaya qoymuşdur.

Maraqlısı isə budur ki, Heydər Əliyev ədəbiyyata, hər şeydən öncə, fəlsəfi baxımdan nəzər salmış və ədəbiyyatın xalqın milli oyanış, dirçəliş və özünüdərk prosesində daim önəmli mövqedə durduğunu vurğulamışdır. Təqdim etdiyimiz materialda biz Heydər Əliyevin ədəbiyyatımızın klassik nümayəndələrindən tutmuş XX əsrdə yazıb yaratmış B.Vahabzadə, X.R.Ulutürk, S.Vurğun, S.Rəhimov, S.Rüstəm, R.Rza, M.İbrahimov, M.Dilbazi, Qabil, Anar, M.Araz və başqaları ilə bağlı danışarkən heç də yalnız onlardan dövlət başçısı kimi trafaret mülahizələrdən istifadə etməmiş, əksinə, əsərlərinin məzmununa, qayəsinə, ideyasına, qəhrəmanlarına elə yöndən yanaşmışdır ki, belə yanaşma Heydər Əliyevin ədəbi-bədii düşüncəsinin daha dərin qatlarına varıb, əsaslı təhlillər aparmaq bacarığına malik olduğunu sübut etmişdir. Odur ki, Heydər Əliyev təfəkkürü və ədəbiyyatı duyma bacarığına görə bədii fikrimizin dəyərləndirilməsində möhtəşəm mövqe qazanmış böyük şəxsiyyət kimi çoxlarını valeh etdiyi qənaətindəyik.

Açar sözlər: XX əsr Azərbaycan ədəbiyyatı, fəlsəfi yanaşma, millilik amili, nəzəri məsələlərə diqqət

Summary

Regardless of the historical and political period in which Heydar Aliyev led Azerbaijan, he was constantly interested in the problems of history, culture, ethnic past, folklore and literature. As for literature, he knew quite well both classical literature and expressed his views on the work of writers who lived and worked in the 20th century speeches, reports and various events.

It is interesting that H. Aliyev, first of all, treated literature from a philosophical point of view and especially noted its leading role in the process of forming the national awakening of the people, revival and self-consciousness. In the presented material, we, exclusively speaking about the statements of H.Aliyev about our classics, mostly dwell on

the thoughts of the great leader regarding the work of B.Vahabzade, H.R.Uluturk, S.Vurgun, S.Rahimov, S.Rustam, R.Rza, M.Ibragimova, M.Dilbazi, Gabil, Anar, M.Araz and others.

It is interesting that H. Aliyev, first of all, treated literature from a philosophical point of view and especially noted its leading role in the process of forming the national awakening of the people, revival and self-consciousness. In the presented material, we, exclusively speaking about the statements of H.Aliyev about our classics, mostly dwell on the thoughts of the great leader regarding the work of B.Vahabzade, H.R.Uluturk, S.Vurgun, S.Rahimov, S.Rustam, R. Rza, M. Ibragimova, M. Dilbazi, Gabil, Anar, M.Araz and others. When H.Aliyev assessed their works, he did not use stereotyped thoughts about writers in his speech, on the contrary, he sought to reveal the ideological and content features, approached the assessment of the heroes of their works, raised the layers from the point of view of a subtle analyst and managed to conduct an appropriate analysis. We come to the conclusion that the subtle features of literary works and the views, as a far-sighted person, served the development of literary thought.

Keywords: Azerbaijani literature of the 20th century, philosophical approach, national factor, attention to problems

Xalqı, vətəni, dövləti və doğma tarixi qarşısında məsuliyyətini dərindən dərk edən ölkə başçıları təkcə dövlətin digər dünya dövlətləri ilə münasibətlərinin qurulmasına, ölkəsinin siyasi və hərbi sahədə tanınmasına səy göstərmirlər, onlar həm də öz xalqının mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin qayğısına qalır və qərarlar irəli sürür. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi fəaliyyət özünün universallığı və mütəhərrikliyi ilə seçilməkdədir. Bəzi ziyaylılar, mədəniyyət və elm xadimləri Heydər Əliyevin xalq qarşısındakı xidmətlərindən danışarkən onu dövrümüzün unikal şəxsiyyətləri sırasına aid edib, Azərbaycan intibahının böyük memarı kimi səciyyələndirməkdə haqlıdırlar. Təsadüfi deyildir ki, Azərbaycan şair və yazıçıları, elm və mədəniyyət adamları əsərlərində Prezidentin öz xalqına xidmət missiyasını nəzərdən keçirib, ona fəaliyyətinə uyğun gələn dəyəri verməyə səy göstərmişlər.

Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına, incəsənətinə və s. münasibətilə bağlı dəyərli fikirlər çox deyilmiş, çox yazılmışdır. Yəqin bundan sonra da daha çox deyiləcək, çox yazılacaqdır. Və belə yanaşma bütün hallarda ölkəmizdə gedən proseslərin ana xəttini təşkil edəcəkdir. Çünki Heydər Əliyev Azərbaycan dövlətçilik tarixində zəruri məsələlərə elə həssaslıqla yanaşmışdır ki, onun apardığı bu fəaliyyətin mühüm konturlarını görməmək də insafsızlıq olardı. Ədəbiyyatımıza, onun ayrı-ayrı nümayəndələrinə dair çıxışları və göstərişləri istər sovetlərin kəshakəs dövrünə (1969-1983) təsadüf etsin. Çünki həmin illərdə Heydər Əliyev Azərbaycan KP MK birinci katibi işləyərkən sözdə olan proletar beynəlmiləlçiliyi o qədər işlək və amansız idi ki, Azərbaycan xalqının milli-mənəvi dəyərləri yaşadan üzvlərinə rəğbətlə yanaşma mümkünsüz idi, istərsə də onun ikinci dəfə hakimiyyətdə olduğu dövr olsun, o, ədəbiyyatımızın aparıcı nümayəndələrinin hər bir yaradıcı addımına, ortaya qoyduğu nümunələrə layiqincə dəyər verməyə özünün heç də yalnız rəhbərlik borcu deyil, həm də vənəndaş olaraq vəzifəsi hesab edirdi. Heydər Əliyev mənəvi mədəniy-

yətimizin, onun danılmaz səhifələrini təşkil edən folklor, dastan, klassik ədəbiyyat nümunələri ilə yanaşı, XX əsr ədəbiyyatı nümayəndələrinin yaradıcılığını dərindən izləyir, onlarla bağlı dəyərli mülahizələr irəli sürürdü.

Heydər Əliyev Nizami Gəncəvi, İmadəddin Nəsimi, Nemətullah Kişvəri, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Mirzə Şəfi Vazeh, Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov və başqa bu kimi şair, yazıçı, dramaturqlar təfəkkür daşıyıcıları haqqında da zəruri fikirlər bildirmiş, onların yubileylərinin təşkil olunmasında, əsərlərinin nəşr, rus və digər dillərə tərcümə edilməsinə diqqət yetirməsi də ədəbiyyatımıza və klassik irsimizə göstərdiyi qayğı və məhəbbətdən irəli gəlirdi (4, s. 91-203; 5, s. 87). Təbiidir ki, biz Ulu Öndərin bütün ədəbiyyatımızı əhatə edən fikir və mülahizələrini burada əks etdirmək imkanına malik deyilik. Və belə yanaşmanın özü məqsədimizin vahid nüvəsindən də kənarlaşmaya gətirə bilərdi. Heydər Əliyevin məruzə və çıxışlarına nəzər salarkən görürük ki, o, ədəbi-bədii təfəkkür daşıyıcılarımızın bütün qələm məhsullarına səriştə ilə yanaşmış, az qala onların ortaya çıxardıqları nümunələrə peşəkar ədəbiyyat adamı kimi münasibət göstərmişdir.

Heydər Əliyev ədəbiyyata fəlsəfi baxımdan yanaşır, onun bu və ya digər tərəflərini vərəqləyərkən deyirdi: "Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir. B.Vahabzadə və X.Rza Ulutürk kimi şairlərin əsərlərində bu fikir və duyğular birbaşa, açıq, müstəqim yolla təlqin olunubsa, bir sıra digər əsərlərdə Azərbaycanı sevmək, xalqımızı sevmək, azərbaycançılıq duyğuları dolayısı yolla oxuculara aşılanmışdır" (6, s. 99).

Heydər Əliyev Azərbaycana sevdalı olduğundan onun ictimai-mədəni həyatımızın çeşidli sahələrinə münasibəti son dərəcə müsbət idi. Eyni zamanda xalqın varlığına, onun milli-mənəvi dəyərlərinə sayğı ilə yanaşmaq heç də Azərbaycan Respublikasının sükanı arxasında olduğu vaxtdan başlamamışdır. Bu sevgi Heydər Əliyev Respublikada müxtəlif vəzifləri yerinə yetirdiyi uzaq 50-ci illər dövründən başlayaraq özünü göstərmişdir. Tərlan Novruzovun "Heydər Əliyev və ədəbiyyat məsələləri" kitabında bununla bağlı oxuyuruq: "Xüsusən azərbaycançılıq, millilik, milli müstəqillik yollarındakı mübarizədə ədəbiyyatın rolunun nədən ibarət olduğunu çox dərindən dərk edən bu müdrik insan "gözəgörünməz" iş metodu olan Dövlət Təhlükəsizlik Komitəsində işlədiyi illərdə də ədəbiyyatın, ədəbi şəxsiyyətlərin qayğısına qalmış, onları mövcud olan təzyiqlərdən, repressiyalardan məharətlə qorumuşdur" (6, s. 99).

Belə münasibətin mərkəzində ilk olaraq xalqın varlığına, dilinə, mənəvi aləminə, tarixinə, adət-ənənələrinə, ədəbiyyatına, folklor nümunələrinə həm dərindən bələd olmaq, həm də onu qorumaq istəyindən irəli gəlirdi. Heydər Əliyev xalqımızın yaratdığı ədəbi nümunələri gərəyincə dəyərləndirirdi. Onun S.Vurğun, M.Müşfiq, S.Rüstəm, R.Rza, M.İbrahimov, S.Rəhimov, Ə.Vəliyev, H.Mehdi, M.Dilbazi, B.Vahabzadə, İ.Əfəndiyev, X.R.Ulutürk, N.Xəzri, İ.Şıxlı, Anar, Elçin, F.Qoca və b. bu kimi yaradıcı şəxsiyyətlərə, onların yaradıcılığına maddi və mənəvi dayaq olması ədəbiyyatımıza, yüksək sənət əsərləri yaradanlarımıza fədakarlıqla xidmət etmənin bariz təzahürüdür.

Heydər Əliyevin ədəbiyyat və sənət qayğısını, həm də adlarını çəkdiklərimizin sənət qarşısında xidmətlərini dəyərləndirərərək – S.Rəhimova, S.Rüstəmə, R.Rzaya, M.İbrahimova Sosialist Əməyi Qəhrəmanı yüksək fəxri adların verilməsi ədəbiyyat tariximizin görümlü

hadisəsi idi. Səməd Vurğunun yaradıcılığından bəhs etdikdə isə Ulu Öndər onun yaradıcı şəxsiyyətini yüksək dəyərləndirməklə Səməd Vurğunu ayrı-ayrı adamlar deyil, bütün Azərbaycan xalqının sevdiyini qeyd etmişdir.

Səməd Vurğun yaradıcılığının tədqiqatçısı A.Salmansoy yazır: "Əsərlərinə önəm verdiyi digər sənətkarlardan fərqli olaraq H.Əliyevin S.Vurğuna böyük ehtiramı və sevgisi qarşılıqlı olaraq şairin övladlarının timsalında da davam etmişdir. Ümumilkdə götürsək, H.Əliyev S.Vurğun yaradıcılığı və şəxsiyyətinə daha çox müraciət etmiş, əsərlərinin aktuallığını bu gün də qoruduğunu dəfələrlə isbatlamış, onların gənclərin tərbiyəsində oyandığı rola xüsusi önəm vermişdir... H.Əliyev S.Vurğunun təkcə ədəbi irsinə yox, şəxsiyyətinə hörmətlə yanaşılmasından ötrü əlindən gələni əsirgəməmiş, ona qarşı irəli sürülən haqsız ittihamların layiqli cavabını vermişdir... (7).

Təbii ki, Heydər Əliyev Azərbaycan ədəbiyyatının bu və ya digər nümayəndələrinin yaradıcılığına obyektiv dəyər vermək üçün heç də onun yaradıcılığını tarixi dövr kontekstində, onunla eyni dövrdə fəaliyyət göstərmiş sənətkarların yaradıcılığından izoilə edilmiş şəkildə təhlil etmirdi. Əksinə, onunla çiyin-çiyinə işləmiş yaradıcı şəxsiyyətlərin ortaya çıxardıqları ilə eyni müstəvidə baxış sərgiləyirdi ki, bu da problemə daha ağıllı və açıq başla yanaşmanın zəruri şərti kimi dəyərləndirilirdi.

Təsadüfi deyildir ki, Heydər Əliyevin mədəniyyətimizə və ədəbiyyatımıza çeşidli dəyər verdiyini monoqrafik araşdırmasında nəzərdən keçirən prof. Timuçin Əfəndiyev aşağıdakıları söyləməyi zəruri hesab edirdi: "Hər bir xalqın mədəniyyəti onun böyüklüyünün, müdrikliyinin, birliyinin təcəssümüdür... Azərbaycan mədəniyyətinin yaranması və mənəvi rolunun yüksək dəyərləndirilməsində tarix boyu bir çox şəxsiyyətlərin xidməti olmuşdur ki, yeni dövrün də belə bir nəhəng şəxsiyyəti məhz Heydər Əliyevdir.

Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mədəni-mənəvi irsinin dünya mədəni aləminə çatdırılmasında Heydər Əliyev çox böyük rol oynamışdır və bu fəaliyyət respublikanın gələcək mənəvi-siyasi həyatı üçün örnək və irsə münasibətdə siyasətin konsepsiyasının yaranması baxımından mühüm əhəmiyyətə malikdir" (1, s. 2-24).

H.Əliyev S.Vurğun yaradıcılığına dəyər verərkən o, şairin hansı tarixi-siyasi və ictimai-mədəni şəraitdə yazıb yaratmağa vadar olduğunu da yaddan çıxarmır, bu məsələni yetərincə diqqət mərkəzinə çəkirdi. Odur ki, onun "dövrün hökmü"nün şairi kimi əsərlərində (məsələn, "Zamanın bayraqdarı", "Komsomol poeması", "Rəhbərə salam" və s. kimi) Azərbaycan xalqının tarixinin bir hissəsini özünə cəlb edən misralarda sanballı fəlsəfi fikirlər ortaya qoyması H.Əliyevin S.Vurğun yaradıcılığına verdiyi adekvat qiyməti əks etdirirdi.

Şəxsiyyətlə yaradıcılığın vəhdəti sənətkarın estetik idealında təzahür tapır. Qüdrətli şəxsiyyət özü-özlüyündə böyük bir sərvətdir. Allahın xalqa bəxş etdiyi əvəzsiz güc və qüdrətidir. Heydər Əliyev də belə bir şəxsiyyət idi. Tanrı onu xalqı toplamaq, milləti formalaşdırmaq, dövləti və mədəniyyəti qorumaq üçün göndərmişdir. Tükənməz siyasi iradə, böyük dövlətçilik duyğusu, yenilməz hakimiyyət əzmi, qeyri-adi diplomatik çeviklik, fenomenal yaddaş, intellektual zəka, sərt məntiq, dönməz idrak, parlaq nitq mədəniyyəti bir şəxsiyyət kimi ona məxsus ali cəhətlər idi (2, s. 43-44).

Bütün bunlar sübut edir ki, ədəbiyyat sahəsi Heydər Əliyevin siyasi fəaliyyətində son dərəcə aparıcı anlayış olmuş, onun bir insan və şəxsiyyət olaraq formalaşmasında oxuduğu

bədii nümunələr mühüm rol oynamışdır. Ədəbiyyat Heydər Əliyevin heç də yalnız bədii zövqünü, estetik düşüncəsini ovxarlayan aparıcı vasitə olmamışdır. Ədəbiyyat onun dövlətçilik strategiyasının istiqamətlənməsinə güclü təkan vermişdir. Ulu Öndərin siyasi baxışlarında dövlətçilik fəaliyyəti ilə ədəbiyyat işi üzvi şəkildə birləşmişdir. Eyni zamanda bu, onun həyata keçirdiyi işin millilik amilini, tarixilik kontekstini və müasirlik prinsipini formalaşdırmaq üçün zəmin yaratmışdır. İsa Həbibbəyli haqlı olaraq qeyd edir ki, "Heydər Əliyevin ədəbiyyat təlimindəki millilik anlayışı özündə bütün dolğunluğu ilə azərbaycançılıq məfkurəsini əks etdirir. Və yaxud da azərbaycançılıq Heydər Əliyevin apardığı milli dövlətçilik siyasətinin lokomotividir. Azərbaycan ədəbiyyatı klassiklərindən Nizami Gəncəvinin, Məhəmməd Füzulinin, Cəlil Məmmədquluzadənin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, həmçinin yeni dövr bədii fikrimizin Səməd Vurğun, Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Süleyman Rüstəm, Anar, Elçin, Qabil, Məmməd Araz, Mirvarid Dilbazi və başqaları kimi onlarla nümayəndələrinin dövlət səviyyəsində yubileylərinin keçirilməsi, aparılan tədqiqat və təbliğat işləri həmin sənətkarların xalqa daha yaxından tanıdılması ilə bir sırada, həm də azərbaycançılıq ideyasının geniş miqyasda yayılmasına və dərindən mənimsənilməsinə uğurla xidmət etmişdir" (3).

Yap.org.az-a müsahibəsində isə Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar Heydər Əliyevi Azərbycan xalqının əbədi milli sərvəti olaraq dəyərləndirir. Məsələni inam və qətiyyətlə ön plana çıxaran tanınmış nasir yazır: "Şəxsiyyətlərin miqyası, bir tərəfdən onların öz zamanlarında gördükləri işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin, həyata keçirdiklərinin əhəmiyyəti ilə, əhatəsi ilə, təsir dairəsi ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin tarixdə əks-sədasıyla, uzun illər, dövrlər müddətində hadisələrin gedişatını yönəltməsi ilə müəyyənləşir. Hər iki meyarla Heydər Əliyev tarixi şəxsiyyətdir. Bu danılmaz həqiqəti kimsə inkar edə bilməz" (8).

Fikirlərinə müraciət etdiyimiz Azərbaycan ictimai-mədəni sferasının aparıcı nümayəndələri Heydər Əliyevin sözün həqiqi mənasında fəlsəfi təfəkkür sahibi kimi olduğunu etiraf etməkdədirlər. Heydər Əliyevin bəlkə də fərdi və fərqli şəxsiyyət tipi olduğu üzərində bundan sonra da yeni fikir, meyar və mülahizələr ortaya çıxacaqdır. Yalnız məsələyə ədəbiyyat və sənət baxımından yanaşsaq görərik ki, ədəbi-nəzəri estetik yanaşma istiqamətində yaradıcı şəxsiyyətlə onun yaradıcılığının tam kamil kondisiyaya çatması problemi daim öndə olmuşdur. Belə nəzəri problemə diqqət yönəldən Heydər Əliyev yaradıcı şəxsiyyətin bütövlüyünü qiymətləndirməyi bacarmaqla Azərbaycan şairlərinə, o cümlədən ilk növbədə digərləri ilə, Qabilə münasibətində bunu özünəməxsus, orijinal bir şəkildə ifadə edə bilmişdi. "... Bir vaxt mən Qabilə demişdim ki, sən əsl kişisən... O fikri də mən uzunmüddətli ayrılıqdan sonra görüşümüzdə dedim... insanlar arasında "sən kişisən, mən kişiyəm" sözləri çox işlənir. Amma mən heç vaxt belə sözləri işlətmirəm. O vaxt isə mən bu sözü işlətdim, çünki doğrudan da bu sözün yeri idi. Qabil vətəndaşlıq mövqeyi olan bir şair kimi kişi adamdır" (6, s. 168).

Heydər Əliyev Azərbaycan şair və yazıçılarının milli təəssübkeşliyini, onların doğma xalqına vicdanla, namusla, qeyrətlə xidmət etdiyini onlarla bağlı danışanda son dərəcə dəqiqliklə ifadə edə bilirdi. O, Nəbi Xəzri, İmran Qasımov, Yusif Səmədoğlu, Anar, Xəlil Rza Ulutürk, Elçin, Məmməd Araz, Zəlimxan Yaqub və digərlərindən bəhs etdikdə də onlarla bağlı son dərəcə dərin müşahidələrini ortaya çəkirdi. Ulu Öndər XX əsr Azərbaycan ədəbiy-

yatının ünlü nümayəndələrindən danışarkən Arazın o tayında taleyin hökmü, Rusiya və İran imperiyalarının düşmənçiliyi nəticəsində iki yerə parçalanmış vətənimizin Cənub tərəfində yaradanların da – Balaş Azəroğlunun, Əli Tudənin, Mədinə Gülgünün, Söhrab Tahirin, Məhəmməd Hüseyn Şəhriyarın Cavad Heyətin, Hökümə Billurinin əsərlərinin müxtəlif tərəflərinə kompetensiyalı toxunmağı da zəruri hesab, ədəbiyyatımızı vahid bir orqanizm kimi səciyyələndirirdi. Heydər Əliyev əksər yanaşmalarında Şəhriyarı "qüdrətli filosof şair", "vətənpərvər insan", "klassik irs və müasir ədəbi proseslə sıx bağlı sənətkar", "klassik romantik poeziya ənənələrini davam etdirən şair", "XX əsr poeziyasının inkişafında xüsusi rol oynamış ədəbi sima", "yeni ədəbi məktəb yaratmış ustad" və s. kimi bəhs açması onun Cənubi Azərbaycan poeziyasını yaradanların poetik dəst-xəttini mahiyyəti etibarı ilə səciyyələndirməyi bacaran və ədəbiyyatın məzmun və mahiyyətini dərindən mənimsəmiş siyasi rəhbər kimi təsdiq edirdi.

Beləliklə, təqdim etdiklərimizə əsaslanaraq Heydər Əliyevin Azərbaycan ədəbiyyatının XX əsrdə yazıb yaratmış nümayəndələri ilə bağlı fikir və mülahizələrinin yetərincə kompetensiyalı bilgilərə malik olduğunun şahidi oluruq. Təsadüfi deyildir ki, Azərbaycan alimləri, ədəbiyyatşünasları bu böyük siyasi xadimin ədəbiyyat və sənətlə bağlı söylədiklərini çoxsaylı kitablarda, monoqrafik araşdırmalarda, məqalə və materiallarda müxtəlif rakurslardan incələmişlər. Hesab edirik ki, "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" mövzusu çoxşaxəli, çeşidli spektrlərə malik bir sahədir. Onun nəzəri-estetik istiqamətlərdə bundan sonra da öyrənilməsi, fikrimizcə, daim gündəmdə olan məsələlərdən olacaqdır.

QAYNAQLAR:

1. Əfəndiyev T. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz. Bakı, 2011, 270 s.
2. Əhmədova S. Heydər Əliyev və ədəbi-tarixi proses. Bakı, 2013, 156 s.
3. Həbibbəyli İ. Heydər Əliyevin ədəbiyyat siyasəti və müasir dövr. "Azərbaycan" qəzeti, 2023, 14 fevral
4. Kərimli T., Quliyev V. Heydər Əliyev və klassik ədəbiyyat. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Bakı, "Şərq-Qərb", 2009, 244 s.
5. Qasımbəyli Y. Heydər Əliyev əbədiyyatı və ədəbiyyat. Bakı, "Elm və təhsil", 2018, 148 s.
6. Novruzov T. Heydər Əliyev fenomeni və ədəbi şəxsiyyətlər // Novruzov T. Heydər Əliyev və ədəbiyyat məsələləri. Bakı, 2007
7. Salmansoy A. Heydər Əliyevin "gördüyü" Səməd Vurğun... "Ədəbiyyat qəzeti", 2021, 10 may
8. Xalq yazıçısı Anar. Heydər Əliyev Azərbaycan xalqının ədəbi milli sərvətidir. https:aia.az9522heyder-eliyev...

HEYDƏR ƏLİYEV VƏ QƏRBİ AZƏRBAYCAN TOPONİMLƏRİ

HEYDAR ALIYEV AND WESTERN AZERBAIJAN TOPONYMS

Şəhla HÜSEYNLİ
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Folklor İnstitutu,
shahla_huseynli@mail.ru

Özət

Toponimlər qiymətli mənbə kimi xalqın qədim yaşayış məskənini müəyyənləşdirmək, onun tarixini araşdırmaq, bu ərazidə baş vermiş ümumi – siyasi hadisələri, prosesləri qiymətləndirmək baxımından dəyərlidir. Toponimlər vasitəsilə xalqın təşəkkülünü, tarixini, soykökünü öyrənmək mümkündür.

Məlumdur ki, Qərbi Azərbaycan – indiki Ermənistan ərazisi qədim Azərbaycan torpağı, türk-oğuz yurdudur. Lakin ermənilər tarix boyu həmin ərazilərdə yerləşən türk mənşəli toponimlərin adını dəyişərək saxtalaşdırmış, öz dillərinə uyğunlaşdırmışlar. Məhz bu baxımdan toponimlərin ətraflı öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Ümummilli Liderimiz, Ulu Öndər Heydər Əliyev xalqımızın tarixini, mədəniyyətini geniş oxucu kütləsinə çatdırmağı elmi ictimaiyyət qarşısında şərəfli və məsuliyyətli töhvə kimi müəyyən etmişdir. Tarixi kök məsələsinə xüsusi əhəmiyyət verən Ulu Öndər bunu milli qürur qaynağı kimi dəyərləndirir, onun düzgün şəkildə dünyaya bəyan etməyin, təbliğ etməyin vacibliyini diqqətə çatdırırdı. Xüsusilə, Qərbi Azərbaycanda ermənilərin türk mənşəli toponimlərə qərəzli mövqeyi onu düşündürməyə bilməzdi.

Məqalədə məhz Heydər Əliyevin hakimiyyət illərində Qərbi Azərbaycanda, qədim Oğuz diyarında öz əksini tapmış yer-yurd adlarının araşdırılıb, tədqiqata cəlb edilərək nəşr olunan kitablar haqqında məlumat verilmişdir. Ulu Öndərin tövsiyəsi ilə Qərbi Azərbaycanla bağlı olan qədim tarixi mənbələrimiz tədqiq edilmiş və geniş oxucu kütləsinə çatdırılmışdır.

Açar sözlər: toponim, Ulu Öndər, Qərbi Azərbaycan, türk.

Summary

Toponyms as a valuable source are valuable in terms of determining the ancient settlement of the people, investigating its history, evaluating the general-political events and processes that took place in this area. Through toponyms, it is possible to study the formation, history and ancestry of the people. It is known that the territory of Western Azerbaijan - the current territory of Armenia – is the ancient land of Azerbaijan, the homeland of the Turkic-Oghuz people. However, throughout history, Armenians changed the names of toponyms of Turkic origin located in those areas and falsified them, adapting them to their language. From this point of view that the detailed study of toponyms is of particular importance. Our national leader, the great leader Heydar Aliyev, has determined to convey the history and culture of our nation to a wide readership as an

honorable and responsible contribution to the scientific community. The great leader, who attached special importance to the issue of historical roots, valued it as a source of national pride and drew attention to the importance of declaring and propagating it to the world in the right way. He could not help thinking about the biased position of Armenians especially in Western Azerbaijan towards toponyms of Turkish origin.

In the article the place names reflected in the ancient Oghuz region of West Azerbaijan during the reign of Heydar Aliyev are investigated and information was given about the books published after being involved in the research. With the recommendation of the great leader our ancient historical sources related to Western Azerbaijan are studied and brought to a wide audience.

Keywords: toponym, Great leader, Western Azerbaijan, Turkic

Bildiyimiz kimi, qədim türk-oğuz eli olan indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar əsrlər boyu deportasiya olunmuş, soyqırıma məruz qalmışlar, üstəlik oradakı qədim yer-yurd adlarımız da dəyişdirilmişdir. Ermənilər onların xislətinə xas olan hiyləgərliyi bizim abidələrimiz üzərində də həyata keçirmişlər – abidələrimiz üzərindəki bizə aid yazıları –nişanələri silərək dəyişdirmiş, onları erməni tarixi abidələri kimi qələmə verilmişlər. Məlumdur ki, hazırkı Ermənistan ərazisi əzəli Azərbaycan torpaqlarıdır. Erməni əsilli hayların kütləvi şəkildə bizim ərazilərdə – Qərbi Azərbaycanda yerləşdirilməsi, əslində, Gülüstan və Türkmənçay müqavilələrindən sonra başlanmışdır. Elə bundan sonra da torpaqlarımız parçalandı, bizim tarixi yer-yurdumuzda – İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisində "Ermənistan vilayəti" yaradıldı. Beləcə, çar hökuməti dövlətçiliyini çoxdan itirmiş ermənilərə bundan sonrakı dövrlərdə özlərinin "Böyük Ermənistan" xülyalarını təbliğ etmək üçün şərait yaratdı. Bildiyimiz kimi, ermənilərin bu istiqamətdə səyləri, nəhayət, əsasən bizim xalqın çoxdan məskunlaşdığı torpaqlarda qondarma erməni dövlətinin yaranması ilə nəticələndi. Ermənilər məqsədlərinə çatmaq, ərazilərini genişləndirmək ücün bütün çirkin vasitələrə əl atdılar – həm Ermənistanda, həm də Azərbaycanda yüzlərlə yaşayış məntəqəmizi xüsusi amansızlıqla darmadağın etdilər, dəfələrlə dinc əhalimizi soyqırımına məruz qoydular. Bir sıra doğma tarixi ərazilərimizlə yanaşı, gözəl Qarabağımızın dağliq hissəsini də itirdik. Özü də bütün bu tükənməyən haqsızlıqlar, ağlasığmaz vəhşiliklər XX əsrdə, mədəniliyi, demokratikliyi ilə öyünən dünya ictimaiyyətinin, qlobal mahiyyətli beynəlxalq təşkilatların gözü qaqrşısında baş verdi. Hətta onların bir çoxu ermənilərin hiylə-böhtanına uyaraq, ermənilərə havadarlıq da etdilər. Hələ də öz ədalətsiz havadarlıqlarından əl çəkmirlər.

Riyakar, qəddar düşmənimizin yaxın keçmişimizdən başlayıb bu günümüzə qədər davam edən qəsbkarlığına qarşı xalqımızın, böyük məhrumiyyətlər bahasına başa gəlsə də, dayanmayan çoxşaxəli müqavimətindən, mübarizəsindən də, təbiidir ki, çox danışmaq olar. Lakin indiki halda biz milli-mədəni sərvətimiz olan toponimlərimizdən, onların qorunması zərurətindən söz açacağıq. Ona görə "qorunması zərurəti" deyirik ki, ermənilərlə aramızdakı münaqişə-mübarizənin tarixi boyu qarşılaşdığımız sahələrdən biri, bəlkə də birincisi toponimlərlə bağlıdır. Adətən, əksər istilalarda belə olur. Ya əvvəlcə müəyyən məkanın adını təhrif edir, sonra oranı zəbt edirlər, ya da yeri tutur və dərhal oranın adını özününküləşdirməyə çalışırlar. Ermənilər də həmişə belə ediblər və belə də edirlər. Buna görə də bütün

digər milli-tarixi, mədəni-mənəvi dəyərlərimiz kimi, toponimlərimizi də ruhumuzda – yaddaşımızda qoruyub-yaşatmaq qarşımızda duran əsas vəzifələrimizdəndir.

Toponimiya, əlbəttə, ilk növbədə dilçilik elminin tədqiqat sahəsidir. Milli toponimlər milli dil hadisəsidir, ana dilinin səs ahəngi, söz quruluşu ilə bağlı olur. Bütün bu incə daxili bağlılığı dilçilərimiz öyrənib üzə çıxardırlar. Ancaq kiçik yer-yurd adlarından tutmuş böyük ərazi, ölkə adlarınacan toponimlər özlərində elə müxtəlif məna çalarları ehtiva edə bilirlər ki, onların yaranmasının, etimologiyasının üzə çıxarılması ilə başqa sahələrin mütəxəssisləri (hətta həvəskarları da) müntəzəm məşğul olurlar.

Bütün bu xüsusiyyətlərinə görə, ermənilərlə münaqişədə olduğu kimi, əgər ortada ərazi iddiası varsa, onda toponimlər uğrunda mübarizə, yer-yurd adlarındakı tarixi-milli həqiqətlərin qətiyyətlə müdafiəsi, inandırıcı təsbiti və geniş ictimai dairələrə çıxarılması doğma torpaq yolunda ölüm-dirim savaşının kəsərli silahına çevrilir.

Bu, haqqında danışdığımız məsələnin bir tərəfidir. Məsələnin ikinci mühüm cəhəti isə həmin həqiqətin olduqca qəddar və məkrli düşmənlə mübarizə apardığımız indiki dövrdə, daha doğrusu hələ bu mübarizəyə daha qətiyyətlə hazırlaşdığımız vaxtlarda bizə dərindən təlqin edilməsi, milli və dövlət səviyyəli bir vəzifə kimi mənalandırılması idi. Bu işlərin görülməsi və yönləndirilməsi isə həmin dövrdə dövlətimizə başçılıq edən Ulu Öndər Heydər Əliyevin adı ilə bağlidir. Hesab edirəm ki, bu sahədəki fəaliyyətinə görə də hazırda 100 illik yubileyi qeyd olunan Ümummilli Liderimizi minnətdarlıq hissi ilə yad eləməyimiz yerinə düşür.

Dünya miqyaslı siyasətçi Heydər Əliyevin danışdığımız məsələlərlə əlaqədar qərar və göstərişləri istənilən qədərdir. İki vacib fərmanı yadımıza salaq. Ölkə başçısı 1997-ci il dekabrın 18-də "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında", 1998-ci ilin martın 26-da isə "Azərbaycanlıların soyqırımı haqqında" fərmanlar imzalamışdır. Bir-birinin ardınca verilmiş milli-tarixi məzmunlu iki fərman. Məhz bu fərmanlardan sonra xalqımızın taleyində dərin izlər qoymuş deportasiya və soyqırımı hadisələrinin sistemli araşdırılması və geniş miqyasda ictimailəşdirilməsi üçün ciddi addımlar atıldı. Düşmənlə səmərəli mübarizə aparmaq üçün taleyüklü problemlərimizi bilməliydik.

Ana dilimizin inkişafı, dövlət dili səviyyəsində funksionallığının təmin edilməsi sahələrində də ölkə başçısı kimi Heydər Əliyevin fəaliyyəti çox genişdir. Lakin biz indi Ulu Öndərin bilavasitə haqqında danışdığımız toponimlərin tədqiqinin əhəmiyyəti ilə bağli fikirlərini nəzərə çarpdırmaq istəyirik. Bircə çox mənalı faktı qeyd etməklə kifayətlənəcəyik.

Görkəmli alim, professor Həsən Mirzəyev "Azərbaycan toponimləri və şivə sözləri" kitabında Heydər Əliyevlə 1990-cı ildəki görüşünü xatırlayır və bu görüşdən sonra həmin kitabın məhz onun tövsiyəsi ilə meydana gəldiyini söyləyir. Görüş zamanı Heydər Əliyev ermənilərin törətdiyi cinayətləri, toponim genosidini, soyqırımı, azərbaycanlıların deportasiyasını bütün dünyaya çatdırmağın vacib olduğunu söyləmişdir: "Ermənilər Ermənistan Respublikasında yaşayan azərbaycanlıların hamısını öz doğma yurdundan çıxartmışdır və oradakı yer-yurd adlarını da sürətlə dəyişirlər. Bu yer-yurd adlarını sizin nəsil yazmasa, itib-batacaq və gələcək nəslə çatmayacaqdır. Bu yer-yurd adlarının azərbaycanlılara məxsus olduğunu yazıb beynəlxalq aləmə çatdırmaq lazımdır. Tarixçi alimlər də ermənilərin törətdikləri cinayətləri, soyqırımı, deportasiyanı yazıb yaymalıdırlar" (9, 4).

Təkcə bu söhbətdən də Heydər Əliyevin Qərbi Azərbaycan ərazilərindəki türk mənşəli toponimlərin tarixi faktlar əsasında, hərtərəfli şəkildə tədqiq olunmasına necə geniş siyasi-ictimai əhəmiyyət verdiyini aydın görmək olur. Məhz Ulu Öndərin bu tipli söhbətləri, çağırışları, Prezident kimi fərmanları sayəsində ermənilər tərəfindən zəbt olunmuş tarixi torpaqlarımız, bu ərazilərdəki yer-yurd adları haqqında vaxtında çoxsaylı tədqiqatlar aparıldı. Eləcə də dövlət başçısının tövsiyəsi ilə bir sıra kitablar nəşr olundu.

Tarixdən məlumdur ki, XVIII əsrdə yaranan xanlıqlardan biri də İrəvan xanlığı olmuşdur. Azərbyacanın qərbində, Göyçə gölü ətrafında yerləşən xanlıq 15 mahaldan ibarət idi və bu ərazilərdəki toponimlər də Azərbaycan dili əsasında formalaşmışdı. Vaxtilə Azərbaycanın ayrılmaz hissəsi olan bu torpaqlarda Azərbaycan türklərinin izlərini məhv etmək məqsədilə yer-yurd, kənd adları dəyişdirilərək onlara qondarma erməni adları qoymuşdular". 1919-1920-ci illərdə daşnakların hakimiyyəti dövründə indiki Ermənistan ərazisində 17 yaşayış məntəqəsinin adı, Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra – 1995-ci ilədək Ermənistanda 200-ə yaxın yaşayış məntəqəsinin adı hökumətin qərarı əsasında dəyişdirilmişdir (1, 215). Lakin ermənilər unudurdular ki, həmin adları – toponimləri dəyişdirməklə onları xalqın yaddaşından silmək mümkün deyil, çünki toponimlər hər bir dilin leksik sistemində formalaşaraq xalqın yaddaşına həkk olunur. Təsadüfi deyil ki, məhz toponimlər xalqın təşəkkülü, tarixi və soykökünü elmi şəkildə öyrənməyə geniş imkanlar yaradır.

Bir sıra dəyərli kitabların nəşr olunması Ulu Öndərin tapşırığından sonra tarixi həqiqətləri üzə çıxartmaq üçün Qərbi Azərbaycan toponimlərinin geniş tədqiqat obyektinə çevrildiyini açıq-aydın göstərir. Belə ki, ardıcıl şəkildə araşdırmalar aparılır, monoqrafiyalar yazılır, toponimlərin etimoloji izahı verilir.

Görkəmli coğrafiyaçı, akademik Budaq Budaqov və professor Qeysəddin Qeybullayevin "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kitabının işıq üzü görməsi rəğbətlə qarşılanır. Artıq kitabından sitat gətirdiyimiz dilçi alim İbrahim Bayramov həmin əsəri ermənilərin toponim genosidinə vurulan açıq zərbə kimi dəyərləndirir (2, 4).

Türk mənşəli toponimlərin araşdırılmasında xüsusi yeri olan alimlərimizdən biri də əməkdar elm xadimi, professor Həsən Mirzəyevdir. Dilçi alim ilk dəfə olaraq aşıq poeziyasındakı zəngin yer-yurd adlarını araşdırmış, qədim türk-oğuz eli sayılan Dərələyəz mahalının toponimlərini və şivə sözlərini ətraflı tədqiq etmiş, eyni zamanda bu milli toponimlərimizin coğrafi mövqeyini, əhatə etdiyi ərazini göstərmişdir (9).

Qərbi Azərbaycan həqiqətlərini, hiyləgər düşmənlərin hərbi-siyasi təcavüzlərinə məruz qalaraq zaman-zaman itirdiyimiz əzəli torpaqlarımızdan olan türk-oğuz yurdu "Ermənistan"ın tarixini, coğrafiyasını, toponimikasını geniş, hərtərəfli şəkildə araşdıran tədqiqatçılardan Əziz Ələkbərlinin rolu danılmazdır. O, "Qədim Türk-Oğuz yurdu – "Ermənistan" adlı kitabında ermənilərin türk mənşəli toponimlərin müxtəlif prinsiplər əsasında dəyişdirilməsini faktlar əsasında şərh etmişdir: 1) sovet ideologiyasının təbliğatı bəhanəsi, 2) erməni millətindən olan tarixi şəxsiyyətlərin adını əbədiləşdirmək bəhanəsi, 3) hərfi tərcümə üsulu, 4) bəzi adlardakı " böyük", "kiçik", "yuxarı", "aşağı" sözlərinin erməniləşdirilməsi, 5) adlarımızın erməni tələffüzünə uyğunlaşdırması, 6) bəzi qədim tarixi adların müasir azərbaycanlıların adları ilə dəyişdirilməsi, 8) tarixi adın izini itirmək üçün onun bir neçə dəfə dəyişdirilməsi (4, 5).

Ə.Ələkbərli Qərbi Azərbaycana aid tədqiqatlarını davam etdirmiş, o cümlədən "Qərbi Azərbaycan" adlı oncildlik ensiklopedik nəşrin, Azərbaycanda və xaricdə nəşr olunmuş "Qərbi Azərbaycan abidələri" kitabının müəllifidir.

Qərbi Ermənistanda adı çəkilən toponimləri müqayisəli tədqiqat üsulu ilə araşdıran, onları linqvistik cəhətdən əsaslı izah edən tədqiqatçılardan biri də prof. İbrahim Bayramovdur. O, "Qərbi Azərbaycanın türk mənşəli toponimləri" adlı kitabında coğrafi adların tərkibində öz əksini tapan türk tayfa adlarını müəyyənləşdirmiş və toponimləri tarixi-linqvistik aspektdə öyrənilmişdir. Professorun Qərbi Azərbaycan toponimlərinə həsr olunmuş başqa kitabları da nəşr olunmuşdur.

Məlumdur ki, tarixi toponimlərin tədqiqində müxtəlif mənbələrə müraciət lazım gəlir. Sözlərin etimoloji-tarixi aspektdə öyrənilməsində bu mənbələrin xüsusi rolu vardır. Xoşbəxtçilikdən belə mənbələr mövcuddur və bunların bir qismi Qərbi Azərbaycan ərazisindəki türk mənşəli toponimlərlə bilavasitə bağlıdır. Belə dəyərli tarixi sənədlər içərisində konkret tarixi faktlarla zəngin olan " İrəvan əyalətinin icmal dəftəri"ni ayrıca qeyd etmək lazımdır. Akademik Ziya Bünyadov və tarixçi H.Məmmədovun çapa hazırladıqları bu icmal dəftər 1996-cı ildə işıq üzü görmüşdür.

1728-ci ildə vergi dəftəri kimi tərtib edilmiş bu tarixi sənəd ilk növbədə İrəvan əyalətinin keçmiş dövrlərdəki toponimik mənzərəsini dolğun əks etdirdiyi üçün əhəmiyyətlidir. Həmin sənəddə el-oba, kənd, qışlaq, yaylaq adları ilə yanaşı, bu yerlərdə yaşayan tayfa, qəbilə adları da qeyd olunmuş və bütün bunlara müvafiq şəkildə vergi verənlərin sayı göstərilmişdir. "428 evli türk-müsəlman, 224 evli və 9 subay xristian qeydə alınmışdı. Evlilərin ailə tərkibini 5 nəfərdən götürməklə, İrəvan şəhərində yaşayan 3.369 nəfərin 63,5%-i türk-müsəlman, 36,55-inin isə xristian olduğunu qeyd edə bilərik" (6, 22).

Beləliklə də, 1728-ci il tarixli "İrəvan əyalətinin icmal dəftəri"nə görə, eyni adlı əyalətin ərazi-inzibati quruluşu aşağıdakı şəkildə mövcud olmuşdur: İrəvan şəhəri, Qırxbulaq, Karbi, Maku, Xınzırək, Karni, Vedi, Dərəçiləк, Abaran, Göyçə, Məzrə, Sürməli, İğdır, Aralıq, Şərur, Sədərək, Zarzəmin nahiyələri və Şürəgəl livası, Naxçıvan sancağı isə Naxçıvan şəhəri, Naxçıvan, Əlincə, Sair Məvazi, Dərəşahbuz, Mülgi-Arslan, Məvaziyi-Xatun, Qarabağ, Qışlağat, Dərəşam, Azadciran, Şorlut, Dərənürgüt, Dərələyəz və Sisyan nahiyələri (6, 9).

Araşdırmalar nəticəsində aydın olur ki, "Dəftər "də adı çəkilən yer adlarının (etnotoponimlər) əksəriyyəti qədim türk tayfalarının adı ilə bağlıdır: qıpçaq, əfşar, oğuzdaş, bayat, qaraqoyunlu, bayburt və s. Bunlar bir daha sübut edir ki, indiki Ermənistan ərazisindəki azərbaycanlıların etnogenezində müxtəlif türk tayfaları iştirak etmiş və türklər bu ərazilərin köklü sakinləri olmuşlar.

Həmçinin "Dəftər"də qeydə alınan yer adlarının müəyyən bir qismi də antroponimlə (şəxs adları) ilə bağlı yaranmışdır. Məlumdur ki, antroponimlər xalqın dilini, tarixini yaşadan onomastik vahidlərdir. "İrəvan əyalətinin icmal dəftəri"ndə də insan adı ilə bağlı yer adları (antrotoponimlər): Aslan, Qaraca, Uluxan, Babaxan, Bəyazid, Elbəy, Saçlı, Bayandırlı və s. milli mənşəlidir. Məsələn, tarixdə adları çəkilən Səlcuq hökmdarı Alp Arslan, Marağa hökmdarı Körpə Arslan türk ərənləridir. Əvvəllər titul kimi işlənən "arslan" sonradan şəxs adına çevrilmiş, "aslan" formasına düşmüşdür. "Aslan" zooleksemi folklorumuzda, mifoloji tədqiqatlarda həmişə güc, qüvvət, məğrurluq, çeviklik rəmzi kimi işlənmişdir. "Kitabi- Dədə

Qorqud "dastanında da Qazan xan oğlu Uruzu "aslanım oğul" adlandıraraq onun kafərlə döyüşə çıxıb "aslanlıq" əldə etməsini söyləyir. Uruz deyir:

Güni gəldi, kafər başın kəsdürəyim sənin üçün,
Aslan adım saqlardım sənin üçün (7, 67).

İrəvan əyalətinin icmal dəftərinə məxsus elə toponimlərə rast gəlirik ki, onların etimologiyası səhv araşdırılıb. Məsələn, Dərəçiçək nahiyəsinə aid olan Bayandırlı kəndinin adı erməni dilinə məxsus onomastik vahid kimi verilib (8, 55). Lakin sonrakı tədqiqatda Budaq Budaqov və Qeysəddin Qeybullayev "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kitabında həmin fikri qəbul etmir və göstərirlər ki, kəndin adı qədim türk mənşəli bayan tayfasının adından götürülüb (3, 72).

Bu mülahizə ilə razılaşmaq düzgün olardı, çünki "bayan" sözünün etimoloji izahı da bunu təsdiq etməyə əsas verir. "Bay" qədim türk dilində zəngin, varlı mənasını, "an" isə cəm şəkilçisini bildirir. Müasir türk dilində qadın, xanım sözlərinin sinonimi olan "bayan" sözünün kökü varlılar, zənginlər deməkdir. Bu da türk xalqlarında qadına verilən yüksək qiymətin təzahürüdür.

"İcmal dəftəri"ndəki bir sıra toponimlər ilk baxışda bizə yad görünsələr də, onlara yaxından diqqət yetirdikdə mənşə etibarilə dilimizlə bağlı olduğunu, lakin tələffüz cəhətdən "ermənileşərək" dəyişikliyə uğradığını yəqin etmək olur. Məsələn, Qırxbulaq nahiyəsinin Hellar (Ellər), Seyran nahiyəsinin Heranis (eranos – qədim türk mənşəli Aran tayfasının adı) kəndlərin adları bu qəbildəndir. Karni nahiyəsinə aid olan bir kəndin də adı Harunberun şəklində verilmişdir. Bu toponimin etimologiyası haqqında müxtəlif mülahizələr var.

Kəndin adının sonrakı mənbələrdə Qarınburun kimi yazılması onun yerləşdiyi ərazidəki qarın formalı dağ burnunun adından yaranması və ya türk dillərində "quru çay yatağı" mənasındakı qarın və dağ burnu anlamındakı burun sözlərindən əmələ gəlməsi ehtimallarını doğurub (3, 276).

Başqa bir fikrə görə Harun ("harın" - türk dilində "qudurğan", "qızğınlaşmış" adam), barun ("barın" qədim türk dilində "azad olmaq") deməkdir. Yəni azğınlardan azad olmaq mənasındadır (5, 152).

Əziz Ələkbərli isə Harunburun kənd adının "hunların yaşadığı dağ burnu – gədik, dağ çıxıntısı" anlamını verdiyini təsdiq edir (4, 384).

Tarixi faktlarla zəngin olan mənbələrdən biri də "Naxçıvan sancağının müfəssəl dəftəri" dir. 1927-ci il abidəsi sayılan bu kitab da Ulu Öndər Heydər Əliyevin tövsiyəsi ilə çap olunmuşdur. İlk dəfə "Sabah" nəşiriyyatında çap olunan bu qiymətli tarixi qaynaqla tanış olan möhtərəm prezident onun elmi şərhlərlə yenidən nəşrinin hazırlanmasını tapşırmışdır. Kitabın tərtibçisi Hüsaməddin Məmmədov (Qaramanlı) əlyazma üzərində yenidən işləmiş, bu nəşri lüğət və və şərhlərlə təchiz etmişdir. Kitab yenidən 2001-ci ildə çap olunmuşdur. Bu nəşrdə Naxçivan sancağının tarixi daha geniş xronoloji çərçivədə, təqribən 150 illik dövrün hadisələr kontekstində tədqiq edilmiş, tərcümənin mətnində isə cüzi dəyişikliklər edilmişdir (10, 2).

Hər iki müfəssəl dəftəri müqayisə edərkən görürük ki, həmin dəftərdə qeyd olunan toponimlərin bəzilərini ermənilər dəyişdirmiş, öz dillərinə uyğunlaşdırmışlar. Bir faktı qeyd

edək. “Naxçıvan sancağının müfəssəl dəftərində adı çəkilən Ərəfsa kəndi, “İrəvan əyalətinin icmal dəftəri”ndə dəyişdirilərək Arafsa , 1968-ci ildə isə Aravis adlandırılıb.

Hal-hazırda Qərbi Azərbaycanda (indiki Ermənistan adlandırılan ərazidə) bir nəfər də olsun soydaşımız yaşamır. 1988-ci ildə Qərbi Azərbaycanın qədim yerli-türk sakinləri ermənilər tərəfindən dədə-baba yurdlarından son nəfərinə qədər qovuldular. Halbuki, bu ərazilərdə ermənilər həmişə müqayisəedilməz dərəcədə azlıq təşkil etmişlər.

Ulu Öndər Heydər Əliyevin davamçısı, dövlətimizin başçısı İlham Əliyev 2022-ci il dekabrın 24-dü bir qrup Qərbi Azərbaycandan olan ziyalılırımızla görüşmüşdür. Görüşdə giriş nitqi söyləyən Prezident Qərbi Azərbaycanın bizim tarixi torpaqlarımız olduğunu, şəhərlərin, kəndlərin adlarının Azərbaycan mənşəli olmasını, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqının yaşadığını, onların öz torpaqlarından zorla deportasiya edilərək qovulduğunu, soyqırıma məruz qaldıqlarını və bunları dünya xalqlarına çatdırmaq üçün müxtəlif işlərin görülməsinin, tarixi həqiqətlərlə bağlı kitabların yenilinməsinin, xarici dillərə tərcümə olunaraq bütün dünyaya çatdırılmasının vacib olduğunu söyləmişdir. Ali Baş Komandan 44 günlük Qarabağ savaşında qalib gələrək Qarabağa qayıtdığımız kimi, bir gün qədim Qərbi Azərbaycan torpaqlarına qayıdacağımızı da qətiyyətlə söyləmişdir: “Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar” (11).

Prezidentin çıxışında da deyildiyi kimi, Qərbi Azərbaycan torpaqları tariximizin unudulmaz bir parçasıdır.

QAYNAQLAR:

1. Bayramov İ. Qərbi Azərbaycan tarixi həqiqətləri və Ermənistan etnik təmizləmə siyasəti, Bakı, Çıraq, 2012
2. Bayramov İ. Qərbi Azərbaycanın türk mənşəli toponimləri, Bakı, 2002
3. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti, Bakı, 1998
4. Ələkbərli Ə. Qədim Türk-Oğuz yurdu – “Ermənistan”, Bakı, 1994
5. Hüseynli Ş. “İrəvan əyalətinin icmal dəftəri”ndə bir neçə toponim, Azərbaycan filologiyası, V kitab, Bakı, 2003
6. İrəvan əyalətinin icmal dəftəri, Bakı, 1996
7. Kitabi – Dədə Qorqud , Bakı, Yazıçı, 1988
8. Qurbanov A. Azərbaycan dilinin onomaloğiyası, Bakı, 1988
9. Mirzəyev M. Azərbaycan toponimləri və şivə sözləri, Bakı, 2003
10. Naxçıvan sancağının müfəssəl dəftəri, Bakı, Elm, 2001
11. https://525.az/news/209961-dovletimizin-gucu-ve-milli-birliyimizle-qerbi-azerbaycan-ellerine-qovusacagiq

III BÖLMƏ

TARİXİ SÖZLƏR İŞIĞINDA

MİRZƏ FƏTƏLİ AXUNDZADƏ DRAMATURGİYASI VƏ XALQ DASTANLARI

MIRZA FATALI AKHUNDZADE'S DRAMATURGY AND FOLK EPİCS

Leyla Kamran qızı MƏMMƏDOVA
Filologiya elmləri doktoru, dosent,
AMEA Folklor İnstitutu,
leyla.kamranqizi@gmail.com

"M.F.Axundzadənin yaradıcılıq yolunu səciyyələndirən tarix səhifələrini vərəqləyərkən biz böyük iftixar hissi keçiririk ki, xalqımız ağır zamanlarda, gerilik, dini fanatizm şəraitində belə görkəmli şəxsiyyət, öz dövrünü qabaqlayaraq gözəl əsərlər yaradan bir insan yetişdirmişdir..."

Heydər Əliyev

Özət

Dastanlar xalqın arzu-istəklərinin, həyata baxışının və adət-ənənəsinin ən çox yer aldığı folklor örnəkləridir. Buradakı obrazlar da xalqın düşüncə tərzindən xəbər verir. Xalq dastanlarının süjeti hər zaman iki cəbhənin, xeyir ilə şərin mübarizəsi üzərində qurulur. Şər qüvvələrə nifrət, dastan qəhrəmanlarının süjet boyu onlara qarşı mübarizə aparması bir ənənə halını almışdır. Xeyrin təmsilçiləri adətən qayğıkeş xanlar, pay verən dərvişlər, fədakar analar, aşiq və məşuqələrdirsə, şərin təmsilçiləri pay alan dərvişlər, qara vəzirlər, qara keşişlər, hiyləgər keçəllər, əzazil xan, xotkar və şahlardır.

Dastan yaradıcılığı yazılı ədəbiyyata da sirayət etmişdir. Belə ki, Azərbaycan ədəbiyyatı tarixində dram və komediyanın təməlini qoyan Mirzə Fətəli Axundzadə öz komediyalarının mayasını sadə xalqdan, onun folklorundan götürmüşdür. Görkəmli ədib digər folklor nümunələri kimi xalq dastanlarından da yerli-yerində, əsərin məzmununa uyğun şəkildə yararlanmağı bacarmışdır. Onun zəngin dramaturji yaradıcılığında xalq dastanlarında yer alan məşhur obrazlar nəzərəçarpacaq dərəcədədir. M.F.Axundzadə xalq dastanlarındakı süjet xəttinə, buradakı obrazlar aləminə müraciət etsə də, real həyat hadisələrini, ictimai eyibləri təsvirdən də heç vaxt çəkinməmişdir. Bu xüsusiyyət sonrakı dövrlərdə yetişməkdə olan dramaturqlara da yaradıcılıqlarında düzgün istiqamət vermiş, onlara doğru yolda irəliləməyi təlqin etmişdir.

Açar sözlər: M.F.Axundzadə, dramaturgiya, xalq dastanları, obrazlar aləmi

Summary

Epics are examples of folklore where people's wishes, outlook on life and traditions are the most prominent. The expressions here also indicate the way of thinking of the people. The plot of folk epics is always based on the struggle of two fronts, good and evil. It has become a tradition for the heroes of the epic to hate evil forces and fight against them throughout the plot. The representatives of good are usually caring khans, share-giving dervishes, self-sacrificing mothers, lovers and mistresses, while the representatives of evil are share-taking dervishes, black viziers, black priests, cunning bald men, cruel khans, khotkars and shahs.

The creation of epics has also spread to written literature. Thus, Mirza Fatali Akhundzade, who laid the foundation of drama and comedy in the history of Azerbaijani literature, took the base of his comedies from the common people and their folklore. Like other examples of folklore, the famous writer managed to make use of folk epics locally, in accordance with the content of the work. In his rich dramaturgical creation, famous characters from folk epics are noticeable. Although M.F.Akhundzade referred to the plot line of folk epics and the world of images here, he never shied away from describing real life events and social flaws. This feature also gave the right direction to the creativity of playwrights who were growing up in later timesand inspired them to move forward on the right path.

Keywords: M.F.Akhundzade, dramaturgy, folk epics, world of images

Xalq dastanlarının süjeti hər zaman iki cəbhənin, xeyir ilə şərin mübarizəsi üzərində qurulur. Şər qüvvələrə nifrət, dastan qəhrəmanlarının onlara qarşı mübarizə aparması bir ənənə halını almışdır. Xeyrin təmsilçiləri adətən qaygıkeş xanlar, pay verən dərvişlər, fədakar analar, aşiq və məşuqələrdirsə, şərin təmsilçiləri pay alan dərvişlər, qara vəzirlər, qara keşişlər, hiyləgər keçəllər, əzazil xan, xotkar və şahlardır. Göründüyü kimi, dastanlarda dərviş obrazları həm müsbət, həm də mənfi xüsusiyyətlərə malikdirlər. Məlum olduğu üzrə Dərvişlik təliminin əsasını, mistik ekstaz yolu ilə insanın Allahla şəxsi ünsiyyət tapması ideyası təşkil edir. Xalq nağıllarında, xüsusən də dastanlarda dərviş surətlərinə çox rast gəlinir. Adətən dastanların əvvəlində iştirak edən dərviş obrazları iki yerə bölünür: pay verən və pay alan. Pay verən dərvişlər övladı olmayanlara övlad, xöşbəxtlik bəxş edir. Digər kateqoriyaya aid dərvişlər isə pay alır və öz mənafeləri üçün çalışırlar. Nəsrəddin Tusi kimi böyük mütəfəkkir alim, dərvişlər haqqında müsbət fikirdə olmamışdır. İnsanları bəy, tacir, sənətkar və əkinçi kimi zümrələrə bölən N.Tusi dərvişləri həmin dörd zümrənin heç birinə aid etmir, onları cəmiyyətdə yeri olmayan, artıq adam hesab edirdi (7, 71). Xalq dastanlarında epizodik şəkildə görünən dərviş surətləri yazılı ədəbiyyat nümunələrində bəzən əsərin əsas qəhrəmanına çevrilə bilir.

Azərbaycan ədəbiyyatı tarixində dram və komediyanın təməlini qoyan Mirzə Fətəli Axundzadə öz komediyalarının mayasını sadə xalqdan, onun folklorundan götürmüşdür. Görkəmli ədib digər folklor nümunələri kimi xalq dastanlarından da yerli-yerində, əsərin məzmununa uyğun şəkildə yararlanmağı bacarmışdır.. Onun zəngin dramaturji yaradıcılığında xalq dastanlarından keçid edən obrazlar nəzərəçarpacaq dərəcədədir. Belə obrazların içərisində dərviş obrazları da vardır. Məlum olduğu üzrə nağıllarda, dastanlarda təsvir edilən dərvişlər xarici görünüşləri ilə deyil, adətən əməlləri ilə yadda qalırlar. M.F.Axundzadə pyeslərində yer alan dərviş obrazları isə səhnəyə gəldiyi ilk andan geyim tərzi, hərəkətləri ilə oxucuda müəyyən rəy yaradırlar. Müəllif remarkada tipin xarici görünüşünü verməklə onun daxili aləmini açmağa müvəffəq olur. Oxucuda obraz haqqında yaranan qənaət əsərin süjet xəttində də özünü doğruldur. M.F.Axundzadə hər bir xırda detala qədər peşəkarcasına təsvir etməklə tipin portretini yaradır. "Hekayəti-Molla İbrahimxəlil kimyagər"dəki Dərviş Abbasın səhnəyə gəlişi, hərəkətləri bunu deməyə əsas verir: "Bu halda dərviş Abbas, sinni otuz, saçları çiyninə tökülmüş, gəndümgün, qırmasaqqal, dolu bığlı, uca qamətli, başında tac, çiynində pələng dərisi, əlində şahnəfir, qoltuğunda bir qırmızı böyük xoruz öz mənzilindən çıxıb səs ilə "ya hu, ya həqq" deyib çadırların yuxarı səmtinə üz qoyub, bir münasib yerdə mıx çalıb, üç kərə şahnəfiri bozluyub, dağa-daşa səs salıb, xoruzu mıxa bağlayıb, Şeyx Sədinin əşarından bu üş fərdi xoş avaz ilə oxuyur..." (2, 32).

Görkəmli ədəbiyyatşünas Əli Sultanlının dediyi kimi, obrazların xarici görkəminin təsviri onun xarakterinin açılmasına çox kömək edir. Dərviş Abbas ikinci dərəcəli, epizodik surət olsa da, M.F.Axundzadənin təsviri nəticəsində yaddaqalan obraza çevrilir. Ədibin ilk pyesində dərviş epizodik mahiyyət daşısa da, "Hekayəti-müsyö Jordan, həkimi nəbatat və dərviş Məstəli şah, caduküni-məşhur" pyesində baş, əsas qəhrəmanlardan birinə çevrilir. Dərviş Məstəli şah pyesin dördüncü məclisində peyda olsa da aranı qatmağı bacarır. Ədibin digər səhnə əsərlərində olduğu kimi burada da tipin ifşası, əsl məramı öz dililə söylənilir. Qulaməli dərviş Məstəli şahın, avamların başına açacağı kələyi heç ağlına sığışdırmayıb, təəccüblə soruşur: "Qulaməli (fars dilində) – Bu saat, amma ağlıma sığmır ki, bu çətin iş düzələ, bilmirəm zarafat edirsən ya yox. Göz qırpınca Paris xarab olar, nə deməkdir?

Məstəli şah (gülümsənmiş) – A kişi, necə yəni, nə?! Əlan bu böyük xanım bu iş üçün mənə yüz dənə təzə bacaqlı verəcəkdir və on gün də cadunun əsər etməsi üçün vaxt var. Bir adam da bu sirri bilmir və bilməyəcək də. Bacaqları alandan sonra əl-ayaq açmamış, on günə qədər özümü Arazın o tayına sala bilmərəmmi? Məni orada kim tapacaqdır? (2, 55).

Əsər boyu yeniliyin köhnəliklə, cəhalətlə çarpışmasının, mübarizə aparmasının şahidi oluruq. Dərviş Məstəli şah oyanmaqda olan gəncliyə, müasirliyə qarşı çevrilən qüvvə kimi tərənnüm edilir. XIX əsrin ortalarında artıq ayılmağa başlayan, yeniliyə can atan, elm, əcnəbi dil öyrənmək arzusunda olan müasir Azərbaycan gəncliyinin təmsilçisi Şahbaz bəyə qarşı

qoyulur. Şahbaz bəyin ən ülvi arzusu olan Parisə getməyinə öz aləmində mane olmağa çalışır və təsadüf nəticəsində buna müvəffəq olur. Təsadüfən baş verən inqilab Məstəli şahı, onun yalançı əməllərini haqlı çıxardır.

M.F.Axundzadə digər əsərlərində olduğu kimi, burada da bir çox ictimai-siyasi məsələləri, açıq-aşkar söyləyə bilmədiyi mətləbləri, o cümlədən İran ordusundakı özbaşınalığı, dini əllərində bayraq edib, xalqa zülm edən şeyxlər və mollalar arasındakı təfriqəni, Araz çayı sahilində kondrabandaçılığın artmasını və s. mənfi tipin, – Dərviş Məstəli şahın dili ilə deyərək, ictimai quruluşu da tənqid atəşinə tutmağı yaddan çıxarmır: "…Pəh xanım, məgər mənim divlərim İran sərbazı idi ki, müftə qulluq edələr? Məgər mən vəzir Hacı Mirzə Ağası idim ki, onlara heç zad verməyəm, ancaq söyəm, qorxudam?..." (2, s.56).

Göründüyü kimi M.F.Axundzadənin ərsəyə gətirdiyi hər iki dərviş obrazı (Dərviş Abbas və Dərviş Məstəli şah) əslən iranlı olub, müftə qazanc əldə etmək üçün fırıldağa əl atırlar. Təəssüf ki, təhlil edilən dərviş obrazları sonda cəzasız qalır və özlərinə yeni ov axtarmağa baş vururlar. Hətta Şəhrəbanu xanım Məstəli şaha haqq da qazandırır: "Bəli, bundan sonra bu təəccüb deyil; təəccüb odur ki, kişilər həmişə bizə deyirlər: caduya, pitiyə inanmayın! Necə inanmamaq olur ki, adam gözü ilə belə işlər görür?" (2, 60). Bəlkə də müəllif bu sözlərlə, hərəkəti ilə Dərviş Məstəli şahı ittiham etməyi, müqəddəratını oxucusunun ixtiyarına buraxır, onları real həyatda fırıldaqçılara "yem" olmamağa səsləyir.

Müxtəlif dövrlərdə, dərvişliyə müxtəlif münasibətlər olmuşdur. Bu barədə akademik Muxtar Kazımoğlu belə yazır: "XIX əsr Azərbaycan mədəni mühitində dərvişliyə münasibət bir-birinə daban-dabana tarixi faktda özünü daha qabarıq büruzə verir: Bir sənətkarımız, – S.Ə.Nəbati dərvişlik edib və dərvişanə şeirlər yazıb; başqa bir sənətkarımız M.F.Axundzadə dərvişliyə qarşı çıxıb və bu yöndə ayrıca komediyalar yazıb. Folklordakı bədxah dərviş obrazları sübut edir ki, M.F.Axundzadənin dərvişlərə tənqidi münasibəti göydəndüşmə bir məsələ deyil. Nağıllarda olduğu kimi, xalq gülməcələrində də Məstəli şah kimi dərvişlərə çox rast gəlmək olar" (7, 40).

Akademik M.Kazımoğlunun dediyi kimi, M.F.Axundzadə komediyalarında Seyid Əbdülqasım Nəbati kimi xoşməramlı dərvişləri deyil, yalançı, fırıldaqçı, avamlar mülkünün sultanı olan Məstəli şah ("Hekayəti-müsyö Jordan, həkimi-nəbatat və dərviş Məstəli şah, caduküni-məşhur"), dərviş Abbas ("Hekayəti-Molla İbrahimxəlil kimyagər") kimi dərvişləri məsxərəyə qoyub, onları xalq içərisində ifşa etməyə müvəffəq olmuşdur.

Dastanlar xalqın arzu-istəklərinin, həyata baxışının və adət-ənənəsinin ən çox yer aldığı folklor örnəkləridir.Buradakı öbrazlar da xalqın düşüncə tərzindən xəbər verir. Əsərin süjet xəttində, hadisələrin müsbət və ya mənfi istiqamət almasında böyük rol oynayan bəy, xan, paşa, xotkar obrazları da məşhurdur. Bayandır xan, Qazan xan ("Kitabi-Dədə Qorqud"), Ziyad xan ("Əsli və Kərəm"), Alı xan ("Alı xan və Pəri") müsbət keyfiyyətlərilə se-

çilirsə, Şah Abbas (“Abbas və Gülgəz”), Həsən xan, Bolu bəy (“Koroğlu”) və s. mənfi xüsusiyyətlərilə yadda qalır. Bəzən mənfi, bəzən də müsbət şəkildə təsvir edilən bəy, xan obrazları yazılı ədəbiyyata da siraət etmişdir. Dastanlarımızdan gələn bu ənənəyə də M.F.Axundzadə biganə qala bilməmiş, iki pyesində bəy, xan obrazlarını yaratmışdır. “Hekayəti-müsyö Jordan, həkimi nəbatat və dərviş Məstəli şah, caduküni-məşhur” pyesindəki Hatəmxan ağa Təklə-Muğanlı obasının bəyidir. O, səhnəyə gəldiyi ilk andan oxucunun rəğbətini qazanır. Hatəmxan ağa bu xüsusiyyəti ilə Ziyad xanı (“Əsli və Kərəm”) xatırladır: “Nəql edirlər ki, keçmiş zamanlarda Gəncə şəhərində Ziyad adlı bir xan yaşayarmış. Onun çox gözəl xasiyyəti vatmış. Heç kəsi özündən incitməzmiş. Kimsənin haqqını kimsədə qoymazmış. Müxtəsəri rəiyyətini ədalətlə idarə edərmiş (5, 71).

Hatəmxan ağa da hər kəsə qayğı ilə yanaşır, verilən qərarlara hörmət bəsləyir. Qardaşı oğlu və böyük qızı Şərəfnisənin nişanlısı Şahbaz bəyin də Parisə getmək arzusunu anlayışla qarşılayır. Şəhrəbanu xanımın Paris səfərinə etiraz etdiyini gördükdə də təmkinini pozmamağa çalışır. Heç kəsin xətrinə dəyməmək üçün yollar axtarır. Şahbaz bəyin dəliqanlılığını, dünyanı gəzib-dolanmaq həvəsini nəzərə alaraq məsələni öz təbincə həll etməyə çalışır. Əsərin bu məqamında Hatəmxan ağanın dililə Şərqlə Qərbin təsviri də gözdən yayınmır: “Bu saat sənə qandırım, balam! Mənə yəqin hasil olubdur ki, bizdə hər adət və xasiyyət var isə, əksi Parij əhlindədir. Məsələn, biz əlimizə həna qoyarıq, firənglər qoymazlar; biz başımızı qırxarıq, onlar başlarına tük qoyarlar; biz papaqlı oturarıq, onlar başıaçıq oturarlar; biz başmaq geyərik, onlar çəkmə geyərlər; biz əlimiz ilə xörək yeyərik, onlar qaşıq ilə yeyərlər; biz aşkara peşkəş alarıq, onlar gizlin alırlar; biz hər zada inanarıq, onlar heç zada inanmazlar; bizim arvadlarımız gödək libas geyər, onların arvadları uzun libas; bizdə çox arvad almaq adətdir, Parijdə çox ər almaq” (2, 47). Dahi sənətkar M.F.Axundzadə bu təsvirilə Şərqlə Qərbin müqayisəsini verməyə çalışmış və nəticədə də maraqlı paralellər qarşıya çıxmışdır.

Hatəmxan ağanın əksinə olaraq Lənkəran xanı (“Sərgüzəşti-vəziri-xani-Lənkəran”) mənfi mahiyyət daşıyır. Ərizəçilərin şikayətlərinin dinlənildiyi səhnəki “A kişi, sən də get,vur bunun atının bir gözünü çıxart!”, “A kişi, get həkimə bir çuxa da ver, onu razı elə” və s. ədalətsiz qərarlar verməsi bu tipin xalqın mənafeyinə xor baxmağından irəli gəlir. Hadisələrin gedişatında xanın özündən müştəbeh olması da fikrimizdən yayınmır. M.F.Axundzadə tipin öz dililə bu məqamı çox gözəl açıqlayır: “Ax, xanlıq, səndən əzab dünyada nə var! Hər kəs ancaq öz əhli-əyalının qəmin çəkər, mən gərək min-min adamın qəmin çəkəm, dərdinə yetişəm. Əvvəl xanlığımdan bu günə qədər heç bir gün qapımdan ərizəçiləri rədd etməmişəm!” (2, 100).

Əsərdə guya mənfi obrazlara qarşı qoyulan xanın qadaşı oğlu Teymur ağanın sonda xan olmasını da dramaturq alqışlamır. Belə ki, Teymur ağanın xalqın mənafeyi uğrunda

deyil, öz şəxsi maraqları naminə mübarizəsi, təsadüf nəticəsində, Lənkəran xanının dəryada seyrə çaxarkən sularda qərq olmasından sonra taxta çıxması əsla müsbət qarşılanmır. Pyesdə təsvir olunan zülmkar xan təsadüf nəticəsində yox olur, yerinə Teymur ağa gəlir, lakin burada xalqın səsi, həyəcanı, istəyi əsas götürülmür. Çünki Teymur ağanın tərəfində dayananların hamısı ağalar və bəylərdir. Burada xalqa, zəhmətkeşlərə heç bir xeyirli cəhət görünmür, istismarçı xan digəri ilə əvəz edilir.

M.F.Axundzadə "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasında vəzir obrazını xalq dastanlarımızda çox təsadüf edilən məlum obrazına yönəldir. Mirzə Həbib mənfi olsa da, pyesin aparıcı obrazlarından biridir və hadisələr də onun ətrafinda cərəyan edir. O, səhnəyə ilk gəlişindən oxucuda ikrah hissi yaratmağı bacarır. Özündən rütbəcə yüksəklərin yanında pişiyə, tabeçiliyində olanların yanında isə şirə, pələngə dönməsi bu tipin əsas xüsusiyyətidir. Bu xüsusiyyət bizə müəyyən mənada dastanlarındakı Qara vəzir, Qara keşiş obrazlarını yada salır: "Nəzərə alınmalıdır ki, "qara", "qaranlıq" xalq təfəkküründə mənfilik, zərərli qüvvələr timsalı hesab olunur: qara gün, qara bulud, qara yara və s. Dastanlarda da bu mənaya işarələr vardır. Məsələn, "Əsli və Kərəm" dastanında Kərəm deyir:

Keşiş qabağımda bir qara duman,
Çağırram mövlanı, halımdı yaman.

Maraqlıdır ki, dastan və nağıllarımızda, bir qayda olaraq, qara vəzirlər mənfi surət kimi təsvir və təsəvvür edilir" (1, 86-87).

"Abbas və Gülgəz", "Qurbani" və s. dastanlardakı Qara Vəzir kimi, "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasındakı Mirzə Həbibin də ilk süjetdə əsl siması üzə çıxır. Çünki bu mənfi tiplərin məzhəbi, amalı eynidir: xanla yaxın qohum olub, mənafelərini daha da möhkəmlətmək. "Qurbani" dastanında Qara Vəzir Pəri xanımı öğluna almaq üçün dəridən-qabıqdan çıxır, hətta bu çirkin oyuna başqalarını da alət edir. Qara Vəzirin qızı Nigara "Ay qız, dəli olma! Bəs qardaşın? Bəlkə mən öləm, o Pəri xanıma sahib ola" deməsi bu mənfi tipin iç üzünü bir daha açır.

"Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasında Mirzə Həbib də cavan baldızını Xana vermək arzusu ilə yaşayır və nəyin bahasına olursa olsun, bu əməli həyata keçirmək istəyir. Yaltaqlıq, qorxaqlıq və özündən müştəbehlik bu tipin xarakterk xüsusiyyətlərindəndir. Mirzə Həbibin ikiüzlülüyü nəinki xanın, fərraşların simasında, hətta ailə çərçivəsində də özünü göstərir. M.F.Axundzadə əsərin əvvəlində vəzirin xəsisliyini və riyakarlığını Hacı Salaha Şölə xanıma nimtənə sifariş etmə səhnəsində çox peşəkarcasına təsvir edir: "...Əzizim, mətləb budur ki, Novruz bayramına iki ay qalıbdır. Mən istəyirəm ki, bayramda bir qəribə nimtənə Şölə xanıma bağışlayım. Əgər onu burda tikdirsəm, Ziba xanım da bir eləsini istəyəcək. Ona da tikdirsəm, izafə xərcdir, çünki ona yaraşmaz. Tikdirməsəm, baş ağrısından, qalmaqaldan xilas olmayacağam!" (2, 88).

Mirzə Həbibin növbəti mənfi xüsusiyyəti, ayağına xəlbir dəyərkən, fərraşları tənbeh etdiyi süjetdə ortaya çıxır. Burada o, sözün əsl mənasında "milçəkdən fil düzəltməyi" bacarır və bütün hikkəsini fərraşlarının üzərinə tökür: "Dayanın! Ağa Bəşir, sənin təqsirin budur ki, bu qapıda qulluq edənlərin vəzifəsini onlara tanıtmayıbsan! Bu qapıda qulluq edənlər hamı sənin ixtiyarındadır. Gərək sən hər kəsin yerini, işini ona bildirəsən. Mehtər gərək tövlədən başqa özgə yerə ayaq basmasın; xəlbir gərək heç vaxt mənim otağıma düşməsin" (2, 91). Mirzə Həbibin qorxaqlığı Teymur ağa ilə olan səhnələrdə daha çox görünür.

Dastanlarda yer alan qarı obrazları da çox məşhurdur. Məlum olduğu üzrə qarı obrazları ipək qarı və köpək qarı olaraq iki yerə bölünürlər. M.F.Axundzadə komediyalarının süjet xəttində ən çox dastanlardakı köpək qarılara bənzər obrazlara üstünlük vermişdir ki, bu həm də aradüzəldən qadınlara inamın tənqidi ilə də izah oluna bilər. Məsələn,"Hekayəti-müsyö Jordan, həkimi nəbatat və dərviş Məstəli şah, caduküni-məşhur" komediyasında Xanpəri belə obrazlardandır. Xanpəri cəhalətin təmsilçisi olub, xanımları fırıldaçqıların toruna düşürməyi bacarır. O, cadunun gücündən ağızdolusu danışıb, sadəlövh xanımları bir növ oyuna gətirir. Diqqət etsək görərik ki, xalq dastanlarındakı cadugərlər, köpək qarılar sonda cəzasına çatır, ən azından kələklərinin üstü açılır. Lakin M.F.Axundzadə dramaturgiyasında belə deyildir. Xanpəri sonda əsl simasını öz dililə ifşa edir. Əsərin Xanpəri obrazının bu sözləri ilə başa çatması da təsadüfi deyildir. Görkəmli ədib oxucunun mühakiməsini ictimai mühitə çevirir. Cümləni sual şəklində qoymaqla xalqını düşünməyə, fırıldaqçı cadugərlərə, hiyləgər və aradüzəldən qadınlara uymamağa çağırır: "Eh, xanım, kişilərin əgər ağlı var, niyə biz onları hər qədəmdə min yol aldadırıq, öz bildiyimizi edirik?" (2, 60).

Digər aradüzəldən obrazına "Hekayəti-xırsi-quldurbasan" dramında rast gəlinir. Zalxa Xanpəridən qəddardır və səhnədə daha çox görünür. Bu tip bizə müəyyən mənada "Abbas və Gülgəz" dastanındakı qarını da xatırladır. Belə ki, dastanda adıkeçən obraz Qara Vəzirin tapşırığı ilə iki aşiqin, Abbasla Gülğəzin arasını vurmağa çalışır. Elə ilk andan qarının məkrli siyasəti, yalandan Abbasa Pərinin gözlərinin kor, ayağının topal və dilinin lal olduğunu söylədiyi süjetdə bəlli olur. Qarı Abbasın ona inanmadığını gördükdə sözünü dəyişib "Oğul mən sənə pis demədim. Dedim ki, Pəri xanımın gözləri kordu, yəni naməhrəmə baxmır. Dili laldı, yəni danışmır, söz gəzdirmir. Ayağı topaldı, yəni sarsaq-sarsaq gəzmir. Burda pis nə var ki?" (5, 277) deməsi bu tipin ikiüzlülüyündən xəbər verir. Lakin Abbas Haqq aşığı olduğu, aşıqlıq istedadını yuxuda Haqq tərəfindən aldığı üçün bütün sınaqlardan keçməyi bacarır və sonda da vüsala çatır.

Eynilə Zalxa da ("Hekayəti-xırsi-quldurbasan") Bayramın ona xələt verəcəyindən şirniklənib Tarverdini oyuna gətirmək üçün planlar qurur. Onun Bayrama "A kişi, oğul sənin kimi olmaq gərək! Sənin qadan dəysin Tarverdinin böyrəyinə. Ömrümdə onun əlindən mən bir çürük alma da almamışam... (7,65) deməsi bu tipin daxili aləmini açır. Peşkəş xatirinə

Tarverdini quldurluğa göndərmək üçün şirin dilini işə salır, Pərzadın adından ona yalanlar söyləyir. Nəticədə iki qorxaq, Tarverdi və Fok üz-üzə gəlir, gülünc mənzərə yaranır.

M.F.Axundzadə aradüzəldən Zalxanın dililə dövrün mənzərəsini də verməyi unutmur və hər zaman olduğu kimi, onu əsərin süjetinə uyğun, peşəkarcasına edir: "Vallah, əgər Tarverdi mənim sözlərimdən quldurluğa getsə, biçarənin heç təqsiri yoxdur. O neyləsin ki, bu viran olmuş ölkənin qızları quldurluq, oğurluq bacarmayanı sevmirlər. Divanbəyinə deyən gərək ki, biçarə gədələri niyə oğurluqdan. quldurluqdan ötrü incidirsən? Bacarırsan ölkəmizin qızlarına qadağan elə ki, quldur olmayan oğlanlardan zəhlələri getməsin. Onda mən zamin ki, qurd qoyunla otlaya!" (2, 66).

Aşiq və məşuqə obrazları isə M.F.Axundzadə komediyaları üçün xarakterik deyildir. Sözsüz ki, bu xüsusiyyət ədibin hadisələrə real münasibətindən irəli gəlirdi. Bu xüsusda görkəmli ədəbiyyatşünas Ə.Sultanlı belə yazır: "Deməli, keçmiş Şərq həyatı üçün tipik olan Leyli və Məcnun münasibətləri artıq pozulmuşdur. İstər Şərq əfsanələri ilə bağlı folklor əsərlərinin, istərsə də klassik şeirin bir çox nümunələri üçün xarakterik olan məsələ artıq aradan götürülməkdədir; gənc surətlərin eşq əzabı ilə göz yaşı axıtmaları, tez-tez özlərindən getmələri, həyatı ancaq eşqdə, ehtiraslı sevgidə görmələri kimi sabitləşmiş münasibətlər əsaslı surətdə zəifləmiş, XIX əsrin yeni mənəvi sifətlərə malik gəncliyi yetişmişdir" (8, 99).

Xalq dastanlarına yaxınlıq M.F.Axundzadə dramaturgiyasında obrazlarla yanaşı, süjetdə də özünü biruzə verir. Məsələn, "Hacı Qara" pyesinin qəhrəmanı Heydər bəy birinci pərdədə keçmiş günləri həsrətlə yada salıb, əvvəllər göstərdiyi "igidliklərlə" öyünür. Mənfi keyfiyyətləri olsa da, bu tipin xarici görkəmi müəllif tərəfindən boy-buxunlu, əzəmətli təsvir edilmişdir. Göründüyü kimi, Heydər bəyin daxili aləmi və xarici görünüşü arasındakı müqayisə ziddiyyət təşkil edir. Bu təzad, Koroğlu dəlilərinin obrazını xatırlatması da müəllifin peşəkarlığından irəli gəlir. M.F.Axundzadə həm də sözügedən süjetdə mənfur erməni xalqının qorxaqlığını da vurğulamağı unutmamışdır. Belə ki, Ohanın köməkçisi Sərkis, Heydər bəyi hələ uzaqdan görəndə təşvişə düşür. Heydər bəyin əzəmətli və pəhləvan cüssəli olduğunu M.F.Axundzadə erməni Sərkisin dili ilə belə verir: "…Yüzbaşı, evinə od düşsün, qaçaqçılar gəlirlər! Amma qabaqlarınca bir ucaboylu, qıvraq geyinmiş, yaraqlı-əsbablı oğlan gəlir ki, çox heybətlidir, gözlərindən qan damır… Hamısı üç adam nəzərə gəldi, amma o bir oğlan heç birisinə bənzəməz" (2, 124-125).

M.F.Axundzadə komediyada işlətdiyi bu ifadələr təsadüfi deyildir. Bu süjet eynilə qəhrəmanlıq dastanımız olan "Koroğlu" eposunu yada salır. Belə ki, bu məşhur ifadə "Koroğlu" dastanının "Koroğlu və Dəli Həsən" qolunda rast gəlinir: "... Günlərin bir günü Koroğlu Qırata minib, Çənlibelin ətəyindəki yola çıxmışdı. Bir də baxdı ki, budur, bir dəstə yaraqlı-yasaqlı atlı gəlir. Amma atlıların qabağında bir oğlan gəlir, bir oğlan gəlir ki, dünyalara dəyər. Üzündən, gözündən igidlik yağır" (3, s.18).

Göründüyü kimi, M.F.Axundzadə xalq dastanlarımızdan yararlanmağı bacarmış, bunu əsərin süjetinə, məzmununa uyğun tərzdə etmişdir. Xalq dastanlarında yer alan obrazlara, süjet xəttinə müraciət etsə də, real həyat hadisələrini, ictimai eyibləri təsvirdən də heç vaxt çəkinməmişdir. Bu xüsusiyyət sonrakı dövrlərdə yetişməkdə olan dramaturqlara da yaradıcılıqlarında düzgün istiqamət vermiş, onlara doğru yolda irəliləməyi təlqin etmişdir.

QAYNAQLAR:

1. Adilov M. Niyə belə deyirik. Bakı:Azərbaycan Dövlət Nəşriyyatı,1982, 241 s.
2. Axundzadə M.F. Bədii və ədəbi-tənqidi əsərləri. Bakı: Çaşıoğlu, 2004, 280 s.
3. Allahverdiyev M. Azərbaycan xalq teatrı tarixi. Bakı: Maarif, 1978, 236 s.
4. Azərbaycan dastanları. 5 cilddə, IV cild. Bakı: Lider, 2005, 464 s.
5. Azərbaycan məhəbbət dastanları. Bakı: Elm, 1979, 504 s.
6. Dərviş. Azərbaycan Ensiklopediyası. 10 cilddə, III cild. Baş redaksiya heyəti: M.H.Abdullayev, H.B.Abdullayev, M.H.Abutalıbov və b. Bakı: ASE-nin Baş redaksiyası, 1980, s. 419.
7. Kazımoğlu M.İ. Xalq gülüşünün poetikası. Bakı: Elm, 2006, 266 s.
8. Sultanlı Ə. Azərbaycan dramaturgiyasının inkişafı tarixi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1964, 302 s.

“KİTABİ-DƏDƏ QORQUD”DAKI NƏSR PARÇALARINDA RİTM VƏ İNTONASİYANIN ROLU

THE ROLE OF RHYTHM AND INTONATION IN PROSE PIECES IN “BOOK OF DEDE GORGUD”

Aygül QURBANOVA
AMEA Folklor İnstitutu,
aygul.qurbanova89@mail.ru

“Kitabi-Dədə Qorqud” tariximizin, etnik yaddaşımızın, arxaik təfəkkürümüzün güzgüsüdür”.

Heydər Əliyev

Özət

“Dədə Qorqud” mətninin ritmikləşdirilməsində, emosional təsir gücünün artırılmasında ritm və intonasiyanın xüsusi rolu vardır. Dastanda şifahi nitqin ritmini mətndən belə duymaq olur. Ritm yaradan vasitələr (oxşar komponentlərin, səslərin, sözlərin, sintaktik bütövlərin təkrarı) dastandakı nəzm parçalarında, əsasən də “soylama”larda daha qanunauyğun şəkildə özünü büruzə verir, nəsrdə isə ritm yaradan vasitələr nisbətən sərbəst xarakterə malik olur. Lakin bununla belə, nəsr parçalarındakı səslərin, sözlərin, qrammatik forma və konstruksiyaların yaratdığı ritm müəyyən bir nizama tabe olur, eyni zamanda məzmunla da yaxından bağlanır.

Nəsr parçalarındakı lakonizm, ardıcıl sadalanan cümlə konstruksiyaları və cümlə üzvləri, vurğu, pauza kimi elementlər də ritmin əsas təşkiledici ünsürlərindəndir.

Mətnin ritmik səsləndirilməsi intonasiya vasitəsilə mümkün olur. Dastan qəhrəmanlarının nitqində intonasiyanın yaratdığı emosionallıq mətnə xüsusi bir ekspressivlik qatır. İntonasiya vasitəsilə cümlələrdə dəyişilən səs tonu və səs tempinin müntəzəm şəkildə artıb-azalmasını mətndən belə duymaq olur. Quru mətndən belə bariz şəkildə duyulan intonasiyaya məxsus bu keyfiyyətlərin şifahi nitqdə daha canlı və rəngarəng təsir gücünə malik olmasına heç bir şübhə yoxdur.

Açar sözlər: nəsr, ritm, intonasiya, mətn, ardıcıllıq, lakonizm

Summary

Rhythm and intonation have a special role in the rhythmicization of the “Dede Gorgud” text and in increasing the emotional impact. In the epic, the rhythm of oral speech

can be heard from the text. Rhythm-creating devices (repetition of similar components, sounds, words, syntactic units) manifest themselves in a more regular way in the verses of the epic, mainly in "strips", while in prose, the rhythm-creating devices have a relatively free character. However, the rhythm created by sounds, words, grammatical forms and constructions in prose pieces obeys a certain order, and at the same time is closely connected with the content and does not have an extratextual character.

Laconism in prose pieces, sequentially listed sentence constructions and sentence members, elements such as emphasis and pause are also among the main organizing elements of rhythm.

Rhythmic sounding of the text is possible through intonation. The emotionality created by the intonation in the speech of the heroes of the epic adds a special expressiveness to the text. This is how you can hear the regular increase and decrease of voice tone and voice tempo in sentences through intonation. There is no doubt that these qualities of intonation, which are so clearly heard in dry text, have a more vivid and colorful impact in oral speech.

Keywords: prose, rhythm, intonation, text, sequence, laconism

Dədə Qorqud” mətninin ritmikləşdirilməsində, emosional təsir gücünün artırılmasında ritm və intonasiyanın xüsusi rolu vardır. *“Ritm (qədim yunan sözü olub, mənası “ahəng”, “uyğunluq” deməkdir) – eyni bir hadisənin müxtəlif tərkib hissələrinin müəyyən bir zaman çərçivəsində ahəngdar şəkildə təkrarlanmasıdır. Başqa sözlə, ritm sözün və ya səsin proporsional şəkildə təkrarlanmasıdır”* (6). Ritm “Kitabi-Dədə Qorqud”da ümumilikdə mətnin əsas təşkiledici qüvvəsi kimi çıxış edir. İfadənin emosional təsirini qüvvətləndirən vasitələrdən biri kimi ritm bədii mətndə əsas rol oynayır: *“Bu emosionallıq isə bəzən o qədər qüvvətli olur ki, sözün, ifadənin məfhumu mənası yada düşmür. Yalnız emosional-ekspressiv çalarlıq özünü göstərir. Başqa sözlə, kommunikativ funksiyadan məhrum olan ünsür yalnız emosionallıq xatirinə dildə qala bilir. Bu yerdə ritmin rolu az deyildir”* (1, s. 311).

Dastanda şifahi nitqin ritmini mətndən belə duymaq olur. Ritm yaradan vasitələr (oxşar komponentlərin, səslərin, sözlərin, sintaktik bütövlərin təkrarı) dastandakı nəzm parçalarında, əsasən də “soylama”larda daha qanunauyğun şəkildə özünü büruzə verir, nəsrdə isə ritm yaradan vasitələr nisbətən sərbəst xarakterə malik olur. Lakin bununla belə, nəsr parçalarındakı səslərin, sözlərin, qrammatik forma və konstruksiyaların yaratdığı ritm *“bədii mündəricənin hərəkətverici qüvvəsi”* kimi (2, s. 166) müəyyən bir nizama tabe olur, eyni zamanda məzmunla da yaxından bağlanır, mətndənkənar xarakter daşımır.

“Dədə Qorqud”da ritm yaradan vasitələr dilin yarusları üzrədir: fonetik, leksik, morfoloji, sintaktik. Və hər bir yarusun elementləri o biri yarusların vahidləri ilə dialektik əlaqədədir. Bu baxımdan təkrarların rolu aparıcıdır” (7, s. 16). Fikrimizə aydınlıq gətirmək üçün Dastan mətninə müraciət edək:

“Ol gün cigərində olan ər yigitlər bəlürdi. Ol gün müxənnətlər sapa yer gözətdi. Ol

gün bir qiyamət savaş oldı, meydan dolu baş oldu. Başlar kəsildi top kibi. Şahbaz-şahbaz atlar yügürdi, nalı düşdi. Ala-ala göndərlər süsildi. Qara polat uz qılıclar çalındı, yalmanı düşdi. Üç yeləkli qayın oqlar atıldı, dəmrəni düşdi" (5, s. 50). Bu parçadakı poetik təkrarlar ritm yaradan əsas vasitələrdir.

Nəsr parçalarındakı lakonizm, ardıcıl sadalanan cümlə konstruksiyaları və cümlə üzvləri, vurğu, pauza kimi elementlər də ritmin əsas təşkiledici ünsürlərindəndir. Məsələn, *"Qam Ğan oğlı xan Bayındır yerindən durmışdı. Qara yeriñ üstinə ağ ban evin dikdirmişdi. Ala sayvan gög yüzinə aşanmışdı. Biñ yerdə ipək xalıcası döşənmişdi. İç Oğuz, Daş Oğuz bəgləri Bayındır xanıñ söhbətinə dərilmişdi"* (5, s. 52). Bu parçada ardıcıl cümlə konstruksiyalarının, bu cümlələrin hərəkətverici qüvvəsini təşkil edən feillərin yaratdığı ritm göz qabağındadır.

Ümumiyyyətlə, Dastanda feillərin daha çox işlədilməsi, cümlələrin sintaktik paralelizm əsasında qurulması, ardıcıl və təkrarlanan hərəkət semantikası əsas ritm yaradan vasitələrdəndir. Məsələn, *"Babasıyla Yegnək gizlü yaqa tutuban yiləşdilər. İki həsrət bir-birinə buluşdılar; issüz yeriñ qurdı kibi ulaşdılar"* (5, s. 124); *"Ox atdılar, batmadı. Qılıc urdılar, kəsmədi. Sügüylə sancdılar, ilmədi"* (5, s. 126); *"Gürzlə dögişdilər, qara polad uz qılıc ilə dartışdılar, sərpə-sərpə meydanda qılıclaşdılar, çiginləri doğrandı, qılıcları avandı, bir-birin alımadı"* (5, s. 142); *"Qarşu yatan qara dağdan oğlana yaylaq verdi. Qaraqucı yügrək atdan təvlə verdi. Ağca yüzlü oğlına ağca qoyun şülən verdi. Ala gözlü oğlına al duvaxlu gəlin aldı. Ağ alınlu Bayındır xana pəncik çıqardı. Oğlın aldı, Bayındır xanıñ divanına vardı"* (5, s. 143); *"Şökli Məliki bögürdübəni Qazan bəg atdan yerə saldı. Qara Təküri Dəli Dondar qılıcladı, yerə saldı. Qara Arslan Məliki Qarabudaq yerə saldı"* (5, s. 77). Bu tipli cümlələrdə ritm yaradan vasitələr məhz sintaktik paralelizm, feillərin çox işlənməsi, təkrarlanan hərəkət semantikasıdır.

Ritm sayəsində *"dil ünsürlərinin simmetrik quruluşu formalaşır, mətni təşkil edən linqvistik materiallar ahəngdar konstruksiyaya, simmetrik nizama nail olur"* (2, s. 164-165). Məsələn, *"Köpək Qazanıñ atınıñ ayağına çap-çap düşər, siñ-siñ siñlər"* (5, s. 42); *"Baybörəniñ oğlı beş yaşına girdi, beş yaşından on yaşına girdi... On yaşından on beş yaşına girdi... Çaya baqsa çalımlu, çal qaraquş ərdəmlü, bir gözəl yaxşı yigit oldı"* (5, s. 53); *"Qızlar keyiki götürdilər. Gözəllər şahı Banıçiçəgiñ öñinə gətürdilər"* (5, s. 56); *"Qarvaşdılar. İki pəhləvan olub, bir-birinə sarmaşdılar"* (5, s. 56); *"Boyı boyına, beli belinə, qolı qolına yaqışdı"* (5, s. 69); *"Atından endi, arı sudan abdəst aldı. Ağ alnın yerə qodı, iki rikət namaz qıldı. Adı görklü Məhəmmədi yad gətürdi. Qara dinlü kafirə göz qarartdı. Hayqırdı, at saldı. Qarşu vardı, qılıc urdı"* (5, s. 83); *"Oğlanıñ üzərinə düşdilər, tutdılar. Qarusından ağ əllərin bağladılar. Qıl orqan ağ boynına taqdılar. Yüzi üzərinə saluban sürdilər. Ağ ətindən qan çıqınca dögdilər. "Baba" deyü ağlatdılar, "ana" deyü bozlatdılar"* (5, s. 84). Dastandan

misal gətirdiyimiz bu cümlələrdə oxşar komponentlərin yaratdığı simmetrik nizam, cümlələrin strukturundan doğan lakonizm və pauza həmin cümlələrə spesifik bir ahəng verir.

"Anası oğlanın böylə digəc Qazanıñ aqlı başından getdi; qara bağrı sarsıldı, düm yürəgi oynadı. Qaranñulı gözləri qan-yaş doldı" (5, s. 87); *"Aq çadır dikdilər, ala qalı döşədilər, ağca qoyun qırdılar, yedi yıllıq al şərab içürdilər"* (5, s. 107); *"Qara qanı şorladı. Qara sığırı soqmanı dolu qan oldı. Qara başı buñaldı, buñlu oldı"* (5, s. 123); *"Qara-qara dağlardan xəbər aşdı. Qanlu-qanlu sulardan xəbər keçdi. Qalın Oğuz ellərinə xəbər vardı"* (5, s. 146) kimi cümlələrdə isə ritm yaradan vasitələr ardıcıl sadalanan və eyni sözün təkrarından yaranan təyinlərdir. Bu tipli cümlələrdə ardıcıl sadalanan cümlə üzvlərinin və lakonikliyin yaratdığı *"ritmik puls"* da (3, s. 39) ahəngdar bir nizama tabe olur.

Yuxarıda qeyd etdiyimiz kimi, "Kitabi-Dədə Qorqud"dakı dialoqlar yalnız "soylama"lardan ibarət deyildir, hər bir boyda dastan qəhrəmanlarının bir-birilərinə nəsrlə müraciətləri də verilir. Daha çox ritmik nəsrdən ibarət olan həmin müraciətlərdə ritmin əsas təşkiledici qüvvələri kimi səslərin, sözlərin, qrammatik forma və konsruksiyaların təkrarı "soylama"larda olduğu qədər ardıcıl xarakter daşımasa da, müəyyən bir simmetrik nizama tabedir. Adi nəsrdən fərqli olaraq, dastan qəhrəmanlarının müraciətlərinin verildiyi ritmik nəsr parçalarında pərakəndəlik hökm sürmür. Ritmik nəsr sanki nəzmlə nəsrin sərhəddində mövqe tutur, yəni ritmik nəsr adlandırdığımız parçalarda həm nəzmə məxsus əlamət və keyfiyyətlər, həm də təhkiyəyə məxsus xüsusiyyətlər biri-birinə qovuşur. Dastan mətninə müraciət edək:

"Biz səniñ oğluñı necə gətürəlim? Səniñ oğluñ bizim sözümüz almaz, bizim sözümüzlə gəlməz. Qalqubanı yerindən uru durğıl, yigitləriñ oxşağıl, boyıña alğıl, oğluña uğrağıl, yanıña alub, ava çıqğıl; quş uçurub, av avlayub, oğluñı oxlayub, öldürə görgil! Əgər böylə öldürməzsəñ bir dürlü dəxi öldüriməzsən, bəllü bilgil!" (5, s. 28). Dastandan misal gətirdiyimiz bu parça struktur baxımından "soylama"nı xatırlatsa da, həmin parçada *-ıb* feli bağlama şəkilçisinin və *-sə* şərt şəkilçisinin işlənməsinə əsasən deyə bilərik ki, həmin parça nəsr nümunəsidir və burada ardıcıl hərəkət semantikası, oxşar komponentlərin bir-birini izləməsi ritm yaradan əsas vasitələrdəndir. Dastanda bu tipli nümunələr kifayət qədərdir, bunların hamısını biz ritmik nəsrə aid etməyi məqsədəuyğun bilirik. Dastandan daha bir neçə nümunəyə nəzər salaq:

"Baba, maña bir qız alı ver kim, mən yerimdən durmadın ol durgəc gərək! Mən qarağuc atıma binmədin ol binmax gərək! Mən qırıma varmadın ol maña baş gətürmək gərək! Bunuñ kibi qız alı ver, baba, maña" – dedi" (5, s. 57); "*Biñ buğra gətürüñ kim, maya görməmiş ola. Biñ dəxi ayğır gətürüñ kim, heç qısrağa aşmamış ola. Biñ dəxi qoyun görməmiş qoç gətürüñ. Biñ də quyruqsuz-qulaqsız köpək gətürüñ. Biñ dəxi bürə gətürüñ, maña", dedi"* (5, s. 59). Bu parçalarda da ritm yaradan əsas vasitələr təkrarlardır. Eyni sözlərin təkrarı

həmin parçaları “soylama”lara yaxınlaşdırsa da, budaq cümlələrin iştirakı belə nümunələrin nəsr parçası olduğunu göstərir.

Mətnin ritmik səsləndirilməsi intonasiya vasitəsilə mümkün olur. *“İntonasiya – nitqin ahəngi (səsin yüksəlməsi və ya alçalması), ritmi (vurğulu və vurğusuz hecaların nisbəti, əlaqəsi), nitqin tempi və ya sürəti (sürətlə və yavaş tələffüzü), intensivliyi (nəfəsalmanın güclənməsi və ya zəifləməsi), məntiqi vurğusu, tembri kimi hadisələrin məcmusuna deyilir.*

İntonasiya danışanın məqsədi, istək və arzuları ilə əlaqədar olduğundan modallıq bildirir. Onun vasitəsilə məlumat vermə, sual və əmr intonasiyalarını fərqləndirirlər” (4).

“Dədə Qorqud”dakı cümlələrin intonasiyası ayrı-ayrı fonetik faktorların köməyi ilə sintaktik vahidlərin semantik aləminin açılmasına yardım edir; nida, əmr, nəqli, sual cümlələri mətnin ekspressiv və emosional keyfiyyətini qat-qat artırmış olur” (8, s. 20). Dastan mətninə müraciət edək:

“Dirsə xan, görirmisin oğlanı, yazıda-yabanda keyiki qovar, səniñ öñüñə gətürər. Keyikə atarkən oqla səni urar öldürər. Oğluñ səni öldürmədin sən oğluñı öldüri görgilə!” (5, s. 30); *“Oğluñ sağdır-əsəndir, avdadır: bu gün-yarın qanda isə, gəlür; qorqma-qayırma, bəg sərxoşdur, cavab verəməz”* (5, s. 31); *“Gəlüñ, Dirsə xanı tutalım, ağ əllərin ardına bağlayalım, qıl sicim ağ boynına taqalım, alubanı kafir ellərinə yönələlim”* (5, s. 33); *“Mərə çoban! Qarnıñ açıqmamışkən, gözüñ qararmamış ikən bu ağacı qoparı gör, yoxsa səni bunda qurtlar-quşlar yer”* (5, s. 44); *“Mərə varıñ, Qazanıñ oğlı Uruzı dartıñ, çəngələ asuñ. Qara-qıyma ağ ətindən çəküñ, qara qavurma bişürüb, qırq bəg qızına ilətün; hər kim yedi, ol degil; hər kim yemədi, oldur. Aluñ gəlüñ, sağraq sürsün!”* (5, s. 44); *“Yüz adam seçilüñ, taraqa çatladıñ, oğlanı qorquduñ”* (5, s. 140). Dastan qəhrəmanlarının nitqinə aid olan bu cümlələrdə intonasiyanın yaratdığı emosionallıq və ekspressivlik mətnin özündən belə çox aydın duyulur. Sözsüz ki, intonasiyaya məxsus bu keyfiyyətlər təkcə dastan qəhrəmanlarının nitqində deyil, təhkiyənin hər tərəfində mövcuddur. Ümumiyyətlə, dastanda intonasiya yaradan vasitələr əsasən aşağıdakılardır:

1. Nida cümlələri. *Məsələn, “Qalqubanı yerindən uru durğıl, yigitləriñ oxşağıl, boyıña alğıl, oğluña uğrağıl, yanıña alub, ava çıqğıl; quş uçurub, av avlayub, oğluñı oxlayub, öldürə görgil!”* (5, s. 29); *“Gəlün, varalım, şol yigidi tutub gətürəlim, ikisini bir yerdə kafirə yetürəlim!”* (5, s. 34); *“Ünüm añlañ bəglər, sözüm diñləñ bəglər! Yata-yata yanımız ağrıdı, dura-dura belimiz qurıdı; yüriyəlim, a bəglər, av avlayalım, quş quşlayalım, sığın-keyik yıqalım, qayıdalım otağımıza düşəlim, yeyəlim-içəlim, xoş keçəlim!”* (5, s. 37); *“Hay, atamıñ altun qədəhindən şərab içən, məni sevən atdan ensün!”* (5, s. 160);

2. Əmr cümlələri. Məsələn, *“Dədəm Qorqut gəlsün, bu oğlana ad qosun, biləsincə alub babasına varsun, babasından oğlana bəglik istəsün, taxt alı versün”* (5, s. 27); *“Mənim*

əllümi şeşiñ, qolca qopuzım ələmə veriñ, ol yigidi döndərəyim. Gərək bəni öldürüñ, gərək dirgürüñ, qoyu veriñ” (5, s. 34);

3. Nəqli cümlələr. Məsələn, *“Dərələrdə, dəpələrdə kafirə qırğun girdi, leşinə quzğun üşdi”* (5, s. 50); *“Toz yarıldı, gün kibi şıladı, dəñiz kibi yayqandı, meşə kibi qarardı”* (5, s. 80); *“Kafiri basdılar-qırdılar, qalaya dökdilər”* (5, s. 153);

4. Sual cümlələri. Məsələn, *“Səniñ ətüñdən, oğul, yiyəyinmi, yoxsa sası dinlü kafiriñ döşəginə girəyinmi? Ağañ Qazanıñ namusını sındırayınmı?”* (5, s. 45); *“Mərə dəlü ozan! Məndən nə dilərsən? Çətirli otaqmı dilərsən? Qul-qaravaşmı dilərsən?”* (5, s. 72);

5. Ədatlar. Məsələn, *“Qo bəni qadın ana, çəngələ ursunlar, qo ətimdən çəksünlər, qırq bəg qızınıñ öñinə ilətsünlər”* (5, s. 45); *“Yerə dəxi düşsə, toz gibi savrılırdı, ocaq kibi obrılur idi”* (5, s. 47); *“Təkür dəxi haman çərisini dərdi, buñların üzərinə gəldi”* (5, s. 154);

Yuxarıda dastandan misal gətirdiyimiz cümlələrdə intonasiyanın yaratdığı emosionallıq həm bu cümlələrə, həm də bu tip cümlələrdən təşkil olunmuş mətnə xüsusi bir ekspressivlik qatır. İntonasiya vasitəsilə cümlələrdə dəyişilən səs tonu və səs tempinin müntəzəm şəkildə artıb-azalmasını mətndən belə duymaq olur. Quru mətndən belə bariz şəkildə duyulan intonasiyaya məxsus bu keyfiyyətlərin şifahi nitqdə daha canlı və rəngarəng təsir gücünə malik olmasına heç bir şübhə yoxdur.

QAYNAQLAR:

1. Adilov, M. Məqalələr (1970-1980-ci illər). Bakı: Elm və Təhsil, c.9, 2020. 448 s.
2. Hüseynov, M. Dil və poeziya. Bakı: Elm, 2008, 434 s.
3. Хамраев М.К. Основы тюркского стихосложения (на материале уйгурской классической и современной поэзии). Алма-Ата: 1963. 215 ст.
4. İntonasiya: (Elektron resurs) / URL https://az.wikipedia.org/wiki/%C4%B0ntonasiya
5. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: Öndər, 2004, 376 s.
6. Ritm: (Elektron resurs) / URL: https://az.wikipedia.org/wiki/Ritm
7. Tanrıverdi, Ə. “Kitabi-Dədə Qorqud”un söz dünyası. Bakı: 2006, 471 s.
8. Vəliyev K. Azərbaycan dilinin poetik sintaksisi. Bakı: 1981. 76 s.

İSİ MƏLİKZADƏNİN "ŞEHLİ ÇƏMƏNLƏRİN İŞIĞI" HEKAYƏSİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN BƏDİİ İFADƏSİ

ARTISTIC EXPRESSION OF NATIONAL-SPIRITUAL VALUES IN THE STORY OF "THE LIGHT OF DEWY MEADOWS" BY ISI MALIKZADE

Elmira Məcnun qızı BABAYEVA
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,
elmirababayeva0791@gmail.com

"Yazıçı sözü xalqın əməllərinə uyğun gəlməlidir".

Heydər Əliyev

Özət

Tədqiqatda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ədəbiyyatımıza diqqət və qayğısı ön plana çəkilir. Azərbaycan ədəbiyyatının 60-cı illər nəslinə mənsub olan İsi Məlikzadənin zəngin və çoxcəhətli yaradıcılığının ümumi mənzərəsi yaradılır. Öz novator yaradıcılığı ilə milli nəsrimizə orijinallıq, sadə deyim tərzi, dərin düşüncə, zənginlik və rəngarənglik gətirən İsi Məlikzadənin Azərbaycan nəsrinə bənzərsiz hekayə, povest və romanlar bəxş etməsindən söhbət açılır. Yazıçının "Möhlət", "Oğul", "Duz", "Talisman", "Qatarda" və başqa hekayələrinin ictimai, sosial, mənəvi-əxlaqi məsələləri, insan və cəmiyyət problemlərini bütün incə detallarına qədər açıqlayan orijinal nəsr nümunələri olduğu diqqətə çatdırılır.

Məruzədə İsi Məlikzadənin "Şehli çəmənlərin işığı" hekayəsi tədqiqat predmetinə çevrilir. Yazıçının milli soykökə qayıdışı, mənəvi-əxlaqi dəyərləri, vətən və yurd sevgisini səmimi hiss və duyğuların fonunda əks etdirən "Şehli çəmənlərin işığı" (1985) hekayəsi konkret faktlar və əsərdən gətirilən nümunələr əsasında şərh olunur. Yazıçı hekayəsində insan taleyinin enmə və qalxma proseslərini, olumla ölüm arasındakı təzadları, təbii yaşantıları, daxili çökmə prosesini inandırıcı şəkildə və yüksək sənətkarlıqla əks etdirməsi tədqiqatda diqqət mərkəzində saxlanılır.

Açar sözlər: Heydər Əliyev, İsi Məlikzadə, "Şehli çəmənlərin işığı", milli-mənəvi dəyərlər, vətən məhəbbəti, yurd həsrəti, torpağa bağlılıq

Summary

The research highlights care and attention by Heydar Aliyev, the President of the Republic of Azerbaijan, to our literature. An overview of extensive and varied works by Isi

Malikzade, a member of the Azerbaijani literary movement from the 1960s is created. It is emphasized that Isi Malikzade, who contributed unique stories, narratives, and novels to Azerbaijani prose, provided our national literature with uniqueness, simplicity, profound thinking, depth, and diversity. It should be mentioned that the author's stories, including "Respite", "The Son," "Salt", "Talisman" and "On the Train", are original works of prose that describe public, social, spiritual and moral and human issues in great depth.

The story "The light of dewy meadows" by Isi Malikzade is the subject of the investigation. The story "The Light of Dewy Meadows" (1985), reflected the author's return to the national roots, spiritual and moral values, love of motherland and country with true sentiments and emotions, is interpreted on the basis of particular facts and examples taken from the work. In his story is kept within the focus that the author describes the processes of descent and ascent of human destiny, the contrasts between life and death, natural experiences, and the process of internal collapse in a highly artistic way.

Keywords: Heydar Aliyev, Isi Malikzade, "The light of dewy meadows", national-spiritual values, love for homeland, longing for motherland, attechment to homeland

Azərbaycan ədəbiyyatının 60-cı illər nəslinə mənsub olan İsi Məlikzadə öz novator yaradıcılığı ilə milli nəsrimizə orijinallıq, sadə deyim tərzi, dərin düşüncə, zənginlik və rəngarənglik gətirmişdir. Ədəbiyyata gəlişi ilə geniş oxucu auditoriyasının rəğbətini qazanan yazıçı sonralar Azərbaycan nəsrinə bənzərsiz hekayə, povest və romanlar bəxş etmişdir. Dərin təfəkkürə, geniş dünyagörüşünə, iti müşahidə qabiliyyətinə malik olan İsi Məlikzadə çoxşaxəli yaradıcılığa məxsus yazıçılarımızdandır. Ədəbiyyat aləminə hekayə janrı ilə daxil olan İsi Məlikzadə özünəməxsus dəst-xətti, orijinal üslubu ilə seçilən nasirlərimizdəndir. 40 illik bir yaradıcılıq yolu keçən istedadlı nasir 50-yə yaxın hekayənin, 20 povestin, 2 romanın, bir neçə pyesin, ssenarinin və təbdilin müəllifi kimi Azərbaycan ədəbiyyatına və mədəniyyətinə böyük töhfələr vermişdir. İsi Məlikzadənin müxtəlif illərdə qələmə aldığı əsərləri yazıçının "Həsrətin sonu" (1964), "Özgə anası" (1969), "Kövrək qanadlar" (1973), "Küçələrə su səpmişəm" (1977), "Yaşıl gecə" (1979), "Günəşli payız" (1982), "Dədə palıd" (1984), "Gümüşgöl əfsanəsi" (1987), "Şehli çəmənlərin işığı" (1991), "Dolaşaların Novruz bayramı" (1992) kitablarında toplanmışdır.

İsi Məlikzadənin yaradıcılığında mövzu, problematika, dil və üslub zənginliyi ilə diqqət çəkən hekayələri xüsusi yer tutur. Yazıçının "Oxuma, Cəmil", "Həsrətin sonu", "Vəfa", "Bünövrə", "Kürsü", "Möhlət", "Oğul", "Duz", "Talisman", "Qatarda" hekayələri ictimai, sosial, mənəvi-əxlaqi məsələləri, insan və cəmiyyət problemlərini bütün incə detallarına qədər açıqlayan orijinal nəsr nümunələridir.

İsi Məlikzadə Azərbaycan ədəbiyyatının zəngin hekayəçilik ənənələrindən yaradıcılıqla bəhrələnməklə yanaşı, özünün orijinal və bənzərsiz hekayələrini yaratmışdır. Ümummilli

Lider Heydər Əliyev xalqımızın milli-mənəvi dəyərlərini, adət-ənənələrimizi, dövlətçilik maraqlarımızın qorunmasını ən ümdə, vacib və təxirəsalınmaz vəzifə hesab edərək, 2001-ci il avqust ayının 13-də Azərbaycan vətəndaşlarına ünvanladığı müraciətində deyirdi: "Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, öz dini dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıblar və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir" (1). Məhz Ulu Öndərin bəyanatında irəli sürdüyü problemlər hər bir Azərbaycan yazıçısının əsl yaradıcılıq kredosuna çevrildiyi kimi, İsi Məlikzadə yaradıcılığının da fəaliyyət proqramına çevrilmişdir. Yazıçının milli soykökə qayıdışı, mənəvi-əxlaqi dəyərləri, vətən və yurd sevgisini səmimi hiss və duyğuların fonunda əks etdirən "Şehli çəmənlərin işığı" (1985) hekayəsi bu baxımdan diqqəti cəlb edir və onun yaradıcılığında xüsusi yer tutur.

AMEA-nın müxbir üzvü Yaşar Qarayev Ulu Öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizlə bağlı müdrik fikirlərinə ictimai xarakter verərək dövlətçiliyimizlə əlaqələndirir: "Milli-mənəvi dəyərlər nə qədər fərdi-şəxsi səciyyə daşısa da, milli dövlətin və dövlətçilik mentalitetinin sabitliyinin mənəvi-əxlaqi baxımdan təminatı bilavasitə bu dəyərlərlə bağlı olur. Neçə yüz il tarixi olan ən qədim, sivil dövlətlərdə etibarlı, davamlı sabitliyin əsas səbəbi elə odur ki, burada milli-mənəvi dəyərlər dövlətçiliyin, dövlət də milli-mənəvi dəyərlərin keşiyində həmişə ayıq-sayıq dayanır"(4).

Yazıçı hekayənin qəhrəmanı Mirzəni altmış yaşına çatmış, həyatını qürbət eldə- "Dalnı Vostok"da keçirən, öz xoşbəxtliyini Rusiyada tapan bir obraz kimi təqdim edir. Gənclik illərində İkinci Dünya müharibəsinin iştirakçısı olan Mirzə müharibədən sonra doğma el-obasına qayıtsa da, ata-anasının yanında çox qalmır. Əsgərlikdə, müharibə vaxtı tanış olduğu Nina adlı qızla evlənmək məqsədilə yenidən "Dalnı Vostok"a yollanır. Mirzənin məqsədi Ninanı öz yerlərinə gətirmək olsa da, lakin illər ötdükcə bir oğul, bir qız atası olan Mirzə anlayır ki, artıq burada özünə iş-güc tapan, iki övlad sahibi olan Ninanın Azərbaycana gəlməsi, çətin ki, reallaşa. Öz taleyi ilə barışan Mirzə qırx ilə qədər Rusiyada qalmalı olur. Artıq övladları da ailə qurub, indi o babadır. Lakin illər sürətlə ötüb keçmiş, bir zamanlar arxasınca gəlib könül verdiyi, vətənindən uzaqda yaşamağa məcbur olduğu, onu qürbətdə vətən həsrəti çəkməyə məhkum edən Nina beş il öncə, əlli beş yaşında həyatdan köçmüşdür. Tənhalıqda sıxılan Mirzə bədbinliyə qapılaraq yalnız ölüm haqqında düşünür. Yazıçı altmış yaşa çatmış insanın assositiv yaşantılarını, həyatla ölüm arasındakı düşüncələrini, xatirələrin işığında uşaqlıq və gənclik illərinə qayıdışını yüksək sənətkarlıqla canlandırmağa müvəffəq olur: "Yatağından durandan ovqatı korlanmışdı, fikirləşirdi ki, ömür kitabından altmışıncı vərəq də düşdü–səssiz-səmirsiz düşən bu vərəqə heyifsilənirdi –görəsən, axırıncı vərəq deyil ki, bu?" (5, s. 319). Ad gününü qəm-kədər notları ilə qarşılayan Mirzə həsrətlə oğlunun, qızının yolunu gözləyir. Lakin təkcə oğlu Anatolinin yolüstü gəlişi, gəlini Lidanın işdə olmasını

bəhanə etməsi, qızının isə hərbçi ailəsi olduğu üçün atasını təbrikə gəlməməsi Mirzəni daxilən sıxır, incidir, tənhalıqdan, təklikdən, səssizlikdən bezən bu insan sanki həyatdan əlini üzür.

Yazıçı bu təqdimatdan sonra Mirzənin öz ad günündə keçirdiyi daxili həyəcanlarını, nostalji duyğularını, tərki-dünyalıq hisslərini yaşadığı mühitin sərt iqlimi, soyuqluğu ilə paralelləşdirərək oxucuya çatdırır. Təbiətlə insanın bir-birini tamamlamasını, insanın təbiətin ayrılmaz bir parçası olmasını fəlsəfi düşüncələrin fonunda açıqlayır: "Mirzə pəncərənin qabağına gəldi. Küləyin hirsi-hikkəsi səngimişdi. Ağacların, dirəklərin dibində qar təpələnmişdi, evlərin damı ağappaq idi. Bu ağlığın sonu, nəhayəti görünmürdü. Təkcə səma tutqun idi. Göyün bozluğu qəsəbənin başı üstündə pərdə kimi asılmışdı; hələ axşama çox vardı; ancaq hava alatoran idi. Qırx il idi ki, Mirzə bu diyarın boranına-çovğununa tab gətirirdi, amma Mirzənin ab-havadan belə darıxdığı olmamışdı. Görəsən, bu göyün sinəsi boşalacaqmı? Hələ çox yağacaq: bu ay da, gələn ay da, o biri ay da. Dünyanın hər yerindən qış ayağını çəkəcək, ancaq burda yenə taxtapuşların qırağından sırsıra sallanacaq" (5, s. 319). Ömrünün müdriklik çağına gəlib çatmış, saç-saqqalı, hətta qaşları da şimalın, "Dalnı Vostok"un sırsıra bağlamış buzları, qarları kimi bəyazlaşmış Mirzə bu soyuq ruzigarın sərtliyində öz daxili dünyası, fikirləri ilə baş-başa qalanda xəyalən uşaqlıq illərinə dönür, orta məktəb illəri yaddaşında assositiv duyğular oyadır, həyatının qayğısız, atalı-analı dönəmlərinə qayıdır. Sinif yoldaşı Həsənin, Qeysər müəllimin və onunla bir partada əyləşən ala gözlü, sarışın qızın surəti ona rahatlıq vermir. Qırx il yerindən-yurdundan, doğmalarından uzaqda yaşayan Mirzənin birdən-birə bu duyğuların burulğanına düşməsi onu mənən təmizləyir, saflaşdırır, milliliyə, ilkinliyə, soykökə qaytarır. O, aydınlaşan, durulan yaddaşın işığında olub-keçənləri, ötənləri, gənclik illərinin acılı-şirinli xatirələrinin əsl mahiyyətini daha dərindən dərk etməyə başlayır. Xəyal yenə də onu çəkib məktəb illərinə aparır. Yanında əyləşən qıza və sinif yoldaşlarına özünü göstərmək üçün Həsənə vurduğu şillənin göynərtisini, ağrısını ovcunun içində hiss etdikcə vətən torpağı, doğma insanları görmək istəyi bir dəli sevda kimi başından çıxmır, onu öz orbitindən uzaqlaşmağa qoymur. Lakin yazıçının ən böyük tapıntısı öz qəhrəmanını keçmişə qaytarmasındadır. Keçmişlə daxili bağlantı obrazın həyata baxışında, insanlara münasibətində, dinamik bir yaşam tərzinə qayıtmasında mühüm bir vasitəyə çevrilir. Qəribədir ki, Mirzə ölüm vaxtının yaxınlaşdığını hiss etdiyindən doğma yurda qayıdıb öz elində torpağa tapşırılmağa üstünlük verir. Bu məqamda Mirzənin yaddaşında əsrlərin sınağından çıxan "Gəzməyə qərib ölkə, Ölməyə vətən yaxşı" misraları dolaşır. Yazıçı əsərin əsas ideyasını, müəllif qayəsini, tərbiyəvi əhəmiyyətini hekayədə səsləndirilən və xalq arasında geniş yayılan məşhur bayatının misralarına hopdurmaqla oxucuya təlqin edə bilir. "Mirzə gedib vətənində ölməyi qərarlaşdırır. Ölmək fikri ilə elinə-obasına qayıdan Mirzəni bacısı Güldəstə, yeznəsi Qədir və bütün el-oba qarşılayır. O, ata-anasının baxımsız qalmış qəbirlərini düzəltdirir, bir məktəbdə oxuduqları vaxt incitdiyi Həsəni tapıb ondan halallıq alır. Mirzə fikirləşir ki, bəli, indi ölə bilər" (7, s. 319).

İsi Məlikzadə Mirzənin timsalında keçmiş sovetlər dönəmində Azərbaycan gəncliyinin müəyyən məqsədlər naminə öz vətənindən didərgin düşərək Rusiyanın müxtəlif şəhərlərinə üz tutmasını, bir çox hallarda öz istəklərinə çata bilməyən insanların qürbətdəki acınacaqlı həyatını, məhv olmuş arzularını, faciəli taleyini təbii və inandırıcı faktlara söykənərək açıqlaya, əks etdirə bilmişdir. Yazıçı hekayədə insanı biganələşdirən, onu öz doğmalarına yadlaşdıran, doğulub boya-başa çatdığı mühitdən uzaqlaşdıran səbəblərin haradan qaynaqlandığını sənətkarlıqla, böyük ustalıqla açıb göstərə bilmişdir. Öz doğma ata-anasının dəfninə gecikən, onları torpağa tapşırandan bir neçə gün sonra yas mərasiminə gəlib çatan və oradan da tələsik yenə soyuq şimala dönən Mirzəni əziz insanlarına qarşı biganələşdirən, etinasız edən elə onun gedib düşdüyü mühit, qeyri millətlərdən olan insanların təsirində, əhatəsində ömür sürməsidir. Hətta rus qadınının təsiri ailədə, övladlarına qoyulan adlarda da özünü göstərir. Yazıçı oğlu Anatolinin, qızı Mayanın atalarına qarşı soyuq münasibəti ilə Mirzənin öz ata-anasına qarşı olan soyuq münasibəti arasında bir oxşarlıq, paralellik yaradır.

Ölümünün yaxınlaşdığını hiss edən Mirzə doğma yurduna, ata ocağına qayıdanda bacısı Güldəstənin, yeznəsi Qədirin, qohum-əqrəbanın, qonşuların onu isti, səmimi münasibətlə, böyük atəşfəşanlıqla qarşılaması səhnəsini yazıçı təbii yaşantıların, milli hiss və duyğuların inikası kimi reallaşdıra bilmişdir. Ancaq illərin həsrətlisi olan bacısı Güldəstənin onun boynuna sarılaraq hönkür-hönkür ağlaması, kənd adamlarının hörmət, izzətlə görüşünə gəlməsi, hətta ata-anasının qəbrini ziyarətə gedərkən uçulub-sökülmüş, ağacdan qoyulmuş başağacının çürüməsi kimi təsirli səhnələrin təsvirində biz Mirzənin qəlbinin incə tellərinin titrəməsini görə bilmirik. Onun öz doğmalarına qarşı soyuq və etnasız münasibətini Mirzənin ata-anasının qəbrini ziyarət etməsi epizodunda daha aydın görmək olur: “Atası öləndə də Mirzə dəfnə gecikdi. Kişi də payızda köçdü dünyadan. Onda da hava bir az sərintəhər idi, yer-yurd xəzəllə dolu idi, qollu-budaqlı tut ağacı da lümlüt idi. Hər şey anası öləndə olduğu kimi idi, intəhası Salman yox idi bu həyətdə, indi onun əvəzində Qədir kürəyini tut ağacına söykəyib gözləyirdi ki, Mirzə ağlasa, o da ağlasın. Mirzə dodaqlarını çeynəyə-çeynəyə Güldəstənin ağısına qulaq asdı, bulud kimi tutuldu, bıçaq vursaydın, Mirzənin bir damcı qanı çıxmazdı, di gəl ki, gözləri nəmlənmədi. Bu Mirzə daşdı, qayadı, ağacdı, nədi, görəsən? Anası öldü–ağlamadı, atası öldü–ağlamadı. Bəs nə vaxt ağlayacaq bu?” (5, s. 330) Yazıçı Mirzənin hiss və duyğularının donuqluğunu, qəlbinin daşlaşmasını, həyatla ölüm arasındakı paradoksallıqların fərqinə varmamasını bu səhnənin təsvirində də çox real əks etdirir və obraz haqqında oxucuda aydın təsəvvür yarada bilir.

Sanki Sibirin sərt iqlimi, soyuq insanları onun qəlbini, ruhunu da dondurmuş, biganə bir varlığa çevirmişdir. Lakin yazıçının bu ədəbi priyomu obrazın daha canlı və təbii çıxmasını şərtləndirən mühüm amillər kimi diqqəti cəlb edir və oxucunu öz fikir karvanının arxasınca apara bilir. Bu proses Mirzənin doğma yurda, ata ocağına isnişənə qədər davam edir. Yurd havasını udduqdan, bacısının halal çörəyini iştaha ilə yedikdən bir neçə gün sonra

Mirzə qürbətdə ona rahatlıq verməyən tərki-dünyalıq hissindən, ölüm xofundan uzaqlaşmağa başlayır. "Mirzə tez ölmək istəmirdi, düzünə qalsa, heç ölmək istəmirdi; bura gəldiyi iyirmi gündə əməlli-başlı dirçəlmişdi. Güldəstə də, Qədir də səhər-səhər yerlərindən duran kimi Mirzəyə baş çəkirdilər, altdan-altdan onun rəng-rufuna fikr verirdilər. Mirzə hər dəfə süfrədəki nemətləri xımır-xımır yeyəndə Güldəstənin qonur gözləri nəmlənirdi. Güldəstə o biri otağa keçib, üzünü tavana tuturdu: "İlahi, kərəminə min şükür, – deyirdi, – bircəcə qardaşımın yanaqlarına qan gəlib. Sənə atam-anam qurban, ya rəbb, mənə qardaş vayı, qardaş dağı göstərmə, Mirzədən qabaq mənim canımı al" (5, s. 330). Hekayədə yeganə qardaşının dirçəlməsinə, həyata qayıtmasına ürəkdən sevinən, Ulu tanrıya dualar edən Güldəstənin Mirzənin itkisinə dözə bilməyəcəyi, ondan qabaq özünün ölümünü arzulaması epizodları çox təbii və real səhnələr kimi yadda qalır və oxucunun qəlbini riqqətə gətirir. Bu cür yazı tərzi, dərin müşahidə qabiliyyəti yalnız İsi Məlikzadəyə məxsusdur. Sabir Rüstəmxanlı İsi Məlikzadə yaradıcılığının bu özünəməxsusluğundan söhbət açaraq yazır: "İsi yazıçıların "altmışıncılar" nəslinin ən istedadlı nümayəndələrindən biri idi. Əsərlərində həyatımıza, böyüdüyü mühitə, gördüyü dünyaya təkrarsız, qeyri-adi bir münasibət vardı. Onun gördüyünü başqası görə bilməzdi" (6, s. 3).

"Şehli çəmənlərin işığı" hekayəsində yazıçı insan taleyinin enmə və qalxma proseslərini, olumla ölüm arasındakı təzadları, təbii yaşantıları, daxili çökmə prosesini inandırıcı şəkildə təsvir etməklə yanaşı, eyni situasiyanın təbiətdə də baş verdiyini sənətkarlıqla əks etdirir: "Mirzə gözlərini qollu-budaqlı tut ağacının yoğun gövdəsinə zilləyib, uşaqlığını yadına saldı. Bu ağacın lap təpəsinə dırmanardı, mət kimi ağ tutu dənə-dənə qırıb ağzına atardı. İndi payızdır, ağacın yarpaqları tökülüb, ağac lütlənib, adam buna baxanda kövrəlir" (5, s. 326). Mirzə tut ağacı ilə bağlı uşaqlıq illərinin kövrək xatirələrinin izinə düşəndə o, anası Səmayə xanımı itirmişdi. Həyətlərində müşahidə etdiyi tut ağacının pərişan halı ilə onun ovqatı arasında bir oxşarlıq görünməkdədir. Mirzənin öz yurduna ikinci gəlişində isə artıq atası Salman kişi həyatdan köçmüşdü. Mirzənin birinci gəlişi ilə ikinci gəlişi arasındakı zaman kəsiyində tut ağacı da ömrünü başa vurmaq ərəfəsindəydi: "Mirzə tut ağacının cadar-cadar gövdəsinə baxdı, ağac qocalmışdı, qurumaqçün bir himə bənd idi. Mirzə fikirləşdi ki, bir də yolu doğma yurda düşsə, şahtutu yerində görməyəcək, yəqin şahtut axırıncı payızını yaşayır" (5, s. 330). Yazıçı bu hüznlü təsvirdən, kövrək xatırlatmadan sonra Mirzəni duyğular aləmindən real gerçəkliyə qaytarır. O, xəzəl basmış həyətə, kimsəsiz qalmış ev-eşiyə baxaraq dərindən ah çəkərək üzünü Qədirə tutub soruşur: "Atam öləndə nə vəsiyyət elədi, nə soruşdu?" Qədir kürəyini ağacın qartımış gövdəsindən araladı, hələ də zümzüməylə ağlayan arvadına baxa-baxa dedi: "Kişi neçə gün səni arzuladı... Rəhmətliyin dilində elə sənin adın idi" (5, s. 331).

Yazıçı bu obrazın özünəməxsus, fərdi cizgilərini yaradarkən onun düşdüyü ətalət və süstlükdən başlayaraq fəal həyat mövqeyinə çatanadək irəliyə doğru inkişafda, tərəqqidə

göstərir və öz istəyinə nail olur. Hekayənin əvvəlində öz həyatının mənasızlığını yəqinləşdirən, o cür yaşamaqdan usanan, tənhalıqdan sıxılaraq yalnız ölüm haqqında fikirləşən bir insanın ömür yolunun bir çox məqamlarına işıq salan yazıçı insanı həyata bağlayan, onun yaşamasına stimul verən başlıca səbəblərin köklərini arayır və onu tapmağa müvəffəq olur. Oxucu bir həqiqəti də dərk edir ki, toxumların cücərib boy verməsi, gül-çiçəklərin xoş rayihəsinin ətrafa yayılması, ağacların qol-budaq atıb pərvazlanması üçün münbit torpaq və şəraitin olması nə qədər önəmlidirsə, insanın da xöşbəxt yaşaması, ömür-gün sürməsi üçün vətən torpağının hərarəti, el-obaya bağlılığı, doğma insanların məhəbbətini duyması, isti yuvasının olması qaçılmaz bir gerçəklik, təhlilə ehtiyacı olmayan bir aksiomadır. Tədqiqatçı Yaqub İsmayılov yazıçının yaradıcılığının əsas leytmotivinə çevrilən bu məqama diqqət çəkərək yazır: "İsi Məlikzadə nəsrinin tədqiqat obyekti, mövzu-problem dairəsi məhdud səciyyə daşımır, geniş, əlvan və əhatəlidir. Nəzər nöqtəsində isə, ümumiləşmiş şəkildə desək, birbiri ilə sıx əlaqədə olan, biri digərini dolğunlaşdıran, zamanın bir çox həqiqətlərini, ziddiyyət və xüsusiyyətlərini özündə ehtiva edən İnsan və təbiət amili dayanır" (3, s. 226). Doğrudan da, əsərdə insanla təbiət arasındakı qarşılıqlı əlaqəni, vəhdəti, harmoniyanı əvvəldən sonadək ardıcıl izləmək mümkündür.

Təsadüfi deyildir ki, ilk günlərdə ata yurduna qayıdan Mirzə ilə sonrakı günlərdə gördüyümüz Mirzə arasında böyük bir fərq müşahidə edirik. Artıq Mirzə o doğma yerləri qarışqarış gəzərək yeni tikilən binaları, məktəbləri, xəstəxanaları, parkları, yenicə salınmış asfalt döşəmələri gördükcə qəlbi fərəhlənir: qırx il öncə qoyub getdiyi köhnə evlərdən, uçuq-sökük binalardan, daş-kəsəkli yollardan əsər-əlamət qalmamışdır. Mirzə bu yenilikləri duyduqca qəlbindəki buzlar əriməyə başlayır, insanlara qaynayıb-qarışır, yeni həyata başlayır. İndi artıq ölüm haqqında düşüncələri də ondan çox uzaqdadır: "Bahar günəşinin qırmızımtıl-sarı şəfəqi yerə çökmüşdü və bu şəfəqdən yaşıl tər otlar, çiçəklər, ağaclar–hər şey alov rənginə çalırdı. İlıq havadan qızılgül ətri gəlirdi, uzaqda-yaxında quşlar cikkildəşirdi. Mirzə fikirləşdi ki, ilin bu əyyamında ölümdən danışmaq, vallah, axmaqlıqdır" (5, s. 332).

Hekayənin sonlarına doğru Mirzənin xarakterində baş verən dəyişikliyi daha çox hiss etməyə başlayırıq. Əsərin əvvəlində uzun illər ata-anası ilə maraqlanmayan, onları daim intizarda saxlayan, oğul həsrəti ilə dünyadan köçən valideynlərə qarşı soyuq münasibəti, doğmalarının məzarını ziyarət edərkən gözlərindən bir damcı belə yaş çıxmayan Mirzənin sonralar onların uçulub-dağılmış məzarlarını təmir etməsi onda kövrək duyğuların, uşaqlıq illərinin ata-anaya olan isti, səmimi və doğma hisslərini təzələyir, bərpa edir. O, məzarıstanda ağ-qara mərmərdən düzəldilmiş qəbir daşları arasında ata-anasının dağılmış, uçulmuş yeganə qəbirlər olduğunu gördükdə vicdanı sızlayır və onları təmir etdirmək qərarına gəlir: "Mirzə Şuşadan boz mərmər gətirdi, qəbirlərin ikisini də eyni biçimdə düzəltdirdi. Ustaya Mirzə özü kömək eləyirdi: qəbiristanlığın ortasındakı hovuzdan su gətirirdi, palçıq qarışdırırdı, amma qəribə idi ki, əvvəlki təki yorulmurdu, təngnəfəs olmurdu, hiss edirdi ki, bədəninə təpər gəlir" (5, s. 330). Göründüyü kimi, doğma yurdun ab-havası Mirzənin daxili dün-

yasını, həyata, cəmiyyətə baxışlarını mənən, ruhən dəyişdirdiyi kimi, onu fiziki cəhətdən də cavanlaşdırmış, qoluna qüvvət, "bədəninə təpər" vermişdir. Bütün bunlar insanın mənəvi təkamülü ilə təbii təkamülü arasındakı bağlılığın təzahürü kimi özünü göstərir. Ata-baba yurdunda, doğma insanlar arasında o, yeni həyata başlayır, zəhmət adamlarının qaynar həyatı ilə tanışlıq Mirzəni fəal və dinamik bir fəaliyyətə gətirib çıxarır. Yazıçı bədbin ruhda başladığı hekayəni nikbin sonluqla tamamlayır.

Ümummilli Lider Heydər Əliyev ədəbiyyat və sənət adamlarını sözə böyük dəyər verməyə, onun bədii imkanlarının genişliyindən yerli-yerində istifadə etməyə, həyat hadisələrini real və inandırıcı lövhələrlə canlandırmağa səsləyərək deyir: "Cəmiyyətin mənəvi tələbatının artması, ədəbiyyatın milyon-milyon adama ideya-mənəvi və estetik təsir imkanlarının genişlənməsi dövrümüzün mühüm əlamətidir. Beləliklə, bədii sözün siyasi, ictimai siqləti artır. Bu isə yeni cəmiyyət quruculuğunun, insanlar arasında yeni münasibətlərin ön xəttində durmalı olan yazıçıların və şairlərin üzərinə çox böyük vəzifə qoyur. Öz dövrünü tam dolğunluğu ilə göstərməyin, ictimai inkişaf dialektikasını bədii formada canlandırmağın, onun ən mühüm meyllərini və qanunauyğunluqlarını açmağın necə məsul vəzifə olduğunu hər bir sənətkarın dərk etməsi çox böyük əhəmiyyətə malikdir. Bu yaradıcılıq işində nə həyatı bərbəzəkli surətdə göstərməyə, nə də onun mənfi cəhətlərini şişirtməyə, ifrat dərəcədə qabarıq şəkildə, aludəçiliklə təsvir etməyə yol verilməməlidir" (2, s. 135).

Ulu Öndər Heydər Əliyevin "Yazıçı sözü xalqın əməllərinə uyğun gəlməlidir" tezisini zəngin yaradıcılıq yolu keçən, Azərbaycan ədəbiyyatına ölməz əsərlər bəxş edən İsi Məlikzadə yaradıcılığına müncər etmək yerinə düşərdi.

İsi Məlikzadənin "Şehli çəmənlərin işığı" hekayəsi insanı mənəvi ucalığa, təmizliyə, paklığa, doğma yurdun hər qarışını göz bəbəyi kimi qorumağa, milli-mənəvi və əxlaqi dəyərlərimizin müqəddəsliyinə tapınmağa, valideyin məhəbbətinin əvəzolunmazlığına səsləyən dəyərli bir hekayə kimi yazıçıya digər nəsr əsərləri ilə yanaşı, əbədiyaşarlıq qazandırmışdır.

QAYNAQLAR:

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı. "Ədəbiyyat qəzeti", 2001, 17 avqust.
2. Heydər Əliyev. Ədəbiyyatın yüksək borcu və amalı". Bakı, "Ozan", 1999, s.135.
3. İsmayılov Y. Söz sərrafı-nəsr ustası. Bakı, "Elm", 2007, s. 226.
4. Qarayev Y. Milli-mənəvi və ədəbi-bədii irs. "Ədəbiyyat qəzeti", 2001, 28 sentyabr.
5. Məlikzadə İ. Şehli çəmənlərin işığı. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb, 2005, 336 s.
6. Rüstəmxanlı S. Ölüm İsi ilə zarafat elədi. "Oğuz eli" qəzetinin xüsusi buraxılışı. 2001, mart, №1, s. 3.
7. Salamoğlu T. Ən yeni Azərbaycan ədəbiyyatı məsələləri. Monoqrafiya və ədəbi-tənqidi məqalələr. III nəşr. Bakı, "E.L." NPŞ MMC, 2012, 480 s.

HÜSEYN CAVİD: MİLLİ VƏ BƏŞƏRİ İDEALLAR ŞAİRİ

HUSEYN JAVID: THE POET OF NATIONAL AND HUMAN IDEALS

Gülnar OSMANOVA
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Folklor İnstitutu,
gulnar.osmanova05@gmail.com

"Xalqımız, millətimiz nə qədər yaşayacaqsa, Hüseyn Cavid irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək".

Heydər Əliyev

Özət

Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının görkəmli nümayəndəsi olan, gözəlliyi və sevgini özünün əsas idealı sayan, daima yüksək ideyalarla yaşayan Hüseyn Cavidin yaradıcılığı əlamətdar bir hadisə kimi bu gün də öz məna və əhəmiyyətini saxlamaqdadır. Azərbaycan romantizmində insan konsepsiyasından danışarkən xüsusən onun məhəbbət problemində öz milli kökləri ilə möhkəm bağlı olduğunu qeyd etmədən keçmək olmaz. İnsan burada ilk növbədə məhəbbətin həm obyekti, həm də subyekti kimi çıxış edir. Ancaq onu da nəzərə almaq lazımdır ki, klassik poeziyadan fərqli olaraq, XX əsr Azərbaycan romantizmində məhəbbətin başlıca obyekti millət, xalq, kütlə, vətəndaşdır. Bu, XIX əsrin ortalarından başlayaraq, milli özünüdərkin formalaşmasının nəticəsi olub, hər şeydən əvvəl, ziyalı beyinlərində öz əksini tapmış bir proses idi. Bu baxımdan Azərbaycan romantiklərinin əsərlərində Qərb romantizminin də böyük təsiri duyulmaqdadır. Hüseyn Cavid də böyük bir romantik sənətkar kimi bəşəriyyətin mənəvi fikir həyatı, real və ideal yaşayış arzuları ilə bağlı olan məsələlərlə əlaqədar, yaradıcılığının əvvəlindən sonuna qədər daima axtarışlar aparmışdır. Bu axtarışlar fikir, mənəviyyat, insanların qəlb dünyası, yeni bədii formalar ətrafında getmişdir.

Məqalədə dahi şair-dramaturqun poeziyası millilik və bəşərilik kontekstində araşdırılaraq təhlil olunmuşdur.

Açar sözlər: romantizm, Hüseyn Cavid, bəşəri dəyərlər, milli ideal, türkçülük

Summary

Huseyn Javid's activity, who is a prominent representative of the romanticism literary trend in Azerbaijani literature, who considers beauty and love as his main ideal, and who always lives with high ideas, retains its meaning and importance even today as a significant

event. When talking about the concept of man in Azerbaijani romanticism, one cannot go without mentioning that he is firmly connected with his national roots, especially in the problem of love. Man acts here primarily as both an object and a subject of love. However, it should also be taken into account that, unlike classical poetry, the main object of love in 20th century Azerbaijani romanticism is the nation, the people, the masses, citizens. This was the result of the formation of national self-awareness starting from the middle of the 19th century, and above all, it was a process reflected in the minds of intellectuals. In this regard, the great influence of Western romanticism can be felt in the works of Azerbaijani romantics. H.Javid, as a great romantic artist, has always searched from the beginning to the end of his work regarding issues related to the spiritual life of mankind, real and ideal living dreams. These searches revolved around ideas, spirituality, the world of people's hearts, and new artistic forms.

In the article the poetry of the genius poet-playwright was investigated and analyzed in the context of nationality and humanity.

Keywords: romanticism, Huseyn Javid, human values, national ideal, turkism

Mütəfəkkir şair, görkəmli dramaturq Hüseyn Cavid Azərbaycan ədəbiyyatı tarixində orijinal ədəbi simalardan biridir. O, Azərbaycanda XX əsrin əvvəllərində meydana gələn, lakin qısa müddətdə ciddi yaradıcılıq uğurları ilə ədəbiyyatımızda mühüm ədəbi bir cərəyan olduğunu sübut edən romantizmin görkəmli nümayəndələrindən biri, dramaturgiyamızda isə bu cərəyanın ən parlaq nümayəndəsi olmuşdur.

Hüseyn Cavid təqribən 30 il davam etmiş yaradıcılığı ilə Azərbaycan ədəbiyyatını həm məzmun, həm də janrca zənginləşdirmişdir. Şair, dramaturq, publisist, müəllim, ən başlıcası ziyalı kimi tanınan Cavid həmişə öz məsləkinə sadiq olmuş, bədii əsərləri ilə öz əqidəsinin daşıyıcısına çevrilmişdir. Onun əsərləri ilə ədəbiyyatımızın mövzular aləmi xeyli genişlənmiş, dramaturgiyamıza yüksək bəşəri konfliktlər, dərin düşüncəli, həssas ürəkli, böyük ehtiraslı parlaq xarakterlər gəlmişdir. Hüseyn Cavid Azərbaycan ədəbiyyatında milli romantik şeirin, mənzum dramın və faciənin banisidir. Ədəbiyyatımızda sonet, türkü və marş janrlarından da ilk dəfə Hüseyn Cavid istifadə etmişdir. XX əsr ictimai fikir tarixində görkəmli yer tutan, romantik dramaturgiya sahəsində ədəbi məktəb yaradan Cavid böyük və zəngin ədəbi irs qoyub getmişdir.

Hüseyn Cavid ictimai sifariş deyilən süni tələblərə məhəl qoymayan bir yazıçı kimi həmişə qəlbinin səsinə qulaq asmışdır. O, bir qayda olaraq, öz yazıçı qənaətinə uyğun gələn, qəlbini riqqətə gətirən mövzuları qələmə almış, o zamanın sovet rəhbərlərini vəsf edən bircə dənə də olsa, şeir yazıb nəşr etdirməmişdir. Bunun üstündə Cavidi dönə-dönə "tənqid" və "ifşa" edir, heç bir əsası olmayan qəbahətlərdə günahlandırırdılar. Məsələn, deyirdilər ki,

guya Hüseyn Cavid "burjua yazıçısıdır", "əsas qəhrəmanları fikri dumanlı idealistlərdir", "onun yaradıcılığı yeni Azərbaycan mədəniyyətinin əleyhinədir" və s. Mətbuatda dönə-dönə yazılan, ictimai yığıncaqların xitabət kürsülərindən dəfələrlə deyilən bu cür siyasi ittihamlardan sonra 1937-ci ildə onu həbs edir, qondarma məhkəmə iclasının qərarı ilə "xalq düşməni" kimi Sibirə göndərirlər. H.Cavidin zəif və xəstə canı həbs düşərgələrində qaldığı Tayşetin şiddətli şaxtalarına, siyasi məhbus həyatının ağır məhrumiyyətlərinə tab gətirə bilmir. Böyük mütəfəkkir, istedadlı şair və dramaturq 5 dekabr 1941-ci il tarixində vəfat edir. Lakin 1956-cı ildə işdə cinayət tərkibi olmadığı üçün saxta ittiham ləğv edilmiş, ədibə ölümündən sonra bəraət verilmişdir. 1982-ci ildə Cavidin 100 illik yubileyi ərəfəsində Azərbaycana rəhbərlik edən Heydər Əliyevin xüsusi səyləri nəticəsində onun cənazəsi Sibirdən gətirilib Naxçıvanda dəfn edilmişdir. H.Cavidin zəngin ədəbi irsinə geniş elmi tədqiqatlar həsr olunmuş, onun demək olar ki, bütün məlum əsərləri dönə-dönə nəşr edilmişdir. Ədəbiyyatşünas Yaşar Qasımbəylinin təbirincə desək, XX yüzilin "qırmızı qaranlıqlarına" öz qüdrətli qələmi ilə nur saçan Hüseyn Cavid (6, 7) bu gün də qürurla yad edilməkdədir.

Ümummilli Liderimiz Heydər Əliyevin 1996-cı il oktyabrın 29-da Naxçıvanda Hüseyn Cavid məqbərəsinin təntənəli açılış mərasimində söylədiyi müdrik fikir Hüseyn Cavid sənətinin dünyəviliyini təsdiq edən, ədəbiyyata, sənətə verilən böyük tarixi qiymətdir: "Xalqımız, millətimiz nə qədər yaşayacaqsa, Hüseyn Cavid irsi də o qədər yaşayacaq və xalqımız ondan istifadə edəcək".

Cavid düşünən, daim axtarışlarda olan bir şair idi. O, mövzularında çox vaxt ölkəmizin ərazisindən kənara çıxırdı. Onun qəhrəmanları Ərəbistandan tutmuş Qafqaza və Turana qədər geniş bir ərazidə fəaliyyət göstərirlər. Bununla, Cavid Şərq xalqları həyatına, onların dünyagörüşünə, xüsusiyyət və adət-ənənələrinə əsaslanaraq böyük bəşəri problemləri həll etməyə çalışırdı, ən çox Şərqin faciəsini, tarixi fəlakətlərini əks etdirirdi. O həm real – gözü ilə gördüklərini, həm də ideal, görmək istədiklərini təsvir edən filosof şair idi.

Böyük şairin şeir yaradıcılığında lirik növün, demək olar ki, bütün janr, şəkil və vəznləri əhatə olunmuşdur. İstər əruz, istərsə də heca, hətta sərbəst şeirlərində ustad sənətkarın ruhu aydın duyulur. Cavid şeirlərinin başlıca məzmununu idealla varlıq arasındakı ziddiyyət, ideal həqiqət axtarıcılığına istiqamətlənən xəyallardan yaranan lirik-fəlsəfi düşüncələr təşkil edir. Şairin monoloqlardan ibarət olan "Sevinmə, gülmə, quzum", "Məyus bir qəlbin fəryadı", "Uyuyur", "Məzlumlar üçün", "Neçin", kiçik səhnəciyi xatırladan dialoqlardan təşkil olunmuş süjetli şeirləri: "Öksüz Ənvər", "Çiçək sevgisi", "Qız məktəbində" şeirlərində bunun şahidi oluruq. Onun şeirlərində cəmiyyətdəki ictimai ədalətsizliklərdən doğan dərin bir kədər vardır. "Vərəmli bir qız", "Kiçik sərsəri", "Öksüz Ənvər", "Bir qızın son fəryadı" şeirlərində şair yoxsul balalarının ağır və dözülməz həyatını ürək ağrısı ilə təsvir edir. 1910-cu ildə qələmə aldığı "Məsud və Şəfiqə" şeirində isə o, fəhlələrin dəhşətli istismarına

qarşı çıxır. I Dünya müharibəsinin qanlı-qadalı dövründə yazdığı “Hərb və fəlakət” (1916) və “Hərb ilahı qarşısında” (1917) şeirlərində Cavid imperialist müharibəsinə qarşı çıxmış, şəri, zülmü və zorakılığı pisləmişdir. O, insanları pis əməllərdən çəkinməyə, məhəbbətə və birliyə çağırmışdır. “Hərb və fəlakət” şeirində şair yazır:

Şaşırıb durma böylə... Bir aydın
İdeal arxasınca qoş, çırpın!
İdealsız nicat ümidi məhal...
“İttihad!” İştə ən böyük ideal!
Səni qurtarsa, qurtarır birlik,
Çünki birlikdədir fəqət dirilik! (2, 54)

Azərbaycanın böyük oğlu hər nə qədər bütün bəşəriyyətin taleyini düşünsə də, ilk növbədə öz xalqının, el-obasının oğlu kimi türkün taleyindən narahatdır, onun başına gələn faciələr böyük patriotun ürəyini sızladır, onu qələmə sarılmağa, ürək narahatlığını bədii sözün gücü ilə dilə gətirməyə vadar edir. O, öz xalqını mübarizəyə, qabaqcıl xalqların səviyyəsinə qalxmağa səsləyir. Bunun üçün isə maarif nurundan bəhrələnməyin, avamlıq və zülmət pərdələrini gözlərdən kənar etməyin vacibliyini vurğulayır:

Fəzlü irfanla mücəhhəz olaraq
Cəhli yıq, qəfləti yaq, iczi bıraq!

“Hərb və fəlakət” şeirinin III hissəsi isə əsərin sonunda verilmiş Cavid nəsihəti kimi səslənir və milli hökumət quruculuğu ərəfəsində vətənpərvər şairin xalqa çağırışı təsirini bağışlayır:

Arqadaş, yoldaş! Ey vətəndaş, oyan!
Yatma artıq, yetər... Dəyişdi zaman;
Sıyrılır baq, yavaş-yavaş zülmət,
Barı dan yıldızından al ibrət! (2, 53)

Böyük sənətkarımız, dahi babaların layiqli xələfi, istedadlı şair və dramaturq Hüseyn Cavid xalqımızın yetirdiyi söz sənətkarları və mütəfəkkirləri kimi, özündən əvvəlki mədəni-mənəvi xəzinəni mənimsəmiş və özünün ölməz fikir və obrazları ilə zənginləşdirmişdir. Cavid şeirləri Azərbaycan xalq müdrikliyinin ayrılmaz əlaməti olan dərin humanizmi, ümumbəşəri xarakter və məna yükü daşıması ilə seçilir. Ancaq eyni zamanda Cavid bir filosof kimi mühakimə yürüdərkən və bütün bunları şeirlərində ifadə edərkən bir an belə öz doğma mühitindən, türkçülüyündən və azərbaycançılığından ayrılmır.

Ədəbiyyatın və fəlsəfənin əbədi problemlərindən biri olan xeyir və şər problemi Hüseyn Cavidi də bütün yaradıcılığı boyu düşündürmüş, Cavid hikmətlərinin bir çoxuna mövzu vermiş, ətə-cana gətirmişdir. İnsanın bu dünyaya xeyir işlər üçün gəldiyinə qəti əmin olan böyük sənətkar şəri müvəqqəti, keçici sayır, insanın şeytan qarşısındakı ani zəifliyi kimi qiymət-

ləndirir, ona görə də hər kəsi bu situasiyada qətiyyət göstərməyə, mənliyini əldən verməməyə, insanlıq ləyaqətini qorumaqla başqalarına da eyni nümunəni göstərməyə vadar edir:

Əyilməzkən mələk insana, olmuş aqibət şeytan,
Nədən şeytana əbd olsun bu gün alinicat insan?

Molla Pənah Vaqifin "Görmədim" müxəmməsinin təsiri altında yazılmış eyniadlı şeirində şair I Dünya müharibəsi dövrünün rəzalətlərini, bədbəxtliyini, hər şeyin xəyanət və şər üzərində qurulduğunu böyük narazılıqla qələmə alır:

Hər məhəbbət bir xəyanət, hər gülüş bir hiylədir.
Hər səadət ruhu oxşar pək sönük bir şölədir.
Bəlkə var səhvim? Fəqət gördüklərim həp böylədir.
Görmədim, əsla bəladan başqa bir şey görmədim (2, 69).

Göründüyü kimi, Cavid romantikasının əsas xüsusiyyətlərindən biri odur ki, sənətkar yer üzündəki haqsızlığı, istismarı görür və buna qarşı özünün humanist, insanları birliyə, mənəvi təkamülə çağıran bəşəri məhəbbət ideyasını irəli sürürdü. O, məhəbbəti, sevgini təkcə ideoloji, fəlsəfi bir konsepsiya kimi irəli sürmür, onu həm də özünün pənahı, əbədi qibləgahı, tanrısı hesab edirdi:

Hər qulun cahanda bir pənahı var,
Hər əhli-halın bir qibləgahı var,
Hər kəsin bir eşqi, bir ilahı var,
Mənim tanrım gözəllikdir, sevgidir (2, 130).

1922-ci ildə qələmə aldığı "Mənim tanrım" şeirində şair göründüyü kimi, sevgi və gözəlliyi ən ülvi bir hiss kimi, ən ali bir din kimi səciyyələndirir. Cavid bütün şairlər kimi gözəlliyə vurğun idi. Sənətkarın həyat yoldaşı Müşkinaz xanım Cavid haqqında xatirələrində belə deyir: "Cavid dəfələrlə mənə deyərdi ki, gözəllik insanın təbiətində, insanın əməlində, insanın insana verdiyi xeyirdədir. Əgər istər təbiətdəki gözəllik, istərsə də insanlardakı gözəllik xeyirli bir şeyə yaramırsa, mən onu gözəl saymıram, ondan tam zövq almıram" (3, 46).

Cavid yaradıcılığında bütöv bir məhəbbət fəlsəfəsinə rast gəlirik. Onun bir çox hikmətli şeirlərinin məna və məzmunu məhəbbətlə yoğrulmuşdur və bəşəriyyəti ictimai bəlaların zülmətindən nurlu gələcəyə aparacaq bu böyük mənəvi gücə həsr edilmiş himn kimi səslənir:

Dünyada varsa devləti-cavid, o, eşqdir;
Olmaz sevib-sevilməyən ömründə bəxtiyar.

Hüseyn Cavidin "Qoca bir türkün vəsiyyəti" şeiri də onun məhəbbət konsepsiyasına əsaslanır və şairin insanlara nəsihəti səciyyəsini daşıyır. Şair belə deyir:

İlk istəyim: hiç bir zaman sevgidən əl çəkməyin,
İnsan oğlu sevgi için yaratılmış, doğmuşdur.
Yer üzünü qardaş bilin, insan qanı dökməyin,
Bu dünyada bir qaşıq su çoq zalımlar boğmuşdur.

Arslan kibi cəsur olun, fəqət haqsız çıqmayın,
Haqsızlığa qarşı qoyun, bıraqmayın şımarsın.
Zalımları, cəlladları çeynəyin, hiç qorqmayın,
Türk milləti, görülməmiş, boyun büksün, yalvarsın (2, 127).

Hüseyn Cavid yaradıcılığında poema janrının da özünəməxsus yeri vardır. Şair ilk poemalarını hələ XX əsrin əvvəllərində qələmə almışdır. Onun ilk poemaları əsasən lirik-romantik, yaxud romantik-fəlsəfi əsərlərdən ibarətdir. Bu poemaların əksəriyyətində süjet əlamətləri və obrazlar yox dərəcəsindədir. Həmin qəbildən olan poemalar sanki Cavidin lirik-romantik monoloqlarından yoğrulmuşdur. Həyata və insanlara romantik münasibət, bədii və fəlsəfi ümumiləşdirmələr bu poemaların əsas qayəsini müəyyən edir. "Bir ahi-məzlumanə" (1907), "İştə bir divanədən bir xatirə" (1912), "Hübuti-Adəm" (1913) poemalarında epik təsvirlərdən qat-qat çox lirik-romantik düşüncələr öz əksini tapmışdır. H.Cavidin yaradıcılığında ideya-sənətkarlıq baxımından ən kamil poeması, "Azər" (1926-1936) xüsusi yer tutur. Ayrı-ayrı müstəqil süjetli lirik parçalardan ibarət olan bu əsəri dastan da adlanlandırırlar. Əsərdəki lirik şeirləri birləşdirən Azər adlı ziyalı surətidir. Müxtəlif ölkələrdə olan Azər şahidi olduğu hadisələrdən danışır. Poemada "Səlmanın səsi", "Nil yavrusu", "İsyan", "İnqilab xırsızı", "Məzarlıqdan keçərkən", "Kömür mədənində" və s. lirik parçalar vardır. Bu poemada da sənətkar digər əsərlərində olduğu kimi, Şərq dünyasının dirçəlişi, birliyi və yüksəlişi məsələsini ön plana çəkir, çıxış yolunu hürriyyətdə görür. Əsərin baş qəhrəmanı Azər müxtəlif taleli adamlarla qarşılaşır, müxtəlif fəlsəfələrlə rastlaşır. Böyük hind ədibi Rabindranat Taqorun o zaman Avropada dəbdə olan, fəqət soyuq Qərb mühakiməsini tərpədə bilməyən "vicdan", "sevgi-məhəbbət" fəlsəfəsi ilə də tanış olur. Lakin həmin fəlsəfəni təhlil edərkən ona qoşulmur, tənqidi yanaşır və düzgün, məntiqi nəticə çıxarır:

Hindin əzilmiş mənliyi yapsa hər sözdə möcüzə,
Soyuqqanlı Qərb alışmış göz süzə, ya dodaq büzə.
Məzlum ellər üçün ancaq bir yol varsa: mübarizə!
Onsuz şübhə yox irəməz Şərq aləmi hürriyyətə (2, 163).

Qeyd etmək lazımdır ki, şair bu poemanı uzun müddət ərzində yazmışdır. Ona görə də, təbii ki, dövrlə, zamanla, siyasi-iqtisadi amillərin təkamülü və inqilabların təsiri ilə müəllifin özünün də dünyagörüşü elə həmin illərdə yeniləşməyə məruz qalır. Hüseyn Cavid əsərin "Nil yavrusu" bəhsində ərəb qızı Şəmsanın taleyini izləmişdir. Şəmsa Misirdən Qərbə gəlmişdir. Onun babası azadlıq aşiqi imiş, ingilislər onu ölümlər adasına sürgün etmiş, elə o zamanlardan etibarən Şəmsanın qismətinə qürbət ellər, yad ölkələr düşmüşdür. Ədib Şəmsanı təkbaşına mübarizə aparan bir qız kimi vermir, o, ərəb tələbələri ilə, hansı yollasa Qərbə düşmüş ərəb gəncləri ilə birgə, əlbir çalışır, inqilaba qoşulur. Lakin elə hallar olur ki, terrora

da əl atmalı olur. Bir ingilis müstəmləkəçisini, bəlkə də, onun babasının qatili olan bir lordu öldürməli olur və bunu da Vətəninin azadlığı naminə edir:

İki qurşunla bitirmiş gecə azğın lordu,
Bəlkə, azad nəfəs alsın yurdu.
Bəlkə, azacıq nəfəs alsın əzilən insanlar,
Axmasın Nilə günahsız qanlar (2, 182).

Sənətkar əsərdə müstəmləkəçiliyə, istismara qarşı çıxaraq Azərin dili ilə təxminən belə deyir: Mən Şərqin çox ölkəsini dolaşmışam, hər yerdə aclıq, səfalət görmüşəm, başqalarını yedirən, doyduran, bol məhsullu Şərqin özü bir parça çörəyə möhtacdır, Şərq Qərbin müstəmləkəçi rejimi altındadır.

Bu məsələ Cavidi bütün yaradıcılığı boyu çox narahat etmiş, onun yaradıcılıq azadlığı ilə bağlı mülahizələri, bir növ, azadlıq ideallarına söykənən fəlsəfi və ictimai-siyasi baxışları ilə üzvi vəhdət təşkil etmişdir. Cavidşünas alim Kamran Əliyev cəmiyyəti və insanı azad görmək idealı ilə yaşayan Cavid haqqında yazır: "Hüseyn Cavid romantizminin ideya mübarizəsində azadlıq problemi əsas yerlərdən birini tutur. Əslinə qalsa onun romantizmindəki mütərəqqi mahiyyət də məhz buna əsasən izah edilir. Hüseyn Cavid yaradıcılığında azadlıq ideyalarına rəğbət, onun uğrunda mübarizə ilk mərhələdən başlamış, lakin müxtəlif vaxtlarda öz səciyyəsini aydınlığa, həqiqi dərkə doğru dəyişmişdir" (4, 48-49).

Poemanın "Məzarlıqdan keçərkən" bəhsində Azərin diqqətini məzarlıqda ağlayan bir şəxs cəlb etmişdi. Həmin adam həyata, varlığa küsmüş kimi, bir məzarın önündə durub inləyirdi. Azər onu dinlərkən məlum olur ki, məzarda yatan bu gəncin vəfasız sevgilisi imiş. O, özünü tapança ilə vurmaq istərkən Azər ona mane olur və ağıllı nəsihətlər verir. O göstərir ki, qocaların qorxduğu bir şeyi dəliqanlı gənc özünə necə rəva görür:

Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli...
Yaşamaq da xoşdur, ölmək də xoşdur,
Qayəsiz həyatda ölüm də boşdur (2, 210).

"Azər" poeması H.Cavidin Qərbə və Şərqə, eyni zamanda Şərq-Qərb müstəvisində Azərbaycana baxışlarını geniş şəkildə ifadə edən mükəmməl sənət əsəridir. Azərin Qərb və Şərq ölkələrinə səyahətləri yeni tarixi mərhələdə dünya gedişatını öyrənmək, inkişafın ən məqbul yolunu seçmək məqsədini izləyir. Poemada həmin ölkələrin fərqli xüsusiyyətləri haqqındakı düşüncələr Azərin simasında dünyanı, sivilizasiyaları sintez etmək meylinin ifadəsindən ibarətdir (7).

Hüseyn Cavid mədəni, idraki yüksəlişi, haqlı olaraq, Şərqlə Qərbin sintezində görür. Onun fəlsəfi qənaətinə görə zəiflik ölümdür. Zəifin heç bir dünyada yeri yoxdur. Şairə görə həqiqət, düzlük hər cür bəzəkli, şirin yalandan qat-qat üstündür. Bəlkə də, hər şeyi həqiqətə

qurban vermək olar, həqiqət isə elə həqiqətdir, onu heç nəyin xatirinə qurban vermək olmaz. "Qaranlıqda nuru, xəyalda həqiqəti" duymaq, görmək türkün şərəfidir. Cavid bu əsərində də gələcəyə, çağdaş gəncliyə böyük ümidlər bağladığını vurğulayır. Poemanın "İsyan" bölməsində verilən aşağıdakı misralar bunu bir daha göstərir:

Bu gün gəncliyə baksan,
Bir sel kimi hər an
Sağlam, yeni məfkurələr izlər.
Bizlər yeniləşsək belə, daim,
Bir əskilik az-çox bizə hakim.
Onlar güləcək, güldürəcəklər,
Bizdən daha xoş gün görəcəklər (2, 241).

Şair Azərbaycandan kənarda olarkən də gözəl şeir nümunələri yaratmışdır. "Rəqs", "Hər yer səfalı", "Çəkinmə, gül", "Pənbə çarşaf", "Uyuyur", "Mən istərəm", "Kiçik bir lövhə", "Şeir məftunu", "Dəniz pərisi", "Son baharda", "Yadi-mazi" onun belə şeirlərindəndir. Lirik-fəlsəfi yaradıcılığını bütün ömrü boyu davam etdirmiş Cavid 1913-cü ildə nəşr etdirdiyi "Keçmiş günlər" və 1917-ci ildə nəşr olunmuş "Bahar şəbnəmləri" adlı şeir məcmuələrində müasir ictimai mühiti tənqid edir, köhnələn etiqadlara, din və fəlsəfələrə qarşı çıxır, eyni zamanda, fərdin arzuları ilə cəmiyyətin tələbələri arasındakı ziddiyyətləri açıb göstərməyi bir mütəfəkkir sənətkar, humanist şair kimi qarşıya qoyur (8).

Böyük fəlsəfi-əxlaqi ideyaların carçısı olan Hüseyn Cavid dramaturgiyası da poeziyası qədər zəngin və əhatəlidir. Azərbaycan dramaturgiyası üçün, demək olar ki, tamamilə yeni olan pyeslərində onun fikir və arzularını, ümid və xəyallarını əks etdirən, coğrafi sərhəd və milli məhdudiyyət bilməyən bir sıra qəhrəmanları dramaturqun sənət aləminin genişliyindən xəbər verir. Cavidin namus, qeyrət, ədalət, nəciblik, haqq işi uğrunda mübarizədə qəhrəmanlıq təlqin edən obrazları tamaşaçı və oxucular üçün həmişə təravətlidir. Onun mövzu dairəsi, toxunduğu hadisə və problemlərin miqyası, zaman, məkan və məna tutumu, bədii idrak və inikasının ölçüləri son dərəcə böyüyür, geniş və əhatəli xarakter alır. Şərqin bədii-fəlsəfi təfəkküründə bağlılıq, dünya mədəniyyətinin sərvətlərindən bəhrələnmək, eyni zamanda, orijinal düşüncə tərzi, müstəqil axtarışlar yolu ilə yüksəlmək Cavid şəxsiyyətinə, Cavid sənətinə təbiətən xas olmuşdur. O, nədən yazırsa yazsın, bir əsas konsepsiyanı izləmişdir ki, bu da insana məhəbbətdir. Hüseyn Cavid həm də "Azərbaycan dramaturgiyasına türk düşüncəsinin, ondakı epos təfəkküründün imkanlarını, potensialını gətirən" (1, 25) qüdrətli sənətkardır.

12 iyun 1981-ci ildə Sov.İKP MK Siyasi bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Respublika Yazıçılarının VII Qurultayındakı nitqində söyləmişdir: "Yazıçı sözü xalqın əməllərinə uyğun gəlməlidir. Gerçəkliyin bədii inikasının

başlıca obyekti müasirlikdir... Azərbaycan tarixinin bir çox parlaq səhifələri bədii ədəbiyyatda layiqincə əks etdirilməmişdir... tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, artıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər. Buna görə də tarixi mövzuda əsər yaratmağa girişməzdən əvvəl ədib öz qüvvə və imkanlarını götür-qoy etməli, böyük və ciddi hazırlıq işi aparmalıdır" (5, 39).

Ulu Öndərin sadaladığı bütün kriteriyalar Cavid yaradıcılığına xas olmuşdur. Görünür, bu səbəbdən Ümummilli Lider Heydər Əliyev Hüseyn Cavidin şəxsiyyət və yaradıcılığına həmişə hörmət və ehtiram bəsləmişdir.

Cavid irsi bugünümüz üçün də çox böyük əhəmiyyət kəsb edir. Çünki ədibin yaratdığı əsərlərdəki türkçülük, turançılıq ideyaları, tarixə bugünün reallıqları ilə yanaşmalar çağdaş ədəbiyyatşünaslara yeni-yeni fikirlərə və qənaətlərə gəlmək üçün əsas verir. Yaradıcılığında kifayət qədər çox istifadə etdiyi romantik kinayə vasitəsilə yaşadığı cəmiyyətin eybəcərliklərini tənqiddən çəkinməyən Cavid, eləcə də dəyərlərimizə sədaqət, millətimizə mədəniyyət aşılayır. Odur ki, Cavid sənətinin, Cavid əsərlərinin yeni təfəkkür tərzi ilə tədqiqi və araşdırılması günümüzün aktual məsələlərindəndir.

Görkəmli ədibin fəaliyyətinə həmişə yüksək qiymət verən Ümummilli Liderin sözləri ilə desək: "Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. Hüseyn Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır". Beləliklə, məqaləni Ulu Öndər Heydər Əliyevin sözləri ilə bitirərək, "Sizin hamınıza Cavid paklığı, Cavid təmizliyi, Cavid mənəviyyatı arzulayıram".

QAYNAQLAR:

1. Akimova E. Hüseyn Cavid yaradıcılığı: zamana baxış kontekstində. "Ədəbiyyat qəzeti". Bakı, 2015, 30 yanvar, s. 24-25
2. Cavid H. Əsərləri. Beş cilddə, I cild, Bakı: Lider nəşriyyat, 2005, 256 s.
3. Cavid M. Cavidi xatırlarkən. Bakı: İşıq, 1976, 48 s.
4. Əliyev K. Hüseyn Cavid: həyatı və yaradıcılığı. Bakı, Elm, 2008, 324 s.
5. Heydər Əliyevin dil siyasəti (rəsmi sənədlər). Bakı, Şirvannəşr, 2009, 136 s.
6. Qasımbəyli Y. Ulu Öndərlə böyük şairin əbədi mənəvi vəhdəti. "525-ci qəzet", 2014, 12 dekabr, s. 7.
7. http://az.baku-art.com/az/dahi-huseyn-cavidin-azer-es-rin-sh-rql-q-rb-m-fkur-si-m-st-visind-n-bir-baxish
8. https://clb.az/dosyalar/1214.pdf

NAXÇIVANDA TOY ADƏTLƏRİ

WEDDING TRADITIONS IN NAKHCHIVAN

Qumral MİRZƏYEVA
AMEA Folklor İnstitutu,
qumralnergiz@gmail.com

"Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz".

Heydər Əliyev

Özət

İnsan həyatında əhəmiyyət kəsb edən üç əsas mərhələ - doğum, evlənmə, ölüm – ilə bağlı mərasimlər hər zaman diqqət mərkəzində olmuşdur. Bu mərhələlərdən ikincisi olan evlənmə ilə bağlı ən geniş yayılmış mərasim isə toydur. Toy mərasimi öz daxilində də bir çox adət-ənənələri, inancları, ritual və mərasimləri əhatə edir. Bu mərasimlər ayrı-ayrılıqda özünəxas xüsusiyyətləri və zəngin mənəvi dəyərləri ilə fərqlənir. Həyatımızda önəmli yerə sahib olan toy mərasim və adət-ənənələri folklorumuzun müxtəlif janrlarında, xüsusilə nağıl və dastanlarında da öz varlığını qorumuş, keçmişdən bugünə olan dəyişimi ilə yaşamağa davam etmişdir.

Bildiyimiz kimi, bir cəmiyyətin inkişafı və ayaqda durmasının təməli sağlam ailə ilə başlayır. Bu ailənin qurulmasında və güclənməsində toy mərasimlərinin, adət-ənənələrinin də əhəmiyyəti olduqca böyükdür. Bunu göz önündə tutaraq məqalədə toy mərasiminin adət-ənələrindən, toyun ilk günü və ikinci günü, eyni zamanda elçilik, nişan, xına kimi mərasimlərdən də bəhs olunmuşdur. Maraqlı adət-ənənələri ilə seçilən bu mərasimlər bölgələrə görə özünəməxsusluğu ilə də fərqənir. Antologiyalarda olmayan bəzi məqamlar və detallar isə söyləyicilərdən toplanaraq məqalədə öz əksini tapmışdır.

Açar sözlər: toy, mərasim, elçilk, nişan, xına.

Summary

Ceremonies related to the three main stages of human life such as birth, marriage, death have always attracted attention. Wedding is the most popular ceremony related to the marriage being the second one of these stages. The ceremony "Wedding" includes many customs and traditions, beliefs, rituals and other ceremonies. These ceremonies differ with its spesific features and rich spiritual values. Wedding ceremonies and traditions that have an important place of our life, have protected its existence in various genres of our folklore, especially in fairy tales and epics, and contiued to live with change from the past to the future.

As we know, the foundation of a society's development initates with a healthy family. In the Establishing and strengthening of this family, wedding ceremonies and traditions have important role. Concidering all of these in the article it is said about the traditions of the wedding ceremony, such as the first and the second day of the wedding, the choice of the bridge, the engagement, henna party. Distinguished by its interesting traditions these ceremonies differ to the regions. Some points and details which are not in the anthologies are gived information from the narrators and reflected in the article.

Keywords: wedding, ceremony, the choice of the bridge, engagement, henna party.

Azərbaycan mədəniyyəti özündə mərasimlər, bayramlar, adətlər kimi xalq mədəniyyətinin əsas tərəflərini toplamışdır. Toy Azərbaycan xalqının ən qədim adət-ənənələri içərisində özünəməxsus xüsusiyyətləri ilə seçilən mərasimlərdəndir. Toy mərasimləri qədim və zəngin milli adətlərə söykənir. Nizami Muradoğlunun (6, s.293) vurğuladığı kimi, əvəllər düyün adı ilə tanınan, sonralar toy – düyün, hazırda isə toy kimi məşhurlaşmış bu mərasimin kökündə yeni bir ailənin cəmiyyətə təqdimatı əsas yer alır. Məlum olduğu kimi, "düyün" bağlamaq anlamında işlədilən ifadədir. Bu ifadə ilə iki ayrı cinsdən olan gəncin bir – birinə bağlanıb bir ailə yaratması nəzərə alınmışdır. Qədim zamanlarda ailə münasibətlərinin ilkin mərhələsində bu mərasim yığcam şəkildə keçirilmiş, sonrakı inkişaf pillələrində genişlənmişdir. Düyünün toy – düyün, toy adı qazanması da bu mərasimin getdikcə əhatə dairəsinin genişlənməsi ilə bağlı olmuşdur. Belə ki, qədim türk dilində "toy" yığıncaq, qurultay anlamında işlədilirdi.

Toy iki əks cinsli gənc arasında olan qarşılıqlı münasibətlərin ailə çərçivəsinə keçirilməsinin əsas amili olaraq qəbul edilir. Toy mərasimlərindən danışan zaman ilk olaraq toyun mərhələlərindən bəhs etmək lazım gəlir. Azərbaycan xalqının yaddaşında toy mərasimləri bir sıra adət-ənənələr kimi yaşamaqdadır ki, bunlara elçilik, nişantaxma, xınayaxma, oğul evləndirmə, qız köçürtmə, gəlin gətirmə, duvaqqapma və b. aid edilir. Toy mərasimləri musiqi, şadlıq, şənliklərlə zəngin olan adət-ənənələrin bir hissəsi olaraq xüsusi əhəmiyyət kəsb edir. Yeni yaradılmış ailənin cəmiyyətə təqdim olunması, onun yerinin məyyənləşdirilməsi toy mərasimləri ilə həyata keçirilir. Toy vasitəsi ilə ayrı-ayrı ailələr arasında qohumluq əlaqələri yaranır. Beləliklə, ailənin tayfaya, tayfanın nəsillərə çevrilməsi ilə cəmiyyətin əsası təşkil edilir.

Hər zaman xeyirxah adamlar, dostlar, qohumlar bir-birinə "Oğul toyu, qız toyu görəsən" deyə belə xeyir-dua verər, diləklər edərlər. Xalqımızın mədəniyyətində mühüm yerlərdən birini tutan toy mərasimi bölgələrimizdən asılı olaraq müxtəlif formalarda təşkil olunur. Bölgələrimizdən asılı olaraq müəyyən fərqliliklər olmasına baxmayaraq, ümumi toy prinsipləri çoxdur. Xalqımızın milli toy adətləri bir-birinə sistematik şəkildə bağlıdır. Lakin Naxçıvan toylarının bir sıra özünəməxsus özəllikləri vardır. Naxçıvan toylarında unudulmuş milli rəqslər, haxıştalar, alqışlar və müxtəlif əyləncəli oyunlar mütləq icra edilir. Bir çox bölgə-

mizdə olduğu kimi, Naxçıvanda da toya ilk öncə **elçiliklə** başlanılır. Lakin elçilkdən öncə ailə quracaq gənclər bir-birini görüb bəyənirlər. Əvvəllər bu proses daha çox yığıncaqlarda, bulaq başında və ya toylarda baş verərdi. Oğlan qızı bəyənib, qıza xəbər göndərərdi. Qız da razı olsa, oğlanı bəyənsə, onda oğlan evinə xəbər göndərilir ki, elçiləri gəlsinlər. Elçilyə oğlan evindən olan ağsaqqal və ağbirçəklər gedirlər. Burada daha çox qadınların rolu üstünlük təşkil edir. Əgər qadınlar əvvəldən razılığı almışlarsa, o zaman elçilik çox rahat olur. Yox əgər əksi baş verirsə, razılaşma bir qədər vaxt alır. Söyləyici Nailə xanımın (S:1) verdiyi məlumata əsasən öyrənirik ki, Şərur rayonunun, Diyadin kəndində elçilik, adətə görə, üç mərhələdə təşkil edilir. Belə ki, elçiliyə ilk olaraq üç qadın gedir. Qızın anası ilə danışıb razılıq alırlar ki, növbəti elçiliyə kişilər də gəlsin. Əgər qız anası razılıq versə, ikinci dəfə üç qadın və üç kişi qız evinə gəlirlər. Bu zaman onlar gələndə əllərində bir yaylıq, bir də qutuda şirni aparırlar. Yaylığı qızın başına bağlamaqla "hə" cavabı alınmış hesab olunur. Üçüncü dəfə getdikdə isə artıq üzüktaxma mərasimi olur. Bu mərasimdə həm qadınlar, həm də kişilər iştirak edirlər. Qızdan ərə getmək haqqında fikrini bir daha soruşurlar. Bu zaman qız üzə çıxmır, başqa otaqda olduğu üçün qız evindən bir nəfər gedib qızın fikrini öyrənir. Qız "hə" cavabını verən zaman böyüklərdən bir adamın "mübarəkdir" deməsi ilə qonaqlara şirinçay verilir. Oğlan evi isə, adət-ənənəyə görə çayı içən zaman nəlbəkiyə şirinlik olaraq pul qoyur. Elçilkdə iştirak edən qadınlar oxuyurlar:

Söz almağa gəlmişik,
Tez almağa gəlmişik.
Biz oğlan adamıyıq,
Qız almağa gəlmişik (6, s.295)

Daha sonra isə **nişan** vaxtı dəqiqləşdirilir. Nişan mərasimi daha geniş şəkildə təşkil olunur. Naxçıvanın toy adətlərindən məlumat verən Leyla xanım (S:2) əvvələr Şərur rayonunda nişan günü bəyin qız evinə getmədiyini qeyd edir. Yəni toy olana qədər nə qız oğlan evinə, nə də oğlan qız evinə gedə bilməzdi. Onlar ancaq axşam vaxtı bir-birini görərdilər. Naxçıvanda adətə görə nişanın bütün xərcini oğlan evi çəkir. Nişandan əvvəl oğlan evi ətini, qəndini, çayını, şirnisini, şəkərini (kimin imkanı nəyə çatardısa) qız evinə göndərir və buna da "xərci xörək" deyilir. Bu bir adətdir ki, nişana gəlinirsə, əvvəldən onun yeməyini göndərmək lazım idi. Nişan mərasimində hər iki tərəfdən olan əsas qohumlar iştirak edirlər. Bu zaman yeni qohumlar bir-biri ilə tanış olurlar. Nişan günü qız üçün lazım olan hər şey qırmızı lentlə bəzədilmiş xonçalarda gətirilir. Bundan əlavə müxtəlif şirniyyatlar, paxlava, şəkərbura və növbənöv konfetlər də xonçalarda yığılır. Bütün qonaqlar yeyib-içib şənlənir. Bu məclisdə qadınlar ayrı, kişilər isə ayrı otaqda otururlar. Daha sonra gəlin əyləşir və oğlanın bacısı (bacısı olmasa, yaxın qohumlardan bir qadın) üzüyü qızın barmağına taxmağa çalışır. Bu vaxt üzüyü taxan deyir: "üzük keçmir". Onda qızın anası üzüyü taxana xalat verməlidir. Ana üzük taxanın hədiyyəsini verdikdən sonra oğlanın bacısı üzüyü qızın barmağına taxır, başına isə qırmızı şal salır. Qonaqlar bir-bir gəlini öpüb təbrik edirlər.

Naxçıvan adətlərinə görə, nişan günü bişirilən yeməklərdən və şirniyyatlardan hələ qonaqlara paylanmadan öncə bəy üçün xüsusi pay ayrılıb, xonça tutulub, oğlan evinə göndərildiyini, bəyin ilk öncə nəmər verib daha sonra gələn xonçanı ala bildiyini öyrənirik (S:2).

Bu adət cənub bölgəmizdə də icra olunur. Söyləyici Aybəniz xanım (S:3) nişanlı qızlara qız toyundan əvvəl xərc verildiyini, bunun "xırdabi" adlandığını vurğulayır. Bu xərci musiqi sədaları altında aparırlar. Yəni xərc oğlan evində musiqi sədaları altında böyük bir maşına yığılır. Bundan əlavə səkkiz, on arası minik maşını ilə cavanlar, yəni bəyin yaxınları, qohumları və çalğıçılar qız evinə yollanırlar. Qonaqlar qız evinə çatanda həyətdə çalıb oynayır və daha sonra apadıqları xərci verib oğlan evinə qayıdırlar.

Şərurda toylar üç gün davam edərdi. Əvvəllər qız evində toy çalınmazdı. Toy yalnız oğlan evində keçirilirdi. Toyu əsasən həftənin cümə, şənbə və bazar günləri təşkil edirdilər (S:2).

Toyun birinci günü oğlan evindən qız evinə xonça aparırılır, bu mərasim paltar biçmə adlanır. Qız evində də buna görə hazırlıq edilir. Yeməklər bişirilir, süfrə açılır. Həmin gün oğlan evi çalğı ilə birlikdə qız evinə gəlir. Bu mərasimdə bütün cavanlar, əsasən də qadınlar iştirak edir. Oğlan evindən gələnlər qız evində çalıb oynayırlar. Daha sonra qadınlardan biri uca bir yerə qalxaraq xonçaları nümayiş etdirməyə başlayır və bu zaman həmin qadın "çamadan açılmır" deyir. Qız evi onun xalatını verəndən sonra çamadan açılır və gəlinə nə alınıbsa, hamısı nümayiş etdirilir. Xonçaları nümayiş edən bəxtindən yarıyan ailəli qadın olmalıdır (4, s. 34). Bura gəlin üçün alınmış geyimlər, çantalar, ayaqqabılar, zinət və bəzək əşyaları aiddir. Qız evi tərəfdən bir qadın qayçını əlinə alıb "qayçı parçanı kəsmir" deyəndə oğlan evindən gələnlər həmin qadına xalat verirlər. Buna "qəçikəsdi" mərasimi də demək olar. Baxan hər kəs bir ağızdan "mübarəkdir" deyir. Bu gün kimin əlində xonça olardısa, qız evi onların hamısına xalat verməlidir.

Oğlan evində toy gecə saat ikiyə, üçə qədər davam edərdi. Bu adət Ordubad rayonunda da icra olunur. Ordubadda toyun üç gün davam etiyini Nəcəfova Səltənətdən (S:4) öyrənirik. Toyun birinci gününə xalat günü deyərdilər. O günü oğlan evindən qız evinə xalat gələrdi, paltar kəsərdilər. Oğlan evi özü ilə bir dərzi gətirərdi. Dərzi alınmış parçalardan kəsib gəlin üçün paltar tikərdi.

Toyun ikinci günü. Səhər saatlarından artıq çalğıçılar çalar, cavanlar oynayardılar. Şərur toylarında axşamlar "Qaz-qazı" oyunu onamaq əski adətlərdəndir. Bu yallının bir növüdür və qrup halında icra olunur. Bu zaman toybəyi əlində bir çubuqla oynayır, arxasından isə kəndin cavanları qrup halında onu müşayiət edirlər. Oyunun şərtinə əsasən musiqi kəsilən kimi toybəyi gedib əlinə nə götürdüsə, hamı ondan götürməlidir. Deyək ki, toybəyi bir dəsmal götürdü, hamı dəsmal götürməli idi. Və ya gedib bir uşağı qucağına aldısa, yenə oyunda iştirak edənlər də eynisini etməli idi. Bu zaman uşaq tapmayanda böyüklərdən kimisə qucaqlarına alanlar da olardı. Çünki oyunçular toy bəyinin hərəkətlərini təkrar etməsəydilər, onda toybəyi onları əlindəki çubuqla möhkəm vuraraq cəzalandırardı. Beləlilklə, bu oyun çox əyləncəli, gülməli davam edərdi. Belə oyunlar toylara xüsusi bir maraq qatır. Bundan əlavə, Naxçıvan toylarında bəyin ayaqqabılarını oğurlamaq, xoruz oğurlamaq kimi

adətlər də vardır. Bəy nə vaxt düşüb ortada oynadı, onda bəyin sağdış-soldışı bəyi əzizləmək mənasında göyə qaldırır, bu zaman bəyin ayaqqabılarını ayağından çıxardıb qaçırdırlar. Bəyin dostları nəmər verib ayaqqabıları geri gətirənə qədər bəy dostlarının qucağında gözləyir. Bu özü də toya əyləncə, şənlik qatan bir adətdir. Toyun ikinci günü axşamlar qız evindən gəlib oğlan evində hər kəsin başı qarışıq olan zaman bir xoruz oğurlamaq adəti də vardır. Bu xoruzu qız evi kəsib bəy üçün xüsusi bişirib hazırlandığı da söylənilir (S:1; 2).

Naxçıvan toylarında icra edilən milli rəqslərdən biri də "Yallıdır". "Yallı" oynamaq çətin olduğu qədər də məsuliyyətlidir. Xüsusən yallının "Tənzərə" növü diqqət tələb edir. Bir nəfərin addımını səhv atması ilə oyunun ritmi pozular, dağıla bilər. Bu oyunda qadın və kişilər əllərinin çeçələ barmaqları ilə bir-birindən tutaraq oynayırlar. Dəstənin başında gedən aparıcı sağ əlindəki yaylığı yelləyərək ritmik hərəkətləri sanki nizamlayır:

Oynamaqdan ötrü neçə sinədə,
Ana, bacı qəlbi üzüldü burda.
Dindi "Naxçıvanı",
Dindi yenə də,
"Naxçıvan yallısı" düzüldü burda (6, s. 302).

Toyun ikinci günü axşamtərəfi qız evi oğlan evinə gələr və bəyi rəqsə dəvət edərdilər, buna "bəyi oynatma" da deyirdilər. Bu zaman "bəy tərifi" deyilir və bəyin dayısı, əmisi, yaxınları gəlib bəyə xələt verirlər.

Xına mərasimi toyun ikinci günü təşkil edilir. Adətə görə, Şərur rayonunda xına mərasimini axşam edirlər. Xınanı evdə isladıb birinci bəyin əllərinə, daha sonra aparıb gəlinin əllərinə yaxardılar. Oğlan evi qiz evinə çatanda yenə adətə görə çalıb oynayar daha sonra orda olan hərkəs bir-bir əllərinə xına yaxardı. Ən sonda isə gəlinin əlinə ayağına xına yaxılardı. Gəlinin əlinə xına yaxan cavanlar haxışta deyərdilər:

Gedin deyin anasına, haxışta!
Əllərə xına yaxallar, haxışta!
Versin mənə qızını, haxışta!
Tellərə xına yaxallar, haxışta! (2, s. 76).

Ay qız adın Mastana, haxışta,
Girmə bizim bostana, haxışta.
Qorxuram yağış yağa, haxışta,
İpək telin isdana, haxışta.

***

Ayım, ulduzum ay qız, haxışta,
İstotum duzum ay qız, haxışta,
Gəl alım qardaşıma, haxışta,
Olum baldızın ay qız, haxışta.

***

Araba bizim olaydı, haxışta,
Yükü qızıl olaydı, haxışta.

Yarla keçən günlərin, haxışta,
Gecəsi uzun olaydı, haxışta (1, s. 293).

Bu adətin Ordubadda isə belə icra olunduğu söylənir: toyun ikinci gününə xına gecəsi də deyərdilər. Bu gün yalnız qadınlar bu mərasimdə iştirak edə bilərdilər. Səhərdən axşama qədər ancaq çalıb oynayar, şənlənərdilər. Daha sonra hamama gedərdilər. Qayıdandan sonra isə yeyib, içmək təşkil edilərdi. Yemək bitəndən sonra yenə qadınlar çalıb-oxuyub oynayardılar və əllərinə xına yaxardılar.

Xına gecəsini maraqlı edən orada söylənən hakuşkalarla yanaşı göstərilən tamaşalar idi. Belə tamaşalardan ən maraqlısı və əyləncəlisi isə "Qılıq dəyişdirmə" ilə "Gəlin" tamaşasıdır. Folklorşünas M.Məmmədovanın (9, s. 155-156; 10, s. 112-114) tədqiqatlarından məlum olur ki, Azərbaycanın Naxçıvan, xüsusilə Şahbuz, Şərur və Ordubad bölgələrinə xas bu cür maraqlı qılıq dəyişmə tamaşalarına Anadoluda da rast gəlinir. Bu cür tamaşalar Xına gecəsinin maraqlı adətlərindən olmaqla yanaşı, mərasim iştirakçılarının gülüb əylənməsində, xoş vaxt keçirməsində əhəmiyyət kəsb edir.

Toy günü adətlərindən ən maraqlıları isə toyda icra edilən oyunlardandır. Xüsusilə toyun ilk günü axşam vaxtı qılıq dəyişdirilərək ortaya düşüb çıxarılan oyunlar, göstərilən tamaşalardır. Bundan başqa toy günü oynanılan maraqlı oyunlara və adətlərə misal olaraq "Asma-kəsmə", "Bəy oynatma, bəy tərifi", "Şax gətirmə", "Bəyin oğurlanması", "Qabaq kəsmə", "Cıdır yarışları" vb. nümunə göstərilə bilər (7, s. 147-149). Eyni zamanda toy günü icra edilən maraqlı oyunlardan "Üzük-Üzük", "Qızbaşı", "Öğlanbaşı" və s. oyunlarının da adlarını çəkə bilərik (8, s. 26). Gördüyümüz kimi toy mərasimimiz sadəcə adət-ənənələri ilə deyil, həm də maraqlı və yaddaqalan əyləncəli oyunları ilə də diqqətçəkən zənginliyə sahibdir.

Toyun üçüncü günü gəlini ata evindən köçürürdülər. Naxçıvan adətlərinə görə, bəy gəlingətirmədə iştirak etməzdi. Qayınata gəlinin əllərinin içinə pul qoyub dəsmalla bağlayar, başındakı papağı çıxardıb gəlinin başına qoyardı. Bu zaman qız evi qayınataya nəmər verərdi. Gəlin köçən günü qız evindən mütləq şəkildə xonçalar aparılmalıdır. Adətə görə, mütləq ağ rəngli toyuq bəzədilib qırmızı lent bağlanılıb gəlinin yanında aparılar. Bunu bir oğlan uşağının aparması önəmli hesab edilirdi. Bununla qız evindən oğlan evinə ruzi-bərəkət aparıldığına inanılır. Bundan əlavə, xonçalarda müxtəlif şirniyyatlar da göndərilir. Həmçinin qız anası duvaq günü üçün qıza xüsusi duvaq geyimi qoymalıdır. Ordubad adətlərinə görə, qız ata evindən köçəndə onun ayağının altına süzgəc qoyar və süzgəcin altında şam yandırardılar. Bu, gəlinin yolunun işıqlı olmasını bildirir (4, s. 32). Vəfa Tağıyevadan (S: 5) öyrəndiyimiz məlumata görə, oğlan evindən gələnlər qız evindən mütləq qab, qaşıq, çəngəl, əllərinə nə keçsə idi götürərdilər və gəlini köçürən zaman yol boyu həmin qab-qaşığı bir-birinə vura-vura səs salaraq gəlini aparardılar. Bununla şər qüvvələri qovduqlarına inanardılar.

Naxçıvan və Ordubadda gəlin gələndə bəy uca bir yerə çıxar, ordan gəlinin başına alma və müxtəlif şirnilər atar. Bu adət hələ də yerinə yetirilir. Gəlini gətirən günü oğlan evində mütləq üzərlik yandırardılar. Ordubad adətlərində gözdəyməni aradan qaldırmaq üçün üzərlik salardılar. Üzərliyi ovucun içinə qoyar, sağ əllə onu alışdıraraq deyərlər:

Üzərliksən havasan,
Dərdə-sərə dəvasan,
Səni oda salarlar,
Qada bala sararsan.
Çıxdım uca dağ başına,
Dedim: Ya Əli, Ya Məhəmməd,
Dedi: nədir, ey biçarə bəndə,
Dedim bu dərdə çarə
Dedi: korlu-koslu üzərlik,
Başı börklü üzərlik.
Onu oda salarsan,
Qada bala sararsan (4, s. 21-22).

Toy mərasimi müxtəlif adət-ənənələri ilə yanaşı maraqlı inancları ilə də diqqəti çəkir. Belə maraqlı inanclardan biri də odur ki, gəlin oğlan evinə qədəm qoyduğu zaman ayağının altına boşqab qoyulur. Gəlin qabı bir dəfəyə qırmalıdır. Qabı gəlin qırdısa, demək gəlinin sözü keçərli olacaq. Həmin qabın qırılmış parçalarından isə subay qızlar aparıb öz balınclarının altına qoyar və gələcəkdəki nişanlısını yuxuda görəcəklərinə inanarmışlar. Digər bir inanca görə, subay qızlar gəlinin ayaqqabısının altına öz adlarını yazır, hansı qızın adı ayaqqabının altından daha tez silinsə, o qızın yaxın zamanda gəlin gedəcəyinə inanarmışlar.

Qızların ailə quraraq kəndin hansı tərəfinə gedəcəyini bilmək üçün də müxtəlif adətlər icra edilir. Gəlin ayaq üstdə durur və ayaqqabını qapıya tərəf atır. Əgər ayaqqabı sağ tərəfə düşsə, qız kəndin sağ tərəfinə, sol tərəfə düşsə, kəndin sol tərəfinə gedəcəyinə, tam ortaya düşsə, tezliklə ailə quracağına inanarmışlar.

Ata evindən köçürülən qızın getdiyi yerə xeyir-bərəkət götürməsi ilə bağlı da belə bir adət yerinə yetirilir: gəlini evdən çıxaranda qız evi oğlan evi adamlarının üstünə un atar. Yəni gəlin evdən bərəkət aparır. Eyni zamanda gəlin gedəndə avcının içinə bir daş qoyurdular, deyirdilər: Ay gəlin, bu daş kim ağır ol. Bu daş dillənəndə sən də dillən (2, s. 32).

Qız köçdükdən sonra toyun səhəri günü "duvaqqapma" mərasimi keçirilir. Söyləyicilər Səltənət və Leyla xanımdan (S: 2; 4) aldığımız məlumatdan bizə aydın olur ki, bu gün Ordubadda mütləq şəkildə qayğanaq, cilov kimi əsas tərkibi yumurta və baldan hazılanan şirniyyatlar, Naxçıvanda isə əsasən düyü unu və şəkərdən hazırlanan zirətov adlı bir şirniyyat bişirilərdi. Bunları qızın anası bişirib "duvaqqapdı" günü gəlinə göndərər və mütəq şəkildə gəlinə ondan yedirərdilər. Bu mərasimdə əsasən orta yaşlı qadınlar iştirak edərdilər. Qonaqlar yığılar, yeyib-içib oynayardılar. Daha sonra gəlini geyindirib gəlin paltarında məclisə gətirərdilər. Bu mərasim xüsüsi şəkildə yerinə yetirilərdi. Bir oğlan uşağı iki oxlovla gəlinin fatasını başından götürərdi, yəni duvağı qapılardı. Götürülən duvağı aparıb bir tut ağacının başına atarmışlar və axşama qədər orda qalarmış. Tut ağacı barlı, bəhrəli olduğundan gəlinin də ruzili-bərəkətli, oğullu-qızlı olması üçün belə edərlərmiş. Şərur rayonunda isə duvaq günü gəlinin cehizləri çamadanda gətirilib məclisin ortasına qoyulur və bu cehizlər nümayiş etdirilir (S: 2, S: 4).

Nəticə: Azərbaycan folklorunda xüsusi yeri olan toy mərasimi və adətləri bölgələrimizə görə özünəxas xüsusiyyətləri ilə seçilir. Qızistəmədən tutmuş, elçilik, toy, xına, duvaq-

qapma mərasimləri və bu mərasimlərin özünəxas adət-ənənələrdə və inanclarda müasir dövrümüzdə şəhər həyatında eyniləşmə prosesi getsə də, hələ də bölgələrimizdə, xüsusilə Naxçıvan, Şərur, Qarabağ bölgələrində öz spesivik xüsusiyyətlərini qoruyub saxlamışdır. Bəzi adətlər yaşasa da, bəzilərinin də unudulmağa üz tutduğunu etiraf edə bilərik. Araşdırma söyləyicilərdən toplanıb verilən örnəklər vasitəsilə unudulmaqda olan bu dəyərlərimizin yaşadılması məqsədinə xidmət edir. Toplanan məlumatlardan da gördüyümüz kimi, toy mərasim və adət-ənənələri, inancları öz zənginliyi ilə diqqət çəkir və bu zənginliyin qorunub saxlanması, gələcək nəsillərə ötürülməsində aparılan araşdırmalar və toplanan materiallar xüsusi əhəmiyyət kəsb edir.

QAYNAQLAR:

1. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı, “Sabah”, 1994, 388 səh.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru III kitab, 2012, 560 səh.
3. Azərbaycan folkloru antologiyası. IX kitab (Gəncəbasar folkloru), Bakı, “Səda” nəşriyyatı, 2004.
4. Azərbaycan folkloru antologiyası. XXIII kitab (Naxçıvan örnəkləri) 2-ci cild, Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2012, 332 səh.
5. Heydər Əliyev. Müdrik fikirlər. I kitab: Dövlətçilik, müstəqillik və demokratiya haqqında: iyun, 1993 - oktyabr, 1998. Bakı: Çaşıoğlu, 2008, 399 səh.
6. Nizami Muradoğlu (Məmmədov). Çağdaş poeziya və folklor. Bakı, “Elm və Təhsil”, 2021, 392 səh.
7. Məleykə Məmmədova. Azərbaycan və Anadolu folklorunda oyun və tamaşalar. Bakı, “Elm və təhsil”, 2014, 208 səh.
8. Məleykə Məmmədova. Azərbaycan və Anadoluda Toy Mərasimi Oyun və Tamaşaları. Journal of Qafqaz University-Philology and Pedagogy, Volume 2, Number 1. Bakı, 2014, s.23-33.
9. Meleyke Memmedova. “Azerbaycan ve Anadolu Kına Gecesi”. Motif Akademi Halkbilim Dergisi. C.10, S. 19, 2017, s.149-159.
10. Məleykə Məmmədova. *“Azərbaycan və Anadolu folklorunda xına gecəsi mərasimi”*. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, “Elm və təhsil”, 2022/1 (58), s.106-118.

Söyləyicilər:

1. Abbasova Nailə Paşa qızı, 1982, Naxçıvan MR, Şərur rayonu, orta təhsilli, ev xanımı.
2. Ələkbərova Leyla İlyas qızı, 1979, Naxçıvan MR, Şərur rayonu, orta təhsilli, ev xanımı.
3. Əliyeva Aybəniz Firat qızı, 1960, Füzuli rayonu, ali təhsilli, musiqi müəllimi.
4. Nəcəfova Səltənət Yusif qızı, 1961, Naxçıvan MR, Ordubad rayonu, Anabat kəndi, orta təhsilli tibb bacısı.
5. Tağıyeva Vəfa Baba qızı, 1987, Naxçıvan MR, Ordubad rayonu, Yuxarı Əylis kəndi, orta təhsilli, ev xanımı.

ƏHMƏD BƏY AĞAOĞLUNUN MƏTBU FƏALİYYƏTİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR VƏ MƏDƏNİYYƏT KONSEPSİYASI

THE CONCEPT OF NATIONAL-MORAL VALUES AND CULTURE IN THE PRINTING ACTIVITY OF AHMED BEY AGAOGLU

Mahir Heydər oğlu QƏRİBOV
Tarix üzrə fəlsəfə doktoru,
mahir_garibov@yahoo.com

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir".
Heydər Əliyev

Özət

Türk dünyasının böyük mütəfəkkirlərindən olan Əhməd Ağaoğlu özünün elmi araşdırmaları və publisistik məqalələrində hər zaman mədəniyyətin inkişafı üçün islahatçı mövqedən çıxış etmişdir. O, şərq mənəvi dəyərləri ilə çağdaş Avropa dəyərlərini öz mütəfəkkir düşüncəsində və əsərlərində uğurlu şəkildə sintez edib. Bu araşdırmada, müasir Azərbaycan gəncliyinə örnək olması baxımından Ağaoğlunun yorulmaq bilmədən çalışmaq, öyrənmək və görüb-götürdüklərini doğma vətənində yaratmaq arzularının göstəricisi olan məqamlar diqqətdən yayınmır.

Açar sözlər: Əhməd Ağaoğlu, islam, Qərb, Budda-Brahma, üç mədəniyyət konsepsiyası

Summary

Ahmet Agaoglu, one of the great thinkers of the Turkic world, has always taken a reformist position for the development of culture in his scientific studies and journalistic articles. He successfully synthesized Eastern spiritual values and modern European values in his thinking and works. In this article from the point of view of being an example for modern Azerbaijani youth, Agaoglu's desire to work tirelessly, learn and create what he saw in his native land does not go unnoticed.

Keywords: Ahmad Agaoglu, Islam, West, Buddy-Brahma, three cultures concept

Türk dünyasının böyük mütəfəkkiri, millətinin mənafeyi uğrunda yorulmadan mü-barizə aparan Əhməd bəy Ağaoğlu milli qurtuluşa gedən yolun cəmiyyətin mədəni inkişafından və təhsildən keçdiyini bildirirdi. O, şərq mənəvi dəyərləri ilə çağdaş Avropa dəyərlərini öz mütəfəkkir düşüncəsində və əsərlərində uğurlu şəkildə sintez edib. Onun yaradıcılığında xüsusi yer tutan "Üç mədəniyyət" əsərini 1919-1920-ci illərdə Maltada sürgündə ikən yazmış və həmin əsər 1927-ci ildə İstanbulda çap olunmuşdur. Əsər ədibin dünyagörüşünün konseptual tərəflərini öyrənmək baxımından olduqca dəyəlidir. Dünya sivilizasiyasının Budda-Brəhmən, Qərb, yaxud Avropa və İslam kimi üç nəhəng mədəniyyət şaxələrinə söykəndiyini xarakterizə edən ədib onların müştərək və fərqli məqamlarını açıqlayır (1, s.70).

"Mədəniyyət" anlayışı və yeni mədəniyyət konsepsiyası Ağaoğlu yaradıcılığında epizodik xarakter daşımamış, əksinə daha da dərinləşmiş və onun yaradıcılığında mühüm yer tutmuşdur. Əhməd bəy Ağaoğlunun mədəniyyətə dair düşüncələri ayrı-ayrı məqalələrində, ən əsası isə "Üç mədəniyyət" əsərində konsepsiya şəklində ifadə olunmuşdur. Bu konsepsiyasının ilk mərhələsində o, daha çox müqayisələrə üstünlük verir. Avropa mədəniyyəti ilə Şərq və Qərb mədəniyyətini qarşılaşdırır, müqayisə edir və xalqın milli şüurunun hansı istiqamətdə formalaşması məsələsində olduqca qiymətli fikirlər irəli sürür. Bu əsərdə Ə. Ağaoğlu dünya sivilizasiyasının beşiyi olan Şərq mədəniyyətinin tənəzzülünün səbəblərini göstərməklə yanaşı, Qərb mədəniyyətini mənimsəmə yollarını da xarakterizə etmişdir. O, əsərinin ilk nəşrinə "Ön söz"ündə yazırdı ki, əsərin mövzusu dünyada yan-yana yaşayan üç mədəniyyətdən birinin, yəni Qərb mədəniyyətinin digərlərinə qalib gəldiyini və dolayısı ilə qurtuluşumuz üçün bu mədəniyyəti olduğu kimi mənimsəməkdən başqa çarə olmadığını göstərməkdir (2, s. 19).

Ə.Ağaoğlu "Üç mədəniyyət" əsərində əvvəlcə "mədəniyyət" anlayışının mücərrəd məna daşımasını önə çəkir və bunun üçün bu anlayışın özünün mahiyyətini açmağa çalışır. O, "mədəniyyət" anlayışını "sivilizasion" anlayışı ilə bərabər tutaraq ona verilən tərifləri ümumiləşdirmiş və bu qənaətə gəlmişdir: "Biz bu deyimi, zənnimizcə, bütün tərifləri əhatə edən və bu kəlməyə ən geniş mənanı verən "Həyat tərzi" olaraq qəbul edirik. Belə ki, mədəniyyət demək "həyat tərzi" deməkdir. Yalnız həyat qavramını ən geniş və əhatəli bir mənada anlamaqdır. Həyatın bütün təcəlliləri, maddi və mənəvi bütün olaylarını o qavram əhatə etməlidir" (3, s. 24).

Aydındır ki, islam dünyasının Qərb mədəniyyəti qarşısında geri qalması fikri XIX yüzilliyin ortalarından başlayaraq "Gənc türklər"in yaradıcılığında, XX əsrin əvvəllərindən isə Azərbaycan ədəbi, ictimai fikrində bu və ya digər şəkildə ifadə edilmiş və bu proses XX əsrin 20-ci illərinə qədər davam etmişdir. Türkiyədə cümhuriyyətin qurulması ilə bu istiqamətdə araşdırmaların aparılmasına bir növ zəmin yaratmışdır. Dövrün bir sıra ziyalıları Türkiyə Cümhuriyyətinin qurulduğu ilk illərdə qurtuluş yolu olaraq gah islam, gah türk-islam,

gah da türk birliyini əsas götürürdülər. Ə. Ağaoğlu isə tamamilə fərqli bir yolla gedirdi. Bu, sonralar Türkiyə Cümhuriyyətinin tutduğu Qərb mədəniyyəti yolu idi. Bu da, heç şübhəsiz, Ə. Ağaoğlunun siyasi hadisələrin axarının əvvəlcədən müəyyənləşdirə bilməsini bir daha təsdiq etmiş olurdu.

Ötən əsrin ikinci onilliyində Ziya Göyalp da "Türk yurdu" dərgisində bu istiqamətdə yazdığı məqalələrində, bunu "Türk millətindənəm, islam ümmətindənəm, Batı (Qərb, Avropa) mədəniyyətindənəm" şəklində formulə edir. Böyük fikir adamının bu istiqamətdə araşdırmaları əvvəlcə "Türkləşmək, islamlaşmaq, müasirləşmək", daha sonra isə "Türkçülüyün əsasları" kitablarının nəşri ilə nəticələnir. Bu əsərlərində Z.Göyalp milli kültür və mədəniyyət anlayışlarına aydınlıq gətirərək yazırdı: "Türkçülər tamamilə türk və müsəlman qalmaq şərtilə Qərb mədəniyyətinə tam və qəti bir surətdə girmək istəyənlərdir. Ancaq Qərb mədəniyyətinə girmədən öncə milli kültürümüzü arayıb taparaq meydana çıxarmağımız tələb olunur" (4, s. 50). Bu mədəniyyətlər arasında "qarşılıqlı əlaqələr", "sıx təmaslar" vardır. O, bu mədəniyyətlərin içərisində səkkiz milyonluq Budda-Brahma, Qərb və ya Avropa və islam mədəniyyətlərinə toxunaraq onların yayılma coğrafiyasını da göz önünə gətirir. Bu müxtəlif mədəniyyət zümrələrinin yayılma sahəsinə nəzər yetirən Ə.Ağaoğlu qan, cins, rəng və dil dəyişikliklərinə rəğmən, onların bəzi ortaq və ümumi tərəflərini üzə çıxarır. Ümumi tərəflər insanların yalnız görünüşlərinə deyil, eləcə də daxili dünyasına – onların ruhi hallarına, görüş tərzlərinə və zehniyyətinə qədər gedib çıxır. Bu bənzəyiş hər üç mədəniyyətə sahib olan insanlar arasında da vardır. O, daha sonra üç mədəniyyət arasında oxşar və fərqli cəhətləri əhatə edən məsələləri iki qismə bölür: maddi və mənəvi. Maddi qisim dedikdə o, geyimlərin şəkli, binaların forması, ibadət və ayinlərin icra tərzini, mənəvi qisim dedikdə isə düşüncə və duyğunu nəzərdə tuturdu. O, ikinci qismin yayılma arealını daha geniş və əhatəli hesab edərək bu mədəniyyətlərin tarixinə ekskurs edir. İslam aləminin hər tərəfindən gəlmiş alimlər, ədiblər ərəb və fars dillərini mükəmməl bilməklə bir yerə toplanıb akademiya qurduqları kimi, qərbli alim və yazıçılar da fransızcanı, ingiliscəni, almancanı, üstəlik əski latıncanı da öyrənirdilər. Onun fikrincə, XIX əsrdə mətbəəçilik və əlaqələrin inkişafı Qərb mədəniyyətini önə çıxarmışdır. Ə. Ağaoğlu onları qarşılaşdırarkən Qərb mədəniyyətinin üstün durumda olduğunu qeyd edir. Yəni Qərb mədəniyyətini qalib, Budda-Brahma və islam mədəniyyətinin isə məğlub durumda olduğunu iddia edir. Əlbəttə, bu cür fikirləri o dövrdə səsləndirmək böyük cəsarət tələb edirdi. Ona görə ki, hələ də sivilizasiya, idarəetmə baxımından islam aləminə heyranlar və onu kor-koranə müdafiə edənlər çox idi. Ə.Ağaoğlu onları "gerçəyi görməməkdən xoşlanan korlar" adlandırırdı (3, s. 28).

Ə.Ağaoğlu "Üç mədəniyyət" əsərində bir fikir adamı kimi bu mədəniyyətlərin müqayisəsi zamanı hissə qapılmır, əksinə faktlarla ehtimallarını, nəzəri və praktiki düşüncələrini sübuta yetirməyə çalışır. Doğrudan da, onun yaşadığı dönəmdə istər Asiya, istərsə də islam

cəmiyyətlərində bir-biri ilə mücadilə aparan iki cərəyanı aydın görmək olurdu: məhəlli, əski ənənələrə dayanan mədəniyyətlə, Qərb mədəniyyəti tərəfdarlarının mübarizəsi davam edirdi. Bir tərəf keçmişi və yüz illər boyu sahib olduğu ənənəni qorumağa çalışır, o biri tərəf isə mühafizəkarlığa meydan oxuyaraq Qərb mədəniyyətini təbliğ edirdi. Ə. Ağaoğlu da dövrünün şərtlərindən və tələblərindən çıxış edərək "Avropa mədəniyyətindən kənarlaşmaq istəyən bütün cəmiyyətlərin və özəlliklə islam mədəniyyətinə mənsub olanların gün keçdikcə daha da azaldığını görürük" fikri ilə ikinci cərəyana haqq qazandırırdı (1, s.45). Onun əsərindəki fikirlər istər zamanında, istərsə də bugünkü şərtlər baxımından aktuallığını qoruyub saxlayır. Bu mənada Ə. Ağaoğlunun "Üç mədəniyyət" əsərinin əhəmiyyəti olduqca böyükdür.

Onun mədəniyyət konsepsiyasının əsaslandığı, tarixi faktları bir-birinə birləşdirən, islam dininin maddi və mənəvi ünsürləri ilə formalaşmış sosial-psixoloji şəraitin mədəni müştərəkliyə təsirinə çox böyük əhəmiyyət verirdi. Ə. Ağaoğlunun din, əxlaq, fərd, ailə, cəmiyyət, dövlət, hökumət və s. anlayışlarla bağlı fikirləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Onun "Kafkaz","Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Soruş" kimi mətbu orqanlarında çap edilən əsərlərinin əksəriyyətində də Qərb ədiblərinin yaradıcılığından ətraflı bəhs edilmişdir. O dünya mətbuatı və ədəbiyyatına çıxış üçün xarici dil bilməyi başlıca amil kimi qiymətləndirirdi. Dünya klassiklərinin uğurunu onların ən azı üç Avropa dilini – fransızcanı, ingiliscəni, almancanı bilməsində görür, bu dillərin mətbuat, elm və ədəbiyyat arasında körpü olduğunu qeyd edirdi. Ağaoğlu öz əsərlərində ziyali insanların yetişməsi üçün mühitin olmasını əsas şərt kimi göstərir, savadlı cəmiyyətin olmasını təhsil ocaqlarının, akademiya və universitetlərin yaradılmasında görürdü. Əhməd bəy öz fikirlərini dünya xalqlarının təcrübə və nailiyyətlərindən nümunə gətirərək sübuta yetirirdi. Belə ki, o, Rusiyada I Pyotrun yenidən quruculuq tədbirlərinə, ölkədə akademiya, universitet açmaqla başladığını və məhz bunun nəticəsində Rusiya cəmiyyətinin Lomonosov, Puşkin, Turgenev, Dostoyevski, Tolstoy, Mendeleyev, Qorki kimi şəxsiyyətlər qazandığını söyləyirdi.

Əhməd bəy Parisdə tələbə olarkən ona dərs deyən Ernst Renan, Ceyms Darmsteter, Barbiye de Meynar, İppolit Ten, Qaston Paris kimi Qərb ədiblərinin onun formalaşmasında böyük rollarının olduğunu həmişə öz əsərlərində qeyd etmişdir. O, bir sıra Qərb ədiblərinin yaradıcılığını "Mən kiməm?" əsərində geniş şəkildə təhlil edib qiymətləndirmiş, onların fikirlərini təqdir etdiyini bildirmişdir (4, s. 28). Bu əsərində Əhməd bəy, Monten, Lüter, Kalfin, Rafaello, Leonardo da Vinçi kimi Qərb mütəfəkkirlərinin fikirlərini bəyəndiyini, eyni zamanda Qərb tərbiyəsinin var olmasını Brutların, Katonların, Sokratların sayəsində yaşadığını və cəmiyyətin buna görə onlara borclu olduğunu qeyd etmişdir.

Əhməd bəy Ağaoğlu fikirlərini təbliğ etmək üçün qəzet çapının önəmini anlayırdı. 1891-ci ildə Qafqaz Senzura Komitəsi tərəfindən Azərbaycanca qəzetlərin çap olunmasına qadağa qoyuldu. Halbuki eyni dövrdə Çar Rusiyasının ərazisində ermənicə və gürcücə fəa-

liyyət göstərən 19 qəzet mövcud idi. 1897-ci ildə Əhməd bəy Hacı Zeynalabdin Tağıyevin dəvəti ilə "Kaspi" qəzetində fəaliyyət göstərmək üçün Bakıya gəldi. Bakıya köçdükdən sonra onun qəzetdə yazdığı yazılar daha çox müsəlman cəmiyyətindəki problemlərlə, cəmiyyətdəki qadınların problemləri ilə bağlı idi.

Əhməd bəy hekayələrindən birində Qərb filosofu Nitsşe ilə Şərqin əxlaqçı filosofu Konfutsini qarşılaşdırıb, onların dialoqu ilə öz fikirlərini verə bilmişdir. Əhməd bəy burada əxlaqi dəyərləri üstün tutub, Nitsşenin "güclü haqlıdır" prinsipini tənqid edərək, Nitsşeni mənfi qəhrəman kimi seçir (5, s. 28). Sonralar Nitsşenin ideyalarını özünə rəhbər seçən Adolf Hitlerin "yalnız fiziki cəhətdən sağlam insan xeyir verə bilər" prinsipinə əsaslanaraq, milyonlarla insanın ölümünə səbəb olması, Əhməd bəyin nə qədər haqlı olmasının sübutu idi. Əhməd bəy Nitsşe ilə yanaşı fransız yazıçıları olan Pol Burje və Jorj Oneninin də fikirlərini heç cür qəbul etmirdi. O, Milton, Lokk, Spenser, Russo, Şekspir, Şiller, Höte, Puşkin, Tolstoy kimi ədiblərin əsərlərinə rəğbət bəsləmiş və onların fikirlərini dəstəkləmişdir (6, s. 28).

Əhməd bəy Qərb ədiblərinin yaradıcılığını mətbuatda nəşr etdirdiyi məqalələrdə, eyni zamanda özünün "Axund və islam", "Türk hüquq tarixi", "Hüquqi-ənsiyyə", "Dövlət və fərd", "Sərbəst insanlar ölkəsində", "Üç mədəniyyət", "İngiltərə və Hindistan", "Mən kiməm?", "İran və inqilabı", "İxtilalmı, istiqlalmı", "Sərbəst firqə xatirələri" kimi əsərlərində qiymətləndirmişdir (3, s. 382). O, Avropa, Rusiya və Şərq mədəniyyətləri kontekstində yetişən, zamanın siyasi həyatına təsir etmək imkanlarına malik bir şəxsiyyət idi. Onun mənəvi irsi zaman keçdikcə daha dərindən anlaşılacaq.

QAYNAQLAR:

1. Ağaoğlu Ə. Üç mədəniyyət. Bakı: 2006, 154 s.
2. Göyalp Z. Türküçülüyün əsasları. Bakı: 1991, 175 s.
3. Ağaoğlu Ə. Seçilmiş əsərləri. Bakı: 2007, 391 s.
4. Ağaoğlu Ə. Mən Kiməm? Bakı: 2019, 598 s.
5. ANAR, Əhməd bəy Ağaoğlu "Mən kiməm?" 525-ci qəzet, 2019 S.10
6. Ağaoğlu Ə. "Qafqazda milli məsələ" Bakı: 2019, 275 s.

“KİTABİ-DƏDƏ QORQUD” DASTANINDA YURD OBRAZI VƏ YURDÇULUQ DÜŞÜNCƏSİ

IMAGES OF HOME IN THE EPIC “THE BOOK OF DEDE GORGUD” AND THE THOUGHT OF PATRIOTISM

Mətanət XƏLİLOVA
AMEA Folklor İnstitutu,
metanetsabirgizi@gmail.com

“... “Kitabi-Dədə Qorqud” dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər”.

Heydər Əliyev

Özət

“Kitabi-Dədə Qorqud” dastanında öz əksini tapmış Oğuz fəlsəfəsində oğuzların yurda, vətənə, elə, obaya baxışlarını əks etdirən yurdçuluq (vətənçilik, vətənsevərlik) görüşləri mühüm yer tutur. Belə ki, yurd obrazı və yurdçuluq fəlsəfəsi bilavasitə mifologiya ilə bağlıdır. Mifologiyada yurd-vətən mifik məkan-zaman sisteminin ən mühüm obrazıdır. Eposun “Salur Qazanın evinin yağmalanması” adlı ikinci boyunda Qazan xanın gördüyü yuxunun oğuzların yurd sevgisi və yurdçuluq fələsəfəsi baxımından dərin mənası vardır. Belə ki, Qazanın evinin yağmalanması – talan olunması ona yuxu vasitəsilə əyan olur. Bu yuxunun mifoloji mənası vardır. Qazanın gördüyü yuxu, əslində, ona mifik-ilahi qüvvələr tərəfindən verilmiş xəbərdir. Salur Qazanın talan olunmuş evi haqqında yurdla xəbərləşməsinin oğuzların milli düşüncəsindəki yurd obrazı və yurdçuluq fəlsəfəsinin anlaşılması baxımından böyük əhəmiyyəti vardır. Oğuzlara görə, yurd canlıdır, onun ruhu var və ruh yurdun əyəsi, sahibidir. Bu cəhətdən oğuzların yurdçuluq fəlsəfəsi yurdun canlı şəkildə təsəvvür oluması üzərində qurulmuşdur. Oğuzlara görə, yurda, torpağa sevgi onun sahibi olan ilahi qüvvəyə olan sevgi deməkdir. Qazanın öz evini tapmaq üçün daha sonra su ilə, qurd ilə xəbərləşmələrinin də oğuzların yurdçuluq fəlsəfəsi ilə bağlılığı vardır. Çünki su adi bir su olmayıb, yurdun – vətənin bir parçası, qurd da yurdun mübarək övladıdır. Qazan qurdun üzünü “mübarək”, uğurlu hesab edir. Qurdun bərəkət verməsi onun bilavasitə hami-totem funksiyasından xəbər verir. Yəni qurd müqəddəs varlıq kimi oğuzların yurd haqqındakı təsəvvürlərinin ayrılmaz ünsürüdür.

Açar sözlər: “Kitabi-Dədə Qorqud”, oğuz, yurd, vətən, vətənçilik, vətənsevərlik, Salur Qazan, su, qurd

Summary

In the Oghuz philosophy reflected in the epic “The Book of Dede Gorgud” “yurdchuluk” (patriotism) meetings, which reflect the views of the Oghuz on the native land, the village and occupy an important place. Thus, the image of the homeland and the

philosophy of patriotism are directly related to mythology. In mythology the homeland is the most important image of the mythical space-time system. The dream seen by Gazan Khan in the second part of the epic entitled “Looting the house of Salur Gazan” has a deep meaning in terms of the love of the homeland and the philosophy of patriotism of the Oghuzs. Thus, the looting of Ghazan’s house is revealed to him through a dream. This dream has a mythological meaning. The dream seen by Gazan is, in fact, a message given to him by mythical-divine forces. Salur Gazan’s communication with the homeland about the looted house is of great importance in terms of understanding the image of the homeland in the Oghuz national thought and the philosophy of patriotism. According to the Oghuz, the land is alive, it has a soul and the soul is the owner of the land. In this respect, the patriotism philosophy of the Oghuz is based on the vivid imagination of the homeland. According to the Oghuz, love for the land means love for the divine power that owns it. Gazan’s communication with water and the wolf to find his native land is also related to the Oghuz philosophy of patriotism. Because the water was not an ordinary water, it was a part of the country - the native land and the wolf was a blessed child of the country. Gazan considers the face of the wolf to be “blessed” and successful. The blessing of the wolf indicates its direct homi-totem function. In other words, the wolf as a sacred being is an inseparable element of the Oghuz’s ideas about the native land.

Keywords: “Kitabi-Dade Gorgud”, Oguz, homeland, patriotism, Salur Kazan, water, wolf

Qədim oğuz dastanı olan “Kitabi-Dədə Qorqud” oğuz türklərinin milli şüurunun özünəqədərki bütün tarixini bədii obrazlar və ideyalar vasitəsilə əks etdirən qiymətli abidədir. Bu dastan bizə müasir düşüncəmizin köklərinə boylanmağa, özümüzü dərk etməyə, milli kimliyimizin mənəvi qaynaqlarına enməyə, bu qaynaqlardan milli-mənəvi enerji almağa imkan verir. Elə buna görə də Ulu Öndər Heydər Əliyev “Kitabi-Dədə Qorqud” dastanını “milli varlığımızın mötəbər qaynağı” hesab etmiş (2, s. 8), akademik Yaşar Qarayev, akademik Bəkir Nəbiyev onu “bütün xalqların və dövrlərin kitabı” adlandırmış (7, s. 4), “əxlaqi və estetik məziyyətlər xəzinəsi”, “xalq mənəviyyatının güzgüsü”, “oğuz xalqlarının şah əsəri, ata kitabı” kimi səciyyələndirmişlər (8, s. 5; 9, s. 16-17).

Tədqiqatçılar “Kitabi-Dədə Qorqud”u həm də oğuzların həyat fəlsəfəsi kitabı hesab edirlər. Bu cəhətdən, akademik İsa Həbibbəyli Dədə Qorqud obrazını həmin fəlsəfənin bədii təcəssümü hesab edir (4, s. 232-233).

Dastanda öz əksini tapmış Oğuz fəlsəfəsi məzmun və ideyalar baxımından çox geniş və zəngindir. Bu görüşlər içərisində oğuzların yurda, vətənə, elə, obaya baxışlarını əks etdirən yurd obrazı və yurdçuluq (vətənçilik, vətənsevərlik) fəlsəfəsi mühüm yer tutur.

Oğuzların yurdçuluq görüşləri bu gün də milli mənəviyyatımızda canlı şəkildə yaşamaqdadır. Bu cəhətdən:

“Vətən viranə də olsa, cənnətdir.
Vətənə gəldim, imana gəldim.
Vətənə məhəbbət iman əsəridir” (1, s. 167-168).
Bülbülü qızıl qəfəsə salmışlar, “Vay vətən!” demiş.
Bülbül gülü sevər, insan vətəni” (1, s. 158)

– kimi atalar sözlərində öz əksini tapmış vətənsevərlik görüşlərinin kökü, qaynağı bilavasitə “Dədə Qorqud” dastanında öz təcəssümünü tapmış yurdçuluq fəlsəfəsi ilə əlaqədardır.

Prof. A.Hacılı yazır ki, “Azərbaycan türklərinin etnik-coğrafi təsəvvürlərinin tədqiqinin müəyyən özünəməxsusluqları var. Belə ki, yurdumuzun ərazisi bir çox digər tarixi-etnik məkanlardan fərqli olaraq, daxilən olduqca rəngarəngdir: dağlar, düzənlər, meşələr, qumluqlar, dənizlər, çaylar zəngin bir mənzərə yaradır. Məhz buna görə azərbaycanlıların mentalitetində köçəri, oturaq, dağlı, dənizçi həyatı keçirən xalqlara xas özəlliklər qovuşur. Və milli mədəniyyətimiz yurdun coğrafi əlvanlığından gələn, şüurumuzun kökündə, substrat mahiyyətində izlənən polietnoqrafiklik (etnoqrafik çoxçalarlılıq – M.X.) qazanır” (3, s. 51).

“Dədə Qorqud” dastanında öz əksini tapmış yurd obrazı və yurdçuluq fəlsəfəsi bilavasitə mifologiya ilə bağlıdır. Mifologiyada yurd-vətən mifik məkan-zaman sisteminin ən mühüm obrazıdır. Bu cəhətdən, prof. Seyfəddin Rzasoy yazır ki, “Vətən” mifologemi kosmoloji dünya modelinin semiotik konstruksiyasında xüsusi yer tutur və mifoloji düşüncəni ümumiyyətlə “vətən” mifologeminin uyğun paradiqmalarından kənarda təsəvvür etmək mümkün deyildir. Burada aşağıdakıları nəzərə almaq lazımdır:

a) “Vətən” mifoloji mətnlərdə ilk yaşayış məskəni kimi kosmoloji kontinuumun əsas obrazlarından biridir;

b) “Vətən” mifoloji xronotopun kosmosu təşkil edən hissəsidir;

c) “Vətən” mifoloji dünya modelində “biz” və “bizim dünya” anlayışlarının məkani strukturunu təşkil edir” (11, s. 29).

Qeyd edək ki, dastanda vətənə, yurda bağlılıq müxtəlif bədii lövhələrdə əks olunmuşdur. Bu cəhətdən eposun “Salur Qazanın evinin yağmalanması” adlı ikinci boyu xüsusilə əlamətdardır.

Boyun süjeti Salur Qazanın qurdurduğu məclisin təsviri ilə başlanır:

“Bir gün Tuklu quşun balası, yazıqların ümidi, Amit soyunun aslanı, Qaracığın qaplanı, Qonur atın yiyəsi, Uruz xanıñ ağası, Bayındır xanın kürəkəni, Qalın Oğuzun dayağı, igidlərin arxası Ulaş oğlu Salur Qazan yerindən durmuşdu. Doxsan otaqlı uca evlərini qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük ipək xalı döşətdirmişdi. Səksən yerdə küplər qoyulmuşdu. Qızıl qədəhlər-sürahilər düzülmüşdü. Doqquz qara gözlü, göycək üzlü, saçı arxada düyünlənmiş, köksü qızıl düyməli, əlləri biləyindən xınalı, barmaqları naxışlı, gözəl kafir qızları Qalın Oğuz bəylərinə şərab paylayırdılar” (6, s. 140).

Məclisin şirin yerində möhkəm sərxoş olmuş Salur Qazan bəylərə ova getməyi təklif edir: “Ulaş oğlu Salur Qazan içdi-içdi, axırda şərabın təsiri başına vurdu. O, qaba dizləri üstünə çökdu, dedi: “Sözümu dinləyin, səsimə səs verin, bəylər! Yata-yata yanımız ağrıdı. Du-

ra-dura belimiz qurudu. Duraq gedək, a bəylər! Ov ovlayaq, quş vuraq, sığın-keyik yıxaq, qayıdıb otağımıza düşək: yeyib-içək, günümüzü xoş keçirək!" (6, s. 140)

Məclisdəki digər bəylər də Qazan kimi sərxoş olduqları üçün onun təklifini qəbul edirlər. Ancaq onların içərisində daha təcrübəli insan olan Alp Aruz bəylərin sərxoş vəziyyətdə Oğuzu tərk etmələrindən möhkəm narahat olur. Çünki ov təklifini eşidən bəylər sayıqlıqlarını itirirlər: onlar ancaq eyş-işrət, əyləncə haqqında düşünürlər. Lakin Oğuz elinin iki qolundan birinin, yəni Daş Oğuzun başçısı olan Alp Aruz belə məsuliyyətsizliyə dözə biməzdi:

"Onlar belə dedikdə At ağızlı Aruz qoca iki dizi üstünə çöküb dedi: "Ağam Qazan, sası dinli Gürcüstan sərhəddinə gedirsən, qərargahının üstündə kimi qoyursan?".

Qazan deyir: "Oğlum Uruz üç yüz igidlə evimin keşiyində dursun" (6, s. 140).

Sonrakı hadisələr göstərir ki, Alp Aruzun narahatlığı əbəs deyilmiş. Oğuz elinin düşmənləri Salur Qazanın bəylərlə ova getməsindən dərhal xəbər tuturlar:

"Qalın Oğuz bəyləri atlandılar. Böyük qoşun Ala dağa ova çıxdı.

Kafirlərin casusu bunu gördü; cuğul gedib, Şöklü Məliyə xəbər verdi. Yeddi min qaftanının arxası cırıq, kəsik qara saçlı, sası dinli, din düşməni, alaca atlı kafir mindi, çapdı, gecə yarısı Qazan bəyin düşərgəsinə gəldi. Kafirlər onun qızıl tağlı evlərini çalıb-çapdılar, qaza bənzər qız-gəlinini çığırışdırdılar. Tövlə-tövlə şahanə atlarını mindilər. Qatar-qatar qızılı dəvələrini yedəkləyib apardılar. Qiymətli xəzinəsini, bol pulunu talan etdilər. Qırx incə belli qız ilə Boyu uzun Burla xatun əsir getdi. Qazan bəyin qarımış anası qara dəvə boynundan asılı getdi. Qazan xanın oğlu Uruz bəy üç yüz igidlə əli bağlı, boynu bağlı getdi. İlək qoca oğlu Sarı Qalmış Qazan bəyin evi üstündə döyüşdə həlak oldu. Qazanın bu işlərdən xəbəri yox idi" (6, s. 141).

Göründüyü kimi, baş vermiş hadisələrin əsas günahkarı Qazan xan özüdür:

Birincisi, o, ova getmək qərarını sərxoş halda verir. Özü kimi sərxoş olan bəylər də onun təklifini alqışlayırlar.

İkincisi, sərxoş Salur Qazan doğma dayısı, təcrübəli bəy, on iki Oğuz boyundan ibarət bozoqların (Daş Oğuzun) xanı, başçısı Alp Aruzun xəbərdarlığını, demək olar ki, qulaqardına vurur.

Üçüncüsü, Qazanın öz evinin üstündə üç yüz igidlə birgə oğlu Uruzu keşikçi qoyması tamamilə yanlış addım idi. Çünki Uruz hələ özünü bir bəy, igid kimi təsdiq etməmiş yeniyetmə idi. Onun heç bir döyüş təcrübəsi yox idi. Və təsadüfi deyildir ki, o, öz igidləri ilə düşmənə qarşı heç bir müqavimət təşkil edə bilmir və onlar hamılıqla əsir düşürlər.

Boyda daha sonra düşmənlərin Salur Qazanın Dəmir qapı Dərbənddəki qoyunlarını gətirmək üçün getdikləri, lakin Qazanın qoyunlarını otaran Qaraca Çobana məğlub olduqları təsvir olunur.

Salur Qazan ovda ikən gecə çox narahat yuxu görür: "Sən demə, xanım, o gecə Qalın Oğuzun dayağı, Bayındır xanın kürəkəni, Ulaş oğlu Salur Qazan yuxuda qarma-qarışıq əhvalat gördü, hövlnak ayağa durdu. Dedi: "Qardaşım Qaragünə, bilirsənmi yuxumda nə görundu? Qara-qayğılı əhvalatlar gördüm. Gördüm ki, yumruğumda bir şahin çırpınıb, quşu-

mu əlimdən alır. Hündür evimin üzərinə göydən ildırım çaxdığını gördüm. Qatı, qara dumanın düşərgəmin üstünü bürüdüyünü gördüm. Quduz qurdların evimi dəldiyini gördüm. Qara dəvənin əñsəmdən qapdığını gördüm. Gördüm ki, qara saçım qarğı kimi uzanır, uzandıqca gözümü örtür. Əllərimdə on barmağımı qan içində gördüm. Bu yuxunu görəndən bəri ağlımı-huşumu yığa bilmirəm. Xan qardaşım, mənim bu yuxumu yoz mənimçin!" (6, s. 142)

Qazan xanın bu yuxusunun oğuzların yurd sevgisi və yurdçuluq fəlsəfəsi baxımından dərin mənası vardır. Belə ki, Qazanın evinin yağmalanması – talan olunması ona yuxu vasitəsilə əyan olur. Bunu adi bir narahatlıq kimi başa düşmək olmaz. Bu yuxunun mifoloji mənası vardır. Belə ki, Qazanın gördüyü yuxu, əslində, ona mifik-ilahi qüvvələr tərəfindən verilmiş xəbərdir. Bu, onunla bağlıdır ki, mifologiyada hər şey canlı şəkildə təsəvvür olunurdu. Mifik düşüncə ilə yaşayan insanlar ətrafda olan bütün varlıqları – heyvanları, bitkiləri, təbiət obyektlərini və s. özləri kimi şüura malik canlılar kimi təsəvvür edirdilər. Bu cəhətdən, mifologiyada yurd canlı varlıqdır. Bunun izləri dastanda da qorunub qalıb. Bir qədər sonra Qazanın oğurlanmış evinin haraya aparıldığını yurddan xəbər alması bunun təsdiqidir. Bu baxımdan, Qazanın yuxusunu, əslində, yurdun qoruyucuları olan mifik güclərin (əyələr, totem hamilər və s.) ona yolladığı xəbər kimi də başa düşmək olar.

Prof. Rüstəm Kamal yazır ki, "Dədə Qorqud" eposunun kommunukativ sistemində çobanlar, ozan, casuslar və bəzirganlar xəbər daşıyıcıları kimi aparıcı mövqeyə malikdirlər. Bəzirganlar yad-özgə məkanlarla, uzaq məmləkətlərlə, yəni yol xronotopu ilə bağlı marginal varlıqlardır" (5, s. 114). Bizcə, R.Kamalın qeyd etdiyi kommunikativ sistemə (əlaqəçilər sisteminə) magik-mifoloji obrazları da daxil etmək lazımdır. Çünki onlar da məhz xəbər daşıyıcılarıdır.

Dastanda daha sonra Qazan öz qardaşı Qılbaşa belə bir tapşırıq verir:

"Mənim ovumu pozma, qoşunumu dağıtma! Mən bu gün Qonur atı çapıb, üç günlük yolu bir gündə gedərəm; evə dəymədən yurduma baş çəkərəm. Əgər salamatlıqdırsa, axşam olmadan yenə sənin yanına gələrəm. Oradakılar sağ-salamat deyilsə, başınıza çarə edin. Mən daha getdim".

Qazan bəy Qonur atını mahmızladı, yola çıxdı. Gəlib-gəlib yurduna çatdı. Gördü ki, yurdunda bir tazı qalıb, quzğun dolaşır. Qazan bəy burada yurdu ilə xəbərləşib, görək xanım, necə xəbərləşib, nə demişdir:

Qohum-qəbiləli komam-yurdum!
Qulanla sığına-keyikə qonşu yurdum!
Səni düşmən haradan talayıb, gözəl yurdum!
Uca evimin tikilisi, yurdu qalmış,
Qoca anamın oturduğu yer də qalmış.
Oğlum Uruzun ox atdığı nişan qalmış.
Bəylərin at çapdırdığı meydan qalmış.
Qara mətbəxin yerində ocaq qalmış..." (6, s. 142)

Salur Qazanın yurdla bu xəbərləşməsinin oğuzların milli düşüncəsindəki yurd obrazı və yurdçuluq fəlsəfəsinin anlaşılması baxımından böyük əhəmiyyəti vardır. Qazanın yurda müraciəti, ondan evinin yerini xəbər alması oxucularda ilk olaraq bədii səhnə təəssüratı yaradır. Lakin Qazanın daha sonra su, qurd və köpəklə xəbərləşməsi bu xəbərləşmələrin mifik-magik mənaya malik olduğunu göstərir. Bu cəhətdən S.Rzasoyun Qazanın yurdla xəbərləşməsinə verdiyi təhlil diqqəti cəlb edir. O yazır:

"Dialoqun tərəfləri: İnsan-Yurd.

Dialoqun məkanı: Kosmos – Qazanın yurdu Kosmos dünyasında yerləşir.

Dialoqun məqsədi: Yurddan yağmalanmış evin xəbərini almaq.

Dialoqun informativ tipi: alqış:

– Qazan Yurdu tərifləyir.

Dialoqun kosmoloji tipi: mediativ-mistik kommunikasiya modeli:

– Qazan bir insan kimi Yurdla danışa bilməz. Əgər o, Yurda müraciət edirsə, bu halda Yurdun ruhuna (yurd əyəsinə) müraciət edir. Demək, onun Yurdun ruhu ilə danışması kosmoloji hadisə olaraq mediativ-mistik ünsiyyət aktıdır.

Dialoqun etnokosmik tipi: şaman qamlaması:

– İnsanın ruhla ünsiyyəti bütün mədəniyyətlərdə şamanın universal qamlama modeli vasitəsi ilə həyata keçir. Bu halda Qazanın da Yurdun ruhu/əyəsi ilə ünsiyyəti kosmoloji kodla qəhrəmanın şaman modelində qamlama aktıdır;

Dialoqun süjetüstü forması: passiv (birtərəfli) xəbərləşmə:

– Qazan xəbərləşir/soruşur, Yurd cavab vermir.

Dialoqun süjetaltı forması: aktiv (ikitərəfli) xəbərləşmə:

– Yurd yağmalamanın iz/işarələrini təqdim edir.

Dialoqun nəticəsi: izalma/iz "oxuma":

– Qazan bur şaman/qəhrəman kimi Ağ ban evin, Qarıcıq Ananın, oğu Uruzun, Oğuz bəylərinin atlarının, Böyük mətbəxin izlərini "oxuyur". Bu izlər ona "kafər keçəki yolu" (kafirlərin keçdiyi yolu) göstərir" (11, s. 341-342).

S.Rzasoydan verdiyimiz bu parçada onun "Qazan bir insan kimi Yurdla danışa bilməz. Əgər o, Yurda müraciət edirsə, bu halda Yurdun ruhuna (yurd əyəsinə) müraciət edir" fikri oğuzların yurd obrazının mifik-magik mahiyyətini aydınlaşdırmış olur. Oğuzlara görə, yurd canlıdır, onun ruhu var və ruh yurdun əyəsi, sahibidir. Bu məlumat bizə oğuzların yurdçuluq fəlsəfəsini də anlamağa imkan verir. Oğuz insanlarının yurda bağlılığı yurdun canlı şəkildə təsəvvür olunması üzərində qurulmuşdur. Oğuzlara görə, yurda, torpağa sevgi onun sahibi olan ilahi qüvvəyə olan sevgi deməkdir.

Qeyd edək ki, Qazanın öz evini tapmaq üçün daha sonra su ilə, qurd ilə xəbərləşmələrinin də oğuzların yurdçuluq fəlsəfəsi ilə bağlılığı vardır. Çünki su adi bir su olmayıb, yurdun – vətənin bir parçası, qurd da yurdun mübarək övladıdır:

"Bu halı gördükdə Qazanın qara qıyıq gözləri qan-yaşla doldu. Qanı damarlarında qaynadı. Qara bağrı sarsıldı. Qonur atını dizləri ilə vurub, kafirin keçdiyi yola düşdü, getdi. Qa-

zanın qarşısına bir su çıxdı. Qazan dedi: “Su, tanrının üzünü görmüşdur. Mən bu su ilə xəbərləşim!”.

Görək, xanım, necə xəbərləşdi. Qazan deyir:

Cağlayaraq qayalardan çıxan su!
Ağac gəmiləri atıb-tutan su!
Həsən ilə Hüseynin həsrəti su!
Bağ ilə bostanm zinəti su!
Ayişə ilə Fatimənin baxışı su!
Şahanə atların içdiyi su!
Qızıl dəvələrin gəlib keçdiyi su!
Çevrəsində ağ qoyunların yatdığı su!
Yurdumdan bir xəbər bilirsəñsə, de mənə!
Dərdli başım qurban olsun, suyum, sənə!” (6, s. 143)

Qazanın su haqqında dediyi bu sözlərdə suyun oğuzların fəlsəfi dünya modelində, yurdla bağlı məkan-zaman görüşlərindəki tutduğu məna səviyyələri sadalanmışdır. Buradan məlum olur ki, su oğuzların dünyasında təsərrüfatın əsası olmaqla yanaşı, həm də dini-mifik dəyərdir (Həsən ilə Hüseynin həsrəti, Ayişə ilə Fatimənin baxışı).

Qazanın qurdla xəbərləşməsi də yurd obrazı və yurdçuluq fəlsəfəsi ilə bağlıdır. Mətnə diqqət edək:

“Sudan kecdi, bu dəfə bir qurda rast gəldi. “Qurd uzu uğurludur, qurdla bir xəbərləşim”, – dedi. Görək, xanım, necə xəbərləşdi:

Qaranlıq axşam olanda günü doğulan!
Qarla yağış yağanda ər kimi duran!
Qaracıq atları kişnəşdirən!
Qızıl dəvə gördükdə inləşdirən!
Ağca qoyun görəndə quyruğuyla qamçı çəkən!
Arxasıyla vurub, bərk ağılın ardını sökən!
Burma-axta kök qocları alıb-tutan!
Qanlı quyruq üzüb şap-şap udan!
Ulaşması köpəkləri təşvişə salan!
Əldə məşəl çobanları gecə vaxtı yüyürdən!
Yurdumdan bir xəbər bilirsəñsə, de mənə!
Dərdli başım qurban olsun, qurdum, sənə! – dedi” (6, s. 143).

Qurdun qədim türklər arasında məşhur olduğu, o cümlədən totem sayıldığı məlumdur. Qazan da qurdun üzünü “mübarək” (6, s. 45) hesab edir. Ərəb sözü olan “mübarək” bərəkət mənasındadır. Qurdun bərəkət verməsi onun bilavasitə hami-totem funksiyasından xəbər verir. Belə ki, bərəkət vermək yalnız mifik güclərə, totem hamilərə məxsus xüsusiyyətdir. Bu cəhətdən, qurdun bərəkət verməsinin yurdçuluq fəlsəfəsi ilə bilavasitə bağlılığı vardır. Yəni qurd müqəddəs varlıq kimi oğuzların yurd haqqındakı təsəvvürlərinin ayrılmaz ünsürüdür. Oğuzların yurdçuluq fəlsəfəsinə görə, yurdu, eli-obanı bərəkətləndirən qeyri-adi varlıqlardan biri qurddur.

“Kitabi-Dədə Qorqud” oğuz türklərinin milli şüurunun özünəqədərki bütün tarixini əks etdirən qiymətli abidədir. Dastanda öz əksini tapmış Oğuz fəlsəfəsində oğuzların yurda, vətənə, elə, obaya baxışlarını əks etdirən yurdçuluq (vətənçilik, vətənsevərlik) görüşləri mühüm yer tutur. “Dədə Qorqud” dastanında öz əksini tapmış yurd obrazı və yurdçuluq fəlsəfəsi bilavasitə mifologiya ilə bağlıdır. Mifologiyada yurd-vətən mifik məkan-zaman sisteminin ən mühüm obrazıdır.

Eposun “Salur Qazanın evinin yağmalanması” adlı ikinci boyunda Qazan xanın gördüyü yuxunun oğuzların yurd sevgisi və yurdçuluq fəlsəfəsi baxımından dərin mənası vardır. Belə ki, Qazanın evinin yağmalanması – talan olunması ona yuxu vasitəsilə əyan olur. Bu yuxunun mifoloji mənası vardır. Belə ki, Qazanın gördüyü yuxu, əslində, ona mifik-ilahi qüvvələr tərəfindən verilmiş xəbərdir.

Oğuzlara görə, yurd canlıdır, onun ruhu var və ruh yurdun əyəsi, sahibidir. Bu cəhətdən, oğuzların yurdçuluq fəlsəfəsi yurdun canlı şəkildə təsəvvür olunması üzərində qurulmuşdur. Oğuzlara görə, yurda, torpağa sevgi onun sahibi olan ilahi qüvvəyə olan sevgi deməkdir.

Qazanın öz evini tapmaq üçün daha sonra su ilə, qurd ilə xəbərləşmələrinin də oğuzların yurdçuluq fəlsəfəsi ilə bağlılığı vardır. Çünki su adi bir su olmayıb, yurdun – vətənin bir parçası, qurd da yurdun mübarək övladıdır.

Qazan qurdun üzünü “mübarək” (bərəkətli) hesab edir. Qurdun bərəkət verməsi onun bilavasitə hami-totem funksiyasından xəbər verir. Yəni qurd müqəddəs varlıq kimi oğuzların yurd haqqındakı təsəvvürlərinin ayrılmaz ünsürüdür.

QAYNAQLAR:

1. Atalar sözü / Toplayanı: Ə.Hüseynzadə, tərtib edəni: H.Qasımzadə. B.: Yazıçı, 1985, 650 s.
2. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı / Dədə Qorqud dünyası (məqalələr). Bakı: Öndər Nəşriyyat, 2004, s. 6-17
3. Hacılı A. Mifopoetik təfəkkür fəlsəfəsi. B.: Mütərcim, 2002, 162 s.
4. Həbibbəyli İ. “Kitabi-Dədə Qorqud”; yazılı epos və ya epopeya. Bakı: Elm, 2020, 280 s.
5. Kamal R. “Kitabi-Dədə Qorqud”: nitq janrları və davranış poetikası. Bakı, “Nurlan”, 2013
6. Kitabi-Dədə Qorqud / Müqəddimə, tərtib və transkripsiya F.Zeynalov və S.Əlizadənindir. Bakı: Yazıçı, 1988, 265 s.
7. Qarayev Y. Bütün xalqların və dövrlərin kitabı / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. X kitab. Bakı: Səda, 2001, s. 4-10
8. Nəbiyev B. Əxlaqi və estetik məziyyətlər xəzinəsi / “Kitabi-Dədə Qorqud” (məqalələr toplusu). Bakı: Elm 1999, s. 5-15
9. Nəbiyev B., Qarayev Y. Xalq mənəviyyatının güzgüsü (“Kitabi-Dədə Qorqud”). Bakı: Elm, 1999, 32 s.
10. Rzasoy, S. Azərbaycan dastanlarında şaman-qəhrəman arxetipi. Bakı, “Elm və təhsil”, 2015, 436 s.
11. Rzasoy, S. Folklorda vətən obrazının mifoloji semantikası // “Dədə Qorqud” jur., № 2, 2017, s. 29-35

HÜSEYN CAVİDİN “SƏYAVUŞ” FACİƏSİNDƏ OBRAZLARIN MİFOPOETİKASI

MYTHOPOETICS OF IMAGES IN HUSSEIN JAVID'S TRAGEDY “SAYAVUSH”

Nizami ADIŞİRİNOV
Filologiya üzrə fəlsəfə doktoru,
AMEA Folklor İnstitutu,
drnizami1983@gmail.com

“1982-ci ildə Hüseyn Cavidin cənazəsini uzaq Sibirdən Azərbaycana gətirmək asan iş deyildi. Bu böyük iradə və cəsarət tələb edirdi. Ancaq xalqımıza, tariximizə, millətimizə, mədəniyyətimizə, ədəbiyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi”.
Heydər ƏLİYEV

Özət

H.Cavid XX əsr Azərbaycan ədəbiyyatının dünya ədəbiyyatına bəxş etdiyi ən dəyərli mütəfəkkirlərdəndir. Xarakteri və yaradıcılığı etibarı ilə heç bir sərhəd tanımayan, heç bir siyasi- ideoloji təyziqi qəbul etməyən H.Cavid hər zaman ancaq öz qəlbinin səsini dinləmiş, azad ilhamının qulağına pıçıldadıqlarını qələmə almışdır. Siyasi ideologiyanın təbliğatçılığı ilə məşğul olmadığına görə həmin ideologiya tərəfindən təqib olunmuş, həbs olunaraq sürgün olunmuş, qürbətdə vəfat etmiş, hətta əsərləri uzun müddət öz doğma vətənində belə qadağan olunmuşdur.

Lakin 80-ci illərin əvvəllərində məhz Heydər Əliyevin zəhməti və əməyi ilə onun nəşi doğma vətəninə, doğmalarına qovuşa bilmişdir. Məhz Heydər Əliyevin sayəsində H.Cavidin vaxtilə əlindən alınmış bütün haqları ona geri qaytarılmışdır.Çünki Heydər Əliyev də Hüseyn Cavid kimi inandığı, könül verdiyi milli dəyərləri bütün siyasi ideologiyalardan üstün hesab edirdi.

Açar sözlər: Hüseyn Cavid, Səyavuş, arxetip, mifologiya, Heydər Əliyev, obraz

Summary

H.Javid is one of the most valuable thinkers that Azerbaijani literature of the 20th century gave to world literature. H. Javid, who does not recognize any boundaries in his character and creativity, and does not accept any political-ideological pressure, always listened to the voice of his heart and wrote down what his free inspiration whispered in his

ear. Because he did not engage in propaganda of political ideology, he was persecuted by that ideology, imprisoned and exiled, died abroad, and even his works were banned in his native country for a long time.

However, in the early 1980s, it was due to Heydar Aliyev's efforts and work that his descendants were able to reunite with their native land and relatives. It was thanks to Heydar Aliyev that all the rights of H. Javid, which were taken away from him at the time, were returned to him. Because Heydar Aliyev, like Huseyn Javid, considered the national values he believed in and cherished above all political ideologies.

Keywords: Huseyn Javid, Sayavush, archetype, mythology, Haydar Aliyev, image

Hüseyn Cavid XX əsrdə Azərbaycan xalqının dünya ədəbi-mədəni dəyərlər sisteminə bəxş etdiyi ən böyük şəxsiyyətlərdəndir. Dahi mütəfəkkir yaradıcılığı etibarilə milli-mənəvi dəyərlərə, soykökünə, türklüyə nə qədər bağlıdırsa, sadiqdirsə, təbliğ etdiyi ideyalar baxımından o qədər də bəşəridir.

Hüseyn Cavid heç bir siyasi ideologiyaya tabe olmayan, bütün siyasi ambisiyaların fövqündə dayanan, milli və bəşəri ideyaları ustalıqla sintez edərək təqdim və təbliğ edən sənətkar idi. H.Cavid romantik üslubun nümayəndəsi olsa da, yaradıcılığında kifayət qədər ciddi ictimai, sosial məsələlərin əks olunduğunu görürük. 20-30-cu illərdə ədəbiyyata hakim kəsilmiş proletkultçuluq nəzəriyyəsinin ziddinə olaraq, H.Cavid tarixə müraciət edəndə belə məsələlərə müasir mövqedən yanaşmağı bacarır, əsərlərində dönə-dönə milli kimlik məsələsini qaldırırdı. Dahi mütəfəkkir sovet dönəmində belə türklükdən, milli dəyərlərdən yazmaq üçün bəhanə axtarırdı.

"Topal Teymur" əsərində ustad sənətkar Teymur və Bəyazidin timsalında türklük məsələsini gündəmə gətirirdi. "Səyavuş" faciəsində Keykavus-Əfrasiyab obrazlarının timsalında İran-Turan münaqişəsi kontekstində yenə türk tarixinə müraciət edirdi. Bütün bunlar, əlbəttə, zamanın, dövrün tələblərinə və proletkultçuluğun diktəsinə zidd idi. Bu həmin dövr idi ki, haqlı-haqsız Cavidə qarşı ittihamlar irəli sürülür, əsərləri ədəbi məhkəmələrdə ideyası zərərli əsər kimi tənqid olunur, haqqında əsassız qarayaxma kampaniyası aparılırdı. Bu, Cavidin yaradıcılığında da öz əksini tapmışdır:

"Hər gülər yüzdə ölüm, qan görürəm
Pək yaqın dostları düşman görürəm
Yurdu sarmış qabalıq, yaltaqlıq
Yüksəliş varsa, səbəb alçaqlıq".

Hüseyn Cavid nə qədər "göylər şairi" olsa da, onun əsərlərinin ruhunda mövcud siyasi rejimlə barışmazlıq, inqilabi əhvali-ruhiyyə açıq-aşkar duyulurdu. Bu barışmazlıq ideyası "Şeyda"da, "Şeyx Sənan"da, "Peyğəmbər"də, "Səyavuş"da da aydın hiss olunur. Bu əsərlər-

də hiss olunan barışmazlıq ideyası ilk növbədə mənəvi oyanışa söykənirdi. O, xalqının gözündəki zülmət pərdəsini qaldırmağa, onu mənəvi cəhətdən oyandırmağa çalışırdı.

"Pərdeyi-zülmət içindən sıyrıl!
Qəhrəmanlar kibi qovğaya atıl!"

Və ya "Səyavuş" əsərində kəndli Altayın timsalında əzilən, zülmə uğrayan insanları ədalətsiz düzənə boyun əyməməyə, üsyan bayrağını qaldırmağa çağırırdı.

"Səyavuş" əsərini yazmaqla Cavid əfəndi türkün tarixinə yenidən müraciət edir. İran-Turan münaqişəsi fonunda milli kimliyin, türklüyün qadağan edilmiş tarixinə yenidən işıq saldı. Hüseyn Cavid haqqında nə qədər araşdırmalar aparılsa da, bu sahədə hələ də mövcud olan boşluq dolmayıb. Bu mənada istedadlı sənətkar haqqında aparılan hər yeni araşdırma cavidşünaslıq üçün bir töhfədir.

Hüseyn Cavid (1882-1941) "Səyavuş" faciəsini məhz Firdovsinin "Şahnamə" eposundakı "Səyavuş və Südabə" dastanının motivləri əsasında qələmə almışdır. Qeyd edək ki, ədib beş pərdəli faciəsini Firdovsinin 1000 illiyi münasibətilə 1932-ci ildə yazmışdır. Məlumdur ki, "Şahnamə" əsəri mövzu, motiv, obrazlar baxımından özündən sonra həm dünya ədəbiyyatına, həm də Şərq ədəbiyyatına güclü təsir göstərmiş, yazıçıların və şairlərin diqqətini çəkmişdir. Azərbaycanda da "Şahnamə"də yer alan "Səyavuş və Südabə" dastanına şairlər hər zaman böyük maraqla müraciət etmişlər. Bu məqalədə "Səyavuş" əsərində olan obrazların mifopoetikasına nəzər salınmışdır.

Təsadüfi deyil ki, "Səyavuş" əsəri milli vəznimiz olan heca vəznində yazılmışdır. Tədqiqatçı Azər Turan "Cavidnamə" əsərində əsərin yazılma səbəbi ilə bağlı qeyd edir ki, "Hüseyn Cavid hadisələri e.ə 624-cü ilə aparmaqla "Səyavuş" faciəsinin timsalında özünün ən qədim türk tarixindən bəhs edən əsərini yazır" (17, s. 248). Lakin əsərin əsas ideyasını düzgün anlamaq üçün obrazların tarixinə nəzər salmaq çox vacibdir. Mənbələrin məlumatına görə, əsərin əsas obrazlarından olan Turan hökmdarı Əfrasiyab, əfsanəvi-tarixi şəxsiyyət olan Turun nəvəsi olmuşdur.

Məlumdur ki, Firdovsinin "Şahnamə" əsəri İran tarixinin böyük bir dövrünü mədh etsə də, türklərin qəhrəmanı Əfrasiyaba dair tarixi mənbələrdə olmayan bir çox maraqlı məqamları və qədim Turan-İran tarixinin bir çox hadisələrini də əks etdirir. İran-Turan müharibələrinin tarixi dəqiq bilinməsə də, ehtimal ki, hadisələr Makedoniyalı İskəndərin e.ə 329-cu ildə Şərqə yürüşündən qabaq baş vermişdir (15, s. 47).

Şübhəsiz ki, türk qaynaqlarında Alp ər Tonqa adı ilə tanınan Əfrasiyab haqqında ən geniş məlumatlar "Avesta"da, və Firdovsinin "Şahnamə"sində verilir. "Şahnamə"ni qələmə alarkən Firdovsi "Avesta"dakı bir çox məlumatlardan istifadə etmişdir. Hüseyn Cavid də "Səyavuş"u yazarkən bir çox folklor motivlərindən, mifoloji inanclarla bağlı elementlərdən istifadə etmişdir. Bu baxımdan, ədibin 1932-ci ildə Firdovsinin 1000 illiyi münasibətilə qə-

ləmə aldığı "Səyavuş" faciəsində obrazların mifopoetik aləmi maraq doğurur. Mifoloji düşüncədə o dünya insan üçün hər zaman sehirli aləm kimi səciyyələnir. H.Cavid də bir sıra əsərlərində, ən çox da pyeslərində, o cümlədən "Səyavuş" əsərində mifoloji obrazlara geniş yer verirdi.

Meydan: Hər bir əsərin başlanğıcında hadisələr ya məkana, ya da zamana yerləşdirilir. Bu zaman və məkan real da ola bilir, qeyri-real da. H.Cavidin "Səyavuş" faciəsində hadisələr xaos-kosmos qarşıdurması fonunda savaş meydanında başlayır. Professor Kamran Əliyev əsərin başlanğıcı ilə bağlı belə bir fikir deyirdi ki, "əsərin ekspozisiyasını xatırladan bu hissə Azərbaycan dramaturgiya nümunələri içərisində yeganədir və H.Cavidə məxsusdur" (5, s. 137). **Savaş meydanı** mifoloji düşüncədə hər zaman xaos aləmi kimi səciyyələnmişdir. Çünki meydan hər zaman hansısa bir qarşıdurmanın, mübarizənin baş verdiyi yer kimi təsvir olunur. Dastan yaradıcılığında da istər qəhrəmanlıq dastanlarında, istərsə də eşq dastanlarımızda savaş meydanı hər zaman qarışıqlığın, nizamsızlığın yaşandığı məkanı simvolizə edir. "Dədə Qorqud" eposuna nəzər saldıqda da bunun şahidi oluruq. Buğac Bayındır xanın meydanında onun vəhşi buğası ilə döyüşür. Həmin xaos aləminin qoruyucusu məhz buğa idi. Qanturalı Trabzon təkurunun meydanında üç vəhşi ilə - buğa, buğra və aslanla döyüşür. Koroğlu da meydanda düşmənlərinə qarşı amansız mübarizə aparır (11). Bu mifoloji arxetip yazılı ədəbiyyat nümunələrimizdə də eyni məzmunda müşahidə olunur. H.Cavidin "Səyavuş" faciəsində də savaş meydanı xaos aləmi kimi, qarışıqlıq, nizamsızlıq fonunda təsvir olunur və hadisələr cəng meydanında, yəni xaos aləmində başlayır. Meydanda Səyavuş qılınc döyüşü aparır. Səyavuş qılınc döyüşündə iki gənci məğlub etdikdən sonra Rüstəm deyir ki, gərək mənimlə savaşasan. Səyavuş Rüstəmə məğlub olsa da, peşimançılıq duymayacağını deyir. Ov meydanı da ifadə etdiyi mifoloji məna baxımından yuxarıda haqqında danışdığımız savaş meydanı ilə eyni mifopoetik məna yükünə malikdir.

Bundan əlavə, meydan təkcə xaosu deyil, həm də kosmosla bağlı mədəniyyəti, gözəlliyi, yeniliyi, nizamı, mərkəz funksiyasını ifadə edən mənalarda da işlənə bilər. Məsələn, şəhər meydanı, Azadlıq meydanı. Nağıl və dastanlarımızda rast gəlinən "meydanın ortasında gözəl saray var idi" ifadəsi də bu mifopoetik mənanı ifadə edir. Əsərin əvvəlində savaş meydanında təsvir olunan Səyavuş bir neçə nəfərlə qılınc döyüşündə qələbə çalır. Döyüşün gedişi əsnasında Səyavuş belə bir ifadə işlədir: *"durmayın, çalın da gurlasın davul"* (7, s. 121). Deməli, döyüşdən əvvəl *"gumbur-gumbur davulların çalınması"* da savaş meydanı arxetipinə aid olan formul ifadəsi kimi işlənir.

Ov və maralla bağlı əski mifoloji inancların icrası da *ov meydanında* – ov məkanında baş verən hadisələrdir. Bunlar qəhrəmanı yeni macəraya təhrik edən motiv kimi səciyyələnir. Altay əfsanələrində maral qadın ruhunu simvolizə edirdi. Azərbaycan xalqının folklorunda da Ana maral baş totem kimi səciyyələnir. Həmçinin qırğız folklorunda ana marala

toxunana bədbəxtlik üz verir, nəsli kəsilirdi. Maralla bağlı mövcud əfsanələr də Azərbaycan xalqının psixologiyasını, əxlaqi-etik qaydalarını yaşadır (13, s. 166). Maral yüksəliş rəmzi və həyat qaynağı nişanəsi sayılırdı. Məhz bu cəhətinə görə də qədim türklər bürüncdən tökülmüş maral totemini yanlarında gəzdirirdilər (8, s. 3). Çin mənbələrində verilən əfsanəyə görə, Göytürklərin atalarından biri mağarada gənc qız surətindəki ilahəyə aşiq olur. Bir gün ov zamanı onun əsgərlərindən biri heyvanlar arasından bir maralı vurur. Mağaraya geri qayıdan hökmdar sevdiyi qızı görmür. Və ov zamanı vurulan ağ maralın, əslində, aşiq olduğu ilahə olduğunu öyrənir (3, s. 3). Marala mifik mənada totem kimi yanaşıldığından onu incitmək, qovmaq, ovlamaq qəti sürətdə olmazdı. Bu, qəhrəmana böyük bədbəxtlik gətirə bilərdi. Maral yunan mifologiyasında Ay və ov ilahəsi kimi tanınan Artemidanı da simvolizə edirdi. Lakin sonrakı mərhələdə epik ənənədə maral tədricən ceyranla əvəzlənir (12, s. 30). Ceyran da mifik düşüncədə surətinə girilmiş ata ruhu (totem) kimi səciyyələndirilir və onu da ovlamaq mütləq qəhrəmana bədbəxtlik, fəlakət gətirirdi.

"Səyavuş" əsərində də Səyavuşun Firəngizlə ilk tanışlığı ov meydanında olur. Əfrasiyabın qızı Firəngiz öz qulluqçuları ilə ovda olarkən bir maral peyda olur. Maral mifoloji düşüncədə həm də qəhrəmanı yeni macəraya təhrik edən arxetip kimi mənalandırılır və xaosu təmsil edir. Türk mifoloji düşüncəsində həyatın başlanğıcını simvolizə edən ana maralı – qadın ruhunu və geyiki – ata ruhunu ovlamaq, qəhrəmana hər zaman bədbəxtlik gətirirdi. "Dədə Qorqud" eposunda da Buğac atası Dirsə xanın önündə geyikləri ovlayıb ata ruhunu təhqir etdiyi üçün atası onu ölümlə cəzalandırır (1, s. 30). Beyrək Banıçiçəyin çadırının önündə geyiki ovladığı üçün ata ruhu onu 16 illik əsirliklə cəzalandırır. Bəkil də geyiki ovlamaq istədiyi üçün yıxılıb ayağını sındırır. Deməli, geyik mifoloji düşüncədə yarıtanrı statusa malik totem, ata ruhunun hamisi kimi mənalandırılırdı. Eyni semantik mənanı Ana ruhunu təmsil edən marala da aid edə bilərik. Məhz bunu bildiyi üçün "Səyavuş" əsərində ov zamanı Firəngiz qarşılarına çıxan maralı öldürmək istəmir, qulluqçularına onu diri tutmağı tapşırır. Lakin bu zaman Səyavuş sərrast oxla maralı vurub öldürür. Ana ruhunu və ya əcdad kultunu təhqir etməyin cəzası kimi Firəngiz də Səyavuşu oxla vurub yaralayır və əsərin sonunda Səyavuş ölür və nəslinin davamçısı belə olmur.

Səyavuş həmin ov səhnəsində anası Xubçehri də xatırlayır:

"Burda rast gəlib də ovçular ona
Ərmağan götürmüş İran şahına"(7, s. 187).

Bu hadisə "Şahnamə"də verilmiş əhvalata uyğun gəlir. "Şahnamə"də də Səyavuşun anası *ovda olarkən* iranlılar onu tutub İran şahına ərmağan kimi aparırlar. "Səyavuş" əsərində Səyavuş yuxarıdakı misralarla həmin hadisəyə işarə edir. Daha sonra Əfrasiyab Səyavuşu qarşılamağa gəlir və Turanı Səyavuşun "ana qucağı" adlandırır.

Məktub: Mifoloji düşüncədə *məktub* kommunikativ xəbərləşmə aktı kimi səciyyələ-

nir. Çünki məktub da məzmun etibarilə hansısa pis (bəd) və ya yaxşı xəbərin epik düşüncədəki mifik kodudur. Hətta klassik ədəbiyyatda süjeti başdan-başa məktublar şəklində qurulan əsərlər də mövcuddur. XII əsrdə Xaqani Şirvaninin mənsur məktublarını, XVI əsrdə Ş.İ.Xətainin "Dəhnamə" (On məktub) əsərini, M.Füzulinin "Leyli və Məcnun" poemasında Məcnunun və Leylinin məktublaşmasını, "Koroğlu" dastanında Nigar xanımın Koroğluya məktubunu nümunə göstərə bilərik. S.Vurğunun "Vaqif" dramında da məktubdan xəbərləşmə aktı kimi məharətlə istifadə edilmişdir (Qacarın İbrahim xana təhdid dolu məktubu və Vaqifin Qacara təhqirli cavab məktubu, onu soysuz qatır cinsi adlandırması). "Səyavuş" əsərində Səyavuş üçün də macərası məhz atasından gələn məktubdan sonra başlayır. Məktub xəbərləşmə arxetipi kimi qəhrəmanı yeni bir macəraya təhrik edir. Keyxosrov Səyavuşu şəhərə dəvət edir. Səyavuş kənd mühitinə alışdığını, saray həyatının onu sıxacağını desə də, Rüstəm deyir ki, bu şahın əmridirsə, sübh tezdən yola çıxmalıyıq.

Əsərin sonuncu – V pərdəsində də Rübabə Gərşivəzə Keykavusun *məktubunu* gətirir. Guya, məktubda Keykavus yazır ki, "artıq vaxtdır sən bir tərəfdən hücum elə, Çin xaqanı bir tərəfdən, Tus ilə Zal oğlu da İran tərəfdən hücum edəcək. Əfrasiyab məhv olmalıdır" (7, s. 242). Əslində, həmin məktub Südabənin Səyavuşu məhv etmək üçün hazırladığı növbəti iftira hiyləsi idi və Səyavuş özü də həmin məktubu "ölüm fərmanı" adlandırır. Göründüyü kimi, məktub mifoloji düşüncədə kommunikativ xəbərləşmə janrı kimi həm müsbət, həm də mənfi xəbərlərin daşıyıcısıdır. "Səyavuş" əsərində də məktub yeni xəbərləşmə aktı kimi xaosu xarakterizə edir.

Pəncərə obrazı da mifoloji düşüncədə və folklor mətnlərində kosmos-xaos arasında keçidi simvolizə edən arxetipdir. Pəncərə adətən xaos aləmindən kosmos aləminə açılan keçidi bildirir. Mifoloji düşüncədə hər iki dünya arasında keçidi simvolizə edən çay, su, qapı, körpü, mağara arxetipləri kimi, pəncərə arxetipi də eyni semantik – mifoloji məna yükünü daşıyır.

"Səyavuş" əsərinin I pərdəsi Keykavusun sarayında başlayır. Yəni hadisələr məkana yerləşdirilir. Əvvəlcə Keykavusun sarayında olan salon, daha sonra salonun pəncərələrinin təsviri verilir: *"...əlvan camlı, ipək pərdəli böyük pəncərələr..."* (7, s. 123). Südabə kəgavədə gəlir və açıq pəncərədən ətrafı seyr edir. Yuxarıda da qeyd etdiyimiz kimi, pəncərə folklor mətnlərində xaos-kosmos arasında keçidi simvolizə edir. Eşq dastanlarımızda da qızın imarətdə, köşkdə pəncərə qarşısında oturub aşiqini gözləməsinin şahidi oluruq. Pəncərə nizamsızlıqdan nizama, qeyri-müəyyənlikdən aşkarlığa doğru açılan keçid kimi səciyyələnir.

Pəncərə dünya xalqlarının ədəbiyyatında və folklorunda da vacib məkan obrazlarındandır. Mifoloji düşüncədə pəncərə iki dünya arasında sərhədi bildirir. V.N.Toporov pəncərə obrazını vacib mifopoetik simvol kimi səciyyələndirir (21, s. 250). Y.M.Lotman hətta yuxunu da semiotik pəncərə kimi mənalandırırdı (20, s. 219-226). Dastan mətnlərində də pən-

cərə obrazının funksional əhəmiyyəti aydın görünür. Filologiya elmləri doktoru, professor Rüstəm Kamal "Koroğlu" dastanında Qırat və Dürat saxlanan tövlənin üstündən Rövşənin açdığı deşiyi pəncərə obrazının invariantı kimi mənalandırır. Rövşən həmin deşikdən (pəncərədən) sanki başqa bir dünyaya baxmış olur. Rövşənin baxdığı həmin qaranlıq dünyada Qıratın qanadları var idi. "Koroğlu"da pəncərə obrazı iki dünyanı ayıran simvolik sərhəd funksiyasını daşıyır. Qızlar "yad" dünya ilə pəncərə vasitəsilə əlaqə saxlayırlar. Dastanda paşa qızları pəncərə qarşısında oturub xarici dünyanın insanlarını seyr edirlər (11, s. 242). Pəncərə həmçinin xəbərləşmə arxetipi kimi də səciyyələnir. Bütün şəhər xəbərləri pəncərədən ötürülür (9, s. 28).

Bayatılarımızda da pəncərə obrazı arxetip kimi simvolik məna daşıyaraq xaotik məkanı ifadə edir:

Su gələr axar gedər
Çuxurun tapar gedər.
Dünya bir ***pəncərədir.***
Hər gələn baxar, gedər.

Aşağıdakı bayatıda isə pəncərə daha çox xəbərləşmə arxetipi kimi səciyyələnmişdir. Gənc oğlan anasına ilk dəfə pəncərə arxetipindən istifadə edərək sevdiyi qızın kimliyi haqqında xəbər verir:

Pəncərədə *üzüm var*
Ana, sənə sözüm var.
İki əmi qızının,
Kiçiyində gözüm var (22, s. 293).

Pərdə də folklorda mifoloji sərhədi simvolizə edən obraz kimi səciyyələnir. Pərdə gizlilik, saqlılıq rəmzi kimi sakral məna daşıyan mifoloji obrazdır. Pərdə obrazını epik mətnlərdə arxetip xarakterə malik xronotop kimi də səciyyələndirə bilərik. Və ya "Dədə Qorqud" eposunda qarşımıza çıxan "üzü niqablı" ifadəsi pərdə obrazının invariantı kimi də qəbul edilə bilər. Bir çox folklor mətnlərində hökmdarlar, padşahlar da pərdənin arxasında oturaraq özlərini sirli, gizli saxlamağa üstünlük verirlər. Və ya hökmdar qızları, şahzadələr çox zaman öz gözəlliklərini pərdə arxasında gizlədirlər. Əsərdə Keykavus cariyələrin üstünə hücum edəndə pişxidmət onlardan birini *pərdənin arxasında* gizlədir (pərdə gizlətmək funksiyasını yerinə yetirir). Mifoloji düşüncədə pərdənin arxası da hər zaman gizliliyi təcəssüm etdirib. Cariyə pərdənin arxasına gizlənərək öz namusunu, iffətini qorumağa ümid edir, lakin pişxidmət cariyənin yalvarışlarına baxmayaraq onu gizləndiyi pərdənin arxasından çıxarıb Keyxosrova verir. Nə qədər yalvarsa da, Keyxosrov onun gözyaşlarına məhəl qoymur. Əsərdə Südabə Səyavuşun üstünə şər atdıqdan sonra da dərhal pərdənin arxasına çəkilir. Öz çirkin iftirasını sirli şəkildə pərdələməyə, gizlətməyə çalışır. Pərdə yenə gizliliyi, şübhəni təcəssüm etdirir. Çünki pərdənin arxasındakı hadisələr bizim üçün hər zaman şübhəli, sirli görünür.

"Səyavuş" faciəsinin IV pərdəsində Çin sərhədində xalqa qarşı zülm edən vali Yalçın adlı bir şəxsin gəlininə onu azad eləməyin qarşılığında əxlaqsız təklif edir və deyir ki, "qanundur ki, qız gəlin köçdüyü zaman bikri rəisə nəsib olmalıdır" (7, s. 211). Daha sonra vali müşavirə deyir ki, "pərdəni aç və göstər". Müşavir pərdəni açır. *Pərdənin arxasından uzaqda dəniz və yelkən gəmisi, ən yaxında dar ağacında ağ köynəkli bir cənazə görünür*. Göründüyü kimi, pərdənin arxasında yenə xaos – qarışıqlıq, qorxu, nizamsızlıq gizlənir.

Qapı obrazı da mifoloji düşüncədə xaos-kosmos arasındakı sərhədi simvolizə edir. Mağara kimi, su kimi, qapı arxetipi də mifoloji mətnlərdə iki dünyanı bir-birindən ayıran sərhəd, keçid funksiyasını icra edir. Qapı və pəncərə vasitəsi ilə insan həm bu dünyaya, həm də o dünyaya aid xəbərləri eşidir. Əsərin sonuncu pərdəsində rəqqasə və kosa Səyavuşu zəhərləmək haqqında danışanda Firəngiz bunu qapı arxasından eşidir. Onların pis niyyətindən xəbər tutan Firəngiz xəncərlə kosanı vurub öldürür və onun niyyəti haqqında Səyavuşa xəbər verir. Göründüyü kimi, şərin təmsilçisi olan kosanın niyyəti haqqında məlumatı Firəngiz xaos və kosmos sərhədi olan qapıdan eşidir.

Qala obrazı da mifoloji düşüncədə toxunulmazlıq simvolu kimi səciyyələnir. Qalanın müdafiəsi namusu qorumağa bərabər sayılırdı. Qalanın namusu qızın namusu kimi qorunurdu. Qalanın düşmən tərəfindən zəbt edilməsi, düşmən ayağının dəyməsi onun paklığının pozulması demək idi. Bu gün şəhərimizin məkan semiotikasında xüsusi yeri olan Qız qalası da mifoloji düşüncədə həmin bakirəliyin, paklığın simvolu sayılır. Qala folklor mətnlərində müdafiə olunan üçün sığınacaq, xilas məkanıdırsa, düşmən üçün xaos aləmidir. "Dədə Qorqud" eposunda qala daha çox xaos məkanı kimi təsvir olunur. Ümumiyyətlə, eposda oğuz qəhrəmanları üçün qala yoxdur, daha çox yurd, el anlayışları mövcuddur. Oğuz igidləri daha çox düşmən qalalarını alırlar və xaos aləmini kosmos aləminə çevirirlər. "Səyavuş" əsərinin II pərdəsində də Bəlx qalasının tikintisinin təsviri kəndlilərin ağır zəhməti, zülmü fonunda verilir. İran kəndliləri, qadınlar, kişilər məcburi şəkildə qalanın tikintisinə cəlb olunublar. Zəbtiyyələr işçilərə zülm edirlər, onları qırmanclayırlar. Məmurlar qulları itələyir, qocaları döyürlər. İş prosesində qoca bənnaların oxuduqları nəğmələr məzmun baxımından ağır əmək prosesini yüngülləşdirmək məqsədilə oxunan və şifahi xalq yaradıcılığının lirik növünün ən qədim janrlarından olan əmək nəğmələrini xatırladır. Şeirin qafiyə quruluşu aabb şəklindədir və hər misrası 7 hecalıdır:

"Gəl, quzum, tez ol da gəl
Gözüm qaldı yolda, gəl.
Çamır gətir, daş gətir.
Durma, a qardaş, gətir"

"Koroğlu" dastanında Çənlibel qalası da paşalar, xanlar üçün təhlükə, qorxu mənbəyi sayılan xaosu ifadə edirdisə, sadə xalq, dəlilər, paşa və bəy qızları üçün bərabərliyi, azadlığı simvolizə edirdi..

Od (tüstü) da kökləri bir çox xalqların mifoloji düşüncəsində arxaik inamlarla bağlı olan inanc sisteminə aiddir. Odun müqəddəsliyinə inamla bağlı həm "Avesta"da, həm də digər dini kitablarda müxtəlif məlumatlar mövcuddur. Yəni od da mifoloji düşüncədə iki dünya arasında əlaqə vasitəsi kimi dərk edilir. Odun saflaşdırıcı, təmizləyici, paklaşdırıcı funksiyaya malik olduğuna inanılırdı. "Səyavuş" əsərində də biz həmin mifoloji inancın izlərini görürük. Südabə Səyavuşa iftira atdıqdan sonra münəccim Səyavuşun günahsızlığını sübut etmək üçün deyir ki, böyük bir atəş yandırılsın və hər ikisi (Südabə və Səyavuş) həmin atəşin içindən keçsinlər: "Yanan suçlu olsun, yanmayan təmiz". Burada oda sitayiş, odun müqəddəsliyinə, günahkarla günahsızı ayırd edə biləcəyinə inamın ifadəsi aydın görünməkdədir. Məsələn, şamanlarda ev qurarkən çadırın ortasından böyük bir dəlik açılırdı ki, ocağın tüstüsü ordan göyə yüksələ bilsin. Həmçinin şamanlar həmin tüstü vasitəsilə göylə əlaqə qurduqlarını iddia edirdilər. Bu da ocağın, tüstünün mifoloji düşüncədə olan sakral müqəddəsliyi ilə bağlı idi. "Ocağın heç vaxt sönməsin" alqışı da həmin mifolojji inancın ifadəsidir. Quranda "İbrahim" surəsində İbrahim peyğəmbərlə bağlı da belə bir əhvalat xatırlanır. İbrahim peyğəmbər bütün bütləri qırdıqdan sonra baltasını iri bir bütün boynundan asır ki, digər bütləri o qırıb, mənim heç bir günahım yoxdur. İbrahimin sözlərinə inanmayan insanlar onun günahsızlığını sübut etmək üçün atəşin içinə atırlar. Lakin Allahın əmri ilə od İbrahim peyğəmbəri yandırmır və gülüstana çevrilir. Bu hadisə "Dədə Qorqud" eposunda da *"İbrahimi oda atdırdın. Odu bustan qıldın"* şəklində xatırlanır. "Səyavuş" əsərinin II pərdəsində də biz həmin inancla bağlı ritualın icrasını görürük. Möbidlər atəşin ətrafında hansısa bir ayini – ritualı icra edərək heca vəznində 4 misralı, 6 hecalı şeir oxuyurlar:

"Əmr etmiş yaradan
Bir sınaqdır iştə.!
Günahsız bir insan
Yanmaz bu atəşdə!

Müqəddəs alovdan
Keçənlər qurtulur.
Əyri yollar gedən
Həp yanar, kül olur" (7, s. 146).

Bəzi mətnlərdə *od həm də kommunikativ xəbərləşmə vasitəsi* kimi də çıxış edir. Məsələn, Xalq yazıçısı Anarın "Dədə Qorqud" ssenarisində təsvir etdiyi uca dağ başında üç atəş yandırmaqla düşmən hücumu haqqında xəbər vermək odun kommunikativ xəbərləşmə funksiyasından xəbər verir. Odun müqəddəsliyi, paklaşdırıcı funksiyasına dair inamlar bu gün də Novruz bayramında odun üstündən atlamaq ayinində yaşayır. İnama görə, odun üstündən atlayan şəxs bütün günahları ilə birlikdə azar-bezarını da oda tökür və təmizlənib paklaşır. Bu, əlbəttə, Zərdüştlüklə bağlı ən əski mifoloji inamlardan qaynaqlanırdı.

Qarı: Qarı arxetipinə də bir çox folklor mətnlərində təsadüf edilir. Eşq dastanlarımızda qarılar bir neçə qrupa bölünür (ipək qarılar, köpək qarılar, napak qarılar və nəpək qarılar). "Dədə Qorqud" eposu da qarıları dörd yerə bölürdü (birisi solduran soydur, birisi dolduran toydur, biri evin dayağıdır, biri bayağıdır). Azərbaycan nağıllarında da qarı arxetipi qəhrəmanın macərası əsnasında sıx-sıx rast gəlinən arxetiplərdəndir. Qarılar, adətən, qəhrəmanın macərasının başlanğıcında və ya macərası əsnasında peyda olur. "Səyavuş" faciəsində rast gəldiyimiz qarı tipi müdrik qarı arxetipinin funksiyasını yerinə yetirir (K.Q.Yunqun təbiri ilə "böyük ana" – N.A). Səyavuşun anası olmasa da, bu qarı ona anadan yaxındır. Nağıllarımızda olan ipək qarılar kimi qəhrəmana nəsihət edir, ona xeyir-dua verir. Cavid bu səhnədə sanki Nizamiləşir. Dahi Nizami də öz əsərlərində ağsaçlı qarıların, qocaların dilindən tez-tez şahlara, hökmdarlara nəsihətlər verirdi. Bu qarı sanki Səyavuşun başına gələcək müsibətləri qabaqcadan duyur və Səyavuşa belə deyir:

"Quzum, er-gec parlar adın cahanda
Diz çökərlər sana qarşı hər yanda
Zalımla məzlumu saqın bir tutma,
Yediyin ətməyi, duzu unutma" (7, s. 122).

Burada mütəfəkkir şair yenə xalqın şifahi hikmət xəzinəsindən süzülüb gələn *"duz çörəyi unutmaq olmaz"* ifadəsindən istifadə edir. Bundan sonra qarı sanki yenə qeyb aləmində nəsə görür və dərindən ah çəkir:

"Şən saraylar məğlub etməsin səni
Düşün daim yoqsulların dərdini
Uyma evlər yıqan kinli şahlara!"(7, s. 121)

Qarının dilindən deyilən yuxarıdakı sözləri gələcəkdə Səyavuşun başına gələcək hadisələrin mifik koddan ifadəsi kimi də səciyyələndirə bilərik. Qarı sanki Səyavuşun taleyindəki faciələri qabaqcadan duyur, hiss edir və buna görə dərindən ah çəkir. Daha sonra qarı və Səyavuşun dialoqunda performativlik, həyəcan daha da yüksəlir və qarının bundan sonrakı sözləri nida cümlələri formasında verilir:

"Biz səni bəslədik, çalış adil ol!
Haydı yavrum, şanlı yol! uğurlu yol!" (7, s. 122).

Ögey ana arxetipinə bir çox xalqların mifoloji düşüncəsində rast gəlirik. "Ögey ana" arxetipi folklor mətnlərində "yetim uşaq" arxetipi ilə paralel olaraq işlənir. Analığın oğula aşiq olması süjeti Yunan mifologiyasında "İppolit" haqqında mifdə də təsvir olunur. Fedra öz ərinin oğlu İppolitə aşiq olur. Əsərin bütün versiyalarında İppolit ölür. H.Cavidin"Səyavuş" əsərində Südabə Səyavuşun analığı olsa da, ona aşiq olur və belə deyir ki, *"əgər bütün saray yanıb tutuşsa, vaz keçmərəm onun aşqından asla"*. Bu süjet öz başlanğıcını Firdovsinin "Şahnamə" əsərində olan "Siyavuş və Südabə" dastanından almışdır. Lakin

"Səyavuş və Südabə" dastanı ilə H.Cavidin "Səyavuş" pyesinin bir sıra fərqli cəhətləri var. Hər iki əsərin baş qəhrəmanı olan Səyavuş Zabulustanda Rüstəmin yanında təlim-tərbiyə alır və pəhləvan kimi yetişir. Firdovsinin əsərində Südabənin Səyavuşla tanışlığı belə baş verir: "Bir gün Kavus sarayında oğlu Səyavuşla oturan zaman Südabə içəri girir və Səyavuşu görüb ona aşiq olur. Növbəti gün Südabə Siyavuşu öz sarayına çağırsa da, Səyavuş saraya getmir. Bu zaman Südabə Kavusdan Səyavuşu onun yanına göndərməyi xahiş edir ki, bacıları Səyavuşu görsünlər. Kavus Səyavuşu Südabənin sarayına göndərir. Səyavuş Südabənin sarayına gələndə Südabəni taxtında oturmuş görür. Səyavuşu görən Südabə onu qucaqlayıb öpür. Südabənin yersiz hərəkətləri, sözləri və öpüşləri Səyavuşu bezdirsə də, onu qəzəbləndirməmək üçün susur və Südabəni özündən uzaqlaşdırıb ona ana deyə müraciət edir və sarayı tərk edir. Bir müddətdən sonra Südabə yenidən Səyavuşu saraya çağırır və ona aşiq olduğunu deyir. O, Səyavuşu hədələyir ki, əgər mənim istəyimi rədd etsən, dünyanı dar edərəm. Bunu eşidən Səyavuş ayağa qalxır və sarayı tərk edir. Südabə onu buraxmır, qorxur ki, Səyavuş onun bu hərəkətini atasına – Kavusa deyib onu rüsvay edər. Südabə dırnaqları ilə üzünü cırır, qışqırır və hay-küyə gələn Kavusa deyir ki, Səyavuş ona təcavüz etmək istəyib. Səyavuş isə günahsız olduğunu deyir. Kavus belə qərara gəlir ki, kahinlərlə məsləhətləşsin. Onlar da hər ikisinin günahsızlığını sübut etmək üçün oddan keçməsini məsləhət görürlər. Onlara görə, od günahsız insanı yandırmaz" (6).

Həm Firdovsidə, həm də H.Cavidin əsərində Kavus kahinlərlə məsləhətləşir. Ancaq H.Cavidin "Səyavuş" əsərində Səyavuş oddan keçməyə hazır olduğunu desə də, bu baş vermir. Çünki Südabə oddan qorxaraq öz günahını etiraf edir. Hər iki əsərdə Südabə şəhvətpərəst qadındır. O, öz məqsədinə nail olmaq üçün bütün dəyərləri ayaqlayır. Çünki Südabəni maraqlandıran sadəcə Səyavuşa qarşı duyduğu şəhvətdir. Sevgisinə qarşılıq ala bilməyən Südabə Səyavuşu məhv edəcəyinə söz verir. Südabə Səyavuşa deyir ki, "ehtiras atəşimi söndür, məni sevindir. Yoxsa bu atəşdə özün yanacaqsan". Səyavuş isə qarşılığında Südabəni "şərəf xırsızı" adlandırır. İstəyinə nail omadıqda isə Səyavuşu şərləyir. Bu şərləmə süjetinə XIV əsr şairləri Qul Əlinin "Qisseyi Yusif", Mustafa Zəririn "Yusif və Züleyxa" poemalarında da şahid oluruq. Hətta bu motiv Quranda da öz əksini tapmaqdadır. Züleyxa da Yusif peyğəmbərə aşiq olur və ondan istəyinə qarşılıq görməyəndə onu şərləyərək zindana atdırır. "Səyavuş" əsərində isə bu, "ögey ana" – "yetim uşaq" qarşıdurması fonunda baş verir. Odun üstündən keçməyə cəsarəti çatmayan Südabə öz günahını etiraf edir və Keykavus tərəfindən zindana atılır. "Səyavuş" pyesində Südabə Suriya ölkəsinin şahzadəsidir. Onun dayəsinin adı Rübabədir. Ancaq Firdovsidə Südabə Hamavəran ölkəsinin şahzadəsidir. "Səyavuş" əsərində Səyavuşun anası haqqında məlumat verilməsə də, "Şahnamə"dən oxuyuruq ki, Səyavuşun anası Turan gözəli imiş. İran pəhləvanları onu ovda görürlər və zorla tutub Keykavusun sarayına – İrana gətirirlər. Ovda əsir alınan bu gözəl həm də Turan hökmdarı Əfrasiyabın bacısı imiş.

Firdovsinin "Şahnamə" əsərində ikinci sevgi xətti də Rüstəm Zalın oğlu Söhrabla turanlı gözəl Təhminə arasında olur. Söhrab Təhminəni sevəndən sonra Turan-İran arasındakı ədavətə son qoymağa çalışsa da buna nail ola bilmir.

Əfrasiyab obrazı: İran dastanlarında Əfrasiyab kimi tanınan bu qəhrəman, türk tarixində Alp ər Tonqa adlanan türk qəhrəmanı kimi də səciyyələnir. Turan dövləti özünün ən əzəmətli dövrünü məhz Əfrasiyabın hakimiyyəti dövründə yaşamışdır. Lakin Uzun müddət Qərbin bir çox tədqiqatçıları, həmçinin rus elmi dairələri Əfrasiyabı etnik mənşə baxımından iranlı kimi qələmə verməyə çalışmışlar. Lakin Əfrasiyabı yalnız "Şahnamə" və "Avesta" ilə əlaqələndirib onu İran əfsanələri çərçivəsində məhdudlaşdırmaq doğru olmaz. Türklərin iki mühüm ensiklopedik əsəri olan Mahmud Kaşğarinin "Divanü Lüğat–it Türk" və Yusif Balasaqunlunun "Kutadqu bilik" əsərlərində tarixi mənbələrə və xalq içərisində dolaşan əfsanələr əsasında Əfrasiyabın türk qəhrəmanı Alp ər Tonqa olduğu iddia edilir. Firdovsi də "Şahnamə" əsərində Əfrasiyabı birmənalı şəkildə türk – Turan hökmdarı kimi təqdim edir və sonda Əfrasiyab nəvəsi Keyxosrov tərəfindən öldürülür. Hətta bir çox tədqiqatçılar belə bir fikir səsləndirirlər ki, türkün iki ulu qəhrəmanı Əfrasiyab və Oğuz xaqan eyni adam olmuşlar. Maraqlı cəhət odur ki, Mahmud Kaşğari və Yusif Balasaqunlu Əfrasiyab haqqında geniş bəhs etdikləri halda, Oğuz xaqanın adını çəkmirlər. Hətta belə bir fikir də mövcuddur ki, Səlçuqlar dövründə qələmə alınan Oğuz xaqan dastanında Əfrasiyabla bağlı xalq içərisində çox əvvəldən mövcud olan qəhrəmanlıq hekayətləri oğuzları şöhrətləndirmək üçün Oğuz xaqanın adı ilə əlaqələndirilmişdir (15, s. 10).

Əbülqazi Bahadır xan isə "Şəcərəyi Tərakimə" əsərində Oğuz xanın şəcərəsini təsvir edərkən Əfrasiyab haqqında da bəhs edərək Balasaqun şəhər dövlətinin hökmdarı olan İlk xanın Əfrasiyabın nəslindən olduğunu qeyd edirdi (4, s. 10).

Ümumiyyətlə, Turan dövlətinin tarixinin araşdırılması hələ də öz həllini gözləyən ən mühüm məsələlərdəndir. Görkəmli tarixçi Lev Qumilyevin da qeyd etdiyi kimi, böyük ərazi-yə və təkrarsız mədəniyyətə malik olan, Qərbi Avropa və Çin arasında mövcud olan bu böyük dövlət uzun illər ərzində diqqətdən kənarda qalmış, mövcudluğu inkar edilmişdir (19, s. 3).

Midiyada lap qədimdən məskunlaşan və öz adlarını bu ölkəyə verən Turanlılarla sonralar həmin əraziyə işğalçı kimi gələn arilər arasında irqi və dini zəmində münaqişə yenidən qızışır. Uzun müddət davam edən və İran-Turan müharibələri adlanan bu qarşıdurma Firdovsinin "Şahnamə" əsərində də öz əksini tapmışdır (16, s. 395).

Qəhrəmanın qiyafətdəyişməsi. Mifoloji inanc sistemində qəhrəman bir statusdan digər statusa keçdiyi zaman xaos-kosmos meydanında qiyafətini dəyişməlidir. Bu, qəhrəmanın yeni statusda təsdiqlənməsinin əsas şərtlərindəndir. "Səyavuş" əsərində də Səyavuş oddan keçməzdən əvvəl tacını, qılıncını alırlar, paltarını soyundurub *"ağ və uzun bir kömələk"* geyindirirlər. Bunun mənası o idi ki, yəni qul Tanrının hüzurunda nə mənsəbinə, tituluna, nə

də gücünə görə yox, təmiz əməllərinə görə dəyərlidir. İnisiativ keçid mərhələsində qiyafət-dəyişmə sonralar islam inancında da özünə yer etmişdir. Dünyasını dəyişən insanın o dünyaya təmizlənib, paklanıb tamam yeni qiyafətdə - kəfənlə yola salınmasında həmin mifoloji inancın izləri qorunur. Əski mifoloji inanca görə, o dünyaya keçə bilməyin şərtlərindən biri də qiyafətin dəyişməsi idi. Səyavuş da oddan keçib öz günahsızlığını sübut etmək üçün libasını dəyişdirir. Çünki bu, qəhrəman üçün yeni statusa keçid idi. Bu, qəhrəmanın yeni statusda yenidən doğulması idi. Bu inisiasiya prosesi yuxarıda da qeyd etdiyimiz kimi, mütləq şəkildə libas dəyişmədən sonra baş verməli idi. Bundan sonra atəşdən keçməyə cəsarət etməyən Südabə öz günahını etiraf edir və zindana salınır. Mağara kimi, qala kimi **zindan** da mifoloji arxaik mətnlərdə hər zaman xaos aləmini əks etdirmişdir. Bu hadisədən sonra Keykavus Səyavuşun günahsızlığına inanır və onu belə tərif edir:

"Bir ləkə var, bəlkə, Ayla, Günəşdə
İncə bir iz bilə yoq Səyavüşdə"(7, s. 149).

Yuxarıdakı misralarda şifahi yaradıcılığımızın janrı olan "Günəş və Ay" əfsanəsinin izləri (Ayın üzündəki ləkələrin səbəbi) görünməkdədir. "Dədə Qorqud" eposunda da təkurun meydanında döyüşdən əvvəl Qanturalını təmiz soyunduirub "ağ kətan bezə sarıyırlar".

Ata-oğul qarşıdurmasını da "Səyavuş" əsəri üçün səciyyəvi süjet xətti saya bilərik. Bu münasibətin mifdəki modeli oğulun atanın rəqibi olmasıdır. Bu xətt H.Cavidin "Xəyyam" pyesində də müşahidə olunur. Bu qarşıdurma bəzən hətta ölüm-dirim mübarizəsinə çevrilir, oğul atasını öldürür və onun yerinə keçir. Yunan mifologiyasında Zevsin öz atası Kronu məğlub etməsi və qardaşlarını xilas etməsi, türk mifik təfəkküründə Oğuz xanın atası Qara xanı öldürməsi həmin modelə misal ola bilər (10, s. 37-38). "Şahnamə" əsərində ata-oğul qarşıdurma sına Keykavus və oğlu Səyavuş arasında olan ziddiyyəti və Rüstəm Zalın oğlu Söhrabı öldürməsini misal göstərə bilərik. "Səyavuş" əsərində Səyavuşun türk sərkərdəsi Piranla barışığını eşidən Keykavus bundan şübhəyə düşür, bunu Əfrasiyabın hiyləsi kimi mənalandırıb oğlunu xainlikdə, qorxaqlıqda günahlandırır, onu öldürmək qərarına gəlir. Rüstəm bu qərara qarşı çıxdıqda Keykavus Rüstəmi də xain adlandırır. Məhz bundan sonra Səyavuş "kinli bir babanın ölüm cəzasından" xilas olmaq üçün İranı tərk edərək Turana – ana yurduna getməyə məcbur olur. Səyavuş Bəhrama deyir ki, "Südabənin vəhşi ədası və kinli bir babanın ölüm cəzası bizi qaçaq kimi dərbədər etdi". Məlum olur ki, dayısı Əfrasiyab məktub yazaraq onu gözlədiyini demişdir. Lakin Səyavuş sarayda dayısının himayəsinə sığınmaq istəmədiyini deyir. Gərşivəzin hiyləsinin qurbanı olan Səyavuş Turanda da rahatlıq tapa bilmir. Əgər İranda Səyavuşun başına gələn bəlaların kökündə Südabənin ona qarşı olan şəhvət hissi dururdusa, Turanda da Gərşivəzin Firəngizə olan gizli eşqi və Əfrasiyabın taxtına göz dikməsi Səyavuşun faciəsini daha da dərinləşdirir. Qeyd edək ki, Firdovsinin "Şahnamə" əsərində Gərşivəz Əfrasiyabın qardaşı kimi təqdim olunur. "Dədə Qorqud" eposunda Dirsə xan-Buğac obrazlarında da ata-oğul qarşıdurması yaşanır.

Əlin uğurlu, düşərli olması: Bir sıra xalqların mifoloji düşüncəsində əlin, ayağın uğurlu, düşərli olmasına inam mövcud olmuşdur. Hətta əli uğurlu olanlara "qutlu" deyilməsinə "Dədə Qorqud" eposunda da rast gəlirik. "Səyavuş" əsərində də biz bu inancın izinə rast gəlirik. Əfrasiyab Səyavuşla qızı Firəngizi evləndirmək istəyir ki, İran-Turan birliyi təmin olunsun. Gərşivəz isə Əfrasiba deyir ki, hələ tələsməyək. Bəlkə, onun bura gəlməkdə nəsə gizli bir planı var? Gərşivəz xainlik edir. Çünki əslində Firəngizlə özü evlənib Əfrasiyabın taxtına yiyələnmək istəyirdi. Daha sonra Firəngizlə Səyavuş bir-birinə olan sevgisini dilə gətirirlər. Əfrasiyab onların bir-birini sevmələrini bilib sevinir və Pirana deyir ki, **"sənin əllərin uğurludur. Bunların bazubəndini dəyişdir** (7, s. 203). Daha sonra nişan ayini icra olunur. Əski mifoloji düşüncədə "əlin, ayağın uğurlu, sayalı olması"na olan inam "Dədə Qorqud" eposunda da mövcud olmuşdur. "Uşun qoca oğlu Səgrək boyu"nda toy gecəsi Səgrəyin qardaşının ardınca getdiyini görən gəlin qaynatasına xəbər vermək qərarına gələndə belə bir ifadə işlədir ki, "qoy mənə qutsuz gəlin deyincə, udsuz gəlin desinlər". Deməli, türklərin mifoloji inancında da ayağın, əlin "qutlu" – sayalı, düşərli olmasına böyük dərəcədə inam mövcud idi. Əfrasiyab da türk olduğu üçün məhz həmin mifoloji inancın daşıyıcısı kimi çıxış edir. Ayrıca, əsərdə "bazubəndlərin dəyişdirilməsi" də nişan mərasimi ilə bağlı olan ritual idi. Yəqin ki, bu ritual da ruhların, taleyin birləşməsi kimi yozulmalıdır.

Obrazın ikiləşməsi: Mifoloji düşüncədə obrazın ikiləşməsi həm folklor mətnlərinin, həm də hərəkətin əsas olduğu dramaturji mətnlərin xüsusiyyətləridir. Bu mənada, folklor ənənəsi üçün xarakterik olan bu mifoloji ünsürün izlərinə "Səyavuş" əsərində də rast gəlirik. Əsərdə Səyavuş və qaçaq Altay obrazlarını xarakter və düşüncə tərzi baxımından bir-birinə yaxın iki obraz kimi səciyyələndirə bilərik. Çünki hər iki obrazın düşüncə tərzi, hərəkətləri, xarakteri bir-birinə yaxındır. Akademik Muxtar Kazımoğlu bu barədə qeyd edir ki, "ikiləşmə məhz ona görə ikiləşmədir ki, baş qəhrəmandan qopub ayrılan ikinci obraz baş qəhrəmanın görünməyən tərəflərinə işıq salır. Folklordan gələn bu ənənəni H.Cavid özünəməxsus şəkildə davam etdirir və baş qəhrəmanın təbiətindəki ziddiyyətli cəhətləri və ya gizli məqamları göstərmək üçün Oxşara xüsusi yer verir" (10, s. 32).

Əsərin IV pərdəsində hadisələr Çin sərhədində cərəyan edir. Valilər xalqın və Səyavuşun əleyhinə danışırlar və Səyavuşun hörmətinin get-gedə artmasından narahat olurlar. Xalq və qaçaq Altay da Səyavuşun tərəfindədir. Vali üsyançıların qətlinə fərman verir. Müşavir deyir ki, Səyavuşu yataqda ikən öldürmək lazımdır. Daha sonra Səyavuş, Altay və Bəhram gəlirlər. Altay valinin öldürmək istədiyi Yalçını xilas edir. Vali də deyir ki, bu hökumətə qarşı üsyandır. Altay özünü "zülmətləri yaran şimşəyə bənzədir". Altay obrazı, əslində, Səyavuşun əzilən xalqı zülmə, haqsızlığa qarşı mübarizəyə çağıran oxşarı idi. Qaçaq Altay obrazı S.Vurğunun "Vaqif" dramındakı qaçaq Eldarın sələfi idi. Üsyançılar valinin və müşavirin qollarını bağlayırlar. Səyavuş deyir ki, valini dəmir bir qəfəsə salın ki, ibrət olsun. Altay

valiyə deyir ki, *sən acların hamısını dar ağacından asdırdın. Ölkə viran oldu, çıraqlar söndü. Evlər məzara döndü. Ağır vergilərlə xalqı soyub taladınız. Əhali səfalət içində yaşayır. Uşaqlar acından ot yeyir.* Altayın dilindən deyilən bu sözlər, əslində, çarizmin müstəmləkəçilik siyasəti altında əzilən, səfalət içində yaşayan xalqları müstəmləkə zülmünə qarşı mübarizəyə səsləyən çağırış idi. Bu sözlər həm də XX əsrin əvvəllərində süquta uğrayan Azərbaycan Cümhuriyyətinə və zülmə, əsassız işgəncələrə məruz qalan Azərbaycan xalqına ünvanlanmışdı. Pyesin son pərdəsində Firəngizlə Səyavuşu görməyə gələn Gərşivəz Səyavuşun qurmuş olduğu nizam-intizamı görür. Hər yerdə deyirlər ki, Səyavuş yurda təzə ruh gətirib. Onun zəfəri dillərdə dastan olub. Xain məmurların hamısı cəzalandırılıb. Nizamsızlıq bitib, köylər artıq dirçəlməyə başlayıb. Hətta çinlilər də bu nizamı görüb Səyavuşla əlbir olub (7, s. 222).

Əsərdə Südabə və kosa obrazlarının simasında da mənfi obrazın ikiləşməsinə şahid oluruq. Sonuncu pərdələrdə Südabə özü şəxsən iştirak etməsə də, onun şər əməllərini kosa obrazı davam etdirir. Südabə obrazı xarakter və əməl baxımından mənfi planda olan kosa obrazı ilə eyniləşir.

Məlum olur ki, rəqqasəni və kosanı Səyavuşu öldürmək üçün Südabə göndərib. Fürsət düşən kimi kosa rəqqasəyə deyir ki, "zəhəri versin". Rəqqasə zəhəri vermək istəmir və yalandan deyir ki, yolda itirmişəm. Kosa rəqqasəni boğur, rəqqasə məcbur olur ki, zəhəri versin. Firəngiz qapı arxasından bunların danışığını dinləyir. Kosa zəhəri Səyavuşun qədəhinə tökür. Rəqqasə qədəhi alıb yerə çırpır və sındırır. Kosa xəncərlə rəqqasəni vurmaq istəyir, lakin xəncər yerə düşür. Kosa yenə rəqqasəni boğmaq istəyəndə Firəngiz arxadan xəncər ilə kosanı vurur. Firəngiz Səyavuşa deyir ki, bunları Südabə səni öldürmək üçün göndərib. Rəqqasə Səyavuşa deyir ki, bu qədəh də, xəncər də zəhərlidir. Əvvəl səni öldürmək üçün gəlsəm də, sonradan fikrim dəyişdi.

Kosa obrazı: Akademik Muxtar Kazımoğlu qeyd edir ki, "əsərdə mistik yox, real əlamətlərlə təqdim edilən kosa obrazının folklordakı Göygöz Kosa ilə səsləşməsi şübhə doğurmur. Folklorda o dünyaya bağlı obrazlar yalnız qeyri-adi gücünə görə yox, həm də qeyri-adi görkəminə görə seçilirlər. Bədənin xarici görkəmindəki natamamlıq – topallıq, təkgözlük, keçəllik, kosalıq o dünyaya məxsus olan obrazların seçilən zahiri əlamətləri idi" (10, s. 39-40). Konkret olaraq Göygöz Kosa ilə bağlı belə fikir mövcuddur ki, bu obraz nağıllarda daha çox şər qüvvə kimi təsvir olunur. "Səyavuş" faciəsindəki kosa obrazı da məhz bədxahlığı, şəri təmsil edir. Səyavuşu zəhərləyib öldürmək üçün göndərilən kosa xarakter etibarilə İblisdən seçilmir. Keykavus və Əfrasiyab sarayının fitnə-fəsad və İblis yuvası olduğunu göstərmək üçün H.Cavid kosa obrazını yaratmışdır. Hadisələrin sonrakı inkişafında Gərşivəz yalandan deyir ki, Əfrasiyab Südabədən daha qorxuludur. Guya Əfrasiyab deyib ki, Səyavuş mənim taxt-tacıma göz dikib. Səyavuş da deyir ki, bu, iftiradır, yalandır. Səyavuş İra-

nı xəyanət və hiylə ocağı, Turanı isə iftira və dəhşət qucağı adlandırır, Gərşivəzın hiyləsinə aldanıb Çinə qaçır. Vali və müşavir onu tutmaq üçün pusqu qururlar. Bu məqamda Rübabə də Gərşivəzə Keykavusun məktubunu gətirir. Guya məktubda Keykavus yazır ki, "artıq vaxtdır sən bir tərəfdən hücum elə, Çin xaqanı bir tərəfdən, Tus ilə Zal oğlu da İran tərəfdən hücum edəcək. Əfrasiyab məhv olmalıdır" (7, s. 242). Bu zaman Əfrasiyab da Piranla gəlir. Gərşivəz məktubu Əfrasiyaba verir. Əfrasiyab Firəngizi də, Səyavuşu da xəyanətdə ittiham edir. Səyavuş Rübabənin məktubunu "ölüm fərmanı" və Südabənin yeni iftirası adlandırır. Səyavuş Gərşivəzin xainliyini anlayır ki, Əfrasiyabın taxtına göz dikən əslində Gərşivəzin özüdür. Səyavuş bilir ki, onu öldürmək istəyirlər və birinci özü hücum edir. Səyavuş valini ağır yaralayır. Gərşivəz də arxadan Səyavuşu yaralayır. Səyavuş ölərkən həm Keykavusu, həm də Əfrasiyabı cəllad adlandırır.

Azər Turan "Cavidnamə" əsərində məsələnin əsl mahiyyətinə aydınlıq gətirən maraqlı bir fikir səsləndirir ki, "Cavidin "Səyavuş"unu Firdovsinin 1000 illiyinə töhfəsi kimi dəyərləndirmək onun tarixi vəzninə (çəkisinə) yüngüllük gətirərdi... "Şahnamə" mövzusu ona türk tarixinin və cəmiyyətinin daha qədim dövrünə müraciət etmək imkanı vermişdi" (17, s. 249). "Səyavuş" əsərində Cavid milli yaddaşı oyatmaqla, türkün şanlı tarixinə dönüş edərək Alp Ər Tonqa (Əfrasiyab) və Keykavus münasibətləri fonunda Türk-Turan tarixini (türklüyə qənim kəsilmiş sovet idarəsində) ədəbi mövzuya çevirir.

Pyesdə H.Cavid sovet siyasi rejimi üçün daha çox xarakterik sayılan saray çəkişmələrini önə çəkir, hakimiyyət ehtirasının övlad, qohum tanımadığını və hər zaman faciələrə səbəb olduğunu vurğulayır. Əsər qəhrəman, ədalətli və namuslu insan, dərin məhəbbətlə sevən Səyavuşun ölümü ilə tamamlanır. Fəqət, tarixdən məlumdur ki, türk xaqanı Əfrasiyab da saray çəkişmələri nəticəsində nəvəsi Keyxosrov tərəfindən öldürülür. Əsər idrakın, iradənin siyasi xəyanətlər üzərində qələbəsini əks etdirir və əslində, dahi mütəfəkkir şair bununla şovinist sovet hakimiyyətinə meydan oxuyurdu.

1937-ci ildə əsassız olaraq həbs olunan şair elə həmin şovinist hakimiyyətin qurbanına çevrilir. Burjua yazıçısı, pantürkist kimi damğalanır, 8 il azadlıqdan məhrum edilərək vətəndən sürgün olunur və 1941-ci ildə soyuq qış günündə uzaq Sibirdə gözlərini əbədi yumur. Yalnız şəxsiyyətə pərəstiş dövrü başa çatdıqdan sonra 6 mart 1956-cı ildə Cavidə yenidən bəraət verilir, lakin bu dəfə də onu sosializmin qəlibləri çərçivəsinə həbs etməyə cəhd edirlər. Bu dövrdə də Cavid daha çox sosializm prizmasından tədqiq və təbliğ olunur (14, s. 65).

Cavidin məzarının doğma vətənə gətirilməsinə bir neçə dəfə cəhd edilsə də, tale belə çətin və şərəfli işin öhdəsindən gəlməyi Heydər Əliyevə nəsib edir. Məhz Heydər Əliyevin rəhbərliyi dövründə 1981-ci ildə Hüseyn Cavidin anadan olmasının 100 illiyi haqqında qərar qəbul edilir. Respublikanın müxtəlif bölgələrində Cavidin həyat və yaradıcılığına dair elmi sessiyalar təşkil olunur. H.Cavidin pyesləri yenidən teatrların repertuarına daxil edilir.

Ədibin əsərləri yenidən nəşr edilir. H.Cavidin ev muzeyinin yaradılması haqqında göstəriş verilir. Əlbəttə, bütün bunlar milli-mənəvi dəyərlərimizə, zəngin tariximizə, kökümüzə sadiq olan dahi rəhbər Heydər Əliyevin gərgin əməyi, böyük zəhməti və fədakar fəaliyyəti nəticəsində gerçəkləşə bildi. Ulu Öndər özü dəfələrlə vurğulayırdı ki, "xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın". Məhz xalqına olan həmin dərin bağlılıq və sevginin göstəricisi idi ki, 1982-ci ildə sənətkarın nəşi uzaq Sibirdən yaşadığı Bakıya gətirilir, doğulduğu Naxçıvanda öz doğmalarının əhatəsində əbədi rahatlığına qovuşur. Bu hadisə ölkəmizdə böyük mədəni hadisəyə çevrilir. Bu barədə Cavid ocağının sonuncu yadigarı Turan Cavid belə deyirdi: "Hər şeyə görə – atamı vətən torpağına qovuşdurmağına, əzizlərimi bir sərdabədə – Cavid məqbərəsində görüşdürdüyünə, Cavid ocağının çırağını yenidən yandırdığına görə unudulmaz Heydər Əliyevə minnətdaram". Bu, Ümummilli lider Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına olan sevgisinin, milli-mənəvi dəyərlərimizə, türklüyə olan sədaqətinin göstəricisi idi. İstər sovet Azərbaycanına, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə Ulu Öndər hər zaman milli mövqedən çıxış etmiş, ədəbiyyatımızı, mədəniyyətimizi, ədəbiyyat və mədəniyyət xadimlərimizi daim imperiyanın məkrli, qərəzli təhlükələrindən qoruyaraq onları himayə etmişdir.

Yenə məhz Heydər Əliyevin qətiyyəti və milli təəssübkeşliyinin nəticəsində müstəqillik dövründə H.Cavidin məzarı üzərində möhtəşəm abidə kompleksi – məqbərə ucaldılır. Bu məqbərə Ulu Öndərin təkcə Hüseyn Cavid yaradıcılığına verdiyi böyük dəyərin ifadəsi deyildi. Bu məqbərə həm də Ulu Öndərin bütövlükdə Azərbaycan mədəniyyətinə, Azərbaycan ədəbiyyatına, sovet dönəmində haqsızlığa uğrayan, sıxışdırılan, düşmən elan olunan milli şüura verdiyi böyük dəyərin ifadəsi idi. Bu məqbərə həm də Heydər Əliyevin vətənin bağrında və xalqın qəlbində özünə ucaltdığı ən böyük mənəvi dirilik abidəsi idi.

Bəli, bu gün Cavid nə burjua millətçi, pantürkist kimi, nə də sosializm prizmasından deyil, milli və mənəvi birliyin, bəşəri, ülvi ideyaların daşıyıcısı, əsl millət təəssübkeşi, təpədən-dırnağa soykökünə bağlı olan dünyamiqyaslı filosof kimi öyrənilir və tədqiq olunur. Bu, əlbəttə ki, Ulu Öndərin Cavidə göstərdiyi qayğının, diqqətin nəticəsində mümkün olmuşdur. Çünki xalqının böyük sərkərdəsi Heydər Əliyev qeyd edirdi ki, "bizim vətəndaşlıq borcumuz milli-mənəvi dəyərlərimizə, doğma torpağımıza, doğma ana dilimizə, zəngin tariximizə sadiq olmaqdan ibarətdir". Ulu Öndərin bütün həyatı və fəaliyyəti də Hüseyn Cavid kimi vətənə, millətə, milli dəyərlərə sədaqətin bariz təcəssümüdür.

QAYNAQLAR:

1. "Kitabi-Dədə Qorqud". Əsli və sadələşdirilmiş mətnlər. Bakı. Öndər. 2004
2. Balasaqunlu Y. Kutadqu bilik. Bakı. Gənclik. 2003

3. Çoruhlu Y. Türk mitolojisinin anahatları. Kabala yayınevi, İstanbul, 2002
4. Əbülqazi Bahadır xan. Şəcərei-Tərakimə (Türkmənlərin soy kitabı) / Rus dilindən tərcümə edən, ön söz və göstəricilərin müəllifi və biblioqrafiyanın tərtibçisi İ.M.Osmanlı. Bakı: Azərbaycan Milli Ensiklopediyası N-PB, 2002
5. Əliyev K. Hüseyn Cavid. (Əsərləri X cilddə.III cild). Bakı. Elm və təhsil. 2018
6. Firdovsi Ə. Şahnamə. Bakı. Öndər .2004
7. Hüseyn C. Əsərləri. Beş cilddə. IV cild. Bakı. Lider. 2005
8. Hüseynov A. Qədim türk qəbilələrinin totemləri. "Azərbaycan" qəzeti, Bakı, 18 yanvar, 2009
9. Kamal R. "Koroğlu" eposunda məkan semiotikası: pəncərə obrazı. (Azərbaycan Şifahi Xalq Ədəbiyyatına dair Tədqiqlər. Elmi-ədəbi toplu, 2021/1 (55), Bakı, Elm və təhsil, 23-30
10. Kazımoğlu M. Folklorda obrazın ikiləşməsi (monoqrafiya). Bakı. Elm. 2011
11. Koroğlu. Tərtibçi: Ə.Əsgər. Bakı. Elm və təhsil. 2021
12. Qafarlı R. Azərbaycan türklərinin mifologiyası(mifik dünya modeli, təsnifat). Ağrıdağ. Bakı. 2004
13. Qafarlı R. Mifologiya. Altı cilddə. İkinci cild. Ritualmifoloji dünya modeli. Bakı. Elm və Təhsil. 2019
14. Qasımov C. Cavidi məhbəsə aparan yol. Bakı. Nurlan. 2007
15. Siyablı Ə. Turan-Türk tarixində Əfrasiyab və Oğuz xaqan. Bakı. Köhlan. 2021
16. Smith Philip. The ancient history of the East. London. 1988
17. Turan A. Cavidnamə. Bakı. 2010.
18. Vəliyeva S. Hüseyn Cavid sənətinin qüdrəti. Bakı. Zərdabi. 2018
19. Гумилев Л. Тысячилетие вокруг Каспия. Баку.1990.
20. Лотман Ю.М. Культура и взрыв. М.,1992.
21. Топоров В.Н. Окно\\ Мифы народов мира: Энциклопедия. В 2-х т. М.,1982.
22. Şəki folklor örnəkləri. II kitab. Toplayıb tərtib edən: fil.ü.f.d., dos Ləman Vaqifqızı (Süleymanova). Bakı. Elm və təhsil. 2014.

QƏRBİ AZƏRBAYCAN VƏ NAXÇIVANDA HAXIŞTALAR

"HAKHISHTA" (QUATRAINS) IN THE WESTERN AZERBAIJAN AND NAKHCHIVAN

Sevinc HÜSEYNOVA
AMEA Folklor İnstitutu,
huseynova1980s@gmail.com

"Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Heydər Əliyev

Özət

Xalq təfəkküründən yaranmış bayatılar məzmun və mövzu etibarı ilə fərqlənir: Vətən bayatıları, mövsümlərlə bağlı bayatılar, mərasimlərlə bağlı bayatılar və s.

Xeyir mərasimlərində deyilən bayatılar sonradan məkan və məzmuna uyğun olaraq xüsusi ritm ilə deyilmiş, nəticədə "Haxışta", "Gülümeyi", "Gəlin tərifi" kimi kollektiv oyunlar meydana gəlmişdir. "Haxışta" sözünün öz mənası və yaranma etimologiyası da müxtəlif alimlər tərəfindən fərqli izah olunur. Bu fərqliliklə yanaşı ümumi fikir yekdilliyi də var.

Məqalədə "Haxışta" mərasim oyununun yaranmasından, alimlərin bu kollektiv oyuna fərqli və ya oxşar yanaşmasından, zamanla xırda dəyişikliyə uyğramasından bəhs edilir.

Xalqın məruz qaldığı ictimai-siyasi təsirlərin, keçirdiyi həyat tərzinin, adət-ənənəsi, etnoqrafiyası, sahib olduğu dekorativ tətbiqi sənəti, milli kimliyi barədə məqalədə geniş fikirlər, sitatlar yer alıb. Bundan başqa məqalədə haxıştalar haqqında bu günə qədər heç yerdə rast gəlmədiyimiz bir sıra yeniliklər, oyunun, rəqsin hərəkət taktikası da yer almışdır.

Açar sözlər: haxışta, mərasim, bayatı, lirik növ, adət-ənənə, ritm.

Summary

The quatrains (bayati), born from folk thinking, differ in terms of content and theme. Quatrains about the native land, quatrains about the special seasons, quatrains about death of dear persons, good deeds - henna, wedding and other related ceremonies.

The quatrains (bayati), which are told at the wedding ceremonies, were later told with a special rhythm in accordance with the location and content, as a result, collective games such as "Hakhishta", "Gulumeyi", "Bride praise" were formed.

The original meaning of the word "hakhishta" and the etymology of its origin are also

explained differently by the scientists. Along with this distinction, there is also a general unanimity of opinion.

In the article it is said about the formation of the ceremonial game “Hakhishta”, different or similar approach of different scientists to this collective game and the change in it time by time. The article contains a wide range of ideas and quotes about the socio-political influences of the people, their way of life, traditions, ethnography, decorative applied art and national identity.

In addition, in the article one can see a number of innovations about hakhishta, which we have not met anywhere till nowadays, as well as the tactics of movement of the game and dance.

Keywords: hakhishta, ceremony, quatrain, lyrical type, tradition, rhythm.

Azərbaycan folkloru olduqca zəngin olub, dərin və çoxşaxəli, milli-mənəvi köklərə söykənir. Bunu folklor nümunələrinin hər bir janrında görmək olar. Həyatı əksetdirmə funksiyasına görə, Azərbaycan folklor nümunələri lirik, epik, dramatik növlərə bölünür. Zaman keçdikcə bu ədəbi növlərin hər biri özlüyündə şaxələnmiş, inkişaf etmiş, daha da zənginləşmişdir. Xalqın bütün məişət və siyasi həyatını, tarixini, adət-ənənəsini, milli kimliyini, etnoqrafiyasını, dekorativ tətbiqi sənətini özündə əks etdirmişdir.

Lirik janrın folklorda mövcud olan müxtəlif növləri arasında adət-ənənə, tarix, həyat tərzi və sairə kimi xüsusiyyətləri özündə əks etdirmə oxşarlıqları olsa da, ölçü və vəzn üslubuna, mövsüm-mərasim və digər parametrlərinə görə bir-birindən fərqlənmişdir. İstər qədim türk poeziyasında, istərsə də ona söykənən Azərbaycan poeziyasının inkişafında lirik növün ilk nümunələrindən olan bayatıların mühüm rolu olmuşdur. Bayatılar lirik xalq şeir janrı olub, tək Azərbaycan xalq ədəbiyyatında deyil, demək olar ki, bütün türk etnocoğrafiyasında geniş yayılmışdır. Bayatıların qafiyə quruluşu a, a, b, a prinsipinə uyğun olub, dörd misradan ibarətdir və hər misrası yeddi hecalıdır. Xalq təfəkküründən yaranmış bayatılar məzmun və mövzu etibarı ilə fərqlənir. Bayatılarda onu yaradan millətin həyat tərzi, sevinci, kədəri, xalqın ictimai quruluşa, yadelli işğalçılara, yerli qaniçən hökmdarlara nifrəti, torpaqlarından didərgin salınan yerli əhalinin vətən həsrəti, insanların Allaha, dinə sevgisi, bir-birinə məhəbbəti, düşmənə nifrət, dosta sədaqət və başqa bu kimi xüsusiyyətlər əks olunur. Məhz bu məna, məzmun xüsusiyyətlərinə görə bayatılar özləri də bir-birindən fərqlənir, növlərə bölünür. Vətən həsrəti ilə deyilmiş bayatılara “Vətən bayatıları”, xüsusi mövsüm, mərasimlərdə (nişan, xınayaxdı, toy, bayram, yas) söylənilən bayatılara isə “Mərasim bayatıları” və s. deyilir. Hər bir bayatının məzmun fərqi, söylənilməsi üçün məkan fərqini də qaçılmaz edir. Yəni, xalq istənilən bir bayatını hökmən məzmununa, mənasına uyğun məkanda söyləyir. Məsələn:

Eləmi gül anbarı,
Gül əkdim gül anbarı.
Zalım fələk qoymadı,
Doyunca güləm barı (1)

Göründüyü kimi bu bayatıda dərin hüzn və şikayət var. Ona görə də bu ağı-bayatının deyiliş məkanı əsasən yas mərasimləridir. Başqa bir misal:

Ordan axan arxdımı,
Üzündə duvaxdımı?
Novruz gəlib yetişdi,
Ayrı duran vaxdımı? (1, 208)

Bu bayatıda xalqın qədim, milli geyim tərzinin ayrılmaz bir elementi olan duvağın vurğulanması ilə yanaşı, "Novruz bayramı"nın ən gözəl adətlərindən biri – küsülülərin barışı da önə çəkilir. Açıq-aydın görünür ki, məzmun və mahiyyət etibarı ilə Novruz bayramını xarakterizə edən bu bayatı mövsüm bayatısıdır və adətən Novruz bayramında deyilmişdir:

Novruzun gün işığı,
Düşübdür gün işığı.
Sazlı-sözlü aşıqdır,
Bayramın yaraşığı.

Və yaxud:

Ay gülü xonçadadır,
Atları yoncadadır.
Qurban olum qardaşa,
Güzgüsü xonçadadır.

Burada isə xalqın toy etnoqrafiyasını, toy adətini, qədim adətlərimizdən biri olan toyda xonça bəzənməsinin izləri aydın görünür. Bu və məzmun etibarı ilə buna oxşar bayatılar ta qədimdən günümüzə qədər toy və xına mərasimlərində, Novruz bayramlarında deyilir.

Xalqın sevincindən, şad günlərindən doğan, özündə yüksək ailə mehribanlığını, qardaşa, bacıya, oğul-qıza bir bağlılığı, sevgini birləşdirən bu cür bayatılar məhz xüsusi mərasimlərdə deyilir. Xeyir mərasimlərində deyilən bu tip bayatılar sonradan məkan və məzmuna uyğun xüsusi ritmlə deyilmiş, nəticədə "Haxışta", "Gülümeyi" və sairə bu kimi kollektiv milli oyunlar meydana gəlmişdir. Beləliklə, zəngin olan rəqslərimizə daha da zəngin, folklor nümunələri ilə müşayət olunan bir çox kollektiv rəqslər yaranmışdır.

Azərbaycan xalq rəqsləri dərin tarixi köklərə söykənməklə yanaşı, xalqımızın adət-ənənəsini, yaşayışını, geyim tərzini və digər xüsusiyyətlərini xarakterizə edir. Milli rəqslərimiz folklorumuzun ayrılmaz bir qolu olub, özündə xalqımıza məxsus mənəvi-əxlaqi dəyərləri ehtiva edir.

E.ə. II-III min il əvvələ gedib çıxan rəqslərimiz zaman keçdikcə təkmilləşmişsə də, bəzi tarixi dönəmlərdə siyasi düşüncələrin qurbanı olaraq, planlı şəkildə sıxışdırılıb. Ancaq bu kimi təzyiqlər xalqın yaddaşına, milli-mənəvi düşüncəsinə təsir edə bilməmişdir. Xalq öz mənəvi abidələrini zaman-zaman qoruyaraq, nəsildən-nəslə ötürmüşdür.

Bu cür oyunlardan biri də, haxıştalardır. Mənaca "ha xışla" ifadəsini verən haxıştalar xüsusi mərasimlərdə oynanılan kollektiv rəqs növüdür. Rəqs əsasən, Qərbi Azərbaycanın Vedibasar və ona yaxın bölgələrdə və Naxçıvanda ifa olunurmuş (Bəzi yerlərdə müasir dövrümüzdə də ifa olunmaqdadır). Haxıştalar haqqında müxtəlif alimlərin araşdırmasında rast gəlirik. Bu araşdırmalarda tədqiqatçı alimlərin ümumi fikir yekdilliyi olsa da, onların arasında düçüncə ayrılıqları da mövcuddur. Bu kolklektiv oyunun adının yaranmasına alimlər fərqli yanaşır. Haxıştaların bizə mövsüm nəğmələrindən və ya mərasim adətlərindən gəlməsi bir çox alimlərin müzakirə obyekti olduğu kimi, haxışta sözünün öz mənası və yaranma etimologiyası da fərqli tədqiqatçılar tərəfindən fərqli izah olunur.

Tədqiqatçı C. Cəlilov yazır ki, nikah ayini mərasimində oğlan və qız tərəfinin üz-üzə dayanaraq bir-birinə acıq verməsi türk xalqlarının kütləvi ov, hərbi yürüş, rəqs zamanı qarşı-qarşıya durub bir-biri ilə rəqiblik, tərəf müqabillik etməsindən qaynaqlanır. Alim onu da qeyd edir ki, "haxışta", "hakuşta", "haxışda" şəklində deyimlərin düzgün variantı "havışda"dır (4).

Qənaətimizcə, rəqsin adı "ha" əmr ədatı, "xış" feili (qoş) və "la-lə" feil düzəldən şəkilçidən törəyib. B.Əhmədov "xış" sözünün qoşalaşmış ovuc anlamına gələn "xışma", sözü ilə eyni mənşəli olduğunu yazır. Həmin söz "qoş" və" qovuşmaq" (qoşalaşmaq) feillərinin kökünə dayanır (2, 123).

Haxışta sözünün "ha" ədatı və "xışla" felinin birləşməsindən əmələ gəlməsini ehtimal edən araşdırmaçı alimlərin fikirlərini nəzərə alsaq və bunları müqayisəli şəkildə təhlil etsək, ortaya daha maraqlı bir fərziyyə çıxar.

Bildiyimiz kimi, folklor xalqın təfəkküründən yaranıb və nəsildən-nəslə, ağızdan-ağıza şifahi yolla keçir. Bəzən ötürülmə prosesi zamanı sözün deyilişində dəyişiklik – assimliyasiya-dissimliyasiya prosesi baş verir. Bəzən də bəzi bölgələrdə eyni əşyanın, hərəkətin ifadəsi fərqli sözlərlə-sinonimlərlə deyilir.

Məlum məsələdir ki, bir xalqın mənşəyi, adət-ənənəsi, yaşayış tərzi nə qədər eyniköklü olur olsun, onun coğrafi mövqeyindən digər ünsürlərin təsirindən ümumxalq dilində yerli növ müxtəlifliyi baş verir.

Ümumxalq dilin yerli növ müxtəlifliyinə dialekt deyilir. Hər bölgənin özünəməxsus dialekti mövcuddur. Bu dialektlər arasında fərqlərlə yanaşı, oxşarlıqlar da var. Naxçıvan və Qərbi Azərbaycanın bir çox bölgələri arasında mətbəx mədəniyyəti, etnoqrafiya (yas, toy və s.), mərasim bayramlarının qeydi Xıdır Nəbi və sairə baxımından oxşarlıq və bəzən də eyni-

lik müşahidə olunur. Apardığımız bir çox müşahidə və araşdırmalarda Naxçıvan, Qərbi Azərbaycan, (İrəvan, Vedibasar, Dərəlyəz və başqa mahallar) əhalisinin dialektində də çox oxşarlığı, bəzən də eyniliyi aşkar etdik. Məsələn, Naxçıvanda "Halauş" (istilik sözü, hərarət) Qərbi Azərbaycan dialektində eyni məna verir. (Yol gəlmişəm, yanıram, qoy haloşum keçsin, nağıl eliyəcəm) (Söyləyici: Hüseynov Vaqif Paşa oğlu, 77 yaş, 1946-cı ildə Qərbi Azərbaycanın Vedibasar mahalında doğulub. Deportasiya nəticəsində Tərtər rayonunun İrəvanlı kəndinə köçüb, hazırda orada yaşayır).

"Hadıx" (Şahbuz) – mamaça, doğuş zamanı uşağı tutan qadın. Eyni söz Qərbi Azərbaycan dialektində də eyni mənada işlənilir.

"Xırdıxov etmək" (Culfa) – narın döymək, xıdalamaq – duzu xırdıxov eliyip işlədirix (Qədimova Arifə Paşa qızı. 1948-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalında doğulub. Deportasiya nəticəsində Tərtər rayonunun Hacallı kəndinə köçüb. Hal-hazırda Yevlax rayonunun Nemətabad kəndində yaşayır).

Bu dialekt isə Qərbi azərbaycanlıların dialektində ona yaxın olan "xurd-xəşil etmək" ifadəsi ilə məna eyniliyi daşıyır.

"Xışdamax-döymək – Oğlan bunu nətər xışdadı, ürəyimnən tikan çıxdı. "Xışdamax" sözü də var ki, hər iki söz Naxçıvan dialektində olduğu kimi, "əzmək", "döymək" mənaları verir. "Deyir ögey ana uşağı nətər döyübsə, sümühləri xış-xış olub" (Qədimova Arifə Paşa qızı. 1948-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalında doğulub. Deportasiya nəticəsində Tərtər rayonunun Hacallı kəndinə köçüb. Hal-hazırda Yevlax rayonunun Nemətabad kəndində yaşayır).

Lobyanı qarzaxlı-zaddı töh torbuya, üsdən də bir çomağınan yaxşıca xışdıyırdıx ki, lobya qarzağınnan ayrıssın. (Qədimova Arifə Paşa qızı. 1948-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalında doğulub. Deportasiya nəticəsində Tərtər rayonunun Hacallı kəndinə köçüb. Hal-hazırda Yevlax rayonunun Nemətabad kəndində yaşayır)

Buradan belə qənaətə gəlirik ki, Naxçıvanla coğrafi yaxınlığı olan Qərbi Azərbaycanın bir çox adətləri kimi, dialekti də oxşar və ya eynilik təşkil edir. Yuxarıda qeyd etdiyimiz kimi, bu eyniliyi, oxşarlığı hər iki bölgəmizdə (Naxçıvan və Qərbi Azərbaycan) yaranan, bu günə kimi də eyni coğrafi ərazilərdə xeyir mərasimlərində deyilən haxışdalara şamil etmək olar. Deməli, haxışdalar məhz bu coğrafi məkanlarda yaranıb, inkişaf edib. Müasir dövrümüzdə isə ölkənin bir çox bölgərinə yayılmışdır.

Digər tərəfdən haxışta sözünün yuxarıda qeyd etdiyimiz kimi "ha xışla" yəni" əz", "döy" feilindən yaranma ehtimalını nəzərə alsaq, belə qənaətə gələ bilərik ki, haxışda sözü birbaşa əməklə bağlı olmuş və əmək nəğməsi kimi yaranmışdır.

Məlum məsələdir ki, oturaq həyat tərzi keçirən əhali texnikadan öncə əl əməyindən istifadə edirdi. Onlar istər dənli, istərsə də paxlalı bitkilərin əldə edilməsində kustar üsullardan yararlanıb.

Belə ki, taxıl, lobya, arpa, noxud və bu kimi qərzəkli məhsulları əldə etdikdən sonra növbəti mərhələdə onların emalı-köynəkdən çıxarılması prosesi baş verirdi. Sadaladığımız dənli bitkilər həyətlərdə, əkin sahələrinin kənarında sonradan xırmanlarda kisələrə doldurulur, iri davamlı ağaclardan hazırlanmış dəyənəklə döyülər, xışlanardı. Sonra onu küləkdə sovurardılar ki, bitkinin qarzağı dənindən ayrılsın.

Qərbi Azərbaycan, Naxçıvan, Ordubaddan olan söyləyicilər onu da qeyd edir ki, kollektiv əmək sərf etdikləri zamanlarda iş yorğunluqlarını aradan götürməkdən ötrü işarası fasilələrdə haxışta deyir, yallı tutur, gülümeyi oynayırmışlar. Bütün bu faktları nəzərə alsaq, deyə bilərik ki, haxıştalar ilk öncə bütün əmək nəğmələri kimi əmək, iş prosesi zamanı yaranıb. Belə olduğu təqdirdə "haxışta" sözünün "ha" ədatı ilə xışla feilinin birləşməsindən əmələ gəlməsi ehtimalı qaçılmaz olur.

Sonradan isə xalqın bütün şad mərasimlərində – Novruz bayramlarında, xına mərasimlərində, qız və ya oğlan toylarında, hətta toylardan bir gün əvvəl toy evində qurulan, xalq arasında "Ciyər axşamı" kimi tanınan şadyanalıqda da deyilirdi. (Ciyər axşamı bu günümüzdə də aktualdır. Qız və ya oğlan toyundan bir gün əvvəl toy evində baş tutan məclis). Toydan bir gün əvvəl, toya hazırlıq prosesində qonum-qonşu, qohum-əqrəba, dost-tanış toy olan qapıya gəlir, toya hazırlıq üçün toy sahibinə yardım edir. Bu zaman toy sahibi sabahkı məclis üçün toydan bir gün əvvəl kəsilən heyvanın ciyərindən gələn qonaqlara şam yeməyi hazırlayır və həmin gecə də qonqaqlarla yanaşı ev sahibi də yeyib-içir, şadyanalıq edir. Bu səbəbdən də bu gün keçirilən məclisə "Ciyər axşamı" deyirlər. Bəzi bölgələrdə, hətta ciyər axşamında musiqiçilər də dəvət olunurdu. Əvvəllər də ciyər axşamında saz, zurna-balaban ifaçıları olub və toya hazırlıq edən, toy üçün kəsilən heyvanın ətini qoruyan camaatı gecənin bir yarısına, bəzən də səhərə kimi əyləndirərdilər.

Əslən Qərbi Azərbaycanın İrəvan şəhərindən və Vedibasar mahalından olan bir-neçə söyləyicidən topladığımız materiallara əsasən, haxıştalarla bağlı bir-sıra yeniliklər də əldə etmişik:

1. Həmin söyləyicilərin dediyinə görə, haxıştalar yuxarıda qeyd etdiyimiz tək toy mərasimlərində deyil, toydan bir gün əvvəl baş tutan "Ciyər axşamında" da (bəzi yerlərdə buna "Toy axşamı" da deyirlər) deyilirmiş.

2. Haxışta deyən iki qrup tək üz-üzə dayanaraq deyişməklə kifayətlənmir, həm də haxışda demək növbəsi olan qrup, haxıştanı ifa edərkən, meydan boyu çəpik vura-vura, ayaqlarını yerə döyə-döyə eynən yallıda olduğu kimi ritm tutaraq üz-üzə gəlir, lap üz-üzə gəlib çatandan sonra, geri çəkilib ilkin yerlərində dayanırlar. Və bu hərəkətlər oyunun sonuna kimi bir-birini təkrarlayır.

3. Haxışta yalnız qadınlara xas deyil. Məclisi daha şən, əyləncəli etmək üçün bəzən kişilər də haxışta qrupuna qoşularaq haxışta söyləyərmiş.

4. Bəzən mərasim zamanı yaranan qruplara belə qadınlarla bərabər, kişilər də başçılıq edə bilirmişlər.

Bütün bunlara sübut üçün 1959-cu ildə Tərtər rayonunun İrəvanlı kəndində doğulan, hazırda Bərdə rayonunda yaşayan, əslən Qərbi Azərbaycan mahalından olan Şahbazova Şahizər Ələşirəf qızının canlı şahidlik etdiyi toy barədə dediklərini olduğu kimi təqdim edirik:

"1978-ci il idi. İrəvan şəhərinin özünə, bibim oğlu Abdullanın toyuna getmişdik. Bizimlə oraya toya Naxçıvandan qohumlarımız da gəlmişdi. Toydan bir gün əvvəl qohum-əqrəba toy evinə yığışmışdı. Deyən kim, gülən kim... Hamı, qohum, qonşu yığışıb toya hazırlıq görürdük. O zaman da qonşuların hamısı azərbaycanlılar idi. Gecə hamı kişili-arvadlı iş-gücü qurtarandan sonra evə yığışdı. Başladılar haxışda deməyə. Təxminən on nəfər irəli çıxıb iki dəstəyə ayrıldı. Qalanlar da divar boyu dayanıb tamaşa edə-edə çəpik vurur, arada kənardan atmaca atıb aranı qızışdırırdılar. Ayrılan iki qrupun içində kişilər də var idi. Bir qrupun başçısı isə, Yəhya dayı idi. O biri dəstədə Lalə, Tahirə, Hüseyn əmi və başqaları vardı. Bu dəstələr təxminən dörd-beş metr ara məsafəsi ilə üz-üzə dayanıb deyişməyə başladılar. İlk haxışdanı dəstə başçısı deyirdi. Haxışdanı həmin o bir nəfər deyəndə, hər iki dəstənin üzvləri ritmlə ayaqlarını yerə döyür, çəpik çalır, hər misranın sonunda hamı xorla ucadan "haxışta" deyirdilər. Eyni zamanda oyun iştirakçıları bir bənd haxışta başlayandan bitənə kimi ritmik hərəkətlə dolanır, yallıda düzülən kimi ard-arda haxışta meydanının bu başından o başına qatar şəkilli gedir, sonra eyni hərəkətlə əvvəlki yerlərində yenidən üz-üzə dayanırdılar. Bu dəfə o biri dəstədən başqa bir nəfər haxışta deyərdi. Və yenə həmin ritmik hərəkətlər bayaqkı ardıcıllıqla davam edərdi. Qrup üzvləri sanki yallı oynayırmış kimi yenə meydanı dolanardı. Haxıştanın bəndi bitənə kimi gəlib əvvəlki yerlərində dayanardılar. Mən orada gördüm ki, ortalığı qızışdırmaq, məclisə daha da gözəl ab-hava vermək, məzə qatmaq üçün hərdən kişilər də qadınlara qoşulub haxışta deyərdilər. Qıraqda duranlardan kim bacarırdısa, əlini stola, stula döyə-döyə sanki meyxana ritmi tutur, Bu ritmlə oyunu müşayiət edirdi. Bu minvalla bəlkə də üç-dörd saat haxışta dedilər. Bu toy mənim yadımda qalan ən gözəl toy oldu".

Həmin toyda iştirak edən, Qərbi Azərbaycanın İrəvan şəhərində doğulan, (2022-ci ildə dünyasını dəyişib) ilədək Tərtər rayonunun İrəvanlı kəndində yaşayan, 1958-ci il təvəllüdlü Xəlilova Kifayət Cəfər qızı da dediyimiz faktları təsdiqlədi:

"Haxışdalarda bəzən də adamlar bir-birini cırnadardı, bir dəsdə o biri dəsdəyə acıx verərdi. Bu da məclisi daha şüurlu edərdi:

İrəvan yol üsdədi,
Sahatım qol üsdədi.
Gəlin gözəl gəlindi,
Hayıf boyu bəsdədi.

O biri də söz altda qalmırdı:

Mən aşıx qaracadı,
Yad qızı qaracadı.

Boyuna lağ eləmə,
Qızıl da balacadı...”

Haxıştalada gəlin-qayınana motivləri, baldız, qayın,qayınata mövzuları da geniş yayılmışdır:

Naxçıvanın az duzu,
Xörəyə az sal duzu.
Əmiqızının keyfidi,
Ərə gedir baldızı (*Söylədi: Xəlilova Kifayət Cəfər qızı).*

Buradan belə nəticəyə gəlmək olar ki, haxıştaların kökü dərin və çoxşaxəli olub, xalqın həyat tərzini, adət-ənənəsini, milli kimliyini, bəzən isə, məruz qaldığı ictimai-siyasi təsirləri özündə birləşdirmiş, nəsildən-nəslə ötürərək bu günümüzə gəlib çıxmışdır. Sevindirici haldır ki, müasir dövrdə haxıştalar tək Qərbi azərbaycanlılar arasında və Naxçıvan arealında deyil, bütöv Azərbaycana yayılmaqda, inkişaf etməkdədir.

QAYNAQLAR:

1. Azərbaycan bayatıları XXI əsr, Bakı, 2004
2. Bəşir Əhmədov. Etimologiya lüğəti.(araşdırmalar, mülahizələr)altun kitab evi.2015.səh 123
3. “Novruz bayramı” ensiklopediyası, Bakı 2008, “Şərq- Qərb” 208 s.
4. Folklor “Musiqi -Rəqs”, “Rəqslər”, “Halay”, Numunənin reyestr kodu: FM0402000005

SÖYLƏYİCİLƏR:

1. Şahbazova Şahizər Əliəşrəf qızı, 1957, Tərtər rayonu, İrəvanlı kəndi, orta təhsilli, evdar xanım.
2. Xəlilova Kifayət Cəfər qızı,Tərtər rayonu, İrəvanlı kəndi,orta təhsilli, evdar xanım.
3. Hüseynov Vaqif Paşa oğlu, 77 yaş, 1946-cı ildə Qərbi Azərbaycanın Vedibasar mahalında doğulub. Deportasiya nəticəsində Tərtər rayonunun İrəvanlı kəndinə köçüb, hazırda orada yaşayır
4. Qədimova Arifə Paşa qızı. 1948-ci ildə Qərbi Azərbaycanın Vedibasar mahalında doğulub. Deportasiya nəticəsində Tərtər rayonunun Hacallı kəndinə köçüb. Halhazırda Yevlax rayonunun Nemətabad kəndində yaşayır.

MİSİRDƏ KÖLGƏ OYUNLARI

SHADOW PLAYS IN EGYPT

Sürəyya ƏLİZADƏ
AMEA Folklor İnstitutu,
sureyya_ms@mail.ru

"Azərbaycan xalqı Misirin qədim, zəngin mədəniyyətinə, zəngin tarixinə böyük hörmət və ehtiram bəsləyir".

Heydər Əliyev

Özət

Misirdə məşhur olan kölgə tamaşa janrı xalq arasında çox geniş yayılmışdır. Qaynaqlarda kölgə oyununun mənşəyi, yaranma tarixi haqqında müxtəlif fikirlərə rast gəlmək mümkündür. Bu oyun "Pərdə oyunu", "Çadır oyunu" adı ilə bərabər günümüzdə "Qaragöz" adı ilə də məşhurlaşmışdır. Məqalədə Misirdə formalaşmış kölgə oyunu araşdırılır, bu janrın görkəmli nümayəndəsi olan İbn Danyal və onun bu janr üçün yazdığı trilogiyanın qısa məzmunu verilir. Əvvəlki kölgə oyunlarından fərqli olaraq, İbn Danyal əsərlərinə yeniliklər gətirmiş, improvizələr edərək, mətnləri dialoqlarla yazmışdır.

Açar sözlər: Misir, kölgə, tamaşa, oyun, teatr, janr, İbn Danyal

Summary

The shadow spectacle genre, which was popular in Egypt, was very widespread among the people. In the sources it is possible to see the different opinions about the origin of the shadow spectacle play and the history of its formation. This play has become famous not only for the name "Perde oyunu" ("Curtain play"), "Chadir oyunu" ("Tent play"), but also for "Garagoz". In the article the shadow play formed in Egypt is investigated, a brief content of the trilogy written by Ibn Danyal, a prominent representative of this genre, and the information about this genre is given. Unlike previous shadow plays, Ibn Danyal brought innovations to his works, improvised and wrote texts in dialogues.

Keywords: Egypt, shadow, spectacle, play, theatre, genre, Ibn Danyal

Dünyanın bir çox ölkələrində, xüsusilə şərq aləmində kölgə oyunları çox məşhurdur. Bu oyunların mənşəyi haqqında müxtəlif variantlar mövcuddur. Onun yaranması, inkişafı barədə müxtəlif versiyalar var. Ta qədimdən kukla-kölgə oyunu "xəyal əl-zill" və ya "kölgə

xəyallar" mənasını verirdi. Bu oyun həmçinin "Pərdə oyunu", "Çadır Xəyal" adı ilə məşhurlaşmışdı. Lakin bununla bərabər günümüzdə "Qaragöz" adı daha çox şöhrət tapmışdır.

Dünyada kölgə oyunlarının İndoneziyada yarandığı və ya Hindistan mənşəli olduğu söylənilir. Bəziləri bu oyunun Çindən çıxmış olduğunu irəli sürürlər. Kölgə oyunu istər İndoneziya, istər Hindistanda, istərsə də Çində yaranmış olsun, bu oyunun Qərbə Asiyadan gəldiyi fikri hakimdir (Talıbzadə, 2005: 5).

Dünyanın bir çox ölkələrində kölgə oyunu mövcuddur. Yuxarıda da qeyd etdiyimiz kimi bu oyunun kökü haqqında müxtəlif fikirlər mövcuddur. Bir qisim alimlər bu oyunun vətənini Hindistan, bəziləri isə Çin olduğunu söyləyirlər. Bu oyunun Hindistandan qaraçıların köçü ilə gəldiyi qənaətindədirlər. Ayrıca olaraq qaraçıların Qərbə köçləri XI əsrdə olduğu halda Türkiyədə XVI əsrə qədər bu oyunun varlığına dair heç bir iz yoxdur (İslam Ansiklopedisi, 2001: 401-403)

Bəzi tarixçilərin fikrinə görə də kölgə teatrı İran və Türkiyəyə Çindən gəlmişdir. Məsələn, Türkiyənin qərbində kölgə teatrını "Çin Qaragözləri" adlandırırlar. Ərəb teatr araşdırmaçısı Məhəmməd Əziz belə hesab edir ki, Türkiyəyə kölgə teatrı ərəb ticarətçiləri tərəfindən gətirilib. XIX əsrdə bu teatra qadağalar qoyulub. Hətta ərəb ölkələrini işğal edən fransızlar bu teatrın əleyhinə çıxmışdılar. Deyilənlərə görə, Türkiyənin ilk prezidenti M.K.Atatürk 1923-cü ildə "Karagöz" kölgə teatrına qadağa qoymuşdur (Talıbzadə, 2008: 199-200).

Kölgə teatr haqqında ilkin məlumatları əş-Şəkəndi (ö. 1231), ət-Tifaşi (1184-1253), əl-Xəfəcənin (ö. 1658) əsərlərində rast gəlmək mümkündür.

Kukla-kölgə oyunun tarixinə nəzər saldıqda bir qrup alimlərin kukla-kölgə oyunun XIII əsrdə yarandığını, digərləri isə bu oyunların tarixinin daha qədim olduğunu və X əsrdən əvvələ gedib çıxdığını bildirdiklərini görmək olar. Türk alimi Mətin Andın qeyd etdiyinə görə, kukla-kölgə oyunu Misirdən Türkiyəyə XVI əsrdə Sultan Səlimin 1517-ci ildə işğalından sonra gəlmişdir. Ərəb tarixçisi ibn Ayyəs Badə "əz-Zuhur" əsərində qeyd edir ki, Sultan Səlim Misirdə olarkən "Rauda Palace" da kölgə oyununu izləyir. Bu oyunda Məmluk sultanının taxtdan enməyi təsvir olunurdu. Daha sonra Sultan Səlim kukla oyununu nümayiş etdirən şəxsi çağırıb ona öz minnətdarlığını bildirərək deyir: "Biz İstanbula gedəndə siz gərək mənimlə gedəsiniz və mənim oğlum sizi izləməli və həzz almalıdır". Bu hadisədən sonra 600 misirli Türkiyəyə gəlir (And, 1970: 45).

XIII əsr üçün əsas istinad üç mətndir. Kölgə tamaşaları üçün ən qədim teatral mətnlər Şəmsəddin ibn Danyal tərəfindən 1368-ci ildə yazılıb. Bu mətnlərin dörd əlyazması var. İkisi Qahirədə, biri Madriddə, dördüncüsü isə İstanbulda Süleymaniyyə kitabxanasındadır.

XII əsrdə Səlahəddin Əyyubi 1171-ci ildə Misirdə Fatimiləri devirdikdən sonra o, vəziri qazı əl Fədəl ilə birlikdə kölgə oyununa baxmağa gedir. O zamanlar kölgə teatrı dini qaydalara zidd hesab olunurdu. Səlahəddin vəzirinə həmin teatrın qeyri-qanuni olduğunu görərsə, ona baxmayacağını söyləyir. Tamaşa bitdikdən sonra şah onlardan nə gördüklərini

və nə fikirləşdiklərini soruşur. Vəzir cavab verir: “Mən böyük fərqliliklər, hakimiyyətin devrilməsini və bundan istifadə edənləri gördüm” (pupperting.com)

XI əsrdə yaşamış məşhur əndəluslu ədib İbn Həzm (994-1064) kölgəni aşağıdakı kimi təsvir edir: “Mən heç vaxt həyatda kölgə oyununa bənzər oxşarlıqlar görmədim. Aktyorlar əllərində taxta əsaları elə məharətlə hərəkət etdirirdilər ki, bir anlığa onlar yox olub, sonra yenidən görünürdülər” (5). Əndəlusda kölgə oyununa aid olan bu mühüm istinad dövrümüzdə inkişaf etmiş müasir “kölgə” tamaşasına işarə edir. Faruk Saad bunu “mexaniki kölgə oyunu” adlandırır. Əl-Ğəzəli (1059-1111), Əbu-l-əla əl-Məarri (973-1157) və bu dövrün digər ədibləri öz əsərlərində kölgə oyunundan bəhs etmişlər. Həmçinin əl-Məsbani (977-1029) Misirdə olan kölgə tamaşalarını belə təsvir edirdi: “Misirdə əhali bayram günlərində adətən bayıra çıxar, küçələrdə əllərində marionetlər (kukla teatrında mexanizm ilə hərəkət edən kukla) və kuklalar nümayiş etdirərdilər” (pupperting.com).

IX əsrdə İraqda kölgə teatrının varlığının əlaməti əş-Şəbüstərinin “əd-Diyarat” kitabında özünü göstərmişdir (998). Şair Dibil əl-Xüzai (865-960) əl-Məmunun (Abbasi xəlifəsi) aşpazlarından birini onu tənqid etdiyi üçün “anasını kölgə oyununa aparmaq” sözləri ilə hədələmişdir. Bu da Abbasilər dövründə satirik tərzdə özünü göstərən kölgə teatrının geniş yayıldığını göstərir.

VIII əsrdə ərəb dünyasında kölgə teatrının ən qədim əlaməti İmam Şafinin (767-820) Məhəmməd Xəlil əl-Muraddan bəhs etdiyi şeirdə özünü göstərmişdir: Mənim üçün bu dünya rəhmli başçı tərəfindən hərəkət etdirilən kölgə oyunudur.

Bəs kölgə sənəti bəhs etdiyimiz dövrlərdən əvvəl ərəb dünyasına necə gəlmişdir?

VII və IX əsrlər arasında kölgə teatrı buraya uzaq Şərqə ticarətlə məşğul olan tacirlər tərəfindən gətirilmişdir. İncəsənətin bu növü əvvəllər adanın böyük adət-ənənəsi kimi tanınmışdır. Digərləri isə bu teatrın Çindən Şərqi türk qəbilələri tərəfindən farslara və daha sonra ərəb dünyasına gəldiyini söyləmişlər.

Fatimilər dövründə xəlifə incəsənətin bütün növlərinin inkişafına icazə vermişdir. Həmçinin o fəth etdiyi ərazilərdə xüsusilə, Misirdə köhnə ənənələrin yenidən üzə çıxmasına şərait yaratdı. Fatimilərinin özlərinin də inandığı fala inanma adəti buna misal ola bilər. Bu şəraitdə marionet insan və mücərrəd dünya, cinlər və ruhlar dünyası arasında medyum (falçı) rolunu oynamışdı.

Sufilər hərəkatı və ideyalarının yüksəlişi dövründə kölgə teatrının İslam dünyasına daxil olduğu zaman çətin sosial və siyasi şərait hökm sürürdü. Qeyd etmək lazımdır ki, Məmluklar dövründə Misirdə marionet oyunlarının ənənəvi sonluğu qəhrəmanların tövbəsi və onların əfv olmaları üçün Məkkəyə Həcc ziyarətinə getməsi ilə bitir.

Kukla-kölgə belə səhnəyə qoyulurdu: şəhər meydanında və yaxud saraya yaxın olan ərazidə, çox da hündür olmayan yerdə səhnə qurulurdu. Bu səhnə ağ parçadan ibarət idi. Səhnənin arxasında güclü çıraq yandırılırdı. Pərdə ilə çıraq arasında kuklalar hərəkət edirdi. Tamaşaçılar isə bu səhnədə kuklaların kölgələrini izləyirdilər.

Kukla-kölgə oyunu bir çox ərəb ölkələrində səhnələşdirilmişdir. Misir, Suriya, Əlcəzair, Tunis, Liviya və Mərakeşdə kukla-kölgə oyunları var idi. Bu məqaləmizdə biz Misirdə olan kölgə oyunlarından bəhs edəcəyik. Misir kölgə-teatr oyunları üçün ən əlverişli ölkələr arasında idi.

Məşhur ssenarilər arasında aşağıdakıları qeyd etmək olar:

"Köhnə dəniz fənəri" oyunu (əl-Mənar əl-qadim).

Bu böyük həcmli mətn səlib yürüşləri zamanı gedən döyüşlərdən bəhs edir. Bu ssenari Paul Kahle tərəfindən nəşr olunmuşdur və uzun müddət ərzində bir çox müəlliflər tərəfindən yazılmışdır. Bütün ssenari iki qəhrəman – əl-Haziq və əl-Rahim (bir növ Qaragöz və Hacivat qəhrəmanlarıan oxşardır) arasında gedən qafiyəli dialoqdan ibarətdir. Əl-Haziq qorxaqdır, əl-Rahim isə onu razı salaraq, müharibəyə sürükləyir. Ssenaridə döyüş gəmiləri, qılınclarla müharibələr təsvir olunur. Müharibələrdə ən mühüm əlamət İskəndəriyyə mayakıdır. Deyilənlərə görə, Səlahəddin bu oyunu görüb bəyənmişdir.

Yeni dəniz fənəri oyunu (əl-mənar əl-cədid)

Bu oyunda eyni iki qəhrəman – əl-Haziq və əl-Rahimi müxtəlif hadisələrdə iştirak edir. Ssenaridə onlar tənbəl dülgər kimi göstərilmişdir. Onlar frankların təhlükəsinə qarşı döyüş gəmilərinin hazırlanmasını gecikdirmişlər. Franklar tezliklə həmin əraziyə çataraq bütün savaş gəmilərini məhv etmişlər. Bu vəziyyət "əl-ğərab əl-mənsur" (zəfər qarğası) tərəfindən xilas edilir. O, düşmənin bütün döyüş gəmilərini məhv edir. Oyun hərtərəfli mü-haribə səhnələri ilə əhatə olunmuşdur. Paul Kahlenin "Yeni dəniz fənəri" oyununun ssenarisi alman və ərəb dillərində nəşr edilib. Daha sonra Fuad Ali Hassan tərəfindən yenidən ərəb dilində nəşr edilmişdir.

Şeyx Talehin oyunu

Hekayə şeyx Taleh və onun qulu olan qıza sui-qəsd ilə başlayır. O, hakimlərin başçısını aldatmaq üçün ona yaxınlaşır və hakim təyin olunmuşdur. Daha sonra o, eyni hiyləni bir neçə yerdə etmiş və hiyləsi üzə çıxdıqdan sonra hər dəfə qaçmış və yerini dəyişmişdir. Hekayənin sonunda sui-qəsd ifşa edilir və o, tövbə edərək əfv olunması üçün Məkkəyə getmişdir.

Timsahın oyunu

Hekayədə əkinçi Zəbərkaşın pis bəxtindən kədərlənməsindən danışılır. O, balıqçı olması üçün şeyx tərəfindən çağırılmışdır. Lakin onun yeni sənəti belə pis bəxtini dəyişməmişdir. O, timsah tərəfindən udulmuş və daha sonra hər kəs onu timsahın ağzından qurtarmaq üçün toplanmışdır.

Alam və Təadirin hekayəsi

Bu uzun ssenaridir, serial ilə oxşar olub, bir neçə gecə oynanıla bilir. Hekayədə müsəlman oğlan Təadir və xristian rahibinin qızı olan Alam arasındakı məhəbbət hekayəsindən bəhs edilir. Çoxlu sərgüzəştlərdən sonra Alam Təadirin sevgisinə qarşılıq vermişdir. Alam İslamı qəbul etmiş və onunla birlikdə Məkkəyə-Həccə getmişdir.

Bu janrın görkəmli nümayəndələrindən biri İbn Danyaldır. Əsl adı Şəmsəddin Məhəmməd İbn Danyal ibn Yusif əl-Mausulidir (919, جرجي زيدان) XIII əsrdə Monqol işğalları zamanı (1258) Mosuldan Misirə qaçan Şəmsəddin İbn Danyal əl-Mausulinin (1238-1310) bu trilogiyası marionet kölgə oyunlarında ən mühüm və orijinal ssenaridir. Bu trilogiya ərəb ölkələrinin ən qədim ssenarisi hesab edilir. Digər kölgə oyunlarından fərqi burada yalnız improvizasiyalarla yanaşı mətnin dialoqlarla yazılmasıdır. Əvvəllər ərəb mədəniyyətində oyunun bu forması məlum deyildi.

İbn Danyalın trilogiyasına aid olan əsərlər bunlardır:

1. Tayf əl-xəyal
2. Əcib və Qərib
3. əl-Mütəyyəm

Bu üç oyun forma və mövzusuna görə müxtəlifdir. Birinci oyun komediya tərzinə oxşar olub anlaşılmazlıqlar üzərinə qurulmuşdur. Hekayə şahzadə Visalın özünə gəlin axtarmasından bəhs edir. Şahzadə murdar aradüzəldəndən kömək istəyir. Aradüzəldən şahzadəyə gəlin tapır. Şahzadə evləndiyi zaman görür ki, onun yoldaşı ara düzəldənin təsvir etdiyinin əksinə, hədsiz dərəcədə çirkindir. Hekayə aradüzəldənin ölməsi və şahzadənin tövbə edərək Həccə getməsi ilə bitir.

Süjetin sadə olmasına baxmayaraq, ölkədə olan şəraitə toxunulmuşdur. Burada Baybars tərəfindən tətbiq olunan ciddi sanksiyaların və ölçü sistemlərinin mədh edildiyi görüldüyü görünür. İbn Danyal ssenaridə və əməldə yüksək ədəbsizliklə dolu olan homoseksuallığı səhnəyə qoyaraq tənqid etmişdir. O, qəhrəmanlarının tövbə etmək üçün Məkkəyə-Həccə getməsi ilə oyunu sonlandırmışdır.

Əsər 1266-cı ildə Misirdə sultan Baybarsın spirtli içkilərin içilməsi və satışına qadağa qoyulması şərəfinə yazılıb (Filştinskiy, 1991: 665).

İkinci oyun "Əcib və Qərib"dir. Bu oyunun mövzusu digərindən tamamilə fərqlənir. Bu oyun Misirdə Məmluk qanunları altında müxtəlif oyunlar, hoqqabazlıq, sehrbazlıq, heyvan əhliləşdirilməsi, digər tamaşalar və bənzəri olmayan səhnələrin təsvirindən ibarət olan bir sirkdir. Birinci oyunda olduğu kimi ibn Danyal bu ikinci oyunu da tövbə edən qəhrəmanların Məkkəyə getməsi ilə bitirmişdir.

Üçüncü oyun "əl-Mütəyyəm" adlanır. O dövrdə sərhədlərdən kənarda əxlaqsızlığa icazə verilirdi. Hekayədə qarasevdalıdan bəhs edilir. O, oyunun sonunadək öz sevgilisini xoruz döyüşləri, qoç döyüşləri, öküz döyüşləri ilə məmnun edir. Hər növ pozğunluqların olduğu mərasimdə o, qulaqbatıran bir səs eşidir. Qarasevdalının canını almaq üçün ölüm mələyi üzə çıxır. Qarasevdalı bir müddət xahiş etdikdən sonra tövbə edərək digər oyunlarda olduğu kimi Məkkəyə-Həccə gedir.

Ərəb Şərqində kölgə teatrı çox əsrlər xalq teatrı çox əsrlər xalq teatrının ən populyar növü olmuşdur. Qərbi və cənubi-şərqi Asiyadan ərəb ölkələrinə gələn bu oyunun bəzi for-

maları günümüzədək qorunub saxlanılmışdır. Ümumiyyətlə, kukla-kölgə oyunun orta əsrlər ərəb şəhərinin inkişafında az rolu olmayıb. Bu tamaşalar ərəb ölkələrində və Osmanlı istilasından sonra "Qaragöz" kimi türk dünyasında məşhurlaşmışdır.

Misirdə XIII yüzilə məxsus digər pyes mətnləri də tapılıb. Müəlliflərin çoxu anonimdir. Onların arasında yalnız Muhəmməd əş-Şeyxin adı aşkarlanıb. Muhəmməd əş-Şeyx 13 əsərin müəllifidir. Lakin təəssüf ki, bu pyeslər hələ də teatrşünaslar tərəfindən araşdırılıb elm aləminə daxil edilməyib (Talıbzadə, 2008: 223)

Bildiyimiz kimi, Bonopart Napaleon 1798-ci ildə Misirə yürüş etmişdir. İşğal Yürüş müddətində o, bir çox qadağalar gətirdi. Bu qadağalardan biri də kölgə tamaşalarına qoyulan qadağa idi.

Şərq şəhərlərinin zəngin həyat abu-havasını bərpa etmək, xalq bayramlarının, yarmarkaların və milli adətlərin rəngarəng təsvirləri ərəb mədəni ənənələrinin öyrənilməsi üçün zəruri tarixi mətnlərdir. Kölgə teatrının mətnlərini və süjetlərini sistemləşdirilməsində bir çox alimlərin səyləri olmuşdur. XVI əsrdə Misirdə Şeyx Səud, Əli əl-Nəhl və Daoud əl-Manavi, X1X-XX əsrlərdə Suriyada Əbu Abdel-Lətif əl-Miamari kimi ustadların adlarını canlandırdı (Dakrub 2005.)

Ümumiyyətlə, kölgə teatrı ta qədimdən müxtəlif ərazilərdə yaranıb inkişaf etməsinə baxmayaraq, günümüzədək gəlib çatmış və yetəri qədər məşhur olmuşdur. Bu oyunlar dünyanın bir çox şərq ölkələrində səhnəyə qoyulur. Bu ölkələrin hər birində fərqli adlarla adlandırılır. Həmçinin bu oyunlar oynanıldığı ölkənin öz adət-ənənələrini də özündə əks etdirərək, həmin xalqın folklor nümunəsinə çevrilmişdir.

QAYNAQLAR:

1. Hayrettin İvgin. Karagöz ve kukla sanatımız. Ankara, 2000, 112 səh.
2. Aida Qasımova. Ərəb ədəbiyyatı V-XIII əsrlər: dərslik. Bakı: "Elm", 2019-676 s.
3. Aydın Talıbzadə. Şərq teatrı tarixi, Bakı,2008, 234səh.
4. И.М.Фильштинский. История арабской литературы X-XIII века. 1991, 726 стр.
5. Айдын Талыбзаде. Театр и театральность в культуре ислама. Баку, 2005, стр 312.
6. İslam Ansiklopedisi. 1999, cild 19, 559 səh.
7. И.Н. Соломоник. Традиционный театр кукол Востока. Основные виды театра плоских изображений. Москва, 1983, 184 с.
8. http://www.puppetring.com/2013/12/19/arabic-shadow-theater-by-karim-dakroub/
9. Валид Фахреддин Дакруб. Традиционный Театр Теней в Арабских странах: Философско-Эстетические Аспекты Зрелища. Санкт-Петербург, 2005
10. نبيلنه نهجت. مسرح خيال الظل من ابن دانيال الي حسن حسن خنوفة (alkalimah.net)
11. Metin And. 100 Soruda Türk tiyatrosu Tarihi. İstanbul, Gerçek Yayınevi, 1970, 352
12. جرجي زيدان تاريخ ادب اللغة العربية , القاهرة, 2012, 1518

ŞİFAHİ VƏ YAZILI ƏDƏBİYYATIMIZDA QADIN AZADLIĞI MÖVZUSU

THE THEME OF WOMAN'S FREEDOM IN FOLKLORE AND WRITTEN LITERATURE

Tahirə VƏLİYEVA
AMEA Folklor İnstitutu,
tahire.ss20@gmail.com

"Cəmiyyətdə qadınların üzərinə daim çox böyük vəzifələr düşür. Onların işi həmişə ağırdır. Ancaq onlar bu vəzifələri şərəflə yerinə yetirir və həmişə olduğu kimi indi də cəmiyyətdə aparıcı rol oynayırlar!"

Heydər Əliyev

Özət

Azərbaycan qadınları ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi üçün bu gün də var qüvvələrini sərfərbər edirlər. Azərbaycan qadınları xarakterik baxımdan fərqli olurlar. Lakin onları birləşdirən bir ad var ki, o da "Ana" adıdır! Qəhrəman qadınlarımız tarixən olmuş və indi də var. Müasir dövrdə yaradıcılıqla məşğul olan, işini sevən ziyalı qadınlarımız çoxdur. Qadın mövzusuna ədəbiyyatımızda da tez-tez rast gəlinir. Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafında danılmaz xidmətləri olan şair-dramaturq Cəfər Cabbarlı yaradıcılığı buna bariz nümunədir. Onun lirik əsərləri içərisində "Ana" şeiri xüsusi yer tutur. "Ana" şeiri təkcə Cəfər Cabbarlının yox, bütövlükdə poeziyamızın ən gözəl nümunəsidir.

Ana müqəddəs bir varlıqdır ki, bu kəlməni söyləyərkən hər bir insan bu varlığın qarşısında uşaqlaşır və əzizlənmək istəyir. Cəfər Cabbarlının "Ana" şeiri həm anaya məhəbbət hissinin coşğun bir ifadə tərzi, həm də zərif, həzin və incə ritmi ilə oxucunu cəlb edən möhtəşəm bir əsərdir. Məqalədə C.Cabbarlının "Ana" şeiri və qadın mövzusuna həsr olunmuş başqa əsərləri də araşdırmaya cəlb olunub.

Açar sözlər: Heydər Əliyev, Cəfər Cabbarlı, qadın, ana obrazı, yazılı ədəbiyyat, folklor, bədii əsər, dramaturgiya

Summary

Today Azerbaijani women are still using their forces to maintain socio-political stability and peace, to further strengthen our national statehood. Azerbaijani women are different in character. But there is one name that unites them, which is the name "Mother"!

Our heroic women have historically been and still exist. In modern times we have many intelligent women who are engaged in activity and love their work. The theme of women is also often met in our literature. The poet-playwright Jafar Jabbarli, who has an undeniable contribution to the development of Azerbaijani literature, culture and art, is a vivid example to it. Among his lyrical works the poem “Mother” occupies a special place. The poem “Mother” is the best example not only by Jafar Jabbarli, but also of our poetry as a whole.

The mother is a sacred being, telling this word each person becomes infantile and cherished in front of this being. The poem “Mother” by Jafar Jabbarli is a magnificent work that attracts the reader both with an exuberant style of expression of love for the mother and with a gentle, melancholy and gentle rhythm. In the article the poem “Mother” by J.Jabbarli and other works devoted to the theme of woman are involved in the study.

Keywords: Heydar Aliyev, Jafar Jabbarli, woman, the image of mother, written literature, folklore

Azərbaycan qadınları zərif cinsin nümayəndələri sayılsalar da, kişilərlə birgə ölkəmizdə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, milli dövlətçiliyimizin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi üçün var qüvəllərini sərf edirlər. Əgər XX əsrin sovet qadını əsasən pambıq tarlalarında, üzüm plantasiyalarında, elm və təhsildə ad-san qazana bilirdisə, bu gün Azərbaycan qadını dünya sivilizasiyasına inteqrasiya edərək bütün sahələr üzrə öz elm və biliyini, məharət və bacarığını, yaradıcılıq və quruculuq qabiliyyətini nümayiş etdirir, respublikamızın və vətəndaş cəmiyyətimizin formalaşmasına öz layiqli töhfəsini verir. Belə ki, lider qadınlar, sahibkar qadınlar, məmur qadınlar... artıq günümüzün reallıqlarıdır. Onlar arasında eyni zamanda bəşəriyyətin mədəni fikir xəzinəsinin incilərini yaradan ədəbi şəxsiyyətlər, görkəmli elm və sənət adamları, tanınmış siyasi xadimlər yetişir. Bu cür qadın şəxsiyyətlər arasında Azərbaycan qadınının da öz şərəfli adı və imzası var.

Azərbaycan qadınının üzərinə tarixən böyük zəhmət düşmüşdür. O zəhməti qadınlarımız həmişə mərdliklə, cəsarətlə çəkmiş və heç bir zaman zəhmətdən yorulmamışlar. Belə qadınların fədakarlığını, cəsarətini əks etdirən çoxlu ədəbi nümunələrə şifahi və yazılı ədəbiyyatımızda rast gəlirik.

Qeyd edək ki, qadınlar xarakterik baxımdan fərqli olurlar, lakin onları birləşdirən yeganə bir ad var – Ana! Qadınlar fərqli olsalar da, analar fərqli olmurlar: arzuları, sevincləri, istəkləri, kədərləri bir-birinə bənzəyir. Övladı ağlayanda gözlərindən leysan tökən, güləndə gözləri gülən, dərdinə, kədərinə acıyan, eləcə də hər an məsləhətlərinə ehtiyacımız olan Analar!

“Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığın aktual problem”ləri kitabında profesor Kamran Əliyev qadınlarla bağlı Ulu Öndərə xitabən belə bir fikir bildirmişdir:

”Heydər Əliyev xalqa müraciət etiketləri içərisində analara və bacılara olan xitab ilk növbədə milli, dini bayramlar və tarixi günlərlə əlaqədardır” (3, 50).

Qəhrəman qadınlarımız tarixən olmuşdur, indi də var. Azərbaycan qadınları hər zaman dünya qadınlarından gözəlliyi, şücaəti, iradə möhkəmliyi, əməksevərliyi ilə də seçilmişdir. Müasir dövrün ədəbiyyatında da bir çox fəal, işini sevən, yaradıcılıqla məşğul olan ziyalı qadınlarımız var. Buna görə vurğulamalıyıq ki, qadın mövzusu çox geniş mövzulardandır. “Kitabi-Dədə Qorqud” dastanına diqqət yetirsək, oradakı qadınlar da əsl həyat yoldaşı obrazlarıdır. Burla xatunun timsalında anlayırıq ki, orada ananın oğluna dediyi sözlər hər zaman anaların balalarını əzizləmək, oxşamaq onlara nəvaziş göstərmək yalnız “Ana” adını daşıyan şəxsiyyətə məxsusdur. Oğlu düşmən əlində olduğu zaman Burla xatun dözməyir, ağlaya-ağlaya fəryad edərək oğluna belə deyir:

Oğul, oğul, ay oğul!
Bilirsənmi nələr oldu?
Söyləşdilər xısın-xısın, Duydum işini kafirin.
Qızıl tağlı uca evimin dirəyi oğul!
Qaza bənzər qız-gəlinimin çiçəyi oğul!
Oğul, oğul, ay oğul!
Doqquz ay qarnımda gəzdirdiyim oğul!
On ay deyəndə dünyaya gətirdiyim oğul!
Bələyini beşikdə bələdiyim oğul (4, 195).

Ana məhəbbəti bir ümmandır. O, övladının xoşbəxtliyi uğrunda bütün əzablara sinə gərir, hər cür çətinliklərə dözür, od ətrafında fırlanan pərvanə kimi ürəyinin yağını əridir. “Kitabi-Dədə Qorqud” eposunda belə ana yaradılmışlar içində ən əziz və ülvi varlıq hesab olunur. Dastanda həssas və uca bir məqamda təsvir olunan qadınların ən dəyərlisi və müqəddəsi də yenə analardır. “Qazan xanın evinin yağmalandığı” boyunda yurdu, ocağı yağmalanan Qazan xan bütün var-dövlətindən keçərək öncə anasını istəməsi diqqəti cəlb edir. Yaşlı anasının savaş vaxtı at ayağı altında qalacağından ehtiyatlanıb düşmənə belə söyləmişdir: “Qarıcıq anamı gətirib dursan, mənə, kafir, -anamı ver mənə, savaşmadan, vuruşmadam qayıdım geri dönüm”, – deyir (4, 160).

“Kitabi-Dədə Qorqud”da Oğuz etnocoğrafi məkanında anaya verilən dəyər yüksək həddə olub dərin semantik tutuma malik “Ana haqqı – Tanrı haqqıdır” kəlamı ilə modelləşdirilmişdir. Əsərdə söylənən ibrətamiz sözlər, xeyir-dua və ustadnamələr dastanın dilini daha da zənginləşdirir. Dastanda qadına dərin hörmət, ana müqəddəsliyi o qədər gözəl verilmişdir ki, oxuyarkən xalqımızın necə yüksək mənəvi dəyərlərə malik olduğunu bir daha görürük.

Azərbaycan ədəbiyyatı tarixində ən görkəmli mövqeyə malik sənətkarlarımızdan biri Cəfər Cabbarlı da dastanlarımızdan qaynaqlanaraq yazdığı əsərlərində öz dəst-xəttini göstərmişdir. O, ədəbi yaradıcılığa çox gənc yaşlarından başlamış, qələmini həm şeir, həm bədii nəsr, həm də dramaturgiyada sınamışdır. Xüsusən bu sahədə yüksək şöhrət qazanan Cəfər Cabarlı çox zəngin bir yaradıcılıq yolu keçmiş, qeyd etdiyimiz kimi, lirikanın və bədii nəsrin də gözəl nümunələrini yaratmışdır. Onun lirik əsərləri içərisində "Ana" şeiri xüsusi yer tutur.

"Ana" şeiri təkcə Cəfər Cabbarlının deyil, bütövlükdə Azərbaycan şeirinin ən gözəl nümunəsidir. Şeirdə şair yüksək bir duyğu ilə ananın böyüklüyünü və müqəddəsliyini nəzərə çatdırır. Ana haqqında bir çox şairlərimiz nə qədər əsərlər yazsalar da, bu adın müqəddəsliyini ifadə etmək azdır. Fikrimizin izahı üçün anaya həsr edilən əsərlər içərisində ən parlaq nümunə Cəfər Cabbarlının müəllifi olduğu "Ana" şeiri hesab olunur:

Cahanda yox elə bir qüvvə baş əyib ona mən,
Fəqət nə güclü, zəif bir vücud var, yahu,
Ki, hazıram yıxılıb xaki-payinə hər gün,
Öpüm ayağını icz ilə. Kimdir o? Nədir o? (2,186)

Hisslərinin ifadəsi üçün bədii təzadlardan istifadə edən müəllif dünyada heç bir qüvvədən qorxmadığını, heç bir qüvvədən çəkinmədiyini, yalnız zərif olduğu qədər də güclü bir vücud olan müqəddəs bir şəxsin – ananın qarşısında özünün də, ən qüvvətli və möhkəm insanların da gücsüzlüyünü, itaətkarlığını, onların ana nəvazişinə, ana əlinin hərarətinə nə qədər ehtiyacı olduğunu böyük bir ustalıqla göstərir:

Ana! Ana!..O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir;
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir (2, 186).

Heç bir çətinlikdən, hətta ölümdən, qiyamət dəhşətindən belə qorxmayan, heç kimin və heç nəyin qarşısında əyilməyi ağlına belə gətirməyən şair yalnız müqəddəs bir şəxsin – ananın qarşısında acizdir, anaya bir rahib kimi həmişə itaətdədir:

Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,
Uçar səmalara o aləmi xəyalətdə.
Yatar, ölər bədənim nitqdən düşər bir soz:
Ana...., Ana....Sənə mən rahibəm itaətdə! (2, 186)

Cəfər Cabbarlının "Ana" şeiri həm anaya məhəbbət hissinin coşqun bir ifadə tərzi, həm də zərif, həzin və incə ritimi ilə oxucunu cəlb edən möhtəşəm bir əsərdir. Əsər öz yüksək-mənəvi dəyəri ilə ləyaqətli analara, qadınlara, qızlara həmdəm olur, onların saf duyğularına öz qoynunda geniş yer verir, analıq adını hər şeydən uca tutur. Şeirin gücüylə oxucuya

“qadın əmanətdir, yer üzərində mələkdir, bir ziynətdir, onu incitmək günahdır” kimi ibrətamiz fikir aşılanır. Tələqin olunur ki, qadın bir varlıqdır qədrin bilənə, qadın bir dəryadır dəyər verənə. Qadın bir “Ana”dır, onun qəlbinə toxunmaq olmaz!

Görkəmli ədib hekayələrində olduğu kimi, dram əsərlərində də bir sıra orijinal mövzulara toxunur. Yaradıcılığına şeirlə başlasa da, məşhur əsərlərini dram janırında yazmışdır.

Şair-dramaturq cəmiyyətin qadınlara mənfi münasibətini tənqid edərək, onları öz hüquqlarını müdafiə etməyə çağırırdı. Dünyada ana məhəbbəti qədər müqəddəs, ana sevgisi qədər ülvi hiss yoxdur. Bəşər nəsli yarandığı ilk gündən bu munis qayğıya möhtac olub və indi də olmaqdadır. Ana haqqı-Tanrı haqqı, ana qucağı-behişt guşəsidir deyimləri əbəs yerə deyilməyib. Dünyada ana qucağından isti bir yer, ana laylasından həzin bir musiqi yoxdur. Dünyanın ən gözəl musiqisi ana laylası, ən şirin ətri isə ana nəfəsidir.

Yazılı ədəbiyyatda şifahi xalq yaradıcılığını üstün tutması yazıçının əsərlərində öz əksini tapmışdır. Şifahi xalq yaradıcılığında ana laylası folklorun ən uca zirvəsində yer tutur. Layla, beşik deyərkən ana nəvazişi yada düşür.

Qadın azadlığı Cəfər Cabbarlı dramaturgiyasının əsas mövzularından biri idi. Yazıçının hekayələrinin əksəriyyəti zəif, hüquqları tapdanan, öz sözünü deyə bilməyən Azərbaycan qadınının taleyinə həsr edilmişdir. Ədib Azərbaycan qadınlarını bir yerdə donmuş vəziyyətdə yox, inkişafda təsvir etmişdir. Cəfər Cabbarlının qadın surətləri daima inkişaf edən, hüquqlarını, öz sözlərini deyə biləcək və ictimai mübarizəyə yüksəlmələrini dərk edəcək səviyyəyə qədər gəlib çatır.

Cəfər Cabbarlının Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin inkişafında danılmaz xidmətləri vardır. Onun “Ana”, ”Gülzar”, “Kişilər deyirlər”, “Dilbər”, “Dilarə”, “Qızlardan kişilərə protesto” və başqa şeir və hekayələrini göstərə bilərik.

Yazıçı hekayələrinin əksəriyyətini qadın adları ilə adlandırmışdır. Bu təsadüfi deyil. Belə ki, ədibin hekayələrinin əsas mövzusunu qadın azadlığı, Azərbaycan qızının səhnəyə gətirilməsi, qızların təhsildən uzaqlaşmasının qarşısının alınması, qadınların acı həyatı, qadın çarəsizliyi təşkil edir.

Apardığımız qısa tədqiqatlardan da aydın olur ki, şairin yaradıcılığının əsas hissəsini qadın azadlığı, qadın zorakılığına qarşı mübarizə tutur. Cəfər Cabbarlı milli-mənəvi dəyərlərdən, qadın azadlığından, folklordan bəhrələnərək onun tariximizə, adət-ənənələrmizə, etnoqrafiyamıza bağlılığını göstərir və bununla dramaturq xalqın əbədi sevgisini qazanmışdır.

Dramaturqun “Yaşar” pyesində Şərəbanının dediyi qarğışlar məhz folklorumuz bir qolu olan qarğışlara gətirib çıxarır. Alqış və qarğışlar bu gün bizə “Kitabi-Dədə Qorqud” da, şifahi yaradıcılığın nağıl, dastan və s. kimi nümunələrində, habelə yazılı ədəbiyyatda ayrı-ayrı obrazların dilində gəlib çatmışdır. Alqış və qarğışların ən yaxşı mühafizəçisi şifahi nitqimizdir.

Ədibin “Yaşar” pyesində kolxozçunun arvadı Şərəbanı arvadın dediyi qarğışların məhz folklorun qədim janrı olan alqış və qarğışa söykənməsi yazılı ədəbiyyatla folklorun bağlılığından xəbər verir. Məsələn, pyesdə Şərəbanı deyir: – Səni Allah döymüşdür. Yüz dənə sənin kimi kişini gotürüb təndirə soxaram... (2, 23).

Alqış və qarğışlara nəzər saldıqda belə bir cəhət də nəzərə çarpır ki, xalq içərisindəki alqış və qarğışların hər birinin özünəməxsus yaranma yolu, kökü olmuşdur. Odur ki, bu janr əslində xalq məişətindən etnik xüsusiyyətləri daha fəal mühafizə edən janrlar qrupuna daxil edilməlidir. Bir neçə qarğışları misal göstərə bilərik: “Allah ürəyini üzsün”, “Allah ömrünü kəssin”, “Allah sənə qotur versin, dırnaq verməsin”, “Ahım səni tutsun” və s. (5, 144)

Cəfər Cabbarlı folklorumuza nəzər salaraq Şərəbanının diliylə qarğışları “Yaşar” pyesində belə göstərmişdir: “Yalançının atasına lənət”, “Səni Allah döymüşdü”, “Eh səni Allah vurmuşdu paçalayasan məni”, “Elə paçalaram səni ki, çığırtın göyə çıxar”, “Gözündən gəlsin, hələ dünən xoruz öldürüb bişirdim verdim, təpdin gözünə ki...” (2, 24, 33, 34, 60).

Yazıçı burada göstərmək istəyir ki, alqışlarla paralel, qarğışlar da öz yerini tutur. Şifahi ədəbiyyatdan qaynaqlanaraq dastanlarda olduğu kimi, insanların həyatında da xeyir və şər anlayışları nəzərdə tutulur.

Alqış və qarğışlar bu gün bizə “Kitabi-Dədə Qorqud”da olduğu kimi, digər dastan və nağıl nümunələrində, yazılı ədəbiyyatda ayrı-ayrı obrazların dilində gəlib çatmışdır. Dastanda “Salur Qazan xanın evinin yağmalanması boyu”nda Salur Qazan çobana belə bir qarğış edir: “Ağzun qurusun, çoban! Dilin çürüsün, çoban! Allah sənin alnına bəla yazsın çoban”! (4, 205).

Buradan görürük ki, ədib yazdığı əsərdə dastanlarmızdan, şifahi ədəbiyyatdan qaynaqlanaraq əsərlərində qarğışlardan istifadə etmişdir. Cəfər Cabbarlı folklorun incəliklərinə toxunaraq xalq deyimlərinə üstünlük verib.

Qadın problemləri Cəfər Cabbarlı yaradıcılığının ana xəttini təşkil edir desək, yanılmarıq. Bunu təkcə əsərlərinə görə deyil, hər biri ayrılıqda böyük bir insan, qadın faciəsinin təsiri və real boylarla təsviri sayılacaq hekayələrində də görə bilərik. Bu mənada, “Gülzar”, “Dilbər” hekayələrində qadın problemi, qadın motivi, qadın çarəsizliyi və faciəsi xüsusilə ön plandadır.

Müəllif “Gülzarda”da oxucusuna, xüsusən də Gülzarın həmcinslərinə inamın doğurduğu aldanışı, yetimliyin verdiyi məhrumiyyəti və ən adi səbəbdən qadının ömürlük bədbəxt ola biləcəyini, daha doğrusu, cəmiyyət tərəfindən xor görüləcəyini göstərir.

Cəfər Cabbarlının “Dilbər”də bizə ayrı bir hadisəni və sadə problemlərdə belə qadının alət ola bildiyini təsvir edir. Bu hekayədə aldığı borcu qaytara bilməyən vecsiz ata Həsənin təhsilli qızı Dilbəri borc müqabilində verməsini görürük. Müəllif burada da bizə bir ailənin, bir məsum qızın timsalında bütövlükdə cəmiyyətin, dövrün faciəsini, real mənzərəsini göstərir.

Cəfər Cabbarlının bu hekayələrində qələmə aldığı və romantik üslubda yaratdığı "qızlar" bir-biri ilə daban-dabana zidd xasiyyətə, görüşə və ruha malik olsalar da, uğursuz taleləri, faciəli aqibətləri ilə bir-birinə yaxındırlar.

Şifahi xalq ədəbiyyatının digər dastanlarından biri olan "Koroğlu" dastanında qadın qəhrəmanlarımızdan biri olan Nigar xanımı göstərə bilərik. Dastanın qolarından biri olan "Koroğlunun İstanbul səfəri"ni göstərmək olar ki, Nigar xanım necə mərdliklə, qorxmadan sevdiyi qəhrəmana qaçır. Nigar xanım Koroğluya bir məktub yazır. Burada görürük ki, Nigar xanım heç nədən qorxmadan mərdi-mərdanə, qəhrəmanlıqla Koroğluya ərə gedir. Nigar xanım dastanın qəhrəman qadınlarından biridir. Xotkar qızı Nigar öz xanımlıq statusunu qoruyaraq əsl qəhrəmanın xanımı kimi heç nəyə məhəl qoymadan Koroğluya qaçır. Nigar xanım şeirdə Koroğluya belə müraciət edir:

"Mən xotkar qızıyım, Nigardır adım,
Şahlara, xanlara məhəl qoymadım,
Bir sənsən dünyada mənim muradım,
İstərəm özünə eylə yar məni" (1, 28).

Tarixən Azərbaycan qadınları qoçaq, mərd, yenilməz, cəngavər xarakterli olmuşlar. Buradan görünür ki, qadınlar zamanından aslı olmayaraq tarixən öz şücaətlərini, qəhrəmanlıqlarını göstərmişlər. Dastanlardan bəhrələnərək Cəfər Cabbarlı gözəl əsərlər yazmışdır ki, bu da yazılı ədəbiyyatın folklor janırına daha da yaxınlaşması deməkdir.

Hər zaman qadınları uca görmək istəyən yazıçı dastanlarmıza nəzər salaraq yazdığı əsərləri bizlərə çatdırmaq istəyir. Şair "Koroğlu" dastanında olduğu kimi, Azərbaycan qadınlarını hər zaman qəhrəman kimi görmək istəyir. Görkəmli sənətkarın yaradıcılığını tədqiq etdikcə görürük ki, qadınların döyülüb, söyülmələri diqqət çəkir. Belə ki, şair "Qızlardan kişilərə protesto" şeirində bəşəriyyətə çatdırmaq istəyir ki, tanrı qadınları qul yaratmayıb və bununla qadın azadlığını bəşəriyyətə bildirmək istəyir:

Qız döyülür, qız söyülür hər zaman;
Oldu qızın halı yamandan yaman!
Bəsdir daha, ay kişilər, əlaman!
Bizdə qala can çətindir, çətin! (2, 244)

Yazıçı Azərbaycan qadınlarını təhsilli, azad, hüquqları əlindən alınmayan, özlərini qoruya biləcək durumda görmək istəyirdi. Azərbaycan qızlarının cəmiyyətdə alçaldılmasına qarşı çıxırdı və zavallı qızların çəkdiyi iztirablardan, tökdükləri göz yaşlarından, xoşbəxtlikdən məhrum olunmaqlarından narahat olduğunu ustalıqla təsvir etmişdir:

Biz nə qədər səbr eləyək zillətə,
Cövrü cəfavü ələmü möhnətə?
Haydı, qadınlar, çataq hüriryyətə!
Qalsa bu dövran, çətindir, çətin! (2, 245)

Cəmiyyətin qadına mənfi münasibətlərini tənqid edərək, onları öz hüquqlarını müdafiə etməyə çağırırdı. Cəfər Cabbarlı yaradıcılığında mərkəzi yerlərdən birini tutan qadın hüququnu tapdalayanlara qarşı mübarizənin kəskinliyi bütün dövrlər üçün aktualdır. Dünya şöhrətli tanınmış rus yazıçısı Lev Tolstoyun qadınlarla bağlı aforizimini qeyd etsək yerinə düşər: "Qadın elə bir mövzudur ki, onu nə qədər araşdırırsan araşdır, hər vaxt yenidir".

Cəfər Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatında Azərbaycan qadınlarının düşdüyü uçurum, əhatə olunduğu qaranlıq mühitinin təsviri baxımından ən dəyərli nümunələrdir.

QAYNAQLAR:

1. Azərbaycan dastanları. IV cild. Koroğlu. Bakı, "Lider nəşriyyatı", 2005.
2. C.Cabbarlı. Əsərləri, 4 ciliddə. 3-cü cild. Bakı, Yazıçı, 1984, 327 səh.
3. Heydər Əliyev irsi və Azərbaycan folklorşünaslığının aktual problemləri. Bakı: "Nurlan", 2013, 192 səh.
4. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı: "Öndər" nəş., 2004, 376 s.
5. Nəğmələr, inaclar, alqışlar... Bakı: "Yazıçı", 1986, 213 səh.

MÜNDƏRİCAT

I BÖLMƏ. Heydər Əliyevin folklorla bağli sərəncam və çıxışlarından örnəklər..... 6
II BÖLMƏ. Heydər ƏLİYEVİN dil, ədəbiyyat və mədəniyyət siyasəti..... 59
İsa HƏBİBBƏYLİ. Xalq mədəniyyətindən azərbaycançılığa..... 60
Muxtar KAZIMOĞLU-İMANOV. Heydər Əliyev siyasi kursunda xalq mədəniyyətinin yeri..... 62
Eynulla MƏDƏTLİ. Heydər Əliyevin xalq mədəniyyətinə münasibətinin fəlsəfəsi..... 67
Əziz ƏLƏKBƏRLİ. Heydər Əliyev və Qərbi Azərbaycan folkloru..... 73
Ramazan QAFARLI. Bədii söz sənətinin, Azərbaycan-Türk mif və folklor irsinin araşdırılmasında və təbliğində Heydər Əliyevin rolu.....77
Sərxan XAVƏRİ. Heydər Əliyevin milli dövlət quruculuğu siyasəti qlobal sosial tərəqqi modeli kontekstində.....93
Ağaverdi XƏLİL. Heydər Əliyev və mərasim mədəniyyəti.....99
Afaq MUSTAFAYEVA. Heydər Əliyev və Azərbaycan xalçaçiliq sənəti.....104
Akifə XƏLİLOVA. Heydər Əliyevin bayram təbrikləri.....110
Aydın MUSTAFAYEV. Qarabağin sosial-iqtisadi inkişaf konsepsiyasi (1969-1982-ci illər) 116
Ayətxan ZİYAD (İSGƏNDƏROV). Heydər Əliyev: milli kimliyimizin qürur ünvani.....122
Aytən CƏFƏROVA. Heydər Əliyev və xalq mədəniyyətinə yaşil işiq.....129
Əpoş VƏLİYEV. Heydər Əliyev və Novruz bayramı.....137
Əsəd QULİYEV. Ulu Öndər və təsviri sənət 143
Xəyalə AĞAYEVA. Heydər Əliyev və Hüseyn Cavid.....150
Kəmalə ATAKİŞİYEVA. Heydər Əliyev siyasi kursunda xalq musiqisi məsələləri.....155
Mahir CAVADOV. Hər zaman heyrətləndirməyi bacaran Lider…….....….....…164
Nigar HƏSƏNOVA. Heydər Əliyev və dil siyasəti.....169
Nübar HƏKİMOVA. Heydər Əliyev: Öndər ömrünün şanli salnaməsi.....175
Salidə ŞƏRİFOVA. İbrahim Yusifoğlunun “O, günəş ömrüdü, sönməyəcəkdir” poemasında Heydər Əliyevin bədii obrazı.....180
Sevda QASIMOVA. Heydər Əliyev və azərbaycançılıq ideyaları.....189
Sevinc ƏLİYEVA. Heydər Əliyev: Milli-tarixi yaddaş və ədəbi proses.....196
Səbinə İSAYEVA. Aşıq Şəmşirin şeirlərində Heydər Əliyev obrazı.....205
Şakir ALBALIYEV. Dövlətimizin xilaskarı və qurucusu.....211
Şəbnəm MƏMMƏDOVA. XX əsr Azərbaycan ədəbiyyati Heydər Əliyevin dəyərləndirməsində.....215
Şəhla HÜSEYNLİ. Heydər Əliyev və Qərbi Azərbaycan toponimləri.....221

III BÖLMƏ. Tarixi sözlər işığında.....228
Leyla MƏMMƏDOVA. Mirzə Fətəli Axundzadə dramaturgiyasi və xalq dastanları 229
Aygül QURBANOVA. "Kitabi-Dədə Qorqud"dakı nəsr parçalarında ritm və intonasiyanın rolu.....238
Elmira BABAYEVA. İsi Məlikzadənin "Şehli çəmənlərin işiği" hekayəsində milli-mənəvi dəyərlərin bədii ifadəsi.....244
Gülnar OSMANOVA. Hüseyn Cavid: Milli və bəşəri ideallar şairi.....252
Qumral MİRZƏYEVA. Naxçıvanda toy adətləri.....261
Mahir QƏRİBOV. Əhməd bəy Ağaoğlunun mətbu fəaliyyətində milli-mənəvi dəyərlər və mədəniyyət konsepsiyası.....269
Mətanət XƏLİLOVA. "Kitabi-Dədə Qorqud" dastanında yurd obrazı və yurdçuluq düşüncəsi.....274
Nizami ADIŞİRİNOV. Hüseyn Cavidin "Səyavuş" faciəsində obrazların mifopoetikası.....282
Sevinc HÜSEYNOVA. Qərbi Azərbaycan və Naxçıvanda haxıştalar.....300
Sürəyya ƏLİZADƏ. Misirdə kölgə oyunları.....308
Tahirə VƏLİYEVA. Şifahi və yazılı ədəbiyyatımızda qadın azadlığı mövzusu.....314

Heydər Əliyev və Azərbaycan xalq mədəniyyəti
Bakı, Elm və təhsil, 2023.

Nəşriyyat direktoru:
Mahir Cavadlı

Korrektorlar:
Xuraman Kərimova
Elnarə Əmirli
Xalidə Məmmədova
Nigar Həsənova
Şəhla Hüseynli

Kompüterdə yığdı:
Günay Oruczadə

Kompüter tərtibçisi və dizayner:
Ləman Abduxalıqova

Kağız formatı: 60x84/8
Mətbəə kağızı: №1
Həcmi: 324 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır deopozitivlərdən çap olunmuşdur.